İki Şah, İki Sultan

TRİLOGİYA

# ÇALDIRAN YOLU

3

Hüseynbala Mirələmov

BAKI 2020



**HÜSEYNBALA MİRƏLƏMOV**

# İKİ ŞAH, İKİ SULTAN
**(trilogiya)**

# ÇALDIRAN YOLU

***Üçüncü kitab***

Redaktorlar:
İSLAM QƏRİBLİ
SEVİNC MÜRVƏTQIZI

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 344 s.

Türk dünyasının iki qüdrətli fatehi, söz və hərb meydanının cahangirləri – Şah İsmayıl Xətai və Yavuz Sultan Səlim arasında baş verən Çaldıran döyüşü sadə bir savaş deyildi. Bu, əslində heç bir tərəfin qalib olmadığı, bütövlükdə türk dünyasının məğlubiyyəti və faciəsi sayılacaq qanlı qardaş qırğını idi. «Çaldıran yolu» romanında bütün türk dünyasına ibrət olan bu fəlakətli tarixi dönəm zəngin ədəbi ümumiləşdirmələrlə, real bədii təsvirlərlə qələmə alınmışdır.

ISBN: 978-9952-528-57-2

© H.Mirələmov, 2020

*«Qardaş qardaşı mərdanə vurdum*
*deyən yalan söylər...»*

Şah İsmayıl Xətai

* * *

*«Sanma şahım hər kəsi sən*
*sadiqanə yar olur...»*

Yavuz Sultan Səlim

*İki qardaş türk xalqının,*
*islam ümmətinin qanıyla suvarılan Çaldıran*
*Allahın ümidinə qalmışdı…*
***Müəllif***

Dan üzü təzəcə qızarmışdı. Yayın qorabişirən günü başlamamış, Qızılbaş qoşununa hərəkət əmri verildi. Onsuz da qoşun əhli iki günlük istirahətdən sonra vəziyyətə uyğun tam hazır idi.

Hüseyn bəy Lələ Şamlı İsmayıl Mirzə üçün ilxıdan seçib ayırdığı köhlənlərə nəzər yetirdi. İki atı göstərib, yaxına çəkməyi tapşırdı. Atlardan biri ağappaq süd rəngində idi, digəri isə sarı-qızılı rəngə çalan kürən, alnının qaşqası, dörd ayağının səkili ilə seçilən Qarabağ cinsiydi. Təbrizəcən qalan yolu Qarabağ atının üstündə getməsi üçün İsmayıl Mirzənin önünə çəkdi. Gənc İsmayıl isə ağ köhləndən nəzərlərini ayırmırdı.

– Fəda olum sənə, hələ xeyli yol var, ağ atın üstündə yorularsan, bu Qarabağ cinsi yorğadı, səni incitməz, – Hüseyn bəy Lələ Şamlı yüyənindən tutduğu köhləni İsmayıl Mirzənin önünə çəkdi, – bir bax, gör sənə necə yaraşır, elə bil Tanrı qələmlə çəkib, – dedi.

Həqiqətən Qarabağ atı gözəlliyi ilə göz oxşayırdı.

Hüseyn bəy Lələ Şamlı həmişə işini ehtiyatlı tutardı. Üzü Təbrizə doğru hərəkət boyu həmişə iki kəhəri hazır saxlayır, şahanə libasla bəzəyir, İsmayıl Mirzə birinə süvar olanda, digərinə də elə həmin qiyafədə olan bir gənci əyləşdirirdi. Kənardan baxanda kimsə fərqləndirə bilmirdi ki, İsmayıl Mirzə hansı ata süvar olub. İsmayıl Mirzə Qarabağ köhləninin belinə qalxmamış Hüseyn bəy Lələ Şamlı astaca onun qulağına pıçıldadı:

– Canım sənə fəda, nigaran qalma, Təbrizə çatanda atı dəyişəcəksən. Hələlik belə məsləhətdi.

…İsmayıl Mirzə atasını vaxtsız itirəndən bəri onun təlim-tərbiyəsi ilə Hüseyn bəy Lələ Şamlı məşğul olmuşdu. Gözünü açandan bəri onun bir sözünü də çevirməmiş, bütün məsləhətlərini sidq-ürəklə qəbul eləmişdi. İndi də ləläsinin sözlərinə etiraz eləmədi. Bəlkə də bu işləri Hüseyn bəy Lələ Şamlının onun təhlükəsizliyi üçün gördüyünü sövq-təbii anlayırdı…

…Vaxtilə Ərdəbildən çıxanda, çox kiçik bir dəstə ilə yol başlayan İsmayıl Mirzə artıq hərəkətə gəlmiş sayı-hesabı bilinməyən Qızılbaş qoşununa qürurla baxırdı. Qarabağ köhləninin üstündə əyləşmiş gənc İsmayıl yay günəşinin şəfəqlərinin altında Qızılbaşların papaqlarındakı al qırmızı zolağı seyr elədikcə, sanki Tanrının möcüzəsilə yayın bu səhər çağında əlvan bir laləlik görür və bu çəmənzarın onun könlünə gətirdiyi duyğulardan bir az da fərəhlənirdi. Artıq ağ atın süvarisi də hazır idi. Hüseyn bəy Lələ Şamlı da öz atına minmişdi. Və İsmayıl Mirzənin böyründəydi. Digər Qızılbaş əmirləri də onların əhatəsində. Əmir Zəkəriyyə, Şəmsəddin Lahicani, Abidin bəy Davaçı Şamlı, Bayram bəy Qaramanlı və başqaları İsmayıl Mirzənin atını elə dövrəyə almışdılar ki, fələk bir ox atsaydı belə keçib İsmayıl Mirzəyə yetməzdi. Onlar Şeyx Heydərin bir vaxt ən sadiq müridləri olmuşdular. Əslində, Şeyx Heydərin atasının və babasının mənsub olduğu şiə təriqətinin daşıyıcılarıydılar. İsmayıl Mirzənin də yanına axın-axın gəlib qoşuna daxil olanlar elə həmin şəxslərin nüfuzunu əsas bilir-

dilər. Bu adamlar İsmayıl Mirzəylə şiə təriqəti arasında qırılmaz bir körpü idilər.

Hüseyn bəy Lələ Şamlı qabaqcadan kiçik bir bölüyü Təbrizə göndərmişdi. Onların arasında Şeyx Əli də var idi. Şeyx Əli hələ neçə il əvvəl kiçik İsmayılı Sultan Yaqubun təqibindən xilas etmişdi. O, Şeyx Heydərin etibarlı adamlarından sayılırdı. Məqsəd o idi ki, Təbriz əhlinin əhvalını öyrənsinlər. Onsuz da alınan məlumatlara görə Hüseyn bəy Lələ Şamlı da, elə digər əmirlər də yaxşı bilirdilər ki, çox ağır döyüşlərdən keçib, Təbrizə doğru yol başlayan İsmayıl Mirzənin Qızılbaş ləşkəri qarşısında orada davam gətirəcək müxalif bir qüvvə yoxdur. Az keçməmiş kəşfiyyat bölüyü geriyə qayıdıb xəbər gətirdi ki, Təbriz əhli başdan-ayağa bayram libasına bürünüb. Hamı intizarla İsmayıl Mirzənin gəlişini gözləyir.

Günortaya yaxın Təbriz məscidinin minarələri görünəndə Hüseyn bəy Lələ Şamlı əmirlə məsləhətləşməli oldu.

– Necə bilirsən, Əmir Zəkəriyyə, qurbanı olduğum elə mindiyi atla şəhərə daxil olsun, yoxsa…

O, sözünün gerisini gətirmədi. Əmir Zəkəriyyənin nə deyəcəyini gözlədi. Belə işlərdə onun tədbirli olduğunu yaxşı bilirdi. Əmir Zəkəriyyə əlini alnına qoyub ucu-bucağı görünməyən Qızılbaş qoşununun cərgələrini diqqətlə gözdən keçirdi. Sonra asta-asta dilləndi:

– Hüseyn bəy, sən çox ehtiyatlı adamsan. Nə üçün mürşidimizin varisini ağ ata mindirməməyinin səbəbini bilirəm. Düz eləyirsən, madam hər cür ehtiyat tədbiri görülübsə, İsmayıl Mirzə ağ atın üstündə şəhərə daxil olsa, yaxşıdır.

Onların yaxınlığında dayanmış Abidin bəy Davaçı Şamlı atını bir az irəli sürdü. Əmir Zəkəriyyənin böyründə dayanıb, əlini Təbrizə tərəf uzatdı.

– Bu şəhər Uzun Həsəndən bəri qeylü-qal içərisindədir. Adamlar cana doyub, Ağqoyunluların bir-birilə çəkişən varisləri onları

ağ günə çıxartmayıblar. Deyirəm, bəlkə, elə bu da Allahın bir rizasıdır ki, mürşidimizin varisi ağ köhlən üstündə Təbrizə varid olsun…

Nisbətən cavan Bayram bəy Qaramanlı da onun sözüylə həmrəy olduğunu bildirmək üçün başını razılıqla tərpətdi.

Hüseyn bəy Lələ Şamlının bircə işarəsi ilə kiçik dəstə atlarını kənara döndərdi. Hüseyn bəy Lələ Şamlı İsmayıl Mirzəyə işarə elədi. Və bu işarənin mənasını həm ağ atın üstündəki İsmayıl Mirzənin bənzəri olan gənc, eləcə də İsmayıl Mirzənin özü yaxşı başa düşdü. Və sanki heç nə dəyişməmiş kimi yollarına davam elədilər.

Yay günəşi günorta yerinə hələ çatmamış Qızılbaş qoşununun əvvəlcədən tapşırılmış bölmələri Təbrizin küçələrinə daxil olub, Həşt-behişt («Səkkiz cənnət») sarayını dövrəyə aldılar. Ayrı-ayrı meydanlarda, əhalinin sıx olduğu yerlərdə də Qızılbaş qoşununun alayları yerləşdirildi. Təbriz üləmaları, ağsaqqalları qoşunu hər yerdə xoşüzlə qarşıladı. Şəhərin sayılıb-seçilən hörmətli adamları İsmayıl Mirzənin önünə duz-çörək gətirdilər. Əslində, onlar İsmayıl Mirzənin bu adamlardan hansı olduğunu heç dəqiq bilmirdilər. Amma bilirdilər ki, əvvəllər Ağqoyunlu sarayının ən qüdrətli sütunlarından biri Şeyx Heydərin oğlu Qızılbaş qoşunun başında sərkərdə kimi Təbrizə daxil olub.

Yaxın keçmişdə Şeyx Heydərin qoşununda qılınc çalmış, ancaq indi qocalıb qolu kirdardan düşmüş Ucal xan Təbriz ağsaqqallarının arasından irəli çıxdı.

– Neçə vaxt idi, bizim günəşimiz batmışdı. Biz öz günəşimizin doğmasını gözləyirdik. İndi Xudanın kəreminə şükür olsun ki, günəşimiz qaranlıqları yarıb, üstümüzə işıq salmaqdadır.

Hüseyn bəy Lələ Şamlı Ucal xanı çoxdan tanıyırdı. Əslində, onlar bir vaxt ən təhlükəli döyüşlərdə birgə vuruşmuşdular. Ucal xan da Hüseyn bəy Lələ Şamlını və elə digərlərini də tanımışdı. Amma hökmranlıq qanunlarına əsasən o, qaydaları gözləyir,

irəliyə gəlmirdi. Hüseyn bəy Lələ Şamlı Ucal xanı süzdü. Onun qocaldığını görürdü, ağarmış saçları, bir zaman qılıncı ilə qalxanları yaran bu döyüşçünün görkəmini xeyli dəyişmişdi. Yalnız qırğı baxışlarından keçmişdə kim olduğunu sezmək çətin deyildi.

– Ucal xan, Allah Təbriz əhlini var eləsin! Sənin kimi müdrikləri də Tanrı qorusun. Görürəm, sən də, Təbriz camaatı da Şeyx Heydərin haqqı-sayını unutmayıbsınız. İndi nə məsləhət görürsən?

Təbriz üləmaları, ağsaqqaları, elə Ucal xan da bir ağızdan dilləndilər:

– Qədəmləri mübarək olsun!

– Mürşidimizin varisi bizə işıq gətirdi. Buyurun, Həşt-behişt sarayına.

İsmayıl Mirzə sarayın qarşısında atından endi. Hələ yüyəni əlindən buraxmamışdı. Qaşqa başıyla onun kürəyini sürtələdi. İsmayıl dönüb baxdı. Sanki at gözəgörünməz bir hissin təsirilə İsmayıl Mirzəyə xeyir-dua verirdi. İrəli, inamla saraya girməyini istəyirdi. Qabaqda və yanında əmirlər, Şeyx Heydərə yaxın olan keçmiş döyüşçülər, Hüseyn bəy Lələ Şamlı da İsmayıl Mirzəyə bənzəri olan gənclə onun arasında sarayın pillələrinə yaxınlaşdılar. Təbriz varlıları şahzadənin ayağının altına tabaq-tabaq qızıl səpdilər. Ayrı-ayrı şəxslərin adından ardı-arası kəsilmədən bahalı xələtlər verilir, adamlar heyrətamiz coşquyla İsmayıl Mirzənin gəlişi naminə Allaha dualar eləyirdilər.

Təbrizin yayı tez gəlmişdi. Hava isti idi, amma insanlar öz sevinclərini bölüşmək üçün çəkilib getmək istəmirdilər. Hər kəs İsmayıl Mirzənin gəlişinə sevincini bildirmək, onun adına gətirdiyi hədiyyəsini təqdim etmək üçün növbəyə durmuşdu. Qabaqcadan Hüseyn bəy Lələ Şamlı ilə qərarlaşdırıldığı kimi sarayda qayda-qanun yaradılmağa başlandı. Çevik Qızılbaşlardan kiçik dəstələr mühafizə yerlərini tutdular. Bayram bəy Qaramanlı Hüseyn bəy Lələ Şamlıya təklif elədi:

– Elə indi məqamıdır, İsmayıl Mirzə gərək özünü şah elan eləsin.

Hüseyn bəy Lələ Şamlı əlilə ona bir qədər təmkinli olmağa işarə elədi. Uzun illər İsmayıl Mirzənin elmlərə yiyələnməsində ustadı olmuş Şəmsəddin Lahicanini yaxına çağırdı və:

– Şəmsəddin xoca, əsas təntənəni nə vaxt başlayaq? – soruşdu.

Şəmsəddin Lahicani əlini saqqalına çəkdi, ani bir sükutdan sonra cavab verdi:

– Ən böyük təntənə əslində başa çatıb, Təbriz əhli İsmayıl Mirzəni qaranlıqda qalmış işıq həsrətliləri kimi qarşıladı. Bir qədər səbirli olmaq məsləhətdi, qoy rəmmallar da bir ulduzların gedişatını izləsin, biz də ötən vaxt ərzində Təbriz camaatı arasında düşmən qüvvə olub-olmadığını görərik. Onsuz da bədxahlar çox gizlənməzlər. Necə ki, hələ İsmayıl Mirzəni şah kimi görmürlər, cəsarət eləyib üzə çıxa bilərlər.

Hüseyn bəy Lələ Şamlı gülümsündü, əslində, o özü də elə belə düşünürdü. Lakin Bayram bəy Qaramanlını sakitləşdirmək üçün vəziyyətin aydınlaşmağını istəmişdi.

Bir həftə ərzində şəhərdə çal-çağır davam elədi. Əmirlər dəstə-dəstə gələn şəhər əhlinin nüfuzlu adamları ilə məsləhət-məşvərət etdilər. Doğrudur, Qızılbaşların şiəliyi digər təriqət adamları, xüsusilə də qatı sünnilər arasında mübahisələr yaradırdı. Sünni təriqətinin tərəfdarları narahatlıqlarını ifadə edir, ötən bir neçə gün ərzində Qızılbaşlardan da onlara təhdidlər olduğundan şikayətlənirdilər.

Hüseyn bəy Lələ Şamlı dərhal münasibət bildirmişdi:

– Mən hər kəsin narahatlığını yaxşı başa düşürəm. Çox az vaxt keçəcək, görəcəksiniz ki, arada heç bir ixtilaf yoxdu, biz din qardaşıyıq. Heç nədən nigaran qalmayın.

...1501-ci ilin iyul ayının isti günlərindən biri idi. Göy üzü tərtəmiz maviliyə bürünmüşdü. Səhər günəşi aləmi nura qərq eləmişdi. Carçılar şəhərin hər bir tərəfinə yayılıb, bu gün xütbə

oxunacağı haqqında xəbərlər verdilər. İsmayıl Mirzənin ən yaxın adamları – əslində, bunlar Şeyx Heydərin yaxın adamları idi, elə səhərin sərin çağında bir araya gəldilər.

– Bu gün xoş gündür. Qurbanı olduğumuzun qədəmlərinə elə bu gün mübarək deyək, – Şəmsəddin Lahicani üzünü əmirlərə tutub, sanki gülər üzü, işıqlanmış gözlərilə qeybdən xəbər gətirirmiş kimi dilləndi.

Hüseyn bəy Lələ Şamlının göstərişilə Uzun Həsənin taxtı geniş divan otağının baş tərəfinə qoyuldu. Hamı ayaq üstəydi. İsmayıl Mirzə saraydakı hücrəsindən çıxıb, inamlı addımlarla əmirlərin önündən keçdi.

İsmayıl Mirzə əvvəllər Uzun Həsənə məxsus olan şah taxtına əyləşdi. Hamı bir ağızdan səsləndi:

– Allah mübarək eləsin!

Təbriz məscidlərində rəvan səslərlə xütbələr oxundu.

* * *

…İsmayıl Mirzə şahlıq taxtına əyləşdi. Böyük Ağqoyunlu səltənətinin şahı Uzun Həsənin taxtında oturmasıyla çiyinlərinə çökən möhtəşəm bir yükün ağırlığı altında sıxıldı. Amma bu, bir an çəkdi. Dərindən nəfəs aldı, fərəhlə ona baxan əmirlərini bir-bir nəzərdən keçirtdi. İgid sərkərdələrindən bəziləri onların arasında yox idi, çünki onlar bir neçə ay əvvəl Əlvənd Mirzəylə qarşılaşmada həlak olmuşdular. İsmayıl Mirzənin ürəyi sıxıldı. Qəhrəman silahdaşlarının orada olmaması qəlbini göynətdi. Əgər Əlvənd Mirzənin taxtgirliyi olmasaydı, heç o azman igidlər də döyüşdə öldürülməzdi…

İsmayıl Mirzə heç indiyə qədər belə hiss keçirməmişdi ki, taxttaca sahib olasan və onun ağırlığını bundan sonra duyasan. Düşüncələr onu, deyəsən, bu aləmdən qoparmağa çalışır, xəyalını müxtəlif tərəflərə çəkirdi: «Taxta əyləşmək bəlkə də bəxt işidir, bir bacarıqsız, bəlkə heç ağlı yerində olmayan bir kimsə də təsadüfən

taxt-tac sahibi ola bilər. Əsas odur ki, taxt-taca sahib olandan sonra onu qoruya biləsən. Bəli, taxt-tacı qorumaq şəxsin ancaq özünün ağlı və bacarığı sayəsində mümkün ola bilər». İsmayıl Mirzənin xəyalından keçənlər buraya qədərki həyatını gözlərinin önündə canlandırırdı. Əslində onun xəyalının belə cövlan etməsi və bir qədər də kədərqarışıq hisslər keçirməsi Qarapiri bəy Qacarın indi bu yerə-göyə sığmayan əmirlərin arasında olmaması ilə bağlı idi… İsmayıl Mirzənin Təbriz taxt-tacına gələnə qədərki yolu çox qanlı-qadalı səfərlərdən keçmişdi. Şirvanda Gülüstan qalasını neçə ay mühasirədə saxladı. Amma xəbər gəldi ki, Əlvənd Mirzə çox böyük qoşun hazırlayıb və özünü də babası Uzun Həsənin varisi elan edib. Xəbərləri yoxlayıb doğruluğuna əmin olandan sonra İsmayıl Mirzə ağıllı əmirlərinin hamısını yanına çağırdı. Hüseyn bəy Lələ Şamlı, Məhəmməd xan Ustaclını, Əbdi bəy Şamlını, Abdal bəy Dədəni, Xadim bəy Xüləfanı və əlbəttə ki, Qarapiri bəy Qacarı… Ciddi məsələlərin müzakirəsini İsmayıl Mirzə əsasən bu əmirlərin iştirakı ilə aparardı. Həm də müzakirə vaxtı Hüseyn bəy Lələ Şamlı onun sağ böyründə, qabaq-qənşər tərəfdə isə Qarapiri bəy Qacar oturardı.

– Siz təkid edirsiniz Gülüstan qalasını almamış geri çəkilməyək. Bu sıldırım qayaların başında qərar tutmuşlara həmlə etmək mümkün deyil. İndi bu dağın ətəyində nə qədər vaxt itirəcəyik. O yandan Əlvənd Mirzə qüvvə toplayır, yəqin bizim Təbrizə gedən yolumuzu kəsmək planı hazırlayır…

Əmirlərdən heç biri dillənməmişdi. Yenə Qarapiri bəy Qacar boğazını arıtlayıb sözə başlamışdı:

– Canımız sənə fəda olsun. Sənin atan və baban bu yerlər uğrunda döyüşlərdə həlak olub. İndi biz buradan geri çəkilsək, Əlvənd Mirzə bunu məğlubiyyət hesab edəcək və ağzında şirə qalacaq. Digər əyalətləri də üstümüzə qaldırmağa cəhd edəcək.

İsmayıl Mirzə Qarapiri bəy Qacara çox böyük ehtiram göstərərdi. Çox vaxt onun sözünü kəsməz, məsləhətlərini qəbul edərdi.

İndi Qarapiri bəy Qacarın belə deməsi və digər əmirlərin də susmaqları ilə onunla razı olduqlarını görəndə, gənc qəlbi cuşa gəldi. Oturduğu hündür daşın üstündən ayağa qalxdı. Düz Qarapiri bəy Qacarın yanına gəldi.

– Siz istəyirsiniz ki, bu Gülüstan qalasını alaq, amma əvəzində bütün Azərbaycanı əldən verək getsin, – İsmayıl Mirzə əmirlərinin dinmədiyini görüb səsini bir az da qaldırdı. Bu dəfə hamını bir-bir nəzərdən keçirib, sual elədi; – Bəlkə Əlvənd Mirzə ilə qarşılaşmaqdan qorxursunuz?

Qarapiri bəy Qacar çox sınaqlardan çıxmışdı. Çox ölümlərlə üz-üzə gəlmişdi. Hətta bir dəfə sinəsini İsmayıl Mirzənin atası Şeyx Heydərin köksünə tuşlanmış nizənin də qabağına vermişdi. Xoşbəxtlikdən nizə sol böyründən cüzi xətər verərək keçmişdi. Bütün bunları İsmayıl Mirzə də, digər əmirlər də yaxşı bilirdi. Həm də Qarapiri bəy Qacar yaşca digər əmirlərdən böyük idi. İri, şaqqalı görkəmi vardı. Saçı-saqqalı ağarmışdı, amma hələ də qolu təpərdən düşməmişdi. Atın üstünə bir yeniyetmə cəldliyilə sıçrayırdı.

– Canımız fəda olsun mürşidimizin əziz övladına. Heç özümü demirəm. Burada olan əmirlərin heç birisi sənin yolunda vuruşmaqdan çəkinməz. Qanımız bu yolda halaldır. Madam ki, belə məsləhətdir, onda biz də hazır.

Qarapiri bəy Qacar sözünü bitirən kimi Məhəmməd xan Ustaclı dilləndi:

– Belə başa düşmək olar ki, Gülüstan qalasının ətəklərində vaxt keçirmək həqiqətən fənadır.

Digər əmirlər də Məhəmməd xan Ustaclının sözündən sonra İsmayıl Mirzə ilə razı olduqlarını bəyan etdilər. Şirvanda asayişi qorumaq üçün müəyyən qədər qüvvələr saxlayıb, üzü Kür çayına tərəf hərəkət etdilər. Qoşun Kürü keçəndən sonra çaparlar xəbər gətirdilər ki, Əlvənd Mirzə Naxçıvana yetişməkdədir. Özü də can atır ki, İsmayıl Mirzə ilə elə Kür qırağında qarşılaşsın, amma onun

xəbəri yox idi ki, İsmayıl Mirzənin qoşunu Kürü adlayıb, artıq Naxçıvana hərəkət etməkdədir.

…Əlvənd Mirzə otuz minlik qoşun cəm eləmişdi. O, bu qüvvəylə İsmayıl Mirzəni tamam sıradan çıxartmaq, onun Qızılbaş qoşununu sonuncu nəfərinədək qılıncdan keçirmək niyyətindəydi. Yazın axırları olsa da, Naxçıvanda hava bərk isti idi. Artıq qarşılaşma üçün çox az vaxt və məsafə qalmışdı. Əlvənd Mirzə on min nəfərlik alayı ayırıb İsmayıl Mirzənin üzərinə göndərdi. İstəyirdi, bütün qoşunu döyüşə cəlb eləməsin. Üstəlik, həmin on min nəfərlik ordu İsmayıl Mirzənin bütün ordusundan sayca üstün idi.

Naxçıvan ətrafında İsmayıl Mirzə yenə müşavirə çağırdı. O, artıq Əlvənd Mirzənin planını bilirdi. Məhəmməd xan Ustaclının və Xadim bəy Xüləfanın məsləhətilə o da çevik bir dəstəni ayırıb, Əlvənd Mirzənin döyüşə girməyə hazırlaşan qoşunlarının qabağına çıxarmaq üçün təlimatlandırdı.

İsmayıl Mirzə yenə üzünü əmirlərə tutdu:

– Bu dəstəyə kim başçılıq edəcək?

Birinci Qarapiri bəy Qacar dilləndi:

– Əgər gözümüzün nuru izin versə, bu dəstəyə mən özüm başçılıq edərəm.

İsmayıl Mirzə razılaşmaq istəmirdi. Qarapiri bəy Qacarın yaşını nəzərə alıb, onu yanında saxlamağa çalışırdı. Amma Qarapiri bəy Qacar təkid elədi:

– Mənim Əlvənd Mirzə ilə köhnə haqq-hesabım var. Bir vaxt onun nizəsi mənim yanımdan keçib. İndi onu özüm qarşılayacağam, qisas qiyamətə qalmaz.

Bu təkidlərdən sonra İsmayıl Mirzə razılaşmalı oldu. Daha cavan bir sərkərdəni ona köməkçi verdi. Bu, İlyas Halvaçıoğlu idi.

Əlvənd Mirzə orduda keçmiş döyüşlərilə şöhrət qazanmış Osman bəyi meydana göndərmişdi. Osman bəy qoşununu iki hissəyə ayırmışdı. Birinə oğlu Məhəmməd bəy başçılıq edəcəkdi.

Məhəmməd bəy fəndgirliyi ilə şöhrət tapmış atası Osman bəydən çox şey öyrənmişdi. O, qoşunlarını geriyə çəkib İlyas bəyə arxadan hücum etməyi qərara aldı. Amma Halvaçıoğlu onun istəyini vaxtında başa düşdü və Məhəmməd bəyi qarşılamağa hazır oldu. Bu tərəfdən də Qarapiri bəy Qacar vaxt itirmədən birbaşa Osman bəyin düşərgəsinə hücum çəkdi.

Qarapiri bəy Qacar döyüş ustası idi. Onun ən ağır savaşlarda sürətli manevr etməsi, döyüşün ağırlıq mərkəzini tez-tez dəyişməsi həmişə düşməni çaş-baş salırdı. Bu dəfə də belə oldu. Osman bəy Qarapiri bəy Qacarı gözləyirdi. Qəflətən Qarapiri bəy Qacar istiqaməti dəyişdi, ox məsafəsindən yayınıb Osman bəyi iki yandan həmləyə götürdü. O yandan İlyas bəy Halvaçıoğlu Məhəmmədin üç minlik dəstəsini pərən-pərən saldı. İki min nəfərlik Ağqoyunlu döyüşçüsü həlak oldu. Məhəmməd bəyi isə qətlə yetirmək məqamına az qalmış o, yaxın adamları ilə qaçıb aradan çıxdı. İlyas bəy onu təqib etmək istəyirdi, bu biri tərəfdən Osman bəyin qoşunu Qarapiri bəy Qacarın qoşununa müqavimət göstərirdi. Ona görə də İlyas bəy Qarapiri bəyə kömək eləmək üçün dəstəni geri çevirdi. Bu vaxt yaranmış ani qarışıqlıqdan istifadə edən Məhəmməd bəy Qarapiri bəy Qacarı ağır yaraladı.

Qarapiri bəy Qacar kimi bir sərkərdənin yaralanma xəbəri Qızılbaş qoşununda müvəqqəti çaşqınlıq salacaqdı. Amma yaxında olan Halvaçıoğlunun nərəsi bu təhlükəni aradan qaldırdı. Qarapiri bəy Qacar özünü təhlükəsiz bir tərəfə çəkdi. Halvaçıoğlunun cəsarətli hücumu ilə Osman bəy məğlub oldu və əsir alındı. Bu döyüşdə ümumən beş min Ağqoyunlu əsgəri həlak oldu. Qızılbaşlar da xeyli itki verdilər.

Əlvənd Mirzə Qızılbaş qoşununa qalib gələ bilməyəcəyini görüb geri çəkildi. Bununla da İsmayıl Mirzənin Təbrizə gedən müzəffər yolu açıldı. Əlvənd Mirzə sakitləşmək bilmirdi. Zülqədər xanla müqavilə bağlayıb, yenidən qüvvələrini cəmləşdirməyə başladı. O, İsmayıl Mirzəyə hər vəchlə qalib gəlmək, onu məhv

etməkdən əl çəkmirdi. Amma döyüşə girməyə də hələlik cəsarəti çatmırdı. Ona görə də İsmayıl Mirzəyə namə yazdı: «…Nə üçün biz sənə kömək etməyək və baxmayaraq ki, sənin etdiyin bu hərəkət qohumluq hərəkəti deyil. Qohumluq əlaqələrinə görə biz səninlə müharibə etmək istəmirik. Fərrux Yasar şahı qəddarlıqla qətlə yetirdin və Şirvan vilayətini qəsb etdiyin üçün biz də Ərdəbil vilayətini sənə bağışladıq. Başqa vilayətlər çoxdur və hansı tərəfə istəsəniz, gedə bilərsiniz. Əgər sizin işlərinizə ziyan yetsə, xəbər edin, köməyinizə yollanaq. Bu sözləri bizim zəifliyimiz və güzsüzlüyümüz saymayın. Mən sülhü müharibədən daha yaxşı bilirəm. Əgər qürurunuz sülh yolunu tutmağa imkan verməsə, sizin istəyinizcə olsun. Biz də iyirmi min nəfəri hazırlamışıq. Allahtəala tərəfindən nə gələrsə, razı olarıq və şükür edərik».

İsmayıl Mirzə Əlvənd Mirzənin məktubunu oxudu. Əmirlərin iştirakı ilə namə müzakirə də edildi. Nəinki əmirlər, elə İsmayıl Mirzənin özü də Əlvənd Mirzənin keçirdiyi təlaşı onun yazdığı məktubundan yaxşıca anlayırdı. Heç Əlvənd Mirzəyə cavabı gecikdirmədi də. O da özünü Ağqoyunlu sultanı adlandıran Əlvənd Mirzəyə aydın bir cavab göndərdi: «Uzun Həsənin övladlarından Şeyx Səfi övladlarına səbəbsiz yerə çoxlu ədəbsizlik, hörmətsizlik və mürvətsizlik yetmişdir. Bununla belə yetişmiş bütün bu əziyyətlərə baxmayaraq, biz atamızın və babamızın qanından keçdik. Mənim səltənət və padşahlıq iddiam yoxdur. İstəyirəm ki, Həzrət Əli Əleyhissalamın dinini yayım və nə qədər ki, bədənimdə can vardır, Allah, onun rəsulu və müqəddəs din yolunda qılınc çalacağam, ta ki, haqq öz yolunu tutsun. Doğru sədaqət və etiqadla Həzrət İmamın ətəklərinə əl uzatmaqla dildə «Əliyən Vəli-ullah» kəlməsi səsləndirib, hər iki dünyanın səadətini kəsb etməklə padşahlar arasında səadət məkanına yol tapasan. Sonra hər vilayəti fəth etsəm, sənin adına sikkə vurulacaq, adına xütbə oxunacaq və səni böyük qardaşım hesab edəcəyəm. Əgər bunun səadətliyini anlamasan, onda istəyincə olsun, meydana

gəlsən, günahsız qardaşımın qanını səndən alacam. Sonrasını özün bilərsən. Hansına razısansa, bizə məlum et. Vəssalam».

…Bütün bunlar artıq olub keçmiş və İsmayıl Mirzə gəlib Təbriz taxtına əyləşmişdi. Və bu olub keçənlər də Qarapiri bəy Qacarın təntənədə olmamasıyla bağlı onun yaddaşında canlanırdı. Qeyri-ixtiyarı səsləndi:

– Kaş ki, Tozqoparan da bizimlə birlikdə bu məclisdə iştirak edəydi…

Əmirlər yaxşı bilirdilər ki, «Tozqoparan» deyəndə, İsmayıl Mirzə Qarapiri bəy Qacarı nəzərdə tutur. Bəli, döyüşdə çevik hərəkətinə görə ona, «Tozqoparan» adı verilmişdi. İndi İsmayıl Mirzənin bir təskinliyi vardı ki, həmin igid Tozqoparan onun babasının məqbərəsində dəfn olunmuşdu.

Təbriz məscidlərindən xütbə səsləri göyə ucalırdı. İsmayıl Mirzə şah elan edilmişdi. Hamı şiə təriqətilə ibadətə çağırılırdı.

Hüseyn bəy Lələ Şamlı yuxarı baxdı. Göy üzündə dərin bir saflıq, təmizlik var idi. Təbriz sevinc içində qaynayırdı.

* * *

İsmayıl Mirzə şeyxin rəvan səslə oxuduğu xütbənin avazına diqqət kəsilmişdi. Xütbənin sonunda şeyxin dilindən Şah İsmayıl adını eşitməsi onun qəlbini qürurlandırdığı kimi, həm də kövrəltmişdi. Sanki ulu babası Şeyx Səfiəddinin ruhu ətrafında dolanırdı. Atası Şeyx Heydərin isə nurlu çöhrəsi gözlərinin qabağında idi.

Şah qılıncını sıyırdı, sağ əlilə başının üstünə qaldırdı. Elə bil bununla məscidin geniş həyətinə toplaşmış Qızılbaşlara və Təbriz əhlinə çatdırırdı ki, babalarının istək və arzularını yerinə yetirməyincə qılıncını qınına qoymayacaq. Ağqoyunlu səltənətini bir vaxt canı və qanı ilə hifz etmiş, bu səltənətin sərhədlərini xeyli genişləndirmiş Qızılbaş əcdadlarının tökülən qanları yerdə qalmayacaq, – Şah İsmayıl bunları xəyalından keçirirdi. Səssiz

surətdə onun eşqinə bura toplaşmış hər kəsə sevgi və məhəbbətini izhar edirdi, bildirirdi ki, onun yolu haqq yoludur. Dünən İsmayıl Mirzə idi, ancaq bu gün Şah İsmayıldır.

Hər tərəfdən səslər ucaldı:

– Mürşidimiz var olsun!

– Canımız sənə fəda!

– Bu gün əcdadlarının ruhunun sevinən günüdür. Şah İsmayılın taxtı-tacı əbədi bərqərar olsun!

Hüseyn bəy Lələ Şamlı mərasimin təhlükəsiz keçməsi üçün qabaqcadan hər cür tədbir görmüşdü. Qızılbaş əsgərlərindən çevik bir dəstəni şahın mühafizəsi üçün ayırmışdı. Qalan dəstələr də meydan boyu ara-ara düzülmüşdülər.

Hamı şiə təriqətinə, şiə etiqadına dəvət olunurdu. Şeyxin bu dəvəti səssiz keçmədi. Təbriz əhli arasında az miqdarda sünni təriqətini saxlayanlar yer-yerdən səs-küy qaldırdılar. Ancaq Qızılbaşların sıyrılmış qılınclarını gördükdə səslərini kəsdilər. Hər kəs çıxış yolunu Şah İsmayılın təriqətinə tabe olmaqda görürdü.

Hüseyn bəy Lələ Şamlı minarənin yuxarısında Şah İsmayılın yanında dayanmışdı. Meydanın ayrı-ayrı tərəflərində səs-küy qaldıranlara tərəf əlini uzadıb hökmdara ancaq özlərinin eşidə biləcəyi tərzdə məlumat verdi:

– Bunlar hələ də Əlvənd Mirzəyə ümid bağlayanlardır. Ancaq nigarançılığa əsas yoxdur, hər cür tədbir görülüb.

Gənc şah Lələsinin sözlərini diqqətlə dinləsə də, gözlərini meydandan çəkmirdi. Qızılbaşların aşıb daşan qəzəbini nəzərdən keçirib, hiss olunmayacaq bir tələşla fikrini bildirdi:

– Elə olsun, qan tökülməsin. Biz Təbrizə əmin-amanlıq gətirmişik. Adamlar görməlidirlər ki, bizim yanımızda olmaqla canlarını hifz edə bilərlər.

Hüseyn bəy Lələ Şamlı hökmdarın ağıllı və canıyananlıqla dediyi sözlərin dəyərini yaxşı başa düşürdü. Hökmdar ilk hakimlik taxtı günündə Təbrizdə qan axıdılmasını istəmirdi.

Sonra Qızılbaşların görkəmli əmirləri növbəylə danışdılar. Abdal bəy Dədə sözünə Şeyx Heydərin adı ilə başladı:

– Şeyx Heydər bizim mürşidimiz idi. O, öz əqidəsinin yolunda başını verməkdən çəkinmədi. Allah haqq yolunda canını verənlərin qanını yerdə qoymaz.

Abdal bəy Dədə çox şey dedi. Onun dediklərinin mənasını, mahiyyətini Səfəvi xanədanına sədaqətlə qulluq vədi təşkil edirdi. Şah İsmayılın yolunda canını verməyə hazır olan əmirlər də sanki öz çıxışları ilə itaət, beyət andı içdilər.

Nəhayət, Hüseyn bəy Lələ Şamlı, qabaqda hökmdar, arxasınca Xadim bəy Xüləfa minbərdən aşağı endilər. Yenə Təbriz cavanlarının alqışları göyə yüksəldi. Hökmdar öz əmirlərinin əhatəsində yenidən saraya qayıtdı. Onun xəyalı yenə az yaşında gördüyü möhtəşəm döyüş meydanlarının üstündə cövlan edirdi. Əslində Şah İsmayıl çox istəyirdi ki, bu günün əhvalı ilə yaşasın, ancaq meydanda Əlvənd Mirzə tərəfdarlarının qaldırdığı narazılıq sədaları onu bu haqda düşünüb-daşınmağa vadar edirdi. Şah İsmayıl istəsə də, istəməsə də sonuncu qanlı savaşı – Şərur düzündəki döyüşü yenə xatırlamalı oldu.

Şah İsmayıl hələ Təbrizə gəlməmişdən əvvəl Əlvənd Mirzəni inadla izləməkdə davam edirdi. O zaman Əlvənd Mirzənin kəşfiyyat dəstələri – əslində çoxminlik döyüşçülərilə qarşılaşma İsmayılın qələbəsilə başa çatmışdı. Ancaq Əlvənd Mirzə məğlubiyyətlə barışmaq fikrində deyildi. O, Məraş və Əlbistan tərəflərin hakimi Əlaüddövlə Zülqədər bəyin Şah İsmayıl şəcərəsinə kin və qəzəbinin kükrədiyini bildiyindən ondan kömək istədi. Zülqədər bəy də on min nəfərlik ordu ilə onun köməyinə gəldi. Beləliklə, Əlvənd Mirzənin hərbi qüvvələri yenə qədərincə güclənmiş oldu.

İsmayıl Mirzə hiss edirdi ki, Ağqoyunlu sultanı öz sərkərdəsi Osman bəyin məğlubiyyətindən sonra ruh düşkünlüyünə məruz qalıb. Və özünü tezliklə bərpa edə bilməz. Bəs bu hansı səbəbə mümkün olmuşdu ki, Ağqoyunlu sultanı təzədən özünü toparla-

yıb qara libasdan çıxa bilmişdi? Şərur döyüşündən əvvəl İsmayıl Mirzənin məxfi əmirləri arasında toplantısı oldu.

– Mən bilmək istəyirəm, hansı səbəbdən Əlvənd Mirzə təzədən döyüş iradəsi göstərmək istəyir?

Həmişə olduğu kimi birinci Hüseyn bəy Lələ Şamlı danışdı:

– Canımız sənə fəda olsun, mürşidimiz. Burada təəccüblü bir şey yoxdur. Əvvəla, Ağqoyunlu ərazilərinin çox böyük hissəsi yenə də Əlvənd Mirzənin və qardaşı Murad Mirzənin tabeliyindədir. İraqi – ərəbdən üzübəri Diyarbəkirə qədər farsın, Azərbaycanın gəliri onların sarayına axır. Onlar da bu gəlirdən mənfur hərbi niyyətlərini həyata keçirmək üçün istifadə etməyə çalışırlar. İsmayıl Mirzə Hüseyn bəy Lələ Şamlının sözlərini diqqətlə dinləyib, fikrini bildirdi:

– Yox, mənə elə gəlir ki, Ağqoyunlu varisləri belə asanlıqla bir-birilə dil tapa bilməzdilər. Onlar daha başqa haradansa güc alırlar. – İsmayıl Mirzə fikrini qəti qoymuşdu. Əmirlər bir-birinin üzünə baxdılar. İsmayıl Mirzənin sol tərəfində əyləşmiş Xadim bəy Xüləfa yerində qurcalandı. Hüseyn bəy Lələ Şamlı onun üzünə baxanda, demək istədiklərini bəri başdan anladı.

– Biz bəzi mətləbləri mürşidimizə vaxtından əvvəl deməyi məsləhət bilmirdik, ancaq iş ki, belə oldu, onda qoy özü hər şeyi bəri başdan bilsin. – Hüseyn bəy Lələ Şamlı Xadim bəy Xüləfanın razılıqla başını tərpətdiyini gördü və başa düşdü ki, əmirlər həqiqəti araya gətirməyin tərəfdarıdır.

Hüseyn bəy Lələ Şamlının işarəsilə Xadim bəy Xüləfa bir qədər aralıda məşvərətdən kənarda əyləşmiş mirzəni yaxına çağırdı.

– Sən Əlvənd Mirzəyə yazılmış naməni bura gətir.

Mirzənin baş endirib yerinə qayıtması və bir də əmirlərin yanına dönməsi üçün çox vaxt keçmədi. O, qara ipəyə bürünmüş nə isə gətirmişdi. Hüseyn bəy Lələ Şamlı aldı, qara ipəyi açdı. Kağız parçası idi. İsmayıl Mirzə maraqla baxırdı. Əslində, bu kağız parçasının nə olduğunu əmirlər bilirdilər, sadəcə bu namə haqqında

İsmayıl Mirzəyə döyüşdən sonra məlumat vermək istəyirdilər. Onlar fikirləşirdilər ki, burada yazılanlar İsmayıl Mirzənin əhvalına pis təsir edə bilər.

Hüseyn bəy Lələ Şamlı:

– Fəda olsun canımız sənə, mürşidimiz. Bu Osmanlı hakimi Sultan II Bəyazidin Əlvənd Mirzəyə məktubudur. Onun iqamətgahında olan adamlarımız məktubun əsas hissəsini köçürüb bizə çatdırıblar, – söylədi.

İsmayıl Mirzənin qaşları çatıldı. Maraqla kağıza baxdı və bircə söz dedi:

– Oxu, – sonra da yerini rahatlayıb, diqqətlə dinləməyə başladı.

Hüseyn bəy Lələ Şamlı aramla məktubu oxuyur, aradabir İsmayıl Mirzənin münasibətini bilmək üçün onun üzünə baxırdı: «Dövlət və dinin tacı, şanı uca olan alicənab əmim Qasimbəy (Cahangir bəyin oğlu Qasim nəzərdə tutulur. Cahangir Uzun Həsənin qardaşı, Əlvənd isə nəvəsi idi – mənbədən) və səltənətin hamisi cənab Cəlaləddin Murad bəyin (Uzun Həsənin nəvəsi Murad nəzərdə tutulur. Əmioğlu olan Murad və Əlvənd bir çox qarşıdurmadan sonra sülh bağlamışdılar. İraq və fars bölgəsi Muradın, Azərbaycan və Diyarbəkir isə Əlvəndin tabeliyində qaldı – mənbədən) – Allah səltənət xadimlərinə nisbətlə onların hər ikisinin qədir-qiymətini artırsın! Allah onun əzəmət və qüdrətini ucaltsın, düşmənlərin və xəyanətkarların hiyləsindən onu qorusun – müttəfiq olmaması haqqında yazdıqlarınızı öyrəndik. Xatırladıq ki, onların işığı parlaq bir çıraq kimi zülməti nurlandırmaqda faydalı olsa da, günəşin şöləleri qarşısında heç nədir. Zülmkar qızılbaş tayfasının – Allah onları məhv etsin – bədbəxtlik yağan qırmızı papağından dünyaya alov şölələri saçılır. Ruzbadeqan (?) atəşpərəstlər kimi qığılcımları firqəyə doğru istiqamətlənmiş, göy fitələrin bükülməsindən (burulmasından) dünyanı tüstüyə qərq etmiş və alovlu mil kimi o məmləkətdə ortaya çıxmışdırlar». Bu sözləri Sultan II Bəyazid yazırdı. Hər bir kəlmədən hiss olunurdu

ki, o, Səfəvi nəslinə necə böyük nifrət bəsləyir, hətta onun nifrəti o yerə gəlib çatırdı ki, Osmanlıların keçmiş düşmənləri Ağqoyunlularla da hər cür ittifaqa girsin. Bu yolda bir-biri ilə düşmənçilik aparan Ağqoyunlu varislərini də birləşməyə dəvət edir». Onların Səfəvi nəslini məhv etmək üçün birləşəcəyi təqdirdə özü də köməyini əsirgəməyəcəyini bildirirdi. Məktubun bu yerində İsmayıl sağ əlini qaldırıb alnını ovuşdurdu. Bununla öz əmirlərinə bildirir ki, Əlvənd Mirzə ilə yaxud Murad Mirzə ilə savaşlarımızı qələbə ilə qurtarsaq da, bizi gələcəkdə daha böyük təhlükələr gözləyəcək. Araya sakitlik çökmüşdü. Hüseyn bəy Lələ Şamlı məktubu oxumağı dayandırmışdı. Əmirlər də dinmirdilər. Onda İsmayıl Mirzə işarə elədi:

– Davamını oxu, görək Osmanlı hakimi bizə daha hansı böhtanlar yağdırır?

– Baş üstə mürşidimiz, – Hüseyn bəy Lələ Şamlı dilləndi və oxumağa başladı:

«…Şübhə yoxdur ki, Əlvənd dağı qarşısında uca minarə alçaq olar. Artıq iş moizə və nəsihətdən keçib, Allahın lütfünə qalıb. Ümidvarıq ki, daimi olaraq tam ciddi-cəhdlə çalışıb əlindən gələni edərək, doğru yolda olan bütün əyalətlər ittifaqa girib, səbir və hövsələ nümayiş etdirməkdən bezikəcək, nemətlər əta edən Allaha təvəkkül o zalım tayfanı məhv və zəlil etmək, yolunu azmış bu xoşagəlməz sülaləni məğlub etmək iradəsi göstərəcəkdir. Fitnə baş qaldırmadan öncə qoy beşiyindəcə boğulsun. Ola bilsin Allahın kərəmi ilə o məlunları qara torpaqda payimal edib, adlarını və izlərini dünya səhifəsindən silsinlər. Aləmdəkiləri fəth və qələbə xəbərləri ilə şad-xürrəm etsinlər. Bizim səltənətin milsilsiz xahişini diqqətə alıb onun əksini təsəvvürə gətirməyin. Məmləkətlərdə yaşayanları, bütün rəiyyəti, salehləri, şeyxləri, alimləri və seyidləri hər iki dövlət üçün dua etmək vəzifəsilə məşğul hesab edib, ixlas və səmimiyyət yolunu seçərək elçi və namələr göndərməyə davam edin. Baş verənlər haqqında xəbərdarlıq etməkdən qafil olub süst-

lük göstərməyin. İşarə etdiyimiz kimi, zərurət yaranarsa, Allahın izni ilə bu tərəfdən süstlük olmayacaqdır…»

Şah İsmayıl ağır düşüncələr içərisində neçə ay bundan əvvəl əmirlərinin ona oxuduğu məktubun hər sətirini təzədən yaddaşında bərpa edir və düşünürdü: «Görünür, bu xəmir hələ çox su aparacaq. Əlvənd Mirzə də, Murad Mirzə də qılınclarını yerə qoyub, təslim olardılar, ancaq Osmanlı sultanı II Bəyazidin qızışdırmaq yolu ilə, hiyləgərliklə aranı qarışdırması görünür, hələ çox qanların axıdılmasına səbəb olacaqdı».

Şah İsmayıl bir vaxt Uzun Həsənin əyləşdiyi taxtda oturmuşdu. Başında da şahlıq tacı. Bu vaxt Hüseyn bəy Lələ Şamlı Şaha yaxınlaşıb bildirdi:

– Yaxın, uzaq ərazilərdən çaparlar gəlib, onlar təbriknamələri gətiriblər.

Şah İsmayıl Hüseyn bəy Lələ Şamlıya göstəriş verdi:

– Qoyun istirahət eləsinlər, münasib vaxtda qəbul edərik, – dedi.

* * *

Gənc şah adamlar çəkiləndən sonra taxtdan ayağa qalxdı, baxmayaraq ki, yorğunluğu keçməmişdi, dincəlmək istəyirdi. Neçə gündən bəri ayaq üstə olmağın, at belində səfərin ağırlığını-uğurluğunu canından çıxarmaq üçün bir tərəfə çəkilib yaxşıca yatmaq necə yaxşı olardı – şah xəyalına gətirdi. Amma necə istirahətə gedəydi ki, bir az əvvəl Hüseyn bəy Lələ Şamlının Sultan II Bəyazidin dilindən yazılmış məktubu oxumağından çox keçməmişdi. Əslində şahın dincliyini əlindən alan, onu dərin fikirlərə qərq eləyən də elə bu məktubda yazılanlar olmuşdu.

Sultan II Bəyazid görünür, ata-babalarının yolu ilə gedərək, Azərbaycan ərazilərinə iddialarından əl çəkməmişdi. Baxmayaraq ki, yazdığı namədə Əlvənd Mirzəyə özünü müttəfiq kimi göstərirdi. Uzun savaşlar zamanından bəri – o zamandan ki, hələ

İsmayıl Mirzə heç həyatda yox idi – Ağqoyunluların hakim olduğu Diyarbəkir əyalətlərini təzədən öz ərazilərinə qatmaq istəyən Osmanlı hakimləri məqsəd və məramlarını sonrakı nəsillərə ötürmüşdülər. Doğrudur, İsmayıl Mirzə müəllimləri sayəsində öyrənmişdi ki, Osmanlı sultanlarının başı uzun müddət Qərblə savaşlara qarışdığından bir növ Diyarbəkir, Anadolu tərəfləri haqqındakı niyyətlərini sonraya saxlamışdılar.

İsmayıl Mirzə hiss eləyirdi ki, Osmanlı hakimiyyəti üçün Əlvənd Mirzə indi ən yaxşı vasitədir. Onlar bütün ciddi-cəhdlərilə çalışacaqdılar ki, həm Əlvənd Mirzənin, həm də əmisi oğlu Sultan Muradın iştahlarını itiləsinlər. Çünki həqiqətən onlar özlərini Ağqoyunlu səltənətinin varisləri hesab edirdilər. Ancaq bir məsələni anlamaq istəmirdilər ki, Ağqoyunlu səltənətinin özünü hifz eləyib saxlamaq zamanı artıq arxada qalıb. İndi tarix başqa hava çalır. Bu havanı duymaq, anlamaq üçün gərək özlərini Ağqoyunlu səltənətinin varisləri hesab edənlər də niyyətlərindən əl çəksinlər.

Doğrudan doğruya İsmayıl Mirzə istəyərdi ki, onun üçün doğma olan qohumları hakimiyyət iştahasından əl götürüb, şaha beyət etsinlər. Bu zaman şah onların əmin-amanlığını qoruyar, Ağqoyunlu səltənətindən qalan ərazilərdən ayrı-ayrı əyalətləri idarə etməyi onlara tapşırardı.

Gənc şah otaqda var-gəl eləyir, bütün bunları xəyalında dolandırır, qarşıdakı tarixin nə gətirəcəyini düşünürdü. Gənc şaha elə gəldi ki, ürəyi sıxılır. Sağ əlini sinəsi üstündə gəzdirdi. Əzələlərini ovucladı, qollarını geniş açıb gərnəşdi. Deyəsən, sıxıntısı keçirdi. Qayıdıb təzədən taxtda əyləşdi. Xəyal onu hələ çox da uzaq olmayan axırıncı qanlı döyüş səhnəsinə qaytardı…

…İsmayıl Mirzə birinci döyüşdən qələbə ilə çıxandan sonra itkilərini və əldə elədiyi qənimətləri yadına saldı. Bu döyüşdə o, Qarapiri bəy Qacar kimi sərkərdəsini itirmişdi. Qızılbaşlar xeyli itki vermişdilər. Amma əsas o idi ki, döyüşü qələbə ilə başa çatdırıb, özlərinin ruh yüksəkliyini, inamını qoruyub saxlamışdılar.

Əlvənd Mirzə də ən adlı-sanlı sərkərdələrindən mərhum olmuşdu. Osman bəy oğlu ilə birgə ilk qarşılaşmada sıradan çıxarılmışdı. Osman bəyin özü əsir götürülmüş, ordugaha gətirilmişdi. Müharibə qanunlarına görə Osman bəy mühakimə olundu. O, Qarapiri bəy Qacarın ölümündə birbaşa təqsirkar bilindiyi üçün öldürüldü, başı isə Əlvənd Mirzəyə göndərildi. Necə yaxşı olardı, Əlvənd Mirzə bu döyüşdən sonra bir daha müharibə meydanına qayıtmayaydı… – gənc şah yenə xəyalından keçirtdi. Ancaq istək başqadır, həyatın özünün gətirdikləri isə başqa… Əlvənd Mirzə yenidən qüvvə toplamaqda idi. Əlaüddövlə Zülqədər bəydən aldığı gücü də özününkünün üstünə əlavə etmiş, qoşunlarını yenidən cəmləmişdi. Hüseyn bəy Lələ Şamlının verdiyi məlumatdan anlaşılırdı ki, indi ixtiyarında otuz minlik bir ordu var. İsmayıl Mirzə onu da yaxşı bilirdi ki, Qızılbaş qoşunu yeddi min nəfərdən çox deyil. Onsuz da Əlvənd Mirzənin ordusuyla birinci çarpışmadakı döyüş səhnəsini xatırlayanda, aydın olurdu ki, Qızılbaşlar dönməz bir şücaətlə vuruşurlar. İsmayıl Mirzə bütün qüvvələrini Əlvənd Mirzə ilə döyüşə çəkdiyi halda nələr baş verəcəkdi? Allah eləməmiş, əgər o tərəfdarlarının hamısını itirsə, şübhəsiz, həyatını da bitirəcəkdi. Beləliklə, Təbrizə gedib çıxması, özünü şah elan etməsi də müşkül məsələyə çevriləcəkdi. Ona məlumat çatdırmışdılar ki, Əlvənd Mirzə qoşunlarını tam cəmləyəndən sonra Naxçıvan ərazisində qalmaq istəmir. Çuxursənd tərəflərə hərəkət etmək fikrindədir. Amma Əlvənd Mirzənin Şərur düzünü müşahidə etməsindən sonra, deyəsən fikri dəyişmişdi. Ordugahını elə Şərur düzündə qurmuş və burda İsmayıl Mirzəni qarşılamaq fikrinə düşmüşdü. İsmayıl Mirzə Şərur düzünə çatanda kəşfiyyatçılarının gətirdiyi xəbərdən öyrəndi ki, Əlvənd Mirzə burada öz mövqelərini kifayət qədər möhkəmlədib… Şah İsmayıl yaxın keçmişin xəyalından bir də ayıldı, həm də ona elə gəldi ki, az da olsa ürəyindəki xəyallarla birgə yuxulayıb. Özünü qıvraq hiss elədi. Hüseyn bəy Lələ Şamlını çağırıb gələn təbriknamələri

qəbul etməyə hazır oluduğunu demək istədi. Lakin yadına düşdü ki, onunla birgə neçə günlərin ağrı-acısını çəkmiş sərkərdələri də istirahətdədir. Elə bu səbəbdən görüşü bir qədər ləngitməyi qərara aldı. Şərur döyüşü yenə gözlərinin qabağında canlandı…

…İsmayıl Mirzə öz qoşunlarının önündən atla keçirdi. Hüseyn bəy Lələ Şamlı, Xadim bəy Xüləfa da sağında, solunda atla irəliləyirdilər. Qoşunun tən ortasında – öndə atını saxladı və üzünü Qızılbaşlara tutdu:

– Ey Səfəvi ocağının fədailəri, bu gün biz ali məqsədimizin lap yaxınındayıq. Hər şey sizin şücaətinizdən asılı olacaq. Əgər gücünüzü və qəhrəmanlığınızı əsirgəməsəniz, biriniz beş yağıya cavab verə biləcəksiniz. Çünki Yaradan haqqın tərəfindədir.

– Canımız fəda olsun! Mürşidimiz bizim işığımızdır! Onun ayaq basdığı yerə biz baş qoyarıq! – Hər tərəfdən Qızılbaşların cavab səsləri göyə yüksəldi. Artıq arxa cərgədəkilər də bu sözləri xorla təkrarlayırdılar.

İsmayıl Mirzə onu ruhən sevindirən bu səsləri öz döyüşçülərinin andı kimi qəbul edirdi. O, hiss eləyirdi ki, bu döyüşdə Qızılbaşlar son damla qanlarına qədər vuruşmaqdan çəkinməyəcəklər. Həqiqətən İsmayıl Mirzənin qəlbində bir inam yarandı ki, lap Əlvənd Mirzənin qoşunu on qat artıq olsa belə, yenilməz Qızılbaşların qarşısında dayana bilməyəcək. O, atının başını döndərib dördnala qoşunun önündən çapıb keçdi. Yenidən özünün müşahidə məntəqəsinə qayıdıb əmirləri yanına çağırdı. Sarı Əli bəy Təkəli, Qaraca İlyas bəy Bayburdlu, Rüstəm bəy Qaramanlı, Əbdi bəy Şamlı, Bayram bəy Qaramanlı, Məhəmməd xan Ustaclı, Abdal bəy Dədə… Hamı bir nəfər kimi burada idi. Nisbətən cavan, adlı-sanlı sərkərdələr də bir tərəfdə dayanmışdılar. Hüseyn bəy Lələ Şamlının məsləhətilə ilk döyüşdə böyük şücaətlər göstərmiş Halvaçıoğlunu İsmayıl Mirzə yaxına çağırdı:

– Hə Halvaçıoğlu, sən Əlvənd Mirzənin qoşunları ilə birinci döyüşdə böyük cəsarət göstərmisən.

– Mürşidimin yolunda başım qurbandı. Mən bacardığımı əsirgəməmişəm. Görünür, Ulu Yaradan haqqın tərəfində olduğu üçün düşmən qarşımızda dayana bilməyib.

– Bəli, Yaradan haqqı olanların tərəfindədir. Mən istəyirəm ki, bu döyüşü də sən başlayasan.

– Baş üstə, pirim, mürşidim, – Halvaçıoğlu təzim elədi.

Sonra üzünü Məhəmməd xan Ustaclıya tutdu:

– Mən istəyirəm ki, Məhəmməd xan Ustaclı mərkəzdən hücum eləsin. Mən özüm də döyüşə mərkəzdən başlayacağam.

Məhəmməd xan Ustaclı hələ Şeyx Heydərin zamanından – gənc yaşlarından döyüşlərdə iştirak eləmişdi. Tanınmış, hörmətli sərkərdə idi. Əlini sinəsinə qoyub gənc İsmayıl Mirzəyə təzim elədi: – Canımız hər vaxt sənə fəda olmağa hazırdır, pirimiz, mürşidimiz, – dedi. Sonra başını qaldırıb ətrafa nəzər yetirdi. Digər əmirlərin arasından seçilib mərkəzdə döyüşəcəyi haqqında aldığı tapşırıqdan sanki qürurlandı. Dərindən nəfəs alıb, dilləndi: – Mən mürşidimin əmanəti olan, bu gün bütün Qızılbaşların gözünün işığı olan, başımızın sahibini öz başımdan daha üstün qoruyacağam.

Digər əmirlər Məhəmməd Ustaclının bu sözlərindən şövqə gəldilər, yer-yerdən dilləndilər: – Başımız mürşidimizə qurbandı, – dedilər.

Həmin gün Şərur düzünün bir tərəfində Əlvənd Mirzənin qoşunları, digər tərəfində Qızılbaşlar səf tutmuşdu. Səhər açılıb gün yayılandan sonra Qızılbaşların təbilləri guruldadı. Əlvənd Mirzə qoşunlarından ayrıca bir dəstə düzəltmişdi ki, nisbətən hündür bir yerdən Qızılbaş qoşunlarını oxa tutsunlar.

Döyüş sürətlə başladı. Az keçmiş Şərur düzü qırmızı lalə rənginə boyanmışdı. Ölənlərin sayı-hesabı yox idi. İsmayıl Mirzə özü mərkəzdən irəliləyirdi. Onun cəsarətli hücumu Hüseyn bəy Lələ Şamlını narahat eləyirdi. Ona görə də çevik Qızılbaşlara göstəriş verdi ki, İsmayıl Mirzəni əhatəyə alsınlar. Düşmənin ona

yaxın gəlməsinə imkan verməsinlər. Ortadan həmlə edən İsmayıl Mirzə düşməni pərən-pərən saldı. Məhəmməd Ustaclının başçılığı ilə çevik Qızılbaşlar Ağqoyunlu qoşununu iki yerə parçaladı. İsmayıl Mirzə cəld özünü yetirib Ağqoyunlu bayrağını ələ keçirtdi. Qızılbaşların alqış sədaları göyə yüksəldi. Digər tərəfdən Qızılbaşların bir dəstəsi Ağqoyunlulara arxadan hücum eləmişdi. Ağqoyunlular geriyə sıxışdırılırdı. Və bu zaman Əlvənd Mirzənin tarixi səhvi özünün acı nəticəsini verdi.

Əlvənd Mirzə öz qoşunu arasında nə qədər təbliğat aparsa da, Qızılbaşlar yolunu azmışlardı, onlara rəğbət bəsləmək özü də Allah yanında günahdır. Bu təbliğata baxmayaraq, Əlvənd Mirzə hiss eləyirdi ki, qoşununda Qızılbaşlara rəğbət bəsləyənlərin sayı çoxdu. Ona görə o, çoxlu sayda dəvəni zəncirlə bir-birinə bağlayaraq qoşunun arxasınca düzmüşdü. Hər ehtimala qarşı əgər Qızılbaş tərəfdarları döyüşü atıb qaçmaq istəsələr, bu canlı dəvə hasarına dirənəcəkdilər.

Qızılbaşların ildırım sürətli hücumu nəticəsində Əlvənd Mirzənin qoşununun geri çəkilib, yeni mövqelər tutması mümkün olmadı.

İsmayıl Mirzə üzbəüz döyüşdə üstünə yeriyən üç sərkərdəni qılıncdan keçirtdi. Beləliklə, Əlvənd Mirzənin məşhur sərkərdələri – Musa bəy Qərçəğay, Qazi Seyidi və Lətif bəy İsmayıl Mirzə ilə üzbəüz döyüşdə öldürüldü. İsmayılın bu cür şücaət göstərməsi Qızılbaş döyüşçülərində əhvalı daha da qaldırdı.

Qızılbaşlar Ağqoyunlu qoşununu Şərur düzündə beləcə darmadağın elədilər. Ağqoyunlu Əlvənd Mirzənin otuz min nəfərlik ordusu Qızılbaşların yarıdan da az olan qüvvəsi qarşısında davam gətirə bilmədi.

Əlvənd Mirzə qoşunun tör-töküntülərilə dağlara çəkilib canını güclə xilas elədi. Daha bu yerlərdə dayana bilməyib, birbaşa Diyarbəkir tərəflərə üz tutdu. Bax, beləcə, İsmayıl Mirzənin Təbriz düyünü açılmış oldu.

Bütün bunları Şah İsmayıl xəyalından keçirir, Qızılbaşların axırıncı döyüşdəki igidlikləri qəlbini qürurla doldururdu.

Heç özü də bilmədi ki, oturduğu hökmdarlıq taxtında nə vaxt şirin bir mürgüyə daldı. Şah yuxusunda gördü ki, babası Şeyx Səfinin qarşısında dayanıb. Müdrik el ağsaqqalı Şeyx Səfi hərdən ocağa odun atır, tüstü çəkilir, ocaq alovlanırdı. İsmayıla elə gəldi ki, bu od əbədi qalacaq, heç vaxt sönməyəcək. Daha sonra onun yuxusunda babası Şeyx Cüneyd, atası Şeyx Heydər də göründü. Onlar da gənc İsmayıla xeyir-dua verirdilər. Atasının ibrətamiz sözlərini daha aydın eşitdi: «Bundan sonra bu ocaq heç vaxt sönməyəcək, daim közərəcək».

* * *

Hüseyn bəy Lələ Şamlı gənc şahın divan otağından çıxmasını xeyli gözlədi. Görəndə ki, şah divan otağından çıxmır, nigarançılığı artdı. Əlbəttə, bu, elə də ciddi narahatlıq deyildi. Çünki şahın otağını şəxsən özü nəzarətdə saxlayırdı. Bütün əmirlər hökmdarın yanından çıxdıqdan sonra heç kim ora qayıtmamışdı. Bir az keçmiş digər əmirlər də nahardan qayıtdılar. Onlar bilirdilər ki, şah qonşu ölkələrin xanədanlarından gələn elçiləri qəbul etməlidir.

Hüseyn bəy Lələ Şamlı əmirlərə bir qədər səbirli olmağı tapşırıb divanxananın baş otağına yönəldi. Qapını yavaşca açıb içəri boylandı. Şah kürəyini taxta söykəyib, gözlərini yummuşdu. Hüseyn bəy Lələ Şamlı irəli yeridi. Uzun pərdələrin arasından işıq şahın üzünə düşürdü. Hüseyn bəy Lələ Şamlı on beş yaşlı hökmdarın on beş günlük ay kimi parlayan işıqlı təbəssümü qarşısında sükuta daldı. Sanki o, donmuşdu, qabağa gedə bilmirdi.

Şahın üzü nura bələnmişdi. Bir anlığa ona elə gəldi ki, gənc İsmayılı yox, özünün gənclik dostu, həm də mürşidi Şeyx Heydəri görür. Bir anlığa həqiqətən qarşısında Şeyx Heydər peyda olmuşdu. Heç özü də bilmədi ki, necə pıçıldayır: «Canım sənə sadağa

olsun, şeyxim. Bu, Allahın möcüzəsidir, sən təzədən dünyaya qayıtmısan. Sənin bu qayıdışın neçə-neçə yarımçıq arzuları başa çatdıracaq. Mənim kimi gör nə qədər canını sənə fəda eləməyə hazır olanlar var ki, biz sənin pişvazını gözləyirdik». Hüseyn bəy Lələyə elə gəldi ki, heç özünün dodaqları tərpənmir. O, bu sözləri yalnız düşüncəsində qəlbinin çırpıntıları ilə deyir. Ancaq güman etdi ki, pıçıltılar nəhayət onun dodaqları arasından səsə çevrilib divan otağına yayılır. Yəqin, şirin yuxuda olan şah da elə bu pıçıltıların asta hənirini hiss elədi. Lakin gənc şah hələ gözünü açmamışdı. Ona elə gəlirdi ki, danışan atası Şeyx Heydərdir. Yuxudan ayılmış olsa da kirpiklərini tərpətmirdi. Elə bil ehtiyat edirdi, gözlərini açsa bir anda atası yoxa çıxacaq.

Nəhayət Hüseyn bəy Lələ Şamlı asta addımlarla geri çəkilib otaqdan çıxmaq istədi. Amma İsmayıl gözlərini açdı. Qollarını gərərək, dikəlib taxdan qalxdı.

– Deyəsən, çox yatmışam.

– Fəda olum sənə, çox yatmamısan. Uzun ayların yorğunluğunun əvəzində bir az dincini almaq nədir ki?!.

Şah qalxıb divan otağında azacıq var-gəl elədi. Hüseyn bəy Lələ Şamlı hələ də ona heyran-heyran baxırdı. Bunu gənc şah hiss elədi.

– Nə olub, nəsə qəribə hadisə baş verib?

– Yox, yox, gözüm qurban, qəribə heç bir hadisə baş verməyib.

– Ancaq mənə elə gəlir ki, sənin təəccüblü bir görkəmin var. Nəyə məəttəl qalmısan, onu bilmirəm?

– Yox, canım qurban, elə bir təəccüblü iş olmasa da… – Hüseyn bəy Lələ Şamlı sözlərinin gerisini gətirmədi.

– Yaxşı, Lələ, ürəyimi üzmə, düzünü de…

– Ay başımızın tacı, mən heç qıyarammı sən azacıq da olsa, bir intizar çəkəsən.

– Hə, onda danış, – İsmayıl qətiyyətlə «danış» desə də, yenə səsinin ahəngində hökmdar hökmü yox, ustadına sevgi və məh-

rəmlik açıq-aydın duyuldu. Bu Hüseyn bəy Lələ Şamlını bir az da çox həyəcana gətirdi. Özünü cəmləyib şahın düz önünə gəldi. Onun əllərini ovucları arasına aldı. İndi İsmayıl lələsinin əllərinin hərarətini sanki canında hiss elədi. Axı, əslində o, gözlərini açanda, qəsdinə durmuş bu etibarsız dünyanın saysız bədxahları arasında, özünə doğma olan bir kimsə kimi Hüseyn bəy Lələ Şamlını görmüşdü. Hüseyn bəy Lələ Şamlı hər üzünə əziyyətini çəkmiş və yardımçı olmağından nəinki bezməmiş, hətta feyziyab olmuşdu.

– Ey mürşidim, otağa girəndə elə bildim, Şeyx Heydəri görürəm. Sənin yuxudan oyanmağınla mən də xəyaldan ayıldım. Gördüm ki, Şeyx Heydəri yox, elə sənin özünü görürəm. Ancaq bir həqiqətə inanıram ki, Şeyx Heydərin müqəddəs ruhu həmin anlarda sanki həqiqətən də burada dolaşırmış.

– Lələ, mən də sənə bir sirr açım. Yuxuda gördüm ki, babalarım mənim yanımdadır. Hər biri xeyir-dua verirdi. Atam Şeyx Heydər isə əlini düz gətirib kürəyimə qoydu, çox xoş sözlər dedi.

– Nə dedi, sənə canım fəda olsun?

– Dedi ki, Şeyx Səfi ocağını sən sönməyə qoymayacaqsan.

– Doğru deyib, canım sənə sadağa. Çünki o ocaq haqdan şölələnib. Haqdan yanan ocağı isə bəndə əli söndürə bilməz.

Onlar birlikdə divan otağından çıxdılar. Uzun Həsəndən qalma ziyafət otağına daxil oldular. Gənc şah ilk qonaqlarını elə ziyafət otağında qarşılamağı düşünürdü. Gələnlər əsasən yaxın əyalətlərin nümayəndələriydi, qiymətli hədiyyələr də gətirmişdilər. İsmayıl hər kəsi bir-bir dinlədi. Danışanların Qızılbaşlara xilaskar kimi baxmaları onu sevindirirdi. Həm də onlar bəyan edirdilər ki, təmsil elədikləri əyalətlərdən Qızılbaş dəstələrinə qoşulmaq üçün qüvvə də toplayacaqlar. Hər kəs öz əyalətinin adamlarını at və silahla təmin etməyi öhdəsinə götürürdü.

Nəhayət, Şah İsmayıl sözə başladı:

– Gəldiyiniz əyalətlərin hər birində əmin-amanlığı qorumaq, haqsızlığa yol verməmək bizim birinci şərtimizdi. Əgər kimsə bu

şərtlərdən kənara çəkilsə, bizim ədalət qanunlarımız qarşısında cavab verəcək.

Şah sözünü burda saxlayıb, qonaqların hamısını bir-bir nəzərdən keçirtdi. Bir tərəfdə kiçik bir dəstə də var idi. Onlara nəzər yetirəndə Hüseyn bəy Lələ Şamlı məlumat verdi:

– Bunlar Təbriz bazarında ticarət eləyən yad ölkələrin tacirləridir. Onlar da mübarəkbadlığa gəliblər.

Məhəmməd Ustaclı əlini sinəsinə qoyub təzim elədi:

– Onu da deyim ki, bu tacirlər Təbriz bazarında uzun illərdi ki, ticarətlə məşğul olurlar. Onlar öz ölkələrindən gələn karvanları qarşılayır və burada matahlarını xırıd edir, lazım olanları alıb ölkələrinə yola salırlar. Bizim türkcəmizi də yaxşı bilirlər.

Bu vaxt Hüseyn bəy Lələ Şamlı sanki Məhəmməd Ustaclının sözlərini tamamladı:

– Bu tacirlər qazanclarından Qızılbaş ordusu üçün pay ayırmağı da nəzərdə tutublar.

Bütün bunları dinləyən gənc şah sözünü təzədən davam elədi:

– Biz ölkəmizi elə bir əmin-amanlığa çatdıracağıq ki, ticarət üçün bu diyara gələnlər heç nədən qorxub çəkinməsinlər. Əyalətin hər tərəfinə məktub yazıb çatdırın, tacirlər mənim şəxsi nəzarətimdədir. Onlar həmişə mənim məxsusi qayğım altında olacaqlar.

Hansısa uzaq bir Avropa ölkəsinin taciri ayağa qalxdı. Onun hündür boyu, ağ sifəti, bir az sarıya çalan saçları vardı. Geyim sarıdan isə heç də Təbrizlilərdən fərqlənmirdi. Çoxdandır ki, Təbrizdə ölkəsinin alış-veriş işlərinə başçılıq edirdi. Tacir ehtiramla şaha təzim elədi:

– Şahımızın ömrü uzun olsun! – dedi.

Şah İsmayılın dodaqları qaçdı. İşıqlı bir təbəssüm onun sifətinə yayıldı:

– Mən ki, sizin şahınız deyiləm…

Yad ölkənin taciri şahın gülümsər çöhrəsindən xoşhal olub, bir az da cəsarətlə davam elədi:

– Yox, mürşidimiz, siz elə həm də bizim şahımızsınız, çünki biz bu ölkənin çörəyini yeyib, suyunu içirik, bu ölkənin havası ilə yaşayırıq. Özümüz də bundan sonra sizin himayənizdə olacağıq. Daha niyə bizim şahımız olmayasınız?

Şah güldü, onun əhvalı durulmuşdu. Ətrafındakı əmirlər də yad tacirin sözlərindən xoşhal oldular. Onların da sifətində təbəssüm gəzdi.

Elə buradaca ölkənin hörmətli əmirləri yeni vəzifələrə təyinat aldılar. Hər kəs öz bacarığı və istəyi nəzərə alınmaqla mənsəb sahibi oldu.

Hüseyn bəy Lələ Şamlı şahın vəkili təyin olundu. O, şahın adından göstərişlər vermək hüququ aldı. Bayram bəy Qaramanlı isə Tuğ sahibi təyin edildi. Əmir Məhəmməd Zəkəriyyə Keçəçi şahın vəziri, Şəmsəddin Lahicani dini işlərin rəhbəri elan olundu. Hər kəs öz vəzifəsinin elanından sonra təntənə ilə şaha öz minnətdarlığını bildirir, bundan sonra da Səfəvi xanədanının daha da güclənəcəyi naminə öz canlarından keçməyə belə hazır olacaqlarını bəyan etdi. Yalnız Bayram bəy Qaramanlı dinmədi. O, bir tərəfdə sakitcə başını aşağı salıb dayanmışdı. Bu şahın nəzərindən qaçmadı.

Bayram bəy Qaramanlı əmirlər arasından ən cavanı idi. Şeyx Heydərin ailəsinə də elə ilk gəncliyindən yaxın olmuş, doğmalaşmışdı. Əslində, onun Şah İsmayıla doğma münasibətinin bir kökü də Hüseyn bəy Lələ Şamlı ilə bağlı idi.

Hüseyn bəy Lələ Şamlı Bayram bəy Qaramanlının qoçaq, igid bir cavan olduğunu bildiyindən onu da öz himayəsinə almış və İsmayılla dostluğuna şərait yaratmışdı. Demək olar ki, bütün asudə vaxtlarını onlar birgə keçirirdilər. Gənc şahın diqqətindən yayınmadı ki, Bayram bəy Qaramanlı sözlüdür. O, nəsə demək istəyir, ancaq deyə bilmirdi.

Onda Şəmsəddin Lahicani irəli yeriyib şaha təzim elədi və sözə başladı:

– Ey şahımız, buraya yığışan hər bir kəs Şeyx Səfi ocağına sədaqətindən danışdı. Özün də onları xeyli vaxtdı ki, tanıyırsan, tanıdığın əmirlər arasında biri də Bayram bəy Qaramanlıdır.

Şah başını razılıqla tərpətdi. Bu, o demək idi ki, Şəmsəddin Lahicaninin dediklərinə qane olur. Ancaq onun dinməməyi o demək idi ki, Şəmsəddin Lahicani sözünü tamamlasın. Əslində, Şəmsəddin Lahicani də gözləyirdi ki, hökmdar məqsədini soruşsun.

Həqiqətən şah özü söz açdı:

– Yaxşı, bəs indi Bayram bəy Qaramanlının belə fikirli görünməyinin səbəbi nədir? Bəlkə, ona həvalə olunan vəzifəsindən narazıdır?

Şəmsəddin Lahicani tez cavab verdi:

– Xeyr, Allahın hökmü ilə elə olmaz. Çünki şahımız nəyi buyursa, əmirlər də bunu Allahın buyruğu kimi qəbul edər.

– Bəs onda səbəb nədir ki, o, belə fikirlidir?

– Bəli, mən indi onun məqsədini şahımıza çatdıraram. Bayram bəy Qaramanlı evlənmək istəyir.

– Çox yaxşı, elə dövlətimizin əsasını xeyir işlə qoyarıq.

– Şah, canımız sənə fəda olsun, Bayram bəy Qaramanlı hökmdarın bacısı ilə evlənmək istəyir.

Şah ani fikrə getdi. Tez də özünü ələ aldı. Onun çöhrəsindəki xoş təbəssüm həm razılığından, həm də sevincindən xəbər verirdi.

* * *

Səfəvi xanədanının sütunları olan əmirlərin öz vəzifələrinin icrasına başlamasından xeyli keçmiş və bu müddət ərzində Şah İsmayıla beyət edən əyalətlərin hər birində əmin-amanlıq bərqərar olmuşdu. Hökmdarın fərmanı ilə ərazilərin hakimləri dəyişmiş, şiə məzhəbli başçılar idarə işlərinə qoyulmuşdular. Doğrudur, bəzi əyalətlərdə qatı sünni məzhəbinin qüvvə sahibləri Əlvənd Mirzənin tərəfdarlarının təbliğatı sayəsində açıq olmasa da,

gizlində münasib vaxt və fürsət gözləyirdilər. Əlvənd Mirzə onların hər birini müxtəlif yollarla şirnikləndirir, məktublar göndərir və Şah İsmayılın yolunu azmasından, Ağqoyunlu xanədanına xəyanət etməsindən bəhs edirdi.

Təbriz Ağqoyunlular zamanında ticarət mərkəzi olduğu kimi, həm də siyasət mərkəziydi. Yəni böyük Ağqoyunlular səltənətinin paytaxtı idi. Belə olduğu halda demək, həm də şəhər mədəniyyət mərkəzi kimi çiçəklənmişdi. Uzun Həsən şəhərin gözəlləşməsi, mühüm memarlıq binaları tikdirməsi üzündən ayrıca rövnəq kəsb etmişdi. Dünyanın hər yerindən gələn səyyahlar Təbriz haqqında özlərilə əfsanələr aparırdılar. Şübhəsiz, onlar, həm də Təbrizdə müxtəlif sənət və peşə sahələrinin inkişafından, eləcə də silahdüzəltmə emalatxanalarının olduğundan da bəhs edirdilər. Bu barədə xəbərlər, əlbəttə ki, Osmanlı sarayına da çatırdı.

Şah İsmayıl şahlığını elan etməsindən keçən vaxt ərzində öz ordusunu cəmləmək, qoşuna yeni qüvvələr cəlb etmək işilə məşğul oldu. Əlbəttə, ordunu döyüşə aparmaq üçün yaraq-əsləhə tədarükü də əsas işlərdən idi. Bu işin icrasına Şah İsmayıl bir ildən çox vaxt sərf etdi. O bilirdi ki, Şərur döyüşündən sonra özünə gəlməyən Əlvənd Mirzə yenidən cəsarət tapıb Təbrizə hücum edə bilməz.

...Yay gəlmişdi və özüylə təzə qayğılar gətirmişdi.

Şah Hüseyn bəy Lələ Şamlını yanına çağırdı. Lələ şahın divanına gəlib təzim etdi:

– Canımız sənə fəda olsun, şahımız, nə ərziniz var?

Şah sağ əlini qaldırıb Hüseyn bəy Lələ Şamlını salamladı:

– Bəlkə Lələ özü təzə məlumatlar vermək istəyir, – soruşdu.

– Bəli, şahım, hamımıza məlum olduğu kimi Əlvənd Mirzə sakit qalmayıb, bu müddət ərzində böyük hazırlıq işləri görüb. Özü də on min nəfərlik qoşunu ilə kifayətlənməyib, Mərəş və Əlbistan tərəflərdə baş aparan və Səfəvi ocağının düşməni mövqeyində

duran Əlaüddövlə Zülqədər xanın da iyirmi minlik qoşunundan istifadə etmək fikrindədir.

– Bəs nə əcəb, Zülqədər xan belə asanlıqla özünün böyük qüvvələrini Əlvənd Mirzəyə tabe edir?

– Şahım, bilirsən ki, Əlvənd Mirzənin dili ilanı yuvasından çıxarar. O, Bayandurlar xəzinəsinin sahibi olduğunu və bu xəzinəni də gələcəkdə onunla böləcəyini vəd etməkdən başqa, vaxtilə Ağqoyunlulara tabe olan ərazilərinin yarısını ona vəd edir.

– Hə, demək belə. Bu kömək sayəsində Əlvənd Mirzə özü Zülqədər xana böyük vədlər verir.

– Şahım, amma unudur ki, şahımızın Allahdan güc alan qılıncı onların hər ikisinin gündüzünü gecəyə çevirəcək…

– Bəs indi məsləhətin nədir, Lələ?

– Deyirəm, bəlkə Əlvənd Mirzənin arxasınca bir qoşun göndərək?

Cavan şah sükuta qərq oldu. O, Lələnin sözlərini qəribliyə salmaq istəmirdi, bilirdi ki, Hüseyn bəy Lələ Şamlı, Əlvənd Mirzənin gücünü də, hiyləgərliyini də, yaxşı bilir. Osmanlılarla əlaqələrindən, Səfəvi xanimanına zidd, xilaf olanları necə öz toruna salmasından da xəbərdardır. Ona görə də qəti hökm verməsə də, məsləhət tonunda bildirdi.

– Lələ, bəlkə Əlvənd Mirzənin ardınca özümüz gedək?

– Bəs onda Təbrizi kimə tapşırarıq, şahım?

– Düşünürəm ki, Məhəmməd xan Ustaclı daha yaxşı olardı. Amma onun hərbi təcrübəsi Əlvənd Mirzə ilə qarşılaşanda bizə çox gərək olar.

– Şahım, kimi nəzərdə tutursan?

– Lələ, düşünürəm ki, İlyas bəy Halvaçıoğlu daha münasibdir.

Hüseyn bəy Lələ Şamlının qaşları çatıldı. O, cavan şahın bu qədər gözəl müşahidə qabiliyyəti olmağından, sanki vəcdə gəldi:

– Sənə qurban olum, şahım. Necə doğru buyurursan. Bəlkə də Allahın özü bu hökmü rəva bilir.

Şah yerindən qalxdı:

– Qoşuna xəbər ver. Bir həftəyə Əlvənd Mirzənin arxasınca yola çıxırıq.

– Alınan məlumatlara görə Əlvənd Mirzə Ərzincan tərəflərdədir, – əgər onu Aladağ yaylağında yaxalaya bilsək, elə oradaca işini bitirərik, – deyə Lələ bəy fikrini bildirdi.

– Hə, Lələ, sən yol tədarükündə ol, – şah yaxınlaşıb Hüseyn bəy Lələnin qolundan tutub onu qapıya qədər ötürdü.

Şah İsmayıl Hüseyn bəy Lələ Şamlının xətrini çox istəyirdi. Ona müəllimi və atası kimi ehtiram göstərirdi. İndi şah olandan sonra da, ona ehtiramını davam etdirir, hər cür hörmət göstərməkdən məmnun qalırdı.

Şah İsmayılın orduları Ərzincan istiqamətində hərəkətə başlamışdı. Bir aya qədər vaxt keçmişdi. Şah Aladağ yaylağında qoşuna istirahət vermək və burada ov üçün dayanmaq qərarına gəldi.

…Əlvənd Mirzənin xəfiyyələri şahın səfərini qarabaqara izləyirdilər. Onun nə qədər ordu ilə yola çıxmağını, istiqamətini, haralarda dayandığını hər həftə təzə xəbərlərlə Əlvənd Mirzəyə çatdırırdılar.

Əlvənd Mirzə Şah İsmayılın Təbrizdən uzaqlaşdığını bilən kimi öz qoşununu Təbriz istiqamətinə yönəltdi. Gecə-gündüz dayanmadan irəliləyən qoşun hələ Şah İsmayıl Aladağda ov üstündə olarkən Təbrizə çatmışdı. Halvaçıoğlu müdafiəni nə qədər güclü təşkil etsə də, Əlvənd Mirzənin saysız-hesabsız qüvvələri qarşısında dayana bilmədi. Şəhərin küçələrində hədsiz qırğın gedirdi. Halvaçıoğlu vəziyyətin ağırlığını görüb bütün qoşunu – şəhəri mühafizə edən ordusunu tamam məhv olmaqdan qurtarmaq qərarına gəldi. O, qüvvələrini dəstələrə bölüb tədricən şəhərdən kənara çəkdi. Doğrudur, Təbrizin şiə təriqətli əhalisi şəhərin müdafiəsində fədakarlıq göstərirdi. Amma Ağqoyunlular səltənətinin Əlvənd Mirzəyə aldanan tərəfdarları da az deyildi. Onlar Əlvənd Mirzənin adamlarına bələdçilik etməklə Şah

İsmayıl tərəfdarlarını nişan verir, qatı şiə məhzəbli adamların qətliamına şərait yaradırdılar.

Halvaçıoğlu çıxılmaz vəziyyətə düşmüşdü. O, Əlvənd Mirzənin ayrı-ayrı dəstələri üzərinə hücumlar təşkil eləsə də, qüvvələr nisbəti bərabər olmadığından əsaslı bir dönüş yarada bilmirdi. Halvaçıoğluna xəbər çatdı ki, bir neçə gün ərzisində Əlvənd Mirzə Təbrizin yeddi min sakinini qətlə yetirib. Təbrizin küçələrində qan su yerinə axırdı. Hamı yasa batmış, yaranmış vəziyyətdən pəjmürdə idi, döyüş isə səngimişdi. Halvaçıoğlu şəhərin kənarında mövqelərini saxlayırdı. Hələ ki, Əlvənd Mirzə məqam gözləyir, onun üzərinə hücuma keçmirdi. Amma gec-tez bunun olacağını bilən Halvaçıoğlu yollar axtarırdı. Gecəydi, Ay doğmuşdu, hər tərəf süd rənginə boyanmışdı. Halvaçıoğlu üzünü Aya tutdu, dodağının altında nəsə pıçıldayırdı. Hətta yanında kimsə olsaydı belə, onun tez-tez «şahım» dediyini eşidə bilməzdi.

…Şah İsmayıl Aladağ yaylağında, Ləkzi çəmənində ovdan sonra istirahətdəydi. Axşamdan xeyli keçmiş öz çadırına çəkilib yatmaq istədi. Nəsə narahat və nigaran idi. Səhərə yaxın gözünə yuxu getdi. Elə təzəcə mürgüləmişdi, bir də gördü ki, Halvaçıoğlu qan içində boğulur, «Hardasan, şahım» deyə hayqırırdı…

Hövlnak yerindən qalxdı. Ordunun ayrı-ayrı dəstələrinə rəhbərlik edən sərkərdələri yanına çağırdı. Heç bir müzakirəyə yol vermədən həyəcanla bildirdi:

– Mən indicə yuxuda gördüm ki, Halvaçıoğlu qan içində boğulur və bizi köməyə çağırır. Tez Təbrizə yola düşək. Görünür, nəsə baş verib, ürəyimə damıb.

Nə Şah İsmayılın yanındakı əmirlər, nə də ordunun ayrı-ayrı dəstələrinə başçılıq edən sərkərdələr bir söz demədilər. Deyəsən, onlara da agah olmuşdu ki, Əlvənd Mirzənin hiyləgərliyi sayəsində onlar aldanıblar. Bu qədər vaxtı havayı keçiriblər. Gecəykən yola düşdülər. Artıq bir-birinin ardınca Təbrizdən və Halvaçıoğlundan gələn qara xəbərlər yolboyu Şah İsmayıla çatdırılırdı.

Qoşun yola iki həftə sərf elədi. Və şəhərə çatan kimi mühasirə halqası yaradıldı. Halvaçıoğlu hökmdarın gəlişindən sevindi. Əlini göyə tutub, sanki qışqıra-qışqıra dedi: – Ey Allahım, sən ki, məni darda qoymadın…

Halvaçıoğlu sözünün gerisini qəlbinin səsilə bildirdi.

Əlvənd Mirzə səhərin gözü açılanda hiss etdi ki, Təbriz üzük qaşı kimi mühasirəyə alınıb. Günortaya qədər sərt döyüş getdi. Əlvənd Mirzə ələ keçəcəyini hiss edib mühasirədən çıxmaq yollarını axtarırdı. O, libasını dəyişmiş, üz-gözünü də qaralamışdı. Ağqoyunlu xanədanından qalma xəzinənin də bir hissəsini götürüb, kiçik bir dəstə ilə gecəyarı gizlin yolla şəhərdən çıxdı. O, baş götürüb üzü Bağdad tərəfə qaçırdı. Səhər döyüşü başlar-başlamaz Əlvənd Mirzənin qoşunlarının pərakəndəliyi üzə çıxdı. Döyüşçülərə məlum oldu ki, başçı qoşunu başsız buraxaraq, qaçmışdır.

Şah İsmayıl Halvaçıoğlunu yanına çağırdı.

Halvaçıoğlu şahın hüzuruna qəm dəryasında üzə-üzə gəldi. Şah onun əhvalını yaxşı başa düşürdü.

– Halvaçıoğlu, sən heç də kədərlənmə, bu, bir qəza-qədər işidir.

– Yox, şahım, qanım halaldır, mənim boynumu suçuma görə vurdur! Mən Təbrizi qoruya bilmədim…

– Yox, Halvaçıoğlu, sənin günahın yoxdur. Əlvənd Mirzə bizi də aldatdı. Sən demə o, bizim Təbrizdən çıxmağımızı gözləyirmiş. Biz o, hiyləgər namərdə gərək fürsət verməyəydik. Olan olub, keçən keçib…

– Şahım nə fərman buyursa, mən başımla hazıram.

– Halvaçıoğlu, biz Əlvənd Mirzənin yoluyla gedib, təzədən qırğın törədə bilmərik.

– Bəs şahım nə məsləhət buyurur?

– Əlvənd Mirzənin qüvvələrindən on min nəfərəcən şəhərdədir. Onlar silahı yerə qoyub, təslim olublar. Qoy şiə təriqəti qəbul edib, Qızılbaş qoşununa da xidmət etsinlər.

– Baş üstə, şahım. Bəs Təbriz əhlinin qanına bais olan xilaflar necə?

– Bəli, o şəxslər ki, günahsız insanların qanına bais olublar, onlar haqlı cəzalarına çatmalıdırlar.

– Doğrudur, şahım. Təbriz əhlinin içərisində də var beləlləri. Onlar qabağa düşüb, qırğına şərait yaradıblar.

– Halvaçıoğlu, çalış ki, sən də nahaq qana bais olma…

– Baş üstə, şahım, – Halvaçıoğlu təzim edərək getdi.

Az vaxt ərzində Təbrizdə əmin-amanlıq yarandı. Qoşundan və şəhər əhlindən şəhid olanların qan haqqı ödənildi. Yaralılar müalicəxanalara daşındı.

…Əlvənd Mirzə xəzinənin özünə məlum olan gizlincindən götürdüyü qızıllarla yolboyu yeni qüvvələr tədarükündə bulunsa da, elə də çox qoşun toplaya bilmədi.

* * *

Sultan II Bəyazid məmləkətinin Avropa hüdudlarında qurtaran tərəflərindən tutmuş ta Asiyanın içərilərinə qədərki ərazilərini divardan asılmış dəri xəritədə nəzərdən keçirtdi. Bir az yaxına gəlib hərbi qüvvələrinin cəmləşdiyi yerlərə nəzər yetirdi. Ötən gün ayrı-ayrı əyalətlərdən gəlmiş çaparların dediklərini yadına saldı. Məmləkətin heç bir tərəfindən təhlükə gözlənilmirdi. Atası Sultan II Mehmeddən qalmış əraziləri o xeyli genişləndirmişdi. Bir tərəfi Avropa, bir tərəfi Ərəbistan. Əlini dəri xəritənin üstünə qoydu. Əlinin qarışı ilə xəritədə göstərilən ərazini ölçə bilmədi. Qarışı balaca idi. Yox, ərazi çox geniş idi. Bir az geri çəkildi. Təzədən bayaq əlini qoyduğu ərazini indi şəhər-şəhər təsəvvüründə canlandırmağa çalışdı. Bu əraziləri özünə məlum olan yollarla təsəvvüründə birləşdirmişdi. Dayandığı yer isə bu nəhəng məmləkətin mərkəziydi.

Hökmdar qürurlandı, çünki atasının vəsiyyətini demək olar tam yerinə yetirmişdi. Ancaq bir para məsələlər qalırdı ki, bunu

da həll etməyin yollarını axtarırdı. Birdən sultanın fikri qarışdı. Onun üzünə bir kədər buludu çökdü. Xəyal onu atasının zamanından üzü bəri keçən vaxtlara apardı.

Axı bu Ağqoyunlu sülaləsinin gücü haradandır, nədəndir ki, onları Sultan Mehmed kimi qüdrətli bir hökmdar yenə bilmədi, – Sultan xəyalında sanki atası ilə üz-üzə dayanmışdı. Başını qaldırıb onun nə demək istədiyini bilmək istədi.

Sultan II Mehmed oğlunu altdan yuxarı süzdü:

– Sənə elə gəlməsin ki, Ağqoyunlular asanlıqla məhv ediləcək qüvvə idi.

– Axı onların gücü nədə idi? Az qala dünyanın yarısına hakimlik edən Osmanlılar niyə Ağqoyunluları tabeçiliyinə ala bilmədilər? – Sultan II Bəyazidə elə gəldi ki, atası özündən çıxıb. Xəyala dönüb qarşısında dayanan atasının qəzəbli gözlərinə baxa bilmədi. Başını yana döndərib divanın sağ tərəfinə çevirdi. Amma gördü, yox, atası burda da gözünün qabağındadır. Özünü toplayıb dodaqaltı sualını bir qədər başqa şəkildə təkrar elədi. Bəs biz onlara necə qalib gələ bilərik?

Sultan II Mehmedin xəyalı titrədi, bir anlığa oğlunun gözlərindən yox oldu. Sultan II Bəyazid rahat nəfəs almaq istəyirdi ki, təzədən atası gözlərinə göründü. Şəhadət barmağını düz onun gözlərinə uzatdı.

– Bax, bu gözlərinlə görməyincə, sənin ağlın işləməyəcək. Bunun üçün gərək onlarla qarşılaşasan.

– Axı sən də qarşılaşmışdın, – Sultan II Bəyazid geri çəkilmədi, sözünü dedi.

– Mən də qarşılaşmışdım, bəli, – Sultan II Mehmed sanki oğlunun mühakiməsindən ikrah edirdi. Elə bu səbəbdən də qəzəbini gizlətmirdi. Elə hirslə-hikkəylə də sözünə davam elədi – O sülalənin gücü onda idi ki, onlar xalq tərəfindən sevilirdi. Xalq onların yolunda canlarını əsirgəmirdi. Bax, bu idi əsas səbəb, bildinmi?

– Bildim, ata, onu da bildim ki, biz Ağqoyunlu ərazilərindən gözümüzü çəksək, bəlkə bizim üçün daha yaxşı olar. – Sultan II Bəyazidin bu sözləri deyəsən, atasını lap hövsələdən çıxartdı.

Sultan II Mehmedin xəyalı yaxınlaşıb oğlunun yaxasından yapışdı. Onun dəmir kimi barmaqları az qala Sultan II Bəyazidi boğmaqda idi. Hökmdarın nəfəsi tıncıxdı. Yaxınlıqdakı su dolçasından mis cama süzdü, başına çəkdi. Bir az sakitləşib özünə gəldi. Amma atası dayanıb gözləyirdi, oğlu özünə gəlsin.

– Əgər onları tabe eləməsən, onda Anadoludan, Diyarbəkirdən gözünü birdəfəlik çəkməli olacaqsan. Qafqaz da ki, öz yerində. Qoruyub saxlaya biləcəksənmi, sənə bu qədər torpaq qoyub getmişəm?

Sultan II Bəyazid bu dəfə atasının xəyalını mülayim gördü.

– İndi dövran dəyişib, Ərdəbil şeyxləri hakimiyyətə gəlib.

– Bir vaxt biz də Ağqoyunluları gücsüz bilirdik, ancaq zaman göstərdi ki, onlar elə də gücsüz deyillərmiş. Əgər bu Səfəvi ocağından pərvəriş tapanları tezliklə süpürüb tarixin zibilliyinə atmasanız, başınıza bəla açacaqlar.

– Axı necə, bu mümkündürmü? – Sultan II Bəyazid yenə atasının xəyalından soruşdu

– Əlbəttə, mümkündü, elə Ağqoyunlu xələflərini onların üzərinə qaldırmaq lazımdı. Qoy özləri bir-birini didib-qırsınlar. Əlvənd Mirzə Ağqoyunlu Uzun Həsənin digər nəvəsi Sultan Murad, Zülqədər xanın qoşunları – onların hər biri Səfəvi ocağından gələnlərin qanına yerikləyirlər…

– Mən Əlvənd Mirzəyə məktub göndərmişəm. Onu başa salmaq üçün nə mümkündü, hamısını yazmışam. – Sultan II Bəyazid Əlvənd Mirzəyə göndərdiyi məktubu yada saldı.

– Bilirəm, yazmısan, bəs sonrası? Niyə davam etməmisən? İndi Əlvənd Mirzə haradadı, bilirsənmi? Təbrizdə vəziyyət necədi? Sultan Murad nə üçün Əlvənd Mirzəyə kömək eləmədi? Əgər onların qüvvələri birləşdirilməyibsə, bu işdə sənin də günahın var.

– Mən öz məmləkətimi idarə edirəm, məmləkətimin hər bir küncündən, bucağından xəbərim var.

– Sən, Sultan II Bəyazid unutmamalısan ki, sənə tabe olmayan hər kəsin addımından xəbərdar olmalısan.

Sultan II Bəyazid başını aşağı saldı. Xeyli sakit dayandı, sonra xəyaldan ayrılmaq üçün deyəsən, başını da silkələdi. Bayaqkı dolçadan ovcuna su töküb üzünə vurdu. İndi hər şey ona aydın idi. Atasının xəyalı ona doğru yol göstərmişdi. O, əslində Təbrizdə özünü şah elan etmiş İsmayılın nə iş gördüyündən xəbərsizdi. Özünü cəmləyib çıxış yolu axtardı. Bir az keçmiş əlini-əlinə vurdu. Yaxınlıqdakı mühafiz içəri girdi.

– Divan üzvlərini bura çağır, – dedi.

Divan üzvləri toplaşandan sonra Sultan II Bəyazid onların üzünə baxıb, bir-bir nəzərdən keçirdi. Kimsədə bir cəsarət yox idi ki, dillənsin, nə üçün çağrıldıqlarını soruşsun.

– Mən sizi nə üçün çağırmışam, bilirsinizmi?

Yenə hamı çiynini çəkdi. Gözlər intizarla hökmdarın üzünə zilləndi. Axır ki, divanbaşı özündə cəsarət tapıb dilə gəldi:

– Möhtərəm sultan, bizim vəzifəmiz başımızla sultanın hüzurunda müntəzir olmaqdır. O, nə buyursa, onu da icra edərik.

Sultan II Bəyazid mümkün qədər çalışdı ki, qəzəbini büruzə verməsin. Bilirdi ki, buradakılar qəzəb qarşısında tir-tir əsəcək, özünü itirəcək, bir ağıllı məsləhət də verə bilməyəcək. Ona görə də səsini bir qədər də mülayimləşdirib soruşdu:

– Sizdən bir az əvvəl məndən soruşan oldu, özünü şah elan etmiş İsmayılın hakimiyyəti hansı gücdədir? Mən də cavab verə bilmədim.

Hökmdarın hüzurunda olanlar təəccüblə baxışdılar: «Belə cəsarətli adam kim olardı ki, hökmdara sual vermək gücündə olsun». Ona görə də suallı nəzərlərlə sultana tərəf yazıq-yazıq boylandılar.

– Bəli, bəli, Sultan II Mehmed soruşdu məndən.

Hökmdarın bu sözləri əmrə müntəzir dayanmış bu mənsəb adamlarını həm təəccübləndirdi, həm də qorxutdu. Yəqin ki, onlar yenə düşündülər: «Bəlkə hökmdarın başı xarab olub, ağlı çaşıb?»

Divanbaşı dillənməli oldu:

– Möhtərəm sultanım, dedin ki, Sultan II Mehmed soruşub?

– Bəli, bəli, Sultan II Mehmed, – hökmdar onun sözünü ağzında qoydu.

– Axı, – divanbaşı güclə bircə kəlməni deyə bildi.

Sultan II Bəyazid məsələni açıqlamalı oldu.

– Bəs, atalarımızın ruhu bizdən soruşmazmı, siz neyləyirsiniz, nə iş görürsünüz?

Divanbaşı başda olmaqla hər biri hazırlaşdı ki, hökmdara son aylar baş verən hadisələr barədə bir-birinə oxşar məlumatları tutuquşu kimi təkrarlasınlar. Amma hökmdar sağ əlini yuxarı qaldırdı. Bu o demək idi ki, heç kim danışmasın, hamı sussun. Əlbəttə, onlar üçün danışmamaq daha rahat idi, ona görə də dərindən nəfəs aldılar.

Sultan II Bəyazid sözünə davam elədi:

– Hər biriniz Şah İsmayılın hakimiyyəti altında olan ərazilər haqqında mənə məlumat gətirin. Mümkün qədər Əlvənd Mirzəyə, Sultan Murada, Uzun Həsənin nəvələrinə xəbərlər göndərin, deyin ki, özlərini itirməsinlər, atalarının hakimiyyətini bərpa eləsinlər. Mirzəni də mənim yanıma gətirin. Mühafiz tez sultanın mirzəsini içəri gətirdi.

Mirzə Sultan II Bəyazidə təzim etdi. Sultan II Bəyazid yerində əyləşən mirzəyə yazmağı işarə elədi.

– Mirzə, bizə yaxın dost olan Kürd Hacı Rüstəmə dediklərimi yaz, – və sonra üzünü divanbaşıya tərəf çevirdi. – Məktub hazır olan kimi ünvanına çatdırarsınız.

Sultan II Bəyazid aramla diktə eləməyə başladı:

«Əzəmətli əmir, alicənab, böyük insan, mükəmməl hökm və möhtəşəm şan-şöhrət sahibi, mələk vəsfli, fələk cüssəli, adətlərin

ən gözəl qoruyucusu, təbil və bayraq sahibi, Allahın inayətinə nail olmuş hörmətli Hacı Rüstəm bəy! Uca məqamın daimi olsun!

Şahlıq məqamının feyzi olan bu məhəbbət dolu məktubu oxuduqdan sonra Qızılbaş camaatının Bayanduriyyənin dövlət adamlarına qarşı uzunmüddətli düşmənçiliyinin nə ilə nəticələndiyini öyrənin. Həqiqət bundan ibarətdir ki, bu bizim qüdrət sahibi olan uğurlu naiblərimizə məlum olmamış və bizim uca fələklərə bənzər dərgahımıza ərz edilməmişdir. Hazırda mübarək məktubumuz və ən yaxın adamlarımızın rəhbəri olan Keyvan Çavuş vəziyyət haqqında məlumat əldə etmək üçün tərəfinizə göndərilir. Sizin vilayətiniz o bölgələrlə qonşu olduğu üçün orada baş verənləri siz daha yaxşı bilərsiniz. Bu şanlı məktubu gətirən sizinlə görüşmək şərəfinə nail olduqda ona o tərəflərdə baş verənlər haqqında əldə etdiyiniz doğru xəbərləri təqdim edin. Bu xahişi bizim şahanə lütfümüz hesab edərək bildiyiniz hər şeyi, heç bir əskikliyə yol vermədən söyləməklə sədaqətinizin isbatına çalışın.

908-ci ilin Rəbiül-əvvəl ayında yazıldı».

Sultan II Bəyazid son sözlərini də dedi, əlini aparıb alnını ovuşdurdu, deyəsən, düşünürdü ki, deyilməli nə qaldı. Daha yeni nəsə əlavə etmək istəmədi.

Sultan II Bəyazid sanki onun əmrinə müntəzir olanları unutmuşdu, elə öz-özünə danışırdı:

– Kürd Hacı Rüstəm bizə sadiqdir. Onun atası da bizim atamızın əmrlərini həmişə yerinə yetirməyə hazır olub. Düşünürəm ki, tezliklə məktub ona çatar. O, da mövcud vəziyyət haqqında bizə ətraflı xəbər göndərər. Biz də bilərik ki, Əlvənd Mirzə haradadır, Sultan Muradın qüvvələri nə qədərdir? Bu Səfəvi ocağını alovlandıranları başlı-başına buraxmaq olmaz.

Əmirlər yer-yerdən dilləndilər:

– Bəli, bəli, hökmdar doğru buyurur.

Hava tutulmuşdu. Yay olsa da, şiddətli külək haradansa soyuq da gətirirdi. Deyəsən, hökmdar üşüdü. Bədəni titrədi. Daha di-

vandakılara heç nə deməyib, oradan çıxdı. Əvvəlcə bağ-bağçaya tərəf getmək istədi, amma, yönünü döndərib hərəmxanaya sarı yollandı.

* * *

Təbrizdə Əlvənd Mirzənin məğlub olması xəbəri Bağdadda vahimə və həyəcanla qarşılandı. Sultan Murad əmisi oğlu Əlvənd Mirzənin məğlubiyyət xəbərindən əslində, o qədər də təəssüflənmirdi, o, düşünürdü ki, onun məğlubiyyəti gələcəkdə keçmiş Ağqoyunlu səltənətinin bütün hüdudlarına yiyələnməsi üçün ona şərait yaradar. Bu zaman Sultan Murad Şah İsmayılın necə bir qüvvəyə malik olduğunu hələ bilmirdi. O, Əlvənd Mirzənin məğlubiyyətini Şah İsmayılın gücü ilə yox, əmisi oğlunun bacarıqsız, fərsiz sərkərdə olması ilə bağlayırdı.

Sultan Murad da əyanlarını yanına çağırıb Təbrizdə baş verən hadisələri müzakirə eləmək qərarına gəldi.

Bu vaxt Əlvənd Mirzə Ağqoyunlu sarayından qəsb eləyib götürdüyü xəzinənin hesabına yolboyu təzədən qoşun toplayaraq, üzü Bağdada tərəf məsafə qət etməkdəydi.

Həm Sultan Muradın sarayında baş verən hadisələr, həm də Əlvənd Mirzənin yenidən qoşun toplamaqla Qızılbaşlara qarşı yeni döyüş planı qurmaq haqqında xəbərlər bir-birinin ardınca Təbrizdə Şah İsmayıl sarayına yetməkdə idi.

Əlvənd Mirzənin Təbrizdən rüsvayçı məğlubiyyətlə baş götürüb cənub tərəflərə üz tutmasından sonra şah İsmayıl onu təqib etmək fikrində deyildi. Biləndə ki, Əlvənd Mirzə yenidən qoşun toplamaqla məşğuldur… bu artıq onu düşündürməli oldu. Ona görə də Şah İsmayıl fürsəti heçə verməyərək, tezliklə Əlvənd Mirzəni təqib etmək qərarına gəldi. Ancaq şah Əlvənd Mirzənin təqib olunması haqqında qərarını birbaşa vermək istəmirdi. Ona görə yox ki, o, bu səfərə çıxmaqdan ehtiyat edirdi. Xeyr, şah anlamışdı ki, Əlvənd Mirzə artıq onun zərbi-dəstini görüb. Şübhəsiz,

Qızılbaşların necə iradə və inadla vuruşduqlarını da bu tezlikdə unutmaz. Artıq Şahın nəzərində Əlvənd Mirzə güclü rəqib deyildi…

Şah İsmayıl Təbrizdə öz əmirləri ilə kiçik müşavirə keçirtdi.

Yenə birinci Hüseyn bəy Lələ Şamlı danışmalı oldu:

– Şahım, mürşidim, pənahım, sənin zəfər qılıncın Allahın qüdrətilə elə itilənib ki, onu dağa da çalsan, parçalayar. Belə bir vaxtda biz oturub gözləyə bilmərik ki, Əlvənd Mirzə Sultan Muradla birləşsin.

Şah lələsinin dediklərini diqqətlə dinlədikdən sonra soruşdu:

– Bəs Hüseyn bəy Lələ Şamlının təklifi nədir?

– Mən belə başa düşürəm ki, sonuncu döyüşdən sonra Şahımızın Təbrizdə qalıb dövlətin digər əmin-amanlıq məsələlərilə məşğul olması daha vacibdir. Əlvənd Mirzəni təqib etməyi bizim çox igid sərkərdələrimiz də bacarar.

Bunu deyib ətrafdakı əmirləri və ordunun adlı-sanlı başçılarını gözdən keçirtdi.

– Bəs Lələ bəy kimi məsləhət bilir? – şah yenə soruşdu.

Hüseyn bəy Lələ Şamlı bir anlıq tərəddüd etsə də, tez şahın sualına cavab verdi:

– Ey başımızın tacı, mən belə düşünürəm ki, müqəddəs yolda canını verməyə hazır olan hər bir Qızılbaş əsgəri döyüşdə hökmdarı öz yanında hiss eləyəcək. Bu işi şahımız hansı sərkərdəyə tapşırsa belə, istəyimiz uğurla başa çatar.

Hüseyn bəy Lələ Şamlının bu cəsarətindən sonra Məhəmməd xan Ustaclı ayağa qalxıb təzim elədi:

– Əgər hökmdar məsləhət bilsə, bu yüngül işin arxasınca özüm gedərdim, – dedi.

Məhəmməd xan Ustaclının sözlərindən sonra yer-yerdən səslər gəldi:

– Hökmdarın hər bir sözü bizim üçün Allahın hökmüdür!

– Hökmdarın yolunda başımız da qurbandır!

– İnşallah, tezliklə Əlvənd Mirzə nağılı da sona çatar.

Son illər, yəni Şah İsmayılın taxta çıxmasından ötən vaxt onu təkcə yaş sarıdan böyütməmişdi, həm də hər hansı bir məsələni müzakirə edərkən hər kəsi axıracan təmkinlə dinləmək, sonra öz hökmünü vermək vərdişi də yaratmışdı. Dövlətin sütunu olan əmirlərin, adlı-sanlı sərkərdələrin yüksək əhval-ruhiyyəsini görmək ona fərəh bəxş edirdi. O, yaxın ətrafını və sərkərdələrini hörmət və qürurla süzdü. Yalnız bundan sonra hamının gözlədiyi hökmü verdi: Tezliklə Əlvənd Mirzənin arxasınca gedəcəyik. Biz Əlvənd Mirzəni Sultan Muradla birləşməmiş yaxalamalıyıq. Düşünürəm ki, Allah haqq işin tərəfindədir. Böyük Yaradanın qüdrətilə bizim zəfər qılıncımız düşmənin başına enər. Dünyanı ona qaranlıq cəhənnəmə döndərər.

…Əlvənd Mirzənin qoşunları ilə Qızılbaşlar Həmədan tərəfdə qarşılaşdı. Cəmi bircə günlük döyüşdə Əlvənd Mirzənin bütün ordusu darmadağın oldu. Çünki Əlvənd Mirzə qoşunlarının saynı artırsa da, hələ döyüş təliminə yetərincə imkan tapa bilməmişdi. Yenə mərkəzdə Şah İsmayılın özü vuruşurdu. O, Əlvənd Mirzənin neçə adlı-sanlı sədaqətlisinin həyatına öz qılıncı ilə son qoydu. Döyüşü bir tərəfdən izləyən Əlvənd Mirzə Şah İsmayılın sürətlə ona tərəf yaxınlaşdığını görüb vahimələndi. Sanki ölümün qoxusunu duydu. Bununla da əli yerdən-göydən üzülən Əlvənd Mirzə başındakı kiçik bir dəstə ilə Bağdad tərəfə üz tutdu. Onun məramı burda Sultan Muradla görüşüb ondan kömək almaq idi.

Əlvənd Mirzənin qalan qoşunu hər tərəfdən mühasirəyə alındı. Qoşunun döyüşmək taqəti yox idi. Ona görə Qızılbaşların «var olsun şahımız» sədaları Əlvənd Mirzənin qoşununun qalan hissəsində qorxu və həyəcan yaratdı. Şeypurlar çalındı. Şah döyüşü dayandırmaq əmri verdi. Carçılar elan elədilər ki; «Hər kim Şah İsmayılın tərəfinə keçsə, canını və nəslini xilas edər. Ancaq bu şərtlə ki, gərək cani-dildən Qızılbaş təriqətini qəbul etdiyini bildirsin, şaha sədaqət andı içsin».

Əlvənd Mirzənin qoşunundan min nəfərə qədər Təbriz və Təbriz ətrafından olanlar – ərdəbillilər sədaqət andı içdilər. Qalan üç min nəfərdən çox adam baş götürüb səhranın dərinliklərinə tərəf getdi. Onlardan az qismi Əlvənd Mirzəyə özünü yetirsə də, bunlar Əlvənd Mirzə üçün qüvvə deyildi…

Əlvənd Mirzənin Bağdad yolunda başına gələnlər onu bir qədər də sarsıtdı. Yazıq və ruhdan düşmüş görkəmdə Sultan Muradın yanına özünü çatdırdı.

Əlvənd Mirzə Sultan Muradın hüzuruna yetəndə özünü cəmləyib məğrur və inamlı göstərmək istədi. Ancaq əmisioğlu Muradın soyuq baxışları bir anda onun qürurunu yerlə-yeksan elədi. Murad Mirzə ayağa durub ona tərəf iki addım atdı. Əlvənd Mirzə qollarını açıb onun üstünə yeridi, bərk qucaqladı. Az keçməmiş, Sultan Murad üzündə, boyun-boğazında Əlvənd Mirzənin göz yaşlarını hiss etdi. Axır ki, onlar bir-birindən aralandılar. Sultan Murad heç nə demədi. Birinci Əlvənd Mirzə dillənməli oldu:

– Qardaş, gördün də, bu Allahın bəlası ilə qarşılaşmaq mənim başıma nələr gətirdi.

– Sən babamız Uzun Həsənin ruhunu xəcil elədin. Bir Ərdəbil cocuğu ilə bacara bilmədin. Sənin məğlubiyyətin əslində ona qol-qanad verdi.

– Əgər sən vaxtında köməyə gəlsəydin…

Əlvənd Mirzə sözünün gerisini gətirmədi.

– Mən İsmayılın gücünü bilmədiyim halda, gəlib sənə qoşulsaydım, Allah bilir, mənim halım necə olardı? Bir də ki, sən əvvəlcə onunla tək vuruşmaq iddiasında idin. Elə bilirdin ki, qalib gəlib Ağqoyunlu səltənətinin bütün torpaqlarını əlində cəmləyəcək, sonra da mənimlə qılınc gücüylə danışacaqsan.

Murad Mirzənin bu sözləri Əlvənd Mirzəni daha da sarsıtdı, hətta onun gizli niyyətindən xəbərdar olan əmisioğlunun baxışları qarşısında tablamadı. Başını bir az da aşağı dikdi. Daha heç nə demədi, susdu.

Onda Murad Mirzə təkrar soruşdu:

– Bəs sənin məramın nədir, indi neyləmək istəyirsən?

– Əgər məsləhət olsaydı, biz qüvvələrimizi birləşdirib, İsmayılın üzərinə gedərdik.

Sanki Murad Mirzəni ilan çaldı. Sərtliklə başını qaldırıb düz Əlvənd Mirzənin önünə gəldi. Onun gözlərinin içinə baxıb qışqırdı:

– Hanı sənin qüvvən? Hələ Bağdada çatmamış, Qasım bəyin kiçik dəstələrinə qarşı da duruş gətirə bilmədin. Səninlə gəlmiş qoşunun tör-töküntüsü də Bağdad ətrafında ac-yalavac pərən-pərən düşüb. İndi istəyirsən ki, Şah İsmayıl sənin burada olmağını bəhanə eləyib, bu tezliklə Bağdada qoşun çəksin. Bizim də hələ döyüş hazırlığımızın bu kasad vaxtında…

– Bəs onda Murad Mirzə mənə nə məsləhət verir? – Əlvənd Mirzə soruşdu.

– Sənin qoşun dediyin adamlarına Diyarbəkirə qədər çatası ərzaq, geyim verərəm, ancaq tezliklə burdan çıxıb getməlisən.

Bu vaxt Şah İsmayıl Həmədan – Ucan tərəflərdə azacıq istirahət edəndən sonra adamlarına Təbrizə qayıtmaq əmri vermişdi. Hələ ki ölkədə sakitlik idi. Şah İsmayıl öz gələcək qüvvələrini bərpa etmək işləriylə məşğul idi, Təbrizdə hərbi emalatxanalar tikdirir, silahlar hazırlatdırırdı. Şirvan, Qarabağ, Muğan tərəflərə namələr göndərilirdi. Yerli əmirlərdən canlı qüvvə istənilirdi.

1505-ci ilin yazbaşı Təbrizə xəbər çatdı ki, Əlvənd Mirzə Diyarbəkir tərəflərdə ruhdandüşmə və sarsıntı xəstəliyindən Mardin şəhərində dünyasını dəyişib. Onun ətrafında olan qüvvələr isə Sultan II Bəyazidin göndərdiyi xəbərlərdən yapışaraq tərəfinə keçiblər. Və bu vaxt Kürd Hacı Rüstəmdən cavab məktubu Sultan II Bəyazidə çatmışdı. Kürd Hacı Rüstəm yazırdı: «Batil məzhəbdən olan qızılbaşların hazırkı vəziyyəti belədir: Əlvənd Mirzəyə zərbə endirib İraqi-əcəmə getdilər. Orda Murad xana qalib gəlib, ordusunu darmadağın elədilər. İraqi-ərəbdə Pırnakların işini bitirdilər,

Misir çərkəzləri ilə sülh bağlayaraq, müttəfiq oldular. Hazırda Məraş və Diyarbəkirə doğru yönəliblər. Onların zülmündən Persin vəziyyəti pərişandır. Məmləkət və vilayətlərin əksəriyyəti onların işgəncələrilə viran olmuşdur. Allahın fəzilətindən ümidimiz budur ki, uca Allahın istəyilə Allah yolunda döyüşlərindən mizraq və nizələri, müsəlman mücahid döyüşçülər və zəmanənin şahənşahının qan fışqıran oxları vasitəsilə bu zalım dəstənin kökü kəsilib, məhv edilsin. Fərmanınızın qalan hissəsi icra ediləcəkdir». Sultan II Bəyazid məktubu özü oxudu, sonra fikrə getdi. Sonra məktubu yenidən oxudu. Rəngi avazımışdı, hirsindən əlləri əsirdi.

* * *

Aləmşah bəyim Əlvənd Mirzəylə son döyüşdən qayıdan oğlunun hal-əhvalını çox yaxşı görürdü. At üstündə Təbrizə qayıdan şah bütün əmirlərin, onu əhatə edən döyüş qəhrəmanlarının arasında bir günəş kimi parlayırdı. Şahı qarşılayan «Həşt-behişt» sarayının sakinləri və divan adamları arasında Aləmşah bəyim də vardı.

Bir az əvvəl saray əhli hökmdarın qayıtmaq xəbərini bir-birinə muştuluqlayırdılar. Onun parlaq qələbəylə qayıtması hamını sevindirdiyi kimi, anası Aləmşah bəyimi də bərk sevindirmişdi. O, da saraydakı qarşılanma mərasiminə xüsusi bir sevinclə qatılmaqdaydı. Sarayda yaşayan əmirlərin ailə üzvləri – xanımları, gənc qızları da onunla bahəm sarayın önünə çıxmışdı.

Hökmdar divan adamları ilə görüşüb, saraya tərəf irəlilədi. Uzaqdan anasını qız-gəlinlərin içində görən gənc şah iri addımlarla ona doğru getdi. Yaxınlaşıb dizini yerə qoydu, anasının əllərindən tutdu. Bir anlığa ona elə gəldi ki, hələ körpəykən canını hər cür bəlalara sipər edərək, oğlunu qoruyan ananın əllərinin hərarəti heç dəyişməyib.

Aləmşah bəyim də həmin hisslərlə xeyli uzaqda qalmış həmin günləri xəyalından keçirirdi. Qəhqəhə qalasında oğlu ilə tənha ke-

çirdiyi günlər birər-birər gözlərinin önünə gəldi. Qəm-kədər onu boğanda balaca İsmayılı qucağına sıxıb əri Şeyx Heydərin yadigarı kimi əzizləyərdi. Bəzən ümidsizliyə də qapılardı. Bəlkə heç bu qaladan kənara çıxa bilməyəcəkdilər?..

Bir dəfə balaca İsmayıl anasından soruşmuşdu:

– Biz bu qaladan nə vaxt çıxacağıq?

Aləmşah bəyim oğlunun saçını sığallamış, gözlərinə baxıb demişdi:

– Ümidim, pənahım, sən böyüyəndən sonra bu qaladan mütləq çıxacağıq.

– Bəs hara gedəcəyik, harada evimiz olacaq? – İsmayıl israrla maraqlanmışdı.

– Bütün Azərbaycan bizim evimiz olacaq, ümidim, – ananın bu sözləri İsmayıla xoş gəlsə də, yenə öyrənmək istəmişdi:

– Axı, nə üçün bütün Azərbaycan bizim evimiz olsun?

– Çünki sənin atan belə arzulayırdı.

– Hə, atam… Atama da yəqin ki, kimsə tapşırıb.

– Hə, atana da baban Şeyx Cüneyd tapşırmışdı. O, da öz babasının vəsiyyətini yaddan çıxartmamışdı.

Ana-bala arasında baş tutan bu səmimi mükalimə onun yaddaşına elə o vaxtdan həkk olmuşdu.

Zaman-zaman İsmayıl bu sözləri xatırlayıb, anlamadığı tərəflərini də dustaq qaldığı qaladan çıxandan sonra ona lələlik eləyən Hüseyn bəydən öyrənmişdi. Hüseyn bəy Lələ Şamlı Şah İsmayılın şəcərəsi haqqında yaxşı bilgi sahibi olduğundan hər şeyi ona erkən başa salmışdı. Hüseyn bəy Lələ Şamlının sayəsində İsmayıl döyüş fəndlərini mənimsəmiş, pəhləvanlıq sənətinə sahib olmuşdu. Hələ yeniyetmə ikən döyüşlərə atılmamış belə qalxanı qılıncıyla yarı bölür, ağır zəncirləri bir zərbəylə qırıb tökürdü.

Şah az vaxt ərzində sanki keçmişinə səyahət eləyir və necə böyüdüyünü öz xəyalında canlandırırdı. Bir anlığa ona elə gəldi ki, bir şah kimi adamların gözü qabağında diz çöküb dayanması

qəbahət olar, başını qaldırıb anasının üzünə baxdı. Aləmşah bəyimin gözləri yaşla dolmuşdu. Şah ayağa qalxıb anasının boynunu qucaqladı. Ananın dolmuş gözlərindən axan yaş oğlunun ağappaq sifətini islatdı. Şah hər iki əlilə anasının gözlərinin yaşını sildi. Anası gülümsündü.

– Sən evimizə gəlmisən, İsmayıl.

– Bəli, ana, evimizə gəlmişəm, indi bütün Azərbaycan bizim evimizdi.

– Şükür, Xudanın kəráminə min şükür, Şeyx Heydərin arzusu yerinə yetir.

Aləmşahın dilindən çıxan bu sözlər sanki İsmayılın şahlıq qürurunu, böyük bir ordunun sərkərdəsi olmaq mərtəbəsini onun yadına saldı. Şah dönüb baxdı. Əmirlər lap yaxında idi, hər kəs saraya keçmək üçün onu gözləyirdi. Şah anasından bir qədər aralanıb, sarayın digər xanım-xatunlarına salam verdi. Sağ əlini sinəsinə qoyub, başını tərpətdi. Bu vaxt onun diqqətini anası Aləmşah bəyimin böyrünə qısılmış bir qız özünə çəkdi. Şahın nəzərləri qızın üzərindən çəkilmədi. Nə illah elədi ki, başını yana çevirsin, bacarmadı. Çünki o gözəlin gözlərindən gözəgörünməz tellərlə bir tor atılmışdı. Və o tor da gənc şahı əsir eləmişdi.

Bu vaxt Şah İsmayıl yeniyetmə idi. Bığ yeri təzəcə tərləmişdi. Onda başı hərb elminə qarışmış və eyni zamanda qalan vaxtını ədəbiyyata, qədim Şərq elmlərini öyrənməyə sərf eləmişdi. O, xalq arasında dolaşan dastanlardan xəbərdar idi. Hüseyn bəy Lələ Şamlının ona dərs demək üçün ayırdığı filosoflardan mükəmməl dərs almış, öyrənmişdi ki, bəzən məhəbbət ilk baxışdan insanın qəlbinə yol tapır. Və insan ömrü boyu bu ilk dəfə varlığına yol tapmış sevgini unuda bilmir, onun əsir – yesirinə çevrilir.

Əslində, İsmayıl günəş üzlü Şahbigə xanımı çoxdan tanıyırdı. Bilirdi ki, Əbdi bəyin qızıdı. Gözəlliyinə, görkəminə görə atası onu qızların şahı adlandırırdı. Elə bu üzdən onun əsl adı unudulmuşdu. Hamı elə «Taclı» deyə çağırırdı.

Amma indi, deyəsən, gənc şah Taclı bəyimi ilk dəfə elə indi görürmüş kimi ona diqqət kəsilmişdi. Həqiqətən də şah sanki Taclı bəyimi heç indiyədək görməmişdi. Və bu ilk görüş onun qəlbində elə bir vəlvələ yaratdı ki, şahlığı da, taxt-tacı da… hər şeyi bircə anda yaddan çıxartdı, bir könüldən min könülə aşıq oldu.

Əmirlər hərəkətə gəldi. Şah daha dayana bilməzdi. Saray adamları bir tərəfə çəkildilər, ancaq bundan sonra şah içəri necə keçdi, heç özü də bilmədi. Özü-özünə təəccüb qalmışdı. Necə olub ki, indiyədək Taclı bəyim onun diqqətini cəlb etməyib? Saraybaşının təklifinə görə Həşt-behişt bağının bir tərəfində şənlik başladı. Hətta adamlara xəbər verildi ki, bu şənlik üç gün davam edəcək. Və şah da istirahət edəndən sonra bu məclisə təşrif buyuracaq.

Əbdi bəy fikirliydi. Dərhal xanəsinə qayıtdı. Onun əmirlərdən tez ayrılmasına heç kim fikir vermədi. Əbdini arvadı qarşıladı. Gülnaz xatunun onu sevgiylə qarşılamasının da deyəsən, elə bir ciddi təsiri olmadı.

– Niyə fikirlisən, əzizim, döyüşdən ki, qələbəylə dönmüsən?

– Bəli, şahımız qalib gəldi.

– Demək, həm də sən qalib gəlmisən. Niyə özünü ayırırsan?

– Elə də demək olar. Biz ümidimiz, pənahımız, mürşidimiz üçün vuruşuruq…

– Bəs onda niyə belə bikef, tutqun görünürsən?

– Bilirsən, Gülnazım, səndən nə gizlədim, biz saraya daxil olanda, mən bir mənzərəni müşahidə etdim, halımı dəyişdi.

– De görüm, canım sənə qurban olsun, o nə mənzərə idi ki, sənin kefini pozub?

– Mən gördüm ki, gənc şah bizim qızımıza diqqətlə baxır.

– Bunda pis nə var ki, mənim əzizim?

– Mən demirəm ki, bunda pis nəsə var, amma gərək unutmayaq İsmayıl şahdır. Biz də onun təbəələriyik. Şahın əlinin üstündə əl yoxdu. O, bu gün birinə aşiq olar, sabah da başqasına. Əgər

bu söz-söhbət araya çıxsa və bir gün şah bizim qızımızdan üz döndərsə, onda gərək mən əmirlərin arasına çıxmayam.

– Əbdi bəy, sən Təkə-Turkman elindənsən. Doğrudur, səni Əbdi bəy Şamlı adlandırsalar da, nəslini, əslini unutmamısan. Bir vaxt Şeyx Heydərin yanında da sədaqətlə qulluq etmisən. Düşünürəm ki, şahımız İsmayıl da vaxtilə atası Şeyx Heydərin sənə olan böyük rəğbətindən xəbərdardır…

– Mənim gözəl xanımım, başa düşürəm, sən demək istəyirsən ki, İsmayıl heç vaxt istəməz, atasının yaxın dostu Əbdi bəyin başı əmirlər arasında aşağı olsun.

– Bəli, mən elə onu demək istəyirəm.

Deyəsən, Əbdi bəy xatunuyla bu söhbətdən sonra xeyli yüngülləşdi, sakitləşib şirin yuxuya daldı. Onu sıxan qara-qorxulu fikirlər də başından dağılıb getdi. Yalnız bundan sonra bir qədər dincəlməli və sonra şahın şənlik mərasiminə qatılmalı olduğunu mürgülü-mürgülü yadına saldı.

* * *

Şah hücrəsinə çəkilmişdi. Xəyalı bayaqkı gözəlin gözləri önündə əsir qalmışdı. Ha çalışırdı ki, bu gözlərin əsirliyindən xilas olub, dincəlsin, neçə günün yorğunluğu canından çıxsın. Həm də öz hücrəsinə gəlməzdən əvvəl Hüseyn bəy Lələ Şamlı ondan soruşmuşdu ki, şənliyə nə vaxt gələcək. O, da ümumi bir cavab vermişdi: «Əmirlər neçə günün yorğunudurlar, qoy onlar da dincəlsinlər. Sən özün nə vaxt məsləhət bilsən, mənə qabaqcadan xəbər verərsən».

Hüseyn bəy Lələ Şamlı şahın bu cavabından sonra çıxıb getmiş, yəqin şahın dincəlməsi üçün ona sakitlik yaratmağın vacib olduğunu da unutmamışdı. Axşamdan xeyli keçmişdi, hələ də şənlik davam edirdi.

Şah hücrəsindən çıxdı. Kimsəyə heç nə demədən yaxınlıqdakı rəngbərəng güllərlə dolu bağçaya girdi. Bağçanın ətrafında çılçı-

raq şamdanlar xoş qoxulu şamların işığı ilə bərq vururdu. Axşam çoxdan düşsə də, bu çilçıraqların işığında güllərin gözəlliyi daha artıq nəzərə çarpırdı. Gənc şah güllərin arasıyla irəliləmək istədi. Bu vaxt tanış qara gözlərlə qarşı-qarşıya gəldi. Bəli, bu həmin gözlər idi, yuxu deyildi. Günəş üzlü Şahbigənin gözləri.

– Axşamın xeyir, günəş üzlü gözəl.

– Hər vaxtın xeyir, tacidarım.

– Mən haradan sənin tacidarın oldum?

– Hökmdar, sən indi bütün ölkənin tacidarısan, demək mənim də tacidarımsan.

Hökmdar gənc qızın sözlərindən bihuş oldu. Əvvəlcə öz sərt sualı ilə qızı incidəcəyini düşünmüşdü, ancaq qız çox ustalıqla vəziyyətdən çıxmışdı. Sanki bununla hökmdara sözünün yerini bilmək dərsi vermişdi. İsmayıl yaxına gəldi. Qız hiss elədi ki, İsmayıl əlindən tutmaq istəyir, azca geri çəkildi. Şah onun geriyə çəkilməsindən tutuldu, bir az da inadlandı. Qabağa yeridi. İki əlini uzadıb qızın qollarından yapışmaq istədi. Qız yenə dala çəkildi. Bir tərəfdə gül kolları, arxada iri gövdəli dağdağan ağacı. Şahbigə ağacı özünə arxa-dayaq bildi. Yaxınlaşan şaha təlaşlı vahiməli gözlə baxdı:

– Bax ha, xəta eləməyəsən…

Şahın sanki qol-qanadı sınıb yanına düşdü.

Qız titrəyə-titrəyə ona baxırdı. İndiki halda o, sanki ürkək bir ceyran balasıydı. Necə qarşısındakı gəncdən təhlükə gözləyirdisə, eləcə də kömək umurdu, xilasını onda görürdü.

İsmayıl yaxına getmədi. Eləcə heyran-heyran dayanıb heyrətlə baxdı.

– Mən hiss elədim ki, sən mənim qəlbimi fəth eləmisən. İndi necə sənə doğru gəlməyəydim?

Gənc İsmayılın bu sözləri qızın qəlbində çox həzin və xoş duyğular oyatdı. Ancaq demədi ki, elə şah da onun qəlbini ovsunlayıb. Əlbəttə, bunu qüruruna sığışdıra bilməzdi, indiki halda dilinə gətirsin. Ancaq onun «xəta eləməyəsən» xəbərdarlığı gənc

hökmdarın düşüncəsinə hakim kəsildi: «Demək, hökmdar olsan da, bir zəifi əzmək haqqın yoxdur». İsmayıl özünü toplayıb:

– Bəs nə əcəb bu ayüzlü gözəl şənliyə getməyib? – soruşdu.

– Könlüm bağçaya çəkdi, bir az güllər arasında olum. Hökmdar izin versə, indi gedərəm.

Şah İsmayılın ürəyi atlandı, indi o, şah deyildi. Qəlbi sinəsindən qopardılıb aparılmış yaralı aşiq idi. Sinəsi həyəcanla qalxıb-enir və dodaqaltı nəsə pıçıldayırdı.

* * *

Aləmşah bəyim yaxındakı eyvana çıxmışdı. Oğlunun Əbdi bəyin qızı ilə isti mehrindən necə fərəhləndisə, az qala pillələri sürətlə düşüb onların yanına yüyürəcəkdi. Xəyalına özünün ilk gənclik çağları gəldi. Yadında Şeyx Heydərlə ilk görüşü düşdü. O zaman atası Uzun Həsən bunu görərkən, necə də sərt baxışlarla onu süzmüşdü.

…Aləmşah bəyim əvvəlcə atasının ona baxdığını bilmirdi. Qarşısındakı gəncin boyu qırmızı zolaqlı çalma ilə bir az da uca görünürdü. Gənc Şeyx dayısı Uzun Həsəndən çəkindiyindən uzunboy görkəmilə Aləmşah bəyimə lap əlçatmaz olmuşdu. Hərçənd ki, Aləmşah bəyimin özünün də boyu Şeyx Heydərin boyundan aşağı deyildi. Şeyxin nəzərləri ahənrüba cazibəsilə gənc saray gözəlini özünə tərəf çəkirdi. Hökmdar qızı sanki hər şeyi unutmuşdu. Yadından çıxartmıştdı ki, sarayın bütün gözəlləri onun bircə baxışıyla diz çökər, hər hansı bir mərəkədə görünəndə nəinki təkcə xanım-xatınlar, elə sarayın adlı-sanlı igidbaşıları da üzlərini, gözlərini gizlətməyə yer axtarırdılar. Amma indi necə oldusa, Tanrının qənirsiz kişi gözəlliyi bəxş eləmiş cavan Şeyx diqqətini ondan ayırmırdı. Ən qəribəsi bu idi ki, Aləmşah bəyim özü istəmədən Şeyxə doğru irəliləyirdi. Elə bil gözəgörünməz hansısa bir qüvvə onun ixtiyarını əlindən almışdı. Şeyxin gözlərindən atılan tor Aləmşah bəyimi tutub özünə tərəf dartırdı. Düz Heydərin

qabağında dayandı, gəncin qolları yanına düşmüşdü. Sakit-sakit mənzərənin seyrinə dalmışdı, amma əlbəttə, bu sükut etməyinin özündə bir heyranlıq, bir əsirlik vardı. Aləmşah bəyim bilmirdi ki, onun düşündüklərini elə Şeyx Heydər də xəyalından keçirir. Cəsarəti, hökmdarın hüzurundakı qətiyyətilə saray əhli arasında məxsusi nüfuz qazanmış Şeyx Heydər özü də bilmirdi ki, niyə bu gənc qızın qabağında belə məlul-müşkül dayanıb.

Yenə Aləmşah bəyimin şücaəti üzə çıxdı.

– Mən istədim ki, Şeyx övladına salam yetirim.

Doğrudur, bu sözləri dedi, ancaq o saat anladı ki, əslində, Heydərə yaxın gəlməkdə məqsədi ona salam vermək deyildi. Sadəcə, heç özünün də xəbəri olmadan onu boylu-buxunlu oğlanın nəzərləri çəkib gətirmişdi.

Şeyx Heydər bir az özünü toparladı. Ancaq hiss elədi ki, dillənə bilmir, ağzı kilidlənib. Dillənsəydi, dili topuq çalacaqdı. Əvvəlcə çiyinlərini çəkdi, bununla sanki Aləmşah bəyimə «ixtiyar səníndi» demək istəmişdi. Aləmşah bəyim Şeyxin bir az ağarmış sifətinə, bir az da heyrətlə, heyranlıqla baxan gözlərinə ani də olsa, nəzər yetirdi. Və yenə özü dillənməli oldu və: – Bəlkə Şeyx oğlu mənim salamımı gözləmirdi? – dedi.

– Dünyanın bütün gözəllərinin şahı məni heyrətdə qoyub. – Axır ki, daşa dönmüşdən səs çıxdı. Sonra da özündə cəsarət tapıb əlavə elədi: – Mən deyirəm, günəş haradan doğub ki, hökmdar qızı, gözəllər şahı üzünü mənə tərəf döndərib.

– Şeyx bizə çox iltifat göstərir.

– Hökmdar qızı bundan da çox iltifata layiqdi. Ancaq hökmdar qızı incimәsin. Mənim iltifatım bu qədərdir.

– Bəlkə hökmdar qızına bundan artıq iltifatı layiq bilmirsən, Şeyx?

– Elə deməyin, ürəyimi qana döndərirsiz. Mən heyrətimdən özümə gələ bilməmişəm. Hələ inana bilmirəm ki, hansı cəsarətlə sənin hüzurunda belə danışıram.

– Bütün məmləkət sənin cəsarətindən danışır ki… – Aləmşah bəyim Şeyxi yenə süzüb, sözünün gerisini gətirdi. – Bəlkə Şeyx başını qaldıra.

– Günəşin qabağında gözlərim qamaşır, baxa bilmirəm.

– Biz günəş deyəndə elə Şeyxi düşünürük. Bəs o, kimi nəzərdə tutur?

Heydər özündə cəsarət tapıb irəli gəldi. Heç özü də bilmədi ki, əllərini nə vaxt qabağa uzatdı. Elə bil məhbus cinayətinə görə qollarına taxılası qandalları gözləyirdi.

Aləmşah bəyim Şeyxin sağ əlini tutdu. Şeyx də sol qolunu Aləmşah bəyimin çiyninə uzatdı. İndi gözlər bir-birini ovsunlayırdı. Bu ani bir məqam idi. Vaxt elə də çox ötməmişdi. Amma Aləmşah bəyimə də, Şeyx Heydərə də elə gəlmişdi ki, onlar elə bütün günü dayanıb beləcə, baxışıblar. Və zamanın necə keçdiyindən də xəbərsiz idilər.

Daha bundan gerisi yox idi. Şeyx Heydər bir anlığa olub-olacaqların hamısını xəyalından keçirtdi. Dayısı Uzun Həsənin, Ağqoyunlular səltənətinin böyük hökmdarının bu ünsiyyətə necə baxacağını da əlbəttə, götür-qoy elədi. Amma onda inam yarandı ki, dayısı Uzun Həsən bu münasibətə pis baxmaz. Qızın əlinin hərarəti Şeyxin əlindən keçib damarları ilə qoluna, ordan da bütün bədəninə yayılmışdı. Oğlanın üzü qızarmış, yanaqları od tutub yanırdı. Eyni hissləri Aləmşah bəyim də keçirirdi. O da sanki alovun içinə atıldı. Qəribə idi ki, heç biri bu od-ocaqdan qaçmaq istəmirdi. Bu məhəbbət odunun onları daha artıq yandırmağını istəyirdilər. Şeyx, deyəsən, ayılan kimi oldu, əlini geri çəkdi. Aləmşah bəyim istədi əlini buraxmasın. Hansı hissin təsiriyləsə canına qorxu düşdü. Ona elə gəldi, kimsə kənardan onlara baxır, bütün hərəkətlərini izləyir. Bu anda gözünü dolandırıb ətrafa nəzər saldı.

Uzun Həsən sarayın yuxarı eyvanından dayanıb aşağı baxırdı. O, elə indicə çıxmışdı eyvana. Uzun Həsən baxanda bəlkə də onlar əllərini bir-birindən ayırmışdılar. Hər halda sərt təbiətli hökm-

darın baxışlarında kəskin qəzəb duyulmurdu. Buna baxmayaraq, qız atasının diqqətindən həyalandı, dönüb getmək istədi. Ancaq Şeyx Heydər dayısının onları müşahidə etməsini bilsə də, – çünki Uzun Həsən Şeyx Heydərin arxa tərəfində – hündürdə dayanmışdı. Heydər onu görə bilmirdi. Əslində qızın təlaşından bunu oxumuşdu. Geri çəkilmədi. Dilinin ucunda saxladığı, ürəyindən gələn pıçıltını sözə çevirdi:

– Qəlbimin hökmdarı, get, ancaq unutma, ürəyimi aparırsan. Bu, mənim səndə yeganə əmanətimdir.

– Əgər əmanətdirsə, mən onu qoruyaram, xəyanət eləmirəm. Bir kimsənin bəd nəzərinə yol verməərəm.

– İnandım, şah qızı.

– Ancaq sən də unutma, Şeyx, bunu bil ki, son nəfəsiməcən qəlbimin taxtının, tacının sahibi sənsən.

– Yaxşı yol, şah qızı, gözlə məni, görək qəza-qədər nə gətirir?

– Tanrı sevənlərin tərəfindədir, Şeyx, bunu ki, sən yaxşı bilərsən.

– Əlbəttə, şah qızı, ancaq onu da bilirəm ki, sevənlər səadətlərinə asanlıqla qovuşmurlar.

– Allahdan nə gəlsə, gərək, bizə xoş olsun, mənim Şeyxim.

– Əlbəttə, böyük Allahın iradəsinə qarşı dura bilmərik. Son anda kərəminə və rəhminə, hökmdarın ədalətinə sığınarıq.

Uzun Həsən hələ də eyvandan müşahidə edirdi. Qızının və bacısı oğlunun nə danışdığını eşitməsə də, onların söhbətlərindən bir məhrəmlik, səmimilik duyurdu. Uzun Həsən hiss edirdi ki, bacısı oğlu da, qızı da könül söhbətlərinin xoş məqamlarını yaşayırlar. Bu anda Uzun Həsən hökmdarlıq qüruruna güc gəldi. Onun atalıq duyğusu hökmdarlıq qüruru ilə üz-üzə gəlmiş, axıracan özünü cilovlaya bilməmişdi. Sanki bu iki qüvvə, özü də yenilməz qüvvə çarpışırdı, döyüşürdü.

Deyəsən, son məqamda atalıq hissi hökmdarlıq qüruruna üstün gəldi. Qızı ilə bacısı oğlunun ilk görüşünə mane olmaq istəmədi, geri çəkildi.

Aləmşah bəyim gözlərini süzdürüb, eyvana tərəf baxmağa işarə elədi. Şeyx Heydər indi hər şeyi anladı. Başını döndərib eyvana tərəf çevriləndə, Uzun Həsəni dönüb gedən gördü.

Əlbəttə, Şeyx Heydər hökmdar hüzurunda bir təbəənin keçirə biləcəyi həyəcanları da yaşadı. Ancaq artıq ox kamanından çıxmışdı. Bir də geri qayıdası deyildi. Uzun Həsən kölgə kimi çəkilib getdi, sanki onun vahiməsi də yox oldu. Ancaq hər iki gəncin hissləri bu vahiməni canlarından tam ötürməmişdilər.

Birdən Şeyx Heydər şimşək kimi irəli şığıdı. Nəvazişlə qızın çiyinlərindən yapışdı, özünə tərəf çəkdi. Odlu təşnə dodaqlar bir-birinə qovuşdu. Bir neçə an yer-göy, dünya unuduldu. Onlar özlərini göyün yeddinci qatında hiss edirdilər. Qanadlanıb göy üzündəki buludlardan da yuxarıda üzürdülər. Qəfil külək əsdi. Ağacların xışıltısı, yarpaqların titrəyişi gəncləri təzədən özlərinə qaytardı. Ayrılanda nə Aləmşah bəyim Şeyx Heydərə, nə də Şeyx Heydər Aləmşah bəyimə baxdı. Aləmşah bəyim qaça-qaça getdi. Şeyx Heydər isə asta addımlarla vüsal yerindən uzaqlaşdı.

Bu hadisədən xeyli ötdü. Şeyx Heydər hərbi səfərə getdi. Aləmşah bəyimin gecəsi-gündüzü olmadı, bəzən bütün gecəni oyaq qalıb, səhəri dirigözlü açırdı. Sevgilisinin səfərdən nə vaxt qayıdacağının xiffətini çəkirdi. Tez-tez adlı-sanlı igidlərin döyüşdə şəhid olmaları xəbərləri gəlir, onların cəsədlərini Təbrizə gətirib hörmətlə dəfn edirdilər. Belə bəd xəbərlərin hər biri Aləmşah bəyimin ürəyini üzürdü. Zaman keçdikcə, o hadisələrə öyrəşməyə başladı və onda belə bir inam yarandı ki, Şeyx Heydər Allahın pənahındadır. Onu Allah qoruyur, bir kimsənin gücü çatmaz Şeyx Heydəri döyüşdə yenməyə.

Əlbəttə, sevənlərin bir-birinin intizarını çəkməsi şirin bir əzabdı. Bu əzabı Aləmşah bəyim varlığında hələ çox daşıyacaqdı.

…Bəlkə də oğlunun səsini eşitməsəydi, Aləmşah bəyim bu kədərqarışıq, artıq keçmişdə qalmış xatirələri yaddaşında çox çö-

zələyəcəkdi. O, hələ Şeyx Heydərlə görüşündən sonrakı hərbi səfərdən qayıdışının ləzzətini də təzədən yaşamaq istəyirdi. Amma yox, gənc oğlu İsmayılın – Səfəvi xənadanının böyük hökmdarının rəvan bir istəklə sanki nəğmə kimi avazına diqqət kəsildi. Şah İsmayıl deyirdi:

*Getmə sən, eşqin ki, bir gənci-nihan əldən gedər,*
*Bil ki, sən getsən yanımdan, təndə can əldən gedər…*

Gənc şah rəvan səsiylə, özü də incitək düzülmüş sözləri bədahətən varlığının səsi, nəğməsi kimi oxuyurdu. Aləmşah bəyim oğlunun şeirə, qəzəliyyata vurğunluğunu anlayırdı. Nizamini, Firdovsini öyrəndiyini, Xaqanidən, Nəsimidən xəbərdar olduğunu bilirdi, Təbrizin məşhur şairlərindən də rübailər, qəsidələr söylədiyindən xəbərdar idi. Ancaq oğlunun belə bədahətən rəvan qəzəl söylədiyini ilk dəfə eşidirdi…

* * *

…Aləmşah bəyim özü oğul anası istəyilə hökmdar anası qürurunun arasında dayanmışdı. İlk vaxtlar oğlunun sevgi bağından çiçək dərmək istəyi onu elə qanadlandırdı ki, özünü dünyanın ən xoşbəxt, ən bəxtəvər bir insanı kimi görürdü. Bir vaxt əri Şeyx Heydər son döyüşə gedəndə Aləmşah bəyimi bağrına basmışdı. Qayğılıydı, görünür, ürəyinə nəsə dammışdı və vidalaşarkən dediyi sözləri xatırladı: «Çalış, oğullarımızı qoru. Onlar bizim qura bilmədiklərimizi quracaqlar, edə bilmədiklərimizi edəcəklər. Sən onlara kimliyimiz haqqında danışarsan. Onlar özləri anlayacaqlar, hansı yol bizim cəddimizin göstərdiyi yoldur». Və Aləmşah bəyim həm də ona görə sevinirdi ki, itirdiyi oğullardan – Sultan Əlidən, Şeyx İbrahimdən sonra yeganə övladı İsmayıl gözünün ovu olan bir gözəllə ailə quracaq. Onun bu izdivacdan dünyaya gələcək övladları Şeyx Səfidən başlamış, Şeyx Cüneyddə qırılmış, Şeyx Heydərlə açılmış və təzədən dayanmış – indi Allahın rizasıy-

la İsmayılın sayəsində davam edəcək nur yolu – Haqq yolu uzun zamanlara doğru bir karvan çəkib aparacaqdır; nəsil karvanı, haqq, həqiqət karvanı…

Amma Aləmşah bəyimin o da xəyalından keçdi ki, Şah İsmayıl Allah nuru olan sevdası ilə kama çatarsa, onun bu izdivacdan dünyaya gələcək övladları Tanrının köməyilə yəqin ki, Uzun Həsənin övladlarının yolunu tutmazlar. Bunu düşünərkən Aləmşah bəyimin sanki ürəyi sancdı, nəfəsi darıxdı. İçəridən gələn bir səs qulağına pıçıldadı ki, İsmayılın yolu haqq yoludur. Onun gələcək övladları da haqq yolundan çəkilməzlər…

Və bu zaman istər-istəməz bir-birilə qanlı münaqişələr, müharibələrlə çəkişən doğmalar, əslində, Uzun Həsən səltənətini öz əməllərilə çökdürən doğmalar hələ də səhvlərini anlamır… və bunu da xəyalından keçirdi ki, əgər Əlvənd Mirzə, Murad Mirzə, bir sözlə, Ağqoyunlu səltənətinin böyük hökmdarından gələn nəslin davamçıları gərək İsmayıla mane olmasınlar. Çünki onların hökmranlıq günəşi batmaqda, İsmayılınkı doğmaqdadır.

Aləmşah bəyim nənəsi Sara Xatunu yadına saldı. Yaxşı xatırladı ki, nənəsi bir zaman onu dizinin üstündə oturdub uzun saçlarına sığal çəkər, gərdəninə dolanmış saçları qulaclayar, nəvəsinin gözəlliyindən aldığı zövqdən doymayaraq, onu təkrar-təkrar bağrına basıb öpərdi.

Axır ki, Aləmşah bəyim yetkinlik yaşına çatandan və gözəlliyilə ətrafa nur saçandan sonra nənəsinin ona elədiyi nəsihətlər də birər-birər – sanki nənəsinin özü ilə danışırmış kimi yadına düşməyə başladı. Onda nənəsi artıq Aləmşah bəyimlə daha açıq danışmışdı.

– Mənim əziz balam, sən gözəlliyinlə bütün Ağqoyunlu səltənətinə işıq saçırsan. Unutma ki, sənin dünyaya gətirəcəyin hər övlad damarlarında baban Uzun Həsənin qanını daşıyacaq. Gərək sənin balaların bu səltənətin yolunda baş qoymaqdan çəkinməsinlər.

Aləmşah bəyim nənəsinin üzünə təəccüblə baxmışdı. Heç əslində onun nə demək istədiyini yaxşı anlamamışdı. Birdən onun yanaqları qızarmış və: «Bəlkə nənəsi onun Şeyx Heydərə sevgisindən xəbərdardı? Bəlkə, Sara xatun Şeyx Heydəri sevməyi ona qadağan edəcək?» – düşünmüşdü. Bundan sonra Aləmşah bəyim başını aşağı dikmiş, amma yenə xəyalından keçmişdi ki, lap nənəsi onu bir qul-qaravaş gözündə görsə də, etiraz etməz. Təki onun Şeyx Heydərə olan məhəbbətinə qadağa qoymaya. Aləmşah bəyim üçün əgər belə bir qadağa olacaqdısa, demək, dünyanın axırı olacaqdı.

Aləmşah bəyim başını aşağı dikib susmuşdu. Nənəsinə cavab qaytarmamışdı. Ancaq təcrübəli Sara xatun ustalıqla, ad çəkmədən sözünə davam etmişdi:

– Mənim gözəl balam, insan azaddı, sənin də sevginə kimsə mane ola bilməz. Amma sevdiyin hər kəs olsa da, birinci növbədə onun ləyaqətini gör, daxili ucalığına söykən. Bax, o zaman Tanrı da istəklinlə birgə bəxtinizə uğur bəxş edər.

Aləmşah bəyim ürəkdən fərəhləndi, rahat oldu. Anladı ki, hətta nənəsinin xəbəri olmasa da, ona Şeyx Heydəri sevdiyini desə, bu dünyagörmüş qadın bu saf məhəbbətinə heç bir etiraz etməz. Çünki özü söhbətində əsas istinad kimi şəxsin ləyaqətini görürdü. Ləyaqət isə elə keyfiyyətdir ki, insanın kimliyi elə bu cəhətlə ölçülür.

Sonralar Aləmşah bəyimə məlum olmuşdu, nənəsi onun Şeyx Heydəri sevdiyini biləndə çox sevinmiş, bu izdivacın nəslə xeyir gətirməsi üçün qadir Allaha dualar qılmışdı.

…İndi Aləmşah bəyim uzun illərin arxasında qalmış xatirələri çözdükcə bir az əvvəl gördüklərini yaddaşında olanlarla müqayisə edirdi:

«Tanrının kərəminə min şükür, mən də öz oğlumun sevda gününü görərmişəm. Sultan Əlinin, İbrahimin müsibətlərindən sonra elə bilirdim, Allahım İsmayılı da əlimdən alacaq, Şeyx Səfi

ocağını kor qoyacaq. Amma Allah böyükdür, dualarımızı eşitdi, bizi bəlalardan qurtardı…»

Ürəyi sinəsində çırpınan ana xəyalında illər boyu qalada balaca İsmayılla necə qaldığını, sonra qaladan xilas olub təqiblərdən yaxa qurtarmaq üçün necə ağır səfərlərdən keçib bu günə gəldiyini yada salanda, əlbəttə, Allahına şükür edirdi – heç olmasa, balaca İsmayılı sağ-salamat qoruya bilib bu günə gətirib çatdırmışdı. Söz yox, Aləmşah bəyim həmişə oğlunun salamat qalmağına «şükür» edəndə, Şeyx Heydərin müridlərinə, xüsusilə, Hüseyn bəy Lələ Şamlıya dualarını əsirgəmirdi. Axı onlarsız İsmayılın həyatını qorumaq mümkün olmazdı. İndinin özündə də Aləmşah bəyimin xəbəri vardı ki, İsmayılın həyatına qəsd etmək, onun tərəfdarlarını qılıncdan keçirmək üçün xain düşmənləri necə ciddi-cəhdlə yollar axtarırlar. Doğrudur, hələ ki, İsmayılın bütün müharibələri uğurla başa çatırdı. Aləmşah bəyim görürdü ki, oğlunun tərəfdarlarının sayı nəinki aybaay, ilbəil, lap elə günbəgün artır. Yaxın, uzaq ellərdən əli qılınc tutan, ox ata bilən kim varsa, hər kəs özünü onun yanına çatdırır, inandığı müqəddəs Qurana and içirdi.

Aləmşah bəyim dünyada necə ağlagəlməz işlərin olacağını da anlayırdı. Elə bu səbəbdən oğlunun belə tezliklə sevdaya düşməsini Allahın xeyirli bir qisməti kimi qavrayırdı.

…Gülüzlü Şahbigə – Taclı bəyim bir az İsmayıldan aralanmışdı, kənara çəkilmişdi. Bir ayağı qaçaraqda olsa da, aralanıb gedə bilmirdi. Elə bil İsmayıl onu cazibəyə salmışdı. Şeyx oğlu başını qaldırıb gözəl qızın təlaşlı gözlərinə baxdı:

– Hə, niyə getmirsən?

– Bilmirəm, mən getmək istəyirəm, ancaq addım ata bilmirəm.

– Niyə ki, əgər getmək istəyirsənsə, get.

– Bəs sən mənim getməyimi istəyirsənmi? – Gözəllər gözəli Şahbigə – Taclı bəyim gülmək istəsə də, gülə bilmədi, udqundu.

Amma onun sevincqarışıq təbəssümü üz-gözünə yayıldı. Bu da İsmayıla dünyanı bəxş elədi. Sinəsi atlandı.

– Yox, mən sənin getməyini istəmirəm. Ancaq getsən belə, mən öz aradığımı tapmışam, – dedi.

– Nə tapmısan?

– Öyrənmək istəyirsən?

– Bəli, bilmək istəyirəm, – bu dəfə Şahbigə təbəssümünü gizlətmədi. Onun incə səsi bağda cəhcəh vuran bülbüllərin səsinə qarışdı.

– Hə, madam ki, tapdığımı bilmək istəyirsən, onda eşit, – bu dəfə İsmayıl sol əlini ürəyinin üstünə qoydu, sağ əlini də irəli uzatdı. Əvvəlcə astadan, sonra heç özünün də xəbəri olmadan, nəğməsini şövqlə oxumağa başladı:

*Cəmalın görəli can buldum, ey can,*
*Yüzini nuri-iman buldum, ey can.*

*Yüzün dərdində gərçi-xəstə idim,*
*Vüsalın dərdə dərman buldum, ey can.*

*Sənin mehri-cəmalın, şükür lillah,*
*Könül təxtində Sultan buldum, ey can.*

*Behəmdillah ki, hicran zülmətində*
*Ləbini abi-heyvan buldum, ey can.*

*Xətaiyəm, ayağın toprağında*
*Bu gün mülki-Süleyman buldum, ey can.*

Şah İsmayıl oxuduqca ətrafa elə bir həzinlik, elə bir ruhirəvanlıq bəxş olurdu ki, sanki bülbüllər də bu səsdən məhrum olmamaq üçün səslərini kəsmişdilər. Günəş üzlü Taclı bəyim bayaqdan çıxıb getmək istəsə də, heç özünün də xəbəri olmadan, İsmayılına gəlib yaxınlaşmışdı. Onun ağzından çıxan hər misranı, hər sözü acgözlüklə bir udum hava kimi, nəfəs kimi içinə

çəkirdi, ruhuna yayırdı. İsmayıl bütün qəlbi ilə vurulduğu bu qızın ətrindən sanki bihuş olmuşdu. Bu saat, hansı nəğməni necə oxumağından da xəbərsiz idi.

Gənclər bir-birinə elə hayıl-mayıl olmuşdular ki, gözlərini qaldırıb ətrafa da baxmırdılar. Baxsaydılar belə, özlərindən başqa bir kimsəni də görməzdilər. Onların xəbəri yox idi ki, Aləmşah bəyim bu gözəl mənzərənin sehrinə düşüb, onlara göz qoyur.

Deyəsən, qız getmək istəyirdi. Bunu İsmayıl da başa düşdü. İndi hökmdarlıq qüruru öz yerini hər cür fədakarlığa hazır olan bir aşiqə vermişdi.

– Gülüzlü Şahbigə xanım, mənim qəlbimin tacı, Taclı bəyim, bir az da dayan.

– Axı qala bilmərəm, hökmdarım.

– Taclı bəyim, sən gedirsən, mənim ürəyimi aparırsan axı…

– Əgər ürəyini aparıramsa, onu əmanət bil.

Qızın son sözlərini Aləmşah bəyim aydın eşitdi. Elə bil vaxtilə onun Şeyx Heydərə dediklərini eşidirdi. Aləmşah bəyim istədi yaxına gəlsin, ancaq daldanıb örtüyə keçdi. İndi də onun varlığında hökmdar anasının qüruru ilə oğul anasının ürəyi qarşı-qarşıya durmuşdu, ancaq bu, bir-birinə doğru gələn tərəflər idi, savaşmaq niyyətində deyildilər. Bu tərəflərin hər biri sanki sevinclərini bölmək, ən gözəl duyğuları, hissləri bir-birinə qovuşdurmaq və bununla da bir ana bəxtəvərliyinin, bir ana sevincinin son həddinə çatmaq istəyindəydilər.

* * *

Sultan Murad Əlvənd Mirzənin məğlubiyyətindən sonra elə təşvişə düşdü ki, gecəsi gündüzünə qarışdı. Əslində o, hadisələrin gedişatına müdaxilə etmədən ona görə kənardan dayanıb müharibənin gedişini izləyirdi. Guya müharibə eləmək istəmirdi. Xeyr, Sultan Murad özünü Sultan Yaqubun ən ümdə varisi hesab edirdi. Elə bu səbəbdən də istəyirdi, Əlvənd Mirzəylə Şah İs-

mayıl qarşılaşmada bir-birini əzib əldən salsınlar. Əgər Əlvənd Mirzə qalib gələrdisə, onsuz da qabaqcadan əldə olunan razılığa əsasən biri digərinin ərazisinə müdaxilə etməyəcəkdi. Və belə vəziyyətdə Şah İsmayıl kimi bir qüvvə də məğlub olub sıradan çıxacaq, beləliklə, onların hər ikisi Qızılbaş təhlükəsindən xilas olacaqdı. Amma hadisələrin gedişi tamam başqa bir ab-hava gətirirdi. Bu vəziyyət Sultan Muradın yuxusunu qaçırır, canına üşütmə salırdı.

Sultan Muradın sarayında Şah İsmayılın yenilməz olmağından, qoçaqlığından Qızılbaş döyüşçülərinin məğlubedilməzliyindən, daha nələrdən, nələrdən söhbətlər şaxələnirdi.

Sultan Murad gizli şəkildə müharibəyə ciddi hazırlışırdı. Əmisi oğlu Əlvənd Mirzədən qalan qüvvələrin də onun ətrafında cəmləşdiyindən xəbərdar idi və bundan sevinirdi. Ancaq Qızılbaşların nüfuzu məsələsi onu hələ də açıq müharibə meydanına çıxmaqdan çəkindirirdi. Belə olan halda Sultan II Bəyazidə məktub yazıb ondan qüvvə istəmək qərarına gəldi və bütün əmirləri saraya topladı. Ordunun vəziyyəti haqqında soruşdu. Sərkərdəbaşı Qara bəy birinci danışmalı oldu:

– Bizim bildiyimizə görə, Qızılbaşların canlı qüvvəsinin sayı bizim qüvvələrimizin yarısı qədərdir…

– İndi necə bilirsən, biz hazırkı qüvvəylə Qızılbaşların axırına çıxa bilərikmi? – Sultan Murad qətiyyətlə soruşdu.

Qara bəy aydın cavab verməyə tərəddüd elədi, ikibaşlı fikir söylədi:

– Mən inanıram ki, ordumuz qüdrətli Sultanımızın başçılığıyla gücünü göstərə biləcək.

– Yox, sən fikrini aydın de. Biz Qızılbaşları atlarımızın ayaqları altında əzə biləcəyikmi?

Qara bəyin dili topuq çaldı. Bir neçə dəfə hıqqandı ki, cavab versin, sözünü deyə bilmədi. Onda Sultan Murad özü fikrini açıq bildirdi.

– Əgər Qızılbaşlar belə şücaət sahibidirsə, demək, Əlvənd Mirzənin sayca çox olan qoşununu məğlub edib, özünü də cəlayi-vətən yola salıbsa, onda vay bizim halımıza…

Araya üzücü sükut çökdü. Sultan Muradın sözünə bir kimsə cavab vermək istəmədi. Onun əmirləri qorxurdu ki, əgər Qızılbaşlar haqqında bir üstün söz desələr, onda hökmdar ürəklərində xəyanət toxumu olduğunu düşünər. Və heç nədən hökmdarın qəzəbinə gələrlər. Digər tərəfdən, həm də əmirlər müharibəyə etiraz da etmək istəmirdilər. Əgər Sultan Murad bu müharibədə Şah İsmayılı məğlub edəcəkdisə, onda onların yolu Təbrizə açılıcaqdı. Arazın o tayından belə bütün Ağqoyunlu sərhədləri Sultan Muradın nəzarətinə keçəcəkdi. Əmirlər də münbit olmayan bu isti ərəb torpaqlarındansa Azərbaycanın bol sulu bərəkətli torpaqlı əyalətlərinə sahib olacaqdılar. Ömürlərinin qalan hissəsini bu dünyanın cənnəti adlanan yerlərində şad-xürrəm yaşayacaqdılar.

Sultan Murad hiss edirdi ki, əmirləri müharibə tərəfdarıdır. Ancaq qüvvə sarıdan özlərinə arxayın deyillər. Onda Sultan Murad təklif elədi:

– Osmanlı Sultanı II Bəyazid Şah İsmayılla savaşda Əlvənd Mirzəyə dəstək verməkdən çəkinmirdi.

– Bəlkə biz də ondan kömək istəyək?

Hökmdarın təklifi ilə sanki əmirlərin üzünə işıq çiləndi. Hiss olunurdu ki, hökmdarın bu təklifi onların ürəyincədir. Yenə Qara bəy dilləndi:

– Bəli, hökmdar, mən eşitmişəm ki, Osmanlı Sultanı Avropa ölkələrilə ittifaq bağlayıb, böyük topxana yaradıb. Əgər Sultan bizə odlu silah sarıdan kömək əlini uzatsa…

Hökmdar gözünü elə ağartdı ki, Qara bəy sözünün gerisini gətirə bilmədi.

– Deyirsən, bizim əvəzimizdə İsmayılla Sultan Bəyazid vuruşsun. Bütün Anadolu, Diyarbəkir tərəflərini də Təbrizəcən alıb öz torpaqlarına qatsın…

Qara bəy birtəhər özünü ələ alıb cavab verdi:

– Yox, qətiyyən yox, hökmdar, Allah eləməsin ki, mən elə fikirdə olam. Bütün Ağqoyunlu torpaqlarının sahibi bir Allah şahiddir ki, bizim şərafətli hökmdarımız Sultan Murada məxsusdur. Bu, Sultan Muradın haqqıdır. Allah da haqqı olanların tərəfində olar. Mən demək istədim, odlu silah sarıdan köməyə ehtiyacımız var.

Hökmdar düşündüklərini əmirlərlə bölüşmək istəməsə də, açıq danışmalı oldu:

– Biz Sultan Bəyaziddən kömək ala bilsək, onda Qızılbaşlarla məsələni bitirərik. O sonranın işidir ki, Sultan Bəyazidlə, yəni Osmanlı dövlətilə işlərimizi necə sahmanlayacağıq?

Hökmdar üzünü Mirzəyə tutdu:

– Mirzə, bizim tərəfimizdən hörmətli-izzətli Sultan II Bəyazidə məktub hazırla.

Mirzə ayağa qalxıb təzim elədi və: – Baş üstə, hökmdarım, – dedi.

– Bəlkə, məktubu indi yazaq?

Əmirlər yer-yerdən dilləndilər:

– Allah xeyir versin!

Sultan Murad cümlələri bir-birinin ardınca, fasilə vermədən inciləri sapa düzürmüş kimi deməyə başladı: «Biz tərəfdən, əbədi hörmətli və ehtiram yerimiz olan Sultan II Bəyazidə Allahın salamı olsun! Biz babalarımızın yolu ilə gedərək, arada olan hörmət və ehtiramı daha uca mərtəbəyə qaldırmaq fikrindəyik. Çox istəyərdik ki, hörmətli babalarımızın ünsiyyətdə yol verdikləri səhvləri biz təkrar etməyək.

Hörmətli Sultana məlumdur ki, Şah İsmayıl adında bir Qızılbaş bu yerlərdə peyda olub. Şiə təriqətini əlində bayraq eləyib. Onun tutduğu yol həm Osmanlılara, həm də Ağqoyunlu varislərinə düşmənçiliyə aparır. Əgər Ərdəbil Şeyxinin dərsini vaxtında verə bilməsək, yaydığı təriqətlə bütün Türküstanı zəhərləyəcəkdir.

Hörmətli Sultan, bu məktubla sizə müraciət etməklə, salamlarımı yetirmək istəyirəm. Sizdən başqa bir təmənnam da var. İstərdim ki, Şah İsmayıl üzərinə hərəkət etməkdə bizə yardımçı olasınız. Mən eşitmişəm ki, Sultanın ixtiyarında böyük topxanalar var. Əgər bizə o toplardan göndərilsə, onun gurultuları və zərbələri altında Qızılbaş qoşununu darmadağın edərik. İnşallah siz də birdəfəlik istək və arzularınıza yetmiş olarsınız.

Sultanı həmişə özünə uca mərtəbədə hörmət sahibi bilən Sultan Murad».

Sultan Murad məktubu sürətlə yazdırdı. Lakin əmirlər onu da hiss etdilər ki, bu məktubda Sultan II Bəyazidi şirnikləndirmək üçün əslində Osmanlı sərhədlərində olan torpaqları ona bəri başdan vəd eləyir.

Məktub dərhal Osmanlı Sultanının sarayına göndərildi.

Sultan Murad əmirlərə müharibəyə ciddi hazırlaşmaq tapşırığı verdi. Ancaq daxili aləmindəki nigarançılıq və şübhələri onun sinəsini didirdi. O, yaxşı bilirdi ki, ölkədəki, qıtlıq, dalbadal düşən quraqlıqdan sonra yaranmış aclıq və səfalət əhalini onun hakimiyyətindən narazı salıb. Yoluxucu xəstəliklər də bir tərəfdən tüğyan eləyirdi. Məkkəyə doğru hərəkət edən zəvvarların səfər yolu Sultan Muradın ərazilərindən keçirdi. Ona görə də ölkənin içərilərinə doğru yayılmış yoluxucu və qorxulu azar-bezar insanları dərbədər eləmişdi.

Belə bir vəziyyətdə Sultan Murad yenə əlavə kömək axtarışında oldu.

Vaxtilə nənəsi Sara xatunun Ağqoyunlu səltənəti üçün necə böyük işlər gördüyünü, ən çətin məsələləri asanlıqla yoluna qoyduğunu xatırlaması ağlına yeni bir fikir də gətirdi. Qum əyaləti Sultan Murada nisbətən yaxın idi. Əslində, o, dəfələrlə istəmişdi ki, Qum əyalətinin müstəqilliyinə son qoyulsun. Amma hələ ki, zərərsiz olduğundan Qumun hakimi İslamış xana toxunmurdu.

Sultan Murad anası Gövhər Sultan xanıma üz tutdu.

Gövhər Sultan xanım Şirvan şahının qızı idi. Özü də siyasət işlərindən yaxşı baş çıxarırdı. Sultan Murad qızışıb cəzaların həddini aşanda əmirlər Sultan Gövhərdən xahiş edirdilər ki, hökmdarı sakitləşdirsin.

İndi Sultan Murad düşündü ki, ömrünün ahıl çağınacan saraylarda yaşamış və sarayların içini bilən anası İslamışın yanına gedər və ondan kömək ala bilər.

Gövhər Sultan xanım oğlunun vəziyyətini başa düşürdü. Anlayırdı ki, əgər bu döyüşdə – Şah İsmayılla qarşılaşmada oğlu məğlub olarsa, bütün nəslin tifaqı dağılacaq və buna görə də İslamışın yanına getməyə razı oldu.

…Gövhər Sultan xanım yolboyu düşünürdü: – Axı bu hökmdarlar niyə bir-birilə yola getməsin? Elə Əlvənd də, Murad da, İsmayıl da igid bir kişinin nəvə-nəticələridir. Ağqoyunlu Uzun Həsənin səltənəti o qədər böyükdür ki, onu idarə etməyə nəinki üç hökmdar, lap elə beş hökmdar da bəs eləyər. Təki onların tamahı özünü yığıb-yığışdıra…

Gövhər Sultan tarixdən yaxşı xəbərdar idi. Bir vaxt əzəmətli Şirvanşahlar ölkəsini də tarmar eləyən, quru yurdda qoyan, doymayan acgözlər olmuşdumu? İndi vəziyyət o yerə gəlib çatmışdı ki, gərək Sultan Murad bu savaşda mütləq qalib gələydi. Ancaq bu savaşda uğur sual altındaydı.

İslamış xan Gövhər Sultanı hörmət-izzətlə qarşıladı. Ona səfərdən sonra çox yaxşı istirahət verdi. Gövhər Sultan dincələndən və hökmdarla görüşə özünü hazır biləndən sonra onu qəbul elədi.

– Hörmətli İslamış xana, oğlum Sultan Muradın və Ağqoyunlu hökmdarının nəslindən olanların hamısının hörmət-izzətini çatdırıram.

İslamış xan əlini sinəsinə qoyub bu dünyagörmüş ağbirçək anaya hörmətlə təzim edib cavab verdi:

– Biz də tərəfimizdən özümə ana bildiyim Gövhər Sultan xanıma və Ağqoyunlu hökmdarının nəslindən olanların hər birinə hörmət-izzətimin heç vaxt tükənməyəcəyini bildirirəm.

– İslamış xan, Tanrı sənin gücünü heç zaman tükətməsin. Mən bura, yanınıza bir məram üçün gəlmişəm.

– Hər nə məram üçün gəlmisənsə, bir anaya ehtiram göstərmək borcumdur.

– Bilirsən ki, Qızılbaşlar haqq yolundan azıblar. Onlar təzə bir təriqətlə dünyanı tutmaq iddiasındadırlar. Əgər gözlənilən qarşıdakı savaşda Sultan Murada qalib gəlsələr, gərək biləsən ki, sənin də hakimliyinə son qoyulacaq.

İslamış xan həyəcanla dinləyirdi. Elə baxırdı ki, elə bil Gövhər Sultanın ağzından söz qurtaran kimi Qızılbaşlar hücuma keçəcək, onun özünü atın ayaqları altına atacaq. Sarayını talan edəcək, var-yoxunu əlindən alacaqlar.

İslamış xan udqundu, özünə sığmadı. Bilmədi, nəsə desin, yoxsa, yenə Sultan Muradın elçisinin, bu dünyagörmüş ananın fikrinin sonunu eşitsin.

* * *

Aləmşah bəyimin həyəcan qarışıq sevinci köksünə sığmırdı. İndi o, daha çox yaddaşından boy göstərən keçmişin olaylarını kədər qarışıq bir duyğu ilə xatırlasa da, son nəticədə indiki zamana qayıdırdı. Taleyin acı gərdişlərindən əri Şeyx Heydərin müridləri sayəsində xilas etdiyi övladlarının gələcəyi onu çox düşündürürdü. İstəmirdi ki, oğlanlarının həyatı bundan belə də qanlı-qadalı münaqişələrdə, ölümlü-itimli döyüşlərdə keçsin. Amma onu da bilirdi ki, Şeyx Cüneyd və Şeyx Səfi haqq savaşının qurbanları olmuşdular. Şeyx Heydər də bu müqəddəs yolda həyatını qurban vermişdi. Gənc ikən həlak olmuş oğlu Şeyx Əli də babalarının yolunu davam etdirmişdi. Ömürlərinin çiçəklənmiş bir vaxtına çatmış oğlanları – Şah İsmayıl və Şeyx İbrahim də bu mövqədən

çəkiləsi deyillər. Ona görə də Aləmşah bəyim çox gənc ikən igid bir sərkərdə kimi parlayan oğlu İsmayıla müharibədən çəkinməyi heç məsləhət də bilmirdi. Çünki Səfəvi ocağını qorumağın bircə yolu vardı, o da döyüşlərdən çəkinməmək, labüd müharibələrdə mütləq qalib gəlmək.

Anaya bircə o qalırdı ki, oğlanlarının salamatlığını istəsin. Bu salamatlığın nəticəsi o olacaqdı ki, övladları evlənəcək, ailə quracaq, Şeyx Səfi ocağının davamçıları dünyaya gələcək. Şeyx Heydərin yolunda vuruşduğu əqidə, inam zaman-zaman ən gənc nəslin qəlbində kök salacaq, boy göstərəcək.

Oğlu İbrahimi yanına çağırdı. İbrahim içəri girib əvvəlcə anasına təzim elədi, sonra irəli yeriyib uzun boyunu qucaqlamaq, başını sinəsinə sıxmaq istədi, amma anasına çatanda özünü uşaq kimi apardı. Demək olar, qolları boşaldı və anasının qucağına sığındı.

Ana İbrahimin isti nəfəsini köksündə duydu. Ona elə gəldi ki, çox uzaq bir zamana qayıtdı. Az qala iyirmi il əvvələ. Bu, o dövr idi ki, hər an haradan gəldiyi bilinməyən qəddar atlı dəstəsi peyda olacaq. Başqa ad altında gizlənmiş ananı və iki oğulu çalıb aparacaq. Eşitmişdi, daha doğrusu, müdriklər ona xəbər çatdırmışdılar ki, Sultan Yaqubun adamları onları hər yerdə axtarırlar. Oğlanlarına qurama adlar vermişdi. Və tez-tez onlardan soruşurdu: – Sənin adın nədir? O da cavab verərdi: – Xəlil. İsmayıldan soruşardı: – Bəs sənin adın nədir? – Qurban.

Bəli, uşaqlar bir-birini bu məxfi adla çağırardılar.

Ana öz adını Həcər deyə tanıtmışdı. Uşaqlar analarını bu adla çağırardılar.

Bütün bunlar ananın gözləri önündən keçirdi.

– Sənin adın nədir? – Aləmşah bəyim oğlu İbrahimi gözlənilmədən sınağa çəkdi.

– Adım Xəlildir, ana. İbrahim həmin uzaq keçmişdə qalmış adını dedi. Ancaq sonra güldü. Anası da övladına qoşuldu.

İbrahim başını qaldırıb anasının üzünə baxanda gördü ki, vaxtından əvvəl qocalmaqda olan gözəllər gözəli Aləmşah bəyimin gözləri yaşla dolub. İbrahim əvvəlcə sağ əlini uzadıb, anasının sağ gözünü sildi. Sonra da sol əlilə sol gözünü…

– Hə, mənim əziz balam, doğru deyirsən, sənin adın Xəlil idi. Axı, Xəlil elə həm də İbrahim deməkdir.

– Tanrının böyüklüyünə şükür, ana, indi o günlər bir də getsin, gəlməsin.

– Doğrudur, indi o günlər keçmişdə qalıb. Ancaq… Ürəyim hələ də sakitlik tapmır. Bu qanlı müharibələr nə qədər var, yəqin, mən də arın-arxayın ola bilmərəm.

– Yox ana, indi gərək bir o qədər də nigaran qalmayasan.

– Necə nigaran qalmayım? Müharibə müharibə arxasınca bitib-tükənmir.

– Özün yaxşı bilirsən ki, düşmənlərimiz çox və güclüdür. Ancaq daha əvvəlki zaman deyil. İnsanlar bizə inanırlar. Azərbaycanın hər yerindən əli qılınc tutan, ata süvar olan oğlanlar sel kimi axıb yanımıza gəlirlər.

– Ay oğul, deyirəm ki, siz hələ cavansınız. Bu dünyanın işlərindən baş çıxardan hiyləgərlərdən ehtiyatlı olun.

İbrahim anasının ağıllı sözlərini məmnunluqla dinləyirdi. Ananın hər sözü onun ruhuna yayılır, qanını coşdurur, təzələyirdi. Elə bil ki, onun hər sözündən sonra o, neçə il böyüyürdü. Hər halda anasının nigarançılığını və narahatlığını da anlayırdı. Buna görə də anasını bir az sakitləşdirmək, onu həyəcandan çıxarmaq niyyətilə dedi:

– Əzizim ana, sənə yaxşı məlumdur ki, qardaşım İsmayılın qılıncı qayalar çapmaq, dağlar yarmaq gücündədir. Düşmənlərimiz təkcə onun adından zağ-zağ əsir, siçan deşiyi axtarırlar.

– Bilirəm, oğlum, Allah qılıncınızı daha iti eləsin, qolunuz gücdən düşməsin, ağlınız ziyadan əskik olmasın.

– Mən düşünürəm ki, əziz anamın məsləhətləri, duaları döyüş vaxtı bir qoşun qədər köməyimiz olacaq. Çünki ana səsini Tanrı eşidir.

– Elədir, oğlum, onu da bil, Uca Yaradan həmişə haqqın yolunu sevir. Siz də çalışın ki, haqsız əməl sahibi olmayasız.

– Baş üstə, anam, dediklərini eləcə İsmayıla da çatdıraram. Amma indi izin versən, getmək istərdim. Səfərim var.

– Səfərinə uğur!

– Bəs demədin, məni nə üçün çağırmısan…

– Deməli o qədər sözüm var ki, hansını deyəcəyimi də bilmirəm.

Aləmşah bəyim oğlunun əlindən tutub yaxındakı kürsüyə çəkdi. Onlar yan-yana əyləşdilər.

İbrahim tələssə də, anasının sözlü olduğunu duyduğundan bunu büruzə vermək istəmirdi.

– Mən səni ona görə çağırmışdım ki, gərək İsmayılı bu yaxınlarda evləndirək. Dünyanın işləri elə qarışıqdır ki… gözüm heç nədən su içmir.

İbrahim başı ilə anasının dediklərini təsdiqlədi. Özü dinmədi, istədi, anası sözünə davam eləsin.

Aləmşah bəyim oğlunun sağ əlindən tutub ürəyinin üstünə qoydu.

İbrahim hiss etdi ki, anasının qəlbi həyəcandan bərk-bərk döyünür. Onun üzünə baxdı. Nə demək istədiyini soruşmağa cəsarət etmədi. Anası da anladı, artıq sözünü deməyin zamanıdır.

– Mənim nə demək istədiyimi ürəyim deyir, bunu gərək sən biləsən. İsmayıla da anlat və onu tezliklə toy tədarükünə hazırla.

– Anam hansı bəxtəvəri gəlin görmək istəyir? – İbrahim sevincindən tez-tələsik dilləndi.

– Bilirsən ki, atan Şeyx Heydərin müridləri sayəsində siz gəlib bu ərsəyə çatmısınız. Böyük qardaşın Sultan Əli son döyüşqaba-

ğı özü mənə tapşırmışdı ki, qardaşlarımı tez evləndirərsən. Qoy nəslimiz yaşasın, soyumuz kəsilməsin. Düşünürəm ki, artıq vaxtdır. Əbdi bəyin özü atanın ən yaxın dostu idi. Elə bilirəm ki, onun qızı İsmayıl üçün ən üstün həmdəm olar.

İbrahim anasının sərraf seçimindən xoşhallandı. Onun özü də Əbdi bəyin yolunu həmişə saxlayır, hörmət və ehtiram göstərirdi. Çünki Əbdi bəy Şeyx Heydərin sadiq silahdaşlarından biri idi.

İbrahim fikrə getdi. Ona görə yox ki, anasının dedikləri ilə razı deyildi. Əslində Əbdi bəyin qızı ilə izdivacı İsmayıl üçün çox münasib sayırdı. Onu da bilirdi ki, qarşıda Sultan Muradla ağır bir savaş var. Və bu savaşqabağı İsmayıl çətin ki, toy tədarükündə olmaq istəsin. İbrahim üçün çətin orası idi ki, məsələnin bir qədər ləngiyəcəyini, bunun vacibliyini anasına çatdırmalı idi.

– Anam Aləmşah bəyim nənəmiz Sara Xatundan az öyrənməyib. Onun ağlının ziyası Sara Xatunun ruhundan güc alır və dedikləri də çox doğrudur.

– Bəs onda nə deyirsən?

– Onu deməyi lazım bilirəm ki, əziz anam gərək bir qədər səbirli olsun. Sultan Muradla savaşı Ulu Yaradanın köməyilə zəfərlə bitirək. Özü də bilirəm ki, Tanrının yardımı ilə Şeyx Səfi ocağına düşmən olanların məğlubiyyətini tezliklə görəcəyik.

Aləmşah bəyim başa düşdü ki, daha İbrahimə nəyisə məcbur etməyin yeri yoxdur. Ayağa qalxdı. İbrahim də durdu.

– Get oğlum, Tanrı üstünüzdə yar olsun. Amma unutma ki, bu savaşdan sonra gərək İsmayılın toy məclisi Təbrizdə, həm də bütün yerli əhlinin iştirakı ilə başlansın.

– Yaxşı, ana, inanıram, hər şey sənin istəyinlə olacaq.

İbrahim çıxdı.

Aləmşah bəyim hər gün bu vaxt Həşt-behişt saray bağının seyrinə dalırdı. Artıq ona məlum idi ki, axşam günəş şəfəqlərinin

üfüqləri qızartdığı vaxt İsmayıl da Taclı bəyimlə elə bu bağa görüşə çıxır.

Aləmşah bəyim bir neçə gün idi, bu görüşləri izləyirdi. Gənclərin görüşündən aldığı sevincin üstünə bir pay da gəlmişdi. Bu da oğlu İsmayılın Taclı bəyimin şərəfinə oxuduğu seçmə qəzəllər idi. Aləmşah bəyim özünü yenə gənclərə göstərmədi. Oğlu İsmayıl da, onun sevgilisi Taclı bəyim də bağın sıx gülüstanlığına sığınmışdılar. Aləmşah bəyim elə xəlvət yer seçdi ki, gənclər onu qətiyyən görə bilməzdilər. Ancaq o, gənclərin danışığını aydın eşidirdi.

İsmayıl yaxınlaşaraq, qızın qolundan tutdu. Sonra onun əlini öz sinəsinin üstünə qoydu.

– Sən ətirli bir qönçəsən, qızılgülsən.

– Bəs sən? – Taclı əlini onun sinəsindən çəkmədən hürkə-hürkə soruşdu.

– Mən də qəfəsdə ah-nalə çəkən bülbül.

– Bəs onda qızılgül öz bülbülünü necə görər?

– Gərək sən o qəfəsi öz əllərinlə açasan. Bülbülü də xoşluqla o qönçə gülün üstünə buraxasan.

İsmayıl əlini uzadıb qızın saçlarına çəkdi. Qızılı bulud kimi saçlar İsmayılın barmaqları arasında dalğalandı. Gənclər az qala nəfəs-nəfəsə dayanmışdılar. İsmayıl Taclının başını özünə tərəf çəkmək istədi. Onu təşnə bir istəklə bağrına basmaq, sıxmaq və öpmək könlündən keçdi. Birdən Taclı hürkmüş ahu kimi kənara dartındı. İsmayılın qollarının arasından çıxdı:

– Axı mən sənə demişdim, xətaya yol verməyəsən…

İsmayıl qızın qətiyyətini görüb dayandı. Bu vaxt bülbüllər daha şövqlə oxumağa başladı. İsmayıl əlini Taclıya sarı uzadıb həzin-həzin qəzəlini söyləməyə başladı:

*İşim eşqində fəryad eyləməkdir,*
*Vüsalın vədəsin yad eyləməkdir.*

*Xərab etdi demən eşqin könülün,*
*Bəs ol viranı abad eyləməkdir.*

*Bu könlüm adəti hər şəb ğəmində*
*Fəğanü ab bünyad eyləməkdir.*

*Verürmən ğəm dilə ümmidi-vəslin,*
*Bu rəsm ilən anı şad eyləməkdir.*

*Xətai qulluğın məqbul qılsan,*
*Bu gün yüz bəndə azad eyləməkdir.*

Aləmşah bəyim göy üzünə sonsuz həsrətlə baxdı. Sanki nəzərlərilə Allahı axtarır, ona yalvarmaq istəyirdi: «Ey Allahım, sən Səfəvi ocağını qoru» demək üçün. Əslində Aləmşah bəyim oğlu hansı həzinliklə qəzəlləri oxuyurdusa, misraları necə dilə gətirirdisə, o da elə həmin ahənglə, ancaq səsi eşidilməyəcək bir tərzdə dualarını yayırdı.

* * *

Bir-birinin arxasınca Səfəvi sarayına xoşagəlməz məlumatlar axmaqda idi. Bu xəbərlər sırasında Sultan Muradın Sultan II Bəyaziddən kömək istəməsi söhbəti də var idi. Doğrudur, Sultan Murad əmisi oğlu Əlvənd Mirzədən də müharibəyə qoşulmağı təvəqqe etsə də, Əlvənd Mirzənin buna ömrü çatmadı. Amma Sultan II Bəyaziddən gələn köməyi Sultan Murad səbirsizliklə gözləyirdi, ümidini tam üzməmişdi.

Sultan Muradın müharibəyə inamlı hazırlığının əsasında Sultan II Bəyaziddən alacağı köməyə güvənci dururdu.

Sultan II Bəyazid Səfəvi sarayında baş verənləri diqqətlə izləməkdə idi. O, artıq başa düşmüşdü ki, Şah İsmayıl kifayət qədər gücə malikdir. Elə bu səbəbdən də Şah İsmayılla qarşılaşmamaq üçün öz planlarını ciddi-cəhdlə gizlədirdi. O, anlayırdı ki, əgər Sultan Murada kömək etməsə, Səfəvi qoşunları çox tezliklə Sul-

tan Muradı döyüş meydanında pis günə qoyacaq. Bu da nəinki Azərbaycan, eləcə də bütün Kiçik Asiya da daxil olmaqla, qonşu ölkələrin əhalisi arasında Səfəvi hökmdarının nüfuzunu birə-beş artıracaqdı. Çoxdan bəri Osmanlıların nəzarət etdiyi Anadolu tərəflərin əhalisi də nəzərlərini Təbrizə yönəldəcəklər. Buna görə, sərhəd tərəflərdə qiyamlar başlayacaq, həm dini-mənəvi, həm də iqtisadi – ticari əlaqələrinə görə bu tərəflərin əhalisi Səfəvi xanədanına beyət edəcək.

Hələ ki, Sultan II Bəyazid açıq düşmənçiliyi büruzə verməməyi qərara aldı. Bu fikrini öz divanının üzvlərinə də yetirməyi vacib bildi. Sultan Muradın axırıncı naməsini, kömək istəmək haqqındakı xahişlərini vəzirlərə çatdırandan sonra çıxış yolu istədi. Birinci divanbaşı ayağa qalxdı:

– Osmanlı xanədanının yenilməzliyi hər birimizə məlumdur. İndiyə qədər bütün savaşlarda bizim ordumuzun gücü tükənməyib.

Sultan II Bəyazid divanbaşının uzun danışacağını düşündüyündən hövsələsizlik göstərdi:

– İndi nə məsləhət görürsən?

Divanbaşı anladı ki, Sultanın səbri tükənib, çox əsəbidir. Əgər artıq bir-iki söz də desə, divandakı yerini itirmiş olacaq. Ona görə də birbaşa mətləbə keçdi.

– Mən düşünürəm ki, biz Sultan Murada təcili kömək etməliyik.

– Köməyimiz nədən ibarət olsun? – Hökmdarın sərt baxışları altında qəzəbini açıq-aşkar bildirdi.

– Qızılbaş ordusunun zəif tərəfi odlu silah sarıdan kasadlığıdır. Əgər biz Sultan Muradı toplarla təchiz eləsək, o, Qızılbaş ordusunu məğlub etməyə qadirdi. Üstəlik də, toplarla elə zərbələr vurular ki, Qızılbaşlar bir daha özünə gəlməz.

Hökmdar onsuz da əvvəlcədən söhbəti çox uzatmaq istəmirdi. Ona görə də yenə dəqiq və aydın cavab istədi:

– Topları Sultan Murada necə çatdıraq? Şübhəsiz ki, topları döyüşdə işlədəcək qüvvə gərək olacaq, onların o, silahdan başı çıxmaz.

Divanbaşı kənarda müntəzir dayanmış sərkərdələrə tərəf döndü.

– Bizim möhtərəm Sultanın elə qüdrətli sərkərdələri var ki, bu işi asanlıqla öz boyunlarına götürə bilərlər.

Həqiqətən divanbaşının ağzından söz qurtaran kimi, ətrafda dayanmış sərkərdələr arasından bir ağızdan uğultu qopdu:

– Hökmdarımızın hər bir əmrinə başımızla hazırıq.

Hökmdar sərkərdələrinin aydın və qətiyyətli cavabından xoşhal olub işarəylə Dilavər paşanı yanına çağırdı. Dilavər paşa yaxına gəlib təzim elədi.

– Topları Sultan Murada çatdırmaq, döyüş mövqelərini tutmaq üçün sənə nə qədər qüvvə gərəkdir?

Dilavər paşa bir az fikirləşəndən sonra yenə təzim edib dilləndi:

– Əgər yüz top aparmalı olsaq, heç olmasa, min nəfərlik bir qüvvə lazımdır.

– Sərkərdələrdən kiminlə gedəcəksən? – Sultan soruşdu.

– Əgər hökmdar izin versə, Yaqub paşa ilə gedərdim, – dedi.

Sultan II Bəyazid bəlkə də, Yaqub paşanı özünə çox yaxın və simsar bildiyindən bu səfərə göndərmək istəməzdi. Çünki Yaqub paşa ən təhlükəli səfərlərdə məhz onu müşayiət edirdi. Həm də topları döyüş meydanında necə yerləşdirmək, sərrast atəşlər üçün necə sıralamaq gərək olduğunu ustalıqla bilirdi. Bu biri tərəfdən Sultan Muradın Şah İsmayıla qalib gələ bilməsi üçün heç nəyi də əsirgəmək istəmirdi. Sultan II Bəyazid müzakirə məclisinin sona çatdığını işarə elədi.

Sonra Osmanlı xanədanının böyük hökmdarı, babası Sultan II Mehmedin hakimiyyətə gəlişi günü olduğundan böyük ziyafət tədbirlərinin hazırlığı üçün tapşırıq verilmişdi. İndi hər kəs bu ziyafətə dəvət olunurdu. Sultan II Bəyazid divanbaşıya tapşırdı ki,

Sultan Murada bir məktub da hazırlasın və hökmdarın adından bildirsin ki, əgər o, Qızılbaş qoşunlarını məğlub eləsə, gələcəkdə də hər cür köməyini əsirgəməyəcək.

Bir gün sonra Dilavər paşanın və Yaqub paşanın başçılığı altında yüzlərlə top və minlərlə canlı qüvvə artıq yola düşmüşdü.

...Eyni gərginlik Səfəvi sarayında da yaşanırdı. Əmirlər istəyirdilər ki, Sultan Muradın üzərinə heç bir xəbərdarlıq göndərmədən, niyyətlərini gizləyərək hücuma keçsinlər. Amma Şah İsmayıl razılaşmadı. O, təklif etdi ki, Sultan Muradın yanına Səfəvi xanədanının döyüş niyyəti olmadığı barədə xəbəri aparan elçilər dəstəsi hazırlansın. Ancaq bu elçilər dəstəsi kimdən ibarət olacaqdı? Kimsəyə sirr deyildi ki, Sultan Murad Şah İsmayıla olan ədavəti sayəsində elçiləri hörmətlə qarşılamayacaqdı. O, çox güman ki, elçilərlə qəddarcasına rəftar edəcəkdi. Çünki Sultan Murad əmisi oğlu Əlvənd Mirzənin məğlubiyyətini öz məğlubiyyəti hesab edirdi. Üstəlik də, dəfələrlə Şah İsmayıla xəbər göndərmişdi ki, Ağqoyunlu səltənətinin yeganə varisi özüdür. Sultan Murad Şah İsmayılın nəslinin Ağqoyunlu nəslinə calaq olduğunu, bu nəsildən onlara pay çatmadığını, az qala təhqiramiz halda üzə vurmaqdan çəkinmirdi. Belə olan təqdirdə elçilərə kimin başçılıq edəcəyi məsələsinin çətinliyi araya gəldi. Bu vaxt Şah İsmayılın lələsi olmuş Qəmbər ağa önə çıxdı.

– Şahımız izin versə, Sultan Muradın sarayına mən gedərdim, – dedi.

Qəmbər ağanın yaşı yetmişi haqlayırdı. Onun elçilərə başçılıq edəcəyi məsələsi də kimsənin ağlına belə gəlmirdi. Şah İsmayıl kifayət qədər müdrik müəllimini odun ağzına atmaq fikrində deyildi.

Qəmbər ağa isə şahın etirazlı baxışlarına cavab üçün qərarında qəti olduğunu bildirdi:

– Hökmdarımız yaxşı bilir ki, döyüşdə kimin yeri haradır. Mən razı ola bilmərəm ki, ölkənin sütunu olan, qoşunun önündə gedən

bu sədaqətli əmirlərdən hər hansı biri Sultan Muradın sarayına getsin, gözünü ədavət toru örtmüş düşmənin nizəsinin hədəfi olsun.

Şah ağır-ağır başını qaldırdı. Hələ uşaq ikən ona Hüseyn bəy Lələ Şamlı ilə birgə ona lələlik etmiş Qəmbər ağanı başdan-ayağa süzdü. Üz-gözündən nur yağan, ağ saqqalı sinəsinə enmiş Qəmbər ağanın gözlərində heç bir təlaş və qorxu yox idi.

– Qəmbər ağa, hər kəs yaxşı bilir ki, sən mənim lələmsən. Mənim böyüyüb boya-başa çatmağımda əməyin var. İndi yaşının bu çağında sənə sakit və rahat bir həyat gərəkdir. Mən zəhmətinlə qazandığın bu haqqı əlindən almaq istəmirəm.

Qəmbər ağa hökmdarın sözlərindən kövrəldi, gözləri doldu. Az qala göz yaşları saqqalından aşağı süzüləcəkdi. Amma kişi özünə toxtaqlıq verib, göz yaşlarını bəbəklərində qurutmağı bacardı.

– Hökmdarımızın sağlığı və qarşıdakı döyüşlərdə qələbəsi məni o dünyada da şad edəcək. Mən ömrümü-günümü keçirmiş adamam. Səfəvi xanədanının yolunda hər cür təhlükə olsa belə, həmin səfərə getmək də mənim borcumdur.

Şah İsmayıl tərəddüd içində idi. O, razılıq vermək istəmirdi. Amma Qəmbər ağa öz təkidilə inad göstərdi. Axır ki, şah bir elçi dəstəsinin hazırlanması və Qəmbər ağanın başçılığı ilə onların Sultan Murad sarayına yola düşməsinə icazə verdi. Qəmbər ağa elə səhəri günü Sultan Muradın sarayına öz dəstəsilə yola düşdü.

Bir gün sonra isə Şah İsmayıl Hüseyn bəy Lələni yanına çağırdı.

– Hökmdarımın sabahı xeyir olsun!

– Hə, Hüseyn bəy, xeyir məmləkətimizə yayılsın.

– Hökmdar məni çağırıb…

– Bəli Hüseyn bəy, mən çağırmışam, necə bilirsən?..

– Nəyi hökmdar? – İstəyirəm ki, Sultan II Bəyazidə xeyirxah niyyətlərimizi izhar edən bir məktub göndərək.

– Hökmdar düşünür ki, bu işin yəqin bir faydası dəyər.

– Hər halda faydası olmasa da, ziyanı da olmaz.

– Məktubda nə yazılacağını hökmdar desə, biz onu elə tezlikcə Sultan II Bəyazidə yola salarıq.

– Mən Sultan II Bəyazidə məktubu özüm yazmışam, mübarək dəst-xəttimlə. İstəyirsən, mətləbimizi yetirən hissəni sənin üçün oxuyum.

– Hökmdarımızın mübarək gözlərinə əziyyət olmasa, onun özünün dilindən bənövşə ətirli sözlərini eşitmək mötəbər olardı.

Şah İsmayıl məktubun əvvəlindən vaz keçdi. Ancaq əsas niyyətlərini çatdıracaq cümlələri oxudu:

«Mətləbə gəldikdə, əzəmətli şahzadələr və ədalətin xidmətçilərinin şərəfli diqqət və nəzərinə çatdırılır ki, aləmi bəzəyən II Bəyazidə qədim zamanlardan indiyə qədər bütün məmləkətlərin, xüsusilə, Rum diyarı əhalisinin bizim xanədanımıza olan məhəbbəti, sevgisi, etiqadı və qucaq açması məlumdur. Hər zaman ordan mənəviyyat yolunun yolçuları bu hidayət ailəsinə, cənnətməkan şeyxlərin – Allah onların ruhlarını müqəddəs etsin – müqəddəs yurduna doğru istiqamət götürmüş və hər kəs öz fitri qabiliyyətinə uyğun mənəviyyat və axirətlə bağlı məqsədinə nail olmuşdur. Bəzən onların yolu üzərində olan şahlar, ətraf və məmləkətlərin hakimləri fəaliyyətlərinə mane olurmuşlar. Çünki ədalət və xilafətin ən fəzilətli xadimi olmaq tələb edir ki, bütün İslam əhli, xüsusilə də təriqət yolunun yolçuları və həqiqət mülklərinin sahibləri üçün cavabdehlik daşıyasan və bu ailəni ziyarət etmək istəyən mürid və tərəfdarlara icazə verəsən. Şahlar, ətraf şəxslərin hakimləri, sərhəd və şəhər keşikçilərinə fərman verilsin ki, qətiyyən bu fəaliyyətinə mane olmasınlar və bu istiqamətə kim üz tutarsa, Allahın istəyi ilə axirət istəklərinə çatar, dəvətləri çoxalar, cah-calalı artar, bəxşişləri və xilafətin qüdrəti çoxalmış olar.

Əsas məqsəd səmimiyyət və dualarımızı çatdırmaq olduğu üçün duaları ixtisara salaraq azaltdıq. Duamızı sizə çatdır-

maq üçün ehtiyaclıların pənahı Məhəmmədi dünyanın pənahı olan Bəyazidin hüzuruna yola saldım. Məhəmməd (s), övladları və izzətli səhabələrinə xatir cənabi-ali hər zaman arzular sahiblərinin sığınacağı, səadət və təmtəraq əhlinin pənahı olsun».

…Bu vaxt iki ayrı-ayrı dəstə eyni zamanda Sultan Muradın yanına çatmağa tələsirdi. Dəstələrdən biri Sultan II Bəyazidin topçular alayı idi. Digər bölük isə Təbrizdən yola düşən və Şah İsmayılın sülh niyyətini Sultan Murada aparan elçilərdi.

Dörd-beş nəfər isə Şah İsmayılın məktubunu Sultan II Bəyazidə aparmaq üçün Təbrizdən yola düşmüşdü…

* * *

Sultan II Bəyazidin sarayına Şah İsmayılın məktubu çatanda, Dilavər paşanın və Yaqub paşanın topçuları artıq Sultan II Muradın sərhədlərinə yaxınlaşmaqdaydı. Əlbəttə, bunu həm Sultan II Bəyazid, həm də Şah İsmayıl bilirdi. Çünki hər iki tərəfin çaparları yollarda idi. Baş verən hadisələr haqqında xəbərlər eyni vaxtda – həm Sultan II Bəyazidə çatırdı, həm də Şah İsmayıla. Sultan II Bəyazid Şah İsmayılın naməsini açıb oxudu. Əvvəlcə Sultanın adına çoxlu təmtəraqlı sözlər işlənmişdi. Əlbəttə, bunlar Sultan üçün mənasız görünürdü. Əsas o idi ki, məktubun ikinci hissəsində, yəni axıra yaxın Şah İsmayıl Sultandan tələb edirdi ki, Səfəvi ocağını ziyarət etmək istəyən minlərlə Anadolu sakininə sərhəddən rahat keçmək haqqı verilsin. Bu da Sultanın nəzərində onun daxili işlərinə qarışmaq təsiri bağışlayırdı. Baxmayaraq ki, şah ondan xahiş – təvəqqe edirdi.

Sultan II Bəyazid nə qədər əsəbiləşsə də, nəhayət, hirsini boğub şaha təmkinli bir məktub yazmaq, hətta onun təvəqqesinə can-başla əməl edəcəyinə də söz vermək qərarına gəldi. Çünki o düşündü; yəqin ki, Şah İsmayıl onun Sultan Murada göndərdiyi köməkdən xəbərsizdir. Yoxsa, heç iltifat dolu məktubla ona mü-

raciət etməzdi. Bu səbəbdən Sultan II Bəyazid də aradakı düşmənçiliyi üzə çıxarmamaq qərarında israrlıydı. İstəyirdi ki, hələ nə qədər vəziyyət örtülüdür, qoy heç onun kinindən, qərəzindən Şah İsmayıl xəbər tutmasın.

Beləliklə, Sultan II Bəyazid çaparları gözlətmək, topçular dəstəsinin Sultan Muradın ərazilərinə yetmək xəbərini alandan sonra Şah İsmayıla cavab verəcəyini qərarlaşdırdı.

Səfəvi sarayında da hadisələrin gedişatı çox gərginliklə izlənilirdi. Şah İsmayıl tez-tez məlumat alırdı. Osmanlıların göndərdiyi kömək haradadır? Qüvvələr nisbəti necədir? Əgər həqiqətən Dilavər paşanın başçılığı ilə göndərilən kömək Sultan Muradın əlinə yetsə, onda Səfəvi ordularının Sultan Muradla döyüşü uğurlu olmaya bilərdi. Şah təcili müşavirə çağırdı.

Dilavər paşanın apardığı qüvvənin qarşısı harada və necə kəsilməlidir?

Birinci Əbdi bəy söz aldı:

– Əgər şah izin versə, Dilavər paşanın arxasınca müvafiq qüvvə ilə özüm gedərəm.

Şahın gözləri böyüdü, gülümsündü. Əbdi bəy şahın təbəssümündən xoşhal oldu. Amma elə həmin andaca səhv etdiyini başa düşdü. Dediyi sözləri beynində təkrar elədi. Deyəsən, səhvini başa düşmüşdü. Şaha təzim edib təzədən dilləndi:

– Əlbəttə, mürşidimizin düşündüklərini belə başa düşdüm. Dilavər paşanın arxasınca getmək yox, onun yolunu kəsmək və qabaqlamaq gərəkdir. Yoxsa, düşməni əldən buraxarıq. Ona sarsıdıcı zərbə vura bilmərik.

Şah razılıqla başını tərpətdi. Bu yerdə Məhəmməd xan Ustaclı dilləndi:

– Ancaq mən düşünürəm ki, belə işlərdə üzbəüz döyüşdən çox fənd işlətmək gərəkdir.

Hüseyn bəy Lələ Şamlı Məhəmməd Ustaclının sözündən razı olduğunu başıyla təsdiqlədi. Sonra o, da şaha təzim elədi: – Belə

işlərin anadangəlmə xiridarı Halvaçıoğlu İlyasdır. Düşünürəm ki, hökmdar bu məsələni ona həvalə etsə, öhdəsindən bacarıqla gələr.

Səfəvi sarayında hökmdardan sonra söz sahibi olan Hüseyn bəy Lələ Şamlının onun haqqında dediyi etimadlı sözlər Halvaçıoğlu İlyası qanadlandırdı. O, da tez yerindən qalxıb şaha təzim elədi. Və Hüseyn bəy Lələ Şamlıya razılıqla baxıb bildirdi:

– Bəli, mürşidimiz, əgər bu şərəfli işi hökmdar mənə tapşırsa, onun etimadını can-başla doğruldaram.

Beləliklə, min nəfərlik süvari dəstə ilə Halvaçıoğlunun Dilavər paşanın yolunu kəsmək üçün göndərilməsi qərara alındı.

Halvaçıoğlu sürətlə irəliləməkdə idi. Çaparların məlumatından öyrənmişdi ki, əgər yolda vaxt itirməsə, o, Dilavər paşanın topçular dəstəsini Zülqədər bəyin sərhədlərində haqlaya bilər.

Öz tərəfində Dilavər paşa da irəliyə, geriyə tez-tez çaparlar göndərirdi. Hələ ki, təqib olunmadığından arxayın idi. Zülqədər bəyin sərhədlərinə çatanda ondan əlavə kömək və ərzaq almaq üçün yanına adamlar yolladı. Zülqədər bəy Dilavər paşanın kimliyindən xəbərdar idi. Çünki bu barədə Sultan II Bəyazid artıq ona xəbər göndərmişdi. İndi Dilavər paşanın onun məmləkətində olmağını biləndə müvafiq kömək və yardım göstərməklə Sultan II Bəyazidin və eləcə də öz himayədarı Sultan Muradın daha artıq rəğbətini qazana bilmək fürsətini qaçırmaq istəmədi. O, Dilavər paşaya təklif elədi ki, az müddətə də olsa, paşalar Zülqədər bəyin ərazisində dincəlsinlər və sonra əlavə yardım və ərzaqla yola düşərlər.

Dilavər paşa buna etiraz eləmədi. Yaqub paşaya həvalə etdi ki, topçular alayını yoldan saxlamasın. Qüvvələri iki yerə böldü; bir hissəsi istirahət üçün qaldı, qalanları yollarını davam etdilər.

Halvaçıoğlu Dilavər paşanın qüvvələrinin yarıya bölündüyünü eşidəndə çox sevindi. Əsas o idi ki, topçuları ələ keçir-

mək, odlu silahı işlədə bilməyənləri isə zərərsizləşdirmək üçün yaxşı fürsət düşmüşdü. Halvaçıoğlu axşamın düşməsini gözlədi. Topçular dəstəsi hərəkəti dayandıran kimi o, hücum üçün əmr verdi.

Döyüş gecə – Ay işığında başlandı. Yaqub paşanın adamları belə bir hücumu gözləmirdi. Ona görə əvvəlcə çaş-baş qaldılar. Nə baş verdiyini anlamadılar. Onlar özlərini toparlayıb müqavimət göstərənə qədər Halvaçıoğlu xeyli canlı qüvvə tələf elədi, iyirmi top ələ keçirtdi. Toplardan bir çoxunu da sıradan çıxartdılar. Buna baxmayaraq, Yaqub paşa az qüvvəylə xeyli topu daha üstün mövqelərə çəkə bildi. Halvaçıoğlu başa düşdü ki, əgər təqibi davam etdirsə, qazandığı uğuru itirə bilər. Buna görə də müvafiq nailiyyətini saxlamaq üçün ələ keçirtdiyi topları, götürdüyü əsirləri cəmləyib geri qayıtdı. Dilavər paşa vəziyyətdən xəbər tutanda, Halvaçıoğlu artıq təhlükəsiz əraziyə yetişmişdi.

Baş verən gözlənilməz döyüşdən Sultan II Bəyazid hələ xəbərsiz idi. Ona görə də Şah İsmayılı arxayın salmaq üçün məktubu gecikdirmədi. O, Şah İsmayıla yazırdı: «Mükəmməl səltənətin, zəngin hakimiyyətin, sonsuz qüdrətin, həqiqi səadətin, əsl-nəsəbin ağası, səltənət, hakimiyyət, izzət və səadətin, mübarizi Şah İsmayıl! Allah ədalətini və fəzilətini qiyamətə qədər davamlı etsin!

Saf sevgi və təmiz niyyətlə göndərmiş olduğun ən təmiz duaların və ən xoşniyyətli salamların şahanəsi, səhər vaxtı ibadət edənlərin duaları və gecə-gündüz zikr edənlərin zikrləri ilə bəzəmiş olduğunuz məktubunuz sevinc və şadlığımıza səbəb olmuşdur. Xoş əhvalınızdan bizi hər zaman xəbərdar etməyi unutmayın. Dualarla dolu və sonu həmd-səna ilə bitən yazmış olduğunuz məktubunuz ən gözəl ovqatda və xoş saatlarda gəlib çatdı. Əvvəldən axıra qədər bəlağətli və gözəl cümlələrlə yazılanlar məhəbbət dolu hisslərimizin artmasına səbəb oldu. Həqiqət əhlinə meyil edənlərə mane olunmaması barəsindəki xahişiniz haqqında

da araşdırma aparılarkən belə məlum oldu ki, mücahid qazilərin rəiyyətinin əksəriyyəti ziyarət bəhanəsi ilə bu məmləkəti tərk edərək iş-gücdən yayınır və bu da ordunun məhsuldarlığına böyük zərər vururmuş. Böyük ordu rəhbərləri öz sabiq rəiyyətlərilə qarşılaşdıqda qədim adət-ənənələrə görə, görən kimi tutub onları əsas vətənlərinə qaytarmışlar.

Sizin mübarək xəbərdarlığınızı aldıqdan sonra fərman verdim ki, təbəqə arasından kimsə Allah övliyalarını – Allahın rəhməti onların üzərinə olsun – ziyarət etmək niyyətində olarsa, hər iki tərəfin istəyi və arzusu olan məhəbbət yolunu abad, möhkəm məhəbbət bağları sarsılmaz olsun deyə geri dönüş istiqamətində kimsə onlara mane olmasın. Aşiqlərin və həqiqət yolçularının ixlas və dürüstlüyü hamıya doğru sübh qədər aydın və açıq-aşkar qəti bir fərman kimi bəlli olduğu üçün sözü uzatmağa lüzum görmürəm. Bəndələrin rəbbinə xatir ilahi lütf sizə həmişə səltənət və xoşbəxtlik günləri qismət etsin».

Sultan II Bəyazid məktubunu möhürləyib təcili Səfəvi sarayına çatdırılmasını tapşırdı. O, məktubu yola saldı. Lakin özünə də yaxşı məlum idi ki, şah tezliklə Dilavər paşanın Sultan Murada köməyə getdiyini, gələcəkdə şahla ola biləcək müharibədə istifadə olunmaq üçün yüzlərlə top göndərdiyini biləcək. Bu vaxt İsmayıl bu məktubda yazılanların qeyri-səmimi olduğunu, aradakı düşmənçiliyin dərinləşdiyini də yaxşıca anlayacaq.

Bax, o vaxt Osmanlılarla Səfəvilər arasında qarşıdurma kəskinləşəcək. Bəs onda Allah kimə verəcək? Sultan II Bəyazid yaxşı bilirdi ki, artıq şah Sultan Muradla müharibə həddinə çatıb. O, bu müharibədən çəkinə bilməz. O da məlum deyildi ki, müharibədə kim qalib gələcək? Çox güman ki, Sultan Murad qalib gələcək. Toplardan sərrast istifadə etmək imkanı Sultan Muradın tərəfində olacaq. Demək, Şah İsmayılın orduları onun göndərdiyi topların atəşləri altında darmadağın ediləcək. Bu halda Şah İsmayılın Sultan II Bəyaziddən narazı qalıb-qalmamağının fərqi də olmayacaq-

dı. Bax, o zaman Sultan II Bəyazid Şah İsmayıla həddini göstərmək imkanını özü qazanacaqdı.

Hadisələrin belə sürətlə bir-birini əvəzləməsi hələ də vəziyyəti tam aydınlaşdırmamışdı. Qəmbər ağa Sultan Muradın sarayında idi.

Sultan Murad Şah İsmayılın elçilərini əvvəlcə hörmətlə qarşıladı, onlara hər cür iltifat göstərdi. Nəhayət, o, Qəmbər ağanı qəbul elədi. Qəmbər ağa Sultan Muradın qəbuluna öz aralarından seçdiyi üç nəfərlə gəlmişdi.

– Ağqoyunlu sarayına xilaf çıxmış Şah İsmayılın elçiləri bizə nə xəbərlə gəlib? – deyə soruşdu.

Qəmbər ağa hörmət xatirinə hövsələsini basdı. Sonra Sultan Muradın qəzəbli nəzərlərinin əvəzində özünün mülayim baxışları ilə onu süzdü. Asta-asta sözə başladı: – Şah özünə doğma bildiyi insanlara, babası Uzun Həsənin övladlarına hörmət və ehtiramını məndən təvəqqe edib.

– Bəs eşitmişəm ki, şah bizim üzərimizə yürüşə hazırlaşır. Qoşunu ilə bizə gül-çiçəkmi gətirmək istəyir?

– Yəqin Sultan səhv eşidib. – Qəmbər ağa təmkinlə dilləndi. – Şah istəyir ki, Sultan Murad Səfəvi ərazilərinə iddialarından əl çəksin.

Qəmbər ağanın bu sözləri Sultan Muradı bir az da əsəbiləşdirdi.

– Ağqoyunlu səltənətinin əraziləri nə vaxtdan bəri Səfəvilərin olub? – Bu sözləri Sultan Murad dedi və cəld yerindən qalxdı. Ancaq özünü saxlayıb son sözünü demədi.

Qəmbər ağa başa düşdü ki, daha geriyə yol yoxdur. O, Sultan Murada həddini göstərməlidir.

– Mən istəyirəm ki, Sultan Murad bilsin, əgər iddialarından əl çəksə, onun boynu boyunduruğa düşməz.

– Sən mənim sarayımda mənə şahın hədəsini gətirmisən? – Sultan Murad özündən çıxdı.

Qəmbər ağa yenə təmkinini pozmadı.

– Mən qəzanın nə gətirəcəyini hökmdara olduğu kimi çatdırdım…

* * *

Sultan Murad Lələ Qəmbərin dediklərini sinirə bilməsə də, onun havayıdan danışmadığını da anlayırdı. Başa düşürdü ki, Lələ Qəmbəri belə cəsarətli edən, inamlı danışdıran Səfəvi ocağını qədərincə güclü bilməsidir. Amma, Sultan Murada qəribə gələn o idi ki, dörd tərəfi köklü-köməcli dövlətlər, özü də böyük sınaqlardan, vuruşlardan keçmiş hərbi qüvvələrlə əhatə olunan Qızılbaş qoşununun sərkərdəsi İsmayıl nəyə, kimə arxayındır? Axı o yaxşı bilir ki, Osmanlı Sultanları hələ Uzun Həsəndən bəri Ərdəbil ocağına qənimdir. Ağqoyunlu səltənətinin yarısına sahib çıxan Əlvənd Mirzənin də qatı tərəfdarları Qızılbaş ocağının alovlanmasını qətiyyən istəmirlər. Bununla yanaşı Ağqounlu xanədanının yeganə varisi Sultan Muradın özü də az qüvvə deyil. Həm də Əlahiddə Zülqədər bəy, İltəmis bəy, qeyri kiçik bəyliklər də Sultan Muradla birləşməyə nəinki meyillidirlər, üstəlik buna can atırlar. Bu qüvvələrin hamısı birləşəndə az qala dünyanın yarısını tutacaq ləşkərə çevrilə bilər. Və bu ləşkər Qızılbaşları bütövlükdə, ağzına alıb silib-süpürüb aparar.

Sultan Murad fikirə getdi. Bəs onda bu Lələ Qəmbər ağanı belə cəsarətli danışdıran hansı imandır? Hökmdar qəzəbini boğub, Lələ Qəmbər ağadan bəzi mətləbləri bir az da aydınlaşdırmaq üçün onun zəhərli sözlərini səbrini basıb udmağa çalışdı. Lələ Qəmbər ağanın bütün görkəmini təzədən süzdü. Ancaq, onun görkəmində bir qorxu və təşviş görmədi halbuki, Sultan Murad ona qəzəbləndiyini artıq əvvəlcədən büruzə vermişdi. Sultan Murad guya lələ Qəmbər ağa ilə yumşaq danışığa ona görə meyilləndi ki, Şah İsmayılın özü də ona qohumdur. Və bu qohumluğu nəzərə alıb Səfəvi ocağı ilə ittifaqa girə bilər. İndi qalırdı bu yeganə ağıla batan münasibəti Lələ Qəmbərlə öz arasında

bərpa etmək. Bəlkə onda Lələ Qəmbərin dili tamam açıla və onun danışığından da Sultan Murad bir para gizlin mətləbləri aydın başa düşə.

– Mən bilirəm ki, sən İsmayılın lələsi olmusan. Doğrudurmu?

Lələ Qəmbər hökmdarın sualına başını astaca tərpədib:

– Doğrudur-doğrudur, – dedi.

– Onu da bilirdinmi ki, bu səfər sənin üçün nə qədər təhlükəlidir?

Sultan Murad Qəmbər ağanın təmkinli və inamlı danışığından daxili bir qəzəb hissi keçirtdi. Ancaq bunu biruzə vermək istəmirdi.

Qəmbər ağa tövrünü pozmadı. Başını qaldırıb Sultanın özünə, sonra da taxt-tacına baxdı və asta-asta düşündüklərini hökmdarın qabırğasına sırımaq istədi:

– Mən yaxşı bilirəm, Sultan Murad böyük Ağqoyunlu səltənətinin az qala yarısına hakimdir. Müharibələrdə qalib gələn orduları da var. Hələ üstəlik, kiçik bəyliklər də öz qüvvələriylə Sultan Murada qoşulmaq istəyindədirlər.

Sultan Murad asta-asta başını tərpətdi, dişlərini bir-birinə sıxıb heç nə demək istəməsə də, «hmm» səsi dodaqlarının arasından çıxdı. Və bunu Lələ Qəmbər ağa da eşitdi, ətrafındakılar da.

Lələ Qəmbər də sözünə davam elədi.

– Belə olan təqdirdə, daha Sultan Muradın sülh niyyətiylə gəlmiş bir elçi dəstəsinə qərəzli yanaşacağını niyə düşünməliyəm?

– Demək, sən deyirsən ki, sülh niyyətilə təşrif gətirmisən.

– Bəli, Şah İsmayıl məni buraya babası Uzun Həsənin səltənətinin yarısına hakim olan Sultan Muradın yanına sülh niyyətli elçi kimi göndərib.

– Bəs onda nə üçün Şah İsmayıl əmim oğlu Əlvənd Mirzənin tifaqını dağıtdı?

– Çünki Əlvənd Mirzə aradakı qohumluq əlaqələrini unutdu. Uzun Həsənlə babaları düşmənçilik edən Sultan Bəyazidlə ittifaqa girdi. Ondan hərbi qüvvə və silah almaqla Qızılbaşları məğlub

etmək fikrinə düşdü. Təbrizə hücum çəkdi. Zəngin xəzinəsini talan elədi. Bir gecənin içində Qızılbaşların tərəfdarı olan yeddi min günahsız insanı Təbizdə qətlə yetirdi.

Sultan Murad əlini taxtın yanına dirəyib ayağa qalxmaq istədi. Amma qalxmadı, yenə səbrini basdı:

– Bəlkə, günahsız insanlardan yox, yolundan azmış, Qızılbaş – şiə təriqətini əldə bayraq etmək istəyənlərdən söhbət gedir?

– Hökmdar, Allah hökmdarlara hakimlik haqqı verib, ədaləti pozmaq haqqı verməyib.

– Bəlkə, sən deyəsən, görək, axı bu Qızılbaşlar bilirdilərmi ki, dörd tərəf onları istəmir, tezliklə hər tərəfdən onların üstünə yürüş olacaq. Onlar elə Təbrizin özündə, Ərdəbildə qızıl qanlarında boğulacaqlar.

– Mən buna inanmıram.

– Axı niyə inanmırsan? Bu qədər böyük qüvvənin qabağında onlar necə dayana bilər?

– Əvvəla, hökmdarın dediyi elə də böyük qüvvə deyil. Bəlkə, sayınız Qızılbaşlardan azdır.

– Yox, sayımız Qızılbaşlardan qat-qat çoxdur.

– Bəs onda güvənciniz nədir?

– Bizim güvəncimiz haqq və ədalətdir.

Lələ Qəmbər hazırcavablıq göstərdi.

– Qəmbər ağa, sən Şah İsmayılın lələsisən. Yəqin ona da belə hazırcavab olmağı öyrətmisən.

– Mən ona düz yolu göstərməyə çalışmışam. Qalanını Ulu Yaradan bəxş edib. Bir də ki, Şah İsmayılın bəsirət gözləri elə binadan açıqdır.

– Axı sən demədin, bəs bizim güvəncimiz haqda nə bilirsən?

– Sizin güvənciniz yoxdur, hökmdar!

– Necəə?.. – Hökmdar qəzəb və hiddətlə qışqırdı.

– Bəli, hökmdar, sizin güvənciniz zordur, insanlar üzərində qorxu, vahimə gücünə hakimiyyətdir.

– Deməl, belə, Qızılbaşlar düşünür ki, bizim güvəncimiz yoxdur, biz ancaq zora güvənirik?

– Bəli, hökmdar, əgər istəyirsən sözümün doğruluğunu biləsən, onda öz qoşununa azadlıq ver. Gör kim sənin qoşununda qalıb xidmət etməyə razı olar?

– Bəlkə də, Lələ Qəmbər doğru deyir. – Sultan Murad ətrafındakıları qəzəblə nəzərdən keçirtdi. Sizin çoxunuz mənsəb almaq, var-dövlət qazanmaq xatirinə sarayda quyruq bulayırsınız, – dedi. Sultan Muradın adamları heç nə demədən təzim etdilər.

Lələ Qəmbər yaxşı görürdü ki, onların dizləri əsir. Əgər danışmaq istəsəydilər də, danışa bilməzdilər. Dilləri ağızlarında qurumuşdu. Çünki qorxu onların içinin ən böyük hakimi idi. Onu da yaxşı bilirdilər ki, əgər dillənib bir söz desələr və bu söz də Sultan Muradın xoşuna gəlməsə, onların hamısını da bu Lələ Qəmbərə qatıb bir göz qırpımında edam kötüyünə tərəf göndərər.

Lələ Qəmbər istehza ilə gülümsündü:

– Görürsən, hökmdar, bir kimsənin cəsarəti çatmır ki, bir söz desin, ağıllı bir məsləhət versin.

Sultan Murad Lələ Qəmbərə tərəf sərt dönüş elədi:

– Səfəvi sarayında necədir? Bəlkə əmirlər Şah İsmayılın çiynində oturur?

– Xeyr, hökmdar, əmirlər şaha çox böyük ehtiram göstərirlər.

– Deyirsən ki, əmirlər şahdan qorxmurlar?

– Axı niyə qorxsunlar, onlar şahı sevirlər. Şahın yolunda canlarından keçməyə hazırdırlar.

– Yəni, deyirsən ki, əmirlərin mal-mülk yığmaq niyyətləri yoxdur?

– Var, niyə ki… – Lələ Qəmbər ikimənalı cavab verdi.

Sultan Murad, deyəsən, onu başa düşmədi.

– Bəs onda nə deyirsən? İnsanın ki, var-dövlət niyyəti oldu, onda elə həmin niyyət onun Allahına çevrilir. Daha o, qeyri bir kimsəni sevə bilməz.

– Şah İsmayılın ətrafında olan əmirlər şahın ulu babasından qalma, Səfəvi ocağından gələn bilikləri, mənəvi dəyərləri özləri üçün var-dövlət hesab edir və bunu qazanmağa çalışırlar.

Sultan Murad bu saçı-saqqalı ağarmış, bəlkə, bir az vaxtından əvvəl qocalmış elçibaşının danışığından heyrətə gəlmişdi. Onun səsini necə kəsməyinin yolunu axtarırdı. Əlbəttə, artıq o, Qəmbər ağa üçün qərarını öz içində vermişdi. Amma hələ onun danışığındakı iradəni sındırmaq, inamı öldürmək istəyirdi. Bax, bunun yolunu tapa bilmirdi.

– Gərək atam Sultan Yaqub hələ Şah İsmayıl beşikdə olanda başını kəsəydi, müridlərini də yanında qanına qəltan edəydi. Gərək Şeyx Heydərin nəsli vaxtında kəsiləydi. Atam Sultan Yaqub buna qıymadı.

Sultan Muradın atası Sultan Yaqubla bağlı dedikləri Qəmbər ağanı bir anda çəkib uzaq keçmişə apardı. Az qala iyirmi il əvvəl bütün aləm Şeyx Heydərin övladlarının qəniminə çevrildiyi günlər gəlib birər-birər Qəmbər ağanın gözlərinin qabağından keçdi. Qəmbər ağanın yaddaşında təzələnirdi o keçmiş… Demək olar ki, hər həftə iki balaca oğlunu qucağına sıxmış ana ürək döyüntüsü ilə hər an təhlükə gözləyirdi. Qəmbər ağa o vaxt Aləmşah bəyimə başqa ad vermişdi. Eləcə də oğlanlarını da digər adlarla çağırırdılar. İbrahimin adını Xəlil, İsmayılın adını Qurban deyə çağırırdılar, Aləmşah bəyimin adına Həcər deyirdi Qəmbər ağa. Bütün bunlar ona görə idi ki, Sultan Yaqubun hər tərəfə səpələnmiş adamları onların izinə düşməsin. Ərdəbildən çıxıb Gilan dağlarınacan, Kiçik Qafqazın ətəklərinəcən ayrı-ayrı kəndlərdə, özü də əl-ayaq dəyməyən dağ kəndlərində dolanışıq axtarmaq adı ilə vaxt keçirir, yağı gözündən iraq olmağa çalışırdılar. O təhlükəli günlər çoxdan ötüb keçmişdi. Amma indi keçmiş günlər Qəmbər ağanın gözlərinin önündə idi. O vaxt Qəmbər ağa bu sözləri tez-tez deyirdi: «Onların gücü var, zoru var, Şeyx Heydərin övladlarının da Yaradanı var, bəlalardan qo-

ruyanı var». Elə bu sözləri indi təzədən Sultan Murada qaytarmağın yeri idi:

– İncimə, hökmdar, eləmədi yox, eləyə bilmədi, gücü çatmadı.

– Necə yəni, gücü çatmadı, on-on beş müridə, bir əlcə uşağa gücü çatmadı bir hökmdarın?

– Bəli, gücü çatmadı. Çünki o uşaqları qoruyan Ulu Yaradanın özü idi, – Lələ Qəmbər bu ötkəm cavabıyla sanki Sultan Muradın belini sındırdı.

Hökmdar həqiqətən əlini belinə atıb özünü dikəltmək istədi, sanki gücü çatmadı dikəlməyə, elə yerindəcə bağırdı:

– Atın bunu meydanın ortasında at ayaqlarının altına!

Lələ Qəmbəri və onun ətrafında olanları elə sarayın qarşısındakı meydana dartıb apardılar. Onları meydanın ortasında qoyub kənara çəkildilər. Bir anda Sultan Muradın cəllad süvariləri harın atlarını onların üstünə qovdular. Demək olar, elçilərin üstündən bir qoşun keçib getdi. Qəmbər ağanın adamlarından qaçıb canlarını xilas edənlər də oldu.

* * *

Şah İsmayıl son qayğılı günlərini çox narahat keçirirdi. O, Sultan II Bəyazidin timsalında necə bir riyakar rəqiblə qarşılaşdığını hiss edir, onun toruna düşməmək üçün əməllərindən qabaqcadan xəbər tutmaq və neçə ki, aradan süni hörmət pərdəsi qaldırılmayıb, heç nəyi də aşkarlamaq istəmirdi. Xüsusilə, Sultan II Bəyazidin ona axırıncı cavabı, cavan hökmdarı çox düşündürürdü: «İnsan nə qədər riyakar ola ki, açıq-aşkar müharibə şəraitində olan Sultan Murada yüzlərlə top və döyüş meydanında bu topları istifadə edə biləcək canlı qüvvə göndərsin, sonra da yazsın ki, mehriban qonşuluğun, dostluğun sarsılmazlığını qorumaq əzmindədir».

Şah İsmayıl öz-özünə danışırmış kimi dodaqaltı pıçıldayırdı:

– Ay səni öləsən, artıq mənim gözümdə bir heçsən, hiyləgər bir tülküsən. Fürsət gözləyirsən ki, əlim-qolum bağlansın, sən də o

murdar caynaqlarınla mənim gözümü tökəsən. Ancaq bunu görməyəcəksən.

İsmayıl xəyalən Sultan II Bəyazidlə üz-üzə dayanmışdı. Və bu zaman o, sanki Sultan II Bəyazidin hiylə işığına bürünmüş gözlərilə ona necə təəccüblə nəzər yetirdiyini də görürdü. Sultan II Bəyazid də nəsə deyirdi:

– Bizim ata-babalarımız bünövrədən dost olublar, qənimətlərini də bölüblər. Doğrudur, düşmənlərin fitnəsi ilə bir-birinin üstünə qılınc da çəkiblər. Ancaq bu münaqişələr uzun çəkməyib. Tez də barışıblar, haqq yoluna gəliblər.

– Sən bilən, biz münaqişəyə çevriləcək heç bir əmələ yol verməmişik ki? – Şah İsmayılın xəyalındakı Sultan II Bəyazid, deyəsən, onun bu sualından çaşdı, lap özünü itirdi də. Tez də özünü toparlayıb cavab verdi:

– Mən ki, sənə məktubumda ətraflı yazmışdım, dostluğumuzu və qardaşlığımızı bəyan etmişdim. Bəlkə, sən mənim məktubumun səmimiyyətinə inanmırsan?

Şah İsmayıl rəqibinin hiyləgər gözlərinə baxıb açıq-aşkar istehza ilə dedi:

– Necə inanmaya bilərəm. Sənin kimi dünyaca nüfuzu olan bir hökmdar ikiüzlülük edərmi? – Hökmdarın xəyalındakı Sultan II Bəyazid açıq-aşkar istehzanı duyduğundan sanki yazıqlaşdı. Şah İsmayıl ruhən özünü Sultan II Bəyaziddən çox güclü saydı.

Belə olan halda Şah İsmayıl Sultan II Bəyazidin öz təbiətinə uyğun hərəkət etməyi qərarlaşdırdı. Neçə gündü bu narahatlığı ona görə çəkirdi ki, hələ özü üçün ayırd etməmişdi: o, Sultan II Bəyazidin simasını açan, ona nifrətini çatdıran bir məktub yazsın, yoxsa… ona yenə də hörmət və ehtiram bildirən mövqe sərgiləsin. İndi ona hər şey aydın oldu. Demək, hələ Sultan II Bəyazidi cırmaqlamaq, onun simasını açmaq lazım deyildi.

Şah İsmayılın qoşunları Əlaüddövlə Zülqədər bəyə zərbə endirmək, onun Sultan Muradla birləşməsinin qarşısını almaq üçün

hərəkətə keçmişdi. Və bu zaman Osmanlıların nəzarətində olan ərazilərdən keçməli olmuşdu. Təbiidir ki, böyük qoşunun keçdiyi yerlərdə dinc əhaliyə də xeyli ziyan dəymişdi.

O, Hüseyn bəy Lələ Şamlını yanına çağırdı. Hüseyn bəy Lələ Şamlı özünü yetirib şaha təzim etdi:

– Mürşidimə başım qurban olsun! Nə hökmü var?

– Hökm budur ki, təcili Sultan II Bəyazidə, onun sərhəd kəndlərinə, adamlarına vurduğumuz ziyanla bağlı üzrxahlıq etməliyik.

Bu, bir qədər Hüseyn bəy Lələ Şamlıya təəccüblü göründü. İstədi ki, hökmdara etiraz etsin. Amma yenə də təmkinlə dillənməyi üstün tutdu.

– Hökmdar, axı…

– Bilirəm, Lələ, düşünürsən ki, artıq biz Sultan II Bəyazidlə az qala açıq-aşkar müharibə vəziyyətindəyik.

– Bəli, hökmdar, canım sənə qurban olsun, yaxşı bilirik ki, Əlvənd Mirzəni o, qızışdırıb göndərmişdi Təbrizin üstünə. Hələ də Təbrizdə bir gecənin içində minlərlə insanın faciəli həlak olmasının ağrısını yaşamaqdayıq.

– Doğrudur, Lələ, biz hələ o yasdan çıxmamışıq.

– Bəs onda biz… – yenə Hüseyn bəy Lələ Şamlı sözünün davamını gətirmədi. Gözlədi ki, hökmdar fikrini bildirsin.

– Hələ ki, bizim qarşımızda Əlvənd Mirzənin əmisi oğlu Sultan Muradla ağır bir döyüş var. Əlaəddin Zülqədər bəylə də savaşımız bizim üstünlüyümüzlə keçsə, o da Sultan Muradla qalan qüvvələrini birləşdirmək cəhdindədir. Belə vəziyyətdə neçə ki, Sultan II Bəyazid bu tərəfdən bizə ikinci cəbhə açmayıb, onu tərpətməyə lüzum yoxdur, özümüzə quyu qazmayaq.

– Başa düşdüm, hökmdar. Demək, vaxt bizim xeyrimizə işləyəcək.

– Əgər vaxt bizim xeyrimizə işləyəcəksə, nə üçün ondan bəhrələnməyək? – Şah İsmayıl Hüseyn bəy Lələnin onu doğru-düz-

gün anlamasından razı qalmışdı. Sonuncu sualını da Hüseyn bəy Lələ Şamlını bir daha razı salmaq üçün vermişdi.

– İndi hökmdar nə məsləhət edir? – Hüseyn bəy Lələ Şamlı sanki əhvalı dəyişmək üçün soruşdu.

– Mən Sultan II Bəyazidə daha bir məktub yazmışam. İstərdim ki, onu oxuyasan.

– Baş üstə, hökmdar, divana gedərəm, məktubu oradan götürüb oxuyaram.

– Yox, məktub burda, mənim özümdədir. – Şah İsmayıl məktubu Hüseyn bəy Lələ Şamlıya uzatdı.

Hüseyn bəy Lələ Şamlı sanki hər sözü gözlərinə təpirmiş kimi məktubu iki əli ilə tutub oxumağa başladı:

«Tərifəlayiq səltənət və xilafət məqamına sahib, Günəş kimi parlaq və yüksək mərtəbədə dayanan, Cəmşid qədər əzəmətli, İskəndər kimi qüdrətli, ucalıq və ədalətin himayədarı, insaf və mürüvət sahibi, dünya qeysərlərinin tabe olduğu, səltənət mülkünün varisi və layiqlisi, kafirlərə bütpərəstlərə baş əydirən, İslam ordularının sevimlisi, sultanların və şahların ən ləyaqətlisi, xaqanlar xaqanlarının ən əzəmətlisi, yüksək cəsarətlə həqiqət bayrağını daşıyan, fəth bayrağını qaldıran, təmkin və izzət kürsüsünə əyləşmiş, din və dünya mülkünü qoruyan, səltənət və xoşbəxtlik qanunlarını yayan, əzəmət və dövlət qanunlarını qoyan, Allah yolunun mücahidi, «nəfsini özünə tanrı edənləri» cəzalandıran, Allah tərəfindən yardım edilən, səltənət, ədalət, qüdrət və xoşbəxtliyin yardımçısı həzrəti Sultan Bəyazid – Allah səltənətinin təməllərini abad etsin, sizə gözəllik və sevinc bəxş etsin – məhəbbətin çoxluğunu özündə ehtiva edən və kamil sevgidən ayrılan nərgiz ətirli dualar qafiləsi və ənbər qoxulu salamlar karvanı sizə ərməğan olsun.

Agah ol ki, məmləkəti gözəlləşdirmək düşüncəsinin düyün nöqtəsi Rəbiüs-sani ayının 12-də Harput yurdunda baş verən hadisəylə bağlıdır. Oradan ötərək müxaliflərə doğru getmək

niyyətindəyik. Tərəflərimiz arasında əvvəlcədən razılaşdırılan qərara bağlılıq və vəfadarlıq eyni qaydada davam edir və sarsılmazdır.

Bu mübarək vaxtlarda Rum diyarının müsəlman məmləkətlərindən keçərkən qüdrətli qazilər və qalib əsgərlərimizə həmin vilayətlərin əhalisini incitməyi qəti şəkildə qadağan etmişdik. Müzəffər ordumuzun keçməsi ilə zərər çəkmiş insanlara nəvaziş göstərib öz yerlərinə və məkanlarına qayıtmasına yardım etdik. Gələcəkdə də, ümumiyyətlə, onlara qarşı heç bir təhlükə yoxdur. Ümidvaram ki, ilahi əmanətin qoruyucusu eşq əhalini sonsuz hikməti ilə öz himayəsinə götürmüş və qorumuşdur. Şər və zülmətin yüksəldiyi zaman, taleyin münasib qoruyucusunu onu qorumaq üçün təyin edəcəkdir. Bu əzəli bəxşişin mənşəyi, mahiyyətin yaradılış cövhəri olduğu üçün Tanrı tərəfindən sonradan yaranan çətinliklərdən əbədiyyən amanda olacaqdır. Bir olan əziz Allahın istəyi ilə.

Əsas məqsəd dostluq və sevgi münasibətlərini vurğulamaq olduğu üçün uzunçuluğa yol vermədik. Allah xatirinə dövlətinin qalası, uca gələcəyi və səadət sevincinin zirvəsi möhkəm olsun!»

Hüseyn bəy Lələ Şamlı məktubu oxuyub qurtardı. Demək olar ki, bir müddət gözlərini məktubdan çəkmədi. O, indi məktub haqqında düşünmürdü. Hökmdarın Sultan II Bəyazid kimi bir hiyləgərlə belə ustalıqla davranmaqda necə bir fəhm göstərdiyinə heyran olmuşdu. Ötən anlar ərzində xəyalından Şeyx Heydər də keçdi. Şeyx Heydər son anında oğlunu ona tapşırmışdı. Demişdi: «…övladlarımın tərbiyəsilə Qəmbər ağa və sən özün məşğul olarsan. Əgər onları yırtıcı düşmən əlinə verməsəniz, başladığımız işin gələcəyi uğurlu olacaq. Mən oğlanlarımın fəhm və fərasətinə arxayınam».

Sanki Şeyx Heydər bu sözləri təzədən Hüseyn Lələyə deyirdi. Bəy mürşidinin istəklərinə əməl edə bildiyindən qürur hissi keçirirdi. Və onun gözləri dolmuşdu.

Şah İsmayıl Hüseyn bəy Lələni müşahidə edirdi. Sanki onun daxili həyəcanlarını hökmdar özü də yaşayırdı. O, kövrəlmiş Hüseyn bəy Lələ Şamlını bu həyəcandan qurtarmaq üçün elə belə, sözgəlişi soruşdu:

– Bəlkə, məktub xoşuna gəlməyib, Lələ?..

– Xeyr, hökmdar, mən mürşidimin ağlına və zəkasına heyran qalmışam. Necə ustalıqla və diqqətlə yazılıb.

– Əgər belədirsə, məktubu təcili göndərmək gərəkdir. Qoy çaparlar bu saat yola düşsün.

– Baş üstə, hökmdar, mən gedə bilərəm?

– Yox, sən mənə İbrahimdən və Halvaçıoğlundan bir xəbər de, görək, vəziyyət nə yerdədir?

– Halvaçıoğlunun göndərdiyi qasid bir az bundan əvvəl gəlib çatıb.

– Qasid nə deyir? – Şah İsmayıl sualı qısa etməklə Hüseyn bəy Lələ Şamlının verəcəyi cavabdan asılı olacaq həyəcanını güclə boğdu.

Həqiqətən Şah İsmayılın son günlərdə keçirdiyi narahatlığın kökündə dayanan səbəblərdən biri də bu təhlükəli səfərdə qardaşı Sultan İbrahimin də iştirak etməsi idi. Bəlkə də, Şah İsmayıl Sultan İbrahimi bu savaşa göndərmək istəməzdi. Amma Sultan İbrahim Sultan II Bəyazidin topçular alayı ilə savaşa getmək istəyini özü bildirmişdi. Hətta şahdan bu səfərə getmək üçün icazə verməsini təkid etmişdi.

– Nigarançılığa ehtiyac yoxdur, hökmdar. – Hüseyn bəy Lələnin sözləri sanki şahın çiynindən ağır bir yük götürdü. O, rahat nəfəs aldı. Demək, Halvaçıoğlu İlyas da, Sultan İbrahim də sağ-salamatdır. Hələ üstəlik, Hüseyn bəy Lələ Şamlının cavabında qələbənin Qızılbaşlar tərəfində olduğuna kiçik işarə də vardı.

– Demək, Allaha şükür, işlər yaxşıdır?

– Bəli, hökmdar, pis demək olmaz. Qızılbaşlarımız tərəfindən itki çox azdır. Əvəzində isə Sultan II Bəyazidin adamlarından xey-

li əsgər əsir götürülüb. Təslim olmaq istəməyən düşməndən xeyli öldürülüb.

Şah İsmayıl Hüseyn bəy Lələ Şamlının söhbəti davam etdirməsindən bir az darıxdı. Nigarançılığının daha bir səbəbini bildirdi:

– Bəs toplar? Toplar haqqında nə xəbər var?

– Bəli, tam olmasa da, topların xeyli hissəsi sıradan çıxarıldı, bir hissəsi də ələ keçirildi. Əlbəttə, Sultan Muradın ixtiyarına veriləcək xeyli top qalıb.

* * *

Şah İsmayıl topların xeyli hissəsinin məhv edilməsi, müəyyən hissəsinin də ələ keçirilməsi haqqında xəbəri məmnunluqla qarşılamışdı. Buna baxmayaraq, Sultan II Bəyazidin göndərdiyi qorxunc odlu silahın qalan hissəsinin Sultan Muradın ixtiyarına yetəcəyindən nigaran qalmışdı. Ona görə yox ki, o, döyüşdə istifadə olunacaq toplar sayəsində Sultan Muradın qalib gələcəyini düşünürdü. Xeyr, şahın Sultan Muradı məğlub edəcəyinə inamı qətiydi. Amma orası var idi ki, Sultan Murad bu qorxunc, odlu silahların köməyi ilə döyüşdə nə qədər insanı qanına qəltan edəcəkdi. Bax, şahı narahat edən də bu idi. Sultan Murad başa düşmürdü ki, onun zamanı başa çatıb. Əgər ağlı olsaydi və iddialarından əl çəkib Ağqoyunlu səltənətinin varisi kimi Şah İsmayılı qəbul etsəydi, onda heç əlavə qırğınlara, döyüşlərə ehtiyac qalmazdı. Şahın tərəfində olardı. Sultan II Bəyazidin də aldadıcı, şirin vədlərinə uymazdı.

Sultan II Bəyazid hərbi və mənəvi yardımları ilə Sultan Murada inad göstərməsi üçün yol açırdı.

Şah cavan olsa da, insan mənəviyyatı haqqındakı elmi qədərincə mənimsəmişdi. O, yaxşı başa düşürdü ki, Sultan Muradın dünyadan təmənnası bitib-tükənmir. Demək, onun üçün ölümlər, qanlar, qırğınlar heç nədir. Təki hakimiyyət olsun!

Şah onu anlayırdı ki, əgər zamanında Sultan Murad əmisi oğlu Əlvənd Mirzəylə dil tapa bilməyib, böyük Ağqoyunlu səltənətinin parçalanmasına rəvac vermişdisə, indi qətiyyən Şah İsmayılla barışası deyildi.

Hüseyn bəy Lələ Şamlının cavabından sonra fikrə getmiş, ağır düşüncələrə qərq olmuş şahı narahat etmək istəməyən müsahibi sakitcə gözləyirdi. O, bilirdi, belə məqamlarda şah özü bir nəticəyə gəlməmiş, ona əlavə sual vermək olmaz. Bu, şahı incidər və hirsləndirərdi. Hüseyn bəy Lələ Şamlı gördü, şah yavaş-yavaş başını qaldırdı. Sanki Hüseyn bəy Lələ ilə danışmırdı. Gözlərini məchul bir nöqtəyə zilləyib fikrini bəyan edirdi.

Şah asta-asta danışırdı: «Demək, bizi qarşıda Sultan Muradla qanlı bir savaş gözləyir. Sultan II Bəyazid nə qədər ki, ilan yuvasından çıxıb bizim tərəflərə doğru sürünmürsə, gərək, Sultan Muradla işi qurtaraq». Şah sonra üzünü Hüseyn bəy Lələ Şamlıya tutub düşüncəli halda soruşdu:

– Elədirmi, Hüseyn bəy Lələ Şamlı?

Sual Hüseyn bəy Lələyə qəribə gəldi. Amma tez də Şah İsmayılın nə demək istədiyini anladı.

– Bəli, hökmdar, biz Sultan Muradla yaxın zamanda savaşımıza qərar verməliyik. Allah haqqın tərəfin saxlasın!

– Bəli, biz qalib gələcəyik!

Şah İsmayıl ayağa qalxdı. Amma Hüseyn bəy Lələdən onun içərisini yeyən ən qorxulu xəbəri soruşmamışdı. Çünki buna lüzum görməmişdi. Xəbər gəlsə də, gəlməsə də o, Qəmbər ağanın faciəli aqibətini bilirdi…

* * *

Qəmbər ağanın dəhşətli ölüm xəbərini və Sultan Muradın şaha nifrətini, bir sözlə, düşmənin yırtıcı simasını görmüş şahidlər – yəni, Qəmbər ağanın elçi dəstəsindən sağ qalmış bir-iki nəfər artıq olanın-olmazın hamısını divana çatdırmışdılar. Şah da nəticənin

elə özü bildiyi kimi olduğuna əmin olmuş və daha elçiləri təzədən danışdırmağa lüzum görməmişdi.

Aradan bir neçə gün keçdi. Onsuz da Sultan Muradla savaşa ciddi hazırlıq gedirdi. Şah isə Sultan II Bəyaziddən cavab almamış, Sultan Muradın üzərinə yürüşə başlamaq fikrində deyildi. Şübhəsiz, burada bir ehtiyatlılıq da vardı. Sultan Muradın üzərinə yürüş başlananda, Sultan II Bəyazidin özünü necə aparacağını bilmək vacib idi. Şah divan üzvlərini toplayıb, bu barədə fikrini onlara da xatırladı. Məhəmməd Xan Ustaclı şahın fikrilə şərik olduğunu bildirsə də, bunu da deməyi özünə borc bildi: – Biz vaxtı itirməmək üçün qüvvələrimizin müəyyən hissəsini, xüsusilə, piyadaları hərəkətə gətirsək, məqbuldur.

Məhəmməd Xan Ustaclının bu təklifiylə Əbdi bəy də razı olduğunu bildirdi. Əbdi bəy danışanda, şah başını aşağı salmışdı. Çünki onun qızı Taclı bəyimlə sevgi macərasını artıq sarayda, demək olar ki, hər kəs bilirdi. Elə bu səbəbdən də şah bir qədər həyalanır və Əbdi bəyin üzünə baxmağa utanırdı.

Ancaq Əbdi bəyin danışması ilə şahın onun qızı haqqında düşüncələri varlığında yenidən baş qaldırdı. Hərçənd şah qərara almışdı ki, Sultan Muradla savaşı bitirməmiş bir də Taclı bəyimlə görüşməyəcək. Buna baxmayaraq, şah son günlər divandakı siyasətdən bir balaca ayrılan kimi Taclını düşünür, onun görüş yerinə gəlib-gəlmədiyini yoxlamaq üçün bağa çıxırdı. Taclı da şahın fikrindən xəbərdar idi. Görünür, elə bu səbəbdən son günlər o, görüş yerinə gəlmirdi. Sanki birdən şahın sinəsində məhəbbət ocağı alovlandı. Az qala sevgilisini görmədiyi bir həftəni bir ilə bərabər tutdu. Bu həftəni o, necə dözdüyünü, Taclı ilə görüşmədiyini özünə bağışlaya bilmirdi. Çox istəyirdi ki, bu müşavirə tez qurtarsın və o da Taclıya bir sifariş göndərsin. Bağçada onunla görüşüb həsbi-hal eləsin.

Hüseyn bəy Lələ Şamlı şahın gözlərində yanan işıqdan şahın fikrinin kənarda olduğunu anladı. O, başa düşdü ki, şah bu gün

bu müşavirəni elə buradaca bitirmək istəyir. Ona görə də ayağa qalxıb şaha təzim elədi:

– Mürşidimizə başımız qurbandı, özünüz buyurduğunuz kimi, biz Sultan II Bəyazidin cavabına qədər səbir edək. Qoy onun da cavabı gəlsin.

Bu dəfə Bayram bəy dilləndi:

– Başımız qurban, mürşidimiz, ehtiyat döyüşdə əlavə qüvvə hesab olunur. Biz də Sultan II Bəyazid sarıdan ehtiyatlı hərəkət edərik. Bu tərəfdən bir çəkinəcəyimiz olmasa, öz işimizi icra edərik.

Hüseyn bəy Lələ Şamlı bir də ayağa qalxdı.

– Şah izin versə, divan adamları öz işlərinin arxasınca gedər.

Şah yerindən qalxdı. Divan adamları da qalxdılar. Amma şah ayağa qalxsa da, son sözünü də deməyi vacib saydı:

– Yaxşı, Allah amanında. Sultan II Bəyazidin məktubunun cavabını bir həftə də gözləyək, – dedi və sürətli addımlarla divanı tərk elədi.

Hüseyn bəy Lələ Şamlı Əbdi bəylə divandan birgə çıxdı. Əbdi bəy hiss etdi ki, Hüseyn bəy Lələ Şamlı sözlü adama oxşayır. Ona görə aralanmadı. Onlar asta-asta yeriyərək sarayın sakit bir tərəfinə çəkildilər.

– Necə bilirsən, Əbdi bəy, şahın son vaxtlar fikirli olmağı nədəndir?

Əbdi bəy Hüseyn bəy Lələ Şamlının sualını təəccüblə qarşılamadı. Çünki özü də xəbərdar idi, başqalarının da şahın qızına olan sevgisindən məlumatlı olduğunu bilirdi.

– Hüseyn bəy, sən şahın lələsisən. Onun üzərində atalıq haqqı sənin boynundadır. Özün yaxşı bilirsən ki, Şeyx Heydərin digər müridləri kimi, onun oğlunun cansağlığı üçün mən də hər an başımı verməyə hazıram. Ancaq bu iş bir qədər ayrı cürdü. Məni başa düş…

– Necə ayrı cürdü, Əbdi bəy?

– Çünki bu könül məsələsidir. Bu gün bu istək var, sabah bu istək quş kimi uça bilər. Qoy gənclər özlərinə tam inansınlar, sonra qərar çıxarsınlar.

– Mən sənin fikrinlə razıyam, Əbdi bəy. İsmayıl saf gəncdir. Fikrində dürüst, məramında qətidir. Özün görürsən ki, külli-ixtiyar sahibi olduğu halda, kəpənək kimi çiçəkdən-çiçəyə qonmur.

– Doğrudur, Lələ, razıyam, səninlə. Ancaq hər halda bu məsələnin bir qədər zamana ehtiyacı var. Qabaqda Sultan Muradla ölüm-itim döyüşü bizi gözləyir.

– Yaxşı, Əbdi bəy, Sultan Muradla savaşdan sonra bu söhbətimizə qayıdarıq.

Onlar xudahafizləşib ayrıldılar.

Bu vaxt Həşt-behişt sarayının bülbüllü bağında Şah İsmayıl Taclını gözləyirdi. Taclı isə nədənsə gecikirdi. Şah qeyri-ixtiyari sevgilisinin gəlməyini diləyən duyğularını şeirə çevirirdi. Qəzəl misra-misra onun dodaqlarından süzülürdü:

*Gəl ki, cana, səndən özgə təndə mən can istəmən,*
*Ta ki, sən varsan mənim yanımda, canan istəmən.*

*Gər əlac eylər mana aləm təbibi sərbəsər,*
*Şərbəti-ləlindən özgə dərdə dərman istəmən.*

*Görəli hüsnin gülünü olmuşam çün əndəlib,*
*Bağçalarda səndən ayru vərdi-xəndan istəmən.*

*Ta əzəl gündən sənin eşqinə iqrar etmişəm,*
*Səndən özgə yar ilən mən əhdü peyman istəmən.*

*Eylə sanma kim, Xətai mehri-ruyin tərk edə,*
*Var ikən dildə xəyalın özgə mehman istəmən.*

Şah qəzəli dediyi an gözlərini yumub xəyalına qanad vermişdi. Sanki duyğuları qəzəlin misralarını aparıb Taclıya çatdırmaq

üçün uçurdu. Birdən gözünü açdı. Nə görsə, yaxşıdır? Taclı onunla qabaq-qənşər dayanmışdı.

Onlar quş kimi bir-birinə tərəf uçdu. Odlu nəfəslər bir-birinə qarışdı. Xeyli səssiz-sözsüz duyğularla dilləşdilər. Axır ki, birinci Taclı şahın üzünə baxıb nigarançılıqla xəbər aldı:

– Səndəmi, Sultan Muradla savaşa gedəcəksən? – Taclı soruşdu.

– Əlbəttə, gedəcəm. Əgər mən bu savaşdan çəkinsəm, onda mənə necə baxarsan?

– Qorxuram, sənə xətər yetər, şahım…

– Qorxma, Taclı, həm də istəyirəm ki, mənə «şahım» deməyəsən.

– Bəs nə deyim?

– Elə adımı de, İsmayıl de. Bəsdi.

– Axı sən mənim qəlbimin şahısan, ruhumun hakimisən. Mən sənə necə bu adı deməyə bilərəm?

İsmayıl yaxına gəlib Taclının əlindən tutub yaşarmış gözlərini süzdü. Qız başını sevgilisinin sinəsinə qoydu. Doğrudur, İsmayıl da həyəcanlı idi. Taclının ürəyi quş kimi çırpınırdı. Və bunu İsmayıl hiss etdikcə, damarında qanı qaynayırdı.

İsmayılın yenə xəyalı uçdu. Sultan Muradla qanlı savaşın nəylə, necə bitəcəyi fikri onun xəyalını bulud kimi göy üzündə qovurdu. İndi şah sanki məmləkəti də, atasının vəsiyyətlərini də, hökmranlıq taxt-tacını da – hər şeyi unutmuşdu. Yalnız onun gözləri qarşısında Taclıya olan məhəbbətinin məsuliyyəti özgə bir saray qurmuşdu. O, yalnız bu sarayın möhtəşəmliyi və gözəlliyi qarşısında təslim olmuşdu. Başqa heç nə düşünə bilmirdi.

Şah təəccüb qalmışdı. Az qala, qızın yalvarışlı baxışlarına tabe olsun, Sultan Muradla savaşdan imtina etsin. Amma yox, birdən ayıldı. Xəyalı bütün dumanlardan sıyrıldı. Aydın düşüncələr onun varlığına hakim kəsildi: «Yox, Sultan Muradla savaş bitməmiş bu dünyanın hər cür naz-neməti mənə haramdır. Əvvəlcə Səfəvilər

xanədanının gücünü təsdiq etməli, sonra dünya ehtiyacları haqqında düşünməliyəm». Şahın dili gəlmədi, ürəyinin hökmünü Taclıya bildirsin…

* * *

Şah İsmayılın on beş minə yaxın Qızılbaş qoşunu Həmədan yaxınlığındakı Almaqulağı adlanan yerdə qərar tutdu. Daha irəli getmək məsləhət deyildi. Çünki qarşı tərəfdən də düşmən ordusu demək olar, eyni ərazinin iki-üç verstliyində dayanmışdı. Sultan Muradın az qala beş dəfədən çox qoşunu Qızılbaşlarla döyüşü səbirsizliklə gözləyirdi.

Döyüşdən qabaq Şah İsmayıl əmirləri ilə müşavirə keçirtdi. Əlbəttə, Sultan Muradla qarşılaşmaq üçün hazırlıq işləri başlayandan bəri belə müşavirələr çox olmuşdu. Amma indiki müşavirə əvvəlkilərdən xeyli fərqlənirdi. Əvvəla, indi düşmənin sayı haqqında Qızılbaşların kəşfiyyatı xeyli səhih məlumat gətirmişdi. Düşmən qüvvələrinin həddindən artıq çox olması xəbəri Qızılbaş qoşunu arasında geniş yayılmasa da, bəzi dəstələrin başçıları bu xəbəri eşitmiş və bir qədər təşvişə düşmüşdülər. Başqa bir çətinlik də qarşıya çıxmışdı; su yox idi. Almaqulağı adlanan ərazidəki bulaqların suyu elə bil ki, qeybə çəkilmişdi.

1503-cü ilin yayı çox isti gəlmişdi. Xüsusilə, iyun ayı elə istilər başladı ki, sısqa çeşmələr qurudu, gur bulaqların suyu azaldı. Elə bu səbəbdən də əmirlərdən bəziləri bu cür isti yay günündə qoşunun hərəkətə keçməsini yaxşı hal saymırdılar. Ona görə ki, Almaqulağı çölündə döyüş atlarının, yük heyvanlarının, eləcə də qoşunun heç bir həftə də susuz davam gətirməyəcəyini artıq hər kəs bilirdi. Bu da məsələnin daha ciddi tərəfi idi.

Hökmdar isə məsələnin su ilə bağlı olan tərəfindən o qədər hali olmasa da, hərbi yürüşün uğurlu nəticəsinə mane ola biləcək daha ciddi təhlükələr haqda düşünürdü. Axı, Sultan II Bəyazidin sarayından xoşagəlməz xəbərlər də gəlməkdəydi.

Həqiqətən Sultan II Bəyazid Şah İsmayılın Sultan Murad üzərinə yürüşə başladığı haqqındakı xəbəri əsəblə qarşılamışdı. Hətta qulağına çatmışdı ki, Şah İsmayılın göndərdiyi kiçik dəstə Sultan Murada kömək üçün gedən Osmanlı topçularının alayına hücum eləmiş və xeyli tələfat vermişdi.

Əvvəlcə Sultan bərk qəzəblənmiş və orduya Şah İsmayıl üzərinə hücum üçün əmr vermək qəranını gəldi. Amma az keçməmiş, yaxın adamlarının məsləhətilə bu fikrindən daşındı. Çünki Sultana izah olundu; onsuz da Qızılbaşların çox az qüvvələri var. Onlar bu qüvvəylə Sultan Muradın qarşısında dayana bilməyəcəklər. Məsləhətləşmədən sonra Sultan II Bəyazid yürüşü təxirə salmalı oldu, hətta Şah İsmayılla mehriban qonşuluq münasibətini saxtalıqla olsa belə, qoruyub saxlamağı daha üstün tutdu. Və Səfəvi Şahının məktubunu da çox diqqətlə oxumuşdu. Dərk etmişdi ki, şah məktubunda hər vəchlə Sultan II Bəyazidi hörmətli tutur, qətiyyən hər hansı bir incikliyə yer qoymur. Sultan II Bəyazidin bir təskinliyi vardı; o, ümidini Sultan Muradın sayca çox üstün olan qüvvələrinə bağlamışdı. Elə bu səbəbdən də hər cür münaqişəyə yol aça biləcək hərəkətin qarşısını almaq üçün Şah İsmayıla təcili cavab göndərməyi vacib bildi. Sultan II Bəyazid Şah İsmayıla cavabında yazırdı: «Böyük padşah, əcəm məmləkətlərinin əzəmətli hökmdarı, Türk və Deyləm diyarının əmiri, dövrümüzün Cəmşidi, zəmanənin Keyxosrovu, əzəmətli Allahın yardım etdiyi Şah İsmayılın – Allah dövlətinin əsaslarını möhkəmləndirsin, ömrünü uzatsın, ona uğurlar və qələbələr bəxş etsin – bəlağətli məktubu gözəl ovqat və zamanda əlimizə gəlib çatdı. Bu məktubda mübarək ordunuzun qorunan padşahlığımıza daxil olması, həmin ərazi və sərhədlərin əmirlərinin sizinlə dostcasına davranması haqqında məlumat verildi. Tərəflər arasındakı birlik və səmimiyyətin bir an belə itirilməməsi, mehribanlıq, ədalət və razılığın həmişə bərqərar olmasına cəhd göstərilməsi əmr edildi. Çünki Allahın bizə əmanəti olan xalq təhlükəsizlikdə

və əmin-amanlıqda yaşamalı, bu vəhdətin əbədi olması üçün dualarını artırmalıdır. Ədalətli və güclü dövlətinizin müttəfiqliyinin və sevgisinin möhkəmliyi açıq-aşkar kamillik dərəcəsinə çatdığı üçün ədalətpərəst ordunuzun gəlişindən həmin bölgənin sakinləri narahat olmamışlar. Padşaha ehtiramını qorumuş və hər mövzuda tərəfimizi saxlamışlar. Öz alicənablıqları sayəsində bu mövzuda az da olsa gecikmə və ləngiməyə yol verilməmişdir. Əziz və böyük Allahın istəyilə qarşı tərəfdən də həmin razı üslubdan istifadə olunar və əks bir hal ortaya çıxmaz. Bu böyük nemətin faydaları hər iki tərəfdə yaşayanlara məlum olmuş, onun şükür və fəziləti əməl dəftərlərində dərc edilmişdir ki, bunun da müqabilində böyük savab veriləcəkdir.

Allah xatirinə səltənətinin qalan günləri məhəbbətlə keçsin!»

Sultan II Bəyazidin məktubu Şah İsmayıla Almaqulağı çölündə çatdırıldı. Şah sultanın məktubunu bir neçə dəfə oxudu. Özünəməxsus bir fəhmlə anladı ki, baxmayaraq Sultan II Bəyazid onun Sultan Muradla savaşda məğlubiyyətini istəyir, ancaq o, özü qətiyyən Şah İsmayıl üzərinə hücuma keçmək niyyətində deyil. O, bunu sultanın məktubunun sətirlərindən anlayırdı. Bir anlığa sanki Sultanla üz-üzə dayanmışdı:

«– Sultan, mən inanıram ki, sən bizim üzərimizə hücuma keçmək istəmirsən».

«– Şah, sən bunu nədən bilirsən?»

«– Sultan, heç bir hökmdar istəməz ki, Allahın ona əmanəti olan xalqını qırğına versin».

«– Doğrudur, şah, mən bunu istəmirəm. Ona görə də istəyirəm ki, aramızda sülh olsun».

«– Əgər elədirsə, onda nə üçün Sultan bizim məğlubiyyətimizi istəyir?»

«– Şah, məğlubiyyəti, ya qələbəni bəxş edən Allahdır. Mənim istəyimlə heç nə həll olunmur».

«– Yox, Sultan, sənin fikrinlə razı deyiləm».

«– Şah, bir az əvvəl özün dedin ki, bizim sənə qarşı hücum niyyətimiz yoxdur».

«– Bəli, dedim. Yenə də deyirəm ki, hücum niyyətimiz yoxdur. Amma məğlubiyyətimizi istəyirsən. Buna ciddi-cəhdlə çalışırsan».

«– Mən ki, sənə qarşı heç bir təhlükəli hərəkətə keçməmişəm. Şah, əgər mən sakit yurdumda əyləşmişəmsə, demək, sənin məğlubiyyətini də istəmirəm».

«– Yox, Sultan, mən razı deyiləm. Sən hesab edirsən ki, mən cavanam, sənsə həyatın çox üzünü görmüsən. Bu həyat təcrübəndən istifadə etməklə düşünürsən ki, bizi aldada bilərsən».

«– Şükürlər olsun ki, mən Qızılbaş şahını özümə düşmən bilmirəm».

«– Bəs onda Sultan Murada göndərdiyin odlu silahı və yardımı necə izah edə bilərsən?»

«– Düşünürəm ki, şah yaxşı bilir. Biz dədə-babadan Ağqoyunlularla dost olmuşuq. Babamız Ağqoyunluların böyük anasına ana deyib. İndi Ağqoyunluların varisinə kömək əli uzatmasaq, Allahın yanında günahkar olarıq».

Sultanın bu sözləri deyəsən, şahı qəzəbləndirdi. O, əslində, hiyləgərliklə Allahın adını ortaya atmışdı. Guya özünün Allaha güvənci ilə şahı susdurmaq, özünün haqlı olduğunu sübut etmək istəyirdi.

Şah qəflətən yerindən qalxdı. Sultan II Bəyazidin məktubu da əlində idi. Elə bil ki, Sultan onun gözlərinin qabağında dayanmışdı. Məktubu az qala onun gözlərinə təpəcəkdi. Sultan II Bəyazidin xəyalı yenə gözlərinin qabağına gəlmişdi. Şah məktubu onun düz bəbəklərinə sarı tutdu. Əgər belədirsə, onda bu məktubdakı sülh niyyətləri, dostluq sözləri hiylə deyil, «bəs nədir»?

Şah İsmayıla elə gəldi, Sultan II Bəyazid istehza ilə gülümsəyir və dodağının altında nəsə deyir. Sanki Sultan II Bəyazidin dediklərini şah özü də eşitdi: «Gedin, vuruşun, bir-birinizi al-qana

qərq eləyin. Bir ölkənin, bir məmləkətin övladlarısınız. Eyni xanədandan araya-ərsəyə gəlmisiniz. Bir-birinizi yalnız özünüz yenə bilərsiniz. Bizə də elə bu gərəkdir. Elə bilirsən, mən Sultan Muradın qüvvətlənməsini istəyirəm? Mənim üçün nə fərqi var: hakimiyyətdə Sultan Murad oldu, ya sən oldun?!.. Sultan Murad da qalib gəlsə bizim üçün təhlükə olacaq, sən də qalib gəlsən, bizim üçün təhlükə mənbəyisən. Yaxşı olar ki, bizi araya qatmayasınız».

Əlbəttə, şah öz fəhmilə Sultan II Bəyazidin xəyalıyla danışırdı. Öz fəhmindən istifadə ilə Sultan II Bəyazidin nə düşündüyünü aydınlaşdırmaq, onun niyyətini anlamaq istəyirdi.

Şah başını əllərinin arasına aldı. Nəsə ürəyi sıxılırdı. Ona elə gəlirdi ki, bu, Almaqulağı çölünün üzərində bir bəla dolaşır. O bəla haradan və necə gələcəkdi, bunu özü üçün aydınlaşdırmaq və öz qoşununu bu bəladan sovuşdurmaq gərək idi. O bir anlığa səssiz bir tənhalığa qapılaraq, dərin düşüncələrə daldı, müdrik babalarının ruhlarını köməyə çağırdı.

Bu vaxt nəsə bir hay-küy eşitdi. Şah çadırının qarşısına çıxdı. Xeyli aralıda qoşun əhlindən bir dəstə eyni yerə toplaşmış, nə barədəsə mübahisəyə girişmişdilər. Şah hələ bir qərara gələ bilməmişdi ki, özü yaxına getsin, ya kimdənsə soruşsun. Amma gördü ki, əmirlər arasında hər kəsdən artıq hörmət bəslədiyi Abdal bəy Dədə onun çadırına yaxınlaşır.

Əslində, vəziyyət belə idi; qoşun əhli susuzluq çəkirdi. Və bir kimsə də şaha çatdırmırdı ki, qoşun əhli susuzluq çəkir. Əgər bir çarə qılmasa, Qızılbaşlar düşmənə qarşı vuruşa bilməyəcək. Xəbəri şaha çatdırmağın başqa tərəfləri də vardı. Çünki belə bir söz dolaşırdı; şayiələr buraxılır və bu şayiələrlə Qızılbaşlar arasına təşviş salınırdı. Xəbəri şaha çatdıranın özü günahkar ola bilərdi. Ona görə də kimsə cəsarət eləmirdi. Amma Abdal bəy Dədə vaxtilə Şeyx Heydərlə olan dostluq münasibətinə güvənərək, şahın yanına özünün gedəcəyini bildirmiş və irəli çıxmışdı.

O, şaha yaxınlaşıb, təzim etdi və sonra dilləndi:

– Mürşidimizə başımız qurban olsun, sözüm var, şahım.

– Nə sözün var, buyur, Dədə.

– Qoşun susuzluq çəkir. Biz bilirdik ki, əvvəllər bu yerlərdə bulaqlar olub, çaylar axıb. İndi həmin bulaqlar və çaylar tamam quruyub, su çəkilib. Qoşun bu halda susuz vuruşa bilməyəcək. Biz gərək tezliklə döyüş meydanını tərk edək.

– Onda Sultan Murad bizi təqib edər, Qızılbaşlar arasına qarışıqlıq düşər, çox tələfat verərik.

Şah Dədənin gözlərinə baxdı. Sanki onun gözlərində bir əlacsızlıq gördü.

– Bəs onda şahımız nə məsləhət görür? – Abdal bəy Dədə əlacsız-əlacsız soruşdu.

– Sultan Muradla döyüşü Allah bizim alnımıza yazıb. Əgər bunu Allah bizim qədərimizə yazıbsa, demək, bir çıxış yolu olmalıdır. Sən get, mən birazdan sənə xəbər verərəm.

Abdal bəy Dədə dönüb getmək istədi. Şah təzədən başını əllərinin arasına almışdı. Dərin fikrə qərq olsa da, əli ilə Abdal bəy Dədənin gözləməsini işarə elədi. Və birdən nəsə tapmış kimi üzündə bir sevinc əlaməti ilə ayağa qalxdı.

– Ətrafda quyular qazılsın. Burada su olmalıdır. Vaxtilə üzdən axan sular indi yerin altındadır.

Beləliklə, Qızılbaş qoşunu susuzluqdan xilas oldu.

– Mürşidimiz var olsun! – sədaları göyə ucaldı. Qızılbaşlar gözlənilmədən suyun tapılmasını Allahın şaha kəraməti kimi qəbul etdilər.

* * *

Hüseyn bəy Lələ Şamlı qazılan quyulardan suyun tapıldığını şaha tez xəbər vermək istəsə də, tələsmədi. Çünki yeni xəbərlər almışdı, xüsusilə, Sultan Muradla savaşın başlanmağına çox az vaxt qalmış bir məqamda öyrənmişdi ki, Sultan II Bəyazid Şah İsmayı-

lın Ağqoyunlu varisinin üzərinə hücumundan bərk qəzəblənib və Əlaüddövlə Zülqədər bəyə xəbər göndərib ki, təcili Şah İsmayılın üstünə qüvvə çəksin. Bütün bunlar azmış kimi Sultan II Bəyazid digər, hətta özü ilə qonşu olmayan ölkələrə də qasid göndərərək xəbər eləmişdi ki, əgər Şah İsmayıl Sultan Murada qalib gəlsə, onun ölkəsinin sərhədləri keçmiş Ağqoyunlu səltənətinin bütün ərazilərini əhatəsinə alacaq. Bundan sonra qonşu dövlətlər hədə altında qalacaqlar.

Hüseyn bəy Lələ Şamlı Sultan II Bəyazidin siyasətini və tamahkarlığını yaxşı bilirdi. Onu da anlayırdı ki, əgər Sultan II Bəyazidin qonşu dövlətlərə təhrikçi təkliflərinin qabağı alınmasa, onda Şah İsmayıl bütün ətraf ərazilərin, qonşu dövlətlərin birliyi ilə təhdid altında qalacaq. Onlar Şah İsmayılı təkləmək və beləliklə, gənc Səfəvi dövlətini hələ ayaq üstə qalxmamış məhv etmək istəyəcəklər. Bəli, Şah İsmayılın Lələsi yaxşı anlayırdı: əgər Sultan II Bəyazidin siyasəti tezlikcə ifşa olunmasa, onda gənc Səfəvi dövlətinin gələcəyi təhlükə altında qalacaqdı.

Səfəvi divanının səyyar müşavirəsi sabah olacaqdı. Hələ ki, qoşun rahatlanmaq, dincəlmək əmri almışdı. Bu müddət ərzində qazılmış quyulardan götürülən sərin su ilə qoşun təchiz olunmuş, atlar, dəvələr qədərincə suvarılmışdı. Bu da qoşunda xüsusi bir əhval yaratmışdı. Hər kəs Şah İsmayıla dua eləyir, onun gözəgörünməz Yaradanın köməyi sayəsində heç kimin nail ola bilməyəcəyinə çatdığını güman edirdi. Həqiqətən də səhranın yandırıcı istisi altında kimin ağlına gələrdi ki, susuz Almaqulağı çölündə çox asanlıqla su mənbələri tapılacaq və qoşun su ilə sirab olacaqdı. Əslində, Sultan Murad da Səfəvi qoşununun qarşısını Almaqulağı çölündə kəsməkdə məqsədi bu idi ki, qızılbaşları susuzluqla imtahana çəkib məğlubiyyətə düçar eləsin.

…Şah başını əlləri arasından götürdü. Onun iqamətgahı Almaqulağı çölünün nisbətən hündür bir yerində idi. Əslində, ətrafı o, çox yaxşı görürdü. Hətta düşmən ordugahı aydın görünməsə

də, onun Sultan Muradın qoşununu müşahidə etmək imkanı da vardı. O, görürdü ki, Almaqulağı çölünün nisbətən yaşıl vadi ilə əhatə olunmuş tərəfində Ağqoyunlu qoşunları düşərgə salıb. Hətta onlar hərəkət də etmirlər. Şahı fikir götürmüşdü ki, nə üçün Sultan Muradın qoşunu hərəkətə keçmir.

Həmin vaxt Sultan Murad da nisbətən hündür bir tərəfdən həm öz qoşununu, həm də Şah İsmayılın ordusunu müşahidə edirdi. Əslində, Sultan Murad Qızılbaş qoşunları ilə qarşılaşmadan öz hiyləsinə uyğun olaraq döyüşsüz, cəngsiz qalib gəlmək niyyətində idi. Sultan Murad qabaqcadan bilirdi ki, vadiyə qədərki məsafəni o, qət edəcək və düşərgə salacaq. Onu da yaxşı bilirdi ki, onun düşərgə saldığı yerdən o tərəfə, yəni Şah İsmayılın hərəkət edəcəyi ərazilərdə bir damcı da olsa su ehtiyatı yoxdur. Demək, Qızılbaş qoşunu tezliklə susuzluğa düçar olacaq və orduda narazılıq başlayacaq. Heç Sultan Muradın döyüşə başlamağına ehtiyac olmayacaq. Qoşun üsyan edəcək, bütün sərkərdələrini, dəstəbaşılarını, demək, həm də şahı qılıncdan keçirəcək. Atalar demişkən, ac qılınca çapar. Axı, susuz nəinki atasını, anasını, heç Allahını da tanımaz.

Sultan Murad burada – bu məsələdə səhv edə biləcəyini qətiyyən düşünmürdü. Çünki heç onun ağlına da gəlmirdi ki, Almaqulağı çölünün susuz səhrasında yerin təkindən su çıxarmaq fikri Səfəvi hökmdarının ağlına gələ bilər. Sultan Murad qoşuna hərəkət əmri vermədi. O, səbirsizliklə qarşı tərəfdəki çaxnaşmanı gözləyirdi. Onun bu çaxnaşmanı gözləməyi Qızılbaş qoşununa imkan verdi ki, özünün su ehtiyacını tam təmin eləsin.

Bir qədər gec də olsa Şah İsmayıl anladı ki, Almaqulağı çölündə Sultan Muradın onun qoşununun qarşısını kəsməyi bir hiylə imiş. Demək, Sultan Murad ona görə hərəkətə keçmirmiş ki, Səfəvi qoşununda susuzluq onları qiyama gətirib çıxarsın.

Öz növbəsində Şah İsmayıl da Sultan Muradın belə aldanışına sevinirdi. Qoşun yaranmış vəziyyətdən artıq Səfəvilərin xeyrinə

işləyən vaxtdan istifadə edərək, özünü su ilə təchiz etmiş və döyüşə hazır vəziyyətə gətirilmişdi.

Şah İsmayıl nə qədər gənc olsa da, fəhmli və döyüş elmini mükəmməl öyrənmiş sərkərdə idi. Xüsusilə, onu tərbiyə edib böyütmüş Qəmbər ağa kimi lələsindən öyrəndikləri də döyüş zamanı karına gəlirdi. Qəmbər ağa ona deyirdi: «Hətta sən hiss edəndə ki, qarşısındakını yenmək gücündəsən, buna baxma, yenə özündən böyükləri yanına çağır, onlarla məsləhətləş. Bunun iki faydası olar; əvvəla, məsləhətləşdiyin adamlar bilərlər ki, sən onlara inanırsan. Onlar da axıracan sənə inanar və sədaqətlə qulluq edərlər. İkincisi, bunun başqa bir faydası da məlumdur. Allah eləməmiş, ziyana düşsən, yəni gördüyün tədbirdə məğlubiyyətlə qarşılaşsan, təqsirkar təkcə sən özün olmazsan. Baş verən xoşagəlməz hadisədə səninlə birgə başqaları da şərik olar. Bu da düşdüyün vəziyyətdən çıxmaq üçün hər kəsi səfərbər etməyə sənə imkan verər».

İndi şah başa düşdü ki, Hüseyn bəy Lələ Şamlını yanına çağırmalıdır. Eləcə də divan üzvü olan və qoşunu idarə edən sərkərdələrin hər biri ilə açıq müzakirə imkanına ehtiyac yaranmışdı.

Şah üzünü divan üzvlərinə və qoşunun sərkərdələrinə tutub sözə başladı.

– Bizim hansı birimizin ağlına gələrdi ki, Sultan Murad gözəgörünməz bir silahdan istifadə edəcək, bizi susuzluğa düçar edəcək. Siz bilən, indi Sultan Murad nə düşünür?

– Şah İsmayıl bu sözləri dedi və üzünü Hüseyn bəy Lələyə tutdu.

Hüseyn bəy Lələ Şamlı irəli yeriyib təzim elədi: – Şahım, Sultan Muradın unutduğu bir məsələ var.

– Sən bilən Ağqoyunlu sultanı nəyi unudub?

Şah Hüseyn bəy Lələ Şamlıdan təmkinlə soruşdu.

– Bəli, şahım, Sultan Muradın unutduğu odur ki, gözəgörünməz Yaradan bizim şahımızdan kərəmini əsirgəmir.

Şah İsmayıl Hüseyn bəy Lələ Şamlının bu sözlərindən çox məmnun oldu. İstədi ki, Hüseyn bəy Lələ Şamlının xoş əhval gətirən sözlərinə görə ona təşəkkür eləsin. Amma bu dəfə dinmədi. Bir az sükut oldu, sonra üzünü ətrafda dayanmış sərkərdələrə tutdu:

– Bəlkə, Sultan Murad hələ də qalib gələcəyini düşünür. Sizcə, bu, mümkündürmü?

Bu dəfə Abdal bəy Dədə qabağa yeridi:

– Başımız qurbandı mürşidimizin yolunda. Amma Sultan Murad nə qədər hiyləgər olsa da, unudub ki, bizim şahımız ulu Yaradanın himayəsindədir.

Şah Abdal bəy Dədənin sözlərindən də xoşhal oldu. Ancaq yenə soruşdu:

– Dədə nə demək istəyir, qoy açıq bildirsin.

– Şahım, Sultan Murad bəlkə düşünür ki, Qızılbaşlar susuzluqdan başlarını itirib. Ha indi, ha bir az sonra üsyana başlayacaqlar. Sultan Murad da qıraqdan bu hadisəni görəcək və gülə-gülə Qızılbaş qoşunu üzərindəki qələbəsini bayram edəcək.

Dədə bəy bu sözləri dedi və bir az dayandı. Gördü ki, şah onu dinləyir, sözünün gerisini istəyir. Ona görə də davam elədi:

– Amma məlum olduğu kimi, belə bir şər hadisə baş vermədi. Bizim indi kifayət qədər su ehtiyatımız var. Demək, Sultan Murad məqsədinə və məramına yetməyib.

– Bəs digər sərkərdələr nə düşünür?

Şah üzünü digər sərkərdələrə tutdu. Xüsusilə, yaşca Abdal bəy Dədədən kiçik olsa da, ağırlığına və təmkininə görə bütün divan əhli və orduda böyük hörmət sahibi olan Məhəmməd xan Ustaclı bu dəfə dillənməyi özünə borc bildi:

– Mürşidimizi qoruyan Allahımızdır. Ancaq biz də Allahın yolunda o vaxt sadiq bəndələr olarıq ki, Allahımızın buyurduğuna axıracan əməl edək.

– Məhəmməd xan Ustaclı, sən döyüşlər görmüsən, indi nə buyurursan? – Şah birbaşa soruşdu.

– Şahım, bir an da olsun, vaxt itirmək olmaz. Biz təcili Sultan Muradın üzərinə yeriməliyik. Vaxtı itirmək zərərimizə işləyir.

Məhəmməd xan Ustaclının dediklərini digər sərkərdələr də – Əbdi bəy Şamlı, Abdal bəy Dədə, Qaraxan Ustaclı, İlyas bəy Halvaçıoğlu və şahın qardaşı – Sultan İbrahim də təsdiqlədi. Hərəsi bir tərəfdən dilləndi.

– Doğrudur, şahım.

– Vaxt itirmək olmaz, hökmdar!

– Bizim gücümüzü döyüş göstərər…

– Tanrı hərəkəti sevəndir. – Sultan İbrahim müzakirəyə sanki son qoydu.

Əslində, şah cavan olsa da, ona tərbiyə vermiş, ona hərb elmini, mənəviyyat elmini öyrətmiş lələlərinin sayəsində cavan ikən müdriklik yaşına çatmışdı. İndi o, atası yaşında olan və davalar, döyüşlər içərisindən keçmiş bu igidlərdən eşitdiklərinə çox məmnun idi.

Şah bu məqamda Hüseyn bəy Lələni də eşitmək istədi. Çünki məmləkətə qıraqdan hansı təzyiqlər və təcavüzlər ola bilcəyi haqda məlumatlar birbaşa onun üzərinə axırdı. Şah bilirdi ki, mövcud vəziyyəti Hüseyn bəy Lələ Şamlı digərlərindən daha yaxşı bilir. Ona görə də üzünü Hüseyn bəy Lələ Şamlıya tutub soruşdu:

– Hüseyn bəy, nə məsləhət görürsən, biz Sultan Muradla savaşı dayandırsaq yaxşıdır, yoxsa… – Şah qəsdən sözünün gerisini gətirmədi. Amma sualedici nəzərlə Hüseyn bəydən də diqqətini çəkmədi.

Hüseyn bəy Lələ Şamlı dilləndi:

– Bilirəm, hökmdar, Sultan Muradla savaş bizdən böyük əzmkarlıq və iradə istəyir. Biz gərək o qədər inamlı olaq ki, bu savaşa başlayaq.

– Bəlkə, Hüseyn bəy Lələ Şamlı demək istəyir ki, biz elə də inamlı deyilik.

– Xeyr, hökmdar, mən elə demək istəmirəm.

– Bəs nə demək istəyir, Hüseyn bəy Lələ Şamlı?

Hüseyn bəy Lələyə elə gəldi ki, şahın axırıncı sualında bir qəzəb var. Amma onun üzünə baxanda, anladı ki, şah əslində bu sualı böyük rəğbətlə verib. Sadəcə istədiyi cavabı ondan gözləyir. Ona görə Hüseyn bəy sözünə davam elədi:

– Demək istəyirəm ki, Sultan Muradın qüvvəsi bizdən ikiqat artıqdır. Amma onun gücünü yarı eləyən bir düşməni var.

Bu dəfə – Hüseyn bəy Lələ Şamlının sözlərindən sonra şah da, sərkərdələr də təəccüblə onun üzünə baxdılar. Hüseyn bəy Lələ Şamlı nə demək istəyirdi, – onlara aydın deyildi. Və Hüseyn bəy Lələ Şamlı da hamını düşündürən həmin mətləbi yerindəcə açıqladı:

– Şahım, onun qələbəyə heç bir ümidi yoxdur. Qüvvəsi bizdən ikiqat artıq olsa da. Onun düşməni inamsızlıqdır. Bu, onun qüvvəsini yarıya endirir. Bizim isə inamımız var. İnam bizim qüvvəmizi ikiqat artırır.

Şah Hüseyn bəy Lələ Şamlının nə demək istədiyini anladı.

Həqiqətən Almaqulağı çölünə Sultan Murad yetmiş min nəfərlik qüvvə ilə gəlmişdi. Üstəlik Əlaüddövlə Zülqədər bəyin də köməyi gəlməkdəydi. Bundan başqa, Osmanlıların göndərdiyi çoxlu sayda toplar və bu odlu silahları işlədən qüvvələr də kifayət qədər idi. İlk baxışdan Qızılbaşların on iki min nəfərlik süvarisi, on səkkiz min nəfərlik piyadası bu nəhəng qüvvəyə qarşı dura bilməzdi, – qənaətini yaradırdı.

* * *

1503-cü il iyun ayının axırlarıydi. Havalar günü-gündən qızırdı. Elə bil, göydən od yağırdı, yerdə tonqal qalanırdı. Yandırıcı istinin təsirindən nəinki səslər müxtəlif, iddialar eyni, döyüş ruhu inanılmaz dərəcədə yüksək idi! Səfəvi nəslinin yadigarı, igid Sultan İbrahimin ləngərli yerişi, inamlı baxışı, məğrur duruşu İsmayıl şahı asimanın lap yeddinci qatına yüksəldirdi. Belə sərkərdələrlə

İsgəndər padşaha da, Daraya da, Çingiz xana da qalib gəlmək mümkün idi. İsmayıl necə pərvazlanmayaydı, özünü arxalı hesab etməyəydi, düşməninə dov gəlməyəydi, tarixi məqamı buraxaydı? Sabah fürsəti əldən verdiyinə görə qınaq hədəfinə çevrilməzdimi?

Hər kəs başını gizləməyə kölgə axtarırdı. Göz işlədikcə uzanan Almaqulağı çölünün qumu ocaq közünə dönmüşdü.

Şah İsmayıl havaya baxdı. Çox uzaqdan gələn nəhəng ağ bulud topası göy üzündə hərəkətdə idi. Buludun ardınca yeriyən nəhəng kölgə birazdan döyüş meydanı olacaq ərazinin üstünə çatacaqdı.

Şah İsmayıl düşərgənin ətrafına nəzər yetirdi, qumdan başqa heç nə görmədi. Amma onun xeyməsinin yaxınlığında, qumun içində bitmiş kimi görünən bir daş nəzərini çəkdi. Daşın yanında dayanıb dörd bir yanı nəzərdən keçirtdi. Axır ki, ayaq üstə dayanmayıb daşın üstündə oturdu. Nəhəng bulud isə göy üzündə hələ də irəliləməkdə idi. Şah bunu yaxşı əlamət hesab elədi. Buludun ləng hərəkəti onu göstərirdi ki, kölgəlik xeyli müddət onun qoşununun üstündə olacaqdı. Onsuz da döyüşün necə gedəcəyi, kimin hansı tərəfdən həmlə edəcəyi artıq məlum idi.

Şah bilirdi ki, Sultan Murad yaxşı döyüşçü olduğu kimi, həm də təcrübəli sərkərdədir. Hələ onun hiyləgərliyindən, aldadıcı fəndlər işlətməyindən də xəbərdar idi. Elə bu səbəbdən də kəşfiyyat dəstələrinin gətirdiyi məlumatları da özü üçün aydınlaşdırmışdı. Sultan Murad qoşununun sayca ikiqat artıq olduğuna güvəncli olsa da, Şah İsmayıl da Qızılbaşların əqidə sədaqətinə arxayın idi. Abdal bəy Dədə, Əbdi bəy Şamlı sağ cinahdan hücuma keçəcəkdi. Məhəmməd xan Ustaclı ilə Qaraxan Ustaclı sol cinahı qamarlamalı idi…

Mərkəzdən İlyas bəy Halvaçıoğlu yeriyəcəkdi. İlyas bəy Halvaçıoğlu sağ və sol cinahlara rəhbərlik edən digər sərkərdələrdən cavan olsa da, çox cəsarətli, fəhmli və igid döyüşçü idi. Şah İsmayılın qardaşı çox istəyirdi ki, mərkəzdən dəstəyə başçılıq et-

sin. Amma Şah İsmayıl razı olmamışdı. Həm də Halvaçıoğlu Sultan Muradın toplarla döyüşə başlayacağını bildiyindən şah da onu məsləhət bilmişdi. O, topçular alayına yaxınlaşmaq üçün fürsət gözləyirdi. Şah İsmayıl Halvaçıoğlunun fikirləriylə razılaşırdı. Onsuz da mərkəzdəki qüvvəyə əsasən Şah İsmayıl başçılıq edəcək və döyüşün qızğın vaxtında Sultan Muradla qarşılaşacağını nəzərə almışdı.

Döyüş başlamazdan əvvəl şah Qızılbaşların önündən keçdi. O, atın üstündə qürurla dayanmışdı. Hər dəstənin önündə dayanıb qoşunla ürək sözlərini bölüşürdü:

– Ey mənim qorxubilməz igidlərim! Düşmən yalnız tamah niyyətilə vuruşur. Biz isə əqidəmiz və imanımız üçün döyüşürük. Bir Allah şahiddir ki, biz Sultan Muradla savaş istəmirdik. O, özü bu savaşı başladı. Dədə-babalarımızdan görmüşük, elçiyə zaval yoxdur. O, bizim elçiləri at ayaqları altında qoydu. Sultan bizim ruhumuzu təhqir elədi. Buna görə də bizim qəzəbimiz Allahın qəzəbidir. Düşməni gec-tez sizin qüvvətli zərbələrinizlə Allahın qəzəbi tutacaq. Bu zəfər təkcə Qızılbaşların zəfəri olmayacaq, həm də Sultan Muradın zülmündən bezmiş insanların zəfəri olacaq. Baxmayaraq ki, onlar bu gün Sultan Muradın dəstəsində bizə qarşı döyüşmək üçün gəliblər. Amma fürsət düşən kimi, onlar qılınclarını Sultan Muradın öz başına endirəcəklər. Haqq bizimlədir. Savaşın, o qədər ki, düşmən qılıncı yerə qoyub təslim olsun. Və təslim olana aman verin, öldürməyin. Çünki onlar bizim tərəfimizə keçəcəklər.

Şah bu nitqini ayrı-ayrı dəstələrin qabağında izhar elədi. Və hər dəfə də sözünü bitirən kimi Qızılbaşların: – «Mürşidimizə başımız qurban. Qanımız Şeyx Heydər varisinin yolunda halaldır!» – sədaları göyə ucalırdı.

Qızılbaşların yüksək əhval-ruhiyyəsi Şah İsmayılın könlünü açdı, onu sevindirdi. Döyüşün başladığı gün bütün əlamətlərilə gənc şahı ruhlandırdı.

Nəhəng buludun kölgəsi döyüş meydanının əsasən Qızılbaşlar olan tərəfi üstündə löngər vururdu. Şah İsmayıl əliylə işarə elədi. Bir anda şeypurlar gurladı. Almaqulağı çölünün sakit havası yoxa çəkildi. Təbillərin gurultusundan, qılıncların qalxanlara dəyməsindən qalxan qorxunc səs-küy az qala qulaqları batırırdı.

Hökmdar gördü ki, düşmən hərəkətə gəldi. Birinci Sultan Muradın atlıları mərkəz boyu hücuma keçdi. Qızılbaşların mərkəzdəki qüvvələri nisbətən az hərəkət edirdi. Onlar sıralarını pozmamaq üçün atlı dəstələrinin yaxınlaşmasını gözləyirdi. Atlıların ön dəstələri Qızılbaşların nizələrinə tuş gəldi. Yıxılan atlar, qışqıran döyüşçülər, yanıqlı kişnərti sədaları sanki qiyamətin başlanmasından xəbər verirdi.

Bu vaxt düşmən tərəfin topları guruldadı. Mərmilər partlayıb toz-dumanı havaya qaldırdı. İlk atəş səngiyən kimi məlum oldu ki, Sultan Muradın topları düzgün nizamlanmadığından elə ilk andaca qabağa çıxan süvarilərini zərbə altına alıb.

Şah İsmayıl hələ döyüşə girməmişdi. O, mərkəzə hərəkət ediləcək yerin lap yaxınlığına yetişmişdi. Düşmən topu onu hədəfə ala bilməzdi. Şah qarşı-qarşıya gələn qüvvələrin necə qırılıb-töküldüyünə baxırdı. Bir anda Almaqulağı çölünün sarı qumu qırmızı qana bulandı. Şah əllərilə başını tutub heyrətlə baxırdı. Onsuz da ona məlum idi ki, əgər döyüş varsa, ölüm-itim də var, qan da var. Axı bu, döyüş olmaya bilərdi. Sultan Muradın iddiaları gətirib bu yerə çıxarmışdı. Hətta elçilərin qətlinə fərman verməsi, onun insan qanına susamasından xəbər verirdi. Şah bunları yadına saldı və canına dolmuş qəzəb sanki mərhəmət hisslərini birdən-birə yuyub apardı.

Döyüşün qızğın çağında Sultan Murada xəbər verdilər ki, onun topları öz qoşununu mərmi altına alıb. Bu da Sultan Muradı bərk qəzəbləndirdi və yerindəncə qışqıra-qışqıra dedi:

– Onlar Qızbaşlara satılıblar! Topçu alayının başçılarını öldürün, yoxsa, qalan qoşunu da top atəşi altına alıb məhv edərlər!

Şübhəsiz, Sultan Muradın bu əmri düşünülməmiş, məsələni ayırd etmədən verilmişdi. Halbuki Sultan Murad yaxşı düşünsəydi süvarilərin hücumunu bir az ləngidər, top atəşlərinin Qızılbaşları pərən-pərən salmasından sonra hərəkətinə icazə verərdi.

Almaqulağı çölündə baş verən hadisələrin başlanğıcı Şah İsmayıla böyük fərəh gətirmişdi. O, bunu İlahidən göndərilən bir yardım kimi qəbul edirdi. Sultan Muradın topları susdu və yeni atəşlər olmadı. Çünki əsas nizamlayıcı qüvvələr onun özü tərəfindən qətl edilmişdi.

Dədə bəy Abdal və Əbdi bəy Şamlı sağ tərəfdən irəliləyib Sultan Muradı əhatə edən dəstələrin arxasına keçməkdəydilər. Elə Qızılbaşların sol cinahı da irəliləyirdi. Şah İsmayıl belə bir məqamda fürsəti əldən verməyərək özü mərkəzdən sürətlə hücuma keçdi. Onun Sultan Muradla qarşılaşmasına çox az qalmışdı. Hətta o, Sultan Muradın bağırtılarını, nizamsız göstərişlərini, əmrlərini də eşidirdi.

– Heç kim geriyə çəkilməsin, – bu, Sultan Muradın son sözləri idi. Onun səsini «Mürşidimizə başımız qurbandır», – deyən Qızılbaşların səsləri batırırdı.

Bu vaxt döyüş meydanına yaxınlaşan Sultan Muradın ikinci müttəfiqi İslamış bəy Şah İsmayılın mərkəzdə olduğunu görüb Tanrının fürsəti ona verdiyini düşündü. Ona elə gəldi, kiçik bir həmlə ilə Şah İsmayılı mühasirəyə alacaq. Həqiqətən onun dəstələri sürətlə irəliləyirdi və şahı mühasirəyə ala bilərdi. O, şahın iki nizə atımlığı məsafəsində idi.

– Hə, dərviş oğlu, yəqin ki, sənin əcəlin burada yetibmiş. – O, Şah İsmayıla təhqiramiz şəkildə qışqırdı. Ancaq xəbəri yox idi ki, Halvaçıoğlu onun hərəkətlərini bayaqdan izləyir. Halvaçıoğlu oxçulara göstəriş verdi. Bir anda İslamış bəyin ətrafındakı adamlar oxla vurulduğundan yerə sərildilər. Elə İslamış bəyin özünə də ox dəymişdi. Çox güman ki, yaralanmışdı, amma hələ döyüşməkdə davam edirdi.

İlyas bəy Halvaçıoğlu İslamış bəyin ətrafındakı qüvvələrin özlərini itirməyindən istifadə edib, atını düz onun üstünə sürdü. İslamış bəy üzü Şah İsmayıla tərəf irəliləməkdə ikən yanında Halvaçıoğlu İlyasın səsini eşitdi.

– Ehey, İslamış bəy, sənin güvəncin çoxdan xar olub. Sən hansı güvənclə mürşidimizin üstünə yeriyirsən?

İslamış bəy dönəndə Halvaçıoğlunu qarşısında gördü. İki at döş-döşə gəldi. Halvaçıoğlu atın başını azca yana döndərdi. At sanki onun istəyini sözsüz anlayırdı. İslamış bəy elə zənn etdi ki, Halvaçıoğlu qaçıb getmək istəyir. O, yenidən Şah İsmayıla tərəf hərəkətə keçdi və bu vaxt İlyas bəy Halvaçıoğlu Qarabağ atını dördnala buraxdı. At yel kimi sürət götürüb özünü İslamış bəyə yetirdi.

Halvaçıoğlunun qılıncı İslamış bəyi atdan saldı. Halvaçıoğlu öz gözlərilə İslamış bəyin axan qanına bircə an baxa bildi. Sağ və sol cinahlarda da qanlı döyüş gedirdi. Halvaçıoğlu atını döndərib topçular dəstəsinin olduğu tərəfə yön aldı.

Ehtiyatda olan qüvvələrə Şah İsmayılın qardaşı Sultan İbrahim başçılıq edirdi. Ona tapşırılmışdı ki, döyüşü diqqətlə izləsin. Əgər şahın köməyə ehtiyacı olsa, həmin yerdən hücuma keçəcəkdilər. Yox, əgər Qızılbaşların uğuru göz görəsi aydın olsa, Sultan Muradı izləyəcək.

İslamış bəyin ixtiyarında olan qoşun pərən-pərən düşdü. Bunu Sultan İbrahim də görürdü. O, artıq döyüşün taleyinin həll olunduğunu düşündü və Sultan Muradın qərargahına tərəf irəlilədi. O tərəfdən isə İslamış bəyin ixtiyarında olan dəstə qaçıb dağılmaqda idi. Bu da ümumi qoşunun əhvalına pis təsir etdi. Artıq Sultan Muradın qoşunları idarəolunmaz hala gəlmişdi.

Qoşun geri çəkilə bilmirdi. Çünki Sultan Murad əvvəlcədən öz qoşununun geriyə çəkiləcəyi təqdirdə, nə edəcəyini kəsdirə bilməmiş və belə bir əmr vermişdi ki, arabalarla, xəndəklərlə qoşunun geriyə çəkilən yolu bağlansın.

Sultan Murad qoşunu idarə edə bilmədiyindən özünə sadiq olan dəstələrlə qərargahına sarı çəkildi.

İrəliləyən Qızılbaş qoşunları müqavimətə rast gəlmədən Sultan Muradı təqib edirdilər. Çünki Sultan Muradın döyüş meydanındakı qoşunu hissə-hissə silahı yerə qoyub təslim olurdular. Qızılbaşlara qoşulmaq istəməyən döyüşçülər isə yol tapıb meydandan qaçırdılar.

Şah İsmayıl döyüş meydanını bir də nəzərdən keçirtdi. Başa düşdü ki, Sultan Muradı döyüş meydanında əsir edə bilməyəcək. Təqib etmək isə əlavə fəsadlar yaradacaqdı.

Şah təzədən itki verməmək üçün döyüşü saxlamaq qəranına gəldi. Çünki meydanda savaşan tərəf yox idi.

Halvaçıoğluna da xəbər göndərildi ki, Sultan Muradı təqib etməsin.

Sultan Murad başındakı qüvvələrlə Şiraza üz tutdu. Qızılbaşlar Almaqulağı çölündə Sultan Muraddan qalan nə vardısa, qənimət kimi ələ keçirtdilər.

Şah isə atının başını döndərib döyüşdən qabaq oturduğu daşın yanına yön aldı. Kölgə hələ başının üstündə idi.

* * *

Sultan Murad ağır məğlubiyyətdən sonra qalan qüvvələrini də toplayıb, özünü Şiraza çatdırdı. Ona elə gəlirdi, Şah İsmayıl qələbə çalsa da, ancaq bu qələbə ona baha başa gəlib. Bundan sonra bir daha onunla qarşılaşmaq istəməz. Bir həftə dincəlməyə qərar verdi. Şəhər əhalisinin nümayəndələri onunla görüşmək istəsələr də, heç kimi qəbul etmədi. İş burasında idi ki, şəhərə daxil olan qoşun əhli çox yorğun idi. Yaralılar müalicə olunmalı, döyüş paltarları təzələnməliydi. Tükənməkdə olan ərzaq qayğıları da bir tərəfdən…

Qoşunun şəhərə daxil olması başıpozuqluq yaratmışdı. Şəhər ağsaqqallarının Sultan Muradla görüşə bilməməsi də adam-

lar arasında şübhə və narazılığa əsas olmuşdu. Az-çox imkanlı adamların, varlıların sərvətləri qəsb edilir, orduya yardım adı ilə soyğunçuluq da bir tərəfdən baş alıb gedirdi.

Belə bir şəraitdə Sultan Muradın özü də taleyi haqqında bəd gümanlara düşməkdə idi. Gözlədiyinin əksinə olaraq Şirazdan da qoşuna əlavə qüvvələr toplaya bilmirdi. Sultan Muradın qoşununa rəğbət göstərilməməsi onun burada hakimiyyətini bərqərar etməsi haqqındakı düşüncələrini alt-üst eləmişdi. Get-gedə daha çox anlayırdı ki, Şah İsmayılla münasibətləri qaydaya qoya bilməsə, həyatının sonu çox qorxulu olacaq.

Sultan Murad şəhər sarayının eyvanında oturmuş, dərin fikirlərə qərq olmuşdu. Necə oldu ki, babası Uzun Həsəndən qalan əzəmətli ölkə xarabazarlığa çevrildi? Necə oldu ki, bu səltənət, Ağqoyunlu sülaləsinə dəxli olmayan şəxslərin əlinə keçdi? Bu suallar onun beynini yeyir, bir məkanda aram olmağa imkan vermirdi.

İndi kim bilir, lap elə Şah İsmayılla barışmaq istəsə belə, şah onun barışıq təklifini qəbul edərdimi? Almaqulağı çölündəki qanlı savaşdan sonra onun şaha barışıq təklif etməsi hökmdarlıq şərəfini, ləyaqətini itirməsi demək deyildimi? Bu sualların hər biri ac bir canavar kimi onun varlığını didib-sökürdü.

Xəyalən əmisi oğlu Əlvənd Mirzəni də qınayırdı. Əgər vaxtilə Əlvənd Mirzə böyük hökmdarlığı parçalamasaydı, Şeyx Heydərin müridləri şeyxin cavan oğlunu hakimiyyətə gətirmək iddiasına da düşməzdilər.

İndi bütün bunların hamısı ötüb keçmişdi. Sultan Murad onun varlığını işğal edən bu düşüncələrdən canını qurtarıb çıxış yolu tapmalı idi. Bütün günü beləcə var-gəl etdi. Bir qərara gələ bilmirdi. Şah İsmayıla da barışıq təklifini aparacaq bir kimsəni təsəvvürünə gətirmirdi. Axı, o, Şah İsmayılın elçilərini, xüsusilə, Qəmbər ağanı necə qəddarlıqla qətlə yetirmişdi. Sultan Murad yaxşı bilirdi ki, Şah İsmayıl Qəmbər ağanın belə qəddarlıqla öldürülməsini ona heç vaxt bağışlamayacaq.

Təbrizdə Qızılbaşların hakimiyyətə gəlməsindən sonra Sultan Murad və Əlvənd Mirzənin qohum-əqrəbaları, bir sözlə, böyük ailəsi Şiraza sığınmışdı. O, Şiraza gələndən bəri heç kəslə əlaqə qurmamış, heç bir qohumu ilə, görüşməmişdi. Əslində, özü onlarla görüşməyə can atmırdı. Amma xəbər verdilər ki, Sultan Muradın bibisi onunla görüşə gəlib. Əvvəlcə Sultan Murad onu geri qaytarmaq istəmişdi. Çünki öz başının hayında idi. Bibisi Məryəm xanım indi bu vəziyyətdə onunla görüşə gəlir. O, nə barədə danışacaqdı? Bəlkə, Qəmbər ağanın başçılığı ilə yanına gəlmiş elçilərin qətlə yetirilməsi, dəhşətli qəddarlıqla öldürülməsi xəbəri ona da çatmışdı? Çünki bu qəddarlıq hamının qanını damarında dondurmuşdu. Ola bilsin ki, bibisi Məryəm xatun da qardaşı oğlu Sultan Muradın bu amansız əməlindən xeyli qəzəblənib.

Bu zabitəli qadının onun başını sığallamayacağını yaxşı bilirdi. Ona görə də onun danlaqlarından canını qurtarmaq üçün görüşmək istəmirdi.

Məryəm xatuna bildirdilər ki, hökmdar bərk yorğundur. O, heç kimi qəbul etmir. Məryəm xatun mühafizə başçışını divara qısnadı:

– Siz hökmdarın başını xarab eləməklə, tamahınızın ucbatından qohum-əqrəbasını da bir-birinə qarşı qızışdırırsız.

Mühafizə başçısının rəngi ağardı. O, Məryəm xanımın kim olduğunu yaxşı bilirdi. Ona görə də dili topuq çala-çala birtəhər dilləndi:

– Mənim, başım sənə qurban olsun, Məryəm xatun, biz nə karayıq qohum-əqrəbanı bir-birinə qırdıraq? Biz buyruq quluyuq. Hökmdar nə buyurursa, onu da icra edirik.

– Görürəm, buyrulanları necə yerinə yetirirsiniz… Bir düşünmürsünüz ki, bir gün hökmdar Şah İsmayılla barışsa, onda başınızı harada gizlədəcəksiniz?

Bu sözləri içəridə Sultan Murad eşidirdi. Elə bil ki, onun varlığına haradansa bir işıq çiləndi. Gələcək həyatı üçün ümid qığıl-

cımları parladı. «Bu, yaxşı fürsətdir», fikrindən keçirtdi. Ayağa duraraq aşağıya düşdü. Bibisi ilə mühafizə başçısının dayandığı yerə çatanda qollarını açıb sanki sevgi və həyəcanla çağırdı:

– Ah, babamın yadigarı, əziz bibim, sən mənə babam Uzun Həsənin nəfəsini gətirmisən. Qədəmlərin mübarək olsun!

Mühafizə başçısı kənara çəkildi. Məryəm xanım irəli yeriyib qardaşı oğlunun boynunu qucaqladı. Sevincdən gözləri yaşarmışdı.

– Ay oğul, sənə qurban, niyə Allah gözünüzü bağlayıb? Niyə bir-birinizə qənim kəsilmisiz?

– Hamısı Allahın cəzasıdır, bibi, – Sultan Murad cavab verdi. – Olacaqdan qaçmaq mümkünsüzdü.

– Yox, ay oğul, Allah insanın gözünü bağlayanda, ağı qaradan seçmir. Allahın kəràminə şükür ki, sən sağsan, Uzun Həsənin yurdu kor qalmadı.

Sultan Murad bibisindən aralanıb onu başdan-ayağa süzdü. Kifayət qədər yaşlanıb qocalıq həddinə yetmiş olsa da, yenə Məryəm xatunun dilli-dilavər olduğunu, təpərlə, hökmlə danışdığını hiss etdi. O, elə əvvəldən də bilirdi ki, atasının bacısı olan Məryəm xatunun dili ilanı yuvasından çıxarır. Bəs necə? Sara xatunun nəvəsi idi. Damarlarında ağıl və hökm sahibi Sara xatunun qanı axırdı. Sultan Murad az-çox Sara xatunu xatırlayırdı. Və bibisinə baxanda Sara xatunu gözlərinin qabağında canlandırdı. Bilirdi ki, bir zamanlar Sara xatun çox qanların qabağını alıb, çox savaşların qarşısını kəsib.

Bəlkə, elə Allah Məryəm xatunun gəlişini özü məsləhət görüb? Bəlkə, nicat yolu elə Məryəm xatundadır?..

O, bibisinin qolundan tutub pilləkənlə yuxarı qalxdı. Onlar geniş eyvanda üz-üzə əyləşdilər. Sultan Murad başına gələnlərin hamısını Məryəm xanıma danışdı. Məryəm xatun qardaşı oğlunu dinləyirdi. Onun törətdiyi əməlləri eşitdikcə dəhşətə gəlirdi.

Məryəm xatun diqqətlə onu dinlədikdən sonra Sultan Murada üzünü tutdu:

– Sən bütün körpüləri yandırmısan, qardaşoğlu, indi nə etmək fikrindəsən?

Sultan Murad hiylə niqabını üzünə çəkdi. Özünü həddən artıq doğru və səmimi göstərməyə çalışdı.

– Mən bilirəm, əziz bibim, etdyim səhvlərin bağışlanma həddi yoxdur. Axı, böyük Allah günahları bağışlayandır, bəlkə, sən qabağa durasan, Şah İsmaylın yanına gedəsən, onun könlünə Allahın iradəsi ilə insaf toxumu səpəsən. Bəlkə məni bağışlamaq istəyər?

– Mən bilmirəm, şah səni bağışlayar, ya yox?..

– Axı, o, sənin bacın oğludur. Şah İsmayıl anasını çox istədiyi kimi, sənə də böyük hörməti var. Şah İsmayıl elə sənin dizinin üstündə böyüməyibmi? Mən inanmıram ki, hökmdar bunları yadından çıxarmış olsun.

– Qardaşoğlu, mən nəslimizin kəsilməsini istəmirəm. Lap şah mənim də boynumu vurdursa belə, bu iş üçün onun yanına gedəcəyəm. Ancaq…

– Nə ancaq, əsas odur ki, sən gedəsən.

– Yox, mən əvvəlcə sənin sədaqətinə inanmalıyam. Sənin sidq ürəklə bundan sonra şaha beyət edib, onun hökmranlığını qəbul edəcəyinə inanmalıyam. And içməlisən.

– Əziz bibim, əgər sən də əhdimə inanmasan, onda mən batdım.

– Bu məmləkətdə səndən doğma adamı haradan tapım ki, aramızda ağsaqqalıq edib, bizi barışdırsın? And olsun babamız Uzun Həsənin müqəddəs türbəsinə. Mən bundan sonra heç vaxt Şah İsmayılın üzünə qayıtmayacağam. Onu Ağqoyunlu sülaləsinin yeganə davamçısı biləcəm.

Məryəm xatun Sultan Muradın dediyi sözləri eşidərkən onun gözlərinə baxırdı. Sultan Muradın gözləri yaşarmışdı. Sanki o, bu andı bütün varlığından qopan hökm kimi dilinə gətirmişdi.

Məryəm xatun ona inandı.

Həmin anlarda Sultan Murad da hakimiyyəti ilə vidalaşırmış kimi kövrəlmişdi. Xəyalından keçirirdi ki, bəlkə Məryəm xatunun işə qarışmağı vaxtı bir az uzadar. Bəlkə, Allah elə edər ki, Şah İsmayılın cəbbəsi dağılar, müharibələrin birində məğlub olar.

Amma Məryəm xatun Sultan Muradın səmimiyyətinə inanmışdı. Ancaq bilmirdi ki, onun and içdiyi məqamda ürəyində qara qanlar axır, qisasçılıq ehtirası qaynaşır, iblislər dolaşır, hakimiyyət eşqi onu yandırıb yaxır.

Elə səhəri günü Sultan Murad qiymətli hədiyyələrlə Məryəm xatunu Şah İsmayılın yanına yola saldı.

…Şah İsmayıl Şiraza doğru hərəkət etsə də, fikri, xəyalı Təbrizdə qalmışdı. Döyüşdən başı açılan kimi sevgilisi Taclı bəyimin xəyalı yenə yuxusunu ərsə çəkmiş, onun gözlərinin önündən getmirdi. Deyəsən, Taclı bəyim onu qınayırdı:

« – Ey insafsız, hardasan, bilmirsən mən burada hicran odunda yanıram?»

« – Vəfalım, Taclı bəyim, inan, qanlı savaş meydanında da səni düşünmüşəm, sənin sədaqətinə güvənmişəm. Bəlkə də savaş meydanında məni qoruyub-saxlayan sənə olan sevgim olub. Axı mən sənə söz vermişəm, görüşəcəyik».

« – Mən sənin könlünün səsini dinləmək istəyirəm. Ver əsən yellərə, gətirsin».

* * *

Taclı bəyimlə xəyal aləmində söhbəti şahı öz dünyasından qoparmışdı. Onun xəyalı Təbrizdə idi, lap elə özünü də Təbrizdə, Taclı bəyimin yanında hiss edirdi. Amma ətrafında baş verən hadisələr elə axırıncı döyüşün qovğası da hələ gözlərinin önündən çəkilməmişdi. Belə məqamlarda Şah İsmayıl təkcə rəqiblərini yox, elə özünü də qınayırdı: «Axı nə üçün dünyaya rahat yaşamaq üçün gələn insanlar bir-birini qanına qəltan etməlidirlər. Olmazmı ki, hər kəs öz haqqına qail olub sakit yaşasın?».

Şah belə sualları özünə nə qədər versə də, cavabını tapa bilmirdi. Hərdən də ağlına gəlirdi ki, lap elə buradan birbaşa Təbrizə yollansın. Sultan Murada da sifariş etsin ki, Şirazı verdim sənə, elə orada da sakit yaşa. Ancaq bununla kifayətlən.

Belə xəyallardan sonra həmişə öz-özünə gülürdü. Əlbəttə, onu öz-özünə gülən görən olsaydı, şahın xəyalının dolaşdığı, əhvalının qarışdığı haqqında düşünərdilər. Amma yox, şah nə qədər gənc və təcrübəsiz olsa belə, müharibələrdə bişmişdi. Həm də ən əsası o idi ki, şahı Hüseyn bəy Lələ Şamlı, Qəmbər ağa kimi lələlər vaxtından əvvəl ruhən böyütmüşdülər.

Əmirlərlə söhbətində dəfələrlə ən çətin, ən mürəkkəb məsələlər üçün çıxış yolunu məhz o, özü tapmışdı və bununla da əmirləri çox təəccübləndirmişdi. Ən əsas da ona görə ki, ən örtülü bir məsələ haqqında şah qeybdən xəbər tuturmuş kimi, söz deyir, düzgün hökm verirdi. Az keçməmiş məlum olurdu ki, şahın dediyi söz doğrudur, verdiyi hökm ədalətlidir. İndi o, bütün qoşunu çəkib Təbrizə qayıtmalı olsaydı da, əmirlər təəccüblənməzdilər. Düşünərdilər ki, yəqin şahımıza qeybdən nəsə xəbər gəlib. Yəqin onun verdiyi hökm yenə də yetərincə düzgündür. Amma yox, şah belə qərar qəbul etməzdi. Ona görə belə qərar qəbul etməzdi ki, düşmənə yenidən fürsət vermiş olardı. O, bilirdi ki, Sultan Murad şahın Şirazı ona bağışlamaq xəbərini eşidəndə tamam ayrı cür düşünəcək. Elə biləcək ki, şahın onu təqib etmək gücü yoxdur. Elə bu səbəbdən də qorxub geriyə çəkilib. Şah İsmayıl necə olsa da öz sevgilisinin həsrətini hələ də çəkməli olacağını bilir, Səfəvi xanədanının gələcəyi naminə bu həsrəti çəkməyin şərəf olduğunu da düşünürdü.

Bir sözlə, şahın varlığı odla su arasında qalmışdı. Ya o, tutduğu yolu axıracan getməli, Səfəvi xanədanını qorxu altında saxlayacaq qüvvələri tamamilə darmadağın etməli, ya da öz sevgisinin arxasınca gedib siyasi işlərdən tamam uzaqlaşmalı, müharibələrdən, qovğalardan kənara çəkilməli idi.

Bu zaman şah istehza ilə gülümsündü. Bunun səbəbi var idi. Çünki həmin anda ona elə gəldi ki, atası Şeyx Heydər kənardan dayanıb ona qınayıcı nəzərlərlə baxır:

«– Əmirlər səni beləmi böyütdü? Qəmbər ağa sənə beləmi öyüd vermişdi? İndi sənin bu əməlin haqqında Hüseyn bəy Lələ Şamlı nə düşünər?»

«– Mən bu qədər insan qanının axıdılmasını istəmirəm axı. Bu insanların qanlarının axıdılmasının nə mənası var? Döyüş meydanlarında ölənlərin nə qədər arzuları yarımçıq qalır. Axı onların övladlarının, doğmalarının nə günahı var ki, sinələri dağlanır, gözləri yaşlı qalır…»

«– İsmayıl, qardaşın Sultan Əlinin taleyi yadındamı? Onu nə üçün öldürdülər? İllər boyu ananla, doğmalarınla İstəxr qalasında həbsdə olmağınız nə tez yaddan çıxdı? Bunlar hamısı bir yana, heç Qəmbər ağanın ruhu səni bağışlayarmı? O, ağsaqqal çağında, ömrünün ahıl vaxtında, kimsənin gedə bilməyəcəyi yolu seçdi. Sənin məramını Sultan Murada yetirmək üçün namərdin sarayına getdi. Əvəzində nə baş verdi?»

«– Bilirəm, mürşüdim, – Şeyx Heydər sanki oğlunun ona mürşidim deməsindən qürurlandı. İrəli gəlib ona lap yaxın dayandı. Oğlunun sözlərini bir az da aydın eşitmək istədi. – Hə, bilirəm, ata, biz çox haqsızlıqlar görmüşük. Amma hərdən düşünürəm ki, bəlkə mənim də gözlərimi bizə olan pisliklərin sayəsində qərəzkarlıq tutub, haqq yolundan azmışam».

«– Yox, İsmayıl, sən haqq yolundan azmamısan. Bu yolu qorumaq üçün axıracan getmək gərəkdir. Burdan beləsini özün düşün.»

«– Deyirsən, mənim yolum savaş yoludur? Ömrü boyu mən həyatımı savaşda keçirəcəyəm? Axı dünyada başqa işlər də var.»

«– Doğru deyirsən, dünyada başqa işlər də var. Mən demirəm ki, sən dünya zövqündən xəbərsiz qalasan. Bilirəm, indi səni Taclı bəyimin sevgisinin cazibəsindəsən. Onun həsrətinə dözə

bilmirsən. Unutma ki, elə bu sevgini qorumaq naminə Sultan Muradla savaşı başa çatdırmalısan. Özü də qələbəylə».

«– Hər döyüşün öz taleyi var. Nə bilmək olur dünyanın gərdişini?».

«– Hər bir tərəddüd qorxuya yol açır. Taclı bəyim səndən qələbə gözləyir».

Şah fikirləşdi ki, atasının bu fikirlərinə də yenə bir cavab tapsın. Başını qaldıranda, ətrafında bir kimsənin olmadığını gördü. Anladı ki, atası xəyalən ona qonaq gəlibmiş, bəlkə də çətinə düşdüyü məqamda ona ən düzgün və doğru yolu göstərmək istəyirmiş.

Atasından xəyalən də olsa ayrılmasına çox təəssüfləndi. O, istəmirdi ki, bu şirin xəyallardan ayrılsın.

Bir anda şahın xəyalı yenə qanadlandı, ruhu uçdu. Bu dəfə sevgilisi ilə üzbəüz qalmışdı. Qəlbi sevgilisinə bədahətən məhəbbət dolu bir şeir pıçıldayırdı.

*Firqətin çəkdim, nigara, şimdi yar olmazmısan?*
*İxtiyarım getdi əldən, ixtiyar olmazmısan?*

*İntizarım həddən ötdü, hicr ilə oldum həlak,*
*Fəmli gönlüm halına bir qəmküsar olmazmısan?*

*Düşməni-dəmdəsd əlindən bülbüli-can oldu lal,*
*Vəqtidir gül çöhrən çəkdin, ey dil, zülmət-hicran ilə,*

*Bunca möhnət çəkdin, ey dil, zülməti-hicran ilə,*
*Ol məhin vəslinə yetdin, bəxtiyar olmazmısan?*

*Gər günahın çox isə miskin Xətai, qəm yemə,*
*Rahmətinə xaliqin ümmidvar olmazmısan?*

Bu həzin misralar sevən bir qəlbin həsrət nəğməsiydi. Son misralar da dodaqlarından süzülüb sərin-sərin əsən mehə qarışdı. Onun xəbəri olmadı ki, kimsə yaxınlaşır. Gələn adamın kim olduğunu bilmək üçün başını qaldırdı. Görünür, gələn şəxs də səssiz-

səmirsiz yaxınlaşırdı. İstəmirdi, birdən-birə şahı xəyalından ayırsın. Bu, Hüseyn bəy Lələ Şamlı idi.

– Sənə qurban olum, şahım, nə yaman fikrə getmisən? Heç yaxınlaşmaq istəmirdim.

– Doğrudur, fikrə getmişdim, amma nə qədər fikir içində yaşamaq olar? Gəl görək, qəza yenə bizə tərəf nə gətirir? – Şah bilirdi ki, Hüseyn bəy Lələ Şamlı onun hüzuruna səbəbsiz yerə belə gəlməzdi. Çünki şah tənhalığa çəkilib xəyallara qapılanda, heç kim ona yaxınlaşmırdı.

– Hə, şahım, möhtərəm Aləmşah bəyimin bacısı gəlib, sənin xalan – Məryəm xatun.

Xəbəri eşitcək xalasına ehtiram olaraq ayağa qalxdı. Tapşırdı ki, onu hörmət və ehtiramla qarşılasınlar, rahatlıq üçün şərait yaratsınlar. Özü nə vaxt istəsə, yanıma gəlsin, – dedi.

Şah Məryəm xatunun gəlişindən təəccüblənsə də, həm də xoşhal oldu. Hiss edirdi ki, xalasının gəlişi hec də təsadüfi deyil. Və çox güman ki, bu elə Sultan Muradın taleyilə bağlıdır. Fikirləşdi kaş bu gəliş Sultan Muradla bağlı olaydı. Nə olaydı ki, Sultan Murad müharibələrə son qoymaq şərtini irəli sürəydi. Axı bu savaşlarda nə qədər günahsız insanların qanı axıdılırdı.

Səhəri gün o, xalası Məryəm xatunla üzbəüz əyləşmişdi.

– Ay oğul, Allah onun gözlərini bağlayıb. Sənin kimliyini indiyə qədər dərk etməyib.

– Məgər o bilmir ki, insan gözübağlı yaşaya bilməz. Gərək həyatın işlərindən doğru-düzgün baş çıxarasan.

– Elə mən də onu deyirəm. O, gərək anlasın ki, haqq sənin tərəfindədir.

– Bəs anlamasa, necə?

– Elə mən də buraya o məqsədlə gəlmişəm. And içdi, məni inandırdı ki, Şah İsmayıla, Səfəvi xanədanına qarşı düşmənçilikdən birdəfəlik əl çəkir. Qoy şah onu bağışlasın…

– Sultan Murad onu bağışlamağımı istəyir?

– Bəli, bəli, o, çox istəyir ki, sən onu bağışlayasan. Müharibələr də, qırğınlar da biryolluq sona çatar.

– Özün bilirsən ki, Sultan Murad hiyləgərdir. Birdən o, səni aldatmış olsa, necə?

– Əvvəla, o, mənə söz verib. Babası Uzun Həsənin ruhuna and içib. Əgər onu bağışlasan, sənin qoşununa hər cür yardım edəcək, köməklik göstərəcək. Axı, həm də, Allah bağışlayanların tərəfində olur.

– Sultan Murad təzədən xəyanət etsə, necə olacaq?

– Onda qardaşım oğlunun qanını sənə halal edirəm.

Məryam xatun bu sözləri qətiyyətlə deyib, ayağa qalxdı.

Şah onun zabitəli, hökmlü görkəminə məhəbbətlə nəzər yetirdi. Anası yerində gördüyü bu qadının xahişinə əməl etməmək, Allahın yanında böyük günah sahibi olmaq demək idi.

…Sultan Murad Məryəm Xatunu Şah İsmayılın yanına göndərəndən sonra düşündü ki, şah Şiraza hücum xəbərindən əl çəkəcək, beləcə, vaxt uzanacaq və bu müddət ərzində Ağqoyunluların Şiraz xəzinəsinə toplanmış varidatını sərf edib yenidən qoşun toplaya biləcək. Əgər Şah İsmayıl onun qoşun toplamağından xəbər bilib, hücuma keçməli olsa, o vaxtacan Sultan Murad özünü cəmləyə biləcəkdi.

…Həftələr ötürdü. Şah İsmayıl Sultan Muraddan yardım əvəzinə, həyacanlı xəbərlər eşidirdi.

Şah İsmayıla xəbər çatdı ki, Sultan Murad ciddi-cəhdlə qoşun toplayır. Hətta ona sui-qəsd üçün casuslar qrupu yaradıb, osmanlılarla yaxınlıq edir. Bu xəbərlər Şahı bərk qəzəbləndirdi. Artıq Sultan Muradla birdəfəlik haqq-hesabı çürütməliydi. O, bilirdi ki, bu xəyanətkar yaşadıqca özünün alçaq əməllərindən heç vaxt əl çəkməyəcək.

Şah İsmayıl hələ də onun iqamətgahında olan Məryəm xatuna tənələrini çatdırmaq istəyirdi. Bunu necə edəcəyini isə düşünürdü. O, istəmirdi ki, Məryəm xalasının xətrinə dəysin, onu incik

salsın. Amma istəyirdi ki, heç olmasa, Məryəm Sultan Muradın növbəti xəyanətindən buradaca xəbər tutsun. Bilsin ki, Sultan Murad nəinki Şah İsmayılı, elə birinci Məryəm xatunun özünü aldadıb. Qozbeli qəbir düzəldər…

* * *

Onsuz da Şah İsmayıl Şiraza doğru hərəkət planından əl çəkməmişdi. İndi biləndə ki, Sultan Murad hələ özünün xəyanətkar niyyətindən peşman olmayıb, onda səfər hazırlığını bir az da sürətləndirməyi lazım bildi. Beləliklə, Şah İsmayıl Şiraza yaxınlaşanda, xalası Məryəmi bir daha yanına çağırdı.

– Sənə məlum olduğu kimi, Sultan Murad çox ciddi hazırlıq görür.

– Şah, xəbərdaram. – Məryəm bacısı oğluna bir qədər quru və rəsmi müraciət elədi. Sonra nə düşündüsə, Sultan Murada olan qəzəbini boğub, yenə mülayim tərzdə sözünə davam elədi:

– Allah ona ağıl versəydi, Ağqoyunlu nəslinin qalanlarını qırğına verməzdi. Ancaq mənim bir xahişim də var…

Şah başını qaldırıb xalasını diqqətlə süzdü. Sanki üzünün ifadəsilə ona çatdırmaq istədi ki, o bir daha Sultan Muradın bağışlanmasını xahiş eləməsin. Deyəsən, Məryəm xatun onun niyyətini anladığından tez dilləndi:

– Xeyr, mən Sultan Muradın bağışlanmasını istəmirəm. Çünki o, mənə verdiyi vədə də xilaf çıxıb. Onun haqqında nə tədbir görəcəksənsə bu, sənin öz işindir.

– Bəs onda mənim əziz xalamın nə xahişi var? Mən onun xahişini mütləq yerinə yetirərəm, qoy çəkinmədən desin.

Şah başa düşürdü ki, Məryəm xatunun Sultan Muradın bağışlanılmasından qeyri nə xahişi olsa, yerinə yetirmək olar. Mehribanlıqla başını qaldırıb xalasının nə deyəcəyini gözlədi.

Məryəm xatun şahı öz oğlu kimi süzdü. Onun parlaq gözlərində, nurlu sifətində heç bir qəddarlıq görmədi. Bildi ki, indi-

ki məqamda o, şaha nə desə, etiraz etməyəcək, ona görə də elə həmin mehribanlıqla sözünə davam elədi:

– Mənim əzizim, Ağqoyunlu səltənəti nankor varislərin bir-biryilə didişməsi sayəsində viran qaldı. Təkcə sənin özün yox, baban da, atan da bu səltənətin qurulmağında böyük xidmətlər göstəriblər. Bu yolda onlar başlarını veriblər. Deməк, bu səltənətdəki, payın ana südü qədər sənə halaldır. Nəyə nail olmusansa, halalın olsun. Uzun Həsənin varislərindən sən də, qardaşların da böyük zülümlər çəkiblər. Böyük qardaşın bu yolda cavan yaşında qurban getdi. Sultan Əlini onların kini, qəzəbi məhv elədi. Bunlar sənə gün kimi aydındır.

Məryəm xatun danışdıqca Şah İsmayılın xəyalına artıq keçmişdə qalmış əzablı günlər gəldi. Qardaşının ölümü ilə bağlı hadisəni də ağrıyla xatırladı. Ancaq heç nə demədi. Sadəcə, sükutun uzanmaması və xalasının sözünü sıxılmadan deyə bilməsi üçün onun sözünü təsdiq etdi:

– Doğru deyirsən, Məryəm xala, indi bunların hamısı keçmişdə qalıb.

Məryəm xatun anladı ki, indi sözünün canını deyə bilər:

– Mən istəyirəm ki, Ağqoyunlu nəsilindən olan başqa insanlara Sultan Muradın xəyanətinə görə dəyməyəsən. Çünki günahsız insanların qanının tökülməsini Allah da bağışlamaz.

Şah xalasının xahişini yerinə yetirəcəyinə söz verdi:

– Məryəm xala, sənin xahişini nəzərə alacağam, ancaq Ağqoyunlu nəslindən olan cavanların hər birinə xəbər çatdır ki, savaşa qatılmasınlar.

Məryəm xatun Şahın sözlərindən çox məmnun oldu.

– Çox sag ol oğlum, mən elə sabahdan çaparları ünvanlara göndərəcəyəm.

…Şah ağ atının belində Şiraza yaxınlaşdıqca xalası ilə olan söhbəti təzədən yadına saldı. O, həqiqətən istəyirdi ki, kaş hadisələr istəyincə baş verəydi, günahsız insanlar qırğına düşməyəydi.

Bu vaxt ona xəbər vedilər ki, üç min nəfərlik bir qoşun bölüyü Qızılbaşlara tərəf irəliləyir. Şah Qızılbaş əmirlərini təcili toplayıb gələn alayın kimlərin qüvvəsi olduğunu öyrənməyi tapşırdı. Döyüş olacağı tədqirdə, kimin hansı tərəfdən necə hərəkət edəcəyini qərarlaşdırdı.

Hüseyn bəy Lələ kəşfiyyata göndərilənlərin gətirəcəyi cavabdan asılı olmayaraq, qoşunda təşviş yaranmasın deyə qənaətlərini şaha və əmirlərə çatdırdı:

– Başımız sənə qurban olsun, mürşidim! Qızılbaşların şöhrəti, döyüş şücaətləri hər kəsə yaxşı məlumdur. Ağlı başında olan hansı sərkərdə cəsarət edib üç min nəfərlik bir dəstə ilə üstümüzə gələ bilər.

– Bəs onda sənin fikrincə, bu qüvvə kimindir və məqsədi nədir?

Şah Hüseyn bəy Lələ Şamlıdan soruşsa da, üzünü bütün əmirlərə tutmuşdu. Əslində onların da fikrini bilmək istəyirdi. Yaşına görə hər kəsdən böyük olan Məhəmməd xan Ustaclı özünə xas təmkinlə başını tərpətdi, yəni Hüseyn bəy Lələ ilə razı olduğunu bildirdi.

– Doğrudur, şahım, tezliklə bilərik. Düşünürəm ki, bu, xeyirliyədir. Hər halda siz müvafiq hazırlıq tədbirlərini görün. Ehtiyatlı olmaq hər kəsi görünməz bəladan Allahın əli kimi qoruyar.

* * *

Aradan çox vaxt keçməmişdi. Çaparların əhatəsində ortayaşlı bir şəxs atını düz Şah İsmayılın iqamətgahı tərəfə çapırdı. Gələn adam şən əhval-ruhiyyədə idi. Sevinənə oxşayırdı. Hamı gələn adamı seyr edirdi. Şaha elə gəldi ki, onu haradansa tanıyır. Çox məhrəm və doğma hisslərlə xəyalından müxtəlif əhvalatlar gəlib keçdi. Yadına nəsə düşübmüş kimi yerindən dik qalxdı: – Hə, bu, odur, – dedi. Bəli, bu qalabəyi Mənsur bəy idi. İstəxr qalasında anası ilə birgə qardaşlarını əsirlikdə saxlayan Mənsur bəy. Ağqo-

yunlu hakimlərinin əmriylə Şeyx Heydərin ailəsini neçə il qalada əsirlikdə qorumuşdu. Doğrudur, Ağqoyunlu hakimlərinin əmrini yerinə yetirirdi. Ancaq həm də Şeyx Heydərin ailəsinə mehr-məhəbbətini, sədaqətini göstərirdi. Hətta çox vaxt İsmayılı qalada özü ilə gəzdirir, qucağına alıb oxşayır, boynuna mindirirdi. Və ona elə qəribə sözlər deyirdi ki, həmin sözlər indi də birər-birər şahın xəyalında canlanırdı.

– Hə, İsmayıl, indi sən böyümüsən.

– Mən hamıdan böyüyəmmi, əmi?

– Bəli, bəli, indi fikir ver, sən hamıdan ucadasan.

– Heç kimin mənə əli çatmaz ki?

– Əlbəttə, çatmaz.

İsmayıl da Mənsur bəyin bu xoş sözlərindən fərəhlənər, qürurlanardı.

Mənsur bəy qalada Şeyx Heydərin ailəsini bir neçə il mühafizə elədi. Ağqoyunlu hakimlərinin göndərdiyi casuslar dəfələrlə ailəyə qəsd etmək istəsələr də, Mənsur bəy buna yol verməmiş, Şeyx Heydərin balalarını doğmaları kimi bəlalardan hifz etməyi özünə borc bilmişdi.

Mənsur bəy yaşına uyuşmayan bir cəldliklə atdan yerə sıçradı. Sonra sanki İsmayıla tərəf yüyürdü. Ancaq İlyas bəy Halvaçıoğlu onun qarşısını kəsdi və üst-başını yoxlayaraq tərksilah etdi. Hətta belində az nəzərə çarpan xəncərini də götürdü. Şah yerindən qalxıb irəli getdi.

– İlyas, Mənsur bəydir, burax gəlsin!

Mənsur bəy uzun illərdən bəri övladından ayrılmış ata kimi İsmayılı bağrına basdı, onun üz-gözünü, əllərini duz kimi yaladı, öpdü, oxşadı.

– Sənə qurban olum, mənim mürşidim, illərdir ki, yolunu gözləyirəm. Bu günahsız tökülən qanların qarşısını al. Sən axı bizim xilaskarımızsan.

Mənsur bəy özünü saxlaya bilməyib gözlərindən yaş axıdırdı.

Şah əlini uzadıb onun yanaqlarından süzülən göz yaşlarını sildi.

– Yaxşı, artıq hər şey keçmişdə qaldı. Ağlamaq niyə?

Şah Mənsur bəyə təskinlik verməyinə baxmayaraq, özü də kövrəlmişdi.

– Bəs neçə vaxtdır hardasan, Mənsur bəy, mən səni hər vaxt xatırlayırdım. Səninlə görüşü səbirsizliklə gözləyirdim.

– Sənə qurban olum, mürşidim, mənim ailəm Sultan Muradın girovundadır. O, üç min nəfərlik qoşunla Şirazın sərhədlərini qorumağı mənə tapşırıb. Öz qoşunuma hər şeyi anlatmışam. Bu üç min nəfərlik qoşun indi sənin ixtiyarındadır.

– Sağ ol, Mənsur bəy, keçmişdəki, cəsur və xeyirxah xidmətlərini də unutmamışam. Tezliklə hər şey bitər, sən də öz haqqına çatarsan.

Mənsur bəy dinmədi, başını aşağı salaraq sükuta daldı.

Şah İsmayıl gördü ki, o, sözlü adama oxşayır. Nə isə demək istəyir, ancaq deyə bilmir: – Sözlü adama oxşayırsan. Heç nədən çəkinmə, de.

Şahın təkidli sualları Mənsur bəyi cəsarətə gətirdi.

– Doğrudur, şah, mənim dərdim var.

– De, Mənsur bəy, bəlkə əlac edə bildik.

– Bilirəm ki, çətindir.

– Qızılbaş qoşununun əlində heç nə çətin olmaz, buyur.

– Allah bilən məsləhətdir, ancaq onu deyim ki, mənim bura gəldiyimi eşidən kimi Sultan Murad Şirazdakı ailəmi məhv edəcək. Evimi, sarayımı dağıdacaq.

Şah fikrə getdi. Ümumi qoşunla Şiraza qədər getmək xeyli vaxt aparacaqdı. Çevik süvari alayı tez özünü Şiraza yetirsə, Mənsur bəyin ailəsini də xilas etmək mümkün olar. Sonra şah bir-bir bütün əmirləri nəzərdən keçirtdi. Bu vaxt şahın qardaşı İbrahim irəli yeridi:

– Şah izin versə, Mənsur bəylə onun ailəsini xilas etməyə özüm gedərəm.

Şah əlini qaldırıb onu dayandırdı: – Yox, İbrahim, sən tezliklə Təbrizə dönməlisən!.

– Təbrizə nə üçün, biz Şiraza getmirik?

– Dayan, indi bunun vaxtı deyil, vədəsi gələndə deyərəm.

Şah irəli yeriməyə hazır dayanmış Halvaçıoğlu İlyasa tərəf boylandı. Halvaçıoğlu elə bunu gözləyirmiş kimi iki addım qabağa atıb şaha təzim elədi:

– Bəli, şah, mənim atlılarım belə çevik döyüşdə təcrübəlidir. Mən özümü tezliklə Şiraza çatdıra bilərəm.

Şah əlilə Şiraz tərəfi göstərdi:

– Uğur olsun, Halvaçıoğlu İlyas! Özünlə min nəfərlik dəstə götür.

– Baş üstə, şah, – dedi.

Sonra Halvaçıoğlu bir göz qırpımında əmirlərin arasından çıxdı. Şah Mənsur bəyə də İlyasla getməyi işarə elədi. Hələ onlar gözdən itməmiş, hündürdən qışqırdı:

– Uğur olsun, Mənsur bəy! Güman edirəm ki, tezliklə xilas olmuş ailənlə görüşəcəksən.

Mənsur bəy heç cavab vermədi, ancaq əlini qaldırmaqla özünü atına yetirdi.

* * *

Qızılbaş qoşunları Şiraz yoluna çıxmışdı. Hüseyn bəy Lələ Şamlının verdiyi məlumata görə, Şirazda olan Sultan Murad təşvişə düşmüş, ordan-burdan hələ də onun fitnələrinə uyan əyalət başçılarına məktub yazıb onlardan kömək diləyirdi. Bu da onu göstərirdi ki, əslində Sultan Muradın ümidi üzülməkdə, imkanları tükənməkdə idi. Şah İsmayıl çox istəyirdi ki, Sultan Murad hara istəyir cəhənnəm olub getsin, təki şahın əli onun murdar qanına bulanmasın.

Hökmdar artıq Sultan Murada nifrət edirdi. O, ağbirçək bibisi Məryəm bəyimi aldadaraq özünün çirkin oyunlarına qat-

mışdı. Şah hiss edirdi ki, bütün bunlara rəğmən, Məryəm xatun istəmirdi ki, o, Sultan Muradı qətlə yetirsin. Qəmbər ağanın faciəli ölümü də şahın yadından çıxmırdı. Əgər o faciəli ölüm olmasaydı, bəlkə də şah bütün olanların hamısını müharibənin, siyasətin ayağına yazıb keçərdi. Odla su arasında qalmışdı. «Şahım, nə qədər qan tökmək olar? Axı, qan insanın vicdanını kor və şikəst edir, gözünü tutur…» Sevgilisi Taclı xanım son görüş zamanı dediyi sözlər qulaqlarında səslənirdi. Taclı bəyimin söylədikləri onu dərindən düşündürürdü. Bu sözlər onun varlığına hakim kəsilmişdi…

Şah İsmayıl səfərə çıxandan sonra Taclı bəyimin üzü heç gülməmişdi. O, görüşdüyü anları xatırladıqca qəlbi həyəcanla döyünürdü. Sevgilisinin Təbrizdən çox-çox uzaqlarda olmasına baxmayaraq, yenə də güzgülənir, gözəllik libasını geyinib Həştbehişt sarayının şahgüzarlığına çıxırdı. Ona elə gəlirdi ki, bu dəm İsmayıl qızılgül kollarının arasından çıxacaq. Onu görən kimi qollarını açacaq, sevgilisini ağuşuna çağıracaq. O da min bir həvəslə eşqinin qanadları ilə özünü uça-uça İsmayılın qolları arasına atacaq. İsmayıl da onu nəvazişlə öpüb-oxşayacaq, ona könlünü ovunduran ən xoş sözlər deyəcək. Hətta xəyalında Şah İsmayılın ona nə deyəcəyini, özünün nə cavab verəcəyini də təsəvvür edirdi.

Bu gün də eləydi. Özünü bağçaya yetirib, bir vaxt şahla ilk görüşünün həyəcanlarını yaşadığı dağdağan ağacının dibində dayandı. O, bura gələndə sanki ilk görüşün həyəcanlarını təzədən yaşayırdı. Ancaq bu dəfə xəyalı onu səfərdən qayıdan Şah İsmayılla görüşdürdü:

– Gözlərimə niyə baxmırsan, Taclım?

– Qorxuram…

– Niyə qorxursan?

– Qorxuram ki, səndən incik düşdüyümü gözlərimdən oxuyarsan.

– Axı, səfərə gedəndə xeyir-duanı özün vermişdin. Bəs incimək niyə?

– Çünki sən gedəli yuxum ərşə çəkilib, gecəm-gündüzüm olmayıb.

– Bilirəm, çox həsrət çəkmisən, unutma ki, çəkdiklərin qədər, bəlkə də ondan artıq o həsrəti mən də çəkmişəm.

– Bəs niyə bir xəbər göndərmirdin? Bilmirdinmi sevgilisi müharibədə olanın ürəyində yağ olmaz.

– Məni dar məqamlarda Allahım qoruyur, hər vaxt Uca Tanrıya güvənmişəm.

– Sən bil ki, şahım bəlalardan uzaq olsun deyənə gecə-gündüz Tanrıya dualar eləmişəm.

– Bilirəm, Taclı, Tanrının mənə yar olması əbəs deyil, Allah sənin kimi bir gözəlin gözlərini yaşlı qoymazdı axı.

– Yaxşı, sən yenəmi məni tək qoyub gedəcəksən?

– Bundan sonra hər vaxt mənimlə olacaqsan. Onu bil ki, harda olmuşamsa, sənin varlığını canımda hiss etmişəm. Elə məni qələbələrə gətirib çatdıran da sənin varlığına olan inamımdır.

Taclı devikmiş halda xəyaldan ayıldı. Birdən ona elə gəldi ki, sanki şah onun yanındaydı. Bəs necə oldu ki, yoxa çıxdı? Güllərin, ağacların arasına baxdı. Hər yanı yoxladı. Yenicə açılmış qönçələri qoxladı ki, bəlkə şahın qoxusunu hiss edər.

Divanə kimi bağçanın dörd tərəfini gəzdi, fəqət heç kim yox idi. Elə bu vaxt sarayda səs-küy qopdu.

– Gəldilər, gəldilər, – sözlərini Taclı aydın eşitdi.

Taclı həyəcanını boğa bilmədi. İki-üç addım saray tərəfə gedərək, yerindəcə qışqırdı:

– Kim gəldi, haradan gəldi?

Bu vaxt anası Gülnaz bəyim ağacların arasından çıxıb, qızın qarşısında durdu.

– Nə olub, ay qızım, nədən belə həyəcanlısan?

– Bilmirəm, dedilər ki, kimsə gəlib.

– Gəl bəri, özünü ələ al, bura şah sarayıdır. Gündə nə qədər adam gəlib-gedir.

Taclı bəyim anasının qoluna girdi. Anası hiss elədi ki, qız lap heydən düşüb. Onlar Həşt-behişt sarayının hələ də kəsilməyən hay-küy olan tərəfinə getdilər.

Şah İsmayıl yürüşə getdikdən sonra Təbrizdə qalmış divan və saray əhlinin mütləq əksəriyyəti burada idi. Sarayın hərbi keşikçilər dəstəsi müsəlləh olaraq darvazanın qabağında nizamla dayanmışdılar.

Atlı dəstəsinin qabağı açıldı. Çox da böyük olmayan qoşunun önündə İbrahim Mirzə dayanmışdı. Saray başçısı onun qarşısına çıxdı, təzim elədi. İbrahim Mirzə atdan düşüb hamıyla salamlaşdı. Gözləri anasını axtardı. Bu vaxt özünü yetirən Aləmşah bəyim qollarını açıb oğlunu qucaqladı.

– Sənə qurban olum, ay oğul, qardaşından da bir xəbər de.

– Heç nədən nigaran qalma, ana, qardaşım da sağ-salamatdır. Bu günlərdə bütün həsrətlilər bir-birinə qovuşar, sən də oğluna…

İbrahim Mirzə bunu deyəndə gözləri Taclı bəyimi gəzirdi. Taclı bəyim anasının böyrünə qısılmış, bir az da rəngi ağarmışdı. Deyəsən, o, sevgilisinin gəlməməyindən pərişan idi. Utanırdı ki, qabağa yeriyib İbrahim Mirzəni ziyarət eləsin.

Lakin İbrahim Mirzə arif adam idi. Özü yaxşı bilirdi ki, saray adamlarından kim kimi gözləyir. Ona görə də birinci Taclı bəyimə yaxınlaşmadı. İlk olaraq bacısı ilə görüşdü. Bayram bəyin əhvalı haqqında ona xəbər dedi. Bayram bəyin göndərdiyi hədiyyəni də çatdırdı. Sonra digər əmirlərin əhli-əyalı ilə görüşdü. Kimin hədiyyəsi var idisə, yetirdi. Kimin ərzi-halı vardı, çatdırdı. Nəhayət, bayaqdan bəri dörd gözlə onu izləyən Taclı bəyimə və anasına yaxınlaşdı. Onlarla da səmimi görüşdü. Əbdi bəyin sağ-salamat olduğunu dedi. Gülnaz xanıma da Əbdi bəyin adından hədiyyələr təqdim etdi. Birdən nəsə bükülü, kiçik bir bağlamanı götürüb Taclı bəyimə uzatdı:

– Bu da sənə çatır, – dedi.

– Kimdən, hardandır? – Taclı heç özü də bilmədi ki, sualı nə üçün verdi. İbrahim Mirzə güldü. Ancaq sözünü də saxlamadı. Taclı bəyimi süzüb bir az da onu intizarda qoyaraq, qısa sükutdan sonra astadan buyurdu:

– Sən kimi gözləyirdinsə, ondandır, – dedi.

Taclı bağlamanı alıb adamların arasından çıxdı. Özünü otağına yetirib, bu kiçik bağlamanı əlləri əsə-əsə açdı. Qəribə bir müşk ətri sanki onu bihuş elədi. Həqiqətən bağlamanın içindəki rayihəsi aləmi başına götürən müşk var idi. Adına layiq boyunbağı da, sırğalar da öz yerində. Amma qiymətli zinət əşyaları heç biri onun gözlədiyi deyildi. O, həyəcanla bağlamanın içində olan kağızı açdı. Şah İsmayılın xəttini tanıdı. Şah yazmışdı: «Gözlərimin işığı, Taclı, bu namə sənə yetəndə mən yəqin, Şirazda olacağam. Sənin duaların sayəsində Tanrı Qızılbaş qoşununu yenilməz elədi. Bir-birinin arxasınca qazandığımız qələbələr səltənətimizin əbədi olacağına təminatdır. Bunların hamısından vacib olan isə odur ki, hər döyüşdə sən mənim ruhumda, qəlbimdə olmusan, məni qələbəyə qanadlandırmısan. Düşünürəm ki, mən səninlə birgə döyüşmüşəm. İnşallah, yaxın günlərdə Şiraza yetərik. Mən İbrahim Mirzəyə tapşırmışam, əmirlərin ailələrinə də yetirsin. Kim istəyir, əzizlərilə görüşmək üçün Şiraza gələ bilər. Gözlərimin işığı, onu bil ki, əgər səni gələnlərin arasında görməsəm, üstümə qaranlıq çökər, dünya mənə dar olar. Onda bütün döyüşlərim də, qələbələrim də dəyərini itirər. Tezliklə həsrətimizə son qoyulacaq, mənə inan. Elə indicə ruhuma, varlığıma dolmuş, sənin eşqinə yazdığım qəzəli də bu naməmin sonuna əlavə edirəm.

*Dilbəra, gözdən cəmalın bir nəfəs dur olmasun,*
*Yaşlu çeşmimdə yüzündən ayru heç nur olmasun.*

*Ta ki, eşqinlən sənin məmur olubdur dil evi,*
*Eşqin ol biranədən bir ləhzə məzur olmasun.*

*Əbri-naysan ta cəmalın gülşəninə su verup,*
*Qətreyi-yaşimdən özgə ənda yağmur olmasun.*

*Ta ki, səndən qeyru düşdüm, görmədim səbru qərar,*
*Hiç aşiq dilbərindən zaru məhcur olmasun.*

*Ta səni sevdi Xətai, oldu dastan aləmə,*
*Kimsənə anın təki eşqində məşhur olmasun.*

Əzizim, gözlərimin işığı, heç nədən nigaran qalma. Biz haqq yolundayıq. Tanrı da haqqı olanları heç vaxt nəzərindən kənarda qoymaz. Sənin İsmayılın, Şiraz yolu».

Taclı məktubu oxudu. Bir tərəfdən möcüzəli müşk ətri, bir tərəfdən də sevgilisinin qəlbinin atəşilə yazdığı sözlər sanki onu bihuş etmişdi, havalandırmışdı. Xəyalı gah Şiraz yoluna uçur, gah da elə həmin andaca pərvazlanıb geriyə qayıdır, gözlərilə, baxışlarıyla sevgilisinin göndərdiyi hədiyyələri seçib-oxşayırdı. Ona görə öpmürdü ki, bu hədiyyələr qiymətlidir, yox, nəzərləri doymurdu bu bəxşişlərdən. Çünki bu sovqatlara onun sevgilisinin əli dəymişdi. İstəklisi min bir duyğu ilə bunları ayırmış, Taclıya hansının yaraşdığını düşünmüş, bəlkə də, min bir xəzinə içindən Taclını sevindirəcək olanları seçmişdi.

İndi Taclıya bir şey aydın idi ki, o, tezliklə öz sevgilisinə qovuşacaq. Ancaq bu tezliklə deyilənin nə vaxt, haçan olacağını hələ bilmirdi. Hələ neçə gecə sevgilisinin həsrətilə günlərin ötməsini, gecələrin keçməsini gözləyəcəkdi.

…Bu vaxt Şah İsmayıl Şiraz yolunda idi. O, qardaşı İbrahim Mirzəni Təbrizə göndərib saray əhlinin ailələrini gətirməyi tapşırsa da, hələ nigarançılığı sovuşmamışdı. Çünki Sultan Murad hələ də müqavimət göstərmək fikrindəydi. Yollarda hər hansı fəsadın baş verməməsi üçün qardaşına kifayət qədər qüvvə ayırmışdı. Halvaçıoğlu da yəqin ki, artıq Şiraza çatmış, Mənsur bəyin ailəsinin taleyilə bağlı tapşırığı yerinə yetirmişdi. Düzdür,

şah buna inanırdı. Çünki Halvaçıoğlu belə çevik əməliyyatların peşəkarı idi.

* * *

Sultan Murad Şah İsmayılın Şiraza yürüş xəbərini eşidəndə, elə bil başına bir qazan qaynar su tökdülər. Qəm dəryasına batdı. Doğrudur, beş min nəfərlik qüvvəsi hələ ki, ixtiyarında idi. Yaxşı bilirdi ki, bu beş min nəfərlik qüvvə ilə Qızılbaşların qarşısında davam gətirmək mümkün deyil. Onun adamları əvvəlki döyüşlərdən yorğun düşmüş, əzilmiş, ən başlıcası, gələcəyə olan inamlarını itirmişdilər.

Artıq heç kim Sultan Muradın Ağqoyunlu səltənətini bərpa edəcəyi, bu yolda vuruşan hər kəsi xoşbəxtlik mərtəbəsinə çatdıracağı haqqındakı nağıllara inanmırdı.

Ağqoyunlu varisini fikir götürmüşdü. Hətta o qədər kədərli görünürdü ki, birdən öz-özünə danışmağa başlayırdı. Yaxınlarının qənaətinə görə, o, daha çox əmisi oğlu Əlvənd Mirzəni söyür, ünvanına olmazın nifrinlər yağdırırdı. Əlvənd Mirzəni günahlandırmağının səbəbi bu idi, guya o, Sultan Muradı inandırmışdı ki, tezliklə Osmanlılar kömək göndərəcəklər. O, da həmin köməyin sayəsində Şah İsmayılı məğlub edəcək, özü də təkcə məğlub etməklə kifayətlənməyəcək, Qızılbaşların kökünü kəsəcəkdi. Onların qanlarını arxa tutub çaya döndərəcəkdi. Sultan təkcə Əlvənd Mirzəni günahlandırmırdı, babası Uzun Həsəni də qınayırdı. Əgər bir vaxt babası bu Ərdəbil dərvişlərinin nəsli ilə qohumluq əlaqəsi qurmasaydı, əvvəl Şeyx Cüneydi, sonra Şeyx Heydəri hakimiyyətə yaxın buraxmasaydı, indi onların əlində belə yüksək hərbi qüvvə cəmləşməzdi.

Beləcə, Sultan Murad özündən başqa Ağqoyunlu nəslində kimlər varisdirsə, hamısının adına söyüş və qarğış yağdırır, hətta xalası Məryəm xatunu yamanlamaqdan çəkinmirdi. O, istəsəydi, Şah İsmayılla bizi barışdırardı, düşünürdü.

Bunların fövqündə o, özünü günahsız sayırdı. Daha düşünmürdü ki, əgər Şah İsmayılın təklifi ilə razılaşıb ona müxalif olmaqdan əl çəksəydi, şah da onu bağışlayar, elə Bağdadın hakimi kimi də saxlayardı. Yəni, Bağdadın hakimi olaraq qalmış olsa idi, onda sərvəti də talan olmaz, ailəsi də dərbədər düşməzdi.

Bütün bunlarla belə, Sultan Murad hələ də inadından dönmək fikrində deyildi. Hələ də ona elə gəlirdi ki, Zülqədər bəydən, yaxud Osmanlılardan kömək alacaq, Xorasan hakimindən canlı qüvvə istəyəcək… bütün bu gücü birləşdirməklə Qızılbaşlara qarşı müsəlləh bir cəbhə yaradacaq, nəticədə qarşı tərəfi məğlub etməklə Ağqoyunlu səltənətini bərpa edə biləcəkdi.

Daha düşünmürdü ki, bir vaxt Ağqoyunlu səltənətinin ərazisi sayılan böyük məmləkətdə ayrı-ayrı şəhərlərin heç bir hakimi ona nə inam nə də yardım göstərmirdi. Onu təəccübləndirən bir də orası idi ki, Sultan II Bəyazid Qızılbaşları məğlub etmək üçün bir vaxt ona nə qədər odlu silah vermiş, top və topçuları göndərmişdi. Sultan Bəyazidlə tez-tez məktublaşırdı. Təəssüf ki, bu məktubların da arası kəsilmiş, axırıncı dəfə yazdığı naməyə isə Sultan II Bəyazid heç cavab da verməmişdi.

Hər halda Sultan Murad neçə illər idi ki, böyük bir dövlətə hakimlik edirdi. Onun hakimiyyəti idarəetmə işlərində kifayət qədər təcrübəsi vardı. İstədiyi vaxt rəqib ordunun içərisinə adamlarını göndərir və bunların vasitəsilə şayiələr yayır, qarışıqlıqlar yaradırdı. Son vaxtlar onun bu əməlləri də fayda vermirdi. Əksinə onun göndərdiyi adamlar ya özləri təslim olur, ya da könüllü Qızılbaş ordusuna yazılırdılar

Bütün bunlar Sultan Muradı çox narahat edirdi. Xilas olmağın, qarşıda onu gözləyən müharibədən qaçmağın yollarını düşünürdü. Şah İsmayıla əsir düşəcəyindən qorxurdu. Şah əlindən bərk qəzəbli olduğuna görə onu ağır cəzaya məhkum edəcəkdi.

Sultan Muradın xəyalı Şahın elçisi Qəmbər ağa ilə son görüşünə getdi. Axı, Qəmbər ağa ona demişdi ki, Sultan istəmirsə boynu

boyunduruğa düşsün, rüsvayçılıqla qoşun önündən keçirilsin, onda yaxşı olar ki, şahın şərtlərini qəbul etsin.

Sultan Murad hər iki əlini şappıltı ilə başına çırpdı. O, dərin peşmançılıq hissi keçirirdi. Kiminsə onun bu hərəkətini görməsini də heç eyninə gəlmədi. laqeyd qalmışdı. İndi hər şey onun üçün öz mənasını itirmişdi. Bəlkə, gedib Şahın ayaqlarına yıxılsın, peşman olmasını etiraf etsin. Yox, o bunu özünə sığışdırmırdı.

Bütün bunlar azmış kimi ona xəbər çatdırdılar ki, Mənsur bəy Şirazdan çıxıb Şah İsmayılın qarşısını kəsmək üçün göndəriləndən sonra fikrini dəyişib, tabeliyində olan bütün qüvvələri Qızılbaşlara təslim edib.

Bu xəbəri gətirən elə Mənsur bəyin dəstəsində olub, sonra onun adamlarının gözündən yayınıb aradan çıxan Osman bəy idi.

Osman bəy hələ Sultan Murad Bağdadda olarkən Sultan II Bəyazidin kömək üçün göndərdiyi topçulardan idi. Birinci ağır məğlubiyyətdən sonra toplar da əldən çıxmış, Sultan Muradın dəstələri də pərən-pərən düşmüşdü. Osman bəy də birtəhər başını salamat saxlayıb, Sultan Muradın arxasınca sürünmüşdü…

Əslində, Sultan II Bəyazid Osman bəyə xəlvəti bir tapşırıq da vermişdi, Şah İsmayılla Sultan Muradın qarşılaşmalarında iştirak etsə də, çalışıb başını salamat saxlasın və hadisələrin axırına yaxın özünü Sultan II Bəyazidin yanına yetirsin və baş verən hadisələrin təsnifatını ona danışsın. Osman bəy də bütün fəhmi-fərasətini cəm eləyib başını salamat saxlamaqla son nəticədə Sultan II Bəyazidin tapşırığını yerinə yetirmək niyyətində idi. Elə bir niyyətlə də Mənsur bəyin dəstəsindən ayrılıb özünü Sultan Muradın yanına çatdırmışdı:

– Belə dərin fikirə qərq olmaqla bir çarə tapılmaz, sultanım.

– Çarə haradasa gizlənib ki, indi onu ordan tapaq, Osman bəy?

– Hər halda çarənin ayağı da yoxdur ki, yeriyib sənin hüzuruna gəlsin.

Osman bəyin bu sözləri əslində Sultan Muradın şəstinə toxundu. O, başını qaldırıb Osman bəyi tərs-tərs süzdü və xeyli sükutdan sonra ağır-ağır dilləndi:

– Belə müşkül duruma düşməyin bir səbəbi də elə Sultan II Bəyazidlə bağlıdır.

– Niyə ki, mən elə düşünmürəm, Sultan II Bəyazid hər vaxt Sultan Murada kömək əlini uzadıb, onu yardımsız qoymayıb.

– Əgər o, vəd verdiyi qüvvələri vaxtında göndərsəydi, Qızılbaş qoşunlarını çoxdan məğlub edərdik.

– Hər halda belə naçar oturmaq olmaz.

– Bəs neyləyək, Osman bəy? – Sultan Murad «bəy» sözünü açıq-aşkar istehza ilə dedi. Onun istehzasını Osman bəy hiss etsə də, üstünü vurmadı, istədi, Sultan Muradı inandırsın ki, hələ də çıxış yolları var. Buna görə də bir az da məhrəmliklə ona yaltaqlandı.

– Qüdrətli sultanım, Ağqoyunlu xanədanının adı səninlə bağlıdır. Hələ də insanlar Ağqoyunlu səltənətinin əzəlki şöhrətini özünə qaytaracağına inanırlar.

– İnanmaq nəyi həll eləyir ki? – Sultan Murad yenə də səsinin ahəngilə Osman bəyə istehzasını gizlətmədi.

– Sultanım, ürəkdən inanmaq çox şeyi həll eləyir. Sən burada – Şirazda çox ləngimə. Qızılbaş qoşunları ilə qarşılaşmaq sənə fayda verməz.

Sultan Murad hiss elədi ki, bu sözləri Osman bəy həqiqətən səmimi deyir. Elə o özü də anlayırdı ki, ləngimək, gecikmək ölümə bərabərdir. İndi tez qalxıb ətrafında olan qüvvələrlə yığışıb, yola düşmək lazımdır.

– Bəs onda bu xəyanətkar Mənsur bəyi biz cəzasız buraxaq? – Sultan Murad əlacsız-əlacsız soruşdu.

Osman bəy də həqiqətən Sultan Muradın qəzəbini anlayırdı. Bilirdi ki, Mənsur bəyi cəzasız buraxıb getmək onu yandırıb-yaxacaq. Ona görə də çarəsiz durumda olan Sultan Murada vəziyyətdən çıxış yolunu göstərməyin vacib olduğunu bildirdi.

– Sən bunu Şiraz camaatının ixtiyarına burax – Osman bəy inamla dilləndi.

– Necə yəni Şiraz camaatının ixtiyarına buraxım?

– Bəli, bəli insanlar tamahkar olurlar, sən belə bir göstəriş ver; de ki, qoy hər kəs tökülüb Mənsur bəyin evini talan eləsin.

– Sən bilən, baş tutar bu fikrimiz? – Sultan Murad inamsız soruşdu.

– Əlbəttə, baş tutar, hökmdar. Mən biləni, Mənsur bəy çox varlıdır. Adamlar tamahı üstün bilib bir günün içində onun evini darmadağın edər, talayarlar.

Deyəsən, bu fikir həqiqətən onlar üçün ağlabatan idi.

Sultan Murad bir neçə yaxın adamını çağırıb, Osman bəyi də onlara qoşdu. Bu şəxslərə Şiraz meydanında car çəkib, Mənsur bəyin evini viran etmək əmrini çatdırmağı tapşırdı.

Həqiqətən Şiraz meydanında, bazar ətrafında, adamların gur yerində carçılar bağırmağa başladılar.

– Hər kəs Mənsur bəyin evini talan etsə, talandan əldə etdiyi onun özünün olacaq. – Bunu birinci carçı qışqırdı.

İkinci carçı onun ağzından söz qurtaran kimi təzədən havar çəkdi:

– Ay camaat, hələ üstəlik, talanda yaxından iştirak edənlərin hər birinə Sultan Murad qiymətli hədiyyələr bəxş edəcək.

– Bu işi gecikdirmək olmaz, elə bu andan talan başlanır. – Bunu da üçüncü carçı qışqırdı…

Beləliklə, carçılar şəhər meydanlarında dolaşıb, hamını Mənsur bəyin evinin talanına çağırırdılar.

Əlbəttə, Şirazın hörmətli ağsaqqalları, təmkin sahibi olan nüfuzlu adamları da bu xəbəri eşitdilər.

Hələ indiyə qədər Şirazda belə bir hadisə baş verməmişdi. Ona görə Şirazın məhəllə başçıları, gizlin qanun qoruyucuları silahlı dəstələr düzəldib Mənsur bəyin evini, ailəsini mühafizə etməyi qərara aldılar.

Silahlı mühafizlər evi elə əhatəyə almışdılar ki, kimsə Mənsur bəyin evinin hasarına belə yaxın dura bilməzdi.

Xəbər Sultan Murada yetəndə o, qəzəbini boğa bilməyib, xeyli qoşunla Mənsur bəyin evini dağıtmağa yollandı. Şirazlı ağsaqqallar onun qarşısına çıxıb bu əməlin düzgün olmadığını, şəhər əhalisinin qəzəbinə səbəb olacağını bildirərək, Sultan Muradı fikirindən daşındırmağa çalışdılar. Sultan Murad əhalinin hər cür fədakarlığa hazır olduğunu görüb fikrindən vaz keçdi.

Bu yandan da qasidlər bir-birinin arxasınca xəbər gətirirdilər ki, Şah İsmayıl Şiraza yaxınlaşır.

Halbuki gələn Halvaçıoğlu İlyasla Mənsur bəyin özü idi. Əlbəttə, onların ixtiyarında xeyli qüvvə var idi. Halvaçıoğlu burda da öz fəhmini göstərdi. Sultan Muradla qarşılaşmamaq üçün dolanıb şəhərin arxa darvazasından keçdi. Mənsur bəyin bələdçiliyilə atlı dəstələr sürətlə evin ətrafına yaxınlaşdılar.

Mənsur bəy evini və ailəsini salamat gördü. Sevindiyindən göz yaşı axıtdı. Bu gözlənilməzliyi o, Səfəvi ocağının möcüzəsi sayırdı.

* * *

Sultan Murad Şah İsmayılın igid sərkərdələrindən biri Halvaçıoğlu İlyasın öz qoşunu ilə Şiraza daxil olması xəbərini alanda başa düşdü ki, daha burda qalmağın faydası yoxdur. Doğrudur, Mənsur bəyə qarşı çox qəzəbliydi. Lap nə qədər itki versə də, Mənsur bəyin evini talan edib, onun əhli-əyalını qılıncdan keçirib getməli olsaydı, bununla yalnız təskinlik tapardı. Təəssüf ki, tale ondan üz döndərmiş, bütün işlərini alt-üst eləmişdi. Başına gələnlərdə günahkar başqalarını, xüsusilə, babası Uzun Həsəni, əmisi oğlu Əlvənd Mirzəni, Şeyx Heydəri və onun nəslini, eləcə də Sultan II Bəyazidi bilirdi. Daha onu nəzərə almırdı ki, tale ona iki dəfə xilas olmaq şansı vermişdi…

Birincisi, Qəmbər ağa onun yanına gələndə. Amma o, Ağqoyunluların şəcərəsinə ləkə yaxan, misli görünməyən bir bəd əmələ əl atdı: elçini qətlə yetirdi. Sultan Murad hər dəfə Qəmbər ağanın ölümünü gözlərinin önünə gətirəndə, onun son sözlərini də yaddaşında təkrarlayırdı: «Unutmayasan, bizim dədə-babalarımız deyiblər ki, elçiyə zaval yoxdur. Sən məni öldürə bilərsən, ancaq bil ki, elçinin qanı yerdə qalmır. Qanım səni tutacaq. Bunu yaddan çıxartma.» Yenə də bu sözlər onun yaddaşında baş qaldırıb varlığını didməyə başladı. Qarşıdakı təhlükə o qədər böyük idi ki, heç cür ondan sovuşacağını, canını necə qurtaracağını qərarlaşdıra bilmirdi. İndi Halvaçıoğlu ilə vuruşmağa cəsarət eləmirsə, onda Şah İsmayılın özüylə necə qarşılaşacaqdı? Ona görə vaxt itirmədən Şirazdan çıxıb üzü Bağdada tərəf yol başladı və ətrafında yeddi min nəfərlik qüvvə olsa da, bu tör-töküntünün döyüşmək iqtidarı yox idi. Çünki ordu Şah İsmayılla birinci savaşdan üzü bəri rahatlıq tapmamışdı. Elə rahatlıq tapmadığına görə, qoşununa dinclik də verməmişdi. Ən pisi də o idi, qoşun əhlinin əyin-başı sökük-sökük idi, ərzaq qıtlığı da bir tərəfdən. O, Şiraza sarı gedərkən yolboyu bütün əyalətlərin var-yoxunu talayıb özüylə aparmışdı. Elə bu səbəbdən, geri qayıdarkən, yolboyu əyalətlərin heç birisindən ərzaq toplaya bilmirdi. Sultan Murad Şiştər qalasına çatanda, xəbər bildi ki, Şah İsmayıl da qoşunu ilə Şiraza yetişib. Şiştər qalasına yaxınlaşanda, qala qapılarının bağlı olduğunu görüb, qəzəbləndi.

Sultan Muradın xəbəri yox idi ki, Şah İsmayıl da öz növbəsində onun hansı yolla getdiyini qarabaqara izləyir.

Şah bilirdi ki, Sultan Muradın keçəcəyi yolboyu qalalar sırasında Şiştərin böyük əhəmiyyəti var. Demək, Sultan Murad çox istəyəcəkdi ki, bu rahat məkanda dayanıb dincəlsin. Hələ üstəlik o, qalanın ərzaq anbarını və cəbbəxanasını da ələ keçirmək istəyəcək. Şah Şiştər qalasının hakimi Abdulla Şiştəriyə qısa namə yazıb xəbərdarlıq eləmişdi: «Şücaətli Abdulla Şiştəriyə duaları-

mız yetərincədir, onun Səfiyyədin ocağına hörmət və ehtiramını bildiyimizdən istəmərik ki, Sultan Muradın felinə uyub, onun şər əməlinin güdazına getsin. Əgər gücü çatırsa, qoy Sultan Muradı əsir alıb, Qızılbaş sarayına təhvil versin, yox, əgər buna gücü çatmayacaqsa, onun üzünə qala qapılarını bağlasın, müqavimət göstərsin. Onsuz bizim yel qanadlı süvarilərimiz tezliklə özlərini yetirəcəklər. Və bu zaman Sultan Muradın başına dünya dar olacaqdır. Allah haqq işi görənlərin tərəfindədir. Zənn edirik ki, bunu Abdulla Şiştəri də yaxşı bildiyindən, Allah da onun tərəfində olacaq. Şahın məktubu Abdulla Şiştəriyə çatmışdı. Düzdür, Şah İsmayılın hələlik Abdulla Şiştəriyə kömək göndərmək imkanı yox idi. Ancaq məktubun yolda Sultan Muradın adamlarının əlinə keçə biləcəyini düşündüyündən Şiştər qalasına tezliklə köməyin yetəcəyini bildirirdi.

Abdulla Şiştəri məktubu dərhal oxumuşdu, onsuz da həqiqətən Abdullanın Səfəvi ocağına keçmişdən böyük rəğbəti vardı. Çünki atası vaxtilə gəncliyində Cüneydin, orta yaşda Şeyx Heydərin ətrafında olmuşdu. Elə Şiştər qalasını da Ağqoyunlulardan Şiştərilərə verilməsində Şeyx Heydərin xidməti danılmaz idi.

İndi Abdulla Şiştəri Şah İsmayıl qoşunlarının gələcəyi haqqında xəbəri sevinclə qarşılasa da, Sultan Murada qarşı döyüşə biləcək gücünün olmadığını anlayırdı. Əgər Sultan Muradla ittifaqa girsəydi, onda Muradın yeddi minlik qoşunu qalanı darmadağın edərdi. Onsuz da Sultan Murad Şah İsmayılla döyüşdən məğlubiyyətlə çıxıb Şiraza gedərkən qalanın bütün var yoxunu özüylə aparmışdı. Ona görə də Abdulla özü Sultan Muradın hüzuruna getməli oldu.

Abdulla Şiştəri Sultan Muradın düşərgəsinə yetib atdan düşdü. Qarşılayanlar onu Sultan Muradın hüzuruna apardılar. Abdulla Şiştəri sultanın hüzuruna yetib təzim elədi. Başını qaldırıb onun gözlərinə baxanda, gördüklərinə inanmadı.

Sultan Muradın qüruru sınmış, əzəməti yoxa çəkilmişdi. Üz-gözünü tük basmış, gözləri çuxura düşmüşdü. Neçə günün yuxusuzluğu, qorxusu, əndişəsi onu büzüşdürmüşdü.

Abdulla Şiştəri gördü ki, Sultan Murad onun görkəminə başdan-ayağa, ayaqdan-başa diqqət yetirir.

– Həşəmətli Ağqoyunlu varisi bizim yerlərə xoş gəlib, səfa gətirib. – Abdulla Şiştəri sözünü dedi və Sultan Muradın cavabını gözlədi.

Sultan Murad onun «xoş gəldin» eləməyindən, deyəsən, razı qalmamışdı, «bizim yerlərə» sözünün deyiliş tərzi isə Abdulla Şiştərinin dilindən ilan kimi baş qaldırıb fışıltı ilə üz-gözünü yalamışdı. Bu səbəbdən də bir qədər qəzəbli səsləndi:

– İndi qalabəyi deyir ki, bizi neçə gün qonaq saxlaya bilər?

– Hörmətli sultanım, – bu sözlərlə Abdulla Şiştəri Sultan Muradı dilə tutmaq, inandırmaq istəyirdi. Hələ sözlərini bir az, da yumşaltmaq məqsədilə davam elədi, – bu, sizin qalanızdır. Neçə gün istəsəniz, qala bilərsiniz, ancaq biləsiniz ki, qalada heç bir ərzaq və barıt ehtiyatı yoxdur. Belə vəziyyətdə Sultan Murad burada ancaq vaxt itirər.

– Bəs onda qalabəyi nə məsləhət görür? – Sultan Murad kinini boğub soruşdu.

Sultan Muradın sorğusundan Abdulla Şiştəri başa düşdü ki, onu inandıra bilib və bu da Şiştərini çox sevindirdi. Onu da görürdü ki, Sultan Murad elə bil təlaş keçirir, elə bil əhvaldadır ki… nəyin düz, nəyin yalan olduğunun da fərqinə varmaq gücündə deyil. Özünü bir az da doğma tutaraq, Sultan Murada yaxın gəldi, asta-asta danışmağa başladı:

– Mənim məsləhətim budur ki, hökmdar burda ləngiməsin, çünki Şah İsmayıl onu təqib etmək fikrindən əl çəkməyib. Demək, Sultan Murad öz səfərini davam etdirsə, özünü də, qoşununu da sağ-salamat bir tərəfə çatdıra bilər. Onsuz da həmişə bu böyük ərazilərin sahibi Ağqoyunlular olub. Bunu Sultan Murad da yax-

şı bilir. Əgər ki, bir arx ilə bir zaman su axıbsa, onda nə vaxtsa, həmin arxa yenə də su gələ bilər. Hər şey böyük Allahın əlindədir. Bizim onun işlərinə müdaxilə etmək gücümüz yoxdur. Yenə də ümid Allahadır. Sən qəlbini onunla düz saxla.

Sultan Murad, deyəsən, Abdulla Şiştərinin bu uzun söz-söhbətindən bezmiş kimi oldu. Üz-gözünü turşutdu. Bunu Abdulla Şiştəri gördü, ona görə nitqini kəsdi. Amma Sultan Murad beyninə gələnləri saxlamadı:

– Sən deyirsən ki, Allah haqqın tərəfindədir. Bəs mən də haqqın yolundayam. Özün yaxşı bilirsən ki, bu torpaqların hamısı babam Uzun Həsənin sayəsində Ağqoyunlular səltənətinin əlində cəmləşmişdir. Bəs onda necə olur ki, mən öz haqqım uğrunda vuruşuram, ancaq qələbə yox, hər addım başı məğlubiyyətlə üzləşirəm? Bu niyə belə olsun?

Sultan Muradın bu sözlərindən sonra həqiqətən Abdulla Şiştərinin ona yazığı gəldi. Ağılsızlığının ucbatından hər cür bəlalara düçar olmuş Sultan Murada ağıllı məsləhət vermək istədi:

– Hökmdar, birinin günəşi doğanda, digərininki sönməkdə olar. Bunlar hamısı qədərin işləridir. Ya nəsibi-qismət!

– İndi sən görürsən ki, Şah İsmayılın qılıncı fələyə meydan oxuyur. Belə olan halda, sən onunla niyə üz-üzə gələsən?

– Bəs neyləyim, o məndən əl çəkmir. Məni təqib etməkdədir.

– Doğrudur, o, səni təqib edir və yəqin öz məramından da dönməyəcək.

– Bəs bir çıxış yolu yoxmu? – Sultan Murad acizanə soruşdu…

Əgər az-çox qalmış hökmdarlıq qüruru yol versəydi, Abdulla Şiştərinin ayaqlarına düşərdi, yalvarardı ki, qabağa düşsün. Hansı yolu istəyir, göstərsin, o da həmin yolla canını qurtarsın.

İddiaların, pis niyyətlərin yazıq duruma saldığı bu adama – Sultan Murada yol göstərməyin Allaha da xoş gedəcəyini düşündü.

– Hökmdar, incimə, elədiyin səhvlərin sayəsində şahı bərk özündən çıxarıb, qəzəbləndirmisən. İndi o, heç kimin minnətini qəbul etməz, sözünü eşitməz. Bibin Məryəm xatunu aldatmısan, Qəmbər ağanı öldürtmüsən… Amma yenə çıxış yolu var.

Bu zaman Sultan Murad yerindən sıçradı, düz Abdulla Şiştərinin önünə gəldi və tez-tələsik soruşdu.

– Hansı yoldur? Nədir o yol, mənə de.

– Hökmdar, deyirəm bütün qoşunu tərksilah elə, ayrı-ayrı bölüklərlə göndər Şah İsmayılın hüzuruna. Özün də yüz nəfərlik atlı ilə bütün əlində olan qiymətli sərvətlərini hədiyyə götürməklə apar Şah İsmayıla və bağışlanmağını rica elə. Belə olan halda, həm ailəni xilas edərsən, həm də öz başın salamat qalar.

– Bəs şah məni bağışlamasa? – Bu dəfə də Sultan Murad aciz-aciz Abdulla Şiştərinin ağzına baxıb cavabını gözlədi. O, elə ümüdlə baxırdı ki, guya, Şah İsmayılın özüylə danışırdı. Sanki Şah İsmayıl indicə hökm verəcəkdi.

– Bəli, ola bilər ki, şah səni bağışlamasın, çünki sən bütün etibarını itirmisən, yandırmısan. Amma onu bil ki, heç olmasa, ailən salamat qalar.

Sultan Murad hiss edirdi ki, bu ağıllı adamın dediklərinin hamısı doğrudur. Daha Abdulla Şiştəriyə heç nə demədi. Abdulla Şiştəri Sultan Muradla xudafizləşib qalaya qayıtdı.

Sultan Murad həmin gecəni səhərə qədər yatmadı. O, istəyirdi ki, Abdulla Şiştərinin məsləhətinə əməl eləsin. Ağlına gələn də o idi ki, şah onu bağışlamayacaq, başını boyunduruğa keçirib, elə əhli-əyalının gözləri qarşısında, Allah bilir, onu hansı cəza ilə öldürəcəkdi.

Bütün bunları düşünəndə, Sultan Muradın canına üşütmə düşdü. Axır ki, səhərə yaxın qərara gəldi ki, Şah İsmayılın yanına yox, baş götürüb uzaqlara getsin. Bəlkə, şah ondan əl çəkdi.

Həqiqətən Sultan Murad səhər erkən qoşununa hərəkət etmək əmri verdi. Abdulla Şiştəri də onu yola salmaq üçün çıxmışdı. Sul-

tan Murad Abdulla Şiştəriylə bir qədər soyuq olsa da, hər halda hörmətlə vidalaşdı.

– Mən baş götürüb Diyarbəkir tərəfə gedirəm. Yəqin ki, şah mən sarıdan bundan sonra heç bir təhlükə olmadığını bilər və məndən əl çəkər.

– Elədir, – bunu da Abdulla Şiştəri dedi. Daha başqa heç bir söz dilinə gətirmədi.

Abdulla Şiştəri təpənin üstündə dayanmışdı. Sultan Muradın özü və qoşunu gözdən itəndən sonra, qalanın keşikçi qülləsindən onu nəzarətdə saxlayanlara işarə elədi. Qaladan bir atlı çıxdı. Abdulla Şiştəri axşamdan yazıb hazırladığı məktubu ona verib, əlilə Şiraz tərəfi göstərdi.

Atlı bilirdi ki, məktubu tezliklə Şah İsmayıla yetirməlidir.

Abdulla Şiştəri atlını da gözdən itənəcən gözlədi və sonra arın – arxayın qalaya döndü.

* * *

Şah İsmayıl Şiraza daxil olandan sonra, birinci qoşunun yerləşdirilməsi haqqında göstəriş verdi. Neçə vaxtdan bəri döyüşlərdən və aramsız səfərlərdən yorulmuş qoşun əhlinə istirahət verilməsi hər kəsdə bir inam və arxayınlıq yaratdı. Bu, o deməkdir ki, yaxın günlərdə müharibə gözlənilmir.

Abdulla Şiştərinin göndərdiyi çapar şahın yanına iki gün öncə yetişmişdi. Şah da Abdulla Şiştərinin məktubunu oxuyandan sonra xeyli məmnun olmuşdu. Birincisi, ona görə ki, o, Abdulla Şiştəriyə inanırdı. Bilirdi ki, Qalabəyi Səfiyyədin ocağına çox sədaqətlidir. İkincisi, məktubdakı xəbər özü də Şah İsmayılın istəyincə idi. Yəni, Sultan Murad baş götürüb qərbə – Diyarbəkirə tərəf getmişdi. Doğrudur, Sultan Murad hiyləgər adam idi. Əgər onun imkanı tükənməsəydi belə bir niyyətlə həm Abdulla Şiştərini, həm də Şah İsmayılı aldatmaq istəyərdi. Ancaq şahın bunu da ağlı kəsmirdi. Çünki Sultan Muradın ixtiyarında olan az

sayda ac-yalavac qüvvəni belə təmin edəcək silahı və ərzağı yox idi. DeməK, Sultan Murad ancaq öz başını salamat saxlamaq yolunu tutmuşdu. Bu yol da ondan ibarət idi ki, mümkün qədər Şah İsmayıldan uzaqlaşsın, can qurtarsın.

Şah bütün bunları götür-qoy etdikdən sonra Təbrizə, qardaşı İbrahim Mirzəyə məktub göndərdi ki, əmirlərin və özünün ailə üzvlərini Şiraza gətirsin. Hərbi səfərlərin ağırlığı, döyüşlərin gərginliyi onun varlığını az qala sarsıtmışdı. Əgər özündən olsaydı, bundan sonra daha heç bir savaşa girmək fikrinə düşməzdi. Ancaq onu da yaxşı bilirdi ki, hələ də onu istəməyən şər qüvvələr mövcuddur, inadlarından əl çəkmək fikrində deyillər.

Qarşıda Səfəvi ocağı üçün ciddi bir təklükə görünmürdü. Yaranmış bu sakitlikdən istifadə edib, əhalinin güzəranını yaxşılaşdıracaq fərmanlar verdi. Ən ağır vəziyyətdə olan əyalətlərə yardımlar göndərdi. Döyüşlərdə həlak olanların ailələri üçün külli miqdarda vəsait ayırdı. Yolların abadlaşdırılması, körpülərin salınması da yaddan çıxmadı. Bütün bunların hamısı Sultan Muradın Şirazda ələ keçirilmiş xəzinəsi hesabına həllini tapdı. Qoşun əhli də aldığı məvacibdən razı qalmış, şahın tanrı dərgahında başının uca olması üçün dualar eləmişdilər.

Hökmdar bütün bunların hamısının dəqiq və düzgün icrası üçün nəzarətçilər ayırmışdı. Bir məsələ isə şahı düşündürməli olmuşdu. Ona xəbər verdilər ki, Şiraz sarayında ayrı-ayrı əyalətlərdən, Sultan Muradın adamları tərəfindən məcburən saraya gətirilmiş xeyli sayda qızlar var. Şah Hüseyn bəy Lələyə onların taleyinin necə olacağını sorğu elədi.

– Hökmdar sağ olsun! Özün necə məsləhət bilsən, tədbirinə əməl olunar.

Şah fikirli-fikirli başını yuxarı qaldırdı:

– Yəqin ki, bunların çoxu Sultan Muradın adamları tərəfindən məcburən gətirilib. Yaxşı olar, onları azad edək. Hüseyn bəy Lələ Şamlı əlini sinəsinə qoyub təzim elədi:

– Baş üstə, hökmdar.

– Ancaq bir məsələni unutmayın. Əgər kimsə könüllü istəyirsə, qalıb sarayda qulluq edə bilər.

Bayaqdan bəri Hüseyn bəy Lələ Şamlı demək istədiyi sözü dilinə gətirdi:

– Doğrudur, hökmdar, əksəriyyət öz yerinə-yurduna qayıtmaq niyyətindədir, elələri də var, sarayda qalıb xidmətlərini davam etdirmək istəyirlər. Aralarında bir gözəl-göyçək od parçası da var ki, məxsusi olaraq şahın qulluğunda durmaq arzusundadır.

– Öyrənmisinizmi necə olub ki, saraya düşüb?

– Hökmdar, özünün dediyinə görə ata-anası Sultan Muradın adamları tərəfindən öldürülüb, özü saraya məcburən gətirilib. İndi də kənarda elə qohum-əqrəbasının olmadığını söyləyir.

– Yaxşı, onu mənim yanıma gətirərsiniz, danışdıraram.

Bununla da Hüseyn bəy Lələ Şamlı ilə şah arasındakı söhbət bitmiş, Hüseyn bəy tədbirlərin icrası üçün getmişdi.

…Şah axşamüstü Şirazın saray bağçasına çıxmışdı. Bir anlığa ona elə gəldi ki, Təbrizin Həşt-behişt bağındadır. Bir çox cəhətdən bu bağ Təbrizdə Uzun Həsənin yaratdığı Həşt-behişt bağına bənzəyirdi. Şah öyrənmişdi ki, Sultan Murad Şirazda Ağqoyunlu sarayına bənzər iqamətgah qurmuş və onun da qabağında gözəl bağ salmışdı. Sultan Murad bir daha Təbrizə qayıda bilməyəcəyini düşündüyündən, gəncliyinin, uşaqlıq çağlarının keçdiyi Təbrizin Həşt-behiştini bir növ burada özünü ovundurmaq üçün yaratmağa çalışmışdı. Bunun üçün xəzinəsindən vəsait ayırmağa da qızırqalanmamışdı.

Şah bağda gəzərkən sanki, Təbriz sarayının qarşısında özünü hiss elədi. Hovuzlar, arxlar, hətta Təbriz bağındakı ağaclar belə eyni idi. Bu da istər-istəməz onun xəyalını çəkib Təbrizə aparmışdı. Elə düşünürdü ki, indi bu saat Taclı bəyim suyu göz yaşı kimi duru hovuzun yanında görünəcək, o da sevgilisini sonsuz bir istəklə süzəcək və daha bu görüş Taclının inadı ilə kənardan

– kənardan olmayacaqdı. Qızı sonsuz bir sevgi, hədsiz bir istəklə bağrına basacaqdı, onu öpüb, oxşayacaqdı. Belə məqamlarda şahın duyğulu könlü cuşa gəlir, dilindən sevda dolu sözlər qopur, yenicə yazdığı qəzəlin misraları cilvələnərdi.

Heç şahın xəbəri olmadı ki, onun ruhunda çağlayan duyğular necə şeirə çevrildi. Bir-birini tamamlayan sözlər inci kimi düzüldü. Şahın xəyalı qanadlandı, ruhu uçdu. Bilmədi ki, sevgilisinə küləklərlə göndərəcəyi qəzəli bədahətən dodaqlarından necə car elədi:

*Həsrətin dərdindən, ey can, bağrım oldu parələr,*
*Suzi-eşqin yürəgimdə hər dəm eylər yarələr.*

*Yandırub hicran odu könlümü verdi badə gör,*
*Dutdu əflaki-cəhani geydi gök də qarələr.*

*Düşdü hüsnin mənzərinə canü dil bu gözlərim,*
*Çarə yox, naçar olubdur, neyləsin biçarələr.*

*Tərk edüb qoydum, gedərəm, xanü mani, mülki uş,*
*Hicrin etdi mən qəribi üştə gör avarələr.*

*Öldü dərdindən Xətai, bir qədəm rəncidə qıl,*
*Qəbrinə basgil, eşitgil səd hezaran nalələr.*

Gənc şah intizar çəkən bir aşiq tək həsrətini sözüylə ovundururdu.

Şahın ürəyi şiddətlə döyündü. Ona elə gəldi ki, at ayaqlarının tappıltısını eşidir. Bir az da diqqət kəsildi. Yox, səs kənardan gəlmirdi. Ürəyinin döyüntüsü idi, qəlbinin səsi idi. İndi anladı ki, ürəyinin hər döyüntüsüylə ruhuna, varlığına hakim olan adın sahibinin özünü görür və eşidir.

O, xəyalən hesablayırdı ki, İbrahim Mirzəyə xəbər nə vaxt çatacaq. Əmirlərin əhli-əyaları neçə günə Şirazda olacaq. Onların arasında Taclı bəyim şahanə bir gül kimi Şahın nəzərini lap uzaqdan

çəkəcəkdi. Şah gözlərinin qabağına gətirdiyi sevgilisinin gözəlliyi önündə donub-qalacağdı.

Əlbəttə, bütün bunlar şahın ruhunu ovunduran düşüncələr idi. O, Təbrizdən gələnləri gözləmək, sonra bir çox məsələləri həll etmək üçün əmirləri yığıb müşavirə etmək qərarında idi. Şahın özünə qalsaydı bütün qışı Şirazda keçirər, elə burada da öz istəyinə yetərdi…

Gec də olsa Şah saraya qayıtdı. Qayıdan kimi ona xəbər verdilər ki, Hüseyn bəy Lələ Şamlının tapşırığı ilə Sultan Murad sarayından olan həmin qız onunla görüşmək istəyir. Gənc şah Hüseyn bəy Lələ ilə olan söhbəti xatırladı.

Qız içəri girib Şahın bir neçə addımlığında dayandı. Şah başını qaldırıb gənc qızı süzəndə elə bil ki, vücudu üsyan elədi.

– Sənin adın nədir?

– Adım İncəbeldir, şahım.

– Lap elə adına yaraşırsan. Bəs niyə vətəninə getmək istəmədin?

– Aləmlərin işığı olan şahın ətrafında olmaq, zülmətdə olmaqdan yaxşı deyilmi?

Qızın cavabı şahın xoşuna gəldi.

– Yaxşı, indi bura sənin üçün qürbət olacaq, bəs sənin qəlbin sıxılmayacaqmı?

– Xeyr, Şahım. Sənin nəfəsini üstümdə hiss etsəm, əmin, arxayın olaram.

İncəbelin sözləri şahın düşüncəsinə hakim kəsildi.

– Yaxşı, sən belə gözəl nitqi, sözləri mənasına görə seçib rəvan danışmağı haradan öyrənmisən?

– Mənim babam Ərdəbil ocağının müridi olub. Evimizdə hər vaxt mötəbər adamlar görmüşəm. Onların hikmətə necə dəyər verdiklərini eşitmişəm.

Şah qızın ağıl və işvə yağan gözlərinin sehrinə düşdü. Yerindən qalxıb ona tərəf gəldi. İncəbel tərpənmədi. Şah əlini uzatdı, İncəbel bir qədər tərəddüd eləsə də, sağ əlini yuxarı qaldırdı. Şah

onun quş kimi çırpınan əlini havada tutdu. Qızın məhəbbətlə baxan gözlərindən gözünü çəkə bilməyən şah onu özünə sarı çəkdi, nəfəs-nəfəsə qaldılar.

Sanki, ildırım çaxdı, Şahın vücudu lərzəyə gəldi, bədəni titrədi. Ona elə gəldi, Taclı elə bu vaxt içəri girdi. Şah qızın əlini buraxmasa da, təşvişlə qapıya baxdı. Qapı açılmamışdı və otaqda da onunla İncəbeldən savayı bir kimsə yox idi. Deyəsən, şah toxdadı və İncəbelin hərarətli nəfəsi onu məst etmişdi.

Yox, heç bir ildırım çaxmamışdı və tufan qopmamışdı. Şah İncəbelin əlindən tutub özü ilə sarayın uzaq bir hücrəsinə getmək istəyində idi.

– Yox şahım, mən bilirəm, sənin sevgilin var. Mən qaratikan kolu olmaq istəməzdim. Ancaq ömrümü sənə və sevgilinə qulluq edərək keçirməyi özümə səadət bilərdim.

Bəlkə, də İncəbelin axırıncı sözləri olmasaydı, şah fikrindən dönməyəcəkdi. Qızın bu ürəkyaxan etirafı həqiqətən Taclını lap onun hüzuruna gətirdi. O, Taclının gözlərinə baxmaqdan utandı.

Şahın sifətinə bir xəcalət təri gəlmişdi. Ürəyində İncəbelə minnətdarlıq eləyirdi. Onun qəlbinin böyüklüyü, varlığının təmizliyi önündə özünü günahkar hesab edirdi. «Yox belə olmaz, Tanrı mənə şahlığı ona görə verməyib ki, mən hər cür əhdi-peymanı ayaqlamaq iqtidarında olum».

Yaxşı yadında idi lələsi Qəmbər ağa ona deyərdi ki, «Sevgidə kamillik tapan hakimiyyətdə də kamil olar».

Şah saray hərəmağasını çağırdı. İncəbelə sarayda hər cür şərait yaradılması və hörmət göstərilməsi barədə tapşırıq verdi. Yalnız bundan sonra sevgilisi Taclı bəyimdən xəyalən üzrxahlıq dilədi.

* * *

Qızılbaşların Sultan Murad üzərində qələbəsi haqqında xəbər tez yayıldı. Şah İsmayılın rəqibləri qəmə batmışdılar. İstər Sultan

Bəyazid Qərbdə, istərsə də Xorasan hakimi Şərqdə Şah İsmayılın uğurlarını həzm edə bilmir, özlərinin nüfuzlarına zərbə kimi dəyərləndirirdilər.

Xüsusilə, Sultan Bəyazid Qızılbaşların tutduqları əraziləri gözlərinin önünə gətirərkən vahimələnirdi. Bir vaxt Uzun Həsənin ixtiyarında olan Anadolu tərəflərin iddiasını da edəcəklərini düşünəndə, Sultan Bəyazidi od götürürdü. O, indiki məqamda çox asanlıqla Əlvənd Mirzəni darmadağın etmiş, Zülqədər bəyi öldürmüş, qoşunlarını pərən-pərən salmış və nəhayət, Sultan Muradın möhtəşəm səltənətini viran qoymuş Qızılbaşları erkən boğmamaqda səhvini bağışlamırdı. Düşünürdü ki, əgər vaxtında hələ Təbrizə daxil olmamış Qızılbaşları döyüşə çəkib darmadağın etsəydi, indi belə bir təhlükə ilə də üzləşməzdi. İndi iş-işdən keçmişdi. Əgər Sultan Murad Osmanlıların odlu silah ustalarının, əsas da topçularının köməyindən istifadə edib Şah İsmayıla qalib gələ bilməmişdisə, demək, onunla hərb dilində danışmağın vaxtı ötmüşdü. Elə bu səbəbdən, Sultan II Bəyazid Şah İsmayılın hüzuruna elçilər göndərib, onunla dil tapmağı, ünsiyyət qurmağı daha üstün tutdu. Bütün bu ötən vaxt ərzində Şah İsmayılın üzərinə yürüş etməyə ruhlandıran qərb ölkələrinin, xüsusilə də, Roma Papasının məktublarını etinasızlıqla bir tərəfə atır məqsədlərini başa düşürdü, çünki belə təhrikedici kağız parçaları hələ gəlməkdə davam edirdi.

Sultan II Bəyazid Şah İsmayılın Sultan Murad üzərində qələbə xəbərini soyuq qarşıladı, o, artıq inanırdı ki, belə uğurlar Qızılbaşlar üçün çox təbiidir və asan başa gələndir.

Osmanlı sarayında güclü vurnuxma var idi. Adlı-sanlı sərkərdələr, divan üzvləri həyəcan keçirirdilər. Onlar düşünürdülər ki, tezliklə Şah İsmayılın Osmanlılar üzərinə yürüşü haqqında xəbərlər gələcək. Demək, onlar da belə bir məlumatın gələcəyi təqdirdə savaşa hazır olmalı idilər. Ancaq Sultan Bəyazidin yanına – yəni birbaşa sultanın hüzuruna gedib-gələn şəxslərin qeyri-adi

təmkinindən də şübhəli qalmışdılar; deyəsən, Sultan II Bəyazid müharibəyə hazırlaşana oxşamırdı.

Həqiqətən də Sultan Bəyazid aramsız müharibələrdən bezmişdi. Ən başlıcası, hiss edirdi ki, Qızılbaşlarla savaş ona heç bir fayda gətirməyəcək. Ola bilərdi ki, Qızılbaşların indiki yüksələn nüfuzu və getdikcə güclənən ordusu onun canlı qüvvələrini həm psixoloji, həm də hərbi cəhətdən darmadağın eləsin.

Sultan II Bəyazid Şah İsmayılla münasibətləri kəskinləşdirməkdənsə, onunla dil tapmağı, əsaslı sülh şəraitində qonşuluq münasibətləri qurmağı üstün bildi. Hələ Sultan belə bir düşüncədəykən, onu da yaxşı görürdü ki, bir çoxları Qızılbaşlarla sülh qurmağı düzgün hesab etməyəcək… Amma həyatın öz diktəsi vardı. Sultan II Bəyazid sezirdi ki, Qızılbaşların günəşi doğmaqdadır, bu günəşin işığı parlaqdır. Ətrafdan nə qədər ağ, ya qara, buludlar olsa bu günəşin önünə doğru sürünsə də, onun işığını batırmaq gücündə deyil. Hansı bulud bu günəşin önünə doğru sürünsə, tezliklə yağış olub yerə hopacaq. Bəlkə heç izi-tozu da qalmayacaq. Ona görə də Sultan II Bəyazid divan adamlarının narahatlıqlarını, nigaranlıqlarını görsə də, əhəmiyyət vermir, üstünü vurmurdu.

Şah İsmayılın hüzuruna gedəcək ağıllı bir elçi haqqında düşünür və bu elçi ilə Şah İsmayıla sülh təklifini də göndərmək niyyətindəydi.

1503-cü ilin sonuna yaxın təlatümlü Osmanlı sarayında bu hal yaşanırdı.

Bunun əksinə, Qızılbaşların sakin olduğu Şiraz sarayında yüksək əhval-ruhiyyə, nikbin ovqat vardı. Çünki Sultan Murad məğlub olmuş və üstəlik, qorxaqlıqla Qızılbaşların nüfuz dairəsinə aid ərazilərdən sürətlə baş götürüb uzaqlaşmağı son çıxış sanmışdı.

O zaman Sultan Muradın məqsədi Diyarbəkir tərəflərə özünü yetirmək, Əlaüddövləylə Şah İsmayıl arasındakı münaqişədən

bəhrələnərək, ona sığınmaq, yaxud da Diyarbəkir tərəfdə əmisi oğlu Əlvənd Mirzənin tərəfdarları ilə birləşmək idi. Özü də bu birləşmənin və tərəf toplamanın mahiyyəti nə qədər güclü olsa da yığacağı qüvvənin Qızılbaşları yenə bilmək qüdrətində olmadığını anlayırdı. Ona görə də Sultan Murad Allaha yalvarırdı ki, Şah İsmayıl onu təqib etməsin, onun arxasınca düşməsin. Keçmiş Ağqoyunlu səltənətinin gözdən-qulaqdan uzaq bir güşəsində başını daldalayıb, ömrünü başa vursun. Heç Şirazda qalan sərvətinin Qızılbaşların əlinə keçməsindən də dilxor deyildi. Çünki belə sərvət Ağqoyunlu səltənətinin çox yerində cəmləmişdi. Və Sultan Murada yaxın qüvvələr tərəfindən mühafizə olunurdu. Bəli, Sultan Murad yaxşı bilirdi ki, hansı tərəfə üz tutsa, maddi cəhətdən arxayınlığı olacaqdı. Hələ üstəlik yeri düşdükcə Şirazdakı sərvətinin əlindən çıxdığını, İraqdakı təntənəsinin dağıldığını yada saldıqca, başına, gözünə də döyürdü. Özünü qınayırdı ki, niyə vaxtında anlamadı ki, onun günəşi batmaqda, Şah İsmayılın günəşi isə doğmaqdadır.

…Ara-sıra ona xəbər çatırdı ki, Ağqoyunlu hökmdarının soyundan olanlar, burada söhbət Uzun Həsənin nəvə-nəticələrindən gedir – Qızılbaşların şiə təriqətini qəbul edir, Şah İsmayılın tərəfinə keçirlər. Bundan qəzəblənsə də, son nəticədə onların düzgün yolda olduqlarını etiraf etməsə də, qəlbən razılıq edirdi.

Sultan Murad peşmançılıq içində qovrulurdu. Axı, nə üçün vaxtında onun, bəsirət gözü bağlanmışdı. Vəziyyət düzgün qiymətləndirməmişdi. Nə etmək olar? Sonrakı peşmançılıq…

…İbrahim Mirzənin başçılığı altında at-dəvə karvanı Şiraza yetəndə, günün batmağına xeyli vardı.

Şah Hüseyn bəy Lələ Şamlıya tapşırıq vermişdi ki, Təbrizdən gələn karvanı böyük təntənə ilə qarşılasınlar.

Hələ karvan şəhərə daxil olmamış, böyük bir təntənə, çalçağır qurulmuşdu. Sarayın xərci hesabına küçələrdə bayram süfrələri açılmışdı. Qərib ellərdən gələnlər, qələbə sorağıyla olan

qonşu əyalətlərin söz sahibləri minbir naz-nemətin düzüldüyü süfrələrə dəvət olunurdular. Əsas meydanlarda Qızılbaşların qələbələrini tərənnüm edən ozanlar oxuyurdu. Ozanların oxuduğu nəğmələr təmiz türk dilində idi. Saz havalarının sədaları altında cəmləşən adamlar sanki öz niyyətlərinin, arzularının bayramına yığışmışdılar. Ozanlar Şah İsmayılın qoşma və gəraylılarını oxuyur və bu qoşma və gəraylılardan gələn havacatla sanki, Qızılbaş sevdalılarına daha xoş bir gələcək haqqında müjdə verirdilər.

Bir tərəfdə də, xanəndələr aram-avazla Şah İsmayılın qəzəllərini müxtəlif muğam havaları üstündə zilə çəkirdilər.

O yerdəki qəzəlin möhür beytində Xətai, yaxud da Şah Xətai adı səslənirdi, ətrafa yığılmış adamların alqış sədaları göyə bülənd olurdu:

– Var olsun Şah Xətai!

– Yaşasın mürşidimiz!

– Başımız qurbandı mürşidimizə!

Şah İsmayıl Sultan Murada xas olan Şiraz sarayının eyvanında əyləşmişdi. Muğam məclisinin ən mötəbər müğənnilərindən biri də elə sarayın yaxınlığındakı meydanda idi. İstər-istəməz şah adamların şən səslə onun adını çəkib elədiyi alqışları açıq-aydın eşidirdi.

Şahın eşitdiyi bu alqış sədalarından qəlbi riqqətə gəldi, yerindən qalxdı, asta-asta daş pillələri endi. O, xanəndənin yanına getmək istəyirdi. Məsafə isə çox qısa idi. Birdən ağlına nə gəldisə, göz gəzdirib kimisə nəzərləriylə axtardı.

Hüseyn bəy Lələ Şamlı şahın nigaran baxışlarını göydə tutub ona yaxınlaşdı.

– Kimi istəyirsən, şahım!

– Bu xanəndələri, sazəndələri, ozanları eşidirsənmi? – Şah soruşdu.

– Bəli şahım, eşidirəm, – Hüseyn bəy Lələ Şamlı cavab verdi.

– Lələ, bu nə xidmətdir belə?! – Şah sınayıcı nəzərlə Hüseyn bəy Lələ Şamlının üzünə baxdı və sonra sorğusunu davam elədi, – Bunların bizim işimizə nə faydası var?

Bir anlığa Hüseyn bəy Lələ Şamlı duruxdu. Nə cavab verəcəyini bilmədi. Elə həmin andaca xanəndənin oxuduğu qəzəli şahın da diqqətlə dinlədiyini görüb, özü də qulaq kəsildi:

*Dilbəra, mehrin əzəldən sidq ilə canımda var,*
*Andan özgə kimsə yoxdur, həm bilür pərvərdigar.*

*Bu fəna darində əhli-zövq ilən qılgil səfa,*
*Mülki malü təxtü cah olmaz cəhanda payidar.*

*Sayeyi – qəddində gərçi yer yüzi buldu şərəf,*
*Sayəbani – rifətindən nöh fələk dutmuş qərar.*

*Gəlməmişdir sən təki aləmdə, ey sultani – hüsn*
*Sahibi – fəzlü kəmalü izzəti ba iftixar.*

*Arif isən, qoymagil əldən həqiqət mənzilin,*
*Aqil isən, dinyeyi – ğəddarə verme ixtiyar.*

*Nəzmi – əşarın, Xətai hər biri dürdanədir,*
*Söyləgil ta şahların guşində olsun güşvar.*

Hüseyn bəy Lələ Şamlı «Nəzmi əşarın, Xətai, hər biri dürdanədir» misrasını eşidəndə sanki, yuxudan ayıldı. Dönüb şahın dolmuş gözlərinə və heyranlıqla xanəndəyə zillənən həyəcanlı baxışlarına nəzər saldı. Hüseyn bəy Lələ Şamlı özünü saxlaya bilməyib, körpəliyindən öz övladı kimi böyütdüyü İsmayılı qucaqladı.

– Sənə qurban olsun canım, şahım – dedi, – sonra sözünə yenə davam elədi: – Sənin hər bir kəlmən qızıldır. Mən indi başa düşdüm ki, Qızılbaş ordusu cüzi qüvvəylə özündən qat-qat güclü olan qoşunlara nə üçün qalib gəlir.

– Bəli, bizim gücümüzün yenilməzliyində hökmdarın ilahidən bədahətən gələn sözlərinin də təsiri az deyil.

– Bəs onda nə düşünürsən? – Şah soruşdu.

– Düşünürəm ki, Qızılbaşlar qazandıqları qənimətlərin xeyli hissəsini ozanlara, xanəndələrə, bir sözlə, sazəndələrə ödəməlidir.

– Mən elə bunu istəyirdim.

Hüseyn bəy Lələ Şamlı yaxındakı qulluq adamlarına şəhərin çal-çağırında iştirak edən, ozanlara və sazəndələrə, tanınmış muğam ifaçılarına şahın adından ənam paylanmasını əmr etdi.

Carçılar Şiraz boyu ağız-ağıza vermişdi. Bundan sonra bütün ozanlar, xanəndələr Şahın himayəsində olacaq. Az sonra camaat Şiraz darvazasına tərəf axışdı. Hər tərəfə xəbər yayıldı: «Təbrizdən karvan gəlir».

Şah bu xəbəri əvvəldən bilirdi. Amma, sanki, elə indicə eşidirmiş kimi sevincdən ürəyi atlandı. O, sevgilisi Taclı bəyimlə görüşəcəkdi…

* * *

Hüseyn bəy Lələ Şamlı Şahın hər ötən anına göz qoyur, diqqət kəsilirdi. Bəzən, Şah İsmayıl Hüseyn bəy Lələ Şamlının həddindən artıq diqqətcilliyindən, onu nəzarətdə saxlamağından diksinir, pəjmürdə olurdu. Az qala bir neçə dəfə Hüseyn bəy Lələ Şamlıya onu izlədiyinə görə iradını bildirmək istəmişdi. Ancaq buna yol verməmiş, hirsini boğmuşdu. Çünki, o, gözünü açanda, Hüseyn bəy Lələ Şamlını ata əvəzi sanmışdı. Hələ ağlı kəsəndən sonra görmüşdü ki, Hüseyn bəy Lələ Şamlı dəfələrlə Aləmşah bəyimi oğlanları ilə birgə ölümlə üz-üzə gələrək müdafiə eləmişdi. İsmayıl da, qardaşları da təqiblərdən qaçıb qurtulmaq üçün bəzən Hüseyn bəy Lələnin və bir neçə başqa müridin müşayətilə gecələr at üstündə hərəkətdə olmuş, əyalətdən-əyalətə köçmüşdülər.

Aləmşah bəyim oğlanlarını qucağına çəkib başlarını sığallayır, təqiblərin həyəcanını gizləyir, Hüseyn bəy Lələ Şamlını göstərib

onlara təskinlik verərdi. İndi bütün bunlar hamısı İsmayılın yaddaşında çözələnir, birər-birər xəyalına gəlirdi. O, da xəyalındakı Hüseyn bəy Lələnin ətəyindən tutub onun qucağına qalxmaq istəyir, arzusunu gözündə qoymur, başını sinəsinə sıxır, nəvaziş göstərirdi…

Bütün bunları İsmayıl necə xatırlamaya bilərdi? Elə bu səbəbdən də Hüseyn bəy Lələ Şamlının gördüyü işlərin heç birisinə sorğu-sual yox idi.

Doğrudur, bir dəfə Şah İsmayıl Təbrizdə olarkən, Həşt-behişt sarayının bağçasında lələsi ilə qarşılaşmalı olmuşdu. Taclı ilə axşam çağı hər vaxtkı görüşünə çıxmışdı. O, Taclıya yaxınlaşmaq istəyərkən, qız səksənmişdi. Bir-iki addım geri atıb dayanmış, heyrətlə ətrafa nəzər salmışdı. Gənc şah qılıncı çəkib, ağaclar arasında səs gələn tərəfə cummuşdu. Və qarşısında Hüseyn bəy Lələ Şamlını görmüş, xəcalətdən matı-qutu qurumuşdu.

– Lələ, bu sənsən?

– Bəli, qurbanın olum mürşidim, mənəm.

– Lələ, onu bilirsənmi ki, mən indi uşaq deyiləm?

– Bilirəm, şahım.

– Bəs onda…

– Bilirəm, Şahım, qəzəblənirsən ki, mən səni izləyirəm.

– Hə, elədir.

– Şahım, bəla böyükləri daha asan yerdə yaxalayır, nəinki kiçikləri.

– Deyirsən, hələ də sarayın içində təhlükə var?

– Ehtiyatlı igidin anası ağlamır, şahım!

O vaxt Hüseyn bəy Lələ Şamlı Ağqoyunluların bəd niyyətli adamlarının Təbrizdə gizlin dolaşdıqlarını Hüseyn bəy Lələ Şamlı bilirdi və bu barədə divanda kifayət qədər söhbət olmuşdu. Bundan sonra bir neçə şübhəli şəxsi tutub sorğu-sual etmişdilər. Amma, əsaslı bir səbəb ortaya çıxmamışdı.

İndi Hüseyn bəy Lələ Şamlı Şirazda Sultan Muradın sarayında yenə Şeyx Heydərin oğlunu, yəni, İsmayılı gözdən qoymurdu. Əslində Hüseyn bəy Lələ İsmayılla İncəbelin görüşünə razılıq verəndə, şahın düçar olduğu eşq bəlasını yüngülləşdirmək məqsədi güdmüşdü. Lakin bu sevda baş tutmamışdı. Çünki, şah Taclı bəyimə sonsuz sevgi bəsləyirdi. Və indi onun gəlişini səbirsizliklə gözləməkdə idi. Hüseyn bəy Lələ də Şahın belə tez eşq sevdasına düçar olmasını şübhəsiz, heç pis də qarşılamırdı. Ancaq dövlət işlərinin belə gərgin çağında bunu, «vaxtından əvvəl gəlmiş bahar» hesab edirdi.

Şahın divan işlərinə gəlməməsi, son hadisələrin Səfəvi əmirlərinin iştirakı ilə müzakirə olunmaması, təkcə Hüseyn bəy Lələni yox, elə digər əyanları da nigaran qoymuşdu. Yenə əmirlər, Şahın yanına Hüseyn bəy Lələ Şamlının göndərilməsini məsləhət bilmişdilər?

Səhər çoxdan açılmışdı. Hava buludlu olduğundan vaxtın günortaya yaxınlaşması hiss olunmurdu. Hüseyn bəy Lələ Şamlı xeyli tərəddüddən sonra Şahın istirahət hücrəsinə girdi. Şah diz üstə xalçanın üstündə oturmuşdu. Qabağında lələk qələm, davat vardı. Çox sürətlə nəsə yazırdı. Hüseyn bəy Lələ Şamlının içəri daxil olmasından heç xəbəri olmadı. Birdən başını qaldırıb Hüseyn bəy Lələ Şamlını gördü, təəccüb qarışıq nigaranlıqla onun üzünə baxdı. İlk ağlına gələn bu oldu ki, bəlkə Təbrizdən gələn karvanın başında bir iş var. Çünki, Şah bilirdi ki, hər vaxt onun yanına icazəsiz ancaq Hüseyn bəy Lələ Şamlı gələ bilər. Hüseyn bəy Lələ Şamlı da vacib bir məsələ olmasa, yersiz narahat etməzdi.

Şah yazmağı dayandırdı. Qarşısındakı qələm, kağızı bir tərəfə çəkdi.

– Lələ gəlişi həmişə xeyir xəbər gətirib, bu dəfə də gümanlıyam ki, xeyirli gəliş olar.

Şah bunu desə də, nigaranlığını gizlədə bilmədi. Hüseyn bəy Lələ Şamlı da onu intizarda çox qoymadı.

– Başım qurban olsun mürşidimə. Heç bir bədlik yoxdur. Təbrizdən gələn karvan bu gün axşama yəqin Şiraza çatar.

Şah karvan məsələsindən arxayın oldu.

– Bəs onda nə əcəb Hüseyn bəy Lələ Şamlı bizi ziyarət edib?

– Başım qurban olsun mürşidimə. Karvan gəlir, şahın doğmaları, əzizləri də içində. Gözləntisi də mübarək qədəmləri ilə şahın intizarına son qoyacaq. Bu da yəqin xeyli vaxt aparacaq.

– Təcili görüləsi nə iş var, Lələ?

– Doğrusu, şahı narahat etməkdə məqsəd budur ki, əmirlərlə bir müşavirə keçirilsin. Əgər təzə yürüş olacaqsa, hərbi hazırlıq işlərinə soyuq münasibət olmaz. Yox əgər..

Hüseyn bəy Lələ Şamlı sözünün gerisini gətirmədi. Gözlədi ki, Şah münasibət bildirsin.

Şah yerindən qalxıb otaqda gəzişirdi. O, Hüseyn bəy Lələnin dediklərinə sanki əhəmiyyət vermirmiş kimi dilləndi:

– Lələ, doğrusunu bilmək istəsən, əgər bizi müharibəyə çəkən olmasaydı, mən bundan sonra qılıncımı qınından çıxarmazdım. Son bir ildə Əlvənd Mirzəylə, Sultan Muradla, digər bizə düşmən kiçik əyalət başçıları ilə nə qədər savaşlarımız olub. Biz nə qədər qırğından keçmişik, nə qədər qan tökmüşük. Özün yaxşı bilirsən, bizim Qızılbaşlar nə qədər təlafat verib. Axı, bu ölən insanların hər biri bir ailənin övladıdır. Döyüşdə həlak olan hər kəsin arxasınca analar ağlayır, bacılar göz yaşı tökür, çoxlarının uşaqları yetim qalır.

Hüseyn bəy Lələ Şamlı gördü ki, Şah bu sözləri dedikcə, necə əzab çəkir, necə dərdli-dərdli, yana-yana, yaxıla-yaxıla danışır. Ona elə gəldi bir az da gec dillənsə Şah hönkür-hönkür ağlayacaq. Ona görə də özü Şaha yaxın getdi, əlini əvvəlcə onun çiyninə qoydu, sonra əlini mehribancasına üz-gözündə gəzdirdi.

Şah Hüseyn bəy Lələnin əllərinin hərarətini üzündə, gözündə boyun-boğazında hiss etdikcə, uşaqlıq çağlarında qalmış Lələsinin təmasını təzədən hiss elədi. Sanki az qala yaddaşından si-

linməkdə olan atasının xəyalı Hüseyn bəy Lələ Şamlının timsalında gözlərinin önündə göründü.

– Şahım, başımız sənə qurban olsun. Böyük bir məmləkətin gözünü dikdiyi pənahı sənsən. Biz hamımız ən ağır döyüşə də sənin adınla gedirik. Adın çəkiləndə, Qızılbaşların qoluna qüvvət gəlir, dizlərinə təpər… Biz hamımız sənin simanda təkcə özümüzün yox, bütün məmləkətin xilaskarını görürük.

– İndi məsləhətin nədir Lələ? – Şah qısaca soruşdu. Özü də deyəsən Lələdən cavab istəmək fikrində də deyildi.

Hüseyn bəy Lələ Şamlı başa düşdü ki, son savaş şahın qələbəsi ilə, Sultan Muradın biabırçılıqla döyüşdən qaçmasıyla qurtarsa da, meydanın qan gölünə dönməsi, insan qırğını Şahı pis sarsıdıb. Ona görə başa düşdü ki, şahı təzədən döyüşə çəkmək, yenə hərbi yürüş hazırlığına təhrik etmək, işin xeyrinə deyil. O, açıq-aşkar hiss elədi ki, bir müddət hərbi yürüşlərə fasilə vermək vacibdir.

Hüseyn bəy Lələ Şamlı tərəddüd eləyirdi. Belə vəziyyətdə şahı tək qoyub getmək də istəmirdi. Ancaq başa düşürdü ki, Şaha vacib istirahət lazımdır.

– Başım qurban olsun sənə, hökmdarım, axşama qədər karvan gələr, qardaşınla, ananla görüşərsən. İnanıram ki, əhvalın da düzələr. Bircə o var ki, dövlətin işlərini məsləhət bildiyin aqil vəzirlərdən birinə həvalə et, qoy divan işlərini hələlik onlar özləri aparsınlar.

Şah başını qaldırdı və Hüseyn bəy Lələnin üzünə razılıqla baxdı. Bunu Hüseyn bəy Lələ Şamlı da hiss elədi, anladı ki, digər vacib məsələləri də elə buradaca həll etmək olar: – Şahım, Əmir Zəkəriyyə xeyli yaşlaşıb, dövlət işlərini idarə etmək getdikcə onun üçün çətin olur. Qoy, Xacə Şərafəddin bu işlərdə onun yardımcısı olsun.

– Şahım, buradan çox uzaqda yerləşməyən Qum şəhərinə yerimizi dəyişsək, daha yaxşı olar. Həm iqlim, həm də təhlükəsizlik baxımından Qum, Şirazdan daha əlverişlidir.

Qum haqqında Şah İsmayılın xəbəri vardı. Qışı Qumda keçirməyin üstünlükləri haqqında bir gün öncə Əmir Zəkəriyyə ilə də söhbət eləmişdi. İndi Hüseyn bəy Lələ Şamlının qış istirahətini Qumda keçirtmək təklifini eşidəndə yenə dərhal razılığını bildirdi:

– Bəli, Təbrizdən gələn karvanı qarşılayaq. Bir-iki həftə ötsün. İnşallah Quma köçərik, qışı da orada qalarıq.

– Allah Şahımızın zəkasını hər vaxt işıqlı eləsin, ağlının dəryası o qədər aşıb-daşsın ki, bizim də yolumuz qaranlığa düşəndə ağlının, zəkasının sayəsində hərəkət edək faydalanaq.

Şah Hüseyn bəy Lələ Şamlının dualarından xoşhal olduğunu başının razılığı ilə bildirdi. Hüseyn bəy Lələ Şamlı gördü ki, bayaqkı çöhrəsi tutqun olan şahın əvəzində, indi ruhu özünə qayıtmış, ağıllı gözləriylə dünyanı seyr edən cavan, müdrik hökmdar baxır.

– Hə, Lələ az qala unutmuşdum, karvan əhlinin hədiyyələrini də hazırlayın. Hər kəs öz adına layiq mükafatı alsın.

Hüseyn bəy Lələ Şamlı daha müharibə qovğaları haqqında danışmağı artıq saydı. Çünki Sultan Murad uzaqlara çəkilmişdi. Hətta, Hüseyn bəy Lələ Şamlı öyrənmişdi ki, Sultan Muradın ətrafında qalmış yeddi min nəfərlik qoşunun da çoxu fərarilik etmiş, yanından qaçıb dağılmışdılar. Belə köməksiz və miskin vəziyyətdə qalmış Sultan Murad çətin bir də döyüş üçün geriyə qayıdaydı. Bircə Xorasan tərəflərdən nigarançılıq vardı, daha bunu da Şaha deyib onun əhvalını pozmaq istəmədi.

Onsuz da bundan sonra Hüseyn bəy Lələ Şamlı nə danışsa da, Şahın xəyalı uzaqlarda olduğundan heç onu eşitməyəcəkdi. Elə Hüseyn bəy Lələ də anlayırdı şahın hazırda fikri-zikri Təbrizdən gələn karvanın yanındadır, o, karvanın üstü ilə uçur, qanad gərir ehmalca, Taclını müşayiət edir, qoruyur… Həqiqətən Hüseyn bəy Lələ Şamlı şahın nəbzini tutsaydı, onun necə həyəcanla döyündüyünü, ürəyinin çırpındığını hiss edərdi.

Birdən Hüseyn bəy Lələ şahın sağ qolundan tutdu.

– Gedək, şahım. Təbrizdən gələn karvan indilərdə Şiraz şəhərinin möhtəşəm darvazalarına yetişər.

Bayaqdan Şah İsmayıl özü bunu dilinə gətirmək istəyirdi. Odur ki, təklif ürəyindən xəbər verdi. Ona görə də məsum pıçıltıyla – «gedək», – dedi…

* * *

Şah İsmayıl Sultan Muradla savaşlarından sonra ölkənin hüdudlarını xeyli genişləndirmiş, daxildə ara-sıra baş qaldıran qiyamçılarla da asanlıqla hesablaşmalı olmuşdu. Ancaq, bu sakitliyin çox da çəkməyəcəyini anlayırdı. İndi Təbrizdəki Həşt-behişt sarayındakı taxtında əyləşib ölkədə baş verən olayları birər-birər xəyalından keçirirdi. Bir neçə il əvvəl Xorasan hakimi, şair Hüseyn Bayqara ilə görüşü də indi bütün təfərrüatı ilə yaddaşında canlanırdı.

Mazandaran tərəfdə Məhəmməd Kərrənin üsyan qaldırması Xorasanın əzəmətli sarayının sütunlarını az qala silkələmişdi və üstəlik, təkcə Xorasan hakimini yox, Qızılbaş ərazilərini də hədələməkdən çəkinməyən Məhəmməd Kərrə iştahının daha da artacağını öz hərəkətləri ilə bəyan edirdi.

Şah İsmayıl tərəddüd etmədən öz qoşunları ilə Məhəmməd Kərrənin üstünə yeridi.

Məhəmməd Kərrə isə bəlkə, heç hadisələrin bu qədər ciddi şəkil alacağını da düşünmürdü. Amma anlamışdı ki, o, iki qüvvənin arasında qalıb. Bir tərəfində Sultan Hüseyn Bayqara, bir tərəfində Səfəvi hökmdarı Şah İsmayıl. Onların arasından necə çıxacağını düşünən Məhəmməd Kərrə ciddi savaşa cəsarət etmədi. Döyüş meydanını tərk edərək savaşdan yayına bildi.

Şah əlini alnına çəkdi, deyəsən, düşüncələrini bir anlıq rəvanlamaq, ötüb-keçənləri yaddaşına daha yaxşı gətirmək niyyətində idi: «Amma Məhəmməd Kərrənin bir xeyri oldu. Mən hərəkətə

keçib hörmətli Hüseyn Bayqara ilə görüşə bildim. Bəlkə, tale bizi başqa məqamda düşmən kimi qarşılaşdıracaqdı. Amma o vaxtkı vəziyyət bizim dostcasına görüşümüzə yol açdı»…

Şah sanki, həmin görüşü bütün təfərrüatı ilə gözlərinin qabağına gətirmişdi.

– Sultan Hüseyn Bayqara sözün, sənətin keşikçisidir. – Şahın bu sözləri, deyəsən, Hüseyn Bayqaranın xoşuna gəldi. Razılıqla başını tərpətdi.

– Bəlkə də elədir. Amma düşünürəm ki, sözü, sənəti yaratmaq daha üstün bir mərtəbədir.

Şah başa düşmüşdü ki, Hüseyn Bayqara onun özünü nəzərdə tutur:

– Sultanın bu sözləri o qədər gözəldir ki, deyərsən, söz çəməninin qızıl gülləri kimi təravətlidir.

– Şah sağ olsun, bizim mərtəbəmizə dəyər verdiyinə görə, təşəkkür edirəm.

– Əlbəttə, hörmətli Sultan, sözü, sənəti qoruyan olmasa, heç onu yaradan da olmaz.

Sultan Hüseyn Bayqara, bəlkə də, ömründə ilk dəfə ali sözün ucalığına ürəkdən dualar eləyirdi. Yaxşı bilirdi ki, Şah İsmayıl onun sözünə, sənətinə böyük ehtiram göstərir. Odur ki, bu məclis ona görə baş tutmuşdu ki, çünki, o, Xətainin könül oxşayan qəzəllərini çox sevirdi. Yoxsa bu məclis baş tutmasaydı savaş meydanlarında əllər boş qalacaq, başlar yerdə dığırlanacaqdı. İndi bu qan-qadaların qarşısını alan sözə, sənətə Sultan Hüseyn necə minnətdar olmaya bilərdi.

Sultan əlini ağarmış saçlarına çəkdi, sonra da üzündə, gözündə gəzdirdi. Onun ağappaq nurlu sifəti var idi. Ağarmış qaşları, bığı və saqqalı da sanki üzünün işığını bir az da artırırdı.

Sultan qarşısındakı cavanı bir də süzdü, onun timsalında sanki ötmüş gəncliyini gördü. Bir ata ünsiyyəti ilə başını qaldırıb gənc şaha sevgiylə baxdı.

– Bəlkə, şair Xətai bir qəzəlini oxusun.

– Müdrik Sultan Hüseyn Bayqaranın hüzurunda hələ sənət meydanında bişməmiş bir gənc şair necə qəzəl oxusun?

Sultan Hüseyn Bayqara gənc şahın cavabından lap şövqləndi. Yaşının imkan verdiyi müdrikliklə dilləndi:

– Bəlkə, istedadına layiq bir qəzəl oxusun, həm də istedadının imkan verdiyi bir gücdə.

Xətai atası yerində bu kişinin səmimiyyətindən elə şövqləndi ki, sanki ruhuna qanad gəldi. Xəyalı bir anda göyləri pərvaz elədi. O da qarşısındakı bu müdrik insanı, böyük şair – hökmdarı, söz-sənət himayədarını vəsf edirmiş kimi misralarını əvvəlcə ahəstə, sonra isə uca bir şövq ilə, həyəcanla oxudu:

*Gəl könül, pir istəyəli bir qədim ərgan ilə,*
*Gerçək oldur həq yoluna varə başu can ilə.*

*Canı tərgin qılmayan cananə vasil olmalıdı,*
*Qul gərək kim, məhrəm ola həzrəti – Sultan ilə.*

*Qəhrinə şükür eylgil kim, hər sana rəhm eyləyə,*
*Həm qərin olmuş əzəldən küfür din iman ilə.*

*Öldürən sən, dirildən sən, saxlayan sənsən,*
*həkim Yox olmuş bir səndən özgə ayəti – Quran ilə.*

*Bu Xətai ta əzəldən eşqinə yoldaş idi,*
*Könlünü şad eyləyibdir sən kərəmlü xan ilə.*

Sultan Hüseyn Bayqara birinci özü dilləndi:

– Afərin, şair Xətai! – Sultan Hüseyn Bayqaranın bu sözlərinin arxasınca hər iki tərəfin böyük çəmənlikdə qərar tutmuş adamları yer-yerdən alqış sədalarını göylərə ucaltdılar. Bir anda təvənzirlər guruldadı. Bir qara zurna sədası ilə qızılbaşları cuşa gətirən musiqi səsləndi.

Sonra da yer-yerdən yenə səslər gəldi:

– Var olsun Şahımız!

– Var olsun Sultanımız!

Sultan Hüseyn Bayqara bu şövqlü əhvaldan sanki kövrəldi. Elə bil ki, xəyalən ilk gəncliyinə qayıtdı. Və həm də, sanki təəssüf elədi yaşının belə tez keçməyinə.

Bu vaxt Sultan Hüseyn Bayqaranın yaşı altmışı, hakimiyyətdə olduğu zaman isə qərinəni çoxdan keçmişdi.

Sultan hiss elədi ki, yenə qəlbi sözlə doludur və o yenə nəyisə demək istəyir. Və hiss elədi ki, Xətai də ondan nə isə xoş bir kəlam gözləyir. Yəqin ki, əlini elə nə isə demək üçün yuxarı qaldırdı. Hər tərəf sükuta qərq oldu. Hər kəs onu dinləmək üçün aram olmuşdu. Sultan üzünü Xətaiyə tutdu:

– Sözün qılıncından kəsərlidir, – dedi, – sonra da şahın gənc çağında böyük əraziləri asanlıqla rəqiblərindən təmizləyərək qüdrətli dövlət yaratdığını düşünüb əlavə elədi, – heç qılıncın da sözündən aşağı deyil. Afərin olsun Şah Xətaiyə!..

Sultan Hüseynin bu sözləri də alqışlarla qarşılandı. Böyük ziyafət başlandı. Həmin vaxt Şah İsmayıl Sultan Hüseyn Bayqara ilə Şərqin böyük sənətkarları haqqında söhbət elədi. O da öz növbəsində sultana təşəkkür elədi ki, böyük söz-sənət adamlarını hifz eləyir, onları qoruyur.

Şah Xətai, xüsusilə, Əlişir Nəvainin Nizamidən sonra böyük sənət sahibi olduğunu yada saldı. Və onu da Sultan Hüseyn Bayqaraya bildirdi ki, əgər Sultan Hüseyn Bayqara olmasaydı, heç Əlişir Nəvai də belə ucalara yüksələ bilməzdi.

Birdən Sultan Hüseyn Bayqaranın yadına sanki nəsə düşdü. Şah Xətainin belə səmimi münasibəti də Sultanı çox təsirləndirmişdi. Elə bu səbəbdən də sanki Xətai ilə olub keçənləri xatırlamaq ona çox xoş təsir bağışlayırdı:

– Şah Xətainin ata-babalarının kim olmağını mən yaxşı bilirəm. Şahın özü də elə ata-babalarının adına layiq bir övladdır. Ancaq mənim yadıma burada daha mühüm bir əhvalat düşdü. – Sultan

Hüseyn bunu dedi və susdu. Hətta bunu bir az şahın diqqətindən yayındırmaq da istədi.

Şah Xətai, deyəsən, bunu başa düşdü. Hər halda özündən yaşca böyük, ata-babalarının ünvanına xoş söz deyən hikmət sahibi Hüseyn Bayqaranın könlünə toxunmamaq üçün bir az yumşaq əhvalla dilləndi:

– Bəlkə, hörmətli Sultan ibrətli bir sözünü bizdən əsirgədi, bəlkə, bizim üçün onun sözünün dünyaların xəzinəsinə bərabər olduğunu unutdu.

– Yox, yox, Şahım, – Sultan yenə dayandı, – bu dəfə cavan hökmdara «Şahım», – deyə xitab etməyinin üzərində düşünürdü. Amma, bu sözü elə könül xoşluğu ilə demişdi ki, daha onun üzərinə qayıdıb müraciətinin mahiyyətini dəyişmək istəməzdi.

Şah Xətai Sultan Hüseyn Bayqaranın mənəvi dünyasını sanki güzgü kimi görürdü. Tam aydın başa düşürdü ki, nə hökmdarlıq təkəbbürləri, nə dünyanın maddi varidatı bir qərinədən çox hökmranlıq etmiş bu kişinin varlığına sirayət edə bilməyib. Bu, şahı sevindirirdi. O, Sultan Hüseyn Bayqaranı indiki məqamda özünün gələcəyi kimi təsəvvür edirdi. Ona görə də Sultanı doğma bir əda ilə süzərək.

– Sultanım, əgər istəyirsən ki biz sənin hikmətindən axıracan feyziyab olaq, onda gərək qəlbindən keçənləri açıq deyəsən. Sultan düşünməsin ki, onun demək istədiklərinin hər hansı biri bizim əhvalımıza uyğun gəlməz.

Elə bu səbəbdən də Sultan Hüseyn Bayqara Şahin müraciətinə təbinə uyğun davam elədi:

– Bəli, şahım, mən qarşımda dünya elmlərinin dərinliklərinə vara bilən bir cavanla üzbəüzəm. Xüsusilə, Şah Xətainin mənəviyyat elmlərinə vaqif olması məni çox sevindirir.

– Biz də Sultanı ustadların ustadı bilirik. Onun deyəcəyi hər bir söz bizim yaddaşımızın mirvari dənələri olacaq.

Sultan Hüseyn Bayqara çox hökmdarlarla qarşılaşmışdı. Dünyanın müxtəlif yerlərindən gələn elçilərlə görüşmüşdü. Hər kəs öz niyyətinə görə qiymətli hədiyyələr gətirmişdi. Amma bu gün gənc şahla üzbəüz əyləşərək, dünya nemətlərindən çox üstün olan belə bir mükalimədə olmaq ona daha xoş idi. Hüseyn Bayqara nəzərlərini dolandırıb hər tərəfi süzdü. Xəyalı, deyəsən, onu haralarasa aparırdı. Amma, Şah Xətainin onu intizarla gözlədiyini gördüyündən axır ki, mətləb üstə gəldi:

– Bir zaman bəxtinin, taleyinin dönüklüyündən inciyən Kişvəri yazmışdı ki, «Kişvəri şeiri Nəvai şeirindən əskik iməs, Gər düşəydi bəxtinə Sultan Hüseyn Bayqara».

– Mən bilirəm bu əhvalatı. Ağqoyunlu səltənəti elə ona görə dağıldı ki, Uzun Həsənin ən yaxşı ənənələrini varislər qoruya bilmədilər.

– Şahım, düşünürəm ki, Tanrı səni ona görə böyük türk aləminə bəxş edib ki, hikmət çəmənini öz qayğınla becərəsən.

Şah İsmayıl əyləşdiyi yerdən ayağa qalxdı. Bayaqdan bəri keçmişə doğru bu xəyali səyahət ona sanki bir gümrahlıq gətirdi. O vaxt ömrünü bitirməkdə olanda Hüseyn Bayqara ilə görüşünün son anları da gözlərinin önündən keçdi.

Sanki, o müdrik baxışlar Türk dünyasını Şah İsmayıl Xətaiyə əmanət edirdi.

* * *

…Və Şah İsmayılın yaxın keçmişi səyahət edən xəyalı Sultan Hüseyn Bayqaradan ayrıla bilmirdi. Baxmayaraq ki, Hüseyn Bayqaranın ölümündən az qala iki ildən də çox vaxt keçmişdi. Şah olub-keçənləri xəyalından keçirdikcə bəzi məqamlara təəssüf də edirdi. Bu bəzi məqamlardan elə birincisi, Sultan Hüseyn Bayqaranın ölümündən sonra da onun səltənətinə toxunulmazlıq vədini pozmaması idi. Şah yaxşı bilirdi ki, onun Sultan Hüseyn Bayqaraya sədaqəti, əslində, Sultanın xanədanının şimal özbəklərinin

hakimi Məhəmməd Şeybani xanın xarabazarlığa çevirməsi ilə nəticələnmişdi. Bununla da Məhəmməd Şeybani xan ölkəsinin sərhədlərini o qədər genişləndirmiş, böyütmüşdü ki, gəlib Səfəvi səltənətilə həmsərhəd olmuşdu.

Şaha əsəbilik gətirsə də olub-keçənlərin yaddaşında təzədən çözülməsini sanki özü istəyirdi. Şah olub-keçənləri xatırlamaqla Şeybani xanla özü arasındakı münasibətlərə bir aydınlıq gətirmək istəyirdi.

Şeybani xan hələ qədərincə güc toplamamışdı. Ancaq çevik atlı dəstələriylə şimal özbəklərini başına toplayaraq ətraf əyalətləri çapıb-talayır, karvan yollarına nəzarət qoyur, bu cür çapovulçuluqla sərvətlərini artırmağa çalışırdı. O, bir neçə dəfə istəmişdi ki, Sultan Hüseyn Bayqaranın üzərinə hücuma keçsin. Ancaq sultanın qüdrətli Səfəvi hökmdarı ilə məhəbbətli münasibəti az qala ata-oğul sədaqətində görünən ittifaqı onu öz fikrindən çəkindirirdi. Məhəmməd Şeybani xanın ağzı göydə idi. O, səbirsizliklə Sultan Hüseyn Bayqaranın ölümünü gözləyirdi. 1506-cı ilin yaz günlərində artıq altmış səkkiz yaşlı Sultan Hüseyn Bayqara xəstə yatırdı. Xəstəlikdən qalxa bilməyəcəyini başa düşmüşdü. Oğlanlarını yanına çağırdı. Əvvəlcə səltənətinin keçmişi haqqında danışdı. Çingiz xana qədər gedib çatan ulu babalarının qudrətini, dünyaya meydan oxuyan güclərini yada saldı. Xüsusilə, Teymurləngin böyük səltənətindən qalan dövlətin gələcəkdə də qorunması üçün onlara məsləhət verdi. Üzünü varislərinə tutub son sözlərini dedi:

– Əgər istəsəniz ki, ölkəniz toxunulmaz, başınız salamat olsun, onda gərək hər biriniz böyük qardaşınıza əminliyinizi bildirəsiniz.

Varislər ölüm yatağında olan atanın sözlərindən xoşlanmasalar da, bir söz demədilər. Ancaq hər kəsə aydın oldu ki, Sultan Hüseyn Bayqara hakimiyyəti böyük oğlu Bədiüzzaman Mirzəyə verdi. Elə həmin gün günəş qürub edərkən Sultan Hüseyn Bayqara da gözlərini yumdu.

Ətraf əyalətlərdən Sultan Hüseyn Bayqaranın ölümü münasibətilə başsağlığına gələnlərin ardı-arası kəsilmirdi. Qırx mərasiminəcən hər kəs sultana ehtiramını bildirməyə tələsirdi. Şərqin böyük şairləri Sultan Hüseyn Bayqaranın vəfatından təsirlənərək kədərli qəsidələr də yazırdılar.

Şah İsmayıl Qazi Nurullah Əfəndini yanına çağırdı:

– Bilirsən ki, Sultan Hüseyn Bayqara dünyanın ən müdrik hökmdarlarından biri idi. Onun ölümü ilə sanki günəş də öz parlaqlığını itirib. Əgər biz ona ehtiram göstərməsək, onda gələcək nəsillər də bizi hörmətlə xatırlamazlar.

– Başımız sənə qurban olsun, şahım. Mən biləni Sultan öz yerinə böyük oğlunu varis təyin edib. Amma…

Qazi Nurullah Əfəndi sözlərini tamamlamasa da, şaha məlum idi ki, o, varislər arasındakı inciklikdən danışmaq istəyir. Ona görə də özü Qazi Nurullah Əfəndini bəri başdan xəbərdar elədi:

– Bilirəm, nə deyəcəksən. Ancaq sən sultanın varislərinə bizim başsağlığımızı yetirərsən, hədiyyələrimizi də çatdırarsan.

– Baş üstə, şahım, – Qazi Nurullah Əfəndi təzim elədi. Ona elə gəldi ki, söhbət qurtardı.

Şah əlini qaldırıb qaziyə aram olmasını işarə elədi:

– Məni yaxşı dinlə. Bilirsən ki, şimal özbəklərinin hakimi Məhəmməd Şeybani xan Hüseyn Bayqaranın sultanlığını hər vaxt təhdid edir, onun sərhədlərini pozur, əyalətlərini çapıb talayırdı.

– Blirəm, şahım, neçə ki, Sultan Hüseyn Bayqara sağ idi, o, cəsarət edib Xorasan tərəflərə hücum edə bilmirdi. Yəqin ki, indi fürsət gözləyəcək.

Şah Qazi Nurullah Əfəndinin çevik düşüncəsindən xoşlanmışdı. Elə əslində, onu yanına çağırmağı da təsadüfi deyildi. Qazi Nurullah Əfəndi Azərbaycanın şimal tərəflərindən – Şəki əyalətindən idi. Ancaq gəncliyində Türküstan tərəflərə səyahət etmişdi. Buradakı türk tayfalarının da xasiyyət və adət-ənənələrini, dillərini də mənimsəmişdi. İndi Qazi Nurullah Əfəndi həmin

yerlərə təzədən getməli olarsa, daha ətraflı məlumatla qayıda bilərdi.

Şah ayağa qalxıb Qazi Nurullah Əfəndinin yanına gəldi. Onun qolundan tutub həyətə açılan qapıya tərəf apardı. Əlini uzadıb uzaq üfüqləri göstərdi:

– Bax, gör, biz haracan yaxşı görürük?

Qazi Nurullah Əfəndi şahın göstərdiyi səmtə baxdı. Yaxın ətraflar açıq-aydın olsa da, bir az aralıda sıxlaşmış buludlar sanki yerə çökmüşdü. Daha uzağı görmək mümkün deyildi.

– Bəli, şahım, biz buludlara qədər görə bilirik. Dumanlıqlar gözümüzə sərhəd çəkir.

– İnsan mühitini nə qədər aydın görə bilirsə, bir o qədər də düzgün qərarlar qəbul eləyir. İndi sən Xorasandan bizə dürüst məlumatlar gətirməlisən. Xüsusilə… – bu dəfə də şah sözünün gerisini demədi. Sınayıcı nəzərlərlə Qazi Nurullah Əfəndini süzdü. O, sanki Qazi Nurullah Əfəndinin fəhmini bir daha yoxlamaq istəyirdi.

Qazi Nurullah Əfəndi də bunu başa düşdüyündən cavabı çox gecikdirmədi:

– Bəli, şahım, Tanrı sənin qılıncının ağzını dünyanın axırınacan çevirməsin. Sözün, hikmətin tükənməsin.

Şah Qazi Nurullah Əfəndinin dediklərinə gülümsəməyi ilə münasibət bildirdi. Hiss etdi ki, Qazi Nurullah Əfəndi, əslində, onun nə dediyini yaxşı bilir.

Qazi Nurullah Əfəndi də şahın məmnun qalmağını görüb bir az da fərəhləndi, özünə inam və güvənclə dedi:

– Bəli, şahım, mən bilirəm ki, şahımızı daha çox Xorasana diş qıcayan Məhəmməd Şeybani xanın əməlləri maraqlandırır. Onun niyyətlərini qabaqcadan bilmək, planlarından xəbər tutmaq çox vacibdir.

– Doğrudur, Qazi Nurullah Əfəndi, əgər Məhəmməd Şeybani xan Sultan Hüseyn Bayqaranın səltənətini zəbt etmək fikrinə

düşsə və buna nail olsa, onda bu həddini bilməyən tamahkar xanın sərhədləri bizim məmləkətə gəlib çatacaq.

Şah təzədən Qazi Nurullah Əfəndinin qolundan tutub içəriyə qayıtdı. Daha söhbəti çox uzatmayıb:

– İndi hazırlaş, gərək yola düşəsən. Həm də unutma ki, sən bir tacir sifətində gedəcəksən. Orada alış-verişini tam qurtarandan sonra qayıdarsan.

Daha şah Qazi Nurullah Əfəndiyə axırıncı sözlərinin mənasını izah etməyə lüzum görmədi. Heç Qazi Nurullah Əfəndi də bunun nə demək olduğunu şahdan soruşmadı. Çünki hər ikisinə mətləb aydın idi.

...Qazi Nurullah Əfəndinin Xorasana gedib-qayıtması çox çəkdi. Az qala altı ay vaxt keçdi. Bu vaxt ərzində şahın razılığı və Hüseyn bəy Lələ Şamlının məsləhətiylə ayrı-ayrı çaparlar Qazi Nurullah Əfəndinin arxasınca gedib qayıtmışdılar və onun sağ-salamat olmağı haqqında xəbərlər gətirmişdilər. Qazi Nurullah Əfəndi onu axtarıb tapan Təbriz çaparlarına yalnız bircə söz demişdi: «Hələ alış-verişi qurtarmamışam. Ticarət işlərimi gərək görüb qurtarım ki, mən də Vətənə dönüm».

Şah Qazi Nurullah Əfəndinin bu sözlərinin mənasını yaxşı anladı. Bildi ki, Qazi Nurullah Əfəndi gecikməkdə Sultan Hüseyn Bayqara səltənətində baş verən hadisələri izləmək məqsədini güdür. Hələ üstəlik, yəqin ki, Məhəmməd Şeybani xanla da bağlı dəyərli məlumatlar öyrənməkdədir.

Şah bütün bunları xəyalından keçirdikcə hiss edirdi ki, əgər bir zaman Sultan Hüseyn Bayqaranın bir-birilə didişən oğullarını hakimiyyətdən kənarlaşdırmaq və onlara dinc, sakit yaşayış təmin etmək, əslində, Sultan Hüseyn Bayqaranın ruhuna hörmət olardı. Çünki o vaxt Qazi Nurullah Əfəndi şaha dəqiq və aydın məlumat yetirmişdi ki, Məhəmməd Şeybani xan heç Sultan Hüseyn Bayqaranın ölümünün ilini də gözləməyəcək. Biz tezliklə eşidəcəyik ki, o, Heratı və Xorasanı zəbt edib.

Şah bu sözləri ondan eşidəndə çox əsəbiləşdi. Hətta istədi ki, Hüseyn bəy Lələyə ciddi hərbi səfərə hazırlaşmağı əmr etsin. Ancaq bu biri tərəfdən Zülqədər Əlaüddövlənin sakit durmaması, Diyarbəkir tərəflərdə həddini aşması haqqında xəbərlər onu fikrindən daşındırdı.

Bu, o zaman idi ki, Səfəvilərin mükəmməl hərbi dəstələri Qarabağ ətrafında şuluqluq salanları sakitləşdirmək üçün səfərdə idi.

Hüseyn bəy Lələ Şamlı şahın narahatlığından özü də pəjmürdə olmuşdu. O da bilirdi ki, eyni vaxtda iki tərəfdən hərbi səfər etmək olmazdı.

Beləcə, Məhəmməd Şeybani xanın bəxti gətirmişdi.

Səfəvi qoşununun iki adlı-sanlı sərkərdəsi – Nizaməddin Dədə bəyin və Şücaəddin Lələ bəyin başçılıq etdiyi qüvvələri Qarabağdan Diyarbəkir tərəfə hərəkəti haqqında sərəncam göndərdi.

Şah İsmayılın fikri bu idi ki, tezliklə Əlaüddövlə Zülqədər bəyin iqtidarı qırılar, ölkənin qərb sərhədlərində əmin-amanlıq yaranar və bundan sonra Məhəmməd Şeybani xan üçün tədbir görmək mümkün olar. Ancaq baş verən hadisələr işin gedişini yenə dəyişdi. Şah qardaşı Sultan İbrahimi və Hüseyn bəy Lələ Şamlını yanına çağırdı. Onlar hadisənin gedişini müzakirə etməli oldular.

Hüseyn bəy Lələ Şamlı görürdü ki, şah çox əsəbilik keçirir. Belə məqamlarda nəinki qardaşı, heç bir divan üzvü belə, şaha nəsə deyə, məsləhət verə bilməzdi. Yenə ümid Lələ bəyə qalırdı.

– Canımız sənə fəda olsun, mürşidimiz. Gün axşam olanda qaranlıq gəlir, özü ilə bir kədər də gətirir. Amma düşünəndə ki, yenə sabah olacaq, yenə günəş doğacaq, yenə aləm nura qərq olacaq, onda insanın qəlbinə fərəh dolur. Sən niyə qəmlənirsən ki?!. Allahın qüdrətindən Səfəvi qoşunlarının sayı-hesabı yoxdur.

– Hüseyn bəy Lələ Şamlı, bir Allah şahiddir ki, hər vaxt könlüm kədərə qərq olanda sənin sözlərin mənə təskinlik olur. Elə indi də sənin axşam və səhər haqqındakı fikirlərin həqiqətən mənə xoş

təsir elədi. Əlaüddövlə Zülqədər bəyin hiyləsinə tuş gəlmiş adlı-sanlı sərkərdələrimizin qisasını almağı sabaha qoya bilmərəm.

Hüseyn bəy Lələ Şamlı başa düşdü ki, şah səfərə özü hazırlaşmaq istəyir. Elə dillənib onu fikrindən daşındırmaq üçün bir söz demək istəyirdi ki, şahın qardaşı Sultan İbrahim qalxıb təzim etdi və qətiyyətlə dedi:

– Babalarımızın ruhuna yalvarıram ki, şahın könlünə rəhm salsın. O, da mənə izin versin ki, Əlaüddövlə Zülqədər bəyin üstünə özüm gedim.

Səfəviləri hədələyən yeni bir güclü dövlət artıq öz sərhədlərini Şah İsmayıl xanədanının sərhədlərinə qonşu eləmişdi. Məhəmməd xan Şeybani şimal özbəklərinin qüvvələrini birləşdirərək, hətta özbəklərə dəxli olmayan ərazilərə də hücum elədi və onların hər birini asanlıqla özünə tabe etdi. Qalırdı Sultan Hüseyn Bayqaranın əraziləri… Məhəmməd xan Şeybani öz niyyətini Sultan Hüseyn Bayqaranın ölümündən sonra gerçəkləşdirmək üçün qılıncını sıyırdı. O, hiss edirdi ki, Xorasan əyalətini zəbt etmək üçün ən yaxşı zaman gəlib çatıb. Çünki Sultan Hüseyn Bayqaranın oğulları bir-birilə dil tapa bilmirdi. Qüvvələrini birləşdirmək, ümumi düşmənə qarşı birgə müqavimət göstərmək onların heç ağıllarına da gəlmirdi. Beləliklə, Məhəmməd xan Şeybani Xorasan əyalətinin mərkəzi sayılan Heratı çox asanlıqla fəth elədi. Və əlbəttə, bununla da kifayətlənmədi, bütün Xorasanı zəbt etməyincə qılıncını qınına qoymadı.

…Heratda saray məclisi qurulmuşdu. Məhəmməd xan Şeybani tünd qırmızı şərab dolu piyaləni başına çəkdi. Cəhənglərindən üzü aşağı süzülən şərab qırmızı qan rəngində idi və kənardan baxana elə gəlirdi ki, Məhəmməd xan piyalə dolu qanı başına çəkib və cəhənglərindən süzülən də elə bu qandır. Xan xumarlanmış gözlərini ətrafa dolandırdı, piyaləni qarşısındakı süfrəyə atdı. Piyalənin dibində bir az da şərab qalmışdı. Bu şərab süfrəyə dağılanda Xan uzun, ancaq seyrək saqqalını sol əli ilə sığalladı. Aya-

ğa qalxsa da,ləngər vururdu. Hiss olunurdu ki, şərab onu tutub. Amma buna baxmayaraq, qayıdıb yerində əyləşmək istəmirdi. Yaxında olanlar da xanın müvazinətini itirəcəyindən ehtiyatlanaraq ayaq üstə, ona dayaq durmaq istəyində müntəzir idilər. Axır ki, xan sağ əlini düyünləyib yuxarı qaldırdı.

– Bu yumruğu görürsünüz? Bunun zərbəsi çox ağırdır. Sultan Hüseyn Bayqaranın xanədanını bu yumruq necə qısa müddətdə darmadağın elədi. Biz Sultan Hüseyn Bayqaranın oğullarını işıqlı dünyadan məhrum elədik. İndi necə ola bilər ki, dünənin uşağı bizim hüzurumuza gəlib diz çökməkdən imtina etsin.

Əlbəttə, Məhəmməd xan bu sözləri deyəndə Şah İsmayılı nəzərdə tuturdu. Elə bu səbəbdən də qəzəbini də gizlətmirdi. Bu vaxt xanın kiçik qardaşı Şahibəy ona yaxınlaşdı:

– Xan, sən öz fəthnaməni göndər. Qoy fəthnaməni oxusun, bəlkə, onda ağlı başına gələr.

Qardaşının bu sözlərindən sonra deyəsən, Məhəmməd xanın dumanlanmış düşüncəsi bir qədər aydınlaşdı. Özünü cəmlədi, sonra üzünü yenə qardaşına tutdu, – onda de, qoy mirzələr yaxına gəlsin.

Bir anda saray mirzələri hazır oldu. Sərxoşluğu açıq-aşkar bilinən Məhəmməd xan fikrindən keçənləri sadaladı. Aradabir dili dolaşıb sözləri qarışdırsa da, mirzələr onun danışığının məzmununu, mahiyyətini tutmağa çalışırdılar.

Məhəmməd xan Şeybani dediklərinə qəzəb donu geyindirsə də, o, istəyirdi ki, həm gücünü bildirsin, həm də qonşu ölkələrin hökmdarlarına çatdırsın ki, əgər başlarını salamat saxlamaq istəyirlərsə, Məhəmməd xan Şeybaniyə bac-xərac verməlidirlər. Hər cür əmr və göstərişlərini yerinə yetirməlidirlər. Çünki o, qabağına çıxan bütün ölkələri fəth eləyib. Məhəmməd xan Şeybani sözünü qurtarıb yenə əlini saqqalına çəkdi. Süfrədə ağzı üstə çevrilmiş badəyə baxdı. Əlini uzatdı, şərab paylayanlar başa düşdülər ki, xan yenə içmək istəyir, ona şərab süzdülər.

Şahibəy özü piyaləni götürüb qardaşına verdi. Xan piyaləni başına çəkməmiş xumarlanmış gözünü dolandırdı və dedi: – Bu, fəthnamədir, qoy bu fəthnaməni alan hər kəs təcili mənim hüzuruma gəlsin.

Mirzə elə beləcə də yazırdı: «Hər kəs bizi görməyə və bizə səcdə etməyə gəlsə, bizim yanımızda yüksək mərtəbəyə layiq görüləcəkdir. Kim gəlməsə, peşman olacaqdır».

Məhəmməd xan Şeybani axırıncı piyaləni də içəndən sonra yenə yumruğunu düyünləyib amiranə dedi: – Elə bu gün göndərin bu fəthnaməni. Qoy Ərdəbil şeyxinin oğlu yaxşı-yaxşı oxusun, – Məhəmməd xan bu sözləri dedi. Heç özünün xəbəri olmadan gözləri yumuldu. Şərab onu elə ayaq üstəcə öz ağuşuna almışdı. Adamlar xanı qucaqlayıb məclisdən apardılar. Hər kəs yaxşı bilirdi ki, xan hələ bu xumarlıqdan bir neçə gün ayılıb divana gələ bilməyəcək.

Şah İsmayıl Məhəmməd xan Şeybaninin fəthnaməsini alanda artıq Səfəvilərin qılıncı Əlaüddövlə Zülqədər xanın başında çatlamışdı. Onun üç yüz əlli min nəfərlik qoşunu Səfəvi döyüşçülərinin qarşısında duruş gətirə bilməmişdi. Bir gün ərzində döyüşdə yüz əlli min nəfər həlak oldu. Dağ çayını keçə bilməyən elə bir o qədər Zülqədər qoşunu da tələfata uğradı. O, güc-bəla ilə qoşununun tör-töküntüsünü bir yerə yığıb qaçmağa üz qoydu.

Şah İsmayıl bu döyüşdə qardaşı Sultan İbrahimin böyük güc göstərməsini, qəhrəmanlığını qürurla anırdı. İndi onun üçün Məhəmməd xan Şeybaninin fəthnaməsini oxumaq elə də ağırlıq gətirmirdi. O, Məhəmməd xanın fəthnaməsini istehza ilə qarşılasa da ona cavab yazmaq fikrində deyildi.

Hüseyn bəy Lələ Şamlı düşündü ki, Şeybaniyə cavab yazmaq ən azı ona görə vacibdir ki, döyüşün vaxtını bir qədər uzatmaq mümkün olsun.

– Biz Şeybani ilə qarşılaşacağımız təqdirdə nə üçün ona məktub yazıb hələ bir oyaq da salmalıyıq.

Şah Hüseyn bəy Lələ Şamlının gözünün içinə baxdı. Sualına onun necə cavab verəcəyini gözlədi.

Hüseyn bəy Lələ Şamlı ayağa qalxıb şaha təzim elədi:

– Mürşidim, bütün döyüşlərimiz ona görədir ki, Səfəvi xanədanı təhlükəsizlik içində olsun. Qoşunlarımız Zülqədər xanla döyüşdən təzə çıxıb. Vaxt qazanmaq bizim faydamız olar.

Şah başı ilə razılıq etdi. – Demək, biz məktub yazmalıyıq, eləmi? – dedi.

– Bəli, bəli, məktub şah əzəmətinin, qürurunun rəmzidir, – Hüseyn bəy Lələ Şamlı cavab verdi.

– Onda son qələbələrimizi də qeyd edin və məktubu divanda oxuyun.

Elə həmin gün çapar Məhəmməd xan Şeybaninin sarayına yola düşdü. O, Şah İsmayılın Məhəmməd xana məktubunu aparırdı. Məktubda yazılmışdı:

«Nizaməddin Dədə bəy və Şücaəddin Lələ bəy kimi etibar etdiyim bəzi əmirləri əzəmətli qoşun və çoxlu döyüşçü ilə Əlaüddövlə Zülqədəri dəf etmək üçün Qarabağdan Diyarbəkirə göndərmişdim. Həmin Əlaüddövlə onları qəfil haqlamış, hücum edərək pərən-pərən salmışdır. Təqribən üç yüz min döyüşçü ilə Fəratı keçmişdir. Xəbər bizə çatan kimi taleyin ondan üz döndərdiyini düşündük. Əli övladlarına qarşı çıxan məğlub olar. Belə ki, Allahın köməyi ilə çərşənbə günü sübh çağı on dörd min adlı-sanlı nizə atanla qələbə miniyinə mindik. Bizimlə düşmən arasında qırx fərsəng məsafə var idi. Ertəsi gün Fərat çayını keçdik. Yolda ikən həmin namərdlərlə qarşılaşdıq. On iki imam eşqinə on iki min döyüşçü ayırdıq və on iki istiqamətdən hücum etdik. Qəhrəmanlar hamılıqla meydanda qışqırıb fəryad qopararaq «İmdada yet, ya Əli» deyirdilər. Düşmən ordusundan yüz əlli min namərdi qətlə yetirdik. Yüz əlli min namərd isə suda qərq oldu. Bir nəfər də sağ qalmadı. Bəxtiqara Əlaüddövlə otuz beş min namərdlə nəhayət ki, qaçmağa üz qoydu. Dörd fərsəx getdikdən sonra aldığı yara-

dan öldü. Qalanları Murad bəyə qoşulub qaçdılar. Qarabağdan izzət və qələbə ilə qayıtdıqdan sonra səmanın himayəsində olan xaqan Məhəmməd Şeybaninin sarayından rəğbətlə qarşıladığımız bir məktub aldıq. Məzmunu budur ki, Herat səltənətini ələ keçirdim, mərhum Sultan və rəhmətlik xaqanın övladlarını qətlə yetirdim. Ey dost, düşmən cənazəsini gördükdə sevinmə, çünki sənin də başına gələ bilər. Bu tərəfə gəlmək əzmində olduğunuzu bildirmişdiniz. Narahatlığa əsas yoxdur. Sultani Novruzdan sonra Allahın yardımı ilə cin və insanın sultanı, rəhbərlərin xaqanı, möminlik nümunəsi, haqq olan imam həzrəti Əli ibn Musa Rzanın – salam olsun ona – hərəminə doğru gələcəyik. Müqəddəs qəbrin ətrafına qoymaq üçün yetmiş batman cəvahiratla bəzədilmiş bir zərih hazırlamışıq. Biz müqəddəs Məşhəddə qələbə və fəth bayraqları qaldırmaqla təntənə ilə düşərgə salacağıq və Allah necə istəyirsə elə də olacaqdır. Heydərin ətəyindən yapış və rahat ol. Nuhun yanında olanın tufandan nə qorxusu?!»

…Çapar neçə gün idi ki, getmişdi. Amma Şah İsmayıl aram ola bilmirdi. Doğrudur, Məhəmməd xan Şeybaninin təmkinli və ağıllı bir cavabını da gözləmirdi. Şahı pəjmürdə hal edən məsələnin başqa tərəfi idi. Baxmayaraq ki, Şeybani ilə qarşılaşanda onun günəşini söndürəcəyinə inanırdı. Amma yenə müharibələrin tüğyan edəcəyini, qanların sel olub axacağını gözlərinin önünə gətirəndə varlığında bir rəhm, insani duyğu baş qaldırıb üsyan edirdi. Axı nə üçün hökmdarların iddiası günahsız insanların qanına bais olmalıdır? Halbuki elə indinin özündə Məhəmməd xan Şeybaninin ərazisi özünə kifayət edər…

Şah bunları düşünsə də, başqa bir məsələ də onu rahat buraxmırdı. O, sanki Sultan Hüseyn Bayqaranın tənəli baxışlarını da görür və məramını da anlayırdı: Məhəmməd xan Şeybani mənim yurdumu viran qoyub. O, cəzasız qala bilməz!

* * *

1504-cü il Şah İsmayıl üçün müharibə intizarında keçsə də, hər halda onun həyatında müsbət dəyişikliklər də oldu. Taclı bəyimlə onun toyu hələ payız başlamamış baş tutdu. Toydan sonra şah uzun müddət divan işlərilə məşğul olmadı. Bir çox əmirlərə elə gəlirdi ki, Səfəvi şahı daha hakimiyyət məsələlərilə maraqlanmır. Bu zaman artıq Qazi Nurullah Əfəndi də Məhəmməd xan Şeybaninin qəsb etdiyi Xorasan ölkəsindən geri dönmüşdü. Hüseyn bəy Lələ Şamlının iştirakı ilə Qazi Nurullah Əfəndinin Məhəmməd xan Şeybani haqqındakı söhbətləri dinlənilmiş, gətirdiyi məlumatlar çək-çevir edilmişdi. Hər kəsə gün kimi aydın idi, Məhəmməd xan Şeybani sərhədlərini Səfəvi sərhədlərinə çatdırmaqla kifayətlənmək niyyətində deyil.

Hüseyn bəy Lələ Şamlı Şah İsmayılı elə həmin gün Qazi Nurullah Əfəndinin danışdıqları haqqında məlumatlandırdı. Əlbəttə, bu, şahı daxilən qəzəbləndirsə də, öz hirsini büruzə vermədi.

Şah İsmayıl sanki iki od arasında qalmışdı. Anasının və yenicə evləndiyi Taclı bəyimin ondan təkidlə müharibələrdən əl çəkmək istəklərini unuda bilmirdi. Digər tərəfdən də artıq ona gün kimi aydın idi ki, tezliklə Məhəmməd xan Şeybaninin qan-qan deyən istəklərilə qarşılaşmalı olacaq. Əslində, Məhəmməd xan Şeybani ilə müharibənin ən yaxşı fürsət məqamı idi. Çünki qərb tərəfdən onun sərhədlərinə daim müdaxilə edən Əlaüddövlə Zülqədər bəyin qüvvələri darmadağın edilmişdi. Səfəvi sərhədləri Osmanlılarla yaxın qonşuluqda idi. Osmanlıların isə başı qərb istilalarına qarışmışdı. Görünən bu idi; hələ ki, Osmanlılar tərəfdən də təhlükə yoxdur.

Hüseyn bəy Lələ Şamlı şahın yanından təzəcə çıxmışdı. Şah ona tapşırdı ki, divanı yığsın və Şeyx Məhyəddin Lahicanini də dəvət etsin.

Şahın öz hücrəsində tənha olmağından xəbərdar olan Aləmşah bəyim onun yanına gəldi. Şah anasının hüzurunda ayağa qalxdı, irəli yeridi, məhəbbətlə ona baş əydi. Aləmşah bəyim də öz

növbəsində oğlunu həmişəki qayda üzrə qucaqladı, başını sinəsinə çəkdi.

Belə məqamlarda şah həmişə xəyallanardı. Onun düşüncələri bir anda keçmişə uçardı. İstəxr qalasındakı günlər yadına düşərdi. Ana oğlunu – körpə İsmayılı yerdə döşəkcə üstündə ayaqlarının arasına uzadar, sanki beşikdəymiş kimi yırğalayardı. Vaxt keçib İsmayıl böyüdükcə anasına çoxlu suallar verərdi.

Şahın yaddaşında keşmiş xatirələr çözələnirdi... O, bir dəfə anasından soruşmuşdu:

– Ana, sən laylay deyərkən nə üçün ağlayırsan?

Aləmşah bəyim kəlağayısının ucu ilə gözlərinin nəmini qurudar, üzünə çətinliklə də olsa, bir təbəssüm gələr və oğluna sanki nikbinliklə cavab verərdi:

– Mən ağlamıram, əziz balam, atanın sənə olan ümidləri üçün Allaha dua edirəm.

Şah ona görə keçmişdə qalmış bu mənzərəni təsəvvürünə gətirmişdi ki, yenə anasının üzündə həmin kədəri görmüşdü.

Sözü də elə Aləmşah bəyimin özü açdı.

– Oğlum, hələ ki, Tanrı bizim tərəfimizdədir. Ancaq unutma ki, bir gün onun da üzü dönə bilər.

– Bəs onda anam nə məsləhət buyurur?

– İstəyirəm ki, mümkün qədər müharibələrdən çəkinəsən. Təzəcə evlənmisən, mən istəyirəm ki, nəvələrim qorxusuz, təhlükəsiz böyüsün, Taclının da gözü yaşlı qalmasın. Sən hər dəfə müharibəyə gedəndə ürəyimin yağını yeyirəm.

– Yəqin ki, unutmamısan, əziz anam, Şeyx Heydər Səfəvi xanədanının şöhrətlənməsi naminə başını verib. Hələ ondan əvvəl babam Şeyx Cüneyd də bu yolun qurbanı olub. Mən də bu yoldan çəkinə bilmərəm.

– Yaxşı, oğlum, Tanrı qətiyyətinə dayaq dursun. Unutma ki, Məhəmməd xan Şeybani də güclüdür. İşlərini gərək ehtiyatlı tutasan.

Bu vaxt divandan xəbər gəldi ki, divan üzvləri toplanıb şahı gözləyirlər. Şah anasının saçlarına əllərilə sığal çəkdi. Onun alnından öpdü və sonra dönüb qətiyyətlə divana getdi.

Şah divana daxil olan kimi hamı yerindən qalxdı və təzim elədi. Şah öz yerinə keçib taxtında əyləşdi. Hər kəsə də əyləşməyi işarə elədi.

Birinci söz Hüseyn bəy Lələ Şamlıya verildi. O, qalxıb şaha təzim etdi və divan üzvlərini də bir-bir nəzərdən keçirdi.

– Mürşidimizin başı salamat olsun. Məhəmməd xan Şeybani sarayından gələn məlumatlardan öyrənmək olur ki, o, bizimlə barışıq və sülh ilə qonşuluq niyyətində deyil. Hətta öz niyyətlərini də gizlətmir.

Divanda xeyli müzakirə getdi. Məlum oldu ki, hələlik Məhəmməd xan Şeybanini Səfəvi sərhədlərinə soxulmaq üçün on min nəfərlik qoşunu hazırlanır. Bu hazırlıq işlərinin neçə aya başa gələcəyini də təxmin elədilər. Nəhayət, şah deyilənlərə yekun vurdu.

– Mənim fikrimcə, Məhyəddin Lahicani Məhəmməd xan Şeybani ilə görüşsə yaxşı olar. O, həm bizim məramımızı, əqidə yolunda qətiyyətimizi ona çatdırar, həm də qüvvə sarıdan aciz olmadığımızı da bildirər.

Hüseyn bəy Lələ Şamlı divandakı ərkindən istifadə edib dilləndi: – Əgər Məhəmməd xan Şeybani düşünsə ki, biz onunla döyüşdən çəkinirik və bunu da qorxudan edirik, onda daha da quduzlaşar.

Şah Hüseyn bəy Lələ Şamlının dediyi sözü qəzəbqarışıq bir duyğu ilə qarşıladı:

– Sən eşitməmisənmi, quduran öz ətrafını dalayar.

Hüseyn bəy Lələ Şamlı başa düşdü ki, şahın məramı aydındır, o, öz fikrində qətidir. Ona görə də şahın deyəcəyini gözlədi. Şah gözlərini dolandırıb Məhyəddin Lahicaninin üzərində saxladı:

– Elə bu gün Məhyəddin Lahicanı Herata yola düşər. Qoy gələcək nəsillər bilsinlər ki, biz Məhəmməd xan Şeybani ilə öz istəyimizlə döyüşməmişik. Onsuz da müharibə qaçılmaz olacaq. Amma nə qədər zaman keçsə də, həqiqəti hər kəs doğru-düzgün biləcək. Həqiqət elə bir şeydir ki, onu uzun müddət gizli saxlamaq olmaz.

…1510-cu ilin əvvəllərində Məhəmməd xan Şeybaninin sarayında Səfəvi elçiləri Xorasan hökmdarının hüzurunda ayaq üstə dayanmışdılar. Hətta Məhəmməd xan Şeybani ümumi elçiləri qəbul etmək qaydalarına da əməl etməmiş, elçilərə əyləşmək üçün yer də göstərməmişdi.

Məhəmməd xan Şeybani nəhayət ki, elçiləri qəbul etdikdən sonra onları bir-bir nəzərdən keçirib nisbətən irəlidə durmuş Lahicaniyə üz tutdu:

– Belə düşünürəm ki, hökmdarınız hörmətli bir zatı yanıma göndərməklə səhv əqidədə olduğunu etiraf etmək istəyib. Yəqin ki, tezliklə şiəliyi tərk edib həqq yoluna dönəcək.

Şeyx Məhyəddin Lahicani Məhəmməd xan Şeybanini hökmdara yaraşmayan hərəkətindən, davranış və danışığından elə həmin andaca anladı ki, bu adamla heç bir barış və sülh mümkün olmayacaq. Demək, qalır bircə mümkün qədər onun təhqiramiz davranışlara yetərincə cavab verib geriyə dönmək. Ona görə də əlini sinəsinə qoyub yüngülcə təzim elədi:

– Şahımız bizə buyurdu ki, sizə onun salamlarını yetirək. Səfəvi xanədanının sizlərə heç bir zərər vurmayacağını çatdıraq. Və bunun müqabilində sizlərdən də barış və sülh görək.

Məhəmməd xan Şeybani qarşısındakı kişinin ağıllı və dürüst cavabından xoşlanmadı. Əksinə, daxili bir qəzəb hissi keçirdi. Qəzəbini tam boğa bilməsə də, bir az özünü yığdı. Çənəsindən üzü aşağı sallanan təkəmseyrək saqqalını dartışdırdı:

– Mən tezliklə Məkkəni ziyarət edəcəyəm. Gözləyirdim ki, şah özü hüzuruma gəlib təzim edəcək, bu yolda mənə köməyi-

ni əsirgəməyəcəyini bildirəcək. Axı o, əqidə yolundan çoxdan azıb.

Şeyx Məhyəddin Lahicani Şeybani xanın azacıq sükutundan istifadə edib ona cavab vermək fürsətini buraxmadı:

– Mən bilirəm ki, babalarınız sırasında Çingiz xandan başlayan yolun haradan gəlib haraya getdiyini hər kəs yaxşı bilir. Onu da yaxşı bilirsiniz ki, qılıncların bir gün kəsərdən düşən vaxtı da olur. Əgər belədirsə, Məhəmməd xan Şeybani də tarixin ibrətindən qədərincə məlumatlı olar.

– Şeyx həzrətləri uzaq yolu ona görə basıb gəlib ki, bizə burda tarix dərsi keçsin? Mən deyirəm ki, Qızılbaşların əqidə yolu məzhəbdən dönməkdir. Qoy şiəliyi şah da, onun ölkəsi də tərk eləsin.

Məhyəddin Lahicani güclə seziləcək istehzalı bir təbəssümdən sonra Məhəmməd xan Şeybani ölkəsinin şiə təriqətində olan çoxlu hörmətli şeyxlərinin adını çəkdi və sonra Məhəmməd xan Şeybaninin ətrafındakı adamları bir-bir nəzərdən keçirib sözünün gerisini dedi:

– Əgər həqiqətən şiəlik yolu mürtədlikdirsə, onda bu məşhur şeyxlərlə hökmdar necə davranır?

Məhəmməd xan Şeybani qarşısındakı arıq və çəlimsiz, yaşı çoxdan yetmişi haqlamış, amma gözlərinin işığı inamla parlayan qocanı bir də başdan-ayağa süzdü:

– Şeyx həzrətlərinin hüzurumdakı cəsarətini onun yaşına bağışlayıram. Qoy, başını həddini aşmış İsmayılın hüzuruna salamat aparsın. – Hökmdar bunu dedi və üzünü yana çevirdi. Sanki bununla çatdırmaq istədi ki, söhbət qurtarıb.

Əslində, Şeyx Məhyəddin Lahicani də başa düşdü ki, daha bundan sonra nəsə danışmaq odla oynamaq kimi bir şeydir. O, yaxşıca anlayırdı ki, Məhəmməd xan Şeybani üçün heç bir adət-ənənə müqəddəsliyi yoxdur. Bu adam bir anın içində göstəriş verər ki, elə buradaca onun başını üzüb torbaya qoyar və göndərər Şah İs-

mayıla. Amma Məhəmməd xan Şeybaninin axırıncı sözlərini də cavabsız qoymaq istəmirdi. Mürəxxəs olmaq üçün icazə adı ilə dilləndi:

– Şah bizə tapşırdı ki, böyük Çingiz xana ehtiram olaraq hökmdara onun nəslinin davamçısı kimi hörmətimizi qoruyaq. Ancaq hökmdara mürəxxəs olmaq icazəsindən əvvəl onu da demək istərdim ki, şah bizim təkcə hökmdarımız deyil, həm də mürşidimizdi. Onun yolunda nəinki elçi düşmək, hətta sükut vadisinə getmək də, qaranlıqlar aləminin qapısından keçmək də bizə şərəfdir.

Məhəmməd xan Şeybani qəzəblə yerindən qalxdı. Unutmuşdu, ya nə isə, bəlkə də, qəzəbini cilovlamaq üçün idi ki, sağ əli hələ də saqqalından yapışıb onu dartışdırırdı. Axır ki, bütün qəzəbi ilə bağırdı:

– Gedin, şahınıza çatdırın ki, tezliklə adıma sikkələr basdırıb, səfərimə yardım göstərməsə, yolum Səfəvi səltənətinin düz ortasından keçəcək. Bunu unutmayın. Başınızı da ona görə salamat aparırsınız ki, bizim həşəmətimiz haqqında hökmdarınızı daha yaxşı məlumatlandırasınız.

Şeyx Məhyəddin Lahicani təmkinini pozmadan yüngülcə təzim edib geri döndü. Digər elçilər də çıxdılar. Ancaq uzun müddət qəzəbnak baxdı.

Məhəmməd xan Şeybaninin saralmış çürük dişlərini gördüyü kimi uzun müddət yadından çıxarmadı. Şeyx Məhyəddin Lahicaniyə elə gəldi ki, Şeybani xanın çürük dişləri ilə onun səltənətinin saxta əzəməti arasında bir bənzərlik var. Qalanını tezliklə Şah İsmayıla çatdırmaq üçün elçilər elə həmin gün Vətənə yola düşdülər.

* * *

Bu il Xorasanın yazı bir az tez gəlmişdi. Ağaclar hələ Novruzdan biraz keçməmiş tamam çiçəyə dolmuş, tumurcuqlar çox-

dan çırtlamışdı. Günəşin hərarətli şüaları qarı əritmiş, ayrı-ayrı dərələrdəki sısqa bulaqların suyu gurlaşmışdı. Qışın soyuğundan çıxmış çöl qorxa-qorxa yer altından çıxan yaşıllığa sinə açmışdı. Bənövşələr kol dibində çoxdan ətrə dolmuş, göy-bənövşəyi ləçəkləri ilə gözoxşayan görkəm almışdı.

Təbiət sanki sərt qışın məngənəsindən çıxmağına sevinirdi. Ayrı-ayrı ərazilərdə dovşanlar yuvalarından çıxıb yaxın əhatədə çöl-çəmən içində atılıb-düşür, hərdən də xoşladıqları otlardan qırpırdılar.

Yaxşı bir çəmənlikdə dovşanlar ayrı-ayrı tərəflərdə yuvalarından baş çıxarıb asudə nəfəs almaq, günəşin hərarətindən qızınmaq, təzə otlardan yemək istəyi ilə çəmənlik içinə girmişdilər. Aralıdan baxan olsaydı çəmənliyin içində ara-sıra, təkəmseyrək görünən dovşanları elə bu yerin, yurdun sahibi kimi görərdi. Dişi dovşanlar həm ətrafda ot yeyir, həm də yuvadan kənara çıxa bilməyən balaları üçün keşikçilik edirdi. Balalar gözləyirlər; indi ana südlə dolu döşü ilə pay gətirəcək. Hələ erkək dovşanların da qayğısı az deyil. Yuva ətrafında hərlənirlər. Əgər bala dovşanlar üçün bir təhlükə olarsa, həmin andaca özlərini fəda etməyə hazır olarlar.

Erkək dovşanlar balaların olduğu yuvaların əhatəsindən xeyli aralıda bir-birini görə biləcək ərazilərdə ot qırpır, yemlənir… həm də əsas işlərini – gözətçilik işlərini də unutmurdular. Amma ana dovşanlar bir az aralıya da gedir, daha şirəli yemlər axtarır, daha çox qida almaq, yemək tapmaq və həm də daha çox süd yığmaq, balalarını doyurmaq üçün vaxtı boşa keçirmirdilər.

Dovşanlıq çəmənindən çox da uzaq olmayan ərazidə safsarların da yuvası vardı. Safsarlar dovşandan boyca balacadı. İri çöl dovşanları ilə müqayisədə safsarlar az qala bir dələ kimi görünürdülər. Dovşanlar hündürdür, daha canlıdır, daha iridir, safsarlar nazik, uzundu, yırtıcı dişləri ilə yapışdığını asanlıqla buraxmır. Baxmayaraq ki, boyca balacadırlar. Tülküsayaq uzun

quyruqları da var, amma asanlıqla iri dovşanları ovlamaq gücündədirlər.

Bu vaxt dovşanlıq çəməninin ətrafından keçən Qızılbaş ordusunun başçısı İbrahim Mirzənin diqqətini qəribə bir hadisə cəlb elədi. Safsar iri bir dovşanı qovurdu. Bir az da keçdi. İbrahim Mirzə maraqla baxmağa başladı; görəsən, bu nazik uzun safsar balaca sincab görkəmi ilə iri, nəhəng dovşanı necə tutacaq? Ümumiyyətlə, tuta biləcəkmi? Onun məqsədi nədir?

Az keçmədi ki, İbrahim Mirzə meşə yolundan keçən hissədə atını saxlayıb baxdığı mənzərə onu dəhşətə gətirdi. İri dovşan çox sürətlə qaçır, safsar isə onu təqib edir. Qaça-qov xeyli davam elədi. Dovşan istiqaməti dəyişib digər dovşanın yanından keçəndə həmin dovşan qaçmağa başladı. Bayaqdan təqib olunan dovşan dayanmışdı. İndi safsar növbəti dovşanı təqib edirdi. Amma buna baxmayaraq, safsar dovşanın uçurumdan atlanışı zamanı büdrəməsindən istifadə edib ona çatmağı ilə boğazından yanaşmağı bir oldu.

İbrahim Mirzə bunu ədalətsizlik hesab elədi. Axı safsar dovşanlıq çəməninə girmişdi. Dovşanlar öz məskənlərindən, öz yerlərindən bir kənara çıxmamışdı. Axı niyə safsarlar bura girməli idi? Onda İbrahim Mirzə tərəddüd etmədən oxu kamana qoydu. Safsarın hərəkətini izləyərək nişan aldı və kamanı çəkib oxu buraxdı. Bir an sonra oxlanmış safsar yerində qalmışdı. Ancaq onun dişləri dovşanın boynunda kilidlənmişdi.

İbrahim Mirzə atdan düşüb yaxın gəldi. Qılıncını qınından çəkib artıq ölmüş safsarın ağzına soxdu. Safsarın kilidlənmiş dişlərini bir-birindən araladı. Dovşan bir anlığa key-key durub baxdı. Amma safsarın dişlərini aralayan qılıncın onunla işi olmadığını görüb qəflətən yerindən sıçradı, qaçıb getdi.

İbrahim Mirzə oxu safsarın böyründən çəkib götürdü. Onun ağaran dişlərinə baxdı. Gözləri bərələ qalmışdı və həm də sanki qəzəb ifadə edirdi. İbrahim Mirzə qətiyyən tərəddüd etmədən

safsarın bədəninə bir təpik vurdu. Bununla sanki o, safsara demək istəyirdi ki, özgələrin yer-yurdlarına girmək son nəticədə ölüm deməkdir. Bu, sənin haqlı cəzandır.

İbrahim Mirzə Şah İsmayılın qəti tapşırığına əsasən Məhəmməd xan Şeybaninin Kirman və Yəzd ətrafına hücum eləmiş qüvvələri ilə qarşılaşmaq üçün gedirdi. İş burasında idi ki, bir həftə əvvəl Şah İsmayıl Məhəmməd xan Şeybaninin çox təhqiramiz bir məktubunu almışdı. Və həmin məktubdan belə nəticə çıxardı ki, artıq Məhəmməd xan Şeybaninin müsəlləh qüvvələri hərəkətə keçib və Səfəvi ölkəsinin içərilərinə doğru irəliləməkdədir. Doğrudan-doğruya hələ İbrahim Mirzə Şah İsmayılın tapşırığını almamışdan belə Məhəmməd xan Şeybaninin qüvvələri çoxdan hərəkətdə idi. İbrahim Mirzənin özü də Məhəmməd xan Şeybaninin qərəzindən çox qəzəbnak idi. Çünki Məhəmməd xan Şeybani öz məktubunda Səfəvi xanədanını çox ucuz tutur. Səfəvilərin mənəvi mülklərini təhqir etməkdən belə çəkinmirdi.

İbrahim Mirzənin yaxşı yadında idi… Məhəmməd xan Şeybani həmin təhqiramiz məktubunda yazmışdı: «Sultanın sonsuz və tükənməz lütfü ilə şərəflənmiş başçı İsmayıl bilsin ki, Allah-taala məmləkət işlərinin idarəçiliyini, ölkələri fəth etməyi, düşmənləri məğlub etməyi, faydalı işlərin səmərəliyini artırmağı, mənfəəti artıran qalaların çoxaldılmasını həmişə bizim şəhid və bəxtəvər ulu babamızın, – Allah ona rəhmət etsin və məkanı cənnət olsun, – qüdrət qılıncı vasitəsilə həyata keçirmişdir. Dünyanı idarə edənin mehribançılıq və ucalıq sarayında ədalət və mərhəmət taxtı bizim siyasət xütbəmizlə dirçəlmişdir. Qəhrəmanlıq və fəth zərbxanasında şücaət sikkəsi bizim müvəffəqiyyət rəqəmlərimizlə bəzənmişdir. Qeybdə xilafət nidası və imamət müjdəsi bizə verilmişdir. Dəlillərdən məlum olur ki, Həzrəti Peyğəmbər belə buyurmuşdur: «Övlad atanın güzgüsüdür». Deməli, atadan qalan miras övlada çatır, övlada layiqdir və onun haqqıdır. Digəri isə əqli məfhumlarla desək, zülmət gecədə ulduzlar sayrışan zaman

Süheyl ulduzunun çıxdığı yerdən təqribən bir nizə irəliləyər və rəngini saraldaraq günəşin çıxması qorxusundan bir müddət titrəyər. Ancaq həqiqi səhər açılan kimi çıxdığı yerə qayıdar. O halda bizim şərqdə, Şah İsmayılın isə qərbdə çıxması Süheyl ulduzu ilə günəşin doğmasına bənzəyir.

Deyəcəyim odur ki, əzəmətli Məkkəni, – Allah şərəf və izzətini artırsın, – ziyarət etmək İslamın əsaslarından biridir və bütün müsəlmanlara vacib olduğu üçün qalib ordum ziyarətə müşərrəf olsun deyə əzəmətli Kəbəyə gedən bütün yolları bərpa etməlisən. Silah və peşkəş çatdırmalısan. Zərbxanalarda bizim adımıza sikkə vurdurmalısan. Hər cümə məscidlərdə bizim fatehliyimizin şərəfinə xütbə oxunmalıdır. Əbulmübariz İmadəddin Bahadur xanı – Allah-taala onu qorusun – məğlub etmək üçün üstünə göndərəcəyik. Əgər qələbə çala bilməsə, onu əvəz edəcək digər gənci; Kunduz, Baqlan, Həsar, Şadman, Bədəxşan və Türküstanın digər ərazilərinin sərhədində bir dəstə əmir və qoşunla dövrün səltənətinin pənahı, əmin-aman ölkələrinin qoruycusu, küfr və zülmü aradan qaldıran, göndərdiyin hər bir yerdən fəth və qələbə ilə qayıdan Əbulfəvaris Teymur Bahadur xanı qələbə çalmaq üçün həmin vilayətə göndərəcəyik. Əgər növbəti dəfə məğlubiyyət olarsa ki, bundan Allaha pənah aparıram, müzəffər ordunu sən tərəfə göndərəcəyəm. İlk öncə əziz-girami, arzu gülümün qönçəsi, canıma təskinlik verən, ciyərimin və ürəyimin qüvvəti, qəhrəmanlığı ilə hər bir yerdə şan-şöhrət qazanan, döyüş meydanını, aslanı olan oğlum Əbunəsr Kəmaləddin Suncək Bahadur xanı səltənətə yaxın olanlarla təyin edəcəyik. Zəmanənin şücaətlisi, tacın mirvarisi, meydanda düşmənlərin qatili, Ceyhun çayının timsahı olan övladım Həmzə Bahadur xan sağ cinahda, bu dünyada mülkün dayağı olan şücaətli övladım Səliməddin Mehdi Bahadur xan sol cinahda, Əndican, Şahruxiyyə, Qəndbadam, Daşkənd, Şəhri-Səbz, Otrar, Seyran, Urgənc, Xarəzm, Ceyhun kənar və Kaşqardan tutmuş Qıpçaq, Qəlmaq və digər ərazilərdə

olan dindar ordu, igid əsgərlər və əmirlərlə birlikdə müqavimət göstərəcək və müxaliflərlə döyüşəcəklər. Dövlət əyanlarının həmin döyüşdə iştirak etməsi ətrafdakıların şücaətli və qorxmaz olmasına səbəb olar. Allahın köməyi ilə «Allah sənə yenilməz qələbə verəcəkdir» xəzinəsindən yardım alacağıq. Hansı məkan və zamanda müqavimət göstərəcəyinizi elan edin. Vəssalam».

İbrahim Mirzə xəyalından keçirdiyi məktubun bütün məzmununu gözünün qabağında baş verən təbiət əhvalatına müncər tuturdu. İndi Məhəmməd xan Şeybaninin əməlləri ilə zərər görəcək adamların nicatını öz hərəkəti ilə nizamlayırdı. Yəqin ki, yuvadan başını çıxaran dovşan balaları da analarını belə gözləyirdilər.

Xorasan ətrafı ərazilər yazqabağı çox gözəl olur. Təbiət insanın üzünə gülürdü. Sanki təbiət deyirdi ki, müharibə etməyin, qan tökməyin.

Yəqin ki, təbiət də bilmirdi Məhəmməd xan Şeybani müharibə, qan-qada istəyirdi…

* * *

Şah İsmayıla artıq gün kimi aydın idi ki, Məhəmməd xan Şeybani ilə qanlı bir savaş onu gözləməkdədir. Söz yox, o, Məhəmməd xan Şeybaniyə yazdığı əvvəlinci məktubunda da müharibə etmək istəmədiyini bildirsə də özbəklərin bu qansız hökmdarının müharibə niyyətindən dönməyəcəyini də yaxşı bilirdi. Onsuz da Şah İsmayıl müdrik Hüseyn Bayqaranın xanədanını dağıdıb, övladlarını qətl edən Məhəmməd Xan Şeybanini bağışlaya bilmirdi.

Həşt-behişt sarayının ən sakit guşəsində gənc xanımı Taclı ilə baş-başa qalanda da, əsgərlərin döyüş hazırlığını yoxlayanda da, Təbrizin abadlığına nəzər yetirəndə də, Şeybani ilə savaşın mənzərəsi onun gözlərinin önündən getmirdi. Doğrudur, Taclı ilə arasında olan sonuncu söhbətdə də mümkün qədər müharibə

etməyəcəyini demişdi. Elə bu səbəbdən də sanki, iki od arasında qalmışdı. Bir tərəfdən anasının və Taclı bəyimin müharibələrə son qoymaq tələbi, digər tərəfdən də Məhəmməd xan Şeybaninin artıq savaşa girmək niyyətinə qarşı durmaq istəyi…

Şah necə olsa da ölkənin bir tərəfini Şeybani xanın qəsb etməsinə yol verə bilməzdi. Doğrudur, qardaşı İbrahim Mirzənin komandanlığı ilə Şeybani xanın hərbi səfərdə olan qoşunlarını qarşılamağa artıq hərbi qüvvə göndərmişdi.

Şeybani xanın sonuncu təhqiramiz məktubunu da İbrahim Mirzəyə də, elə digər divan üzvlərinə oxuyanda müharibənin başlayacağına kimsə etiraz etməmişdi. İbrahim Mirzə çevik hərəkətlə Şeybani xanın qüvvələrinin talana başlamasını qabaqlamaq istəsə də deyəsən bu mümkün olmayacaqdı. Artıq gələn xəbərlərdən məlum olurdu ki, Şeybani xanın məşhur sərkərdələri Bayqu Bahadur və Canvəfa Mirzənin başçılıq elədiyi on min nəfərlik qoşun Kirman ətrafındakı ərazilərdə mövqe tutmuşdu.

Şah İsmayıl tam qərara gəldi ki, artıq müdafiə mövqeyində durmaq mənasızdır. O, öz məramını sonuncu məktubu ilə Məhəmməd xan Şeybaniyə bildirməyi qərara aldı. Şah İsmayılın Şeybani xana məktubu qısa və aydın idi: «Əvvəlcə bizə yazmışdın ki, müsəlmanların həcc mərasimində iştirak etmək niyyətindəyəm və tezliklə həmin səfəri həyata keçirmək üçün İraq və Azərbaycana doğru hərəkət edəcəyik. Biz də yazının cavabında bildirmişik ki, bizim də fövqəlbəşər imam Əli ibn Rzanın, – salam olsun ona – ətir saçan məqbərəsini təvaf etmək fikrimiz var. Ən qısa zamanda həmin istiqamətə yola düşəcəyik. Sən vədinə vəfa etmədiyin üçün biz şəriət öhdəçiliyinin ruh yüksəkliyi verən hədisinin tələbinə əməl edərək müqəddəs Məşhəd istiqamətində fatehlik bayrağını yüksəltdik.

Bu müqəddimə ilə demək istəyirik ki, qənaətimizcə, qarşı tərəf səfərimizin uğurlu olacağını anlayıb, ola bilsin münasib və layiq olanı edərək bizi qarşılamağa gələcək, qonaqpərvərlik nümayiş

etdirib ziyafət verəcəkdir. Bu düşüncə həyata keçirilmədiyinə görə biz qarşılaşmaq üçün onların yurdu olan Mərvə qədər təşrif etdik. Bu məqamda belə qarşı tərəfdən insanlığa məxsus davranışlar müşahidə edilmədi. Naçar qalaraq qayıtmağa qərar verib Xorasanın bəzi vilayətlərində qışlayacağıq.

Yaz fəslinin əvvəllərində, lalələr torpaqdan baş qaldırıb çiçəkləndikdə döyüş meydanına atılacağıq. Bununla da qeyb pərdəsinin arxasında olanlar aşkara çıxacaqdır. Vəssalam.»

Təkcə bu məktubla iş bitmirdi. Şah İsmayıl özü daha müsəlləh qüvvəylə Şeybani xanı qarşılamağa hazırlığı başa çatdırmalı idi. Yəqin ki, qısa müddətdə Şeybani də onun məktubunu alacaq, çılğın bir qəzəblə Şah İsmayılla qarşılaşmağa can atacaqdı.

Bütün bunlar qışın axırlarına aid olan əhvalatlar idi.

Kirman qalasının başçısı Məhəmməd xan Əfşar beş yüz döyüşçüsü ilə qalaya çatmaqda olan düşmən qoşununa necə müqavimət göstərəcəyini düşünürdü.

Məhəmməd xan Əfşar on min nəfərlik düşmən qoşunu ilə qaladan kənarda döyüşə girməyi mənasız hesab elədi. O, qalanı öz qüvvələri ilə bir neçə gün müdafiə edə biləcəyini və bu müddət ərzində Səfəvi Qoşununun gəlib çatacağına da inamlı idi.

Çox keçmədi, düşmən öz tələbini qalabəyiyə çatdırmaq üçün nümayəndə göndərmişdi. Səhərin təzəcə açıldığı məqamda Bayqu Bahadırın göndərdiyi adamlar Kirman qalasının qapısı ağzında dayanıb qalabəyi Məhəmməd xan Əfşarı söhbətə çağırdı.

Qalabəyi Məhəmməd xan Əfşar onsuz da gələn iki atlını görmüşdü. Keşikçilər adamları qalaya buraxıb buraxmamaq haqqında ondan soruşanda qalabəyi Məhəmməd xan «gözlə» işarəsi verib özü qala bürcünə qalxdı. Hündürdən gur və əzmli bir səslə dilləndi:

– Bu səhər çağı qonaqlarımızın məqsəd və məramını bilmək üçün onları qarşılamağa hazırıq. Əgər niyyətiniz xeyirdirsə, məramınız kölgəli deyilsə, gözümüz üstə yeriniz var.

Gələnlərdən biri elə atın üstündəcə qışqırdı:

– Biz Şeybani xanın ən igid sərkərdəsi Bayqu Bahadırın tapşırığı ilə gəlmişik!

Kirmanın qalabəyisi Məhəmməd xan təkrar soruşmalı oldu:

– Bəlkə deyəsiniz Bayqu Bahadırın tapşırığı nədir?

Qarşı tərəf cavabı gecikdirmədi:

– Bayqu Bahadır tələb edir ki, qalanın qapılarını açıb açarlarını bizə verəsiniz. Məhəmməd xan Şeybaninin qoşunu bir neçə gün qalada istirahət edəcək.

– Əvvəla biləsiz ki, qalanın açarları böyük Səfəvi hökmdarı Şah İsmayılın özündədir. O da, bu gün-sabah yəqin ki, özü burada olar. İstəsəniz açarları şahın özündən alarsınız.

Məhəmməd xan Əfşarın bu sərrast sözləri düşmən elçisini qəzəbləndirdi. Atını qala ətrafında cövlana gətirib, Məhəmməd xanın tuşunda dayandı.

– Sən, başından çox böyük danışırsan, unutma ki, bizim on min nəfərlik qoşunumuz tezliklə bu qalanın daşını, divarını da söküb yerlə-yeksan edəcək.

Məhəmməd xan Əfşar bürcdən çıxıb qala hasarının üstündə durdu. Əli ilə yanındakı ovçuları göstərib dedi:

– Sənin bu hədə-qorxuna görə cəzanı verərdim. İki oxatan burda yanımdadır. Əgər mən istəsəydim, bir anda sizin hər birinizi Səfəvilərin sərrast oxlarına hədəf edərdim. Amma, sizin elçilik vəzifənizə dədə-baba qaydası ilə hörmət göstərirəm. Qayıdın öz qərargahınıza və sizi buraya göndərənlərə də çatdırın ki, Məhəmməd xan Əfşar hədə-qorxu ilə iradəsindən enməz.

Məhəmməd xan Əfşarın bu sözləri, deyəsən, gələnləri ayıltdı. Necə bir cəsarətli döyüşçü ilə qarşılaşdığlarını başa düşdülər. Onu da anladılar ki, həqiqətən Məhəmməd xan Əfşar istəsəydi onları çoxdan gəldikləri yola peşman edər. Onları oxladıb atdan yerə salardı.

Bu dəfə bayaqdan ötkəm danışan döyüşçünün səsi gəlmədi. Onun yanındakı söhbətə qarışdı:

– Yaxşı, biz indi qayıdıb Bayqu Bahadıra, Canvəfa Mirzəyə nə deyək?

Məhəmməd xan Əfşar da öz növbəsində qətiyyətlə dilləndi:
– Gedin deyin ki, qala bizim evimizdi, biz onu qorumaq iqtidarındayıq, əgər sizin adlı-sanlı sərkərdələriniz bizimlə döyüşməyi özlərinə şərəf bilirlərsə, onda biz də onları adlarına layiq mərdliklə qarşılayacağıq.

Gələnlər atlarının başını döndərib çölə çapdılar. Az keçmədi ki, onlar gözdən itdilər. Məhəmməd xan Əfşar qala bürcündən aşağı endi. Onsuz da qalanın beş yüz nəfərlik döyüşçüsü müsəlləh bir vəziyyətdə qalanı müdafiəyə hazır idi.

Məhəmməd xan Əfşar təcrübəli döyüşçü idi. O, bilirdi ki, beş yüz nəfərlə, on min nəfərlik qoşunun qarşısını almaq ağılasığmazdır. Əvvəlcə düşündü ki, beş yüz nəfərlik qüvvəni də xilas etmək üçün aradakı qısa vaxtdan istifadə edib qaladan kənara cıxsın. Yəni döyüşə girməsin. Ancaq, bunu şəninə sığışdırmadı. Məhəmməd xan qala ətrafında mövqe tutan döyüşçüləri bir daha yoxlamaq, onların əzmini bilmək istədi. Hər bürcə yaxınlaşır, döyüşçülərlə salamlaşıb onların əhvalını yoxlayırdı. O, buraya qalabəyi gələndə özü ilə bir qrup Əfşar döyüşçüsü də gətirmişdi. Elə birinci onlara yaxınlaşdı:

– Necə bilirsiniz, bəlkə müdafiəni dayandıraq, qaladan kənara çıxaq, onda hamınız xilas olarsınız.

Qalabəyinin bu sözlərini döyüşçülər etirazla qarşıladılar. Nisbətən Məhəmməd xanla həmyaş olan Əfşar döyüşçüsü bir az qabağa yeridi. Məhəmməd xan Əfşara təzim edib dedi:

– Məhəmməd xan, bir qaşıq qanımızdan qorxub igid Əfşar nəslinin adına əbədi ləkə sala bilmərik. Biz Qızılbaşlarıq. Qanımızdan şərəf duyarıq, başımızı verərik, ancaq ləyaqətimizi alçaltmarıq.

Məhəmməd xan yaxına gəlib Əfşar döyüşçüsünü bağrına basdı. Onun belə mərdanə cavabı çoxlu qanlı savaşlar görmüş, Məhəmməd xan Əfşarı kövrəltmişdi. Hər halda özünü ələ alıb dillənməli oldu:

– Onsuz da döyüşçünün bir gün son döyüşü hansısa meydanda olmalıdır.

Bu da bizim son döyüşümüz olsa belə onu şərəflə başa vurmalıyıq.

Məhəmməd xan Əfşar döyüşçülərin yanından aralandı. Digər bürclərdə də onu çox əzmlə, yüksək əhvalla qarşıladılar.

Məhəmməd xan Əfşar yeridikcə sanki, Şah İsmayılı öz yanında hiss edirdi. Ona elə gəlirdi ki, sanki hökmdar onunla birgə addımlayır. Hətta, xəyalən onunla danışır, dilləşirdi də.

– Hə Məhəmməd xan, bu da axırı, taleyindən peşman deyilsən ki?

– Xeyr, hökmdar. Döyüşçü öz torpağını qoruyursa, bu yolda ölüm onun üçün Tanrı ətasıdır.

– Axı sən müdafiəni dayandırıb, özünün də, döyüşçülərinin də canını qurtara bilərsən, nə üçün bu yolu seçmirsən?

– Mən bu yolu seçə bilmərəm hökmdar, onda mənim mənsub olduğum Əfşar nəslinin boynunda əbədi bir töhmət qalar. Canımı qurtarıb, ölü ləyaqət hissi ilə yaşamaq istəmərəm. Amma canımı verib adını şərəflə yaşatmağı daha üstün tutaram.

– Məhəmməd xan, sənin də, döyüşçülərinin də məqamı Tanrı yanındadır.

– Cənnətdə görüşərik, hökmdar.

Məhəmməd xan sanki öz səsinə ayıldı. Başını qaldırıb baxdı. Qalanın hər tərəfində qızğın müdafiə tədbirləri görülürdü. Qır qazanları qaynadılır. Qalanın üstünə ağır daşlar qaldırılırdı. Məhəmməd xan axırıncı bürcə çatanda dayandı. Burada xeyli döyüşçü vardı. Onlar qaladan xeyli kənar, Təbəs çölünə baxıb nə isə göstərirdilər.

Məhəmməd xan Əfşar özü də oraya qalxdı. Üfüqdə qara bir axın görünürdü.

Bəli, düşmən Kirman qalasına yaxınlaşmaqda idi.

* * *

Şah İsmayıl qardaşı İbrahim Mirzənin və Halvaçıoğlunun başçılığı ilə altı min nəfərlik qoşunu Kirman tərəfə göndərəndən sonra, bir qədər arxayınlaşdı. Şahın qənaətinə görə özbəklər Kirman qalasına çatmazdan əvvəl İbrahim Mirzə Halvaçıoğlu ilə qüvvələri bölüb düşməni qarşılamaq üçün mövqe tuta biləcəkdilər. Hətta, İbrahim Mirzə nə qədər çevik olsa da, vaxtında özbəkləri qarşılaması üçün hər döyüşçüyə əlavə bir atın da xərci ödənilmişdi. Demək, Qızılbaşlar yolda vaxt itirməyəcək və zamanında yetişib düşmənin qəddarlığının qarşısını alacaqdı. Həm də bütün məlumatlar təhlil edilib mövcud vəziyyəti olduğu kimi qavramaq üçün divan üzvlərinin, adlı-sanlı sərkərdələrin iştirakı ilə müşavirə də keçirilmişdi. Müzakirələrdən sonra belə qənatə gəlmişdilər ki, düşmənin canlı qüvvəsi say etibarı ilə çox da olsa, Qızılbaşlar döyüş hazırlığı baxımından onlardan çox güclüdür.

Bundan sonra şah Təbrizdə kifayət qədər hərbi qüvvə saxlamış, ölkənin qərb sərhədlərinə nəzarət üçün qoşun ayrılmasına dair sərəncam da vermişdi. Bütün bu işlərin yerinə yetiriləcəyinə, tapşırıqların vaxtında icrasına şah inandığı üçün yaz istirahətinə getmək qərarına gəldi. Bu dəfə o düşərgəni Sultaniyyə Çəmənində salmağı düşünürdü. İş elə gətirmişdi ki, bəzi məsələlər haqqında şaha vaxtında xəbər çatdırılmamış və o da özbəklərin sürətli hərəkəti haqqında xəbər tutmamışdı. Çox güman ki, Məhəmməd xan Şeybani Kirman və Yəz əyalətlərinə hücum planını çox gizli saxlamış, hər hansı bir məlumatın kənara sızmasına yol verməmişdi. Yəqin ki, özbək qoşunlarının Kirman tərəfə hərəkəti haqqında heç qoşunun da məlumatı olmayıb. Sadəcə əhali arasında belə bir şayiə yayılmışdı ki, guya Məhəmməd Xan Şeybani

zəvvarların ziyarət yolunu abadlaşdırmaq üçün tədbirlər görür, əslində elə Şah İsmayıl da bir-birinin arxasınca aldığı xəbərlərdən məsələni elə bu cür qavradığından, özbəklər İbrahim Mirzənin başçılığı ilə hərəkət edən Qızılbaşları qabaqlaya bilmişdilər.

Bu vaxt artıq Şah İsmayıl Sultaniyyə Çəmənində istirahətdə idi.

…Məhəmməd xan Əfşar bütün gün ərzində qaladakı müdafiə işlərinin təşkili ilə bağlı hərəkətdə olduğundan az müddətə belə dincələ bilməmişdi. Axır ki, gecə keşikçilərinə son tapşırıqlarını verib bir tərəfə çəkildi. Onsuz da gözünə yuxu getmirdi. Ümidli idi ki, tezliklə Qızılbaşların gəlişi xəbərini eşidəcək. Qalanın başı üzərini almış qara buludlar da, elə bu gəlişin nikbinliyi içində dağılıb gedəcəkdi. Amma, vaxt ötür, Qızılbaşlardan bir xəbər çıxmırdı. Məhəmməd Xan Əfşar öz canının hayında deyildi. Əslində, onu Kirman qalasına qalabəyi təyin etməklə bu ərazilərdə ictimai asayişin qorunmasını ona həvalə etmişdilər. Başqa sözlə, bura həm də onun ciddi döyüşlərdən uzaq olub həyatının qalan hissəsini rahat yaşamaq üçün nəzərdə tutulmuşdu. Çünki, hələ Şeyx Heydərin zamanında Məhəmməd xan Əfşar Səfəvilərə çox sədaqətlə xidmət etmişdi. Onun Şeyx Heydərə sədaqətini Hüseyn bəy Lələ Şamlı da, elə digər nüfuzlu Qızılbaş əmirləri də yaxşı bilirdi.

Vaxtın ötdüyünü, Qızılbaşların gəlib çıxmadığını görən Məhəmməd xan Əfşar qəti qərara gəldi ki, qaladakı uşaqları və qadınları gizli yollarla buradan uzaqlaşdırmaq lazımdır. Gecənin qaranlığından istifadə edib qərarını tezliklə icra etməli oldu. Çünki onu da yaxşı bilirdi ki, qala inadla müdafiə olunacağı təqdirdə olsa belə, özbəklər çox qəddarlıq göstərəcəklər. Onlar digər yaxınlıqdakı ərazilərin, xüsusilə, Yəzdin müdafiəçilərinin gözlərini qırmaq üçün qətiyyən qəddarlıqdan çəkinməyəcəklər. Məhəmməd xan Əfşar qalanın qərb qapısından çıxmaqda olan uşaqların hamısının başını sığalladı. Onun kiçik yaşlı nəvələri də bu uşaqların

arasında idi. Başını sığalladığı uşaqların hər birinə sanki ruhunu əmanət eləyirdi. Və keçib gedən əlsiz-ayaqsız adamların, qadınların, uşaqların sırasını nəzərdən keçirdikcə, öz-özünə nəsə pıçıldayırdı. Doğrudur, onun dediklərini başqaları eşitməsə də özü öz səsini aydın eşidirdi: «Gedin, əziz balalar, bir vaxt bu günləri xatırlayar, babanızın – Məhəmməd xan Əfşar adlı bir döyüşçünün, ömrünün ahıl vaxtında necə döyüşdüyü haqqında xəbərləri də eşidərsiniz. Mən öz ömrümü şərəflə yaşamışam. Elə yaşamışam ki, həyatımın hər hansı künc-bucağında qaranlıq bir məqam yoxdur. İndi mənə yaraşmazdı ki, qalanı düşmənə təslim edim. Bir Allah şahiddi ki, heç döyüşçülərimin də başqa birisinin yara almağına razı olmazdım, nəinki həlak olmağına. Amma gördüm ki, döyüşçülər də qalanı təslim etməyin tərəfdarı deyillər. Əgər onların ölümündə az da olsa mənim günahım varsa, Allahım bağışlayar. Çünki, ölümündən qorxmayıb, ölümünü şərəflə qəbul edənləri də Allah sevər». Məhəmməd xan bu düşüncələrlə qaladan çıxan axırıncı uşaqları da yola saldı. Döyüşçü olmayan qala sakinlərindən də xeyli adamı, dəstəni müşahidə etmək üçün göndərdi. Məhəmməd xan Əfşarda inam var idi ki, dəstə yaxın əraziləri sürətlə keçəcək. Əsas çətinlik Kirman qalasından çox da uzaq olmayan meşəliklərə getmək idi.

Artıq səhər açılırdı. Qalanın şərq tərəfindən çox da uzaqda olmayan ərazilərindən bir gurultu sədası qopdu. İlk andaca bu səsi eşidənlərə elə gəldi ki, dünya dağılır. Çox da uzaq olmayan üfüqdə sanki parçalanmış göydən daş yağırdı. Az keçmədi ki, saysız-hesabsız odlu oxlar səmada cövlan edirdi.

Məhəmməd xan Əfşar başa düşdü ki, Məhəmməd xan Şeybaninin sərkərdəsi Bayqu Bahadur Əmir Teymurun döyüşqabağı fəndindən istifadə edir. O, döyüşqabağı gurultu yaratmaqla, hay-küy salmaqla, vahimə törətmək və bununla da qalanın müdafiəçilərini qorxutmaq istəyir. Məhəmməd xan Əfşar öz döyüşçülərinə bu barədə danışmışdı, hətta ayrı-ayrı dəstələrin

yoxlanışı zamanı onlara öyrətmişdi ki, düşmən çox hiyləgərdi. Özbəklər ola bilsin ki, vahimə yaratmaqla qalanın döyüşçülərini təslim olmağa vadar etsinlər. Məhəmməd xan cavan müdafiəçilərini artıq nəzərdən keçirə bilirdi. Onların gözlərində qətiyyən qorxu hissi görmürdü. Odlu oxlar qalaya çatsa da elə bir zərər vurmadı. Döyüşçülərin qalxanla müdafiə olunması onları ox zədələrindən qoruyurdu. Tezliklə Bayqu Bahadurun qoşunu bir tərəfdən, Canvəfa Mirzənin başçılıq elədiyi dəstələr də digər tərəfdən qalanı əhatəyə aldılar. Süvarilər qala ətrafında sürətlə hərəkət edir, bağıraraq qala darvazalarının açılmasını əmrlə, tələblə, bəzən də təhqirlə istəyirdilər.

Məhəmməd xanın oxçuları da Bayqu Bahadurun süvarilərinə ciddi zərbə endirdi. Sərrast atılan oxlar düşmən döyüşçülərini atdan salır, yaralayır, sıradan çıxarırdı. Düşmənin axını hətta o qədər güclü idi ki, onlar öz yaralılarını belə tapdayıb keçirdilər.

Nəhayət, Bayqu Bahadurun və Canvəfa Mirzənin piyada qoşunları qalanın lap dibinə qədər gəlib çatdılar. Onlar hər tərəfdən qalaya kəmənd atıb, uzun pilləkənlər dirəyib hasarın başına qalxmağa çalışırdılar. Hər döyüşçü az qala iyirmi, otuz nəfərlə qarşılaşmalı olurdu. Doğrudur, qalaya dırmaşanların başına qaynar qazanlardan qır tökür, döyüşçü olmayan qala sakinləri iri qayaları hasarın başından düşmənin üzərinə atırdılar. Məhəmməd xan görürdü ki, mühafizəçilər nə qədər igidliklə vuruşsa da, düşmən qüvvələrinin say üstünlüyü özünü göstərirdi. Günortaya yaxın demək olar ki, qalanın üstündə müdafiəçilərin ancaq cəsədləri qalmış, xeyli düşmən isə qalanın içərisinə daxil olmuşdu. Onlar qalanın müdafiəçiləri ilə vuruşa-vuruşa qala darvazalarını açmağa nail oldular. Düşmən axınla qalanın içərisinə daxil oldu, həm də iki tərəfdən.

Məhəmməd xan Əfşar gözü ilə düşmən sərkərdəsini axtarırdı. Birdən onun qarşısında ötən gün elçi sifəti ilə gəlmiş süvarinin dayandığını gördü.

– Hə Məhəmməd xan, axı mən sənə dedim ki, qalanın açarlarını ver, hörmətli qonağı adına layiq qarşıla.

– Bir qonağın ki, elçisi hökm ilə danışa, o qonaq deyil, düşməndir. – Məhəmməd xan Bayqu Bahadurun özünü gözü axtarsa da, artıq qımırı ilə onun üstünə yeriyən düşmən döyüşçüsü ilə üzbəüz gəlmişdi. Düşmən xeyli cavan idi, özü də hiss olunurdu ki, döyüş fəndlərindən xəbərdardır. Qılıncını çəkib Məhəmməd xanın üstünə birbaşa yerimədi. Məhəmməd xan da ehtiyatlı davrandı, ustalıqla onu, nisbətən meydanın boş olan tərəfinə yönəltdi. Bir an keçəcəkdi onlar qarşı-qarşıya gələcəkdilər. Həmin anda qalanın müdafiəçilərindən bir cavan özünü irəli atdı. O, Məhəmməd xanın qabağına keçib düşmənlə özü vuruşmaq isrtəyirdi. Məhəmməd xan özü başa düşmək istəyirdi ki, əgər bu cavan döyüşçü düşmənlə qarşılaşmalı olsa, özünü həlak edəcək. Qalabəyi əmr etdi:

– Sən geriyə çəkil, arxaya bax!

Həqiqətən, arxadan bir düşmən əsgəri sıyrılmış qılıncı ilə Məhəmməd xanın başını iki parça eləməyə hazır idi. Cavan, onun qarşısını kəsənə qədər düşmən qılıncı endirəcəkdi. Ona görə də həmin cavan xəncəri bir anda belindən çəkib düşmən döyüşçüsünün üstünə atdı. Xəncər günəş şüalarının altında simşək kimi parladı və döyüşçünün çənəsinin altından boğazına girdi. O səntirləyib yıxıldı. Bu, bir an çəkdi. Hər ikisinin – həm düşmənin, həm də Məhəmməd xanın diqqəti yıxılan döyüşçüyə yönəlmişdi. Məhəmməd xan belindən asılmış toppuzunu, düşmənin başı üzərindən qala divarına çırpdı. Bu da qarşısındakı düşməni çaşdırdı. Məhəmməd xanın qılıncı düşmənin başına endi. Doğrudur, onun başını paralaya bilmədi, başının sağ tərəfi üstə dərisini sıyırıb, çiynini parçaladı. Bu vaxt başqa bir düşmən dəstəsi cavan döyüşçünün üstünə yeridi. Onlar gənc döyüşçünü nizəyə keçirdilər. Məhəmməd xan özünü qabağa atdı. Bu vaxt kürəyinin arasından sancılan düşmən qılıncı, sinəsi tərəfdən bir barmaq qədərində

qabağa çıxdı. Məhəmməd xanın gözlərinə duman çökdü, dizləri taqətdən düşdü, hələ az da olsa şüuru özündə idi. Olan-qalan gücünü toplayıb gözünü açdı, diqqət kəsildi, bəlkə Qızılbaşların hay-haraylı gəlişinin sədasını eşidər.

Dünya sükuta qərq oldu. Heç yerdən bir səs-səmir gəlmirdi. Artıq Məhəmməd xan Əfşar o səssizlik dünyasına köç eləmişdi.

…Axşama yaxın qalanın sonuncu müdafiəçiləri də öldürüldü. Bayqu Bahadurun ürəyi sonuncu müdafiəçiləri öldürməklə də soyumadı. O, göstəriş verdi ki, qalada kimi tapsalar qətlə yetirsinlər.

Hələ lap qədim zamanlardan Kirman qalası varlıların məskəni olmuşdu.

Kirmanın bütün varı, dövləti bu qalaya cəmlənmişdi.

Bayqu Bahadur və Canvəfa Mirzə təkcə Kirman qalasındakı var-dövlətlə kifayətlənmədilər. Onlar ətraf əraziləri də talan elədilər. Evləri, daxmaları yandırıb külə döndərdilər. Mal-qaranı, davarı çəkib apardılar, Kirman xalılarını daşıdılar.

Dünya malı üçün çalışanların gözləri heç vaxt doymur. İndi onlar Yəzd şəhərini işğal etmək niyyətində idilər. Amma hələ ki, Bayqu Bahadur və Canvəfa Mirzə talan elədikləri sərvəti bölməli idilər.

* * *

Sultaniyyə Çəməninə yaz həmişə tez gələr, Novruz ərəfəsində bu yerlər tamam ala, yaşıla qərq olar, təpəliklər, zəmilər közərən lalələrlə bəzənər. Havalar xoş keçdiyindən zoğallar erkən çiçəkləyər, alçalar gül açar, quşlar səs-səsə verər, yumurta qoymaq, bala çıxarmaq üçün yuva qurmağa tələsərlər. Ətrafdakı kiçik kəndlərdə də həyat canlanar, əkin işlərinə başlanar, yaz əkini ilə kəndlinin torpaqla ünsiyyəti başlayar. Hər kəs çalışar ki, yaz əkinini bir gün də olsa gecikdirməsin. Dirrik üçün çevrilmiş torpaq ılıq havanın təsirindən buğlanar təzə şumlanmış

torpağın xoş qoxusu çölün, çəmənin ətrinə qovuşub hər kəsi işə, zəhmətə çağırar, bir sözlə, çölün, çəmənin havası insana gəl-gəl deyər…

…Sultaniyyə Çəməni qədim zamanlardan bəri, gözəl bir məkan kimi hər kəsin könlünü oxşayan yer olub. Ağqoyunlu hökmdarı Uzun Həsən də müharibələrdən baş tapanda yaz istirahətini bu yerlərdə keçirərdi. Camaat da elə ayrı-ayrı zamanlarda hökmdarların bu yerlərə istirahətə gəlməyinə görə əmin-amanlıqda olardı. Daha çox güclərini zəhmətə verər, öz əməkləri ilə ruzilərini çıxarardılar. Bu yerlər həm əkin-biçin üçün yaxşıdır, həm də heyvandarlıq üçün. Heç kəs öz matahını bazara çıxarmağa ərinməzdi. Əkin-biçin sahibləri, dirrik becərənlər, bağ-bostan qulluğunda olanlar, eləcə də heyvandarlar beləcə öz ruziləri ilə həyatlarını firavan eləməyə çalışardılar.

Uzun Həsən Sultaniyyə Çəmənində yaxşı bir iqamətgah da tikdirmişdi. Hətta özünün bu yerlərə istirahət üçün gəlmək imkanı olmayanda belə, böyük ailəsini çox hörmətli əmirlərin ailələriylə birlikdə yazbaşına yaxın Sultaniyyə Çəməninə göndərərdi. Burada onlar üçün hər bir şərait yaradılmışdı. Əraziyə Sultaniyyə Çəməni, Uzun Həsənin iqamətgahına da şahlıq yurdu deyilərdi.

…Taclı bəyim hamilə idi. Sarayın hörmətli təbibləri cavan gəlinin narahatlığına görə Aləmşah bəyimə məsləhət görmüşdülər ki, gəlini havası, suyu yaxşı olan bir yerə aparmaq, başqa sözlə, yaşayış yerini dəyişmək lazımdır. Elə bu səbəbdən də Aləmşah bəyim oğluna Taclı bəyimi münasib bir yerə aparmağını məsləhət görmüşdü. Şah İsmayıl da münasib yer kimi elə Sultaniyyə Çəmənini seçmişdi. O, istəyirdi ki, Taclı bəyim indiki gərgin vaxtında bir narahatlıq hiss eləməsin. Hətta tapşırmışdı ki, nə Məhəmməd Şah Şeybaninin hücumlarından, nə də Səfəviləri gözləyən qanlı döyüşlər barədə onun yanında söhbət olmasın.

Şah sevimli xanımını hər səhər iqamətgah ətrafındakı güllü bağçaya çıxarır, onunla xeyli gəzişirdi.

Taclı bəyim gənc olmağına baxmayaraq, saray mühitində böyüdüyündən, baş verən hadisələrə çox həssas idi. Adicə bir xəbərin də sarayda yaratdığı həyəcanı, ovqat dəyişikliyini tez hiss eləyirdi. Baxmayaraq ki, ona Məhəmməd Şah Şeybaninin artıq başlamış olduğu müharibə haqqında heç bir məlumat verilməmiş, heç bir söz deyilməsə də, qəlbindəki həyəcanların əbəs olmadığını sövq-təbii hiss eləyirdi. Əlbəttə, şah sevimli xanımının yanında özünü tox tutur, Taclının könlünü alacaq sözlər deyirdi. Bununla o, Taclı bəyimin diqqətini yayındırmağa, qəlbinə xoş duyğular bəxş etməyə çalışırdı.

Bir gün yenə onlar bağçada idilər. Yaxın ağacın üstündə bir cüt qumru yuva qurur, tez-tez çör-çöp daşıyıb budağın sıx yerində üst-üstə yığır, hətta dimdikləri ilə çör-çöpü nizamlayır, yuvanın daha rahat olmasına çalışırdılar. Taclı qumrulara diqqətlə baxırdı. Şah bir qədər aralıda idi. Dayandığı yerdən bağın kənarı ilə axıb gedən dumduru suya baxırdı.

Hələ bir-iki yerdə suyun çiləkənləyib kənara dağıldığını görəndə, əyilib öz əlləri ilə çör-çöpü kənara atdı. Bayaqdan arxın suyu zəif axırdı. Heç, bəlkə, gedib bağın axırına da çatmazdı. Amma indi arx təmizlənəndən sonra su gurlaşmış, hətta həzin nəğməyə bənzər ahəngdar şırıltısı da artmışdı.

Şah qıjıltıyla axan suya baxırdı. Və xəyal onu sanki bu gözəl təbiət mənzərəsindən ayırıb siyasət aləminə çəkirdi.

Bu vaxt Taclı gözləri ilə şahı axtardı, onun aşağıda arxın kənarında lal-dinməz suya baxdığını gördü. Qumrulardan gözünü məcbur ayırıb, ərinin yanına yaxınlaşdı:

– Əzizim, nə yaman fikrə qərq olmusan?

– Şahbigəm, suya baxıram, – Şah başını qaldırıb yanında dayanmış Taclını süzdü. Arxın nisbətən geniş, güzgülənmiş suyunun üzərində Taclının gözəl çöhrəsi bərq vururdu. Suyun hərəkətindən Taclının əksi də suda titrəyirdi.

Taclı ərinin onun əzəl adını deməyindən səksəndi.

Neçə il olardı ki, sarayda da, elə Şahın özü də onu Taclı deyə çağırırdı. Az qala Şahbigə adı elə Taclının özünün də yadından çıxmışdı. İndi şahın birdən-birə onun əzəl adını xatırlaması gənc qadını səksəndirmişdi.

Taclı şahın gözlərinə baxdı. Doğrudur, əvvəlcə ayrı bir nigarançılıq sezmədi, sonra gözlərinin dərinliyində hansısa bir məna da özünü göstərirdi. Taclı çox da fərqinə varmadan şahı fikirdən ayırmaq üçün, elə özünün sudakı əksinə baxdı:

– Hə, necə də dumdurudur. Elə bil ki, mənim üçün güzgü yaratmısan.

– Bəli, su duru olanda güzgü kimi şəffaf olur, hər şey açıq-aydın görünür.

Şah xəyaldan ayrılmasa da Taclının sualına uyğun cavab verdi, sonra da əlavə elədi: – Bu suya baxıram və mənə bəzi mətləblər aydın olur.

– O nədir elə? Bəlkə, deyəsən, mən də bilim, – Taclı soruşdu.

– Bilirsən Taclı, dövlət işi də belədir. Dövlətin özünəməxsus qayğıları var. Hər şeyi qaydasına qoyandan sonra hadisələr bu su kimi durulur. Dövlət işləri də öz axarı ilə getməyində olur.

– Deyirsən indi sənin qurduğun bu əzəmətli hökmranlıq hələ də qayğılardan xilas olmayıb?

– Yox, elə demirdim, Şahbigə, – şah yenə Taclının əzəl adını dedi. Artıq şahın xanımına Taclı yox, Şahbigə deməsi nəsə ciddi bir məsələdən xəbər verirdi.

Şah da öz növbəsində sevimli xanımı Taclını siyasət işlərindən xəbərdar etmək, vacib olduğu təqdirdə onu burada qoyub müharibə səfərinə çıxmalı olacağını da ona çatdırmaq istəyirdi. Ancaq gördü ki, Taclı onun əzəl adı ilə müraciətindən çox həyəcanlandı. Sözünü dəyişməsə də, deyəcəyini bir qədər yumşaltmalı oldu:

– Taclı bəyim, əzizim! Elə də çox həyəcanlanma, özünü tox tut, axı sən şahbanusan! Müharibələr şahların işidir. O, hansı ölkədir ki, müharibəsiz əmin-amanlıqda olsun?

Şah yaxına gəldi. Şahbigənin çiyinlərindən yapışıb onu sinəsinə sıxdı, sağ əli ilə saçlarına sığal çəkdi. Taclı başını qaldırıb şahın gözlərinə baxdı. Onun sağ əlini tutub əvvəlcə sinəsində gəzdirdi, sonra biraz da aşağı çəkdi. Şahın əlini bətnindəki körpənin üstünə qoymuşdu.

Şah heç nə demədi, eləcə onun düz gözündən öpdü, nəfəsini nəfəsinə qatdı. Taclının ürək döyüntüsü bir qədər sakitləşdi, həyəcanları yatdı. Axır ki, kənara çəkildi, şahın qolundan tutub bayaq özünün dayandığı yerə tərəf apardı. Şah da anasının yanınca yeriyən uşaq kimi addımladı. İndiki vaxtda Taclı onun əlindən tutub dünyanın axırınacan aparsa da getməyə etiraz eləməzdi. Amma, Taclı onu çox uzağa aparmadı, qumruların yuva qurduğu budağı göstərdi.

– Ora bax, əzizim!

– Hə görürəm, nə gözəl qumrulardır.

– Bir fikir ver, onlar nə iş görür?

Şah diqqətlə baxdı. Qumruların ciddi-cəhdlə yuva qurduğunu gördü.

– Hə görürəm qumrular yuva qurur.

– Sən bilən onlar nə üçün yuva qurur? – Taclı gülümsünərək əvvəlcə şaha baxdı, sonra da qumrulara.

– Tezliklə yuva hazır olacaq, ana yumurta qoyacaq, ata onun qayğısını çəkəcək, ona yem daşıyacaq. O yumurtadan balalar çıxacaq.

Taclı daha heç nə demədi. Bir bətnindəki körpəyə gözünü zillədi, bir də gözlərini dolandırıb şaha baxdı. Yenə qumrulara baxdı. Şah dinmirdi, onun belə sükutla baxmağı Taclıya qəhər gətirdi, gözləri doldu, bir az da keçməmiş büllur yaş gilələri yanaqlarından üzü aşağı süzüldü. Şah əlini uzadıb onun gözlərini sildi.

Taclı bərk dolmuşdu, gözlərinin yaşı qurumurdu. Şah onun üz-gözünü öpüşlərə qərq etdi. Duzlu göz yaşları Şahın dodaqlarını yandırdı.

Taclı kənara çəkildi, bərk incik görünürdü, axır ki, özünü cəmləyib dilləndi:

– O qumruların nə dediyini gərək hər kəs yaxşı bilsin.

Şah Taclının sözlərindən sanki təəccübə qərq oldu.

– Bu nə deməkdir, ay qız, sən nə yaman dil açmısan?

Taclı daha heç nə deməyib ondan uzaqlaşdı. Bir az keçmiş ağaclıqlar arasında gözdən itdi.

Şah İsmayılın düşüncələri bir-birinə qarışdı. O sevgilisinin əhvalını xəyalında dolandırır, sanki onun dediklərinə cavab verməyə söz axtarırdı, söz isə misralara çevrilirdi:

*Ey yüzün güldür, ləbin çün qönçə xəndandır yenə,*
*Buyi-muyin aşiqə küfr ilə imandır yenə.*

*Anca əfqan etdim, ey dürri-məlahət, sənsizin,*
*Çeşmeyi-çeşmimdən axan bəhri-ümmandır yenə.*

*Ta qəmi – hicran ilə düşdüm vüsalından iraq,*
*Qəmlü könlüm hicr ilə çün beytül-əhzandır yenə.*

*Yüzüni zahid nədən səbül-məsanidir deməz,*
*Səfhəsində yazülü həm nüri-Qurandır yenə.*

*Şol pərişan zülfüni ta görmüşəm, ey ruhi-qüds,*
*Dərdü həsrətdən mənim könlüm pərişandır yenə.*

*Onca çəkdüm firqətin xarini, ey gülyüzlü yar,*
*Yürəgimdür qönçə nisbət, dopdolu qandır yenə.*

*Dün demişdin: – Məndən özgə yarə vermişsən könül.*
*Mən Xətai xəstə halə bu nə böhtandır yenə?*

* * *

…İbrahim Mirzə Halvaçıoğlu ilə birgə Kirman qalasına çatanda, iş işdən keçmişdi.

Bayqu Bahadurun və Canvəfa Mirzənin qoşun dəstələri qalanı talan edib, əhalini qılıncdan keçirəndən, qala müdafiəçilərinin hamısını qətlə yetirəndən sonra əyalətin digər ərazilərinə hərbi yürüşü davam etdirməyə başlamış və beləliklə, qarşılarına çıxan bütün yaşayış yerlərində soyğunçuluğa və talançılığa rəvac vermişlər.

Məhəmməd Xan Şeybaniyə talançılıqla məşğul olan sərkərdələr bir-birinin arxasınca şad xəbərlər göndərirdilər.

Bayqu Bahadur və Canvəfa Mirzə ciddi bir müqavimətlə rastlaşmadıqlarından, talan və qəsbkarlıq niyyətləri həddini aşmaqda idi.

Bayqu Bahadur Canvəfa Mirzəyə nisbətən təcrübəli döyüşçü idi. Buna baxmayaraq mövcud vəziyyət onu da çaşdırmış, əldə etdiyi uğurlardan özünə sonsuz güvənc hissi yaratmışdı. O, isti-isti daha böyük uğurlar qazanmaq üçün fürsəti əldən vermək istəmirdi. Ona görə də talan olunmuş sərvətin növbəti hesablanmasından sonra üzünü Canvəfa Mirzəyə tutdu:

– Allah hökmdarımızın ömrünü uzun eləsin. Qəsb elədiyimiz ilxılar, qoyun sürüləri, ləl-cəvahiratlar, Kirman xalıları… Bütün bunlar bizim sərvətimizdir.

Canvəfa Mirzə özündən böyük Bayqu Bahadurun «Bizim sərvətimizdir» sözlərini eşidəndə gözlərindən güldü. Görünür, o, bu sərvətin tamamən hamısının Məhəmməd xan Şeybaninin hüzuruna göndəriləcəyini düşünürmüş.

– Bayqu Bahadur, sən necə məsləhət bilirsənsə, elə də et. Mən bölgüyə qarışmıram. Təki görəcəyimiz işdən hökmdarımız razı qalsın.

– Çox doğrudur, Canvəfa, ancaq sən mənə bir söz de.

– Nəyi bilmək istəyirsən?

– Yürüşü davam etdirəkmi? Çünki, mən öyrənmişəm. Yəzd ətrafında Səfəvilərin elə də güclü qüvvəsi yoxdur. – Bayqu Bahadur sınayıcı nəzərlərlə Canvəfa Mirzəni süzdü. Onun yeni səfərə cəsarət göstərib-göstərmədiyini bilmək istədi.

Canvəfa Mirzə Yəzdi talan üçün tək gedəcəyindən sevinirmiş kimi dərhal dilləndi. Onun səfər üçün necə sevindiyini Bayqu Bahadur da duydu. Canvəfa Mirzə elə Bayqu Bahdurun düşündüklərini dilinə gətirdi:

– Yəzd çox varlı şəhərdir. Deməli tezliklə Yəzdi tutmalıyıq. Həm də çoxlu sərvət əldə edə bilərik. Qoşunu təmin edər, hələ Məhəmməd Xan Şeybaninin də hüzuruna onun özünün gözlədiyindən də daha çox pay ayırarıq.

Canvəfa Mirzənin bu sözləri talandan və qələbələrindən şadlanan sərkərdə Bayqu Bahaduru daha da ruhlandırdı. Onlar səhər erkən Canvəfa Mirzənin Yəzdə doğru yola çıxması qərarına gəldilər.

Bayqu Bahadur isə Kirman əyalətindən talayıb qəsb etdiklərini Xorasana yola salmaq üçün hazırlıqlara başlayacaqdı.

Həmin gecəni onlar şərab məclisi ilə keçirdilər. Səhərə yaxın Bayqu Bahadur sərxoş gözlərini dolandırıb Canvəfa Mirzəyə üz tutdu:

– Biz hökmdarımıza Şah İsmayılın nə qədər gücsüz və zəif olduğu xəbərini də göndərərik. Tezliklə Şah İsmayılı tapıb, hökmdarımıza itaətsizliyinə görə də cəzalandırarıq da.

Canvəfa Mirzə də sərxoş idi. İndi Şah İsmayıl da onun gözlərində cılız və qüvvəsiz bir dəstəbaşı kimi görünürdü.

Sərkərdələr heç özləri də bilmədən Kirman xalıları döşənmiş çadırda hərəsi bir tərəfdə yuxuladı. Səhəri gün günortaya yaxın oyanmışdılar. Canvəfa Mirzə tez qalxıb üzünə su vurdu, ordugaha getdi.

Az keçməmiş yürüş təbillərinin səsi eşidildi.

Ordugahdakı səs-küydən Bayqu Bahadur da yuxudan oyandı. Əvvəlcə o ordugaha basqı olduğunu düşünüb vahimə ilə yerindən sıçradı. Canvəfa Mirzəni at üstündə gördü.

İndi hər şey ona aydın olmuşdu. Kinayəli bir təbəssümlə gülümsündü. Canvəfa Mirzə artıq hərəkətə başlamış hərbi qüvvənin

arxasınca baxıb düşünürdü: «Cavandır, qələbə həvəsilə döyüşə can atır, bilmir ki, birdən bəxti yatsa, təsadüfən atılan bir oxla da həyatını fövtə verər».

Amma daha heç nə demədi. Axşam hələ sərxoş olmamış, Canvəfa Mirzənin ixtiyarına beş min nəfərlik qüvvə veriləcəyini də demişdi. Demək, qoşunun yarısı Yəzd yoluna döyüşə çıxacaqdı, qalan yarısı ilə Bayqu Bahadur Səfəvilərin gələcəyi ehtimal olunan yerlərə nəzarət edəcəkdi. Amma onun başqa bir çox məsələlərdən xəbəri yox idi.

Kirman əhalisinin talan olunmağı haqqında artıq Şah İsmayılın xəbəri vardı. O, başa düşürdü ki, Məhəmməd xan Şeybaninin hərbi qüvvələri təkcə Kirmanla kifayətlənməyəcək. Onlar Yəzdə və İraqa doğru da hərəkət edə bilərlər.

Həqiqətən İbrahim Mirzə Kirman qalasında baş verən qətliamı görüb bundan çox təəssüflənmişdi. O, Məhəmməd xan Əfşarın və qala müdafiəçilərinin qala divarları ətrafında meydanda tökülüb qalmış meyidlərini dəfn etməyə göstəriş verdi. Özü Məhəmməd xan Əfşarın cənazəsini məzara endirdi.

Halvaçıoğlu ilə danışıb qüvvələri ikiyə böldülər. Bir dəstə, Halvaçıoğlu da başda olmaqla Bayqu Bahadurun qarşısını kəsməli, onun talan elədiyi sərvəti ölkədən çıxarmağının qabağını almalı idi. İbrahim Mirzə isə beş min nəfərlik qüvvə ilə Yəzdə doğru hərəkət elədi.

Şah İsmayıl da onun ünvanına göndərdiyi məktubda yazmışdı ki, düşməni lazımınca cəzalandırmaq gərəkdir. Talan olunmuş sərvət isə sahiblərinə qaytarılmalıdır.

İbrahim Mirzə yaxşı başa düşürdü ki, indi hər şey onun sürətli hərəkətindən asılıdır. Gecikmək Yəzd əhalisinin də məhv edilməsi demək olardı.

Onsuz da Yəzd əhalisi də vəziyyətdən xəbərdar idi. Yəzd ətrafında düşmənə qarşı dura biləcək əhali başını götürüb uzaqlara qaçmışdı.

Canvəfa Mirzə Yəzd şəhərinə çatanda şəhəri boş görməyi onu qəzəbləndirdi. Ətrafında qabağına çıxan kim vardısa hamısını qətliam etməyə əmr verdi. Amma, bu vaxt İbrahim Mirzənin sürətli hərəkətlə özünü yetirən qüvvələri ilə qarşı-qarşıya gəldi.

Bu, Canvəfa Mirzəni çox təəccübləndirdi. Sanki İbrahim Mirzənin qoşunu qəflətən yerdən çıxmışdı. Onun ağlına da gəlmirdi ki, İbrahim Mirzənin qoşunu sürətli hərəkət etmək üçün hər döyüşçü iki atdan istifadə edib.

İki nəhəng qüvvə qarşı-qarşıya gəlmişdi. Canvəfa Mirzənin qoşunları sayca çox olsa da, başı sərvət yığmağa, talana qarışdığından, demək olar ki, döyüş mövqeləri tuta bilməmişdilər. Günortaya yaxın Qızılbaşlar düşmən qoşununu tamam əzdi. Müqavimət göstərənlər öldürüldü. Çox az qismi isə pərakəndə və dağınıq halda hara gəldi qaçmalı oldu. İbrahim Mirzə Qızılbaşlar tərəfindən əhatəyə alınmış bir dəstənin lap yaxınlığında döyüşürdü. Cavan bir döyüşçünün qışqırdığını, öz adamlarına göstəriş verdiyini diqqətlə izləyirdi. Hər halda həmin şəxsin düşmən qüvvələri arasında başçılardan biri olduğunu düşündü. İbrahim Mirzə qarşısındakı maneələri dağıda-dağıda həmin döyüşçüyə yaxınlaşmaqda idi. Bu vaxt Qızılbaş döyüşçülərindən biri Əbdi bəyin oğlu Qalabəy kənardan topuzunu atıb, həmin döyüşçünü atdan yerə saldı. Onun ətrafındakı az qüvvə də başçılarının atdan salındığını görcək tez silahlarını yerə atıb savaşı dayandırdılar. Qalabəy özünü çatdırıb ayağını həmən döyüşçünün sinəsinə qoydu. Sonra da qılıncını düz köksünə dirəyib onun ürəyinə sancmaq istəyəndə artıq kürəyi yerdə olan düşmən döyüşçüsü əlini qaldırıb yalvarmağa başladı, aman istədi. Bu vaxt İbrahim Mirzə də özünü yetirdi. Əlinin işarəsi ilə Qalabəyə qılıncı dayandırmağı bildirdi. Kürəyi yerdə alacalanmış gözləri ilə baxan döyüşçü tez-tez nəsə deyirdi. Axır ki, İbrahim Mirzə anladı ki, o qoşunun başçısıdır. Adı da Canvəfa Mirzədir. Onu

və ətrafında olan daha iyirmi nəfəri də öldürmədilər. Silahlarını yığıb, qollarını zəncirlədilər.

…Döyüş bitmişdi, İbrahim Mirzə Canvəfa Mirzənin talan elədiyi əmlakı sahiblərinə qaytardı.

Yəzd əhalisi Şah İsmayılın ünvanına dualar sərgirləyir, şahın qardaşı İbrahim Mirzəyə əhalinin canını hifz etdiyinə görə sonsuz minnətdarlıq bildirirdilər. İbrahim Mirzə əsirləri Sultaniyyə Çəməninə yola salmağı əmr etdi – Şah İsmayılın hüzuruna. Özü isə təzədən Kirman tərəfə yol aldı. Canvəfa Mirzədən öyrənmişdi ki, orada Bayqu Bahadurun başçılığı ilə xeyli hərbi qüvvə var.

Ancaq İbrahim Mirzə Kirman əyalətinə çatanda Halvaçıoğlu ilə Bayqu Bahadurun da qarşılaşması sona yetmişdi. Bayqu Bahadur Qızılbaşların cəsarətli döyüşü qabağında dayana bilməmiş, elə ilk döyüşdəcə məğlub olmuşdu. Güclə canını qurtarıb çox az qüvvə ilə Qızılbaşların əlindən qurtarıb Məhəmməd xan Şeybaninin yanına qaçmışdı. Kirman əhalisinin də əmlakı sahiblərinə qaytarıldı.

Bayqu Bahadur üz-gözdən düşmüş bir vəziyyətdə – qançır olmuş sir-sifətlə Məhəmməd xan Şeybaninin hüzuruna çıxmalı oldu.

Əslində, bəd xəbəri Məhəmməd xan Şeybani dünəndən eşitmişdi. Və eşitdiyi xəbərdən çox qəzəblənmişdi. Bayqu Bahadurla birlikdə ölümdən canını qurtarıb onun hüzuruna gəlmiş adlı-sanlı döyüşçülərin, sərkərdələrin acınacaqlı görkəminə baxıb daha da qəzəbləndi. O, əyləşdiyi yerdən əlini Bayqu Bahadura tərəf uzadıb bağırdı:

– Necə oldu ki, sənin kimi adlı-sanlı bir sərkərdə çöldən yığılma Qızılbaş qüvvələrinə belə biabırçılıqla məğlub oldu?

– Hökmdarımız, onlar döyüş meydanında ayrı cür görkəm alırlar.

Bayqu Bahadurun bu sözləri hökmdarı lap hövsələdən çıxartdı.

– Necə görkəm alırlar? Bəyəm onlar da sizin kimi adam deyillər?

– Xeyr hökmdar, döyüş vaxtı onlar nəsə deyib elə qışqırırdılar ki, bir adam beş kimi görünür.

– Yox bir, on beş kimi. Kaş sənin özün də yanındakılar da elə o döyüş meydanındaca tikə-parça olaydınız. Təki mənim hüzuruma belə görkəmdə gəlməyəydiniz.

Məhəmməd xan Şeybani daha Canvəfa Mirzə haqqında heç nə soruşmadı. Çünki Canvəfa Mirzənin yaxınlığında döyüşüb canını qurtaranlardan biri, onun atdan yıxıldığını demişdi. Ancaq, sonrakı taleyi haqqında məlumat yox idi.

Canvəfa Mirzə Məhəmməd xan Şeybaninin yaxın qohumu idi. Onun qəhrəmanlığına, döyüş cəsarətinə Məhəmməd xan Şeybani çox inanırdı. Canvəfa Mirzəni də Bayqu Bahadura yoldaş eləməkdə məqsədi o idi ki, onun döyüş təcrübəsini mənimsəsin. İndi bütün ümidləri puça çıxmışdı.

Hadisələrin belə gedişi Məhəmməd xan Şeybani üçün gözlənilməz olsa da yenə Şah İsmayılı güclü rəqib kimi görmürdü. O, həmin gün Şah İsmayılla savaş üçün hazırlığa başlamasını əmr etdi. Hətta təhqiramiz bir məktub da yazdı. Həmin məktubda Şah İsmayılı İraq darğası adlandırdı, üstəlik də Şah İsmayıla həqarət üçün bir xirqə və bir əsa da göndərdi.

Bununla o, Şah İsmayıla çatdırmaq istəyirdi ki, hünər meydanı dərvişlər üçün deyil…

* * *

İbrahim Mirzə Halvaçıoğlu ilə birgə Kirman və Yəzd səfərini uğurla başa çatdırdıqdan sonra, Sultaniyə Çəməninə – Şah İsmayılın hüzuruna gəldi. İbrahim Mirzə yaxşı bilirdi ki, Şah talan olmuş əhalinin vəziyyəti ilə maraqlanacaq. İnsanların əmlaklarının özlərinə qaytarılıb-qaytarılmadığını soruşacaq. Ona görə də Bayqu Bahadurun və Canvəfa Mirzənin soyğunçuluq yolu ilə, qarətlə

əldə elədikləri nə varsa, hamısını Qızılbaş ordusunun nəzarəti altında sahiblərinə, qətl və qarət zamanı öldürülənlərin varislərinə çatdırdı. Bəzi işləri, xüsusilə idarəetmə və nizam-intizam qaydalarının bərpasını da yoluna qoymuş, yalnız bundan sonra əsir götürdüyü Canvəfa Mirzə və Şeybani xan ordusunun digər iyirmi nəfərə yaxın adlı-sanlı döyüşçüsünü də götürüb, şahın hüzuruna çatmışdı.

Şah Canvəfa Mirzənin Şeybani xanın qohumu olduğunu biləndə, onun qollarının qandallarını açdırdı. Öz hüzurundakı qələbə məclisinin hörmətli yerində əyləşdirdi. Digər əsir döyüşçüləri də diqqətdən kənarda qoymadı. Orası da vardı ki, özbək hakiminin Şah İsmayıl sarayına nifrəti hər kəsə bəlli idi. Elə bu səbəbdən də Canvəfa Mirzəni və döyüşçüləri də sağ qoymağın tərəfdarı olmayanlar da vardı. Qəzəbə qarşı qəzəb göstərmək istəyən Qızılbaş əmirlərinin bəziləri Canvəfa Mirzə və döyüşçülərini gecikmədən edam etməyi təklif edir, öz təkliflərini də belə əsaslandırırdılar ki, onlar Qızılbaş Səfəvi ərazilərində gördüklərini Şeybani xana çatdırıracaq, bununla da müşahidələrindən gələcək döyüşlərində bəhrələnəcəklər. Amma, Şah bu təkidli tələblərlə razılaşmadı. O, Canvəfa Mirzə ilə necə rəftar edəcəyini artıq qərarlaşdırmışdı. Axır ki, məclisin bir məqamında Şah üzünü Canvəfa Mirzəyə tutdu:

– Sən hörmətli Şeybani xanın adlı-sanlı döyüşçüsü, çox məşhur sərkərdəsisən. İndi mən səni azad edirəm.

– İltifatın artıq olsun şah, məni öldürməməklə insanlığın ucalığında olmağını göstərirsən.

Canvəfa Mirzə bu sözləri deyib ayaq üstə durduğu yerdə üç dəfə təzim elədi. Hiss olunurdu ki, o, ölümdən qurtulmağına çox sevinir.

Şah İsmayıl Qızılbaş əmirlərini bir-bir nəzərdən keçirdi. Əmirlər onun baxdığını görüb yer-yerdən dilləndilər:

– Şahımızın mərhəməti çox böyükdür, Allah onun ömrünü uzun eləsin.

Yalnız bundan sonra Şah İsmayıl göstəriş elədi ki, Canvəfa Mirzənin və döyüşçülərin səfər tədarükü başlansın, elə sabah onlar öz vətənlərinə yola salınsınlar.

Əmirlər də hiss edirdilər ki, Şah Canvəfa Mirzəni öldürməməkdə belə bir məqsədi Şeybani xana çatdırmaq istəyir ki, hələ də barışıq imkanı var.

Doğrudan da, Şah İsmayıl Məhəmməd xan Şeybani ilə sonuncu, həlledici savaşa girişmək istəmirdi. Elə bu səbəb üzündən də Canvəfa Mirzəni və döyüşçüləri Şeybani xanın hüzuruna aparmalı olan dəstə hazırlananda xüsusi bir elçi heyəti də göndərdi. Şeyx Məhyəddin Lahicani adlı çox elmli və bilikli bir şəxsi də nümayəndə heyətinin başçısı kimi göndərməli oldu. Şeyx Məhyədin Qızılbaşlar arasında çox tanınmış və hörmətli şəxs idi. Bu vaxta qədər şahın elçiliklərinə onun atası Şeyx Məhəmməd başçılıq edərdi. İndi Şeyx Məhəmməd qocalıb əldən düşsə də, oğlu Şeyx Məhyəddin meydanda idi. Onu da qeyd etmək yerinə düşər ki, Şah Şeyx Məhyəddinin xətrini çox istəyərdi. Uşaqlıq və yeniyetməlik çağlarında Şeyx Məhəmməd ona müəllimlik etmişdi.

Hökmdar öz müəlliminin oğlunu Şeybani xanın hüzuruna yola saldı. Göndərdiyi məktubda da Məhəmməd Xan Şeybaniyə hörmətlə müraciət etdi: Elçilər və əsirlər Şeybani xanın hüzuruna yola salınsa da, Qızılbaş əmirləri özbək hakiminin müharibə etmək niyyətindən əl çəkməyəcəyini bir daha şaha bildirdilər. Ona görə də Qızılbaşlar çox böyük ciddi-cəhdlə müharibəyə hazırlaşmaqda idilər. Səfəvi elçisi və əsirlər 1510-cu ilin payızının başlanğıcında artıq Məhəmməd xan Şeybaninin sarayına getmişdilər. Məhəmməd xan Şeybani elçiləri qəbul etsə də, soyuq münasibətini açıq-aşkar büruzə verdi. Şahın məktubunu Lahicanidən alıb oxuması üçün Mirzəyə verdi. Canvəfa Mirzənin və döyüşçülərin sağ-salamat geriyə qaytarılmasını isə Qızılbaş hökmdarının qorxaqlığı və cəsarətsizliyi kimi yozdu. Elə məclisdəcə şahın ünvanına hədyan sözlər dedi:

– Şeyx Məhyəddin, sən özün də yaxşı bilirsən ki, hökmdarlıq ana xətti ilə keçə bilməz, axı Səfəvi ocağında da az-çox ədalətli və ağıllı adamlar varsa, onlar sizin hökmdarınıza başa salmalıdırlar ki, hakimiyyəti qaytarıb Uzun Həsənin varislərinə versin. O ki qaldı İsmayıla, qoy, ulu babalarının yolu ilə gedib dərvişliklə məşğul olsun.

Şeyx Məhyəddin Lahicani Şeybani xanı səbirlə dinlədi. Yalnız o sözünü qurtarandan sonra ədəb-ərkanla sözə başladı.

– Hörmətli hökmdar, bizim şahımız sizin əsliniz, soyunuz haqqında həmişə hörmətlə danışır. İndi, bu hörmət və ehtiram müqabilində özbək hakiminin dediklərini olduğu kimi şahımıza çatdıra bilmərəm.

– Şeyx, mən istəyirəm ki, dediklərim necə varsa, elə də İsmayıla çatdırılsın.

Məhəmməd xan Şeybani bu sözləri hökm və qəzəblə dedi. Əslində, o, bu hökm və qəzəbi ilə Şeyx Məhyəddin Lahicaniyə daha nəsə deməyə yer qoymurdu. Amma, Şeyx Məhyəddin başı ilə özbək hökmdarına razılıq bildirdi. Və hiss elədi ki, bu razılıqdan Məhəmməd Xan Şeybani xeyli məmnun oldu. Və bu məmnunluğun verdiyi fürsəti qaçırmadı.

– Hökmdar sağ olsun, bir elçi, bir hökmdarın sözünü qədərincə yetirə bilmək iqtidarında olmaz. Ona görə də, hökmdar dediklərini bir kağıza yazıb öz nümayəndəsinə versə, daha yaxşı olar. – Şeyx Məhyəddin beləcə də dedi və Məhəmməd xan Şeybaninin ətrafındakıları da nəzərdən keçirdi. Hiss elədi ki, nəzərindən keçirdiyi şəxslər də, onun dediyi təklifə etiraz etmədilər.

Beləliklə, Məhəmməd xan Şeybani yenə Şah İsmayıla həqarət dolu bir məktub yazdı, Taclı Bahadır adlanan şəxsə verib, Şeyx Məhəmməd Lahicani ilə birlikdə Səfəvi hökmdarının yanına yola salındı. Həmin məktubda o, lovğalanaraq öz imkanlarının aşıbdaşdığından danışırdı.

Məhəmməd xan Şeybaninin belə qürrələnməsinin və lovğalığının başqa səbəbləri də vardı. O, Səfəvilərin itaəti altında olan ərazilərin bəzi hakimlərini məktub yazaraq dilə tutmuş, onları Şah İsmayıla qarşı itaətsizliyə sövq etmişdi. O, bəzi hakimlərdən itaətsizlik edəcəklərinə dair cavablar almışdı. Beləliklə, ona elə gəlirdi ki, əgər Şah İsmayılla birdəfəlik qarşılaşmalı olsa, həmin itaətsizliyə vəd edənlər də, Qızılbaşlara arxadan zərbə vurar, onu belə olan halda çox asanlıqla aradan götürə bilər.

Onsuz da Şeybani xan Şeyx Məhəmməd Lahicanini yola salan kimi, Səfəvi sərhədlərini keçmək üçün hərbi yürüş səfərinə çıxmağa hazırlıq əmri verdi. Onun belə ciddi-cəhdlə Səfəvilər üzərinə yürüşə hazırlaşması xəbəri tezliklə Şah İsmayıla yetişdi. Onsuz da Şeyx Məhyəddinlə birgə gəlmiş Taclı Bahadır Məhəmməd Xan Şeybaninin məktubunu da şaha çatdırmışdı.

Özbək hakimi ilə aradakı bu qarışıqlığın bir aydınlaşan gününə çatacağını düşünən şah, hərbi yürüşə hazırlığın vəziyyəti ilə tanış olmaq qərarına gəldi. Bütün ehtiyatda olan Qızılbaş qoşunlarının hərbi keçidi hazırlandı. Süvarilər, piyadalar, kəşfiyyat dəstələri… bir sözlə Qızılbaş qoşunlarının ən adlı-sanlı dəstələri bu hərbi-rəsmi baxışa toplanmışdı. Şah əvvəlcə bir hündür tərəfdə dayanıb qoşunun ön cərgələri ilə üz-üzə dayanmaq, onlara sözünü demək istəyirdi. Amma, nizamla düzülmüş Səfəvi qoşununun ucu-bucağı görünmürdü. Şah göstəriş vermişdi ki, Məhəmməd Xan Şeybanidən məktub gətirən Taclı Bahadır və onun yanındakılar da Səfəvi qoşunlarının toplanışına baxsın.

Taclı Bahadırın özü əslində təcrübəli döyüşçü idi. Əvvəlcə o düşündü ki, bir az nizamlı qüvvələri Şah onun gözlərinin qabağında nümayiş etdirir. Məhəmməd xan Şeybaniyə qarşı dura biləcək gücdə olduğunu göstərmək istəyir. Amma Taclı Bahadır ucu-bucağı görünməyən Qızılbaş qoşunlarının böyük Sultaniyə Çəmənindəki düzdə əzəmətli görünüşünü seyr etdikdən sonra

vahimələndi. O, başa düşdü ki, Şeybani xanın ordusu nə qədər güclü olsa da, belə bir əzəmətli orduya qalib gəlmək iqtidarında deyil.

Hüseyn bəy Lələ Şamlı Şahın ağ rəngli atının gətirilməsini əmr etdi. Şah başa düşdü ki, Hüseyn bəy Lələ Şamlı istəyir ki, o çıxış eləsin, Qızılbaşlara öz ürək sözlərini desin. Şahın atı qabaq ayaqlarının dırnağı ilə yeri eşir, sanki başı ilə irəlini göstərir. Şığımaq üçün yüyəninin boşaldılmasını istəyirdi.

Qızılbaşlar ağ köhlənin üstündə Şahı görən kimi qışqırdılar:

– Var olsun şahımız, canımız fəda olsun mürşüdümüzə!

Hər tərəfdən gurultulu – «Var olsun! Var olsun! – sədaları ucaldı…

Şah əlini yuxarı qaldırdı, bir anlıq ucu-bucağı görünməyən düzdə sakitlik yarandı. Şah köhləni hərəkətə gətirib ilk dəstəyə yaxınlaşdı.

– Ey Səfəvi xanədanının canfəda döyüşçüləri, siz, hər an ölkəmizin sərhədlərini qorumaq üçün döyüşə atılmağa hazırsınız, mən bunu yaxşı bilirəm. İndiyə qədərki döyüşlərdə sizin hər birinizin igidliyi, qorxmazlığı unudulmayıb. Ancaq bu gün yenidən ən şərəfli bir döyüşə girməyə məcburuq. Mən sizin qorxmazlığınıza, igidliyinizə güvənirəm, mənim Qızılbaşlarım!..

Şahın sözü bitməmiş Qızılbaşların cavab harayları elə bir əzəmətlə gurladı ki, səs uzaq üfüqlərəcən yayıldı. Şah köhləni nizamlı cərgələrin arası ilə çapdı. Hər yaxınlaşdığı dəstənin önündə dayanır, bir neçə kəlmə deyirdi. Qızılbaşlar isə onun sözlərinə: – Canımız fəda olsun mürşüdümüzə! – harayı ilə cavab verirdilər.

Qızılbaşların bu sıra baxışından şahın qəlbi fərəhlə döyünürdü. O, önündəki qüvvələrin məğlubedilməzliyinə inanırdı. Hiss edirdi ki, elə Qızılbaşlar da ona inanırlar. Hətta, Qızılbaşların məğlubedilməzliyi haqqında söz-söhbət o qədər geniş yayılmışdı ki, orduya yazılmaq üçün gələnlərin ardı-arası kəsilmirdi.

Hətta yaşlı döyüşçülər də orduya qayıdır və mütləq Şeybani xanla savaşda iştirak etmək istədiklərini bildirirdilər. Səhəri gün hərbi səfərin ilk dəstələri yola düşməzdən əvvəl altmış yaşını ötürmüş bir döyüşçü şahla görüşmək istədiyini bildirdi. Şah onu görən kimi tanıdı. Bu ərdəbilli Məhəmməd Danə idi. Hərb elmini yaxşı bildiyinə görə, ona «Danə» ləqəbi vermişdilər. Çoxlu döyüşlərdə iştirak eləmiş, ad-san qazanmışdı. Əvvəlcə Şah İsmayılın babası Şeyx Cüneydin ordusunda savaşmış, sonra Şeyx Heydərin ən igid döyüşçülərindən biri olmuşdu.

Şah onu görən kimi özü irəli yeridi. Məhəmməd Danə də onunla qucaqlaşıb görüşdü. Yanındakı gənci də şaha təqdim etdi:

– Bu da mənim oğlum Əxi Sultandır.

Şah Əxi Sultanla da isti görüşdü. Sonra da üzünü Məhəmməd Danəyə tutdu:

– Buraya gəlməkdə bir məqsədin, məramın varmı? – deyə soruşdu.

* * *

Şah İsmayıl Sultaniyyə Çəmənində yay ərzində baş verən hadisələr haqqında kifayət qədər düşünmək imkanı qazanmışdı. Doğrudur, Qızılbaşlar kiçik müharibələrdə qalib gəlsələr də, şah da, Səfəvi xanədanının əmirləri də yaxşı bilirdilər ki, özbək hakimi kiçik müharibələrdə aldığı zərbənin əvəzini çıxmağa hazırlaşır. Bu, azmış kimi Şah İsmayıla xəbər çatdırmışdılar ki, Məhəmməd Xan Şeybani gizli yollarla Osmanlı sarayı ilə də əlaqə saxlamağa çalışır. Belə görünürdü ki, Məhəmməd xan Şeybani əsas həlledici döyüşü ona görə ləngidir ki, Osmanlılar Səfəvilər üzərinə hücuma keçsinlər. Yaxud heç olmasa, hazırlıq işləri ilə Səfəvilərin diqqətini cəlb etsinlər. Onda Şah İsmayıl qüvvələrinin xeyli hissəsini Osmanlı qoşunlarının hücum edəcəyini nəzərə alıb, ehtiyatda saxlamalı olacaq. Bu da Məhəmməd xan Şeybaniyə Şah İsmayılla haqq-hesab kəsməyə imkan yaradacaqdı.

Səfəvi əmirlərini başına yığan, mövcud vəziyyəti müzakirə edən şah Osmanlıların hücum edəcəyi təqdirdə görüləsi tədbirləri əmirlərə çatdırdı.

Hüseyn bəy Lələ Şamlı birinci söz alıb danışdı:

– Biz mümkün qədər tez Məhəmməd xan Şeybanidən üzülüşməliyik. Onsuz da artıq hər birimizə məlumdur ki, Məhəmməd xan Şeybani Səfəvi hakimiyyəti ilə qətiyyən barışmır. Çox güman ki, Osmanlılara sığınmış Ağqoyunlu səltənətinin varisləri də müharibə başlayacağı təqdirdə Osmanlılardan alacaqları qüvvə ilə bizim üzərimizə yeriyəcəklərini də bildirirlər.

Hüseyn bəy Lələnin sözlərini diqqətlə dinləyən əmirlər bir-bir öz mülahizələrini bildirməli oldular. Div Sultan Rumlu, şahın bacısının əri Bayram bəy, eləcə də şahın qayınatası Əbdi bəy Şamlı Məhəmməd xan Şeybaniyə qarşı döyüşü gecikdirməyin gözlənilməz fəsadları olacağını da bildirdilər. Əbdi bəy Şamlı iki tərəfdən döyüşməyin yaradacağı çətinlikdən çıxmaq üçün tezliklə Məhəmməd xan Şeybani ilə qarşılaşmağa şahdan izin istədi.

Şah baş verən hadisələrin daha dəqiq tənzimlənməsi üçün qonşu əyalətlərin hakimlərinə, xüsusilə, Misir məmlüklərinə dostcasına məktublar göndərdi. Onlara bildirdi ki, heç bir hiyləgər düşmənin şirin yalanlarına uymaq olmaz.

Şah İsmayıl bir neçə minlik qoşunu Məhəmməd xan Şeybaninin üzərinə göndərdi. Həmin qoşun dəstəsinə Qızılbaşların ən sadiq müridlərindən olan, yaşı altmışı keçmiş Danə Məhəmməd başçılıq edəcəkdi. Şah İsmayıl onu döyüşə göndərməzdən əvvəl fikirindən daşındırmaq istədi. Amma Danə Məhəmməd özbək hakimi Məhəmməd Şeybaniyə qarşı oğlu ilə birgə döyüşəcəyini təkid etdikdən sonra, şah onunla razılaşdı.

Şah bu yaşlaşmış döyüşçünü bu ağır hərbi səfərə göndərəndə bir daha onun sarsılmaz əzminə, iradəsinə heyranlığını bildirmişdi.

## ÇALDIRAN YOLU

Payızın sonlarında Qızılbaş qoşunu Danə Məhəmmədin başçılığı ilə Mərv yaxınlığında özbək qoşunları ilə qarşılaşdı. Döyüş başlamazdan əvvəl Danə Məhəmməd oğlu Əxi Sultanı yanına çağırıb indiyə qədər ona demədiyi sözlərlə vidalaşdı.

– Əxi Sultan, sən bilirsənmi mən səni nə üçün böyütmüşəm?

Atasının bu sözləri Əxi Sultana qəribə gəldi. Əvvəlcə necə cavab verəcəyini bilmədi. Axır ki, özünü cəmləyib dilləndi:

– Oğlun olduğum üçün məni böyütmüsən.

– Orası doğrudur, ancaq unutma ki, səni Səfəvi ocağına sədaqətli olmaq üçün böyütmüşəm. Son ana, son nəfəsə qədər sən bu ocağa sadiq olmalısan.

Danə Məhəmməd oğlunu həqiqətən təkcə hərbiçi yox, həm də bilikli, dövrün irfani elmlərindən xəbərdar bir gənc kimi böyütmüşdü.

Atasının sözlərindən qürurlanan Əxi Sultan gözlərini dolandırıb atasına qürurla baxdı. Və bu yerdə atasının yanında heç vaxt demədiyi sözləri dilinə gətirdi.

– Ey ata, biləsən ki, mənim varlığımda bütün hisslərim Xətai eşqiylə döyünür. Onun adı, səsi, sözü ilə nəfəs alıram. – Əxi Sultan bunları atasına dedikcə, sanki atasının gözündə hər sözlə ucalırdı. O, hiss edəndə ki atası sözlərindən qürurlanır, onda bir az da xəyallanır və ruhu qanadlanırdı. Əxi Sultan gözlərini yumub xəyallandı. Əllərini qabağa açıb dua edirmiş kimi səsləndi. İndi o atasına tərəf baxmırdı. Xəyalındakı kimsəylə həsbi-hal edirdi:

*Ey şəha, mən səndən özgə sevmədim, sevmən dəxi.*
*Mahi-rövşən səndən özgə sevmədim, sevmən dəxi.*

*Hər kimin bir ahu gözlü dilbəri seyrandadır,*
*Göz dəxi ceyrandan özgə sevmədim, sevmən dəxi.*

*Cigərim səd parədir qəmzən oxundan, ey sənəm,*
*Kirpigi müjgandan özgə sevmədim, sevmən dəxi.*

*Bu həqiqət məclisində mən sənəm, sən dəxi mən,*
*Eylə sanma, səndən özgə sevmədim, sevmən dəxi.*

*Dilbər aydır: – Ey Xətai, bir dəxi sevdin məgər?*
*– Həq bilür ki, səndən özgə sevmədim, sevmən dəxi.*

Bir daha ata-oğul döyüşqabağı qucaqlaşdılar. Danə Məhəmməd bir az da qalsa kövrələcəyini hiss edib oğlundan tez ayrılmaq istədi. İndi o, döyüşə oğlundan son dərəcə əmin-arxayın gedirdi.

Meydan get-gedə iki tərəfin bir-birinə tərəf gələn qoşunu ilə tutulmaqda idi. Məhəmməd xan Şeybani ən igid sərkərdələrini Qızılbaş qoşununa qarşı amansız döyüşün cəngavərləri kimi vuruşa göndərmişdi.

Danə Məhəmməd yaşının çoxluğuna baxmayaraq, at üstə döyüşün mahir ustası idi. Qızılbaşlar Canvəfa Mirzəni tez öldürdülər. Danə Məhəmməd isə Bayqu Bahaduru gözaltı eləmişdi. Atını düz onun üstünə sürdü. Bayqu Bahadur Danə Məhəmmədə nizəsini atdı. Danə Məhəmməd isə yaşına uyğun gəlməyən bir çevikliklə nizədən yayındı. Onda Bayqu Bahadur atını onun üstünə çapıb qılıncla onu bölmək istədi. Danə Məhəmməd isə onu məqsədindən məhrum etdi. Çünki nizəsi ilə Bayqu Bahaduru vurub atdan salmışdı.

Bu vaxt özbək döyüşçülərindən biri kənardan Danə Məhəmmədə ox atdı. Əxi Sultan gördü ki, atası atdan yıxıldı. Tez onun yanına özünü yetirdi. Ata-oğul son dəfə göz-gözə gəldilər. Danə Məhəmmədin gözlərində bir arxayınlıq vardı. Əxi Sultan isə atasının ölümündən sanki qəzəbə dolmuşdu. Canını tapşıran atasının cəsədini atın ayaqları altında qalıb əzilməsin deyə bir kənara çəkdi. Təzədən atın üstünə qalxdı. Meydanda əl-qol hərəkətləri ilə döyüşü idarə edən düşmən qoşununun daha bir başçısına özünü yetirdi. Yekəpər, atın üstündə daha hündür görünən özbək döyüşçüsü üstünə yeriyən gənc Qızılbaş əsgərinə əvvəlcə saymazyana baxdı. Sonra gördü ki, o, qarşısına çıxanları çox asanlıqla yolunun

üstündən götürür, onda özü Əxi Sultanın üstünə yeridi. Əxi Sultan atasından aldığı çeviklik dərsini artıq bu məqamda icra etməli idi. Əxi Sultan qışqırdı: «Mürşidimiz var olsun!». Özbək döyüşçüsü onun nə üçün qışqırdığından çaşdı. Elə bildi ki, ona kimsə arxa tərəfdən hücum çəkir. Bir anda gözü ilə yana baxarkən, Əxi Sultanın qılıncı onun başını iki paraya ayırdı.

Məhəmməd xan Şeybani qəzəblənib meydana yeni qüvvələr göndərməkdə davam edirdi. Danə Məhəmmədin gətirdiyi Qızılbaş qoşunu isə kifayət qədər seyrəlmişdi. Məhəmməd xan Şeybani meydandaki bütün Qızılbaşları məhv etmək əmri verdi. Elə bu vaxt şahın öz başçılığı ilə səfəvi qoşunlarının əsas hissəsi özünü meydana yetirdi. Özbək qoşunları yeni qüvvələrlə döyüşmək iqtidarında deyildi. Güc-bəla ilə canlarını qurtarıb Mərv qalasına tərəf qaçdılar.

Məhəmməd xan Şeybani artıq anlamaqda idi ki, Şah İsmayıla asanlıqla qalib gələ bilməyəcək. Döyüşarası fasilənin yaranmağından istifadə edib Mərv qalasını möhkəmləndirməyə başladı.

Şah İsmayıl Qızılbaş sərkərdələrinə müxtəlif tərəflərdən qalaya girmək əmri verdi. Ancaq mümkün olmadı. Neçə müddət keçdisə də Qızılbaşlar Mərv qalasını tuta bilmədilər. Məhəmməd xan Şeybanidə, deyəsən təhlükənin sovuşduğuna dair inam yaranmaqda idi. Bu vaxt Şah İsmayıldan qalaya atılan bir məktubu ona verdilər.

Şah İsmayıl Məhəmməd Xan Şeybaniyə yazırdı ki: «Sənin qorxaqlığından təngə gəlib getdim. Nə vaxt özündə cəsarət tapıb mənlə döyüşmək istəsən, xəbər edərsən» qızılbaşlar qaladan sürətlə uzaqlaşdılar. Məhəmməd xan Şeybani kəşfiyyat dəstəsi göndərdi. Yüz nəfərlik Qızılbaş süvarisi Məhəmməd xan Şeybaninin adamlarına qarşı guya döyüşə bilmədikləri üçün qaçmağa üz qoydular. Məhəmməd xan Şeybani elə başa düşdü ki, Qızılbaşların imkanları tükənib, döyüşə bilmədiklərindən meydandan qaçırlar. Onda özü başçılıq edərək Qızılbaşları təqib etməyə başladı.

Şah İsmayıl bunu əvvəlcədən düşünmüşdü. Ona görə də Məhəmməd xan Şeybanini qalaya qayıtmaq yolunu kəsmək əmri verildi. Şah İsmayıl özü də döyüşün qızğın yerində idi. Onun gözü Məhəmməd xan Şeybanini axtarırdı. Amma heç bir tərəfdə gözünə dəymirdi.

Məhəmməd xan Şeybani isə qorxu içində qaçıb canını qurtarmaq haqda düşünürdü. Əsas yollar bağlı olduğundan Məhəmməd xan Şeybaninin də içərisində olduğu dəstə bataqlığa sıxışdırılırdı. Adamlar bir-birinin arxasınca bataqlıqda qərq olurdu.

Döyüş qurtarırdı, ölənlərin və yaralıların arasından Məhəmməd xan Şeybaninin cəsədi tapılmırdı. Bu vaxt bataqlıqda olanların cəsədləri arasından özbək hakiminin palçıqda boğulmuş cəsədi çıxarıldı. Uzaq Borçalı ellərindən Şah İsmayılın yanında xidmətə gəlmiş, Əziz Ağa Bahadır adlı cavan bir döyüşçü dəqiqləşdirdi ki, bu, Məhəmməd xan Şeybaninin cəsədidir. Onun başını bədənindən ayırıb götürdü və at üstündə təpənin üstündən meydanı müşahidə edən şahın önündə yerə atdı.

Şah İsmayıl hər iki tərəfdən yaralananların yığılıb yardım göstərilməsini tapşırdı. Ölənlər dəfn edildi. Şah İsmayıl Əxi Sultanı yanına çağırıb ona qiymətli ənam verdi. Əziz Ağa Bahadır Borçalıya da qiymətli hədiyyələr bağışladı. Özbək hakiminin xəzinəsindən həlak olmuş Qızılbaşların ailələrinə pay ayrıldı. Şah hər kəsi xidmətinə görə mükafatlandırdı. Məhəmməd xan Şeybaninin isə kafa tasını çıxarıb qızıla tutmağı tapşırdı.

* * *

Şah İsmayıl Mərv qalasına daxil olandan sonra Məhəmməd xan Şeybaninin idarəçiliyində olmuş ərazilərdə əhalinin dolanışıq vəziyyəti ilə maraqlandı. İndi onun sərhədləri Amudərya sahillərinə qədər gəlib çatmışdı. Əvvəlcə düşünürdü ki, bu ərazilərə hakimliyi həm hərbidə, həm də sənətdə – şeir, qəzəl sənətində özünə ustad bildiyi, bu gün də hörmət və ehtiramını

qəlbində məhəbbətlə gəzdirdiyi Hüseyn Bayqaranın övladlarından birinə versin. Təəssüf ki, Məhəmməd xan Şeybani Hüseyn Bayqaranın varislərini qəddarlıqla qətlə yetirmişdi. Belə olan halda özbəklər arasında nüfuzu, hörməti olan şəxsləri toplayıb yanına gətirməyi əmr verdi.

Hökmdar başa düşürdü ki, bu yerlərdə çox ləngisə, ölkənin cənub və qərb sərhədləri Səfəvi xanədanına hələ də bədxahlığından əl çəkməyən qüvvələrin üzünə açıq qalacaq. İqtidardan salınmış Ağqoyunlu varislərinin xələfləri Osmanlı sarayına toplanmışdı. Doğrudur, həmin vaxtlarda Osmanlıların hərbi qüvvələri daha uzaq – qərb tərəflərə yürüşdə idi. Amma Hüseyn bəy Lələ Şamlının kəşfiyyat üçün göndərdiyi adamlar bir-birinin arxasınca xəbər gətirirdilər ki, Osmanlılar öz ölkələrinin qərb sərhədlərinin təhlükəsizliyini təmin edən kimi, cənub-şərqə üz çevirəcəklər. Məhəmməd xan Şeybani də, təkrar-təkrar Osmanlı sarayına göndərdiyi məktublarda onları Səfəvilər üzərinə hücuma təhrik etmişdi. Elə Osmanlı sarayından da həm Məhəmməd xan Şeybaniyə, həm də Misir sultanına razılaşmaq üşün təhrik məktubları gəlməkdə idi.

…Şah divanxanada tək oturmuşdu. Ətrafda bir kimsə gözə dəymirdi. Hərdənbir saqi onun ətrafına dolanır, şaha nə isə lazım olub-olmayacağını öyrənmək üçün yaxınlaşır və sonra çəkilib gedirdi. Hərdənbir onun qarşısındakı qızıla tutulmuş piyaləyə də al qan rəngli şərab süzürdü. Şah əvvəlcə öz dəst-xəttilə Osmanlı sarayına bir məktub göndərmək istədi. Bu məktubda o, Məhəmməd xan Şeybaninin aqibətinin acı sonu haqqında da məlumat yazmaq fikrində idi. Dövrün böyük hökmdarı öz düşüncəsindən keçən «aqibətinin sonu» yəni «indi onun kəlləsi piyalədir» ifadəsinə münasibətini üzündəki istehzalı təbəssümlə bildirdi və qarşısındakı qızıl piyalədə bərq vuran şərabı içmək üçün əlini uzatdı. Bu vaxt sanki gözlərinin önündə bədəndən ayrılmış başın bərələ qalmış gözlərini gördü. Axı bu piyalə

Məhəmməd xan Şeybaninin kəlləsindən düzəldilmişdi. Şah özü tapşırmışdı ki, onun kəlləsindən piyalə hazırlasınlar. O, bu fikrə asanlıqla gəlməmişdi. Çox tərəddüd eləmişdi. Amma olub-keçənləri xəyalında birər-birər canlandırandan sonra, nəhayət ki, qərarını vermişdi: «O, ölümündən sonra da cəzasını almaqda davam etməlidir. Axı ona müdrik Hüseyn Bayqaranı öldürməməyi məktublarımla bildirib xahiş etmişdim. O, nəinki Hüseyn Bayqaranı öldürdü, hətta oğlanlarını da qətlə yetirdi. Sonra bununla kifayətlənməyib bizim yerlərə də tamah saldı. Kirman qalasında bir günün içində onun adamları nə qədər insanı qətlə yetirmişdi».

Şah İsmayıl Məhəmməd xan Şeybaninin qızıla tutulmuş kəlləsindən gözlərini ayıra bilmirdi. İndi Şah İsmayılın əlində şərab badəsi olan bu kəllənin sahibi də dünənəcən elə Şah İsmayılın özü kimi incə ruhlu bir şair olmuşdu. Əslən Batı xanın nəslindən olan Şeybani xan şeirlərində özünü Şah Bəxt adlandırırdı. İndi Şah Bəxtin – Şeybaninin kəlləsi başqa bir şair hökmdarın əlində qədəh olmuşdu. Şeybaninin, şair Şah Bəxtin dedikləri Xətainin əzbərindəydi. İndi şairin piyaləyə çevrilmiş kəlləsinə baxa-baxa onları bir-bir xatırlayırdı:

*Övliyalar sərvəri ol şərhi – Türküstan imiş,*
*Yer üzünün nuru türkan mahi –Türküstan imiş…*

Olub-keçənlər birbəbir gözünün önündən ötməkdə idi; Məhəmməd xan Əfşar kimi Qızılbaş sərkərdəsinin öldürülməsini Şah İsmayıl hələ də unuda bilmirdi. Hələ Məhəmməd Dananin ölümü Səfəvi təriqətinin fədaisi, Qızılbaş yolunun sevdalısı olan bu qoçaq kişini heç döyüşə göndərmək istəmirdi. Amma o, oğlunu da özü ilə götürüb Mərvə gəlməyi təkidlə istəmişdi.

Şah İsmayılın düşüncələri üzərində belə dayanması təsadüfi deyildi. O, bir hökmdarın başqa bir hökmdarın aqibətinə belə

münasibətini, bəlkə də, düzgün hesab eləmirdi. Ancaq onun qəddarlıqlarını yada salanda özü öz əməlindən razı qalırdı.

Əvvəlcə bu kafa tasından hazırlanmış piyaləni hökmdara gətirəndə əlinə almaq istəməmişdi. Deyəsən, əti çimçəşmişdi, amma nəzər yetirib görmüşdü ki, ustalar piyaləni tamam qızıla tutublar. Həm içəri üzündən, həm də çöl üzündən. Qızılla örtülmüş kəllə sümüyünün heç bir nişanəsi görünmürdü. Hökmdar piyaləni əlinə götürdü. Əvvəlcə al şərabdan bir qurtum içdi. Şərabın dadı ona xoş gəldi. Qaytarıb piyaləni gözlərinin önünə tutdu. Sanki qan rəngli şərab ona «gəl-gəl» deyirdi. Birdən şahın xəyalına gəldi ki, əgər bütün zalımların qanı belə içilsə, yer üzündəki ədalətsizliklər, zülmkarlıqlar sona çatar. Şah piyaləni başına çəkdi, sonra da boş piyaləni o üz-bu üzünə çevirdi. Təkrar-təkrar diqqətlə baxdı. Elə bil Məhəmməd xan Şeybani ilə yenə nəsə danışmaq istəyirdi. Şərabın gətirdiyi hava onu bu ağır düşüncələrdən ayırdı: «Yox, daha keçmişlə danışmaq olmaz, indi irəliyə baxmaq gərəkdir». Hökmdar piyaləni yerə qoydu, lələk qələmi, yanında da kağız-davatı, deyəsən, indicə gördü. Yadına düşdü ki, o, Məmlük sultanına – Misir hökmdarına məktub yazmalıdır. Lələk qələmi əlinə götürdü, yanındakı davata batırdı. Kağızı özünə sarı çəkdi. Daha bütün ətraf aləm yadından çıxmışdı. Qələbəsinin məmnunluğu altında xoş duyğularla söz onun könlünü alıb aparmışdı. O, Misir sultanı Qansu Qiruya yazırdı: «Həqiqi məhəbbəti özündə ehtiva edən, şəhərə daxil olması ilə (oranı) abad edən salam karvanları və dualar qafiləsi, «onun (zeytun ağacının) yağı (o qədər saf və təmizdir ki,) ona od toxunmasa da, sanki işıq saçır. O, nur üzərində nurdur» (ayəsinin) çırağından alovlanan məzmununda həqiqi fikirlərin ehtiva edildiyi dostluq istiqamətli məktublar, «siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz» (ayəsinin şamil edildiyi) milləti qoruyanlar zümrəsində özünü təhlükəyə atan, niyyətinin saflığı və batininin təmizliyi ilə (qarşı tərəfi) qanunlar və əhd bağlamaq-

dan ehtiyacsız edən, şərafətli varlığı ilə həqiqi sevgi əsaslarının artmasının səbəbkarı olmuş, səxavətli vücudunda səltənət və xoşbəxtlik parlaqlığını ehtiva edən əhdnamə və xilafəti təmsil edən ali məqamın, yəni əzəmətli sultan, ümmətlər arasında hökm edən, padşahların dayağı, ədalət və insaf bayrağını ucaldan, zülm və zəlalətin əsaslarını kökündən qoparan, sahib və dost Allah tərəfindən yardım olunan, səltənət, hakimiyyət, ədalət və səadətin iftixarı Qansu Qirunun, – Allah qiyamətə qədər vücudunun bərəkəti ilə İslam bayraqlarını yüksəltsin, – hüzuruna göndərilir.

Salam və dostluğumuzu bildirdikdən sonra, dərya zehnin ortaya çıxardığı budur ki (belə düşünürəm ki), doğruluğuna şübhə edilməyən məsələlərdən biri də dostların sevincli və şad günlərində (onun dostunun da) sevinc və şadlıq içində olması, hidayət (olunan) sağlam fitrətin tələbidir. Bu günlərdə Allahın sonsuz lütflərinin ünvanı olan qələbə ilə bu sevimli (bəndəsi) çoxsaylı zəfər və qələbə əldə etmiş, «Biz onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik» (ayəsində buyurulan) yüksək (məsuliyyəti) həyata keçirtmək və qorumağı dərk etməyə izin vermiş, misilsiz əzəli lütf və qeybə məxsus fəth qapılarını din yolunda vuruşanların (mücahidlərin) üzünə açmış, «qalib mücahidlər» adlanan qələbə qılıncının aynasındakı (parıltısında) ehtiyac və məqsədlər çöhrəsinə əbədi mehribanlıq bağlılığını həmdəm etmişdir. «Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür (mərhəmətdir). Allah çox böyük lütf (mərhəmət) sahibidir!» Məhəbbətin doğruluğu belə tələb etdi ki, «əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam» (ayəsinin) buyruğuna uyğun olaraq Allahın şükrünü yerinə yetirmək üçün dostları bu böyük və əzəmətli ənam və bəxşişdən xəbərdar etməklə sevindirmiş olaq. Nəzərdə tutduğumuz budur ki, Çingiz xanın küfr ağacının bir budağı (Çingiz xanın kafir nəslindən) olan Şeybək Şeybani, Mavərənnəhr məmləkətləri və bütün Xorasanda ağalıq əldə etmiş, təkəbbür, qürur və lovğalıq

küləyi onun lovğalanmasına səbəb olmuş və doğru yoldan azaraq müqəddəs torpaqlara hücum edib, hər yeri qarət və talan etmişdi. Digər ölkələrə və (onların) sakinlərinə qarşı zülm və təcavüz qapılarını açmışdı:

*Kimin yaxşı günləri qara gələrsə,*
*Beyni ağlın nurundan uzaq olar.*

*Hər bir yeri xarabazara çevirər,*
*Pöhrəsinin məhsulu əzab-əziyyət olar.*

*Özünün bəxt-taleyindən təngə gələr*
*Ali səma ilə döyüşmək niyyətində olar.*

*Onun təbiət və xarakteri xarab olduğu üçün*
*Ruzigarın təbiəti də onu dəf edər.*

*Hər iki mənzili o şəxs yaxşı edər ki,*
*Allahın yaratdığına yaxşılıq edər.*

İlahi şəriətin qorunması, xilafət və sultanlıq qanunlarının mühafizə edilməsi tələb edirdi ki, müzəffər və güclü əsgərlər o dinə zərər vuran bədbəxti məğlub etmək üçün Xorasan məmləkətlərinə tərəf hərəkət etsinlər. «Siz çox güclü bir qövmlə vuruşmağa çağırılacaqsınız» ayəsində buyurulan fürsət gəlib çatmışdı. 916-cı il mübarək Şaban ayının altısı, cümə günü Mərv yurdunda iki ordunun qarşılaşdığı gün güclü döyüş və mübarizə başladı. Döyüş atəşinin şölələnməsindən qorxuya düşən qaniçən pəhləvan geri çəkilməyə üstünlük verdi:

*Hər tərəfdən kamanlardan ox atılır*
*Sən dedin ki, əcəl peyki qaçmağa üz qoydu*

*Hər tərəfdən qan su yerinə axır*
*Döyüşçülərin başını dən kimi biçirlər.*

Bəhram adlanan mücahidlər və intiqamçı şücaətli qazilər belə oxuyurdular:

*Qılınc və xəncər bizim ətirli güllərimizdir*
*Nifrin olsun «Nərgizgülü» və «as» gülünə.*
*Şərabımız düşmənlərimizin qanıdır*
*Piyaləmiz kəsilən başlardır.*
*Ölülərdən təpə düzəltdilər…*
*Bütün səmanın üzünü qan örtdü*
*Yer üzü alyanaq oldu.*
*Bu zaman qeybi yardımlar qaynağından*
*Açıq-aşkar fəth mehi əsməyə başladı…*

İzdiham və çoxluqdan uzaq olan bədbəxt Şeybani, habelə digər əmir və yardımçıları ox və nizələrin hədəfinə tuş gəldilər. İran və Turanın bütün məmləkətləri qüdrət və hökmranlığımızın altına keçdi. Bütün o torpaqlar xəbis qrupun murdar varlığından təmizləndi və «artıq o zalım tayfanın kökü kəsildi. Aləmlərin Rəbbi Allaha həmd olsun!» Bu böyük fəth Allahın yardımı, sadiq tərəfdaşlar və vəfalı dostların uğurlu fəaliyyəti ilə həyata keçmiş oldu. Üzərində çalışılan digər məsələlərdə dostluq əlaqələrinə ümid etməyi təbiətimizin tələbi olaraq gördüyümüz üçün məktubu məhəbbət mürəkkəbinin damcıları ilə doydurub bu sevincdolu xəbəri çatdırmaq xalqlar arasında böyük xəlifələrin fəxr etdiyi Həmzə xəlifəyə həvalə edildi.

Uca Allahın ipindən yapışan İsmayıl İbn Heydər İbn Cüneyd Səfəvi.

Məhəmmədə və pak ailəsinə salam olsun».

Şah məktubu öz adı və ünvanı ilə bitirdi. Ancaq bundan sonra nəsə yazmalı olduğunu da düşünürdü. Bilmirdi ki, nə yazsın. Axır ki, Uca Peyğəmbərin adına da bir «Salam»la məktubu bitirdi və məktubda yazdığı şeir parçalarını təzədən oxudu…

Misir sultanına onun rəğbəti böyük idi. Çünki o, nə Ağqoyunluların, nə Osmanlıların, nə də Məhəmməd xan Şeybaninin qızışdırıcı təkliflərinə məhəl qoymamış, onların şirnikdirici vəd-

lərinə aldanmamışdı. Özü də hər vaxt bədxah niyyətlə yazılmış məktublara Şah İsmayılın kölgəsində olmağından qürur duyduğunu bildirmişdi.

Şah Hüseyn bəy Lələ Şamlını çağırdı. Məktubu elə bu gün Məmlük sultanı Qansu Qiruya göndərməyi tapşırdı.

* * *

Sultan II Bəyazid müharibələrdən yorğun düşmüşdü. Uzun illərin gərgin həyatı, qonşu ölkələrlə çarpışmalar bir tərəfə, üstəlik saray çəkişmələri ilə müşayiət olunan ailədaxili əhvalatlar da onu sanki bu həyatdan bezdirmişdi. Oğlanları arasında baş verən inciklikər get-gedə düşmənçiliyə çevrilirdi. Və bütün bunları o, yaxşı görürdü. Səkkiz oğul övladından nisbətən böyük yaşda olan beşi bir-birinin arxasınca dünyalarını dəyişirdi. O, artıq səbəbləri bilinməyən bu ölümlərin bir-birinin arxasınca düzülüşünə şübhə ilə yanaşırdı. Qalan üç oğlu Sultan Qorqud, Sultan Əhməd və Sultan Səlimi bir-birindən aralı saxlamaq qərarına gəldi. Onların da aralarında kəskin kin-küdurət olduğunu artıq duymaqda idi.

Böyük səltənəti idarə edən hökmdar oğlanları arasındakı münasibəti tənzim edə bilməməsinə görə özünü qınayırdı. Sultan Qorqudu İstanbuldan aralayıb Antalya hakimliyinə göndərdi. Sultan Səlimi də Trabzon bəyi təyin etdi. Beləliklə, hər iki qardaşa sanki anlatmaq istəyirdi; taxt-tacın gələcək sahibi Sultan Əhməd olacaq. Hələ ki, bu barədə kimsəyə bir söz deməmişdi. Amma, bu barədə məsləhətləşmək üçün baş vəziri yanına çağırdı. Onların görüşü Sultan sarayında bir axşam üstü baş tutdu. Çünki baş vəzir Osmanlı sərhədlərində Şahqulu Baba adlı birinin qaldırdığı üsyana qarşı hazırlıq tədbirləri ilə məşğul idi. O, tezliklə üsyanın yatırılmasına başçılıq etmək üçün Osmanlı Səfəvi sərhədlərinə gedəcəkdi. Əslində, baş vəzir heç özü də bu qorxulu səfərdə iştirak etmək istəmirdi. Hökmdarın onu çağırmasında bir xeyir ola-

cağını düşünüb tez özünü onun yanına yetirdi. Hökmdar onun məsləhətlərini həmişə hörmətlə dinləyirdi, sözünü eşidirdi. Onlar hər vaxt xüsusi mehribanlıqla görüşüb, bir-birinin səhhətindən hal-əhval tutardılar. Amma Əli Paşa gördü ki, indi hökmdarın gözlərində bir laqeydlik nəzərləri var. Yaxın gəlib hal-əhval tut-du. Hökmdarın əli də nəzərləri kimi soyuq idi. Baş vəzir Əli Paşa Xadim sultanın səhhətində baş verən dəyişikləri gördüyündən ona hakimiyyətin taleyi ilə bağlı fikirlərini bildirmək istədi. Ancaq haradan, nədən başlayacağını hələ ki, bilmirdi. Buna görə də söhbəti haradan, necə başlamağı hökmdarın öz öhdəsinə buraxıb onun ömrünə dua elədi.

– Sultanın ömrü uzun olsun, – dedi və təkrar-təkrar təzim elədi.

Sultan onun dualarına o qədər də əhəmiyyət verməyib: – Ömür bizim əlimizdə deyil, Əli Paşa, – dedi.

– Allah bu günə qədər hökmdarın taxt-tacını uca eləyib, bundan sonra da kölgəsini onun özünün və övladlarının üzərindən əksik eləməz – Əli Paşa bir də təzim elədi.

– Əli Paşa, əgər övladlar ağıllı olub bir-birinə ehtiram göstərməklə atadan qalanı qorusalar, onda Allah da kölgəsini əsirgəməz.

– Doğrudur, hökmdarım, çox doğrudur.

– Allahın lütfü böyükdür. – Sultan bu sözləri dedi və Əli Paşaya yanında əyləşməyə yer göstərdi.

Onlar bir-birini çox uzun illərdən bəri tanıyırdılar. Əli Paşa sultanın atasına da xidmət eləmişdi. Sarayın da görünməyən tərəflərini yaxşı görə bilirdi. Ən başlıcası, onun sədaqətinə hökmdar çox inanırdı.

– Hə, Əli Paşa indi mən bilmək istəyirəm, sənin fikrincə, mənim oğlanlarım arasındakı ədavət nə yerdədir? – Hökmdar sualını beləcə sərt verdi və Əli Paşa Xadimin gözlərinə baxdı.

Əli Paşa Xadim hökmdarın belə sual qoyacağını gözləmirdi. Ona görə də özünü cəmlədi və bildi ki, əsas fikri deməyin məqamı gəlib çatıb. Yenə bir az da səbrini basıb söhbətin axarını gözlədi.

Hökmdarın isə onun cavabını intizarla gözlədiyini hiss etdiyindən dillənib nə isə deməli olduğunu da anladı. Belə hallarda cavabı gecikdirmək hökmdarın acığına gələrdi. Ona görə də bir qədər yumşaq, amma səmimiyyətlə cavab verməyə çalışdı.

– Hökmdar, Allahın yanında əziz övlad odur ki, atanın yolunu şərəflə davam etdirsin! Tanrının kəraminə şükür, Sultan Qorqud da, Sultan Əhməd də hər biri hakimiyyəti idarə etmək iqtidarındadır. Sultan Səlimin də gələcəyi belə görünür. O da çox fəhmli və bacarıqlı cavandır, – dedi.

Doğrudur, Sultan Səlim digər qardaşlardan kiçiyi olsa da, onun da yaşı az deyildi. Hətta Sultan Səlimin oğlu Sultan Süleyman Kəfə adlanan ərazinin sancaqbəyi idi. Çox gənc olsa da, qayda-qanunu qorumaqda mahir idi. Ancaq hiss olunurdu ki, Əli Paşa Xadim hələ Sultan Səlimi hakimiyyət üçün münasib görmür. Və bunu hökmdar da hiss elədiyindən Sultan Əhməd və Sultan Qorqud üzərində dayanmalı oldu:

– Əli Paşa, bəs onda sənin fikrincə, hakimiyyəti kim daha yaxşı idarə edər?

Əli Paşa dünya görmüş adam idi. Bilirdi ki, ağzından çıxaracağı hər bir söz gələcəkdə ona ənam da bəxş edə bilər, edam da. İndi kimin adını çəksin? Bu məsələ onun üçün həyatı bahasına bir cavab olacaqdı. Hər halda Sultan Əhməd yaxında idi. Bilirdi ki, Sultan Əhmədi İstanbulda saxlamaqla hökmdar hakimiyyətin taleyini yaxın gələcəkdə ona etibar etmək istəyir.

– Hökmdar, hələ ki, Sultan Əhməd yaxındadır. Mənim nəzərimcə, ona hakimiyyət işlərini tədricən tapşırmaq olar.

– Nə qədər müddətə? – Hökmdar qətiyyətlə dilləndi.

– Hökmdar, onu bir özün, bir də Allah daha yaxşı bilər.

Sultan II Bəyazidin üzündən xəfif bir təbəssüm keçdi. Əli Paşa Xadim də hiss elədi ki, hökmdar onun cavabından razı qalıb. Bu, onu bir az da ruhlandırdı. Özündə cəsarət tapıb öz sözünə qüvvət üçün davam elədi:

– Hökmdar, ömrü verən Allahdır, amma mənim nə qədər canım sağdır Sultan Əhmədə dayaq olacağam. Elə bilirəm ki, indiyə qədərki xidmətimlə sədaqətimi sübut etmişəm. Bunu hökmdar da yaxşı bilir.

Sultan II Bəyazid gözlərini yumub fikrə getmişdi. Amma Əli Paşa Xadimə elə gəldi ki, hökmdarı bir anlığa yuxu tutub. O da sakitcə onun yuxudan oyanmasını gözləməli oldu. Amma hökmdar yatmamışdı. Sanki həyatının ağırlığı, övladlarının münaqişə dərdi, bir-birinə bağışlanmaz ədavəti ağır bir yükə dönüb onun çiyinlərindən basırdı. Axır ki, gözünü yavaş-yavaş açdı. Əli Paşanı da, oturduqları divan otağını da birər-birər süzdü, gözləri yol çəkdi və sonra asta-asta dilləndi:

*Xudaya xudalıq sənə yaraşır,*
*Necə ki gədalıq mənə yaraşır…*

Sultanın öz şeiri idi. Sarayda sultanın bu şeirini əzbər bilməyən yox idi. Davamını Əli Paşa söylədi:

*Mən etdim onu ki, mənə yaraşır*
*Sən eylə onu kim sənə yaraşır…*

– Əli Paşa, – Bəyazid az qala pıçıltıyla dedi, – sən də onu elə ki, sənə yaraşır… Şahqulu Baba üsyanı genişlənməli olsa, və Səfəvilər də bu işə qarışsa, onda Osmanlı taxt-tacının sonu gələcək. Əgər sənin baş vəzir olduğun bu taxt-tacın salamatlığını istəyirsənsə, onda gərək özün qoşunun üstündə olasan, üsyanı tezliklə yatırıb saraya qayıdasan və biz də səninlə birgə Sultan Əhmədin tacını təbrik edək.

Hökmdarın bu hökmü bir tərəfdən Əli Paşa Xadimi sevindirsə də, digər tərəfdən onu kədərləndirdi. Ona görə sevinirdi ki, o, Sultan Əhmədin hakimiyyətə gəlməyini istəyirdi. Və hökmdar da buna razılıq vermişdi. Digər tərəfdən o, Səfəvi sərhədlərinə tərəf hərbi yürüşdə iştirak etmək istəmirdi. O, indiyə qədər

çox hərbi səfərlərdə iştirak etmişdi. Və heç vaxt hərbi səfərdən çəkinməmişdi. İndi nədənsə ona elə gəlirdi ki, bu səfərin ağır bir qəzası onun başında çatlayacaq.

Daha iş-işdən keçmişdi. O, hərbi səfərdən imtina edə bilməzdi. Çünki bu, hökmdarın göstərişi idi.

…Sultan Səlim uzaq Trabzonda olsa da, sarayda baş verənlərdən hali idi. Atası onu Trabzona hakim göndərəndə Sultan Əhmədi də səltənətin hansısa bir tərəfinə göndərəcəyini vəd etmişdi. Amma aylar ötmüş, vaxt keçmişdi. Sultan Əhməd İstanbula yaxın idi və gününün çoxunu da atasının yanında keçirirdi. Belə olan təqdirdə Sultan Səlim qətiyyətli hərəkət etməyi qərarlaşdırdı. O, inandığı qüvvələrlə İstanbula tərəf hərəkətə başladı. Atasına tez-tez məktub yazaraq onu inandırmağa çalışırdı ki, Sultan Əhməd səltənəti idarə edəcək birisi deyil. O, daha çox saray məclislərinin adamı kimi tanınırdı. Həm də iradəsizdir. Bunları ardıcıl göndərdiyi məktublarla atasına çatdırırdı. Həqiqətən məktubların təsiri olmuşdu. Sultan Bəyazid də artıq fikrində, düşüncəsində yaranmış tərəddüdlərin qarşısını ala bilmirdi. Ancaq yaxşı bilirdi ki, Sultan Səlim hakimiyyətə gəlsə, nəinki qardaşları Sultan Əhmədi və Sultan Qorqudu aradan götürəcək, hətta onların övladlarını da məhv edəcəkdi. Çünki vaxtilə özü də belə etmişdi. Qardaşı Cem Sultanın başına gətirmədiyi müsibət qalmamışdı. Sonunda Cem Sultan Fransa Kralı Şarlın himayəsinə sığınmışdı. İndi də oğlu Səlimin digər qardaşlarına divan tutacağından əndişələnirdi. Elə bu səbəbdən də Bəyazid hakimiyyəti Səlimə vermək istəmirdi.

Əli Paşa Xadim Şahqulu Baba üsyanını yatırtmaq üçün gedəndən sonra Sultan Bəyazidin ikinci məsləhətçisi Mövlanə Nurəddin Sarıgörəz idi. O, elm və bilik sahibi olan adam idi. Yaxşı nitq qabiliyyəti, deyiləni axıracan şərh etmək bacarığı var idi. Ən çətin elçiliklərə də o başçılıq edərdi. İndi Sultan Bəyazid özü Mövlana Sarıgörəzi çağırıb Sultan Səlimin yanına göndərdi. Özünə

də tapşırdı ki, çalışıb Sultan Səlimi inandırsın ki, hökmdar onun xətrini çox istəyir. Qoy səbir eləsin. Onun zamanı gələndə hökmdar yolunu açacaq. O da Allahın izni ilə Osmanlı taxt-tacının sahibi olacaq.

Nurəddin Sarıgörəz ilk gəncliyində Sultan Səlimin müəllimi olmuşdu. O, Sultan Səlimin necə qəddar bir şəxs olduğunu bilirdi. Onu da yaxşı bilirdi ki, Əli Paşa Xadimin hakimiyyətdəki nüfuzunu ancaq Sultan Səlim qıra bilər. Beləliklə, istəyərdi ki, Sultan Səlim hakimiyyətə gəlsin. Amma bunu açıq-aşkar qətiyyən bildirməzdi.

Mövlana Sarıgörəz Sultan Bəyazidin yanından çıxıb Səlimlə görüşə gedəndə tapşırığı necə yerinə yetirəcəyini düşünürdü. Əgər hökmdarın tapşırığını qədərincə yerinə yetirə bilməsəydi, onun üçün təzədən saraya qayıtmaq uğursuz bir tale ilə qarşılaşmaq demək olardı. Demək, o, bütün gücü ilə çalışmalı idi ki, Səlimi atasının dediklərinə inandıra bilsin. Ancaq Səlimin də tərs, inadkar olduğunu yaxşı bilirdi. Səlimi də inandırmaq asan olmayacaqdı.

Nurəddin Sarıgörəz uzun illər idi ki, hökmdar sarayında qulluq eləmişdi. Ən başlıcası, hökmdar Səlimin təlim-tərbiyəsini də ona həvalə etmişdi. Səlim gözünü açıb qayğısını çəkən Nurəddin Sarıgörəzi görmüş və onu özünün pənahəndəsi bilmişdi. Hər dəfə Nurəddin Sarıgörəzlə görüşüb ayrılanda Səlim üçün ağır keçərdi. Ağlayardı, ondan qopmaq istəməzdi. İndi bunlar uzaq keçmişdə qalmışdı. Səlim üçün də yeni zaman, yeni dövran gəlmişdi. O, saraydakı ən gözəl qızlardan biri ilə evlənmişdi. Həmin izdivacdan da oğlu Süleyman Paşa dünyaya gəlmişdi. Və Süleyman Paşanın özü də bir əyalət əmiri idi. Nurəddin Sarıgörəz bütün bunları xəyalından təsadüfi keçirmirdi. Səlimlə söhbətində onu özünə ata qədər əziz bilən uşağı yadına salacaq, onu necə böyütdüyünü xatırladacaqdı. Hələ Səlimin atasının saray ənənələrinə zidd olaraq müharibələrdə əsir alınmış gənc

qızlar arasından Hafizəni sevdiyi günlər – bunlar necə yaddan çıxa bilər. Hətta Səlim Hafizəyə elə dəlicəsinə vurulmuşdu ki, onu ölümlə hədələyən saray qaydalarının da qarşısında heç bir qorxu-hürkü hiss etmirdi.

İlk vaxtlar atası Bəyazid oğlu Səlimə Hafizə ilə görüşməyi qadağan etmişdi, hətta bu görüşlərin Sarıgörəz tərəfindən ciddiyə alınmamasına görə Səlimin müəllliminə də çox ciddi basqılar olmuşdu. Bu üzdən Sarıgörəz uzun müddət gənc Səlimin gənc Hafizə ilə görüşünə mane olmuş, onları bir-birindən ayrı, nəzarətdə saxlamağı tapşırmışdı.

Ancaq gənc Səlimin sevgilisindən ayrı düşməsi onun səhhətinə də çox pis təsir etmişdi. Səlim adamayovuşmaz olmuş, bir kimsə ilə görüşməyə belə qətiyyən can atmırdı.

Ən pisi də o idi ki, gənc Səlim gündən-günə meylini tənhalığa salırdı. Elmdən, kitabdan da aralı düşmüşdü. Axı o, əvvəllər vaxtının xeyli hissəsini yazıb oxumağa, təzə kitablarla tanışlığa sərf edərdi.

İndi Nurəddin Sarıgörəz müşahidə edirdi ki, Səlim hətta təzə nə isə oxuyubsa belə, heç bir məlumat vermir, heç nə demir, Sarıgörəzin özü ilə belə danışmaq istəmirdi. Müəlliminin qısa sorğularını bir-iki kəlmə «hə, yox» ilə cavablandırardı. Gənc Səlimin belə bir hala düşməsi – təbiətində baş verən bu dəyişiklik Sarıgörəzi, şübhəsiz, təşvişə salmalı olmuşdu. Üstəlik gənc Səlimin bir neçə ay içərisində xeyli sozaldığını da görürdü. Arıqlayıb xeyli çəki də itirmişdi. Məşqlər, döyüş təlimləri tamam yaddan çıxmışdı. Heç məşqçiləri, döyüş təlimçiləri istəsələr də, onları görüşünə belə yaxın buraxmırdı. Belə olan halda Nurəddin Sarıgörəz sanki ölümü gözünün altına alıb Sultan Bəyazidlə görüş niyyətinə düşdü. Hələ görüşdən əvvəl Səlimlə görüşmək istədi. Sultan Bəyazidlə görüş üçün tərəddüd etdiyindən bir az vaxtı uzadır, Səlimlə hər işi yoluna qoya biləcəyini düşünürdü. Bəlkə, Allaha xatir o, Səlimi yola gətirə bildi, inadından döndərdi?

Nurəddin Sarıgörəz böyük hökmdarlıq iddiasına düşmüş Səlimin hüzuruna gedərkən bu keçmiş xatirələr, uzun illərin o tayında qalmış əhvalatlar indi birər-birər yaddaşında canlanırdı. Ümidi də elə bu xatirələrlə bağlı idi. Axı Səlimin həmin ağır günlərində Nurəddin Sarıgörəz onu xilas etmiş, Hafizə Sultanla evlənməyinə yol açmışdı. Hələ üstəlik, Hafizə Sultandan ağıllı və bacarıqlı bir oğul – Süleyman Paşa da dünyaya gəlmiş və indi atasının dayağı kimi İmperiyanın böyük ərazilərindən birinə əmirlik edirdi.

…Uzaq keçmişdə qalmış xatirələr yada düşdükcə Nurəddin Sarıgörəzin gözlərində bir ümid qığılcımı alovlanmağa başlayırdı. İndi daha çox anlayırdı ki, nə üçün Sultan Bəyazid məhz onu Səlimin yanına göndərir. Demək, Sultan Bəyazid inanırdı ki, yalnız o, qardaşlar arasındakı nifaqın qanlı savaşa çevrilməsinin qarşısını ala bilər.

Nurəddin Sarıgörəzin sifətindən yenə xoş bir təbəssüm dalğası keçdi. O, yenə həmin uzaq keçmişdə qalmış günlərin əhvalına qayıtmışdı…

…Heç kimlə görüşməyən Səlimi axtarıb öz hücrəsində tapdı. Qarşısında çoxlu yazılı kağızlar, əlində isə qələm… nəsə yazmaqda gördü. Bir anlığa Səlim başını qaldırıb baxanda ustadı Nurəddin Sarıgörəzi qarşısında gördü. Kimsə, bir qeyrisi olsaydı, qəzəblənərdi. İcazəsiz hüzuruna nə üçün gəldiyinin səbəbini soruşmadan cəzaya düçar edərdi, cəzalandırardı. Amma indi ata kimi sevgili münasibət bəslədiyi Nurəddin Sarıgörəzin hüzurunda heç nə demədi, ayağa qalxıb başını aşağı dikdi. Gənc Səlim müəlliminə baxmasa da əlinin ucu ilə mizin üstündəki kağızların üstünü örtmək istədi. Ancaq dəvata toxundu. Mürəkkəb kağızların bir qisminin küncünü boyadı.

Nurəddin Sarıgörəz özü əlini uzadıb davat qabını düzəldib bir kənara çəkdi. Təzəcə yazılmış vərəqin bir küncü də mürəkkəbə batmışdı. Həmin vərəqi əlinə götürdü. Sətirlərin mürəkkəbi hə-

lə qurumamışdı. Müəllimi kimi Səlimin xəttini yaxşı tanıyan Sarıgörəz həm də bu xətti yaxşı oxuya bilirdi:

*Yarəb, ya o sevgilinin könlünə bir az mərhəmət ver,*
*Yaxud bu yaralı könlümə bir az səbir ver.*

*Xalqın arasında özünü saxlayıb fəryad etməmək qabildir,*
*Bəs qanlı yaşlar tökən gözü necə gizlətmək olar?*

*Yüz minlərlə vədindən heç birinə sadiq qalmadı,*
*Ey ruzigar, o unutqan sevgiliyə bizi xatırlat.*

*Bu nə haldır ki, kimdən vəfa istədimsə,*
*Axırda məni cəfa ilə öldürdü,*

*Ay üzlü sevgilim, yanağının alovu nə vaxta qədər yanacaq?*
*Səlimi həsrətlə bişdi, ona yazığın gəlsin!*

Nurəddin Sarıgörəz qəzəlin son misralarını oxuyub qurtardı. Axırıncı sözü də yazının üstündən oxuyanda «ona yazığın gəlsin» sözlərini sanki bu eşq sevdalısının dilindən elə özünə ünvanlanmış kimi qəbul etdi. Elə bil ki, Səlimin şeirini Səlim özü oxuyurdu və Nurəddin Sarıgörəzə xitabən oxuyurdu.

Artıq Nurəddin Sarıgörəz bütün varlığı ilə anlamışdı ki, Səlimi hansı ölkədənsə əsir gətirilmiş bir qızla sevişmək niyyətindən döndərmək olmaz. Doğrudur, heç Nurəddin Sarıgörəzin özü də bu qızın hansı şərq ölkəsindən gətirildiyi haqqında məlumatlı deyildi. Ancaq onu da yaxşı bilirdi ki, Hafizənin özü də uşaq çağlarından saraya gətirilmiş və burada çox ağıllı, savadlı qadın tərbiyəçilərə həvalə olunmuşdu. Bəli, Hafizənin özü də elə gözəlliyinə uyğun elm və savad almış, ağıllı bir qız kimi böyümüşdü. Nurəddin Sarıgörəz yaxşı bilirdi ki, Səlim Hafizə ilə hər görüşündə özünü nə qədər xoşbəxt hiss edir. Çünki Səlim istər qədim tarixdən, istərsə də elmdən, poeziyadan, keçmiş zamanlardan… haradan, nədən söhbət açsa, Hafizə ona uyğun cavablar

verirdi. Hələ deyəsən, əvvəllər Hafizənin adı başqa cür olmuşdu. Yaxşı yaddaşı, diqqəti olduğuna görə ona sarayda Hafizə adı verilmişdi.

Nurəddin Sarıgörəz yolboyu bütün bunları xəyalından keçirdikcə özü də sanki o illərə qayıdır, ömrünün necə qayğısız və xoş keçən günlərinin sürətlə ötüb keçmişdə qaldığına təəssüf edirdi. Vaxtilə Səlim əyalətə hökmdar göndəriləndə onu da özü ilə aparmaq istəmişdi. Amma Nurəddin Sarıgörəz saray və divan işlərindən yorulduğunu bəhanə edərək elm və ibadətlə məşğul olmaq istədiyini bildirmiş və Səlimin yanına getməkdən vaz keçmişdi. Arada düşünürdü ki, bəlkə, Səlimin yanında olsaydı, onda başı daha salamat olardı. Onsuz da Səlim istəsəydi əmir olandan sonra ciddi bir göstərişlə Nurəddin Sarıgörəzi yanına apartdırardı və Nurəddin Sarıgörəz də heç onun əmrindən çıxmazdı və çıxa da bilməzdi.

İndi nə etmək olar? O, sarayda qalmış, Səlim isə ondan ayrılıb əyalətə getmişdi. Aradabir Sarıgörəzi yanına çağırır, sarayda olan hadisə və əhvalatlar haqqında ondan soruşur, qardaşlarının nə niyyətdə olduğunu öyrənməyə çalışırdı. Hələlik Nurəddin Sarıgörəzin elə sarayda olmağı daha sərfəli idi. Çünki onun inandığı yeganə adam elə müəllimi idi.

Bu dəfə Səlimin yanına Nurəddin Sarıgörəz böyük hökmdar Sultan Bəyazidin göstərişilə gedirdi. Əgər işlərdən yaxşı bir nəticə olmasaydı, o, Səlimdən xahiş edəcəkdi ki, onu elə öz yanında edam etsin, daha Bəyazidin yanına qaytarmasın. Onsuz orada da onu yaxşı heç nə gözləmədiyini də bilirdi.

O vaxt Nurəddin Sarıgörəz hökmdarla görüşüb Səlimin eşq dəlisi olduğu haqqında danışmalı olmuşdu. Xatirələr yenidən Nurəddin Sarıgörəzi öz ağuşuna aldı. Beləliklə, gənc Səlimin müəllimi təkidli xahişlərdən sonra Sultan Bəyazidin özü ilə görüşməli oldu. Hətta görüşün səbəbini mühafizlərdən birinə o, beləcə də demişdi: Oğlunun taleyi haqqında çox ciddi söhbəti

var. Əgər görüşüb bir çarə düşünməsək, hökmdarın oğlu Səlim əldən gedəcək. Yalnız bundan sonra Sultan Bəyazid Nurəddin Sarıgörəzlə görüşə izin vermişdi.

– Allahın xoş günləri hökmdarın özünün və bütün övladlarının üzərində olsun. – Nurəddin Sarıgörəz öz alqışını dedi və bir anlığa dayandı. Sultan Bəyazid razılıqla başını tərpətdi. Çünki Nurəddin Sarıgörəz öz alqışında hökmdar və oğlanlarına xoş günlər arzulamışdı. Bu da o demək idi ki, səltənət əmniyyətdə olacaq, hökmdar da cansağlığında, övladlarının da bəxtəvərliyindən fərəh duyacaq. Ancaq deyəsən hökmdarın üzündə bir kinayəli təbəssüm də var idi:

– Hə, xoca, Səlimin tərbiyəsi ilə yaxşı məşğul olmusan! O, bir cariyəyə vurulub. – Hökmdar bunu dedi və bir az da qəzəbli nəzərlərini Nurəddin Sarıgörəzin üstündə gəzdirdi. Sonra üzünü asta-asta yana çevirdi. Bu, o demək idi ki, o, çox narazı idi. Amma Nurəddin Sarıgörəz geri çəkilmədi, məramını açıq-aydın axıracan deməyi qərara aldı:

– Hökmdarım, Allahın izni olmadan dünyada bir əməl baş verməz. Eşq Allahın ən üstün olan nemətidir. Allah bu neməti ən üstün bəndələrinə bəxş edər, – Nurəddin Sarıgörəz, bəlkə də, nitqini bir az da davam edəcəkdi. Ancaq elə bu qısa nitqin də hökmdara necə təsir etdiyini bilmək üçün dayandı.

Hökmdar başını aşağı salmışdı, özü də asta-asta başını yırğalayırdı. Nurəddin Sarıgörəz isə bilmirdi ki, hökmdar razıdır, yoxsa, narazı. Axır ki, hökmdar özü dilləndi:

– Xoca, mən Osmanlı səltənətini belə möhtəşəm etməyimdə sənin xidmətini danmıram. Ağıllı məsləhətlərin həmişə kara gəlib.

– Başım da qurbandır səltənətə, hökmdar, – Nurəddin Sarıgörəz tez dilləndi.

– Bəs indi necə, axı Səlimin tərbiyəsinə sən cavabdeh idin?!

– Bəli, hökmdar, əgər səhvim var isə başım cəllad əlində, fərmanı isə sizdə.

– Onu mən də bilirəm, xoca, onu da bilirəm ki, indi sənin başın bədənindən ayrılacaq və elə birinci Səlimin özünə göndəriləcək.

Nurəddin Sarıgörəzin rəngi qaçdı, dizləri titrəməyə başladı. Heç nə deyə bilmədi. Bəlkə də, nəsə demək istəyərdi. Ancaq dili topuq çalar, söz ağzından çıxa bilməzdi.

Sultan Bəyazid isə bütün bunları müşahidə edirdi. Axır ki, yenə hökmdar özü dilləndi:

– Bunun da bir faydası olmaz. Çətin ki, Səlimi sənin ölümünlə fikrindən döndərmək mümkün olsun. Yadımdadır, hələ körpə uşaq ikən onun necə inadkar olmağı indi də gözlərimin önündədir. Qardaşlarının hamısına öz hökmünü yeridərdi. – Bu sözləri hökmdar on səkkiz yaşı hələ yenicə tamam olmuş oğlu haqqında deyirdi.

Hökmdarın axırıncı sözləri Nurəddin Sarıgörəzin rəngini özünə qaytardı. O, artıq başa düşdü ki, hökmdar onu edam etməyəcək. Əvəzində düzgün çıxış yolu tələb edəcək. Buna görə də Nurəddin Sarıgörəz özü mətləbi bir az qabağa çəkdi.

– Bəli, hökmdar, izin verin Hafizə ilə Səlim evlənsin. Bu izdivacdan siz razı qalarsınız, Allaha da xoş gedər. Məmləkətimiz üçün də xeyirli olar, Allahın izni ilə.

Sultan Bəyazid vaxtı daha çox uzatmadı. Görünür, elə əvvəldən də məramında bir xoşqılıq niyyət varmış. Ona görə başını qaldırıb gülümsər bir çöhrə ilə xoca Nurəddin Sarıgörəzə tərəf baxdı:

– Get, Səlimi muştuluqla, bir kimsə bundan sonra onun sevgisinə mane ola bilməz.

– Ömrün uzun olsun, hökmdar, Allah hər vaxt səndən razı qalacaq. Çünki sən halal eşqə rəvac verdin.

Nurəddin Sarıgörəz hökmdara təzim edib tez-tələsik Səlimin yanına qayıtdı.

Nurəddin Sarıgörəz indi böyuk əmir Səlimin yanına gedirdi. Bu, yaxın gələcəkdə böyük hökmdar olmaq niyyətilə qan-qan

deyən Səlim idi. İndi onu gözlərinə nə Sultan Bəyazid, nə də qardaşları görünürdü. Sultan Bəyazid isə bu qan-qan deyən Səlimi yola gətirmək üçün Nurəddin Sarıgörəzi seçmişdi.

Taleyin, deyəsən, istehzası açıq-aşkar duyulurdu,– bunu xəyalından keçirdi Nurəddin Sarıgörəz. Çünki bir vaxt həmin yeniyetmə Səlimin yanına da elə Sultan Bəyazidin yanından çıxıb getmişdi. O vaxt Səlimə görə Nurəddin Sarıgörəzin başı fərmanda idi. İndi də elə yenə Səlimə görə onun başı fərmandadır. O vaxt Nurəddin Sarıgörəzin qırx yaşı vardı. İndi altmışı keçib. Baxmayaraq ki, dünyanın gəldi-gedərindən yaxşı baş çıxarır; bu, o demək deyildi ki, canının qədrini bilmir, canının əzizliyindən əl çəkib. Yox, elə indi də, o vaxt da Nurəddin Sarıgörəz yaxşı bilirdi ki, can hər vaxt əzizdir.

Nurəddin Sarıgörəzin yaxşı yadındadır, o vaxt Sultan Bəyazidin yanından geri qayıdıb Səlimə atasının izni haqqında xoş xəbər vermişdi. Atası daha sevgisinə görə oğlunu təqib etməyəcəkdi.

Həmin əhvalatdan sonra tezliklə sarayda şənlik qurulmuş, Hafizə ilə Səlimin toy mərasimi olmuşdu. Ancaq Nurəddin Sarıgörəz hökmdarın hüzurunda olarkən çəkdiyi qorxuları Səlimin təkidləri altında ona danışmalı olmuşdu. Və bir gün sonra Səlimin müəllimi ilə xoş bir görüşü yaxşı bir sonluqla bitmişdi. Səlim müəlliminin hal-əhvalını soruşub ən yaxşı müjdələrlə onun könlünü xoş etdikdən sonra yenicə yazdığı qəzəlini də öz dilindən ustadına oxumuşdu:

*Mən kiməm? Cananın dərgahından ayrı düşmüş bir aşiq!*
*Qəm və həsrət çölündə canından ayrı düşmüş bir bədən.*

*O qədər möhnətə alışmışam ki, ayrılıq gecələrində,*
*Əgər bir an hicrandan ayrılsam, canım yanar.*

*Dostlarım, mənim üzümdən çox əziyyət çəkdiniz:*
*Eşq iztirabıyla etdiyim fəryadlara nə vaxta qədər qulaq asacaqsınız?*

*O yar, özü məndən qaçır, mənə cəfa olsun deyə,*
*Onun xəyalı belə gecələr məndən gizlənir.*

*Ey Səlimi, o yar həmişə əlində qılıncla gəzir,*
*Qılıncı ona görə gəzdirir ki, sənin əlini öz ətəyindən kəssin.*

Günlər çox sürətlə ötüb keçdi. Səlim ilk övladı Süleyman dünyaya gələndən sonra da elmdən, kitabdan əl çəkmədi. Vaxtı boş olan kimi özünün könül duyğularını da dilə gətirirdi. Onun həyatı zəngin bir gəncin, yəni hökmdar oğlunun həyatı olsa da, düşüncələri ilə kövrək bir yeniyetmə təsiri bağışlayırdı. Nurəddin Sarıgörəzin özünün iştirakı ilə saraydakı söz sevdalı cavanlar hərdən bir yerə yığışır, musiqili, nəğməli məclislər keçirərdilər və bu məslislərdə hər kəs öz ürək, könül duyğularını dilə gətirərdi. Hər kəs öz şeiri ilə kim olduğunu, dünya, həyat haqqında nə düşündüyünü məhz şeirlərilə bildirərdi. Bu məclislərdə Səlimin aşiqanə könlü hərdən dilə gələrdi, necə böyük şövq ilə öz qəzəllərini oxuyardı.

İndi altmış yaşını arxada qoymuş Nurəddin Sarıgörəz bir vaxt tərbiyəsi ilə böyümüş olan Əmir Səlimin yanına təşvişli duyğularla gedirdi. Uzun illərdən bəri sarayda yaşamağın nə demək olduğunu bu ağıllı qoca pis bilmirdi. Nurəddin Sarıgörəz uzun illərdən bəri tanıdığı və xeyli vaxt keçməsinə baxmayaraq, yenə o gözəlliklər aləmində olmağı ilə qürur duyan Səlimin yanına getməkdən çəkinmirdi.

Nurəddin Sarıgörəz sanki, vaxtı geriyə çəkib təzədən gənc Səlimin şeir dediyi günlərə qayıtmaq və o günlərdən ayrılmaq istəmirdi. Və elə o vaxt Səlimin gözəl bir qəzəlini də əzbər yadında saxlamışdı. İndi həmin qəzəli kövrək duyğularla Allaha öz canının salamatlığı üçün dua edirmiş kimi oxuyurdu:

*Cahanda gözəl bir sevgili ilə saf şərabı*
*Cənnətdən, huridən və kövsərdən üstün tuturam.*

*Bütxanaya da, məscidə də getsəm,*
*Onun qaşının qövsündən başqa bir mehrabım yoxdur.*

*Atəş canımı bürüdü, amma göz yaşından özgə*
*Heç kim bu atəşə bir damcı su tökmür.*

*Canın dodağına gəlsə, mən də sənin yanına gələrəm, demişdin,*
*Tez gəl, yoxsa məni tapa bilməzsən.*

*Ey Səlimi, təbimin tutisi onun dodağını vəsf edir,*
*O, qamış qələmdən saf şəkərlər əmələ gətirir.*

Nurəddin Sarıgörəz uzun illərdən bəri yadında saxladığı Səlimin bu qəzəlini pıçıltı ilə deyirdi. Sanki başqasının eşidəcəyindən çəkinirmiş kimi. Onun yeganə ümidi Səlimin duyğulu bir könül sahibi olmağı ilə bağlı idi. Bu, Nurəddin Sarıgörəzin inamı idi. Amma onu da yaxşı bilirdi ki, vaxtı, zamanı gəlibsə, hakimiyyət naminə Səlim heç bir kimsəyə güzəşt edən deyil. Çünki onun üçün hakimiyyət atasından da, qardaşlarından da, hətta vacib olduğu məqamda övladlarından da daha üstündür.

Nurəddin Sarıgörəz bunu yaxşı bilirdi. Elə bu səbəbdən də Səlimlə öz arasında ixtilafa səbəb ola biləcək heç bir əmələ yol verməyəcəkdi. Bütün hallarda o, yaxşı bilirdi ki, daha Sultan Bəyazidin çırağı sönməkdədir. Qardaşlar arasında isə ona ən yaxın olan elə Səlimdir. Nurəddin Sarıgörəzə qalsaydı, hakimiyyətdə ona az-çox doğma olan Səlimi görərdi. Səlim isə nə qədər şair olsa da, məqamına görə, gözəllik aşiqi kimi, sözündə, şeirində görünsə də, hökmdarlıq xislətinə görə, zamanının bütün hökmdarlarından bəlkə də, ən üstün keyfiyyətləri əxz eləmişdi. Elə bu keyfiyyətlərin özü də az-çox Nurəddin Sarıgörəzin sayəsində onun təbiətinə hopmuşdu.

Bəli, incə, gözəl şeirləri ilə könülləri ovsunlayan Səlim indi hakimiyyətin – bütöv Osmanlı səltənətinin ən uca taxtının yaxınlığında idi.

Doğrudur, hər anın öz hökmü olur. Hələ bilmək olmaz ki, lap yaxında olan taxta kimin əli tez çatacaq?

– Yəqin ki, Səlimin əli tez çatar. – Nurəddin Sarıgörəz düşündü. Axı, Səlim həm də şairdir.

Nurəddin Sarıgörəz xəyalından keçənləri, bəlkə də, neçənci dəfə təkrarladı. Və bu işıq onun daxilindən gələrək üzünə çıxdı, bütün varlığına yayıldı, onun qəlbində Səlimin gələcəyinə sonsuz bir inam baş qaldırdı.

Sarıgörəz Sultan Səlimin yanına yollananda o artıq qoşunla İstanbul yaxınlığında idi. Belə olan halda Sultan Əhməd də Sultan Bəyazidin göstərişi ilə ona qarşı qoşunla çıxdı.

İki qardaş İstanbul yaxınlığında üz-üzə dayanmışdı. Mövlana Sarıgörəz Sultan Səlimin hüzuruna çatanda qoşunların üz-üzə dayanma zamanı idi. Sultan Səlim öz müəllimi ilə isti görüşdü. Amma Sarıgörəzin geniş söhbət açmasına imkan vermədən bildirdi ki, fikrindən dönən deyil.

– Hə, Mövlana, sənin gəlişin məni sevindirdi. Ancaq özün də yaxşı bilirsən ki, Sultan Əhməd hakimiyyətə layiq deyil.

– Amma sən də onu yaxşı bilirsən ki, bu gün Sultan Əhmədlə qarşılaşsan onun böyük qüvvələrinə qalib gələ bilməyəcəksən. Böyük Osmanlı səltənəti atanız Sultan Bəyazidin timsalında onun arxasında dayanıb.

– Bilirəm, Mövlana. Ancaq mən gecikə də bilmərəm. Bilirsən ki, tezliklə Əli Paşa Xadim də geri dönəcək. Onda vəziyyət bir qədər də qəlizləşəcək.

Bunu Mövlana Sarıgörəz də yaxşı bilirdi. Bunu da bilirdi ki, indilikdə Sultan Səlim geriyə çəkilməlidir.

– Mən yaxşı bilirəm ki, sənin hakimiyyətə gəlişin Osmanlı səltənətinin ömrünü uzadar, bəlkə də, əbədi edər. Qaldı ki, Əli Paşa haqqında dediklərin, o, hələ müharibədədir. Başını özü ilə qaytaracaq, ya qaytarmayacaq, bunu bilmək olmaz.

– Onda… – Sultan Səlim sözünün gerisini demədi.

– Bəli, onda hələ ki, sən geri çəkilməlisən.

Sultan Səlim diqqətlə Sarıgörəzin gözlərinə baxdı. Onlar daha bir-birlərinə heç nə demədilər. Çünki, bir-birini yaxşı başa düşmüşdülər…

* * *

Mövlana Sarıgörəz Sultan Bəyazidin yanına qayıdanda Əli Paşa Xadimin Anadolu tərəfdə Şahqulu Baba üsyanının yatırılması zamanı həlak olması xəbəri artıq İstanbulda hamıya bəlli idi. Osmanlı sarayında Əli Paşa Xadimin hörməti və nüfuzu vardı. Həm də o, Sultan Bəyazidin oğlu Sultan Əhmədə hələ kiçik yaşlarından hami təyin olunmuşdu. Sultan Əhmədin hökmdar övladı kimi mükəmməl tərbiyə və təhsil almasına o cavabdeh idi. Sultanın oğlunun, yəni Sultan Əhmədin bütün səfərlərində, istər hərbi səfər olsun, istərsə də ov, yaxud istirahət, fərq etməzdi, Əli Paşa Xadim həmişə sultanın yanında olardı. İndi Əli Paşa Xadimin vəfatı xəbəri gələndə bundan ilk sarsılan elə Sultan Əhməd oldu. Necə olmuşdu ki, Əli Paşa Xadimin Anadolu səfərinə o yol vermişdi? Bunu anlaya bilmirdi. Əslində isə məsələ belə idi ki, Sultan Səlimin hakimiyyətə gəlməyini istəyən qüvvələr, xüsusilə də Mövlana Sarıgörəz Əli Paşa Xadimin Sultan Bəyazidə təsirini yox etmək üçün onu İstanbuldan aralamaq qərarına gəlmişdilər. Şübhəsiz, Əli Paşa Xadimin Şahqulu Baba üsyanının yatırılması zamanı başına nə gələcəyini də Sultan Səlimin adamları ilə birgə elə Mövlana Sarıgörəz planlaşdırmışdı.

Mövlana Sarıgörəz Sultan Səlimlə görüşündə bunları imkan tapıb Sultan Səlimə deyə bilməsə də, onlar bir-birini anlamışdılar.

…Əli Paşa Xadimin dəfni çox təntənəli keçdi. Sultan Bəyazidə yaxın olan görkəmli din xadimləri onun yanında idi, eləcə də Mövlana Sarıgörəz. Bir qədər ara sakitləşəndən sonra Sultan Bəyazid özü Mövlana Sarıgörəzdən Sultan Səlim haqqında soruşdu.

– Görüş necə keçdi, Mövlana? – Sultan Bəyazid üzünü Mövlana Sarıgörəzə tutmadan, elə başıaşağı fikirli-fikirli soruşmuşdu. Mövlana Sarıgörəz isə Sultana cavab üçün özünü cəmlədi, ətrafa nəzər saldı, yaxınlıqda olan adamların kimliyini diqqətdən keçirdi. Amma, deyəsən, Sultan Bəyazidin hövsələsi daralmışdı. Ona görə də bu dəfə başını qaldırıb Mövlana Sarıgörəzin üzünə baxdı və sualını təkrar elədi, ancaq bir qədər başqa şəkildə:

– Sultan Səlimlə danışa bildinmi?

Mövlana Sarıgörəz hiss elədi ki, ətrafdan kimsə onlara diqqət eləmir. Ona görə də bir qədər ətraflı danışmağın fürsətini əldən qaçırmadı:

– Bəli, aləmlərin sultanı, səfər pis keçmədi, Sultanzadəni də gördüm, hələ ətraflı danışa da bildim.

– Səlimin vəziyyəti necədir? Əhvalı yaxşıdırmı?

– Bəli, hökmdar, Sultan Səlimin əhvalı çox yaxşıdır. Onun nə Osmanlı sarayı ilə, nə də qardaşları ilə bir ədavəti yoxdur.

– Bəs onda nə istəyir? – Sultan Bəyazid bir də soruşdu.

– Aləmlərin sultanı, oğlunuz istəyir ki, Osmanlı səltənətinin taxt-tacı əbədi olsun. O, deyir ki, nə Sultan Əhməd, nə də Sultan Qorqud hakimiyyəti qorumaq iqtidarında deyil. – Mövlana Sarıgörəz bunları dedi və dediklərinin Sultan Bəyazidə necə təsir edəcəyini gözlədi. Əgər Sultan Bəyazid onun bu sözlərindən sonra qəzəblənməyəcəkdisə, demək, onun özünün də Sultan Səlimin taxt-taca sahib olmasına razılığı var. Onsuz da Əli Paşa Xadim artıq arada yox idi. Sultan Əhmədin tərəfindən bir kimsə Böyük Sultan Bəyazidə təsir edə bilməzdi. Başqa sözlə, Mövlana Sarıgörəzə aydın oldu ki, indi meydan onun ixtiyarındadır. Sultanın əhvalı elə Mövlana Sarıgörəzin gözlədiyi kimi görünürdü. Mövlana Sarıgörəz başa düşdü ki, indi Sultan Bəyazidə Sultan Səlim haqqında nə desə onu qəbul edəcək. Ürəyində «Allah kimi istəyirsə, onun da çırağını yandırır», deyə düşündü. Özünü cəmləyib fikrindəkiləri Sultan Bəyazidə birbəbir aydınlatmağa başladı.

– Aləmlərin sultanının ömrü əbədi olsun, Allah onun bütün övladlarının canını sağ eləsin ki, hökmdarın da həmişə qəlbi işıqlı olsun.

Sultan Bəyazid deyəsən, onun çox uzaqdan başlamağından narazı qaldı. Ona görə də başını qaldırıb Mövlana Sarıgörəzi süzdü. Və bundan da Mövlana Sarıgörəz öz işini başa düşdü. Bildi ki, hökmdarın hövsələsi daralır. Tez-tələsik sözünü cəmləyib üzünü Sultan Bəyazidə tutdu: – Hökmdar, indi elə məqamdır ki, bir qədər geciksək onda qardaşlar arasında qanlı qırğın başlayacaq. Yaxşı olar ki, hakimiyyəti elə indiki məqamda oğlanlarından birinə həvalə edəsən.

– Kimə?! – Sultan Bəyazid bir qədər qəzəblə dilləndi. Çünki o, istəyirdi ki, Mövlana Sarıgörəz açıq-aydın Sultan Səlimin adını çəksin. Elə Mövlana Sarıgörəz də bunu başa düşdüyündən tez dilləndi:

– Sultan Səlimə, hökmdar, – Mövlana Sarıgörəz Sultan Səlimin adını dedi və sonra da hökmdarın «nə üçün?» sualını gözləmədən dediyini əsaslandırmağa çalışdı, – Sultan Səlimdən qeyrisi Osmanlı taxt-tacını indiki möhtəşəmliyi ilə qoruyub-saxlamaq iqtidarında deyil.

– Bəs Sultan Əhməd bununla razılaşacaqmı? – Sultan Bəyazid Sultan Qorqudun adını çəkmədi. Çünki onu Sultan Səlimə qarşı dura biləcək bir qüvvə hesab etmirdi. Amma bilirdi ki, atasının hakimiyyəti Sultan Səlimə verməsi ilə Sultan Əhməd barışmayacaq. Həm də onun ixtiyarında Osmanlı ordusunun böyük bir qismi var idi. Əlbəttə, bütün bunları Mövlana Sarıgörəz də yaxşı bilirdi. Ona görə də hökmdarı inandırmaq üçün bir qədər ətraflı danışmalı oldu:

– Hökmdar özü də yaxşı bilir ki, Sultan Əhməd çətin məqamlarda müstəqil qərar qəbul etmək iqtidarında deyil. İndi Əli Paşa Xadim də onun yanında olmayacaq ki, – Mövlana Sarıgörəz burada dayandı, Əli Paşa Xadimin ünvanına rəhmət oxudu, – Allah Əli

Paşa Xadimin yerini behişt eləsin. Sultan sarayına çox sədaqətli idi. – Onun bu duasını Sultan Bəyazid də razılıqla qarşıladı və başını tərpətdi. Yalnız bundan sonra Mövlana Sarıgörəz sözünə davam elədi: – Hə onu deyirəm ki, Əli Paşa Xadim sağ olsa, onda Sultan Əhmədi çətin məqamlarda ağıllı məsləhətlərilə düzgün yola yönəldərdi. Neyləmək olar, ömür Allahın əlindədir, hər kimə nə qədər istəyir, o qədər bəxş edir.

Burada söhbət bir qədər dayandı. Mövlana Sarıgörəz başa düşdü ki, deyəsən, hökmdar son qərarını verməyə bir qədər tərəddüd edir.

– Hökmdar, Sultan Səlim bir məktub da yazıb. O, arada baş verən qanqaralıqlarına görə atasından üzr istəyir və bağışlanmasını diləyir.

Mövlana Sarıgörəz hiss elədi ki, onun bu sözləri də hökmdara xoş gəldi. Onsuz da Sultan II Bəyazid hakimiyyət üçün indiki məqamda Sultan Səlimi daha vacib bilirdi. Çünki Sultan Səlimin arxasında öz oğlu da dayanırdı. Həqiqətən, Sultan Səlimin gənc oğlu artıq igid bir sərkərdə kimi çevik qoşun dəstələrini bacarıqla idarə etməkdə idi. Hakimiyyəti isə yalnız tərəfdaş qüvvələrlə qoruyub saxlamaq olar. Sultan Əhmədi isə nəinki Sultan Səlim, heç Sultan Qorqud da müdafiə etməyəcəkdi.

Mövlana Sarıgörəz Sultan Səlimin məktubunu atasına verdi. Sultan Bəyazid məktubu alıb açdı. Oğlunun xəttini yaxşı tanıyırdı. O, məktubu qaytarıb Mövlana Sarıgörəzə verdi, oxumasını istədi. Mövlana Sarıgörəz məktubu aramla oxumağa başladı.

Oğlu atasına yazdığı məktubda, olub-keçənlərə görə onu bağışlamasını diləyir, nəhayət, belə bir istəyini də qeyd edirdi ki, o gəlib atasının yanında xadim olmaq istəyir.

Mövlana Sarıgörəz məktubdakı digər mətləbləri də Sultan Bəyazidə çatdırdı. Yalnız bundan sonra başını qaldırıb hökmdarı nəzərdən keçirdi. Hökmdar həqiqətən kövrəlmişdi. Mövlana Sarıgörəz yalnız indi başa düşdü ki, hökmdar daxilən qocalıb.

Onun artıq kəskin qərarlar qəbul etmək və bu qərarların icrasını tələb etmək gücü yoxdur. Doğrudan-doğruya Sultan Bəyazid çox zəifləmişdi. Dizinin üstündəki dəsmalı ilə gözlərini sildi, yanağına axmaqda olan göz yaşlarını quruladı. Yalnız bundan sonra, deyəsən, bütün iradəsini toplayıb asta-asta dilləndi:

– Sultan Səlimə təcili çapar göndər, de ki, özünü tez İstanbula yetirsin.

Mövlana Sarıgörəz başa düşdü ki, daha Sultan Bəyazidlə söhbət başa çatıb. Bundan sonrası Tanrının işidir. Görək tale küləkləri haradan əsəcək və Osmanlı sultanının sarayına nə gətirəcək?

Onsuz da Sultan Səlim Mövlana Sarıgörəzə arxayın idi. Bilirdi ki, Əli Paşa Xadimin olmadığı yerdə Sultan Bəyazidin yanında yalnız onun sözü keçir.

…Onsuz da yaz tez gəlmişdi. Baharın gəlişini bayram edən adamların hələ də xoş əhvalı üz-gözlərindən çəkilməmişdi. Ancaq insanlar təsərrüfat işlərini də unutmamışdılar. Kənd yerlərində yazlıq əkin işləri çoxdan başlamışdı. Bağ-bostan sahələrində becərilmə işləri gedir, mal-davar qışı yola verib kövşənlərə çıxarılır, çöl-çəmən adamın üzünə gülürdü. Taxıl zəmilərinin içindən baş qaldırmış lalələr qızıl-qırmızı ləçəklərini açmışdı.

Sultan Səlim çox keçmədi ki, özünü atasının yanına çatdırdı. Atası onu bir qədər sərt qarşıladı. Qardaşları ilə ədavətdə suçladı.

Bir anlığa Sultan Səlimə elə gəldi ki, atası onu hiylə ilə saraya gətirib edam etmək istəyir. Hətta arada ağlına gəldi ki, o, yol tapıb saraydan qaçsın. Bəlkə, bu yolla canını xilas edə bilər. Həqiqətən o, oğlu Süleyman Paşanın yanına qaçsaydı, ölümdən qurtula bilərdi. Sultan Bəyazidin göstərişinə əsasən Osmanlı sarayının yüksək çinli adamları sultanın yanına yığıldı. Sultan Səlim durduğu yerdə vurnuxurdu. Silahlı mühafizlər də hər tərəfi tutmuşdu. Sultan Səlim də qaçmağın mümkünsüz olduğunu görüb, qəzanın qədərini gözləməli oldu.

Yalnız hər kəs öz yerini tutandan sonra, Sultan Bəyazid başını qaldırıb adamları süzdü, bəli, hər kəs onun yanında idi. Sarıgörəz də yanında əyləşmişdi. Sultan Səlim arabir onun da gözlərinə baxırdı. Ancaq bu soyuq və donuq gözlərdə də bir məna görmürdü.

Axır ki, Sultan Bəyazid başını qaldırdı:

– Sizin hamınızın şahidliyi ilə mən Osmanlı səltənətinin taxt-tacını oğlum Sultan Səlimə verirəm. Bu gündən sonra sizin hökmdarınız Sultan Səlimdir. – Sultan Bəyazid bunları dedi və son sözlərində hiss olundu ki, bir titrəyiş də var. Deyəsən, kövrəlmişdi.

Heç kimdən səs çıxmadı. Bu sükutun bir neçə səbəbi var idi. Osmanlı səltənətinin sütunu olan bu adamların bəziləri Sultan Əhmədin tərəfdarı idi, bəziləri də Sultan Qorqudu istəyərdilər. Amma indi hakimiyyətə Sultan Səlim gəlirdi. Bu adamların arasında Sultan Səlimin mənəvi dayağı Mövlana Sarıgörəz idi. Sultan Səlim gözləyirdi ki, heç olmasa o dillənsin.

Mövlana Sarıgörəz ehtiyatlı adam idi. O da diqqətini Sultan Bəyazidin özünə yönəltmişdi. Axır ki, Sultan Bəyazid Mövlana Sarıgörəzə işarə elədi.

– Mən böyük səltənətin varisini alqışlayıram, qədəmi xeyirli olsun. Ən başlıcası, ona görə ki, o atasının öz razılığı ilə taxt-taca sahib olur.

Yer-yerdən səslər gəldi. «Qədəmi xeyirli olsun! Başı uca olsun! Osmanlı səltənəti əbədiyyətəcən davam eləsin!».

Sultan Səlim 1512-ci ilin aprel ayının 24-də atasının razılığı ilə taxt-taca sahib oldu.

* * *

Sultan II Bəyazid taxt-tacı oğlu Sultan Səlimə verəndən sonra, saraydan ayrılmaq fikrində deyildi. Əslində, o, bir müddət sarayda qalmaq, hakimiyyət işlərinə yeri gəldikdə müdaxilə etmək, ən əsası oğlanları arasında münasibətləri tənzimləmək niyyətində idi. Onun əsas məqsədi bu idi ki, hakimiyyəti Sultan Səlim idarə

etsə də, digər oğlanları Sultan Əhməd və Sultan Qorqud da dövlətdə mühüm vəzifələr tutmaqda davam etsinlər. Sultan II Bəyazid oğlu Sultan Səlim taxt-taca varis olandan bir həftə sonra İstanbulda şənliklər başladı.

Sultan Səlim bütün əyalətlərə kiçik və böyük bəyliklərə məktublar yazaraq onları bu şənliklərdə iştirak etməyə dəvət etmişdi. Gələnlərin hər birini Sultan Səlimin tapşırığı ilə Sultan Bəyazidin yanına aparır, onunla görüşə şərait yaradırdılar. Bunu Sultan Səlim özü bilərəkdən belə qurmuşdu. Yəni ayrı-ayrı bölgələrin hər bir nüfuz sahibi böyük sultanın – Sultan Bəyazidin öz dilindən eşitsinlər ki, o, hakimiyyəti məhz atasının razılığı ilə qəbul edib.

Sultan II Bəyazid çox istəyirdi ki, Osmanlı səltənəti oğlunun zamanında daha da qüdrətli olsun, güclü olsun. Görüşdüyü hər bir nüfuz sahibinə də məxsusi olaraq tapşırırdı ki, səltənəti qorumaq naminə onlar Sultan Səlimə son nəfəslərinə qədər sədaqətli olmalıdırlar. Ayrı-ayrı nüfuz sahiblərinin bu tapşırıqları Böyük Sultan Bəyazidin öz dilindən eşitməklərinə Sultan Səlim xüsusi əhəmiyyət verirdi. O, yaxşı başa düşürdü ki, tezliklə qardaşları Sultan Əhməd və Sultan Qorqud ayrı-ayrı ərazilərin nüfuz sahibi olan bəy və paşalarını öz tərəflərinə çəkməyə çalışacaqlar. Onları şirnikləndirməklə Sultan Səlimə xəyanətə sövq edəcəkdilər. Sultan Səlim özü yaxşı başa düşürdü ki, güclü hakimiyyət qurmaq üçün birinci növbədə hakimiyyəti daxildən möhkəmləndirməlidir. Daxildən möhkəmlətmək üçün isə hakimiyyətə müxalif qüvvələrin iqtidarı qırılmalı və ümid etdikləri gücdən məhrum olunmalı idilər. Sultan Səlim yeddi gün ərzində sarayda qəbulları başa çatdırdı. Nəhayət, o, atası ilə özü də görüşdü. İstanbulda və bütün ölkədə özünün hakimiyyətə gəlişi münasibətilə başlanmış şənliklərə atasından xeyir-dua almaq niyyətində idi.

Yeddinci günün tamamında Sultan Səlim atası Sultan Bəyazidin divandakı təzə hücrəsinə gəldi. Burada Böyük Sultan üçün

özünün əzəlki taxt-tac mühiti yaradılmışdı. Sanki heç Sultan II Bəyazid taxtdan düşməmiş, elə öz hakimiyyətində qalmışdı. Sultanın əzəlki mühafizləri tamam dəyişdirilmiş, sultana xidmət üçün onun ixtiyarına Sultan Səlimin özünün məsləhət bildiyi, özünə yaxın adamlardan xidmət bölməsi ayırmışdı. Doğrudur, yeni adamlarla ünsiyyət Sultan Bəyazidə əsəb gətirsə də, o, bunun üstünü vurmamış, başa düşmüşdü ki, onsuz da Sultan Səlim bildiyini babasına verən deyil. O, özü bildiyi kimi də hərəkət edəcək. Sultan II Bəyazid ölkənin nüfuzlu adamlarını qəbul edib onlarla görüşdən sonra digər oğlanlarını, yəni Sultan Əhmədi və Sultan Qorqudu gözləyirdi. Növbəti gün gəlib ötdü və Sultan II Bəyazid oğlanları ilə görüşə bilmədi. Ancaq bunun üstündən də keçə bilmirdi. Sultan Səlimi çağırıb digər oğlanlarının nə üçün qəbula gəlmədiyini ondan soruşmaq istəyirdi. Elə bu vaxt mühafiz bildirdi ki, böyük Osmanlı səltənətinin hökmdarı Sultan Səlim atası ilə görüşə gəlmək istəyir. Sultan II Bəyazid bir bəhanə ilə onunla görüşməmək istəsə də, bu, mümkün olmadı. Çünki Sultan Səlim atasının cavabını gözləmədən onun hücrəsinə daxil olmuşdu. Xidmətçilər həmin andaca Sultan Bəyazidin hüzurunda əlavə taxt qoydular və Sultan Səlim içəri girəndə birinci yaxınlaşıb dizini yerə qoydu, salam verib atasının əlini tutdu. Atasının əlində bir soyuqluq var idi. Heç Sultan II Bəyazid əslində əlini Sultan Səlimə vermək də istəmirdi. Üz-gözündən də narazılığı açıq-aşkar bilinirdi. Sultan Səlim bu narazılığın mənasını yaxşı bildiyindən atasının görkəminə heç əhəmiyyət vermədi.

– Mənim əziz atam, özümə borc bildim ki, vacib bir məsələni səninlə məsləhətləşim…

Sultan Səlim baxdı ki, heç atası dinmək istəmir. Atası bir anlığa başını qaldırıb onun gözlərinə baxdı. Həmin anda o da atasının gözlərinə baxa bilmişdi. Ata-oğul sanki fikirlərini bir-birinə bu dilsiz baxışlarla anlatmaq istəmişdilər. Əvvəlla, hakimiyyəti

Sultan Səlimə verərkən atası ona demişdi ki, nə qədər ki, sağdır və o, hər vaxt atasına «Böyük Sultan» deyə müraciət edəcəkdi. Hakimiyyəti ələ aldığı vaxtdan bəri, yəni yeddi gündən sonra, elə ilk görüşdəcə, o, bu şərti pozmuş, atasına «Böyük sultan» yox, «Mənim əziz atam» deyə müraciət etmişdi. Beləliklə, bu müraciətin özü də Sultan Bəyazidi daxilən sarsıtmış və onu qəzəbləndirmişdi.

Sultan Bəyazidin xəyalından keçənlər isə (özü də yaxşı başa düşürdü ki, gecdir. O, nəyisə geri qaytara bilməz) bu idi ki, onun imkanı olsaydı, elə bu andan etibarən Sultan Səlimi təzədən taxtdan salar, hakimiyyəti özünə qaytarardı. Sultan Bəyazidin sinəsindən yanıqlı bir «ah» qopdu. Handan-hana keçib nisbətən ona tərəf yönəlik olan taxtda əyləşmiş oğlunu bir də süzdü. Udqunub, çətinliklə olsa da, dilləndi:

– Niyə görüşə Sultan Əhmədi və Sultan Qorqudu dəvət etməmisən? Axı onlar sənin qardaşlarındır.

Sultan Səlim astaca cavab verdi:

– Bilirəm qardaşlarımdır, ancaq…

– Nə ancaq? – Sultan II Bəyazid qəzəbini açıq-aşkar büruzə verdi: – Sən bilməlisən ki, onlarında əlində kifayət qədər qüvvələri var. Yalnız birliyinizlə Osmanlı səltənətinin varlığını qoruyar, onu daha güclü edərsiniz.

– Bütün bunları mən yaxşı bilirəm.

– Əgər bilsəydin, hakimiyyətinin ilk günlərindəncə qardaşların sənin yanında olardı.

– Mən hər iki qardaşıma – Sultan Əhmədə və Sultan Qorquda məktub yazmışam, bildiyimə görə onlar çaparları təhqir edib, məktubu da cırıb atıblar.

Sultan II Bəyazid bir də oğlunun gözlərinin içinə baxdı. Bu gözlər ona deyirdi ki, Sultan Səlim tamamilə yalan danışır. Təəssüf ki, onun yalan danışmağını Sultan II Bəyazid heç cür sübut edə bilməyəcəkdi. Çünki Sultan Səlim asanlıqla yalançı çaparları

onun yanına gətirəcək, onlar da olmamış əhvalatı olmuş kimi danışacaqdılar.

Sultan Bəyazidin dodaqlarında istehzalı bir təbəssüm göründü. Axı o, özü də bir vaxt zərurət olanda belə üsullara əl atmışdı. İndi ona qəribə gələn bu idi ki, sanki, öz əməlləri olduğu kimi qarşısına çıxırdı. Sultan II Bəyazid üzünü yana çevirdi. O, ixtiyar çağında oğlunun bu mənfur əməlini başa düşüb onu cəzalandıra bilmədiyindən qəzəb içində boğulurdu.

Aradan xeyli sükut keçdi. Nəhayət, yenə Sultan Səlim dilləndi:
– Bunun üçün qəm çəkməyə dəyməz. Bir vaxt gələr onlar da səhvlərini başa düşərlər.

Sultan II Bəyazid hər halda Sultan Səlimə nəsə demək istəyirdi. Ancaq hakimiyyətinin elə ilk günlərində qəddarlığı və yavuzluğu üzünə vurmuş bu adama nəsə deməyin heç bir mənası yox idi.

Sultan Səlim atası ilə danışmağın artıq mənasız olduğunu hiss elədi. Amma sözünü də deməyi özünə borc bildi.

– Göstəriş vermişəm ki, bir həftə ərzində İstanbulda şənliklər olsun. Amma xəzinənin xərcini mən şənliklərə sərf etməyəcəyəm.

Sultan II Bəyazid yenə onun nəsə bir hiylə işlədəcəyini düşündü. Xeyli sükutdan sonra soruşdu:

– Bəs onda neyləyəcəksən? – Sultan II Bəyazid sorğusundan sonra gözlərini oğlundan çəkmədi. Sultan Səlim başa düşdü ki, o, mütləq cavab almaq istəyir. Hərçənd ki, Sultan II Bəyazid cavabı gözləməkdə davam edirdi.

– Göstəriş vermişəm ki, xəzinənin sənin ixtiyarında olan payından istifadə olunsun, – Sultan Səlimin bu sözləri atasını qılınc kimi doğrayıb keçdi. O, xəncər yarası almış kimi yarı iniltili, yarı bağırtılı səslə dilləndi: – Necə?

Sultan Səlim tərəddüd etmədən və atasının bu həyəcanlı sualına əhəmiyyət vermədən sanki fikrini tamamladı:

– Bəli, əhalinin kasıb hissəsinə həmin paydan ianələr veriləcək. Kəndlilərin bir illik vergi payı da həmin xəzinə ilə əvəzlənəcək.

Sultan II Bəyazid artıq oğluna tərəf baxmırdı. Səlim atasına yaxınlaşdı. Bəyazid asta-asta başını bulayıb dodağının altında nəsə pıçıldadı. Bu dəfə Sultan Səlim doğrudan da yavuzluq etdi, əlinin təkanı ilə atasının sinəsindən itələdi. Altmış səkkiz yaşlı Bəyazid müqavimətini güclə saxladı. Bircə onu deyə bildi ki, «Səni şirpəncələr əlində giriftar qalasan, oğul!..»

Sultan Səlim daha atasına əhəmiyyət vermədi. Qalxıb qapıdan çıxanda dönüb atsına baxdı:

– Tapşırmışam, səni İstanbuldan bir az kənarda, yaylaq yerinə aparsınlar. Orada hər cür şərait yaradılıb. Bir-iki ay dincələrsən, – dedi və atasının nə cavab verəcəyini gözləmədi.

Artıq İstanbul küçələrində başlanmış şənliyi sarayda da davam etdirmək üçün əyanlar toplaşıb onu gözləyirdilər.

Sultan Səlimin ilk fərmanlarını camaat yer-yerdən alqışlarla qarşılayırdı. Kəndlilər bir illiyə vergidən azad olunmuşdu. Əhalinin kasıb təbəqəsinə ianələr verilməsi elə səhəri gündən etibarən başlanacaqdı.

Bu vaxt kim isə yaxınlaşıb saray vəzirlərindən birinə nəsə dedi. Bu Sultan Səlimin nəzərindən qaçmadı. Sultanın ona baxdığını görüb yaxınlaşdı:

– Böyük hökmdar, Sultan Əhməd qoşunla üstümüzə gəlir.

– Qoy gəlsin, biz onu lazım olan yerdə qarşılayıb, hara lazımdı ora göndərərik. Günün şənliyi başa çatdı. İstanbulun küçələrində hələ də musiqi səsləri kəsilməmişdi.

Sultanın göstərişi ilə toplardan yeddi dəfə atəş açıldı.

Sultan Səlim çoxdan idi ki, Osmanlı səltənətinin böyük sarayından uzaq düşmüşdü. Neçə il əvvəl atası onu Trabzon tərəflərə göndərmiş, ara-sıra, bəlkə də ildə bircə dəfə atasının tələbi ilə saraya gəlmiş, burada mühüm dövləti məsələlərinin həlli zamanı toplanan divanda iştirak etmişdi. Demək olar ki, qardaşlarını da elə belə çağırışlar zamanı görürdü. Çünki onlar da səltənətin ayrı-ayrı tərəflərində hökmran idilər.

İndi bütün hakimiyyətin əsas dayaqlarını əlinə keçirmiş, bilavasitə atasının razılığı ilə Sultan haqqı qazanmış Sultan Səlim sarayı bir yaxşı-yaxşı gəzmək, bu sarayın divarları arasında keçirdiyi uşaqlıq illərini yada salmaq, o vaxt onunla birgə sarayda böyüyən uşaqların indi harada olduqlarını bilmək istəyirdi. Bunlar hamısı bir tərəfə. Hətta ilk gəncliyini, həyəcanlı sevgi macəralarını da yaddaşında bərpa etmək, həmin günləri birər-birər xatırlamaq istəyərdi. İndi neyləsin, kim həmin günləri onun üçün qaytara bilər? Əlbəttə, bu mümkün deyildi. Amma neyləyəsən ki, insan əlindən uçub getmiş keçmişi hər vaxt qaytarmaq istəyir.

Sultan Səlim sarayın bəzən işıqlı, bəzən yarımqaranlıq, uzun salonları arasından keçib gedir. Bəzən ona tanış gələn yerlərdə ayaq saxlayır, dayanıb düşünürdü: «Hə, bax, bu hücrədə mən əyləşib xocam Nurəddin Sarıgörəzi gözləyərdim. O da düz özünün təyin elədiyi vaxtda gələrdi. Günə ayrılmış olan öyrətmə işini heç vaxt yarımçıq qoymazdı. Həm də gərək oxumaq üçün ayrılmış vaxt tamam olaydı. Digər hücrələrdən çıxmış uşaqlar salon boyu qaçıb hay-küy salır, asudə vaxtlarını şən keçirirdilər. Amma Səlim onlara fikir verməzdi. Ona tapşırılan parçanı oxumaqda davam edərdi. Sədinin «Gülüstan»ından, «Bustan»ından ona ayrılmış parçaları əzbərləməmiş işini bitmiş hesab etməzdi. Amma bir iş var idi ki, yaxınlıqdan keçən uşaqların arasından Hafizənin səsini eşidəndə onun varlığı titrəyərdi. Daha bundan sonra nəyisə oxumaq istəməzdi. O da yaxşı yadında idi ki, bəzən xocası Nurəddin Sarıgörəz ona «Qurani-Kərim»in bir parçasını köçürməyi tapşırsa da, o arada Hafizənin gözəl simasını tərənnüm edən qəzəl də yazardı. Əlbəttə, onun belə sərbəst yaradıcılığa başlamaq zamanı xeyli sonra olmuşdu. O, vaxt ki, artıq Səlim bir çox elmləri mənimsəmiş, Şərqin bir çox görkəmli alim və şairlərinin əsərlərini oxumuş, öyrənmişdi. Burada, bu hücrədə onun yazdığı gözəl qəzəlləri elə ilk dəfə müəllimi oxumuşdu. Əlbəttə, yazdığı qəzəlləri əzbərdən bildiyi üçün o bun-

ları Hafizəyə özü rəvan bir səslə pıçıldamışdı. Doğrudur, bəzən olurdu ki, aralarında çox kəskin ixtilaf da baş verirdi. Belə məqamlarda xocası Nurəddin Sarıgörəz onun əhvalının pozulmağının, ovqatının təlx olmağının səbəbini soruşar, ixtilafların aradan qalxması üçün mümkün təbii mühit yaradardı. Beləliklə, Nurəddin Sarıgörəzin sayəsində onun Hafizə ilə sevgisinin üzərinə bir xal düşməmişdi.

Sultan Səlim indi saray boyu yeriyib ona tanış olan divan otaqlarına baş çəkir, gözəl Hafizəsi ilə ilk görüşünü keçirdiyi hücrələrə baxmaqdan, dayanıb fikrə getməkdən doymurdu. Bir az da irəli getdi. Bu, böyük saray kitabxanası idi. Bu kitabxananın bir tərəfində Səlimçün ayrıca bir yer verilmişdi. Səlim burada özü üçün maraqlı bildiyi kitabları oxuyar, heç bəzən günün nə vaxt ötüb axşama tərəf endiyindən də xəbəri olmazdı. Böyük kitabxananın yanındakı özünə aid hücrədən ayrılıb getmək istəyərkən uzaq keçmişdə olan bir əhvalat gözlərinin önünə gəldi. Sanki, Hafizə dayanıb hücrənin qapısı ağzından qəmli-qəmli və əlbəttə bir az da hürkək-hürkək ona baxırdı. Onlar neçə gün olardı ki, görüşmürdülər.

Hadisə belə olmuşdu; Həmişə Hafizə ilə birlikdə olan qızlardan biri aranı xəlvət görüb Səlimin yanına gəlmişdi. O, nazlana-nazlana Səlimlə üzbəüz dayanıb gözünü gözlərindən çəkmirdi. Qız əlini Səlimin boynuna uzatdı. Deyəsən özü də asta-asta həm Səlimin başını özünə tərəf çəkirdi, həm də özü ona yaxınlaşırdı. Artıq Səlim anlamışdı ki, bu qızın niyyəti başqadır. Ancaq Səlim bunu istəmirdi, əlini qaldırıb qızın əllərindən tutdu. Onu özündən aralamaq istəyirdi ki, bu vaxt Hafizə qapının ağzında göründü. Onun gözləri ilə Səlimin gözləri sanki havada qarşılaşdı. Qızın gözlərindən çaxan ildırımlar elə bil ki, odlu qılınclar kimi Səlimi doğrayıb keçdi. Əlbəttə, bu bir an olmuşdu. Və Hafizə sürətlə dönüb getmişdi. Onun qəzəb və nifrət dolu baxışları uzun müddət Səlimin yadından çıxmamışdı. Elə indi də uzaq keçmişdə qalmış

həmin mənzərəni xatırlayanda yenə o qəzəbli baxışlar gözlərinin önündə canlanmışdı.

Səlim boynunu qucaqlamaq istətən qızın əllərini özündən araladı. Onu səssizcə kitabxana hücrəsinin qapısından çıxardı. Və üzünə elə bir sərt ifadə verdi ki, daha o qız hansısa başqa bir əməlin təşəbbüsündə ola bilmədi. Necə gəlmişdisə, eləcə də sarayın divarları arasında gözdən itdi. Arada bir-iki dəfə sarayın müxtəlif yerində həmin qızla qarşılaşsa da, ona heç bir üz göstərmədi. Və Səlim nə qədər ki, o qıza belə bir xoş münasibətə yer qoymurdu, eləcə də, Hafizə də ona ünsiyyət üçün yer qoymurdu. Hafizə özünü elə aparırdı ki, sanki Səlimə qarşı onun heç vaxt, heç bir isti münasibəti olmayıbmış. Hətta bir dəfə Səlim əlini atıb Hafizənin biləyindən yapışdı. Onu saxlayıb danışdırmaq istədi. Ancaq Hafizə gözləri ilə Səlimə elə baxdı ki, Səlim qeyri-ixtiyari olaraq qızın biləyindən əlini çəkdi. Ancaq o, əlini çəkəndə qızın da biləyi cansız bir əşya kimi onun yanına sallandı. O vaxt Səlim bilmədi ki, Hafizə ona ürəyində yalvarır, qoy sevgilisi onun qolunu buraxmasın. Bəlkə bir az da davam gətirsəydi, bütün inciklikləri hamısı arxada qalacaqdı, hər şey unudulacaqdı. Amma təəssüf ki, Səlim onun qolunu buraxdı. Qız dönüb gözləri yaşla dolmuş halda ondan uzaqlaşdı. Səlimin sinəsinə sanki od tökülmüşdü. O, heç cür aram ola bilmirdi. Axı o, neyləyəydi ki, özü istəmədən bir əhvalat başına gəlmiş, onu belə çətin duruma salmışdı. İndi Hafizə də ona bir şərait yaratmırdı ki, o başına gələnləri olduğu kimi danışaydı. Ona görə yox ki, Hafizə onunla barışsın, Səlim əsas ona görə istəyirdi ki, Hafizə həqiqəti bilsin ki, onun gördüyü mənzərə Səlimin istəyindən çox kənar idi. O, qətiyyən istəməzdi ki, belə bir görüntü olsun. Çünki, həmin vaxtlar Səlimin qəlbində yalnız bircə gözələ yer vardı. O da Hafizə idi.

Yenə aradan çoxlu günlər keçdi. Səlim hər vaxt gəlib bu hücrədə əyləşər, kitablar oxuyar, sonra da qələm-davatı götürüb nə isə yazardı. Hərdən də bir hücrədən kənara çıxar, gənclərin

gəlib keçdiyi yerlərdə dayanar, saatlarla gözünü zilləyib uzaq üfüqlərə baxardı. Bəzən ona elə gələrdi ki, o, qanad açıb göy üzündə üzür. Yerlərə göylərdən baxır. Və birdən Hafizəni görür, görür ki, Hafizə də ona baxır. O, da əllərini, qollarını qaldırıb uçmaq istəyir, ancaq uça bilmir. Onda Səlim çox sürətlə ona tərəf uçur, enir aşağıya. Hafizəni də qucağına alıb təzədən havaya qalxır. Beləcə onlar göy üzündə, buludların ütündə istədikləri qədər uçurlar. Amma gözlərini açır görür ki, sarayın divarları arasında tək-tənhadır. Təzədən hücrəyə qayıdır. Arzu eləyir ki, sevgilisi kini, küdurəti qəlbindən atsın, yenidən onun yanına qayıtsın, onu dinləmək istəsin və o da könlündən keçənləri qəzəli ilə Hafizəyə oxusun.

Həqiqətən Sultan Səlim könlündən keçənləri yazıya aldı. Sonra da bir neçə dəfə oxudu. Güclü yaddaşı sayəsində qəzəl onun varlığına yazıldı. Daha kağıza ehtiyacı yox idi. O, qəzəli əzbər bilirdi. Qərara gəldi ki, gedib Hafizəni tapsın və bu qəzəlini ona oxusun. Bəlkə ondan sonra Hafizə onu dinləmək istədi. O, da başına gələnlərin hamısını bundan sonra Hafizəyə danışardı.

Dünyanın necə qəribə işləri varmış, birdən hücrənin qapısı üzərindən asılmış pərdə aralandı, Hafizə bütün gözəlliyi ilə onun gözlərinin önündə idi. Hafizənin uca boyu, sərv qaməti vardı. Uzun saçlarını gur şəlalə kimi kürəyinə atmışdı. Boyun-boğazı par-par yanırdı. Hücrənin bir tərəfindən düşən işıq onun üzünü yaxşı görsədirdi. Qız qapının ağzında donub qalmışdı. Bütün vücudu ilə ona tərəf uçmaq istəyirdi, ancaq ayaqları ilə sanki yerə bağlanmışdı. Yerindən tərpənə bilmirdi. Onda Səlim cəld qalxıb onun qolundan yapışdı. İlk dəfə idi ki, onlar nəfəsləri ilə bir-birini belə yandırırdılar.

Hafizə ağlayırdı, gözlərindən yaş yanaqları aşağı süzülürdü. Amma dodaqları arasından da asta-asta pıçıldayırdı: «Axı səndən başqa mənim bu dünyada bir kimsəm yox idi. Axı sən niyə…» Səlim əllərini onun dodaqları üzərində gəzdirdi. Sanki bununla

demək istədi ki, indi sən dayan, mən deyərəm. Və Səlim heç özü də bilmədi ki, təzəcə yazıb əzbərlədiyi qəzəli necə asta-asta bu qız üçün pıçıldayır:

*Sinəni eşq xəzinəsi etmək istəsən,*
*Könlündən düşmənçilik tozunu sil.*

*Bütün kainat üzünü sənə tutsa da,*
*Ayinə kimi hamını qucaqla.*

*Ey pəri, könül quşunu onsuz da ovlamısan,*
*Tələ qurub, yem qoymağa ehtiyac yoxdur.*

*İncilərini gizli xəzinədə saxlayırdın,*
*Ağzını açıb danışdın, o xəzinə aşkar oldu.*

*Ey Səlimi, o incini ələ keçirmək istəsən,*
*Gecələr gəmini təfəkkür dənizinə sal.*

İndiki vaxtda Səlim bəlkə də bu keçmiş hücrə divarları arasına çökmüş xatirələri yaddaşında təzələmək istəməzdi, amma onun Hafizə ilə sevgisinin yoluna nə qədər maneələr çıxmışdı. Və bu yolda xocası Nurəddin Sarıgörəzin də xidmətlərini heç vaxt unuda bilməzdi. İş elə gətirmişdi ki, Sultan Səlimin varisi olacaq oğulu da elə Hafizədən dünyaya gəlmişdi. Bu Süleyman Paşa idi. Səlim saraya gəlməmişdən əvvəl atasından sultanlığı almaq üçün yollar arayarkən Süleyman Paşaya dəfələrlə tapşırmışdı ki, çox ehtiyatlı davransın. Çünki, elə atası Sultan II Bəyazid də qardaşları Sultan Əhməd də, Sultan Qorqud da ola bilsin ki, Səlimi aradan götürmək üçün planlar qursunlar. Və bu zaman onlar Süleyman Paşanı da şübhəsiz aradan götürmək istəyəcəklər. Süleyman Paşanın ağıllı hərəkətləri, doğru-düzgün siyasət yeritməyi Sultan Səlimi çox razı salırdı. Oğlundan razı qalmasını Hafizə sultandan da gizlətmirdi. Oğlunun belə ağıllı və kamil şahzadəliyini Hafizə sultanla daha çox bağlayırdı. Xəyal yenidən Sultan Səlimi

Hafizə ilə ayrılıq, sonra da vüsal ilə qurtaran həmin şirin günlərə bir də qaytardı. O vaxt Sultan Səlim sevgilisinə çox danışmağa sanki imkan vermirdi. Onlar beləcə saatlarla göz-gözə baxıb dayanar, bəlkə heç vaxtın necə keçməyindən də xəbərləri olmazdı. Onda Hafizə əli ilə Sultan Səlimin başını sığalladı, gözlərinə baxdı, nəsə demək istədi, amma demədi. Belə olan halda Səlim dilləndi.

– Gözlərindən görürəm istəyini, – Səlim gözlərini qızın gözlərindən çəkmədən bildirdi. Dedikləri ilə qızın razılıq təmasını duydu.

– İstəyimi gözlərimdən görürsənsə, onda… – bu dəfə qız da nəsə demək istədi, ancaq demədi. Onda Səlim özü dedi:

– Bəli, sən istəyirsən ki, mən daha bir qəzəl deyim.

– Doğrudur Səlim, doğrudur. Mən çox istəyirəm, sən bir qəzəl də deyəsən…

Səlim asta-asta qızdan aralandı. Bir qədər kənara çəkildi. Onun boy-buxununa diqqət elədi. Sanki onu ilk dəfə görürmüş kimi süzürdü. Və elə bu ayrılıq günlərində yazdığı daha bir qəzəl dilinin ucuna gəldi:

*Fələklər bizim təxtimiz olmağa layiq deyil,*
*Səma bizim ayağımızın altında bir həsirdir.*

*Allaha şükür, qəlbimizdən keçən hər arzu*
*Pəri üzlü gözəllərin atdığı ox kimi nişangahı vurur.*

*Əzəldə hələ şərab kəşf olunmamışdan,*
*Bizim südümüz eşq şəkəri ilə yoğrulmuşdu.*

*Gözəllikdə o yarın bir bənzəri yoxdur,*
*Aşiqlikdə də bizim bir tayımız tapılmaz.*

*Ey Səlimi, şeir söyləməyə davam et,*
*Varlıq mülkündən bizə ancaq bu qalacaq.*

Sultan Səlim bütün bunları xəyalından birər-birər keçirirdi. İndi istəsə də, heç nəyi geri qaytara bilməzdi. O qayğısız, şən günlər elə keçmişdə qalmışdı. Qardaşları ilə bu sarayın divarları arasında böyüdüyü qayğısız günləri də xatırlayırdı. Onların yarışmaları, böyüdükcə hərəsinin bir xasiyyət kəsb etməsi… Səlimin daha çox şeirə, sənətə və hərbə meyil göstərməsi onu tay-tuşlarından da, qardaşlarından da fərqləndirirdi.

Səlim sarayın divarları arasından keçib Hafizə Sultanın hücrəsinə getdi. Bu gün yadına düşən xatirələri onunla təzədən bölüşmək istəyirdi.

…Aradan üç aya qədər vaxt keçmişdi. Sultan Səlim Sultan Əhmədi qarşılamaq üçün kifayət qədər müsəlləh dəstə göndərmişdi. Ancaq Sultan Əhməd hələlik onunla qarşılaşmaq istəmir, ayrı-ayrı əyalətləri özünə tabe edib öz adından hökmdar olduğunu bəyan edən fərmanlar verirdi. Konya, Üsküdar tərəflər onun hakimiyyəti altına keçmişdi. Sultan Səlimə xəbər vermişdilər ki, Sultan Əhmədin və Sultan Qorqudun adamları xəlvəti olaraq Sultan Bəyazidin yanına gəlib gedirlər.

Bütün bunlardan sonra Sultan Səlim qəti qərara gəldi: «Bəli, demək, Sultan Bəyazidin ömrünün qürubu çatıb. Onu artıq özünün arzuladığı cənnətə yola salmağın zamanıdır».

Səhər açılan kimi, Sultan Səlimin ayırdığı iki atlı hökmdarın fərmanı ilə Sultan Bəyazidin olduğu iqamətgaha tərəf çapdılar.

… Gələnlər Sultan Səlimin hökmü yazılmış kağızı xidmətçilərə verdilər və onlar Sultan Bəyazidin yanına daxil oldular. Az keçməmiş bəlli oldu ki, Sultan Bəyazid elə yatağındaca canını tapşırıb…

* * *

Sultan Səlim atasının ölümündən sonra ordunu möhkəmləndirmək, ayrı-ayrı yerlərdə baş verən ixtişaşları yatıraraq ölkədə sabitlik yaratmaq üçün az vaxt sərf etmədi. Az qala taxta çıxma-

sından ötən bir il ərzində qardaşları Sultan Qorqudun və Sultan Əhmədin təhriki ilə onun hakimiyyətinə qarşı çıxan qüvvələri müxtəlif yollarla zərərsizləşdirir, bəzilərinin üzərinə güclü qüvvə göndərməklə darmadağın edir, tərəddüd edənləri şirnikdirici vədlərlə Sultan Əhmədə və Sultan Qorquda qarşı yönəldirdi. Vaxt ötdükcə böyük səltənətin bir tərəfində Sultan Qorqud, digər tərəfində isə Sultan Əhməd mövqelərini möhkəmlədirdi. Artıq Sultan Səlimə gün kimi aydın idi ki, o, qardaşlarını aradan götürməsə, Osmanlı səltənəti parçalanacaq və onun hakimiyyəti də bunun nəticəsində zəifləyəcək. Belə halda şübhəsiz, iki qardaşı onu məhv etmək üçün müvəqqəti də olsa qüvvələrini birləşdirəcəkdi. Osmanlı hökmdarı müxalif qardaşlarını hərbdən əl çəkməyə, ona qarşı düşmənçiliyə son qoymağa sövq edən məktublar göndərirdi. Amma tezliklə məlum oldu ki, qardaşları nəinki öz əməllərindən peşmanlıq bildirir, hətta açıq-aşkar tezliklə onu məhv edəcəklərini gizlətmirdilər.

Sultan Səlim dərin düşüncə böhranı içindəydi. O, qardaşları ilə dil tapmadığına görə əsəb keçirmirdi. Əslində, onun qardaşları ilə dil tapmaq, barışığa gəlmək fikri də yox idi. O, min cür yola əl atardı, təki qardaşlarını ələ keçirə bilsin. Çünki onun öz qardaşlarına hüsn-rəğbəti yox idi. Hələ lap atasının sağlığında belə imkan olsaydı, doğma qardaşlarını elə atasının gözünün qabağındaca edam etdirərdi. Təəssüf edirdi ki, belə bir imkan yaranmamışdı. Başqa bir tərəfdən də onun ciddi narahatlığı vardı. Bu da bir tərəfində möhkəmlənmiş və artıq yüksək nüfuz qazanmış Səfəvilər dövləti və onun qorxubilməz hökmdarı Şah İsmayıl idi. Bütün bunları o, xəyalında dəfələrlə götür-qoy edirdi. Bəzən fikir içində az qala boğulur, çıxış yolu tapa bilmədiyinə görə qardaşlarını qınayırdı.

Qarşıda onu nələr gözləyirdi?..

Sultan Səlim sarayın ətrafında olan bağa çıxmışdı. Yazqabağı idi. Çiçəkləmiş ağacların budaqları arasında cükküldəşən quşla-

rın səsi, sədası bağı başına götürmüşdü. Quşlar öz hayında idi. Yuva quran, yem toplayan, dəstə-dəstə bir ağacdan o birinə uçan quşlar sanki qayğısız idilər.

Birdən elə bil ki, quşlar çaxnaşmaya düşdü. Hərəsi bir tərəfə perik düşüb gizlənməyə kol axtardı, çünki çalağan şığımışdı. Bayaqdan bəri quşları başına yığıb şad-şalayın cükküldəyən başçını caynağına almışdı. Çalağan caynağında apardığı quşun tükləri ətrafa səpələndi. Sultan Səlim buna baxırdı. Deyəsən, bu baxdığı mənzərənin təsiri altında onun başındakı fikir dumanları dağıldı və qəti qərara gəldi. Tez hücuma keçib Sultan Əhmədi yaxalamaq qərarına gəldi.

Yetmiş min nəfərlik qoşun Anadolu tərəfə hərəkət edən Sultan Əhmədi qarşılamaq üçün elə həmin gün əmrin icrası üçün hərəkətə keçdi. Sultan Əhməd başa düşdü ki, bu nəhəng qüvvə ilə vuruşa bilmiyəcək. Amasya tərəfə hərəkət elədi.

Bu vaxt Sultan Qorqud da hərəkətdə idi. O, çox çalışırdı ki, Sultan Səlimlə qarşılaşsın. İki qüvvənin gücünə onu məhv etsinlər. Ancaq Sultan Qorqudun düşündüyü kimi olmadı. Axır ki, Bursa yaxınlığında ilk toqquşma oldu. Sultan Qorqudun qüvvələri darmadağın edilib, özü də sorğu-sualsız edam edildi. Bu xəbər Sultan Əhmədə də çatmışdı. Onun canına qorxu düşmüşdü. Tez-tez yerini dəyişib Sultan Səlimin qüvvələri ilə qarşılaşmaq istəmirdi. Tezliklə aydın oldu ki, onun hərəkət yolları Sultan Səlimin əmri ilə bağlanıb. Beləliklə, Sultan Səlim onu da ələ keçirdi. Sultan Səlimin əmrinə əsasən qardaşı tutulan kimi boğulub öldürüldü. Amma hələ də Sultan Səlim ölkə içərisindəki müxaliflərdən canını tam qurtarmamışdı. Çünki Sultan Əhmədin oğlu Sultan Murad ətrafındakı adamlarla – xeyli süvari qüvvə ilə qaçıb sərhədi keçmiş və Şah İsmayıla sığınmışdı.

Sultan Səlim bunu çoxdan gözləyirdi. Yaxşıdır ki, qardaşlarını vaxtında aradan götürdü. Onlar da Şah İsmayılla birləşə bilmədilər. Sultan Səlim Sultan Muradın xəyanətkar olduğu haq-

da əyalətlərə məktublar göndərdi. Bu məktublarda o, Şah İsmayılı da kəskin qınayırdı. Amma cəsarət edib Şah İsmayılın üstünə birbaşa gedə bilmədi. Ona görə də Übeyd Xana da bir məktub göndərməli oldu. Əvvəlcə o istədi ki, məktubu Mövlana Sarıgörəz aparsın. Mövlana Sarıgörəz xəstəliyini bəhanə edib bu səfərdən boyun qaçırdı. Onda uzun müddət Sultan Səlimin tapşırıqlarını icra edən Məhəmməd Nizaməddini Übeyd Xanın hüzuruna göndərməli oldu. Məktubu da ona verdi. Sultan Səlim öz dəst-xətti ilə məktubda yazmışdı: «Dünyanı alovlandıran o isti hadisələrdən əziyyət çəkənlər bizim müzəffər bayraqlarımızın uca ağaclarının kölgəsi altında dincəlsinlər və əfi ilanların zəhərlərinə bənzər olan əzab və zülmlər, ədalət və insaf panzəhəri ilə əvəz olunsun. Beləliklə, işlərin öz vaxtında həyata keçməsinin qətiyyətlə bilinən (qəza və qədər mərkəzindən) nemətlərin enməsinə səbəb olan nəsim əsməyə başladı və Məhəmmədin, – ən fəzilətli salam və dualar onun olsun, – dinini qorumağın xoş qoxuları bizim padşahlığımızın təəsübkeşlik nurlarını alovlandırmağa və Əhmədin, – ən gözəl dualar onun olsun, – şəriətinin abrını qorumaq (yolunda) cihad savabını əldə etmək üçün bizim səltənətimizin mübarək düşüncəsini hərəkətə və cuşa gətirməyə başladı. Uca niyyətli şahlığımızı «mən zalımdan qisas almayacağım tədqirdə zalım hesab ediləröm» qərarı verməsinə gətirib çıxartdı. (Dünyaların) uca sahibi olan Allahdan xeyir tələb edərək və dünyanı idrak etmək qabiliyyətinə sahib fəal ağılın ilhamlarına istinad edərək özlərini kamandan çıxan oxlar kimi, düşmən və üsyan əhlinin qanını tökərək qırmızı rəngə boyanmış qılınclar timsalında, yaşıl dağlar bənzəri çoxlu sayda ordu və əzəmətli dəstələrlə, həmin özbaşına olan fasid və inadkar kafirin kökünü kəsmək üçün hərəkət etmək qərarına gəldik. Saysız-hesabsız olan əsgərlərimizin hər biri qılınc çalmaq və xəncər oynatmaqda dünyaca məşhur Xurşid (günəş) və Bəhrama, nizə oynatmaqda və ox atmaqda da Şihab ulduzuna və Semaki-Ramih ulduzuna bənzəyirlər. O şeytan

firqələrinin ordusunun, yolunu azmış məlunların rəhbərinin, təkəbbür, kin-küdurət edənlər qafiləsinin başçısının, din və dünya quldurlarının rəhbərlərinin üzərinə yaxın zamanda çökməyin mübarək hədəfi geniş qəlbimizdə mərkəzləşmişdir. «Hər kəsin niyyəti Allah olarsa, Allah da ona kifayət edər» (hədisinin) uca məzmununda buyrulduğu kimi, ilahi yardım və sonsuz olanın (Allahın) köməyi (üzərimizdə olmuş) və Allahın lütfü bizimlə olmuş, Allahın seçilmiş mələkləri köməkçimiz və yardımçımız olmuşdur.

«Allah sizi bir çox vətənlərdə qalib etmişdir» (ayəsində) buyrulduğu kimi bir çox yerlərin) fəzasında səba yeli bizim müzəffər bayraqlarımızı sancmış və yırğalandırmışdır. Bizim kamilləşmiş qanunlarımızın o bölgəyə və torpaqlara gəlməsinin xoşbəxtliyindən zülm və düşmənçilik tikanlarının yerinə fəth və nəsim yeli və əmin-amanlığın çiçəkləri açmış olar. Rəiyyət hər zaman təhlükəsizlikdə, xalq bolluq və xoş güzəran içində olar. O dərəcədə ki, göyərçin qırğının gözü önündə yuva qurar, qartal kiçik quşların yuvalarının keşiyini çəkər, şir meşədə çaqqallara hücum etməz, yırtıcılar ceyranı ovlamaq tamahından vaz keçərlər, ütəlgi qızılquş qayçı kimi dişləri ilə dağ kəkliyinin bir tükünə də zərər yetirməz, şahin quşu öz iti caynağı ilə qumru kimi rəngarəng qırqovulu incidib yaralamaz. «Bu Allah üçün heç də çətin deyildir!».

Allahın birliyinə inanan hər bir möminə Allaha görə qəzəblənmək (əqidəsinə sadiq qalaraq) o zəlalətə düşmüş tayfaya düşmənçilik bəsləmək əhəmiyyətli bir iş və möhkəm bir hədəf olmalıdır. Alicənabınız da, öz alicənab atasının, – Allah rəhmət etsin, – sayəsində hamıdan öncə həqiqətlərə vaqif olub və fitrət (yaradılış) dənizində ruhun pak cövhərinin qiymətsiz bir mücəvhər olduğunu «yaradanların ən gözəli» olan yaradıcı sifətinə (malik) dərinliklərə dalmışdan (Allahdan) başqa kimsənin ona nail olmağa müyəssər olmadığını təsəvvür edə bilmişdir. Adam ol-

maq, kərim və səxavətli (Allahın) yardım iradəsi olmadan yoxluq pərdəsi arxasından varlıq dünyasına qədəm qoyması mümkün olmayan şərafətli bir varlıqdır. Xüsusilə, bu padişahlıq fəzilətləri və saysız məziyyətləri vardır.

Xudavəndi-aləmin rəhmət kölgəsi və Allahın yaratdıqlarının gözəl nümunəsi olan yaxşı əməllərə sahib şahlar da vardır. İlahi bəxşeyiş paylaşıldıqda xilafətin huma quşunun kölgəsi ilk olaraq peyğəmbərlərə, sonra isə uca sultanların üzərinə düşmüşdür. Elmə dəyər verən və ədaləti inkişaf etdirən belə bir ağıllı padişahın qanının hədər getməsi «(qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı (vacib oldu)» (ayəsində də buyrulduğu) kimi heç bir məzhəbdə rəva görülməmişdir.

Ən üstün və dostluğa yaxın yol budur ki, ağlınızın ehtimal aynasında, idrak əhatənizin güzgüsündə və təxəyyül qüvvənizin hövzəsində meydana gələn fəaliyyət (növünə) əməl etməkdə və bir-birimizdən irəli düşməkdə tələsəsiniz. Ümid olunur ki, hədəfdən yayınmaz tədbir oxunuz qəza və qədərin qoymuş olduğu nişangahı ən gözəl şəkildə hədəfə alacaqdır. Allahın ən gözəl lütf və yardımları ilə həmrəy və müttəfiq olmaq, dostluq və yardımlaşmanın ortaya çıxması ilə qeyb pərdəsi arxasından (ilahi) bir lütf gəlməklə fəsad mənbəyi məhv edilər, o murdar zalım və sitəmkarın vücudu ortadan qaldırılar və onun zamanında əsən küləklərin tozanaq etdiyi bədbəxtliklər dindar mücahidlərimizin iti qılınclarından daman sularla yatırılmış olarlar. Daha sonra, dostluq yolları açılmış, «məzara qədər yazışmaya davam edin» hökmünə əsasən vüsal (qovuşma) zəminləri yaranmış olar. Dostluq məktublarının göndərilməsi, məhəbbət töhfələri elanı ilə ehtiram sahibləri olan elçilərin gəlib-getməsi, misallar aləmində olan ruhların tanışlığından meydana gələn mənəvi sevgiləri bildirmək üçün tərəflər arasında hədiyyələr göndərilmiş olar. (Allah) dostlarının və aşiqlərinin etimad etdiyi dostluq və ittihad bağı ikiqat artmış olar.

Birlik və qardaşlıq əsasları günbəgün möhkəmlənmiş olar. (İlahi) qüdrətin bəyəndiyi, (ilahi) sınaqdan keçən və şəriətin vacib buyurduğu aramızdakı bünövrələr saatbasaat güclənmiş olar.

Hazırda dostluq və səmimiyyət məktubunu çatdırmaq və sevinc xəbərlərini bildirmək üçün xüsusi qullarımızdan olan Məhəmməd bəy, – sağlamlığı davamlı olsun, – xeyirxahlıq mənbəyinə doğru göndərilmişdir. Allahın izni ilə fərəhverici görüşünüzə gəlib çatmaq şərəfinə nail olduqdan sonra mənəviyyat aləminin mələklərinə bənzər zati-alinizin xoş xəbərləri ilə tezliklə və xeyirli şəkildə geri qayıtmış olar».

Məhəmməd Nizaməddin məktubla Übeyd Xanın hüzuruna yetənəcən xeyli zaman ötmüşdü.

Şah İsmayıl Sultan Səlimin Übeyd Xanı onun üzərinə qaldırması üçün təşəbbüslər etdiyindən xəbərdar idi. O, Sultan Muradı çox böyük hörmətlə qarşılamış və ona Osmanlılar tərəfdən üz çevirib gəlmiş adamlardan qüvvələr toplamağa da şərait yaratmışdı. Ancaq Sultan Səlim müxtəlif vasitələrlə ondan Sultan Muradı geri qaytarmağı tələb edirdi.

Sultan Səlim, əslində, Şah İsmayılın üzərinə hücum üçün əlverişli vaxt gözləyirdi. Bu yandan da qardaşı oğlu Sultan Murad Sultan Səlimə və onun hakimiyyətə gəlməsinə rəvac verən saray əyanlarına, ordu başçılarına hədələr göndərir və hədələrini cəsarətlə əmisi Sultan Səlimə çatdırmaqdan çəkinmirdi.

…Sultan Səlim təşvişə düşmüşdü.

* * *

…Sultan Səlim özbək hakimi Übeyd Xana məktub göndərəndən sonra bir müddət gözləmək qərarına gəldi. Çünki, təkbaşına Şah İsmayılın üzərinə yeriməyə cəsarət etmirdi. Səfəvi sarayından gələn xəbərlər onu lap təşvişə salmışdı. Eşitmişdi ki, Şah İsmayılın özbəklər tərəfdəki Səfəvi sərhədlərini qorumaq üçün ayırdığı qüvvənin sayı-hesabı yoxdur. Pis orası idi ki, Səfəvi

hökmdarı Osmanlılarla sərhəddə də kifayət qədər hərbi qüvvə saxlamaqdadır.

Özbək hakimi Übeyd Xandan xəbər çıxmasa da, qardaşı oğlu Sultan Muraddan xəbər gəlmişdi. Sultan Murad əmisi Sultan Bəyazidin baş vəziri Rüstəm Paşaya məktub yazaraq bildirmişdi ki, o dünyaya səfər üçün hazırlıq işlərini başa çatdırsın. Çünki, tezliklə onu öz əli ilə o biri dünyaya göndərəcək. Sultan Səlim qardaşı oğlu Sultan Muradın belə cəsarətli hədə-qorxusunu qulaq ardına vurmaq istəsə də, camaat arasındakı bitib-tükənməyən şayiələr nəsə ciddi bir addım atmağa onu vadar edirdi. Doğrudur, o, qardaşlarını bir-birinin ardınca məğlub edib, onların qüvvələrini darmadağın etmişdi. Ona elə gəlirdi ki, qardaşlarından sonra ölkə daxilində ona qarşı dura biləcək qüvvə olmayacaq. Təəssüf ki, belə olmadı. İndi camaat arasında şayiə gəzirdi ki, tezliklə Sultan Murad Şah İsmayıldan kömək alaraq, çox böyük qüvvə ilə Sultan Səlimin üzərinə yeriyəcək. Əlbəttə, Sultan Səlim qardaşı oğlu Sultan Muraddan qorxacaq qədər aciz deyildi. Amma onu qorxudan məsələ bu idi ki, şayiələr adamların düşüncəsinə təsir göstərir, onları Sultan Səlimə inamsızlığa çəkirdi. Sultan Muradın adamları Osmanlı səltənətinin hər tərəfində camaat arasında təbliğat aparırdılar ki, o, atasını boğdurmaqla qətlə yetirib. Qardaşlarını gözgörəsi qətliam edib. Belə adamın hökmdarlığı cəmiyyətə, insanlara ədalət adına heç nə gətirə bilməz. Beləcə, şayiələrin baş alıb getməsi Sultan Səlimi tamam hövsələdən çıxartdı. O, baş vəzir Rüstəm Paşanı yanına çağırıb tədbir istədi.

Rüstəm Paşa hökmdarın onu nə üçün yanına çağırdığını təxmin etsə də, özünü o yerə qoymadı. Hökmdarın dediyi vaxtda onun hüzuruna tələsərkən Mövlana Sarıgörəzin də hökmdar tərəfindən çağırıldığını bilib birinci onunla görüşməyi qərara aldı. Çünki ona yaxşı məlum idi ki, hökmdar Mövlana Sarıgörəzin razılığı olmadan hər hansı bir məsələ haqqında qəti qərar qəbul edən deyil.

Baş vəzir sarayın Mövlana Sarıgörəzin sakin olduğu hücrəsinə döndü. Və onlar oradaca ayaq üstə qarşılaşdılar.

– Mövlanaya salam vermək istədim. Ancaq gördüm ki, o da harasa tələsir.

O, bu sözləri deyib, mövlananın qarşısında baş əydi. Rüstəm Paşa baş vəzir olsa da, hiyləgər adam idi. Yaxşı bilirdi ki, Mövlana Sarıgörəzlə hökmdar necə böyük hörmət və ehtiramla davranır.

Mövlana Sarıgörəz də Rüstəm Paşanın ona belə cani-dildən yanaşmasından xoşnud olaraq, baş əydi. Bununla Rüstəm Paşaya çatdırdı ki, ondan heç bir narazılığı yoxdur. Amma yenə də Rüstəm Paşaya sözünü deməyi məsləhət bildi.

– Hörmətli baş vəzir, bildiyin kimi, Sultan Murad hökmdar üçün başağrısına çevrilib.

Baş vəzir tez başını razılıqla tərpətdi. Bilirəm, bilirəm, Mövlana, xəbərim var, – dedi.

Mövlana Sarıgörəz Rüstəm Paşanı diqqətlə süzdü. Onun Sultan Səlimin hüzurunda özünü necə aparacağını bilmək istədi. Axı, onu da yaxşı bilirdi ki, Rüstəm Paşa da az aşın duzu deyil. Amma Mövlana Sarıgörəz çox istəyirdi ki, Rüstəm Paşanın saraydan uzaqlaşdırsın. Harasa gedər-gəlməz səfərə göndərsin. Bu barədə Sultan Səlimə üstüörtülü söz açsa da hələ bir nəticə hasil olmamışdı.

Rüstəm Paşanın da istəyi Mövlana Sarıgörəzi buralardan uzaqlaşdırmaq idi. O, təəssüf edirdi ki, Mövlana Sarıgörəzə üstün gəlmək gücündə deyil.

Onlar birlikdə Sultan Səlimin hüzuruna daxil oldular. Sultan Səlim Mövlana Sarıgörəzlə hörmətlə görüşdü. Ona xoş üz göstərdi. Sağ yanında yer göstərdi. Hökmdar Rüstəm Paşa ilə də yaxşı əhvalla salamlaşdı. Amma, Rüstəm Paşa özü də görürdü ki, hökmdar Mövlana Sarıgörəzə necə yüksək rəğbət bəsləyir.

Söhbətə Sultan Səlim özü başladı: – Sizi buraya çağırmaqda məqsədim odur ki, Sultan Murada qarşı görəcəyimiz tədbiri

birlikdə müzakirə edək, – dedi və üzünü Mövlana Sarıgörəzə tutdu. – Bəlkə, Mövlana bu barədə bir fikir desin.

Mövlana Sarıgörəz ayağa qalxıb təzim elədi. Hər dəfə təzim eləyib başını tərpətdikcə uzun, sarıya çalan ağ saqqalı qəribə tərzdə yellənirdi. Bir anlığa Rüstəm Paşaya elə gəldi ki, qarşısında uzun saqqallı bir keçi dayanıb. Az qala onu dəli bir gülmək tutacaqdı. Amma çox qətiyyətlə özünü ələ alıb sakit dayanmağa çalışdı. Ancaq bu sakitliyi ona dodağını dişləməsi bahasına başa gəldi. Rüstəm Paşanın dodağı həqiqətən çat vermişdi və az da olsa onun dodağında qan göründü. Bu, Mövlana Sarıgörəzin nəzərindən qaçmadı. Ona elə gəldi ki, Rüstəm Paşanın qorxusundan dodağı çatlayıb. Bu Mövlana Sarıgörəzi məmnun edirdi. Onsuz da hökmdarın münasibətindən anlamışdı ki, hökmdar Rüstəm Paşanı Sultan Muradın üzərinə göndərəcək. Ona görə də, ciddi və açıq bir rəy demədi.

– Böyük hökmdarın canı sağ olsun. Onsuz da sədrəzəm Rüstəm Paşanın hərbi tədbirləri qarşısında nəinki Sultan Murad, heç Şah İsmayıl da duruş gətirə bilməz.

Rüstəm Paşa Mövlana Sarıgörəzin necə bir hiyləgər cavab verməyini yaxşı başa düşürdü. O, xəyalından keçirirdi: «Ay sən öləsən, qoca tülkü, guya ki, tərifləyir, amma gör necə hiyləgərliklə məni odun ağzına atır».

Rüstəm Paşa daha fürsəti əldən vermək istəmədi:

– Hökmdarın başı sağ olsun. Mövlana Sarıgörəz düz deyir. Biz Sultan Muradı yaxşı tanıyırıq, o, heç atası qədər də güclü döyüşçü deyil. Onunla bizim güclü qoşun başçılarımız da bacarar.

– Bəs kimləri məsləhət görərdin? – deyə, hökmdar soruşdu. Rüstəm Paşa gümanı gələn qoşun başçılarının adlarını çəkdi:

– Dilavər Paşa ilə Şahbaz Paşa Sultan Muradın öhdəsindən asanlıqla gələr. Çünki onlar Sultan Əhməd və Sultan Qorqudun cəzalanmasında xüsusi şücaət göstəriblər. Yəqin ki, Sultan Muradın da öhdəsindən gələrlər.

Sultan Səlim əvvəlcə fikirləşdi ki, Muradla qarşılaşmağa Rüstəm Paşanı göndərsin. Ancaq burada ağlına gəldi ki, Şah İsmayılın üzərinə hücum üçün Rüstəm Paşaya tədarük əmri verə bilər. Beləliklə, Sultan Səlim hücum üçün Dilavər Paşa ilə Şahbaz Paşanın ixtiyarına otuz min nəfərlik qoşun ayırmağı tələb etdi.

Mövlana Sarıgörəz də, Rüstəm Paşa da düşünürdü ki, həqiqətən bu qoşunla Sultan Muradın öhdəsindən gəlmək asan olacaq.

Söhbətin bu cür qurtarmağı və hökmdarın onunla asanlıqla razılaşması Rüstəm Paşanı çox məmnun etmişdi. Mövlana Sarıgörəz isə əksinə çox dilxor idi. O, Rüstəm Paşanın bu dəfə də hədəfdən yayınmağına təəssüf edirdi. Düşünürdü ki, Rüstəm Paşa nə qədər sağdır və sarayda baş vəzirdir, ona rahatlıq olmayacaq. Rüstəm Paşa elə ilk imkan düşən kimi, Mövlana Sarıgörəzi aradan götürmək niyyətindən əl çəkməyəcək.

* * *

Sultan Murad atası Sultan Əhməddən qalan xəzinəni atasının tərəfdarları ilə birgə Səfəvi sərhədlərinə tərəf daşıdı. Amasya tərəf də, Anadolu ətrafı ərazilər də daxil bu yerlərdə Sultan Əhmədin nüfuzu çox böyük idi. Ona görə də bu ətrafların adamları Sultan Muradın gəlişini görcək çox sevinmişdilər. Əslində, bu sevincin kökü, Sultan Əhmədin Səfəvi tərəfdarı olan, ancaq Osmanlı sınırlarındakı ərazilərdə yaşayan insanlara rəğbətli münasibət göstərməsinə görə idi. Halbuki ayrı-ayrı zamanlarda, fərqli Osmanlı hakimləri bu yerlərin insanları ilə əqidələrinə görə çox sərt davranırdılar.

Çox güman ki, Sultan Əhməd də atasının razılığı ilə bu yerlərdə hakimlik edərkən, İstanbul sarayındakı qarmaqarışıqlardan sonra yəqin ki, bu yerlərə sığınacağını da düşünübmüş. İndi Sultan Murad atasının yerli əhali ilə hörmətli davranışının bəhrəsini görürdü. Adamlar hər yerdən axın-axın onun yanına gəlir, qoşuna yazılırdılar.

Sultan Murad atasından qalan sərvəti qoşun toplanmasına, silah hazırlığına çox səxavətlə xərcləyirdi. Onsuz da Sultan Murad yaxşı başa düşürdü ki, əgər Osmanlı səltənətinə hakimliyi saxlaya bilsə, ən azı atasının nəzarət elədiyi ərazilərdən atasından qalan sərvətdən də çox var-dövlət toplaya bilər. Amma yox, ərazilərə nəzarəti itirsə nəinki bu sərvəti saxlaya biləcək, heç başını da qoruya bilməyəcəkdi.

Sultan Murad tədarükü çox sürətlə başa çatdırdı. Ona artıq məlum idi ki, otuz min nəfərlik qoşunu Sultan Səlim onun üzərinə göndərir. Bunun müqabilində özü də iyirmi min nəfərlik qoşun tədarükü görmüşdü. Baxmayaraq ki, qoşunun sayında xeyli fərq var idi. Bu, Sultan Muradı qorxutmurdu. Çünki onun qoşunundakı qüvvələr yerli əhalidən toplanmışdı və onlar əraziyə yaxşı bələd idi. Üstəlik də Sultan Murad qoşunu səfərbərliyə almış, hər kəsə kifayət qədər məvacib vermiş, üstəlik də onların ailələrinin ehtiyaclarını da təmin etmişdi. Ona görə də Sultan Muradın qoşununda yüksək əhval-ruhiyyə var idi.

Az keçmədi ki, Dilavər Paşa ilə Şahbaz Paşanın rəhbərlik etdiyi qoşun dəstələri iki tərəfdən Sultan Muradın seçdiyi döyüş mövqeyinə yaxınlaşdılar.

Sultan Murad atının üstündə döyüşqabağı qoşunun qarşısından keçdi, onun qətiyyəti və cəsarəti bir daha qoşunun əhvalına xoş təsir elədi. Dilavər Paşa Sultan Muradın mövqelərinin demək olar ki, lap yaxınında idi. O, Sultan Muradın heç də Rüstəm Paşanın dediyi kimi qorxaq və cəsarətsiz birisi olduğuna inanmadı. Qarşı tərəfi öyrənmək üçün göndərdiyi kəşfiyyat adamları da, Sultan Muradın necə bir müzəffər ordu yaratdığı haqqında xəbərlər gətirirdi.

Birinci olaraq, döyüşə Dilavər Paşanın rəhbərlik etdiyi dəstələr başladı. Dilavər Paşa güman edirdi ki, az vaxt içərisində Sultan Muradın qüvvələrini əzişdirəcək və beləliklə, onun qoşunu çaxnaşmaya düşəcək. Və bu zaman Şahbaz Paşanın rəhbərlik etdiyi

qoşun dəstəsi hücuma keçməklə Sultan Muradın özünü də, bütün qüvvələrinidə məhv edəcək.

* * *

İlk qarşılaşma göstərdi ki, Sultan Muradın qüvvələri kifayət qədər hazırlıqlıdır. Onlar çox mətanətlə vuruşurdular. Sultan Murad şəxsən Dilavər Paşanı döyüşə dəvət etdi. Dilavər Paşa onun bu cəsarəti qarşısında mat qalmışdı. Əgər öz adamlarından utanmasaydı, təkbətək döyüşə qatılmazdı. Əhməd Paşa naçar qalıb özünü ona yetirdi. Sultan Muradın döyüşdə hələ kifayət qədər təcrübəsi yox idi. Dilavər Paşa isə müharibələrdə bərkimiş, sınaqlardan çıxmış bir döyüşçü idi. Onlar bir anın içində üz-üzə, göz-gözə gəldilər. Sultan Muradın gözlərində bir cəsarət, inam var idi. Əksinə, Dilavər Paşa Allahdan imdad diləyirdi və onu bu döyüşə göndərən Rüstəm Paşanı söyür, Sultan Səlimi isə lənətləyirdi. Bir an da keçsəydi Dilavər Paşa qılıncı atıb, Sultan Murada təslim olacaqdı. Amma gec idi. Sultan Murad ona çatmışdı. Və qılıncını onun başına çalanda Dilavər Paşa heç qalxanı da qaldırmağa macal tapmadı. Sultan Muradın qılıncı onu iki şaqqa elədi. Bu vaxt Şahbaz Paşanın başçılıq etdiyi qüvvələr, döyüş şeypurlarının sədaları altında hücuma keçsələr də Sultan Muradın qüvvələrinin iradəsini qıra bilmədilər. Sultan Murad özü də cəsarətlə vuruşmaqda davam edirdi. Gün əyilib axşam düşməmiş Şahbaz Paşanın dəstələri də sınıq düşüb qatlandı. Pərakəndə halda geri çəkilmələr başladı. Şahbaz Paşa da yaralanıb çoxluca qan itirmişdi, Sultan Murad pərakəndə halda geri çəkilib qaçmaqda olan Osmanlı qoşunu heç təqib də etmədi.

Xəbər tezliklə Sultan Səlimin sarayına getdi. Sarayda həmin gün hamı qara paltar geyinmişdi. Hər kəs hüzn içində idi. Sultan Səlim Rüstəm Paşanını yanına çağırıb, «get Sultan Muradın işini bitir», – deyə əmr etdi. Sultan Murad artıq yaxşı anlayırdı ki, Osmanlı səltənətinin sel kimi axıb gələn qüvvələri qarşısında

dura bilməyəcək. Ona görə də ailəsini və yaxın qohumlarını Şah İsmayılın sarayına göndərməklə, məktub yazıb ondan kömək istədi. Sultan Murad məktubda yazmışdı: «Əgər o Ali Şəhriyar bu aciz bəndənin köməyinə yetərsə, söz verirəm ki, bütün ölkəni o qardaş Şəhriyara bağışlayım və o həzrətin xidmətində dayanım. Çünki mənim atam Şeyx Səfi ocağının sufi və müridlərindən olmuşdu və mən də bu ocağın dostlarından, təəssübkeşlərindən, sadiqlərindən biriyəm».

Sultan Murad Şah İsmayıla əmisi Sultan Səlimin düşməni kimi yox, əsasən, özünün hamisi kimi baxırdı. Çünki, gözünü açıb hakimiyyət iştahasının nə demək olduğunu biləndə görmüşdü ki, atası Şah İsmayılla xoş ünsiyyətini, əmisi Səlimlə olan münasibətindən daha üstün tutur. Şah İsmayıl da öz növbəsində Anadolu və Amasya tərəflərdə güclü nüfuza malik olan Sultan Əhmədə və onun oğlu Sultan Murada rəğbət bəsləyirdi. Bu rəğbətin sayəsində Sultan Muradın məktubu ona çatan kimi Nurəli Rumlu adlanan igid sərkərdəsini müvafiq qoşun dəstəsilə Sultan Murada köməyə göndərdi. Və üstəlik Nurəli Rumluya uğur qazanacağı təqdirdə həmin ərazilərin hakimliyini də verəcəyini bildirmişdi. O, Sultan Muradın məktubuna cavabı da Nurəli Rumluya verdi:

«Biz cəsur xəlifə Nurəli Rumlunu göndərdik ki, sizin xidmətinizdə olsun və həm də sizin cavabınızı çatdırsın. Nə buyursanız onu icra edəcək. Əgər Rum Qeysəri sizin üstünüzə gəlsə, onda özüm gələcəyəm. Bu zaman qeyb pərdəsindən zühur olunanlar aydın olacaqdır. Allah-taalanın köməyi ilə işlər öz muradına çatacaqdır». Nurəli Rumlunun başçılığı ilə kömək Sultan Murada çatmamış Rüstəm Paşanın İstanbuldan gələn qüvvələri Sultan Muradın üstünü aldı. Sultan Murad gələn qüvvələrdən xəbərdar idi. Ona görə də Şah İsmayıldan göndərilən qüvvələrin gəlib çatmasını gözləmək üçün doyüşdən yayınmaq istədi. Ancaq qoşun əhli çox böyük inamla döyüşə girmək istəyini bildirəndə Sultan Murad etiraz etmədi.

Rüstəm Paşanın qüvvələri ilə Sultan Muradın döyüşçüləri səhər tezdən üz-üzə gəldi. Amasya ətafında baş verən bu qanlı savaşda hər iki tərəf on min nəfərdən çox qüvvə itirdi. Sultan Muradın döyüşçüləri daha inamla vuruşurdu.

Rüstəm Paşa günortadan az keçmiş öz qoşununun geriyə çəkilməkdə olduğunu görəndə, özü də döyüşə girdi. Bununla o, qüvvələrini bir yerə yığmaq və döyüşçülərin qələbə inamını bərpa etmək istəyirdi. Sultan Murad rəqibinin məğlubiyyətə uğramaqda olduğunu görüb, özü onun üstünə yeridi. Həqiqətən Sultan Murad daha inamlı idi. Onun ətrafındakı döyüşçülər Rüstəm Paşanı tezliklə öz adamlarından təcrid elədi. İndi onlar ikisi üzbəüz qalmışdılar. Sultan Murad açıq-aşkar görürdü ki, Rüstəm Paşanın rəngi avazıyıb, atını onun gözlərinin önündə cövlana gətirdi. Rüstəm Paşa onun gözlərindən bir vaxt sarayda dediyi sözlərin əksini görürdü. O, İstanbulda olarkən demişdi ki, Sultan Murad nə döyüş görüb ki, mənim qılıncımın qabağına çıxsın. Sultan Murad da onun bu sözlərini eşitmişdi və üstəlik onu da yaxşı bilirdi ki, Sultan Səlimi atasını öldürməyə o təhrik edib. Elə bu bildiklərinə görə də, Rüstəm Paşaya sifariş eləmişdi ki, sənə qılıncımla öz qanını yaladacam.

– Rüstəm Paşa, mənim haqqımda dediklərin yadındamı? – Sultan Murad qarşısında, öz atının üstündə rəngi avazımış, qorxa-qorxa, güclə dayanmış Rüstəm Paşanın gözlərinə baxıb qışqırdı.

Rüstəm Paşa ona cavab vermək istədi. Ancaq ha udqundu dillənə bilmədi. Sultan Murad atını onun atı ilə burun-buruna gətirdi. Qarşısında hərəkətsiz dayanmış Rüstəm Paşanı ilk həmlədə öldürmək imkanı vardı, ancaq öldürmədi. Atını kənara sürüb təzədən qayıtmaq istədi. Bu vaxt Rüstəm Paşa ayılmış kimi atını onun arxasınca sürdü. Sultan Murad bunu hiss edib atını yana çəkdi. Rüstəm Paşa onun yanından ötdü. Sultan Murad həmin andaca qılıncını tovlayıb Rüstəm Paşanın boynundan endirdi. Bir anda onun başı yerdə dığırlandı. At hövüllənmiş kimi başsız

bədəni üstündə xeyli apardıqdan sonra Rüstəm Paşanın bədəni atın üstündən yan tərəfə yıxıldı. Bir ayağı üzəngidə qaldığı üçün at başsız bədəni xeyli sürüdü.

Sultan Murad Rüstəm Paşaya belə qalib gəldi. Amma, yaxşı başa düşürdü ki, tezliklə Sultan Səlim onunla həlledici döyüşə başlayacaq. Səhəri günü Şah İsmayılın göndərdiyi qüvvələr Sultan Muradın yanına çatdı. Nurəli Rumlu Sultan Muradla hörmətlə görüşüb, Şah İsmayılın məktubunu verdi.

Nurəli Rumlu özü əslən İstanbul yaxınlığındakı kəndlərin birində doğulmuşdu. Neçə il əvvəl özü uşaq olarkən, atası ilə Sultanın yerli adamları arasında baş vermiş münaqişə nəticəsində atasının öldürüləcəyini başa düşüb, ailəsilə birlikdə qaçıb Təbrizə gəlmişdi. Bacarıqlı hərbçi olduğundan tezliklə Nurəlinin atasını mühafizə işlərinə cəlb etmişdilər. Nurəli Təbrizdə böyümüşdü. Atası kimi, özü də, Səfəvi ocağına sevgi bəsləyirdi. Buna görə də Şah İsmayılın yanında onun xüsusi hörməti vardı.

Sultan Səlimin böyük qüvvələri ilə qarşılaşmağın çətinliyini Sultan Murad kimi Nurəli Rumlu da yaxşı bilirdi. Üstəlik də artıq vəziyyət dəyişməkdə idi. Nurəli Sultan Muradla birləşib yeni gələn Osmanlı qoşunlarına qarşı vuruşmaq istəsə də uğurlu nəticə olmayacağını anladı. Çünki yerli əhali arasında güclü əks təbliğat aparılmışdı. Sultan Səlimin göndərdiyi Mustafa Paşanın adamları Sultan Murada rəğbət bəsləyən kəndləri darmadağın edir, adamları ağır cəzaya məruz qoyurdular. Elə bu səbəbdən də Nurəli öz qoşunlarını Səfəvilərin sərhədinə qaytarmağı və Sultan Muradı da tabeliyində olan qüvvələrlə birgə Şah İsmayılın yanına göndərməyi qərara aldı.

Bu vaxt, özbək hakimi Übeyd Xan Xorasan tərəfə hücum etmiş, Səfəvilərin bu yerdəki qüvvələrinə güclü zərər yetirmişdilər. Səfəvilərin iki görkəmli sərkərdəsi – Nəcmi bəylə Bayram bəy Übeyd Xanla döyüşdə həlak olmuşdular. Übeyd Xan xeyli ərazini ələ keçirmiş, sonra da qələbəsini, təntənəsini qeyd etməyə başla-

mışdı. Bu vaxt o, Sultan Səlimdən aldığı məktuba cavab vermək qərarına gəldi. Çünki, o indiyə qədər məktuba cavab verməmişdi. İstəyirdi ki, Şah İsmayıla qarşı uğurlu bir döyüş keçirsin və yalnız bundan sonra cavab versin. Beləliklə, Übeyd Xan Sultan Səlimin elçisi Məhəmməd Nizaməddini yanına çağırdı. Onun şərəfinə ziyafət məclisi qurdu. Dalbadal şərab piyalələrini başına çəkib, Sultan Səlimin, onun babalarının şəninə gözəl sözlər dedi. Hətta arada qızışıb, Şah İsmayılın hakimiyyətə haqqı olmadığını, tezliklə onu taxtdan salacağını da bəyan etdi.

Bu zaman onu diqqətlə dinləyən Sultan Səlimin elçisi Məhəmməd Nizaməddin qürurlanırdı. Çünki, artıq Übeyd Xan məhz Sultan Səlimin istəklərini açıq-aşkar dilinə gətirirdi. Bu, o demək idi ki, Sultan Səlim bir elçi kimi Məhəmməd Nizaməddindən çox razı qalacaqdı. Axı, o, tapşırılmış işi çox ali səviyyədə yerinə yetirirdi. Sultan Səlim ona tapşırmışdı ki, necə rəftar edirsə etsin, axır ki, Übeyd Xanı Şah İsmayılın üzərinə qaldırsın. Özü də Übeyd Xan bu işi tezliklə başlasın.

Məhəmməd Nizaməddin də elə bu səbəbdən sevinirdi. Übeyd Xan nəinki müharibəyə razılıq verirdi, hələ üstəlik müharibəni başlamış və Şah İsmayılın da iki nüfuzlu sərkərdəsini məğlub etmişdi…

Übeyd Xan Sultan Səlimin elçilərinin şərəfinə çox böyük ziyafət qurmuşdu. Çünki, o, fəxr edirdi ki, Osmanlı səltənətinin böyük hökmdarı Sultan Səlim öz elçilərini onun yanına göndərib, onunla ümumi düşmənə qarşı birgə hərəkət etmək məramını çatdırır. Bu da Übeyd Xanı o qədər sevindirmişdi ki, Sultan Səlimin elçilərinin şərəfinə qurduğu ziyafətdə öz sevincini, artıq qürurdan keçib lovğalığa çevrilmiş hisslərini də gizlətmirdi. Yəqin ki, şərabın da təsiri vardı. Çünki o, Şah İsmayılla arasındakı ədavətin, düşmənçiliyin həddinə baxmayaraq, çoxlu adamların əhatəsində Səfəvi hökmdarının ünvanına artıq-əskik söz danışmırdı. Hər vaxt sözünün ehtiyatını tuturdu. Baxmayaraq

ki, o, Xorasan tərəfdəki savaşda Səfəvilərə qalib gəlmişdi və bununla belə nə vaxtsa, Şah İsmayılın özünün onunla üzbəüz savaşa gələcəyini düşünüb qorxu çəkirdi. Buna görə də ehtiyatla davranırdı. Deyəsən, indi, onun gözlərində Şah İsmayıl da, onun məğlubedilməzliyi haqqındakı söz-söhbət də heçə enmişdi. Heç nədən, heç kimsədən bir qorxu, hürkü ağlına belə gəlmirdi. Sultan Səlim kimi bir hökmdarın onun yanına elçi göndərməsini bir yardım istəmək kimi düşünürdü.

* * *

Məhəmməd Nizaməddinin xəyalı bir anda Sultan Səlimin sarayına döndü. Elə həmin bir anda da onun varlığına bir şübhə toxumu düşdü. Bu qədər uzaq yolu dolanıb Üveyd xanın sarayına gəlməyi, deyəsən, mənasız idi. Hər halda indi o, belə düşünürdü. Çünki davranışından, hərəkətindən də göründüyü kimi, Üveyd xanın deyəsən, heç nizami ordusu da qədərincə deyildi. Şah İsmayılın ona əhəmiyyət verməməsi, üzərinə ikinci dəfə qüvvə göndərməməsi səbəbindən Səfəvi sərkərdəsi Əmir Nəcmi ilə döyüşdə qalib gəlməsi onun hədsiz lovğalığına səbəb olmuşdur. Açıq-aşkar hər kəsə məlum idi ki, Əmir Nəcmi kiçik bir qüvvə ilə sərhəd mühafizəsi işini yerinə yetirməkdəykən, Übeydin basqınına tuş gəlmiş və Übeyd Xan da bu savaşdakı qələbəsini sanki bütün Səfəvi ordusu ilə döyüş kimi qələmə verməkdə idi.

Amma Məhəmməd Nizaməddin yaxşı başa düşürdü ki, Sultan Səlim onu Übeyd Xanın yanına elə-belə göndərməyib. Hər necə olsa da, o, Übeyd Xanı şirnikdirməli idi ki, Şah İsmayıla qarşı savaş açsın. Onun Şah İsmayıla qarşı savaş açması Səfəvilərin gücünü parçalayacaq və bu zaman Sultan Səlimin Şah İsmayılla savaşında qüvvələr nisbətini Osmanlıların xeyrinə dəyişəcəkdi. Hələ ki, Üveyd xanla söhbət Məhəmməd Nizaməddinin istədiyi səmtə uyğun gedirdi. O, Üveyd xanın tamahkarlığından və lovğalığın-

dan istifadə etməklə Sultan Səlimin tapşırıqlarını, deyəsən uğurla başa çatdıracaqdı. Hər halda onun gözlərinin qarşısında asanlıqla idarə olunan bir şərab düşkünü lovğalanmaqda idi.

Qırmızı şərabdan daha bir badəni başına çəkdi. Cəhənglərindən qırmızı şərab al qan kimi süzülüb getdi. Piyaləni bir tərəfə atdı. Sağ əli ilə çənəsindən, sarı saqqalından uzu aşağı süzülən şərabı sildi. Başını dolandırıb, xumarlanmış gözləri ilə Məhəmməd Nizamməddini və bütün ziyafət iştirakçılarını süzdü. Sonra yenə Məhəmməd Nizaməddinə tərəf üzünü tutub ağzında şişmiş dili topuq vura-vura sözə başlamazdan əvvəl sağ əlini yuxarı qaldırdı. Deyəsən, o kimisə hədələyirdi. Amma bir neçə an söz demədi, elə əlini havada yellədi. Axır ki, dillənib Sultan Səlimin elçisi Məhəmməd Nizaməddinə bayaqdan bəri düşüncələrində gəzdirdiyi fikirlərini yetirməyə çalışdı:

– Sən bilirsənmi? Mən, böyük Özbək hakimi Übeyd Xan, necə böyük müharibələr aparmışam?

Məhəmməd Nizaməddin elə düşündü ki, Übeyd Xan Şah İsmayılın göndərdiyi qoşunlarla son savaşlarını nəzərdə tutur. Ona görə də başını razılıqla tərpətdi:

– Bəli, bəli bilirik, Şah İsmayılın iki böyük sərkərdəsini məğlub etmisən.

– Doğrudur, Nəcmi də Şah İsmayılın adlı-sanlı sərkərdəsidir. Hələ üstəlik bacısının əri Bayram bəyin də döyüşdə həlak olmağını eşitmişik.

Məhəmməd Nizaməddin Übeyd Xana xoş sözlərlə razılığını bildirmək istədi.

Amma yox, deyəsən Übeyd Xan bu məsələləri nəzərdə tutmurdu. Ona görə də yenə sağ əlini yuxarı qaldırdı. Məhəmməd Nizaməddin başa düşdü ki, daha nə isə demək, danışmaq yersizdi. Daha yaxşı olar ki, o, dinləsin. Onda o, sakitləşib Übeyd Xanın nə deyəcəyini gözləməli oldu. Axır ki, Özbək hakimi asta-asta danışmağa başladı:

– Sənin xəbərin varmı, mən Məhəmməd xan Şeybaninin sevimli arvadı Monqol xatunu alıb, özümə arvad eləmişəm.

Məhəmməd Nizaməddin başını razılıqla tərpətdi. Çünki, bu məsələdən xəbərdar idi. Bilirdi ki, Məhəmməd Şeybani öldürüləndən sonra Übeyd Xan Mərv qalasına gəlmiş, Səfəvilərin gəlib yetişməməsindən istifadə edərək Monqol Xatunu qalabəyidən tələb etmiş və qalabəyi də Monqol Xatunun razılığı ilə onu Übeyd Xana təslim etmişdi. İndi bu əhvalatı Übeyd Xan özünün qələbəsi kimi qələmə verirdi. Və bunu da Məhəmməd Nizaməddin bilsə də, üstünü vurmurdu. Gözləyirdi, görsün sərxoş Übeyd Xan bununla nə demək iştəyir? Xanı söhbətinə qaytarmaq üçün Məhəmməd Nizaməddin dilləndi:

– Bilirəm, Osmanlı səltənətində də bu əhvalatdan xəbərdardırlar – dedi, sonra da Übeyd Xanı bir də nəzərdən keçirdi. Sərxoşluq içərisində lovğalıq görkəmini görüb onu bir az da fərəhləndirmək məqsədi ilə əlavə etdi,

– Bəli, Übeyd Xanın şücaətlərindən hər kəsin xəbəri var.

Elə bil ki, Məhəmməd Nizaməddinin bu sözləri Übeyd Xana bir az da ilham verdi:

– Mən də elə onu deyirəm, – Übeyd Xan bunu deyib dayandı. Deyəsən, deyəcəyi sözün çəkisini fikirləşirdi. Desin ya deməsin? Axır ki, düşündüyünü demək qənaətinə gəldi, – necə ki, Məhəmməd xan Şeybaninin arvadını almışam, eləcə də Şah İsmayılın tifaqını dağıdıb, onun sevgili xatunlarını öz hərəmxanama gətirəcəyəm.

Übeyd Xanın bu sözlərindən sonra kimsə dillənmədi. Sultan Səlimin elçisi Məhəmməd Nizaməddin də dillənmədi. Elə bil ki, kimsə cəsarət edib nəsə demək istəmirdi. Çünki, aradakı mətləbin nə demək olduğunu hər kəs yaxşı bilirdi.

Aradakı sükut xeyli çəkdi. Məhəmməd Nizaməddində bir qədər narahatlıq var idi. Xanın sərxoşluğu, onun verdiyi hökmlər əsasən də Sultan Səlimin ciddiliyinə xətər gətirə bilərdi. Sultan

Səlimin elçisi olaraq, o, narahat idi ki, indi bu dediklərini xan sabah yadında saxlamış olacaq, ya yox. Məhəmməd Nizaməddinin narahatlığı Sultan Səlimə aparacağı cavabla bağlı idi. Hər halda səbir edib məclisin sonunu gözləmək qərarına gəldi. Daha nəsə soruşub Übeyd Xanın sayıqlamalarını dinləmək istəmirdi.

Übeyd Xan içdiyi şərabın təsirindən, gözləri xumarlanaraq Məhəmməd Nizaməddini tərifləyə-tərifləyə, eyni zamanda Şah İsmayılı da lənətləməkdə davam edirdi. Axır ki, o, əmrə müntəzir dayanmış mirzəyə müraciət elədi: «Gətirin verin, hörmətli Sultan Səlimə yazdığımız məktubu». Doğrudur, o, məktubu Məhəmməd Nizaməddinə verməyi göstəriş etmişdi. Ancaq, deyəsən fikrindən daşındı. Yerindələngər vurdu. Başı çox dumanlı olsa da, sözlərini çox aydın ifadə elədi:

– Yox əvvəlcə, məktubu oxuyun. Bir daha eşitmək istəyirəm. Elə Məhəmməd Nizaməddin özü də eşitsin.

Məhəmməd Nizaməddin başa düşdü ki, Übeyd Xan nə qədər sərxoş olsa da, istəyir ki, məktubun mətnini bir elçi kimi o eşitsin və yadında saxlasın. Çünki yolboyu təhlükə törənərsə elçilər məktubları məhv edərdilər. Übeyd Xanın mirzəsi mətni aramla oxuyurdu. Amma, Übeyd Xan gözlərini yumub dinləməkdə idi. Məhəmməd Nizaməddin bilmirdi ki, o yatıb yoxsa, oyaqdır? Amma, birdən gözünü açıb məktubun bir məqamına diqqət etməyi Məhəmməd Nizaməddinə işarə elədi. Mirzə oxuyurdu: «Bununla yanaşı, o böyük köpəyin nümayəndəsi son dərəcə nadan olan Nəcm Sani adlanan kiçik köpəyi qadın köpəklə evləndirib. O, yolunu azmış və başları dar ağacında olan səksən min qızılbaş atlının rəhbəri kimi İrandan hərəkət edərək turanlıları pərişan etməyə başladı. Amudərya çayının sularını keçdikdən sonra bir çox şəhər və bölgə sakinlərini qətliam edib o dünyaya yola saldılar . O çirkin əməlli bədbəxtlik ulduzunun zəhmindən qorxaraq Kabil və Qəndaharın hakimi Babur yenidən ona itaət etməyə başlayıb, İslamın qübbəsi olan Səmərqəndə gəlib çıxdılar.

Mübarək Novruz günü günortadan bir az əvvəl onlarla döyüşmək fürsətimiz oldu və «bizim əsgərlərimizin mütləq qələbəsi labüddür» nidası qeybi carçı mələk vasitəsilə zəfərə yaxın olan eşidən qulaqlarımıza oxumuş oldu. Bir göz qırpımında onların canlarını həyatlarından almış olduq. Beləliklə qürub vaxtına yaxın zalım dövlətin günəşi batmış oldu və o namübarək Nəcm, bizim uğurlu bəxtimizə əsir düşdü. Uğursuz Nəcmi ulağa mindirməklə siyasət məmləkətlərinin sahibi edib kinayə mənasında etibardan saldıqdan sonra qanındakı atəşi iti qılıncla boynundan tökərək üzündəki zəhmin təsirini söndürdük. Hidayət ayəsi olan «artıq o zalım tayfanın kökü kəsildi».

Gözəl qamətli həyat yoldaşı bir neçə sarvanla iti gedən dəvəyə minib gizlin yollarla təşviş və iztirab içində Təbrizə çatmış, özünün şum taleli ərinin rüsvayçılığını hər bir kəsə bildirmiş və heç nəyi gizlətmədən danışmışdır. Əgər o alicənab padşah, müzəffər ordusu ilə o dinsizin şərini dəf etməyə qalxıbsa, bu qüsursuz dostunuz xoşxəbər elçiniz Nizaməddin Məhəmməd bəyin, – Allah ömrünü uzun etsin, – gəlişini ürəyə yatan Səmərqənddən, – Allah onu qorusun – Daşkəndin son sərhədlərinə qədər xüsusi və ümumi qonaqların hamısına xəbər veribdir. Şahzadələrə və ya mirzələrə, xanlara, sultanlara, igidlərə, ulus əmirlərinə, tümən əmirlərinə qoşun başçılarına, mərzbanlara, bir sözlə, Çingiz xan sülaləsinin Cığatay və Özbək qollarına tabe olanlara və onların rəhbərlərinə bildiriş göndərərək bu müjdəli xəbəri çatdırdıq. İndi isə yolunu azaraq zəlalətə düçar olmuş tayfanı və nifrət edilən təcavüzkar qrupu, – Allah onlara lənət edib məhv etsin, – məhv etmək üçün yekdil qərara gəlmək və uğurlu fikri müzakirə etmək üçün qurultay və toplantı keçirtmək fikrindəyik. Pak və uca olan Allah bizi və onu hər bir mühüm (işlə), xüsusilə bu işdə müvəffəq və qalib etsin. O, zalımların fəsadını dünya və dünyada yaşayanların üzərindən uzaq etsin. Həqiqətən O, bəndələrinə mehribandır. Şücaətlilərin günəşi və (bizə) yaxın (olanların) dayağı qeyd edilən

elçinin xidmətinə çatdırıldı ki, (əl) öpmə mərasimindən sonra dərhal geri qayıtsın Səfahan (İsfahan) və Zenderud ətrafında hər iki tayfanın (şiə və sünni) əhalisinə və dostlara padşahın qələbə xəbərini çatdırmış olsun. «O, Allah üçün çətin deyildir». Qalan gizlinləri (məsələləri) işarə ediləndən (elçidən) soruşarsınız. Dil qəlbdən xəbər verdiyi kimi, o da bizdən xəbər verər. Əgər bizim tərəfimizdən cənab Məhəmməd bəyə, – Allah ömrünü uzun etsin, – nisbət qüsurlu xidmət olubsa üzrlü hesab edin. Çünki (ilahi dərgahının) xidmətçisinə ürək istəyən kimi xidmət etmək çətin məsələdir. Bu barədə üzrxahlıq etmək daha yaxşıdır. Uzunçuluğa nə ehtiyac var ki?.. »

Axır ki mirzə məktubu oxuyub qurtardı. Übeyd Xan xüsusi bir qıvraqlıqla yerindən qalxdı. «Hə, indi Məhəmməd Nizaməddinə yaxşı yol» – deyib onu qucaqladı.

Xüsusi bəzəklə işlənmiş məktub daha qiymətli baratlar və hədiyyələrlə Məhəmməd Nizaməddin vasitəsilə Sultan Səlimin sarayına yola salındı…

* * *

Baxmayaraq ki, Sultan Səlimin sarayında sakitlik idi, ancaq bir-birinin arxasınca ona ünvanlanan məktublar, xəbərlər gəlməkdə davam edirdi. Bu da istər-istəməz Sultanın özündə bir həyəcan yaradır və o da bir çox hallarda xoşagəlməz olan bu xəbərlərdən canını qurtarmaq üçün yollar arayırdı. Əsas məsələ də onunla bağlı idi ki, Sultanın sarayını, bir sözlə, hakimiyyətini qorxu altına alacaq bir qüvvə görünməsə də, o, özü bu qüvvəni Şah İsmayılın timsalında hiss etməkdə idi. Hələ orası lap betər idi ki, hakimiyyətdən haqqını, payını ala bilməyən Sultan Bəyazidin böyük oğlu Əhmədin öldürülməsindən sonra onun oğlu Sultan Murad Şah İsmayıl sarayına sığınmışdı. Sultan Səlim yaxşı bilirdi ki, Sultan Murad çox cəsarətli bir cavandır. Özü də hərb elmini heç də Sultan Səlimdən zəif bilmir. Demək, Sultan Murad Şah İsma-

yılın yanına qaçmaqla orada əbədi olaraq sakit bir həyat yaşamayacaqdı. Gec-tez Səfəvi xanədanının köməyi ilə atasının qisasını almaq üçün geriyə – Osmanlı torpaqlarına üz tutacaqdı.

Xəbər gəlmişdi ki, Şah İsmayıl İsfahanda Sultan Muradı hökmdarlara layiq bir təntənə ilə qaşılayıb. Hətta babası Şeyx Cüneydin çox qiymətli tacını da Sultan Murada bağışlayıb, üstəlik, Şeyx Cüneydin qılıncını da ona əta edib. Sultan Səlim yaxşı başa düşürdü ki, bu hərəkətlərlə Şah İsmayıl həm yan-yörəsinə, həm də Osmanlı sultanlığına bildirmək istəyir ki, Sultan Muradın Osmanlı sultanlığında bərqərar ediləcək hakimiyyətini özününkü bilir. Üstəlik, Şeyx Cüneydin qılıncını Sultan Murada verməklə demək istəyir ki, Sultan Muradın timsalında Osmanlı hakimiyyətinə qarşı vuruşan elə Səfəvilər olacaqdır.

Sultan Səlim bu xəbərlərin hər birindən kifayət qədər qəzəblənsə də, hərəkətə keçməyin vaxtını, məqamını gözləməyi üstün tuturdu. Bu tərəfdən də Şeyx Məhəmməd Nizaməddini gözləməli olmuşdu. Onun da xəbəri yəqin ki, bu gün-sabah çıxacaqdı. Hər halda, Sultan Səlim xüsusi sifarişlərlə qardaşı oğlunu Şah İsmayıldan geriyə tələb edirdi. Bunun üçün Şah İsmayılın yanına çaparlar göndərmiş və ondan tələblərə əməl etməyini qətiyyətlə istəmişdi.

Ancaq Şah İsmayıl da öz növbəsində Sultan Səlimin kəskin tələblərinə öz qüruruna layiq cavab verməkdən çəkinmirdi. Şah İsmayılın hörmətli sərkərdələrindən olan Nurəlinin Diyarbəkir ətrafındakı savaşları Sultan Səlimi tamam haldan çıxardı. O, görürdü ki, Səfəvilərin qüvvələri nəinki Diyarbəkr tərəflərdən çəkilmək istəmir, hələ üstəlik burada olan Osmanlı qüvvələrinə də ağır və sarsıdıcı zərbələr endirirdi.

Şah İsmayıl yaxşı bilirdi ki, Sultan Səlim bu yerləri özününkü hesab edir. Belə olan halda o da Sultan Səlimə xatırlatmışdı ki, axı biz bu yerləri sizin əlinizdən almamışıq. Babam Uzun Həsənin övladlarından olan Əlaüddövlə Zülqədər xanın hakimiyyətindən

çıxarıb Səfəvilərin ərazilərinə qatmışıq. Axı Uzun Həsən bu yerləri öz qan-qadası ilə qoruyub-saxlayıb. Bütün bunları Şah İsmayıl Sultan Səlimə bildirmiş və üstəlik onu da bildirmişdi ki, biz özümüz də həmin yerləri qan, can verərək geriyə almışıq.

Şah İsmayılın bu qənaətlərini çaparlar çox qısa müddətə Sultan Səlimə yetirmişdi.

Sultan Səlim həmişə mühüm məsələlərin müzakirəsindən əvvəl öz müəllimi Mövlana Sarıgörəzi yanına dəvət edir, niyyətlərini onunla bölüşür, məsləhət almaqdan çəkinmirdi.

Sultan Səlimin qəzəbindən dişi bağırsağını kəsirdi. Hətta dişlərini bir-birinə elə sıxırdı ki, çıxan xırçıltı səsini Mövlana Sarıgörəz də açıq-aydın eşidirdi.

– Zəmanəmizin böyük hökmdarına bu səhər salam vermək şərəfinə nail olduğum üçün özümü çox xoşbəxt hiss edirəm. – Bunu Mövlana Sarıgörəz içəri girən kimi əlini sinəsinə qoyub təzim etdikdən sonra dedi və başını qaldırıb hökmdarın gözlərinə baxdı ki, Sultanın onun salamına necə münasibət göstərdiyini görsün. Mövlana hiss etdi ki, hökmdar hövsələsinin son həddindədir. O, kəskin və qətiyyətli tədbir görmək niyyətindədir. Mövlana Sarıgörəz onu da başa düşdü ki, indi hökmdarı səbir və təmkinə çağırmaq yersiz olardı.

Mövlana yaxşı bilirdi ki, gözlərinin qabağında onun tərbiyəsilə böyümüş Sultanın qəzəbi asanlıqla keçib getməyəcək. Ona görə də təzimdən və salamdan sonra bir qədər gözləməli oldu. Nəhayət, Sultan Səlim dilləndi:

– İndi biz nə qədər gözləməliyik ki, Sultan Murad Şah İsmayıldan qoşun alıb üzərimizə yerisin. – Sultan Səlim öz müəlliminə elə qəzəblə baxdı ki, sanki onun qarşısındakı Mövlana Sarıgörəz yox, elə Sultan Muradın özü idi. Hələ üstəlik, Şah İsmayıl da onun yanında durmuşdu.

Mövlana Sarıgörəz iti nəzərlərilə hökmdarı süzdü. Ürəyində Allaha dua etdi ki, hökmdarın qəzəbi həddini aşmasın.

– Yəqin ki, hökmdar bilməmiş deyil?! – Mövlana Sarıgörəz sualqırışıq bir nida ilə soruşdu.

– Nəyi? – Sultan Səlim qısa sorğu ilə cavab verdi.

– Bəli, hökmdar, haradan ki, səltənətə təhlükə var, o təhlükənin bütün rişələrini qazıb çıxarmaq gərəkdir. Ancaq… – Mövlana Sarıgörəz sözünü yarımçıq saxlayıb yenə hökmdarın fikrinə meydan verdi. Hökmdar isə hələ də qəzəb atından düşməmişdi:

– Nə ancaq?!

– Bəli, hökmdar, tezliklə ciddi tədbirlər görmək gərəkdir. Ancaq orası var ki, biz hələ Şah İsmayılla qarşılaşacaq qüvvələrimizi tam səfərbər etməmişik. Bunun üçün bizə…

– Bəlkə, açıq deyəsən, bizə nə lazımdır? – Hökmdar Mövlana Sarıgörəzin fikrini bilmək istədi. Mövlana Sarıgörəz indi anladı ki, daha aqil tədbir görmək üçün razılaşdıra bilər. Ona görə də bir daha hökmdara təzim edib sözə başladı:

– Zəmanəmizin böyük hökmdarı Sultan Muradı da, Şah İsmayılı da asanlıqla yenə bilər. Hələ üstəlik gələcəkdə sultanlığın ərazilərini böyütmək üçün daha böyük müharibələrə də başlaya bilər. Ancaq bunun üçün müəyyən hazırlıq işləri də görülməlidir. Hazırlıq işləri isə vaxt tələb edir. Hər kim vaxtı, məqamı daha düzgün tənzimləyə bilsə, bəxt də onun üzünə güləcək. Buna kimsənin şübhəsi olmasın.

Həqiqətən Sultan Səlimin qəzəbi ötmüşdü. O, Mövlana Sarıgörəzin məsləhətlərini daha təmkinlə dinləyir, dediklərinin də doğru olduğunu dili ilə olmasa da, başını razılıqla tərpətməsi ilə bildirirdi.

– Hökmdar, bir olan Allahın köməyi ilə məmləkətdə Sultan Əhməd və Sultan Qorqud tərəfdarlarının ümidlərini puça çıxarmaq, üstəlik Şah İsmayılın Nurəli vasitəsilə Diyarbəkirdəki qüvvələrini də kənara atmalıyıq. Buna görə Şah İsmayıla bir məktub göndərmək lazımdır. Həmin məktubun ünvana yetib qayıtması ilə ötən vaxt bizə lazım olan işləri görmək üçün kifayət edəcək.

## ÇALDIRAN YOLU

Sultan Səlim daha vaxtı ötürmək istəmədi. O, Mövlana Sarıgörəzə işarə etdi ki, qələm-dəvatı yaxına çəksin və məktubu yazsın. Sultan Səlim atası haqqında bir neçə cümlə bəyan etdi. Dini qaydalara və hökmlərə əməl etməyin vacibliyindən danışdı. Yeri gəldikcə, Şah İsmayılın ünvanına da kəskin ifadələr işlətməkdən çəkinməyərək fikirlərini ardıcıl bir nitqlə Mövlana Sarıgörəzə diktə etməyə başladı. O, məktubun nisbətən axırıncı hissəsini daha diqqətlə yazmaq üçün aramla deyirdi: «Təcavüz etməklə Şərq ölkələrini ələ keçirdin. Əmrə tabe olduğun miskin bir guşədən əmr verən əzəmətli saraya qədəm basdın. Müsəlmanların üzünə zülm və əziyyət qapılarını açdın. Dinsiz və kafirləri bir-birilə evləndirərək qarışdırdın. Fitnə və fəsadın aşkar olmasını özünə şüar və hədəf seçdin. Zülm bayraqlarını qaldırdın. Öz təbii meyilin və nəfsinin istəyinə uyğun hökmranlıq edib şəriətin hökmlərini (şərtlərini, bağlarını) pozdun və millətin şərəfini (inancını, abrını, namusunu) məhv etməyi düşündün. Zinanı halal etmək, haqsız yerə qan tökmək, məscid və minbərləri sökmək, qəbiristanlığı və məqbərələri yandırmaq, peyğəmbər övladlarına və alimlərə hörmətsizlik etmək, mushəfləri pisliklər içərisinə atmaq, iki şeyxə, – Allah onlardan razı olsun, – söyüş söymək kimi pis davranış və hərəkətlərin haqqında hər kəs danışır. Din rəhbərləri və hidayət edən alimlər, – Allah onların hamısından razı olsun, – sənin və ardıcıllarının mürtəd olması haqqında yekdilliklə fətva verdilər ki, bu da qətl edilməyə səbəb olur. Buna əsasən biz də dini gücləndirmək, məzlumlara yardım etmək, əzab çəkənlərə kömək etmək, ilahi əmrlərə itaət və padşahlığın şərəf qayda-qanunlarını bərpa etmək üçün ipək və nazik parça yerinə zireh və dəmir libas geyindik. Allahın yardımı və gözəl lütfi ilə qələbə bayraqlarının daşıyıcıları, yola (şüara, üslüba, adətə, qayda-qanuna) yadım edən əsgərlər, döyüş aslanları, qılıncı qəzəb qınından çıxaran qılıncvuran qəhrəmanlar bədbəxt düşməni əzmlə taleyinə qovuşduracaq, kin kamanında oxları ol-

duğu üçün rəqibin ölüm payını oxatan bürcünə rast gətirəcəklər. Zəfər və xeyirlərə vəsilə olan Səfər ayında dənizdən keçdik. Bu niyyətlə ki, əgər Allah-taala yardım etsə, güc və qüvvəmizdən istifadə edərək zülmkar əl-qolunu qoparıb, təşvişli başından qalib olmaq sevdasını çıxaraq. Kasıb və gücsüzlərin başı üzərindən şər və fitnənin (yaratdığı) fəsadları uzaqlaşdıraq. Evlərə vurduğun həmin odun tüstüsünü evinə gətirək. Çünki qılıncdan öncə İslama (dəvət) təklifi Mustafa, – salam olsun ona, – şəriətinin hökmüdür. Bu məşhur məktub da (həmin qaydaya əsasən) gözəl şəkildə yazıldı. İnsan övladının ruhu (nəfsləri) fərqlidir. İnsan qızıl və gümüş mədənləri kimidir. Bəzi xarakterlərin pis olması təbiidir və düzələn deyil. Belə ki, zəncini yumaqla ağarmaz. Xarakterin süstlüyü, şər işlərə adətkərdə olmaq şəhvətin hakim olmasından qaynaqlanır və düzəlməsi mümkündür. Necə ki deyirlər: pislər təlim və tərbiyə ilə yaxşılar cərgəsində olar, bir ehmala görə. Əgər özünü «o kəslər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər…» cərgəsinə daxil etsən, bütün hallarda Allah-taalanı unutmasan, pis işlər, doğru olmayan davranışlar və çirkin adətlərdən peşman olsan, səmimi qəlbdən tövbə və istiğfar etsən, ötən zamanda bizim qalib ordunun dördayaqlılarının ayağı dəydiyi qala və məkanları (indi isə sənin tabeçiliyində olan və onları işğal edərkən bizi) məzəmmət etdiyin həmin ərazilərin hər bir guşəsini Osmanlı məmləkətlərinin tabeçiliyinə verərək bizim əzəmətli himayəmizdə olan bəndələrə tapşırsan daha yaxşı olar. Bizim xidmətimizdə duranlardan yaxşılıq, nəvaziş, mehribanlıq və xoş xasiyyətdən başqa bir şey görməzsən.

*Pis vərdiş təbiətində özünə yer etdisə*
*Ölənə qədər səndən əl çəkməz.*

Əgər pis əməllər və rüsvayçı davranışları israr və təkidlə davam etdirsən, uca Allahın köməyi ilə qələbə çalacağıq və ələ ke-

çirdiyin həmin məmləkətin meydanı tezliklə bizim qalib ordunun düşərgəsi olacaqdır. Bir müddətdir yelbeyinliyin şiddətindən sərdarlıq sevdasına düşmüsən və lovğalığın çoxluğundan cahangirlik və fatehlik iddiası dilində cari olur. Əgər mərdsənsə, mərdlərin meydanına çıx ki, taleyin hökmü müəyyən olsun». …O gün hökm ancaq Allahındır». «…Haqq yolu tutub gedənlərə salam olsun!» Mövlana Sarıgörəz məktubu tamamladı, tarixi də qeyd etdi. Hətta məktubun harada yazıldığını göstərən yeri də yazdı. Bundan sonra məktubun yola salınması üçün əlavə tapşırıqları hökmdar özü verəcəkdi. Mövlana Sarıgörəz Allaha yalvarırdı ki, məktubu aparmağı hökmdar ona həvalə etməsin. Çünki məktubda elə məqamlar var idi ki, Şah İsmayıl həmin sözləri oxuyarkən qəzəblənə bilərdi və bu da Sultan Səlimin göndərdiyi şəxsin başında çatlayardı.

Sultan Səlim bu məktubdan sonra tezliklə Şah İsmayılla qarşılaşmalı olacağını artıq yaxşı anlayırdı. Onu da bilirdi ki, Şah İsmayıl onun üçün nə Sultan Əhməd olacaq, nə də Sultan Qorqud. Bu, çox ciddi savaş olacaqdı.

* * *

Sultan Səlim Şah İsmayılın ünvanına göndərdiyi məktubdan sonra arxayınlaşmadı. Mövlana Sarıgörəzin məsləhətinə uyğun olaraq Osmanlı səltənətinə dəxli olan bütün yerlərə məktublar, əmrlər, sərəncamlar yollayıb hər kəsi Səfəvi təhlükəsindən xəbərdar edərək müsəllah olmağa çağırdı. Bu böyük bəlaya qarşı Sultan Səlim təkcə ordu ilə döyüşməkdən başqa adamların fikir və düşüncələrini, xəyalatlarını da səfərbər etməyi üstün tuturdu. Çünki atası Sultan Bəyazidin ölümündən sonra əyalətin demək olar ki, hər yerindən ona hüsn-rəğbətin dəyişməsi haqqında gələn xəbərlər ciddi narahatlıq yaradırdı. Hər yerdə xəbər yayılmışdı ki, o, atası Sultan Bəyazidi boğduraraq öldürtmüşdü. Şübhəsiz, belə olan halda qardaşları Sultan Əhmədin və Sultan Qorqudun

tərəfdarları da hər yerdə dil-boğaza qoymurdular: Atasına, qardaşlarına xəyanət edən bir şəxsin xalqa hansı sədaqətindən danışmaq olar?

Mövlana Sarıgörəz özü də narahat idi. Baxmayaraq ki, Sultan Səlim hər hansı bir addımı atmazdan əvvəl onunla məsləhətləşir, rəylərinə xüsusi əhəmiyyət verirdi. Mövlana Sarıgörəzin rahatsızlığı onunla bağlı idi ki, əhali hər yerdə yalnız Sultan Səlimin zoruna və hədsiz qətliamlarına rəğmən tabeçilik göstərirdi. Səfəvilərlə sərhəd tərəflərdə Şahqulu Baba üsyanı göstərmişdi ki, əhalinin xeyli hissəsi Səfəvilərin tərəfdarıdır. Ən başlıcası, onların dini etiqadlarını heç bir zorakılıq olmadan könüllü şəkildə qəbul edirdilər.

Hələ son vaxtlar Diyarbəkir tərəflərdə Şah İsmayılın sərkərdələrindən olan Nurəlinin başçılığı ilə irəliləyən Qızılbaş qoşunları artıq ciddi təhlükəyə çevrilməkdə idi. Təhlükəni ciddiləşdirən bir amil də Sultan Muradın özünün də xeyli hərbi qüvvə ilə irəliləməsi idi. Sultan Səlimə məlum idi ki, Şah İsmayıl açıq-aşkar Sultan Səlimə və onun hakimiyyətinə qarşı təhlükə törədəcək mövqeyini bildirməsə də, Osmanlı səltənətinin hökmdarı Sultan Səlimin qardaşı oğlu Sultan Muradı bütün imkanları ilə dəstəkləyir və ona təkcə mənəvi yardım göstərmir, silah sarıdan da köməyini əsirgəmirdilər.

Aradan xeyli müddət keçmişdi. Şah İsmayıldan bir cavab yox idi. Hələ üstəlik Şah İsmayıl ən böyük və nüfuzlu sərkərdələrindən biri olan Məhəmməd xan Ustaclının başçılığı ilə Diyarbəkir tərəfə əlavə qüvvələr də göndərilmişdi. Doğrudur, Məhəmməd xan Ustaclıya tapşırılmışdı ki, Nurəli və Sultan Muraddan fərqli olaraq Osmanlı sərhədlərinin içərisinə girməsin. Ancaq Diyarbəkir tərəflərin təhlükəsizliyini təmin etməklə məşğul olsun.

Məhəmməd xan Ustaclı güclü sərkərdə olduğu kimi, kifayət qədər müdrik insan idi. Buna baxmayaraq, Osmanlıların Səfəvi sərhədlərinə yaxın tərəflərdəki Qızılbaş qətliamlarına seyrçi qala

bilmədi və Sultan Səlimə bu qətliamları dayandırmaq üçün kəskin bir məktubla müraciət də etdi. Həmin müraciətində Məhəmməd xan Ustaclı Sultan Səlimin Qızılbaş hökmdarına təhqirlərini də cavabsız qoymamışdı. Və nəticədə Sultan Səlimə bildirmişdi ki, bir hökmdarın başqa bir hökmdara kin və qəzəbinin əvəzini sadə və köməksiz insanlardan çıxması yaraşmaz.

Sultan Səlim Məhəmməd xan Ustaclının məktubunu alan kimi Mövlana Sarıgörəzi yenə yanına çağırdı. Və ondan tələb etdi ki, Qızılbaşların Osmanlı ərazilərində olan tərəfdarlarını cəzalandırmaq üçün dinin hökmünü versin.

– Qulağımızın dibinəcən gəlib, burnumuzun ucunda dayanıb bizə hədə-qorxu gələn Səfəvi sərkərdəsinin nəyə güvəndiyini bilirsənmi? – O, Sarıgörəzdən qətiyyətlə soruşdu:

– Bilirəm, hökmdar.

– Nədir bunun səbəbi?

– Səbəb odur ki, Osmanlı səltənətinin Səfəvilərlə sərhəd olan tərəflərdə insanlar Şah İsmayılın mərhəmətinə daha çox inanır. Ən başlıcası, ona sevgi və hörmət bəsləyirlər.

Mövlana Sarıgörəzin sözünün sonu Sultan Səlimi qılınc kimi doğrayıb keçdi.

– Yaxşı, bizim mərhəmətimiz yoxdursa, hökmümüz necə? Hökmümüz də onların Şah İsmayıla dua eləyən dillərini kəsə bilməz?

– Kəsər, hökmdar.

– Bəs bizim qarşımızı kəsən nədir?

– Dinin fətvası gərəkdir, – Mövlana Sarıgörəz axır ki, mətləbə gəldi.

– Bəs bu fətvanı kim verməlidir?

– Fətvanı mən də verə bilərəm, hökmdar. Ancaq bunun qanuni əsası olmaz.

– Bəs onda kimə üz tutaq? – Sultan Səlim hökmlə Sarıgörəzi süzdü, sonra da əlavə elədi, – əgər Mövlana Sarıgörəz fətva verə bilmirsə…

Mövlana Sarıgörəz xeyli fikrə getdi, düşünməli oldu. Çünki o, baş müftinin adını çəkməyə ehtiyatlanırdı. Səbəbi də bu idi ki, ola bilərdi; baş müfti fətva verməyin Mövlana Sarıgörəzə aid olduğunu hökmdara sübut etməyə cəhd edər. Yaxud baş müfti onun adını çəkdiyi üçün Mövlana Sarıgörəzi çox ustalıqla aradan götürtdürə bilərdi. Amma başqa yol da yox idi. O, cəsarətini toplayıb fikrini bildirdi.

– Fətvanı Osmanlı səltənətinin baş müftisi Həmzə Əfəndi verməlidir. Yalnız bu zaman o fətvanın qanuni əsası olar. Əhali də hökmün ədalətli olduğuna şübhə etməz.

Sultan Səlim nəhayət ki, Mövlana Sarıgörəzin qətiyyətli mövqeyi ilə razılaşdı və onu da bildi ki, fətva üçün Həmzə Əfəndiyə hökm etməlidir. Tezliklə bütün divan üzvlərini yanına çağırdı. Həmzə Əfəndiyə də hazır fətva ilə yanına gəlməyi əmr etdi. Əvvəlcə Həmzə Əfəndi hökm ilə tanış olandan sonra tərəddüddən yaxa qurtara bilmədi. O, bu fətvanın nələrə bais olacağını yaxşı bilirdi. Anlayırdı ki, Sultan Səlim çox dəhşətli hökmlər verəcək və bu hökmlərə də Allahın ədli donunu geydirəcək. Demək, bütün qanlar, qadalar – hamısı onun fətvasına bağlanacaq. Şübhəsiz, Qızılbaşlar fətva sahibinin də kimliyi ilə maraqlanacaq. Bunun artıq nə demək olduğunu Həmzə Əfəndi biləndə canından gizilti keçdi. Elə indidən onun canını qara-qorxu bürümüşdü. Qızılbaşların gözəgörünməz adamları baş verən hadisələrdən sonra çətin ki, onu bağışlayacaqdılar.

Həmzə Əfəndi görürdü ki, heç bir çıxış yolu yoxdur. İndi o, iki od arasında qalmışdı. Ya Sultan Səlimin qılıncı ilə çiynindən qoparılacaq başını verməli idi, ya da fətvanı bəyan etməli idi. Əlbəttə, Həmzə Əfəndi indiyə qədər çox fətvalar vermişdi. Elə Sultan Səlimə atasının hakimiyyətinə son qoyub, özünün hakimiyyətə gəlməsi üçün razılıq fətvasını da o vermişdi. Həm də belə əsaslandırmışdı ki, atası qocalıb, əldən düşüb, ağı qaradan, doğrunu yalandan, haqlını haqsızdan ayırmaqda çətinlik çəkir. Əgər

belə davam etsə, nəinki Sultan Bəyazidin öz nəsli, bütün Osmanlı səltənəti təhlükə qarşısında qala bilər.

Hələ hadisələr bununla bitməmişdi. Mövlana Sarıgörəzlə öz arasında olan pıçıldaşmalardan sonra Sultan Bəyazidin boğularaq öldürülməsinin də ilhamvericisi olmuşdu. Ancaq bir şərtlə: Sultan Bəyazidin ölümü haqqında söz-söhbət heç kim tərəfindən araya-ərsəyə gəlməsin. O, bununla Sultan Bəyazidə işarə vurmuşdu ki, hadisənin şahidləri də gərək aradan götürülsün. Doğrudur, Sultan Bəyazidi boğub öldürənlərin canları ustalıqla alındı. Bu məsələnin örtülü qalmağı nisbətən təmin olunmuşdu. Amma Həmzə Əfəndi çox istəyərdi ki, Sultan bu işdən xəbərdar olan Mövlana Sarıgörəzi də aradan götürsün. Hərçənd ki, Mövlana Sarıgörəz də belə bir əməli Həmzə Əfəndiyə tərəf yönəltməyə çalışırdı. Ancaq onların istəyinin əksinə olaraq Sultan Səlim nə Həmzə Əfəndiyə, nə də Mövlana Sarıgörəzə toxunmamışdı. Hökmdar hiss edirdi ki, hələ Osmanlı səltənətinin, yəni elə Sultan Səlimin özünün həm Mövlana Sarıgörəzə, həm də Həmzə Əfəndiyə ehtiyacı var.

Sultan Səlim saray münaqişələrinin içərisində böyümüşdü. O, yaxşıca görüb anlamışdı ki, sarayda heç kim digərini sevmir. Hər kəs istəyir ki, özünün sağ qalması üçün digərinin başı çiynindən qoparılsın. İndi Sultan Səlim də bu bir-birinin ətini yeməyə hazır olan adamları əlinin altında saxlayır. Niyyətlərini axıracan çözməkdən təkcə zövq almırdı, həm də onların bir-birilə bəhsə-bəhsə görə ən ağıllı və faydalı məsləhətlərindən bəhrələnirdi.

…Divan üzvlərinin hamısı toplanmışdı. Mövlana Sarıgörəz də, Həmzə Əfəndi də Sultan Səlimin yanında idi. Biri sağ tərəfində əyləşmişdi, biri sol tərəfində. Sərkərdə Malkoçoğlu da Sultan Səlimin yanında idi. Sultan Səlim onu da dəvət etmişdi. Çünki Məhəmməd xan Ustaclının Osmanlı hökmdarını təhqir edən kəskin cavabını ona bildirməklə Məhəmməd xan Ustaclını cəzalandırmaq üçün səfərə hazırlıq tapşırığı verəcəkdi. Əvvəlcə hökmdar özü söhbətə başladı:

– Nə qədər ki, Qızılbaş tərəfdarları olan əhali bizim hökmümüz altında sərbəst yaşayıb, bir gün Şah İsmayılın gələcəyinə ümid bağlayacaqsa, bizim rahatlığımız olmayacaq. İstənilən vaxt onlar təhlükə qılıncını çəkib kürəyimizə saplayacaqlar.

Yer-yerdən səslər gəlirdi:

– Doğrudur, hökmdar, doğrudur.

– Bəs onda nə tədbir görək? – Hökmdar Malkoçoğluna baxdı.

– Səltənətin torpaqlarında yaşayıb, hökmdarın taxt-tacına təhlükə törədəcək hər kəs cəzalanmalıdır. – Bunu Malkoçoğlu dedi.

– Bəs onda nəyi gözləyirik? – Hökmdar hər kəsi süzüb yarıqəzəb-yarısorğu ilə dilləndi.

– Hökm lazımdır, hökmdar, hökm! – Malkoçoğlu hökmdarın qəzəbli səsindən çəkinməyərək cəsarətlə dilləndi.

– Hökm hazır olar. Bəs adını nə qoyaq ki, Malkoçoğlu cəza tədbirlərinə başlasın. – Hökmdar bu dəfə Mövlana Sarıgörəzi gözlərinin hədəfinə aldı. Öz növbəsində Mövlana Sarıgörəz də Həmzə Əfəndiyə gözünü zillədi. Daha Həmzə Əfəndi hökmdarın nə isə deməyini gözləmədən özü ayağa durub təzim elədi:

– Bəli hökmdar, dinin fətvası gərəkdir. Çünki Qızılbaşlar din yolundan azıblar. Din yolundan azanları isə haqqa ancaq hökmdarın qılıncı qaytara bilər.

Hökmdar Həmzə Əfəndinin uzun-uzadı danışmağına yer qoymamaq üçün ondan dəqiq və aydın cavab istədi:

– Fətva hazırdırmı?

– Bəli, hökmdar hazırdır.

– Onda bizim üçün bəyan elə.

Həmzə Əfəndi yenə təzim edib qoltuğundan fətva yazılmış kağızı çıxartdı. Aydın və rəvan səslə oxumağa başladı.

Həmzə Əfəndinin fətvasında deyilirdi: «Müsəlmanlar, bilin və agah olun, bu tayifeyi Qızılbaş ki, rəisləri Ərdəbil oğlu İsmayıldır, Peyğəmbər Əleyhissəlam şəriətini və sünnətini və dini və islam və

elmi dini və Qurani mübini istihfah etdikləri və daha Allah-taala-nın haram qıldığı günahlara halaldır. Dedikləri və istihfafları və Qurani-Əzimi və Müshafları və kütubi-şəriəti təhqir edib oda yax-dıqları və daülamaya və süləhaya ihanət edib qılıb məscidləri yax-dıqları və rəislərini məbud yerinə qoyub səcdə etdikləri və daha həzrəti Əbu Bəkr radiyullahü ənhü və həzrəti Ömər radiyullahü ənhü söyüb xilafətlərini inkar etdikləri və daha Peyğəmbərimizin xanımı Ayşə anamıza (radiyullahü ənyuhu iftira edib) söydükləri və daha Peyğəmbərimizin əleyhüs səlati vəssalam şərini (şəriətini) və dini-islam götürməyə qəsd etdiklərini və fellərin bu fəqir qa-tında və baqqi üləma dini-islami qatlarında (təvatürlə) məlum və zahir olduğu səbəbdən bir daha şəriətin hökmü və kitabla-rımızın nəqli ilə fətva verdik ki, ol zikr olunan tayfa kafirlər və mülhədlərdir və daha bir kimsə ki, anlayıb və meyil edib ol batil dinlərinə razi və müavin olalar onlar da kafirlər və mülhədlərdir. Bunları qırıb camaatlarını dağıtmaq (cəmi müsəlmanlara) vacib və fərzdir. Müsəlmanlardan ölən səid və şəhid cənnəti alidədirlər. Onlardan ölən or və həqir, cəhənnəmin dibindədirlər. Bunların halı kafirlərin halından əşəddü əkbahdır.

Zira bunların boğazladıqları və hətta seyidləri (kəsilən və ov edilən heyvan və quşlar nəzərdə tutulur – red.) gərəksə, doğu-lanla, gərəksə ök ilə, gərəksə kəlb ilə olsun, murdardır. Və daha nikarları gərəksə daxildən və gərəksə qeyrdən olsunlar, batildir. Daha bunlar kimsədən miras yemək yoxdur. (Bir nahiyə əhli ki, bunlardan ola) Sultani İslam eəzzeləhu ənsarehi üçün vardır ki, bunların (ricalların qətl edib) mallarını və nisalarını və övlad-larını güzati İslam arasında qismət edə və bunların bəədən əxz tövbələrinə və nədamətlərinə iltifat və etibar olunmayıb qətl olu-na və daha bir kimsə ki, vilayətdə olub onlardan olduğu bilənə və yaxud onlara gedərkən tutulub qətl oluna və bilcümlə bu tayfa həm kafirlər və mülhədlərdir və həm əhli-fəsaddır, iki cəhətdən qətllər vacibdir».

Hökmdar da, divanda iştirak edənlər də diqqətlə dinləyirdi. Fətvanın hər cümləsi səsləndikcə Mövlana Sarıgörəzin gözlərinin qabağından sanki qırmızı qan seli axırdı. Elə bil ki, onun uyğuya yetmiş olan vicdanı oyanmaqda idi. Hətta az qala bir neçə dəfə əlini qaldırıb fətvanı dayandırmaq, elə hökmdara da, Həmzə Əfəndiyə də «sizi lənətə gələsiniz» demək istədi. Ancaq ətrafına baxan kimi ölümün lap yaxında olan nəfəsini təzədən ciyərlərinə çəkdi. Bu soyuq ölüm qorxusu onu sakitləşdirdi. Dinməyib hadisələri öz axarına buraxdı.

…Axşam azanından əvvəl məscidlərin minarələrindən ülamalar fətvanın mətnini camaata çatdırırdı.

Hər yerdə insanlar dəstə-dəstə dayanıb nə baş verdiyini anlamağa çalışırdılar.

Dərd gələndə hər kəs öz canının hayında olur, öz doğmalarını, yaxınlarını gözlərinin önünə gətirir. Səfəvi sərhədləri tərəfdə olan Qızılbaş əqidəli insanların tale kitabı bağlanmışdı. Minarələrdən gələn səsə isə göylərdən bir etiraz sədası yox idi. Göylər uzaq sonsuzluğacan boşluqda idi. Arabir göy üzündən axan buludlardan başqa heç nə görünmürdü…

* * *

Sultan Səlimin birinci məktubu Şah İsmayıla bir neçə gün əvvəl çatmışdı. Həmin məktubu İsfahanda – hökmdar sarayında Şaha təqdim etmişdilər. Şah ötən müddəti fikir-xəyal içərisində keçirmişdi. Çünki məktubda Sultan Səlim ədəb-ərkan qaydalarını gözləmir, mümkün qədər hədə-qorxu ilə niyyətlərini bildirməyə çalışmışdı. Amma Şah birinci məktuba heç bir cavab verməmişdi.

…Yazın sərin, küləkli havaları ötüb keçmişdi. Ağacların çiçəyi bara düşməkdə idi. Arabir yağış yağsa da, havalar kifayət qədər isti keçirdi.

Hökmdar yazın xoş günlərini saray ətrafındakı böyuk bağda gəzməklə keçirməyi xoşlayırdı. Ancaq nədənsə bu gün bağa

çıxmamışdı. Gecəni rahat yatmasa da, ciddi bir əndişəsi olmadığından saray kitabxanasına getmək, elə bu günü kitabxanadakı qədim əlyazmalara baxmağı qərara almışdı. Amma Hüseyn bəy Lələ Şamlının adından hökmdarın yanına gələn mühafiz xadimi Sultan Səlimdən daha bir məktub gəldiyini ona bildirəndə sanki dalağı sancdı. İlk ağlına gələn bu oldu ki, «Allahın lənətinə gəlmiş» Sultan Səlim yəqin ki, xeyirliyə heç nə yazmaz». Amma fikrindən dönməyib kitabxanaya getmək qərarından da vaz keçmədi. Ancaq mühafizə xadiminə tapşırdı ki, Hüseyn bəy Lələ Şamlı günortaüstü onun yanına gəlsin. Elə kitabxanada onunla arxayın söhbət edər.

Mühafizə xadimi çıxıb getdi. Şah da kitabxana və saray ətrafında gəzinti üçün seçdiyi libasını əyninə geyindi. Qapıdan çıxmaq istəyirdi. Sarayın yataq otağı olan hissəsinə təzədən baş çəkməli oldu. Və gördü ki, içəridə Taclı xanım xalı üstündə əyləşib. İki ayağını da qabağa uzadıb. Hələ heç üç aylıq olmayan Təhmasibi ayaqlarının arasında yırğalayır və dodaqaltı nəsə zümzümə edirdi. Şah dayanıb onun həzin, kövrək səsini xeyli dinləməli oldu. Həqiqətən Taclı bəyim çox yanıqlı bir səslə oxuyurdu. Hökmdar diqqət etdikcə onun necə dərdli oxumağını bir can yanğısı kimi qəbul edirdi.

Eyni zamanda ona çox qəribə gəlirdi ki, Taclı niyə belə dərdli və qəmli oxusun. O ki hökmdar xanımıdır… Sarayın ən əziz, ən hörmətli bir gözəlidir. Üstəlik də qışın oğlan çağında – kiçik çillədə dünyaya gətirdiyi oğlu ilə Səfəvilərə varis bəxş etmişdi. Onun dünyaya gətirdiyi oğulun ayağı sayalı olsun deyə bütün Səfəvi hökmranlığını əhatə edən məmləkətin hər yerində saysız qurbanlar kəsilmişdi. Kasıb-kusuba pay verilmişdi. Üstəlik də məmləkətdə əhalinin Novruz bayramlığı da Səfəvi xəzinəsinin hesabına ödənilmişdi. Şah özü demişdi ki, hər bir ailəyə xəzinədən Novruz payı ayrılsın. Qoy hər bir ailə səltənətin varisi üçün dua eləsin…

Belə bir bəxtəvərliyin içində Taclının qəmli səsi hansısa xoşagəlməz bir gələcəyin sədası kimi Şahın varlığından keçib gedirdi. Taclı o qəmli nəğmənin içində deyirdi: «Analar hər vaxt qəmli olar, dərd çəkər. Çünki insanlar bir-birilə yola getməz, hökmdarların qılıncları toqquşar. Toqquşan qılınclar insan qanı axıdar. Anaların ürəyində ocaq yanar. Axı hər qanı axan övladın bir anası var…». Həqiqətən sözlər çox təsirli idi. Şah Taclının könül aləminin belə zəngin olmağına az qala qibtə elədi. Onun yanğı ilə oxuduğu sözlər heç də Şahın qəzəllərindən az təsirli deyildi.

Şah Taclının arxa tərəfində dayanmışdı. Taclı onu görmürdü. Amma onun başının üstündən uşağın məsum çöhrəsini hökmdar yaxşı görürdü. Üç aylıq körpənin gözləri Şahı tutmuşdu. Axı körpənin baş tərəfi Taclının ayağına sarı idi. Taclı körpənin ayaqlarından tutub yavaşca onu yırğalayırdı. Hökmdar düşündü ki, gördüyü bu mənzərədən, bir ana üçün bu bəxtəvərlikdən üstün nə ola bilər?

Hökmdar istədi ki, Taclını narahat etməsin. Sakitcə dönüb getsin. Amma Taclı uşağın diqqət göstərdiyi tərəfə baxanda hökmdarı gördü. Hökmdar əli ilə işarə etdi ki, Taclı tərpənməsin. Amma Taclı uşağı yavaşca iki əli ilə qucaqladı və ayağa durdu. Şah yaxın gəldi, qolunu uzadıb varisi elə Taclıyla birgə qucaqladı. O, danışmaq istəyirdi. Amma ürəyindəki, qəlbindəki duyğuları sözə gətirmək istəmirdi. Çünki məhz indiki məqamda bir ananın və balanın bəxtəvərliyinə göz dikmiş düşmən niyyətləri haqqında danışmalı olacaqdı. O, isə bunları qətiyyən dilinə gətirmək istəmirdi.

– Şah, qurbanın olum… – Taclı həyəcanla dilləndi, amma heç nə demədi. Əslində, o, heç nə deməsə də, Şah onun nə üçün belə həyəcanlandığının səbəbini çox yaxşı bilirdi. Çünki Sultan Səlimin müharibəyə hazırlaşmağı haqqında xəbərlər artıq neçə gün idi ki, sarayda acı külək kimi əsirdi. Və bu neçə gündən bəri də Şah Taclının yanına gəlməmişdi. Ona görə də Taclı ilə onları

gözləyən qəza-qədər haqqında bir söhbəti də olmamışdı. İndi Şah Taclı Bəyimlə görüşən kimi müharibə həyəcanını istər-istəməz iki kəlməlik sözlə dilinə gətirmişdi. Şah bir əli ilə varisi və Taclını qucaqlasa da, o biri əlilə sevimli xanımının başına sığal çəkirdi. O, istəyirdi ki, Taclının həyəcanı ötsün və öz oğlunu – məmləkətin varisini qayğısız böyütsün.

Şah anasından eşitmişdi ki, ana dərdli olanda övlad da qəmli, kədərli südü əmər.

Aləmşah bəyim bu sözləri Şah İsmayıl fikirli olan zamanda demişdi. Sonra da izah etmişdi ki, bəli, yağılardan qaçıb gizlənən zamanlarda Şeyx Heydərin arvadı kimi çəkdiyi dərdi özündən asılı olmayaraq, qəm-kədər kimi İsmayıla bəxş edib. Axı İsmayıl həmin çətin günlərdə südəmər idi, körpə idi.

İndi İsmayıl Şah idi. Ancaq yenə dünyanın dərdi-kədəri ondan əl çəkmirdi. Sanki Taclının simasında vaxtilə anasının üzündə gördüyü kədəri, qəmi görürdü.

– Heç nədən darıxma, Taclı. Allah verən qəzadan qaçmaq olmaz.

– Hökmdar, sənə qurban olum, deyirlər Sultan Səlim möhkəm hazırlaşır.

– Bilirəm, Taclı. Biz də lazım olan hazırlığı görməkdəyik. Ancaq mən istəyirəm ki, Sultan Səlimlə qarşılaşmayaq. Axı nə qədər ayrı-ayrı dövlətlər olsa da, burada iki qardaşın qarşılaşmağından söhbət gedir. Biz türklər Osmanlılarla qardaşıq. Onlar tarixi qan birliyini din ixtilafına qurban vermək istəyirlər. Mən buna razı deyiləm.

Şah istədi ki, Sultan Səlimin ikinci məktubu haqqında Taclı xanıma heç nə deməsin. Ancaq onun indiyə qədər Taclıdan heç bir gizli sözü olmamışdı. Ən çətin işlər onun qəlbində düyünə çevriləndə o, Taclıya bu barədə danışmış, yüngülləşmişdi. İndi də məktubu Taclıdan gizli saxlamağın mənasız olduğunu düşündüyündən dedi:

– Taclı, mənim gözəlim, Allah adildir. O, kimin haqlı, kimin haqsız olduğunu bəndələrdən yaxşı bilir. Son anda Allah nizamı qədərincə qoruyar.

– Sən buna inanırsan, hökmdarım? – Taclı dedi və Şahın düz gözlərinə baxdı. Hiss etdi ki, hökmdar qətiyyətlidir. Amma sözünü saxlamadı, davamını gətirdi. – İnanırsanmı Uca Tanrı haqqı yağı qılıncından qoruyacaq?

– Bəli, inanıram, Taclı, sən də inan. – Hökmdar da Taclını sınayıcı nəzərlərlə süzdü. Bəlkə, Taclı onun dediklərinə şübhə edir. Amma gördü yox, Taclı bütün varlığı ilə ona inamla baxır. Daha nəyisə gizlətməyin mənası yox idi. Ona görə də əlavə etdi: – Bu gün Sultan Səlimdən ikinci məktub gəlib. Mən onun birinci məktubuna cavab verməmişdim. Ancaq görünür o, özünün qərəzli niyyətindən dönmək fikrində deyil.

– Çox qansız və insafsız bir məxluqdur. – Bunu da Taclı dedi.

– Bəli, onun Osmanlı Səfəvi sərhədləri yörəsində minlərlə insanı qılıncdan keçirməyini hər kəs yaxşı bilir. Məhəmməd xan Ustaclını mən oraya köməyə göndərdim. O, bizim sərhədləri qoruyur. Ancaq içəridə – Osmanlı ərazisində Səfəvilərə rəğbət bəsləyən minlərlə insanın axan qanı, özü də günahsız qanı gərək Sultan Səlimin gözlərini kor eləsin.

Hökmdar daha heç nə demədi. Sakit-sakit geriyə çəkildi:

– Mən bu gün kitabxanada olacağam. Orada Hüseyn bəy Lələ Şamlının özü ilə birgə Sultan Səlimdən gələn məktubu müzakirə edəcəyik. Hələ bir oxuyum, görüm nə yazıb? – deyə qapıdan çıxdı.

– Allah üstündə yar olsun, hökmdarım. – Taclı artıq qapıdan çıxmış və görünməz olan hökmdarın arxasınca öz-özünə astaca dedi.

…Hüseyn bəy Lələ Şamlı məktubu özü oxudu. Məktubun əvvəlinci hissələrini hansı sürətlə oxumuşdusa da, davamını axıracan elə həmin sürətlə oxuyurdu. Şah fikirli olduğundan demək

olar ki, məktubda nə yazıldığının fərqinə varmırdı. Amma Hüseyn bəy Lələ Şamlı oxuyandan sonra sakitləşdi və Şah indi bildi ki, məktubda yazılanlardan onun düşüncəsində heç nə qalmayıb. Məktubu alıb özü əvvəlini gözdən keçirdi: «Zəmanə Əfrasiyabı əmir İsmayıl. Zəndəqə və ilhadı bir-birinə qatıb şəriət ehkamını puç etmisən. Buna görə də dinin himayəçiləri və hər şeydən xəbərdar üləmalar sənin və tərəfdarlarının dindən xaric olduğunu müəyyənləşdirərək qətliam edilmənizə həmrəyliklə fətva vermişlər. Dinin təqviyyəti və Allah əmrini yerinə yetirmək üçün yumşaq ipək paltar əvəzinə zireh və xuftan geyindik…»

Şah məktubu oxuyub bitirdi. Hər şey ona məlum idi. Məktubda yeri gəldikcə Sultan Səlim heç bir təhqirdən çəkinmir, təhdidlərini də davam etdirir, bütün gücü ilə Səfəviləri və Şah İsmayılın özünü dəqiq və aydın ifadələrlə aşağılayır, onun kafir və murdar olduğunu, nəticədə ölümə layiq olduğunu təkrar-təkrar dilə gətirirdi.

Şahın xəyala getdiyini görüb Hüseyn bəy Lələ Şamlı da dinmirdi. Amma dinməsə də o, artıq öz düşüncəsində Səfəvi qoşunlarının hazırlığı, silah tədarükü haqqında fikirləri arasında idi. Məktubdan belə çıxırdı ki, Sultan Səlim tezliklə həddini aşacaq. Görünür, onun hərbi hazırlıq işləri qaydasındadır. Doğrudur. Səfəvilərin də hazırlığı pis deyildi. Amma Hüseyn bəy Lələ yaxşı bilirdi ki, belə ağır qarşılaşma üçün daha ciddi hazırlıq gərəkdir.

Təxminən, Şah da elə belə düşünürdü. Amma Şah nə düşünsə də, onun gördüyü, xəyalında, gözlərinin önündə canlandırdığı qan-qada meydanının hamısından öndə Taclı və onun dünyaya gətirdiyi varis daha aydın görünürdü. Düşmən oxları yağış kimi yağırdı. Taclı isə qucağında tutduğu varisi bu oxlardan qorumaq istəyirdi. Ana yağış kimi yağan ölüm oxlarının altında sakit, təhlükəsiz yer üçün hara gəldi qaçırdı. Özü də ayaqları yalın idi, saçları da pərişan, dağınıq… Taclının bu halı Hicazın səhralığında susuzluqdan yanan İsmayıl üçün zəmzəm axtaran Hacərin halına bənzəyirdi…

Birdən Şah düyünlənmiş yumruqlarını divara vurdu, hirslə yerindən qalxdı. – Yox, biz Sultan Səlimin qabağından qaçmarıq, biz ona həddini göstərərik! – dedi və kitabxanadan çıxdı. Hüseyn bəy Lələ Şamlı da sakit-sakit onun arxasınca yeriyirdi.

Şah Hüseyn bəy Lələ Şamlı ilə birgə böyük bağa endi.

Çiçəkdən çıxmış ağacların bara, bəhərə dolması göz oxşayır, isti yaz günəşi hər kəsi torpağa tərəf çağırırdı.

* * *

Osmanlı sarayında kimsəyə sirr deyildi ki, Sultan Səlim tezliklə Səfəvilərə müharibə elan edəcək. Ancaq bu işin nə qədər tezliklə başlanacağını hər kəs bilsə də, dəqiq vaxtdan və tarixdən kimsənin xəbəri yox idi.

Sultan Səlim hər necə olursa-olsun, açıq-aşkar bir səbəb olmadan Səfəvilərin sərhədlərini keçmək istəmirdi. Hətta sevimli sərkərdəsi Həsən Paşaya da Səfəvi sərhədlərinə tərəf hərəkət edərək bu yerlərdəki Qızılbaşları cəzalandırmağı tapşırsa da, ona sərhədi keçmək haqqında bir göstəriş verməmişdi. Eləcə də Səfəvilər tərəfdən də Osmanlı sərhədlərinə təcavüz yox idi. Amma Həsən Paşanın sərhəd boyu ərazilərdəki qırx min Qızılbaş əqidəli adamları yürüş boyu əsir alaraq özü ilə birgə Osmanlı səltənətinin içərilərinə doğru aparmış və burada demək olar ki, onların hamısı qılıncdan keçirilmişdi.

Əlbəttə, Həsən Paşa hərb adamı idi. Və ona verilən tapşırığın icrası üçün can-başla çalışırdı. Ancaq Qızılbaş əqidəli adamları bir yerə toplayıb onların qətlinə başlamazdan əvvəl Həmzə Əfəndinin verdiyi fətvanı müvafiq yerin məscid minarəsindən hər kəsin eşidə biləcəyi bir səslə oxutdurmuşdu. Fətvanı oxutdurmaqda məqsəd öldürülənlərin haqq-ədalət işi olduğunu bildirməklə yanaşı, qalan insanlara da qorxu hissini təlqin etmək məqsədi daşıyırdı. Bundan başqa Sultan Səlimin Səfəvi hökmdarına kin-küdurətinin başqa səbəbləri də vardı. Ən birincisi, Av-

ropa ölkələrinin heç birində qüdrətli türk dövlətinə rəğbət hissi yox idi. Avropa ölkələrinin hökmdarlarında belə bir qorxu onların varlığını xərçəng kimi didib-dağıdırdı. İki qonşu qüdrətli türk dövləti nə vaxtsa bir-birilə dil tapsa, Avropa onların müttəfiqliyi qarşısında diz çökməli olacaqdı. Elə bu səbəbdən də bir-birinin arxasınca Avropa elçiləri Sultan Səlimin sarayına ayaq açdığı kimi, o biri tərəfdən də Şah İsmayıl sarayının qapısını yağır eləmişdilər. Xüsusilə, Papanın adından gələn nümayəndələr Şah İsmayılı Sultan Səlimə qarşı qaldırmaq üçün cəhdlər göstərirdi. Eləcə də, əksinə, Sultan Səlimi Səfəvilərə qarşı qızışdırmaq niyyətindən əl çəkmirdilər.

Sultan Səlim ikinci məktubunu göndərəndən sonra xeyli gözləməli oldu. Artıq yay başlamışdı. Havalar da isti keçirdi. Osmanlı ordusunun yay əməliyyatları həmişə uğurla keçmişdi. İndi də Sultan Səlim bu yayı boş keçirmək istəmir, axır ki, Şah İsmayılla özü arasındakı məsələni aydınlaşdırmaq qərarında qəti idi. Yeddi il əvvəlki bir əhvalat da onun yadından çıxmamışdı. Osmanlılarla Səfəvilər arasında Dülqədir oğulları deyilən bir bəylik vardı. Həmin bəyliyin başçısı Dülqədir oğlu Bozqurd idi.

Hələ Sultan II Bəyazidin zamanında Dülqədir oğlu Bozqurd Osmanlı sarayı ilə sıx bağlı idi. Sonralar Bəyazid Osmanlı səltənətini oğulları arasında ayrı-ayrı idarəetmələrə böləndə belə, Dülqədir oğulları bəyliyinə toxunmamışdı. Çünki Bozqurdun qızı Sultan II Bəyazidin xanımı idi. Həmin qadın isə Sultan II Bəyazidə Sultan Səlimi bəxş etmişdi. İş elə gətirmişdi ki, Dülqədir oğulları bəyliyinin daha çox Səfəvilərə rəğbət bəsləyən əhalisi hər vaxt Şah İsmayılı özlərinin xilaskarı kimi görürdülər. Dülqədir oğlu Bozqurddan hər hansı bir təzyiq, hökm görən kimi onlar Səfəvi sərhədlərini keçib Qızılbaşlar arasında özlərinə asanlıqla yer tapa bilirdilər. Şah İsmayıl bu əraziləri Ağqoyunlu zamanında olduğu kimi, Səfəvilərin topraqlarına qatmaq üçün yollar arayırdı. Ancaq istəmirdi ki, arada savaş olsun, qan tökülsün.

Şah İsmayıl əvvəlcə istədi ki, Bozqurdla qohumluq əlaqəsi qursun. Onun qızı ilə evlənib doğmalaşsın. Ancaq onun istədiyi kimi olmadı. Bozqurd nümayişkaranə şəkildə Şah İsmayılla qohumluqdan imtina elədi.

Elçiliyə Hüseyn bəy Lələ Şamlı getmişdi.

– Şah istəyir ki, Bozqurdla qohum olsun. Bu qohumluq münasibətləri daha da möhkəmləndirər.

– Hələ Ağqoyunluların zamanında biz Təbrizlə həmişə isti münasibətdə olmuşuq. Baxmayaraq ki, təriqətlərimiz fərqlidir.

Hüseyn bəy Lələ Şamlı Bozqurdun bu cavabından daxili qəzəb hissi keçirdi. Başa düşdü ki, Dülqədir oğlu Bozqurdda Səfəvilərə yönəlik rəğbət hissi yoxdur. Hətta o, Hüseyn bəy Lələ Şamlının özünü elçi kimi hörmətlə qarşılamamış, onu yolüstü bir qonaq kimi yola vermək istəyini də gizlətməmişdi. Hüseyn bəy Lələ qəzəbini saxladı, amma təklifində yenə israr elədi.

– Hər kəsə məlumdur ki, bu yerlər bir vaxt Ağqoyunlulara tabe olub. Ağqoyunlu xanədanının sahibi isə bu gün Səfəvilərdir.

– Hər kim olmağınızın məsələyə dəxli yoxdur. Mən şiə övladına qız vermərəm. – Bozqurd elə beləcə də demişdi.

Şübhəsiz, onun bu təkəbbürlü cavabında Osmanlı sarayı ilə qohumluğu da kifayət qədər əhəmiyyət kəsb edirdi. Hüseyn bəy Lələ Şamlı çox pəjmürdə halda geriyə döndü. Təbiidir ki, əhvalatı olduğu kimi Şaha danışmışdı. Şah isə vaxtı fövtə vermədən Qızılbaş qoşunu ilə Osmanlı səltənətinin ərazisinə daxil olan Kayseri tərəfdən sərhədi keçərək Dülqədir oğulları bəyliyini zəbt etdi. Səfəvi təriqətinə qail olan bir kimsəyə toxunmadı. Yalnız müqavimət göstərənlərlə vuruş oldu. Bozqurd isə qaçıb canını qurtara bildi. Onun oğlu və nəvələri müqavimət göstərdiyi üçün döyüşdə həlak olmuşdular.

Sultan Səlim bu əhvalatı da unutmamışdı. Axı tifaqı dağılan Bozqurd onun babası idi. Baxmayaraq ki, öz atası Sultan II Bəyazid bu hadisəyə o qədər də əhəmiyyət verməmişdi. Ancaq atası-

nın nüfuzundan çəkinərək Sultan Səlim Bozqurda köməyə gedə bilməmiş, hadisə də bir növ tarixin girdabına gömülmüşdü.

Bəli, hadisənin baş verməsindən yeddi ilə qədər vaxt keçsə də, Sultan Səlim bunu unutmurdu. Axı öldürülən onun dayısı və dayısı oğlanları idi. Əslində, Sultan Səlim üçün dayısının ölümü də, dayısı oğlanlarının ölümü də elə bir əhəmiyyət kəsb etmirdi. Amma indi yaddaşı həmin hadisədən hərbi bəhanə kimi yararlanmağı ona təlqin edirdi. Sultan Səlim özünü mənəvi cəhətdən haqlı bilirdi. Hadisələrin gələcək inkişafının necə olacağı, ümumiyyətlə, nələrin baş verəcəyi haqqında düşünərkən özünə belə bir hökmlə bəraət qazandırırdı: «Mən dayımın və dayımın oğlanlarının qisasını yerdə qoya bilmərəm. Həmin qanın cavabını İsmayıl verməlidir». Və indi iş gəlib o məqama çatmışdı ki, Sultan Səlim heç «uf» da demədən atasını və qardaşlarını siyasət meydanından götürmüş, onları məhv etmişdi. Bunun üçün o, heç bir vicdan əzabı çəkmirdi. İndiyə qədər olan narahatlığı da Allahın təqdirindən aradan qalxmışdı. Bəli, neçə vaxt əvvəl qardaşı Əhməd Sultanın oğlu Sultan Murad elə öz əcəli ilə dünyasını dəyişmişdi. Doğrudur, Sultan Səlim qardaşı oğlu Sultan Muradın ölümündə Səfəvilərin sui-qəsdi olduğu haqqında şayiə yaymaq istəsə də, bunun heç bir təsiri olmadı. Çünki Səfəvi sərhədində tutulan bir şübhəli şəxsin Sultan Muradın öldüyü dönəmdə onun yanında olduğu təsdiqlənmişdi. Adamlar daha çox belə bir qənaətdə idilər ki, Sultan Səlimin adamları həmin şəxsi tamah niyyətilə Sultan Murada qəsd üçün razılaşdırıblar. Həmin şəxsdən daha başqa bir məlumat almaq mümkün olmasa da, onun Sultan Muraddan ayrılıb Osmanlılara üz tutmağını xəyanət hesab edərək edam etdilər.

Zaman hansı sürətlə gedirdisə, hadisələr də həmin sürətlə cərəyan edirdi.

Sultan Səlim çox tələsirdi. Onun hərbi hazırlığı demək olar ki, başa çatmışdı. Kifayət qədər odlu silah, üç yüzdən çox top tədarükü görmüşdü. Daha hadisələri gecikdirmək olmazdı. Elə

bu səbəbdən də o, Şah İsmayıla qəti tələblə və təhqirlərlə dolu məktublar göndərirdi…

Sultan Səlim bacardıqca məktublarında sanki hər sözün içərisinə zəhər yığır, fikirlərini oxa, nizəyə çevirirdi… Sultan Səlim Şah İsmayılı tanıyırdı. Onda belə bir əminlik var idi ki, Şah İsmayıl bu məktublardan sonra təmkin göstərə bilməyəcəkdir.

* * *

Səfəvi xanədanının sütunları olan görkəmli sərkərdələr Hüseyn bəy Lələ Şamlı, Sarı Pirə Ustaclı, Məhəmməd xan Ustaclı, Şərafəddin Əli Şirazlı, Seyid Sədrəddin, Nurəli Xəlifə, Durmuş xan Şamlı, Əbdülbaqi Yəzdi və qeyrilərinin iştirakı ilə Sultan Səlimin son məktubu da oxundu. Onun iddiaları təkcə ərazi istəkləri ilə bitmirdi. O, ümumiyyətlə Səfəvi səltənətinin getdikcə nüfuz qazanması, ikinci böyük Türk dövləti kimi Şərqin böyük bir hissəsinə sahib olmasına dözə bilmirdi. Bunu onun siyasəti də açıq-aşkar göstərirdi. Bunlar azmış kimi Sultan Səlim Səfəvilərlə dini təriqət fərqlərinə görə də barışmır, Səfəvilərə sonsuz kin bəsləyirdi. O, Səfəvilərin İmam Əliyə olan etiqadını Məhəmməd Peyğəmbərin yolundan azmaq, başqa sözlə, İslama xəyanət hesab edirdi. Və bu kimi müxtəlif səbəbləri araya gətirən Sultan Səlim Şah İsmayıla və onun tərəfdarlarına nifrət bəsləyirdi. İmkan düşən kimi onlarla haqq-hesab çəkəcəyini qətiyyən gizlətmirdi. İndi Səfəvilərin qüdrətli sərkərdələri Sultan Səlimin qarşısına necə çıxmaq məsələsini müzakirə edirdilər. Amma əvvəlcə ona cavab məktubu yazılmalı idi. «Məhəbbət dolu salam və dostluq ifadə edən peyğamımızı qəbul ediniz… Şərəfli məktublarınız yetişdi. Onların məzmunu ədavət bildirsə də, cürət və mətanət ifadə etdiyi üçün bizə ləzzət verdi. Lakin bilmədim ki, bu düşmənçiliyin mənşəyi və başlanğıcı nə ilə əlaqədardı. Sizin cənnətlik atanızın zamanında Əlaüddövlə üzərinə gedərkən, sizin sərhədlərdən keçməli olduq. Ancaq aramızda dostluq və ittifaqdan başqa bir

şey olmadı. Siz həzrət də ki, o zaman Trabzon valisi idiniz, aramızda birlik əlaqəsi göstərirdik. İndilikdə isə ədavətin səbəbi məlum olmur. Əgər məhz hakimiyyət davası üçün bu tərəflərə gəlmişsinizsə, qoy belə olsun. Ancaq igəşkənlik, sözü o yerə çatdırar ki, köhnə xanimanın bünövrəsi bərbad olar.

Bizim o tərəflərə gəlməməyimizin iki səbəbi vardı: birincisi budur ki, o diyarın sakinlərinin əksəri bizim yüksək nəsəbli babalarımızın müridləridirlər… İkincisi də, sizin müqəddəs yürüşlü xanədanınıza olan məhəbbətim idi. İstəmirdim ki, Teymur zamanınkına bənzər bir çaxnaşma, gözlənilməz halda o məmləkətdə baş qaldırsın. Bunu indilikdə də istəmirəm. Vəziyyətin belə hal almasından da incimirəm. Niyə də gərək inciyim? Hökmdarlar arasında ədavət köhnə adətdir. Necə ki deyiblər: məmləkət gəlinini o şəxs möhkəm quca bilər ki, suvarılmış qılıncın dodağından öpə.

Lakin nalayiq sözlərin mənası yoxdur. Bunlar ola bilsin ki, həşişçəkən münşilərin və tiryaki mühərrirlərin nəşədən beyinləri quruduğu bir vaxtda yazılmış, eləcə də göndərilmişdir.

Elə düşünürük ki, sizin qarşınıza çıxmaqda bu qədər yubanmağımız əsassız olmamışdır… Ancaq heç kəsin sözünə uymadan məsələnin əsli barədə düşünülsə yaxşıdır. Çünki axırıncı peşmançılıq fayda verməz…Əgər iş hərbə çəkərsə, təxir olunmasın. Lakin uzaqgörənlik yolu ilə hərəkət edilsin…»

Şah İsmayılın bu müdrik məktubuna Sultan Səlim dözə bilmədi: «Səninlə vuruşmaq üçün ağır ləşkərlə uzaq məsafəni ötüb, hökmranlığın altındakı məmləkətinə daxil olmuşuq. Böyük hökmdarlar ayinində və qüdrətli xaqanlar məzhəbində məmləkət padşahların namusu hesab olunur. Kişilikdən və cavan – mərdlikdən payı olanlar, özündən başqalarının ona toxunmasına heç cür dözə bilməzlər. Əgər belədirsə, indi neçə gündür qalib əsgərlərim məmləkətinə daxil olub, kamranlıq edirlər. Lakin səndən əsər-əlamət görünmür. Elə gizlənmisən ki, diri olmağınla

ölümün arasındakı fərq bilinmir… Məsələnin əsli budur ki, indiyə qədər səndən bahadırlıq və mərdlik əlaməti olan bir iş hələ də zühura çıxmamışdır… Əgər bundan sonra əvvəlki tək qorxudan zaviyə küncündə gizlənməli olsan, ərlik adı sənə haramdır. Belə olarsa, taskülah əvəzinə çadra ixtiyar elə. Sərdarlıq sevdasından və sipəhsalarlıq iddiasından əl çək! Səndə ki, belə bir əməl yoxdur, nə üçün ona əl atırsan?!»

* * *

…Kəskin istilər başlamışdı. Yayın qızmarında hərəkət çətin olsa da, Məhəmməd xan Ustaclı və Hüseyn bəy Lələ Şamlı görüş yerinin seçilməsi haqqında Şah İsmayılla ayrıca məsləhət görüşü keçirməyi qərara aldılar. Şah özü də hiss edirdi ki, Sultan Səlimlə qarşılaşma tərəflərdən birinin tamam məğlub edilməsi ilə başa çatacaq. Ən pisi də o idi ki, heç ikinci tərəf də bu döyüşdən salamat çıxa bilməyəcəkdi. Şah İsmayılın əsas ümid yeri Qızılbaşların əqidə bütövlüyü, döyüşü fədakarlıqla qarşılaması idi. Səfəvilərin təcrübəsində var idi ki, özlərindən ikiqat, bəzən üçqat artıq olan düşmənə qarşı döyüşmüş və qalib gəlmişdilər. Amma Osmanlı ordusu təcrübə baxımından kifayət qədər hazırlıqlı idi. Əsas da ordunun xeyli hissəsi Qərb ölkələri ilə savaşdan çıxmışdı. Avropa ölkələri ilə müəyyən əlaqələr sayəsində Osmanlılar topları idarə edən mütəxəssis qüvvələri də gətirdə bilmişdilər.

Bir sözlə, qüvvələr nisbəti kifayət qədər fərqli idi və bunu başa düşmək heç də çətin deyildi.

Yayın ortasına doğru Səfəvi qoşunları Xoy istiqamətində hərəkətə keçdi. Əvvəlcədən razılaşdırıldığı kimi, döyüş yeri üçün Maku yaxınlığındakı Çaldıran düzü nəzərdə tutulurdu.

Avqust ayının 19-da qoşunlar Çaldıran düzü istiqamətində hərəkət edərkən axşam düşərgəsi salmış, yolüstü dayanmışdılar. Qəflətən aylı gecə qaranlığa büründü. Bəli, bu, Ay tutulması idi…

Mövlana Sarıgörəzin özünün razılığı olmasa da, Sultan Səlim onu da səfərə gətirmişdi. Və belə məqamlarda onun yeganə ümid yeri Mövlana Sarıgörəz idi. Yenə onu yanına çağırıb bu məsələdə Osmanlı qoşunları üçün bir qaranlıq olub-olmadığını öyrənmək istədi.

Mövlana Sarıgörəz təzim edib yaxına gəldi.

– Hökmdarın sabahı xeyirliyə açılıb, bəs üzü niyə gülmür?

– Ötən gecə Ayın üzü gülmədi. Bəs onda hökmdarın üzü necə gülsün?

– Xeyirliyədi, hökmdar, – Mövlana Sarıgörəz bir az da ruh yüksəkliyi, şadyanalıqla dedi.

Onun belə ruh yüksəkliyi ilə «xeyirliyədir» deməsi Sultana sanki təpər gətirdi, qırışığı açıldı. Sevincək yerindən qalxıb ətrafa göz gəzdirdi. Bütün qoşun əhli öz işində idi. Birazdan yenə hərəkət başlayacaqdı. Qayıdıb Mövlana Sarıgörəzdən soruşdu:

– Sən buna əminsən? Nəyə görə «xeyirliyədir» deyirsən? – Hökmdar biliyinə, hər bir suala asanlıqla cavab tapacağına inandığı kimi, Mövlana Sarıgörəzin sözünün əsaslı olduğuna da həmişə əmin olmuşdu. O, belə çox çətinliklərə düşmüş və hər dəfə də Mövlana Sarıgörəzdən məsləhət almış və aldığı məsləhətlərdən faydalanmışdı.

İndi Mövlana Sarıgörəz yaxşı bilirdi ki, o, elə cavab verməlidir ki, verdiyi cavab Sultanı tam qane eləsin.

– Hökmdar, günəş Qızılbaşların rəmzidir. Ay nur, işıq deməkdir. Demək, Ayın tutulmağı Qızılbaşların bəxtinin qaranlığa düşməsinə işarədir. Bundan Osmanlı ordusuna xətər yoxdur.

Sultan bir daha sevindi. İndi ona sanki əlavə güc gəlmişdi.

…Osmanlı ordusunun Çaldıran düzünə can atmaq istədiyi vaxtda Qızılbaş ordusu da özünü Çaldıran düzünə yetirib əlverişli mövqe tutmaq üçün tələsirdi.

Şah ordunun qarşısında Qəmərtayın tərkində gedirdi. Aradakı fasilələr vaxtı ayrı-ayrı sərkərdələrlə görüşür, qoşunun əhval-ruhiyyəsi, adamların ovqatı haqqında xəbər, məlumat alırdı.

İndi növbə Taclının idi. Taclı xanım da döyüş qabiliyyəti olan bir dəstə qadına başçılıq edirdi. Onların hamısı Qızılbaşların geyimini geyinmişdi. İlk nəzərdən ayırmaq mümkün deyildi ki, böyük bir dəstə qadınlardan təşkil olunub. Şah əvvəlcə qadınların döyüşə cəlb edilməsinə razılıq verməmişdi. Amma Taclı bəyim Çaldıran düzündə onu müşayiət edəcəyində israrlı olduğunu bildirmiş və inadla da öz istəyinə nail olmuşdu. O, qətiyyətlə tələb etmişdi ki, Şahın yanında olmaq haqqını heç kim ondan ala bilməz. Yalnız bundan sonra Şah razılıq vermiş və o da hərbi təlim görmüş, döyüş bacarığı olan qadınlardan ibarət bir dəstə yaratmışdı.

– Hökmdarımıza salam olsun! – qaşqa bir köhlənə süvar olmuş döyüşçü atın üstündə fikirli gedən Şaha yaxınlaşdı.

Şah başını qaldırıb ona yaxınlaşan döyüşçüyə baxdı. Və zəndlə diqqət yetirəndə onun Taclı bəyim olduğunu gördü. Bəlkə də, ayrı vaxt olsaydı, xanımının belə hərbi geyimdə olmağı Şaha heç xoş gəlməzdi. Amma indi Taclı bəyimə çox yaraşan hərbi Qızıl-baş geyiminə maraqla baxdı. Bu geyimdə Taclı həqiqətən çox cəsarətli və igid bir döyüşçü kimi görünürdü.

Şah bilirdi ki, Taclı bəyimi atası hələ yeniyetməlik çağlarından hərbi təlimlərə cəlb etmiş, ona qılınc vurmağı, nizə atmağı öyrətmişdi. Taclı eyni zamanda, həm də çox sərrast oxçu idi. Ayrı-ayrı məqamlarda Şahla birlikdə ov mərasimlərinə də çıxmışdı. Onun kifayət qədər məsafədən atdığı oxların necə sərrast olduğunu Şah görmüşdü.

– Üzümüzə günəş doğur, – Şah Taclının özünə işarə ilə onu günəşə bənzətmişdi. Və dediyi sözün Taclıya xoş gəldiyini görüb, davam elədi. – Ömrümün işığı bildiyim Taclı bəyimin yanımda olması dünya qəmini mənə yaxın buraxmır.

– Hökmdar bu dünyaya qəmi dağıtmaq üçün gəlib. O, bu dünyaya gəlib ki, insanlara xoş bir həyat bəxş etsin, firavanlıq versin. – Taclının bu sözləri, şübhəsiz, Şaha xoş gəldi.

Nəhayət, Şah Taclı ilə atın üstündə bir xeyli bərabər yol gedib söhbətləşdilər. Hətta arada hökmdar ona zarafatla döyüşün ağır olacağını xatırladıb qorxub-qorxmadığını da soruşdu:

– Taclı bəyim, bilirsən ki, qılınclar toqquşacaq, başlar çiyinlərdən qopub yerə düşəcək, qan selindən göllər yaranacaq. Bunlar səni qorxutmur ki?!

– Allahın əziz bəndəsi, ən böyük qorxunu dağıdacaq qılıncın sahibi öndə olduğu halda, mən nə üçün qorxmalıyam? – Taclının bu sözləri onun daxilindəki təpərdən xəbər verdiyi kimi, cəsarətinin qədərincə olduğuna dəlalət etdiyi kimi, həm də onun ağıl-kamalından, Şaha sədaqətindən xəbər verirdi. Və bu da Şahı istər-istəməz qürurlandırırdı.

Qoşun artıq Çaldıran düzünə çatırdı. Ayrı-ayrı dəstələr halında hərəkət edən Səfəvi qoşunlarının müxtəlif tərəflərdən gələn bölükləri də artıq Xoyda və Xoydan sonrakı Makuya tərəf yolda birləşmiş və böyük bir axına çevrilmişdi.

Şah arada atını geriyə döndərir, qoşunun hərəkət yoluna nəzər salır, Qızılbaşların əhvalını öz gözlərilə görmək istəyirdi. Bu vaxt iki əsgərin bir-birilə mübahisə etdiyini gördü. Biri nisbətən yetkin, – hiss olunurdu ki, döyüş görmüş cəngavərdir. Digəri isə çox cavandır. Hələ heç bığ yeri də tərləməyib. Belə məqamda əsgərlər Şahın onları müşahidə etdiyini bilmədilər. Çünki Şah sıravi əsgər görkəmində idi. Sadəcə mühafizəçiləri onu izləyir, təsadüfi təhlükələrdən qoruyurdular. Şah diqqət edib gördü ki, bu əsgərlər bir-birinə çox bənzəyir. Təxmin etdi ki, onlar qardaşdırlar. Belə olan halda böyük qardaş kiçik qardaşı anasından izinsiz cəbhəyə gəldiyi üçün danlayırdı. Kiçik qardaş isə gəldiyinə görə peşman olmadığını və bu döyüşdən şərəf duyduğunu bildirirdi.

– Sən bilirsən ki, bu, necə döyüş olacaq?

– Niyə bilmirəm ki?.. – kiçik qardaş cavab verdi, – yaxşı bilirəm. Şahımız dünya aləmə necə qüdrətli bir pəhləvan olduğunu göstərəcək.

– Bəs sən neyləyəcəksən?

– Mən də onun yaxınlığında olacağam.

– Bəlkə, bir oxa hədəf oldun…

– Qoy olsun, Şahımıza yönəlik oxu öz sinəmlə saxlayaram.

Şah daha söhbətin gerisini dinləmədi. Bu əsgərlərin haradan gəldiyini, kim olduğunu öyrənməyi yanındakı mühafizəçilərdən birinə tapşırdı və atını sürətlə çapıb getdi.

Səfəvi qoşunlarının hərəkəti şübhəsiz, Osmanlı kəşfiyyat dəstələri tərəfindən də izlənilirdi. Ümumi döyüş qaydalarına uyğun olaraq Səfəvi kəşfiyyat dəstələri də elə öz rəqiblərini izləyirdilər.

1514-cü ilin avqust ayının 22-də artıq Səfəvilər Çaldıran düzündə mövqe tutmuşdular…

* * *

Qızılbaşlar Çaldıran düzünə Osmanlılardan bir gün tez yaxınlaşmışdılar. Onların daha əlverişli mövqe tutmaq imkanları daha üstün idi.

Çaldıran kifayət qədər böyük düzdür. Maku şəhəri yaxınlığında Van və Urmiya gölləri arasında yerləşir. Hər tərəfdən dağlarla əhatə olunub. Şimaldan Mors dağı, qərbdən Təkaltı təpələri, cənubdan Qaragül dağı, şimal-şərqdən isə Qarlı dağı bu düzü əhatələyir. Lap keçmiş zamanlardan bu dağların ətəklərində, eləcə də Çaldıran düzü yörəsində həmişə Azərbaycan türkləri yaşayıb. Doğrudur, yayı mülayim olsa da, qışı çox soyuq keçən yerdir. Ovacıq çayı Çaldıran düzünün şimalından keçir. Şimal-qərbdən isə Qızıl çayı axır. Düzün cənubunu Ağ çay əhatələyir. Coğrafi mövqe sanki min illər boyu iki qardaşın savaş meydanı olacağını gözləyirdi.

Səfəvi qoşunları öz mövqelərini kifayət qədər müəyyən edə bilmişdilər. Və daha irəli getməyib, Osmanlı qoşunlarının meydana çıxmasını gözləməli idilər. Vaxtdan istifadə edən Şah İsmayıl öz sərkərdələrini sonuncu müşavirəyə çağırdı. Məhəmməd xan Ustaclı Şah yanında xüsusi hörmət sahibi idi. Səltənətin ən ağır tərəfini də, yəni Diyarbəkir tərəfləri Şah ona həvalə etmişdi. Bu səbəbdən də Məhəmməd xan Ustaclı Osmanlılara daha yaxından bələd idi. Sultan Səlimin ölkə daxilində apardığı işlər haqqında vaxtında və dürüst məlumat əldə etmişdi. Başqa sözlə, ona aydın idi ki, Osmanlılar Çaldıran düzünə çox yüksək hazırlıqla gəliblər.

Xoy ətrafında Şah İsmayılla Məhəmməd xan Ustaclının qoşunları birləşəndə o, Səfəvi qüvvələrinin nəyə qadir olduğunu özü üçün aydınlaşdıranda xüsusi bir narahatlıq keçirdi. Çaldıran kimi geniş bir düzdə, açıq meydanda Osmanlıların daha böyük gücü ilə birbaşa qarşılaşmaq yaxşı heç nə vəd etmirdi. O, bu narahatlığını döyüşqabağı müşavirədə açıq-aşkar bildirdi. Hələ üstəlik təklif etdi ki, axşamı gözləyib qaranlıq düşən kimi Sultan Səlimin qoşunlarına müxtəlif yerlərdən hücum çəkmək, şəbxumlar – gecə zərbələri vurmaq vacibdir. Bununla, Sultan Səlimin qüvvələrini pərən-pərən salmaq, onun eyni mərkəzdən idarə olunmasına mane olmaq olardı.

Çox təəssüf ki, Məhəmməd xan Ustaclının Sultan Səlim qoşunları ilə birbaşa, üzbəüz savaşmadan döyüşmək planı adlı-sanlı sərkərdələr tərəfindən bəyənilmədi. Xüsusilə, Şah İsmayıl gecə zərbələri vurmaq məsələsində lap əsəbilik göstərdi: «Biz karvanbasan quldur deyilik ki, gecə hücum eləyək».

Əslində, Məhəmməd xan Ustaclının təklifinə bu münasibət Çaldıran döyüşünün taleyini həll etmiş oldu.

Nurəli Rumlu nisbətən cavan sərkərdə idi. O, Məhəmməd xan Ustaclının yanında döyüş yolu keçmişdi. Cavan olmağına baxmayaraq, iti fəhmi ilə fərqlənir, qorxmazlığı ilə yaxşı tanınırdı. O, qətiyyətlə, Məhəmməd xan Ustaclının təklifini müdafiə etdi.

İndiki vəziyyətdə Sultan Səlimlə üzbəüz açıq savaş aparmağın fəlakətli nəticələr verə biləcəyini dilə gətirdi.

Durmuş xan Şah İsmayılın, xüsusilə, güvəndiyi sərkərdələrdən idi. Onun mövqeyi müşavirənin taleyini, nəticədə ümumi döyüşün vəziyyətini həll edə bilərdi. Çox təəssüf ki, o da Məhəmməd xan Ustaclının fikirlərinə qınaqla yanaşdı. Nurəli Rumlunu isə tənə ilə sancıb açıq savaşa üstünlük verdiyini Şah İsmayıla bildirdi. Bir sözlə, Şah Sultan Səlimlə açıq döyüş tərəfdarı olaraq savaş meydanında öz yerini müəyyən etdi. O, mərkəzdə döyüşəcəkdi. Sağda Durmuş xan, solda Məhəmməd xan Ustaclı… Səfəvilər dəfələrlə döyüşlərdə sınanmış üsuldan burada da istifadə etmək istədilər. Onlar Osmanlı qoşunlarını aypara şəklində əhatəyə almalı idilər. Əvvəlcə döyüş elə belə də başladı.

Sultan Səlimin də savaş planı ilə bağlı sərkərdələri müxtəlif rəylər bildirmişdilər. Məhəmməd Çələbi təklif edəndə ki, vaxt itirmədən Səfəvi qoşunlarının üzərinə yerimək lazımdır, digərləri uzaq yoldan gəlib dincəlmək təklif etsələr də, Məhəmməd Çələbi öz mövqeyini daha sərrast izah elədi. Əgər döyüşun başlanması gecikərsə, ordudakı Şah İsmayıl təriqətinə yaxın olanlar baş qaldırar, müxalif mövqeyə keçərlər.

Məhəmməd Çələbinin bu fikri Sultan Səlimin ağlına batdı, hətta bir qədər qorxulu da gəldi. Çünki yeniçərilər təriqət etibarilə Şaha yaxın idi. Hətta onlar Çaldıran düzündə Şah İsmayılla qarşılaşacaqlarını biləndə Sultan Səlimin çadırına oxla məktub da atmışdılar. Və həmin məktubda bildirmişdilər ki, Şahla barışıq təklif edib döyüşdən çəkinmək gərəkdir.

Son müşavirədən bir az əvvəl Sultan Səlim özü yeniçərilərin içərisinə getmişdi. Onlarla açıq-aşkar danışmış və yeniçəriləri ustalıqla aldadaraq Şah İsmayılla savaşını əsaslandırmağa çalışmışdı. İndi həmin məsələ Osmanlı sərkərdəsi Məhəmməd Çələbinin təklifindən sonra bir daha təhlükə mənbəyi kimi Sultan Səlimin xəyalına gəldi. Bir sözlə, Sultan Səlim də vaxt itirmədən Qızılbaş-

larla savaşa girməyə hökm verdi. Demək, əslində Osmanlı qoşunları, Çaldıran düzünə axşam çatmışdılar. Gecəni də döyüş hazırlığı görmək üçün sərf etmiş və səhərin gözü açılar-açılmaz savaşa başlamışdılar. Hər iki tərəfdə döyüş təbilləri çalındı.

Şah İsmayıl Qızılbaşların necə mərdanəliklə vuruşduqlarını yaxşı görürdü. Döyüş demək olar ki, Qızılbaşların əzmi və iradəsi ilə günortaya yaxın ən qızğın həddinə yetişdi.

Şah İsmayıl elə səhər açılandan döyüşə girmişdi. Arabir öz səsi ilə hayqırıb Sultan Səlimi savaşa çağırırdı. Hələ döyüş başlamamışdan əvvəl də Sultan Səlimə ox ucunda məktub göndərmiş və ona təklif etmişdi ki, ikisi təkbətək vuruşsun. Beləliklə, qırğına da yol verilməsin.

Sultan Səlim isə dağa tərəf çəkilərək nisbətən təhlükəsiz yerdə qərar tutub döyüşü izləməyə üstünlük vermişdi. Günorta üstü Şah İsmayıl bir daha Sultan Səlimi savaş meydanına çağırdı. Oxçular dalbadal onun çağırışını məktub kimi Sultan Səlim tərəfə göndərdilər. Belə olan təqdirdə Sultan Səlim onun səsini kəsmək qərarına gəldi. Osmanlı ordusunun döyüş məharətinə görə ən qüdrətli cəngavəri Malkoçoğlunu Şah İsmayılın hüzuruna göndərdi. İndi o, inanırdı ki, çox qısa bir müddətə Malkoçoğlu Şah İsmayılın başını ona gətirəcək.

Şah İsmayılın mərkəzdəki döyüş mövqeyinə bir dəstə Osmanlı qüvvələri yeriyirdi. Tanıyanlar həmin anda bildilər ki, dəstənin önündə gələn Malkoçoğludur. Qızılbaşlar arasında da bir təşviş yarandı. Onlar Malkoçoğlunun zərbəsi ilə Şahın tələf olmasından nigaran idilər. İki qardaş döyüş başlanandan Şahın yaxınlığında savaşa girmişdilər. Malkoçoğlunun başçılıq etdiyi dəstəyə müqavimət göstərən Qızılbaşları sıxışdırıb Şah İsmayıla tərəf yol açdılar. Şah İsmayıl qardaşları görən kimi tanıdı. Onlar özlərini irəli verib Malkoçoğlu ilə üzbəüz gəlmək niyyətində idilər və bunu Şah hiss etdi. Yaxındakılara göstəriş verdi ki, qardaşları geriyə çəksinlər və Malkoçoğluya yol açsınlar. Şahın ətrafındakılar Mal-

koçoğlunun ətrafındakılarla üzbəüz idi. Demək olar ki, mərkəzdə xüsusi bir dairə yaranmışdı. Açıq meydanda Şah İsmayılla Malkoçoğlu üz-üzə gəldi. Heyrətdən hər iki tərəfin döyüşçüləri əl saxlayıb mənzərəni izləyirdilər. Əvvəlcə Malkoçoğlu atını cövlana gətirib yüngül nizəsini sürətlə atdı. Şahın atı sanki öz sahibinin istəyini duyduğundan irəliyə sıçradı. Şah başını əydi və nizə onun başının üstündən keçib getdi. Və elə həmin anda Şahla Malkoçoğlu – hər ikisi atın üstündə sanki nəfəs-nəfəsə dayandılar. Yenə Malkoçoğlu qılıncını çəkib Şaha zərbə endirdi. Qalxan Şahın sol qolunda idi. Qalxanı qılıncın qarşısına verdi. Malkoçoğlunun qılıncı zərbənin gücünə az qala Şahın qolunu sındırmaq həddində idi. Ancaq Şah özünü tez toparladı. Malkoçoğlunun diqqəti Şahın sol qoluna keçirdiyi qalxanında idi. Ona təəccüblü gəlmişdi ki, zərbəsi niyə Şahın qolunu salmadı? Və həmin anda şahın qılıncı Malkoçoğlunun düz başının ortasından endi. Baş bədən boyu parçalandı. Qılıncın zərbəsi sinədən də üzü aşağı keçmişdi. Hər tərəfdən güclü «Şahımız var olsun!» sədaları gəldi.

Qızılbaşlar təzədən hücuma keçdilər. Günorta açıq-aşkar bütün Çaldıran düzü boyu Səfəvilər üstünlük həddində idi.

Bu vaxt Sultan Səlim mənzərəni görürdü. Malkoçoğlunun da necə öldürüldüyünü gördü. Və bir az da keçsə, Çaldıran savaşının Qızılbaşların qələbəsi ilə başa çatacağını başa düşdü.

Yanındakı topçubaşını yaxına çağırdı. Səhər-səhər toplardan atəş açmaqla hələ qoşunların qarşılaşmadığı vaxtda Qızılbaşlara xeyli tələfat verilmişdi. Tüfəngçilər də müəyyən məsafədən Qızılbaşların ön dəstələrini atəşə tutmuşdular. Yalnız bundan sonra üzbəüz qılınc savaşı başlamışdı.

İndi Sultan Səlim görürdü ki, səhər çağı odlu silahla qazandığı üstünlüyü Qızılbaşlar üzbəüz qılınc döyüşü ilə ondan geri alıblar. Və Qızılbaşların üstünlüyü get-gedə daha qabarıq görünməkdə idi. Onda Sultan Səlim topçubaşına mərkəzi göstərib, toplardan atəş açmağı əmr etdi:

– Düzmü eşitdim, sultanım?

– Bəli, düz mərkəzə toplardan atəş açmaq!

– Sultanım, mərkəzdə bizim qoşunların sayı daha çoxdu. Onlar Qızılbaşlarla qarışıqdırlar.

– Bunu mən də görürəm.

– Sultanım, belə olan təqdirdə biz özümüzünkülərə daha ağır zərbə vurmuş olarıq.

– Əgər bir sual da versən, sənin özünü topun ağzına bağlayıb düz meydanın ortasına atdıracağam!

– Baş üstə, sultanım.

Bir az keçmiş dünyanın nadir hadisələrindən biri baş verdi. Sultan Səlimin əmri ilə toplar ağzını meydanın ortasına döndərdi və od püskürməyə başladı. Minlərlə insanın bir anın içərisində necə bir cəhənnəmə düşdüyünü hər kəs görürdü.

Bu qarışıqlıqda Şah da yaralandı. Daha doğrusu, Şahın atı top mərmisindən zədə alıb yıxıldı. Şahın özü də sol qolundan zədə almışdı. Şahı meydandan çıxarmaq gərək idi. İki qardaş – Çələbiyanlı gənclər isə Şahın başının üstünü alıb onu təhlükədən qorumaq istəyirdilər. Tüstü-duman çəkilən kimi kiçik qardaş atını Şaha verdi. Şah at belinə qalxanda həmin qardaşın adını soruşdu.

– Vəli ağadır, adım, Şahım. Şükürlər olsun Tanrıya, Şahımız salamatdır, bu da bizə bəsdir. Şah yanındakı mühafizlərə işarə etdi ki, qardaşları da dəstəyə qatsınlar.

Axşamtərəfi idi, gün əyilirdi, qürubun parlaq şəfəqləri altında Şah döyüş meydanından çıxarılmışdı…

Sultan Səlimin top mərmiləri meydanda Qızılbaşlardan çox Osmanlı əsgərlərini məhv etmişdi. Çünki onların sayı çox idi. Əslində, elə Çaldıran savaşının mahiyyəti də bundan ibarət idi ki, Qızılbaşlar əqidə ilə, Şaha sədaqətlə, Vətən, doğma yurd uğrunda vuruşurdular. Osmanlılar isə Sultan Səlimin təbliğatına görə guya Qızılbaşlar kafirdir deyə döyüşürdülər.

Şah meydandan kənara çəkilən kimi Taclını soraqladı. Qızılbaş geyimində döyüşən qadınların çoxunun həlak olduğu deyilirdi. Hələ axşam düşməmiş meydandakı cəsədlər bir-bir gözdən keçirildi. Taclının meyiti ölənlər arasında da yox idi. Əslində, vəziyyət top atəşləri zamanı dəyişmişdi. Həmin ana qədər Şah Taclının döyüş mövqeyini diqqətində saxlayırdı. Tüstü-duman qarışığından sonra nələr olduğu məlum deyildi.

Axşamtərəfinə yaxın qoşunlar bir-birindən ayrılmağa başlayanda Taclı əhatəsindəkilərin Osmanlı əsgərləri olduğunu gördü. Bunlar da döyüşçü deyildilər. Görünür, meydanda Osmanlı əsgərlərindən olan yaralıları axtarırdılar. Və beləcə, zərbə dalğasından yıxılıb, huşunu itirmiş Taclı ayılanda Osmanlıların əlinə keçdiyini bildi. Özü haqqında təbii ki, heç nə deməmişdi.

Osmanlıların yaralıları yığan adamları da onun kimliyini bilmirdilər. Heç, deyəsən, qadın olmağından da xəbərləri yox idi. Çünki Taclı onların diqqətində deyildi. Sadəcə onu yaralı bir əsir kimi görürdülər.

Taclı bəyim dəstəbaşıya onu azad buraxmağı təklif elədi. Dəstəbaşı vaxt itirmədən əvəzində nə verəcəyini soruşdu. Görünür, döyüşdən sonra belə hadisələr çox olmuşdu. Dəstəbaşı da bunu həmişəki hadisələrdən biri kimi başa düşürdü. O, yaralı bir döyüşçünü özü ilə aparmaqdansa, nəyinsə müqabilində azad buraxmağı daha üstün bilirdi.

Taclının boynunda çox qiymətli bir daş vardı. Bu daş Şeyx Heydərdən Aləmşah bəyimə verilmişdi. Aləmşah bəyim də öz gəlininə bağışlamışdı. Taclı əlini uzadıb qızıl zəncirbəndi çəkdi. Qiymətli daşı elə zəncirbənd qarışıq Osmanlı yaralılarını arayan dəstəbaşının ovcuna basdı. Dəstəbaşı deyəsən, bu daşın nəsə qiymətli bir şey olduğunu, hələ üstəlik qızıl zəncirbənd üstündə olduğunu da gördü. O, Taclıya əhəmiyyət verməyib öz adamlarını ərazidən uzaqlaşdırdı.

Taclı bəyim sürünə-sürünə meydandan çıxdı. Bircə onu bilirdi ki, üzü Təbriz tərəfə getməlidir. O, döyüşün necə qurtarmağını bilmirdi. Şahın da sağ qalıb-qalmadığından xəbərsiz idi.

Çaldıran savaşının səhəri günü hələ də böyük düzdə inilti, haray çağırışları, ağrılı səslər kəsilməmişdi. Göy üzündə quzğunlar süzürdü. Qoşunların çəkilməyindən sonra ətraf dağların, dərələrin arasında böyük səs-küydən qaçıb gizlənmiş yırtıcılar üzə çıxmışdı. Canavarlar öldürülmüş, parçalanmış at leşlərinə cummuşdular. Çaqqallar, tülkülər də ordan-burdan leşlərə ağız atır, qan dadının şirinliyinə cumurdular.

Tərəflərin yaralı yığan adamları da çəkilib getmişdilər. Görünür, hələ canı olan yaralıların ümidsizlərini döyüş meydanından çıxarmamışdılar. Həmin inilti səsləri də elə o can çəkənlərin səsi idi. Başqa səslər də vardı-quzğunların, çalağanların qıyıltısı, yemə çağıran yırtıcıların ulartısı… Bundan başqa heç bir səs eşidilmirdi. İki qardaş türk xalqının, islam ümmətinin qanıyla suvarılan Çaldıran Allahın ümidinə qalmışdı…

* * *

… 1514-cü il avqustun 23-də toplar döyüşün taleyini həll etdi.

Qızılbaşlar döyüş qurtarandan sonra şahın adından gələn xəbərə uyğun – «Geri çəkilirik, üzü Təbrizə tərəf» əmrindən sonra Təbrizə üz tutmuşdu. Ayrı-ayrı qoşun dəstələri müxtəlif tərəflərdən gəlib birləşir və ümumi axınla yoluna davam edirdi. Daha sonra yaralılar, əsasən özü hərəkət edə bilənlər, sonra daha ağır yaralılar arabalarda – minikdə daşınırdı…

…Çaldıran savaşı çox ağır və acı bir dərs idi. Yaralı Şah İsmayıl döyüşdən çıxan Qızılbaşların əhatəsində geriyə çəkilirdi. Sultan Səlim də Osmanlı qüvvələrinin əhatəsində onun arxasınca yeriyirdi. Aralarında az qala yarım günlük məsafə vardı. Sultan Səlim yəqin ki, istəsəydi çevik dəstələrini daha irəliyə göndərib Qızılbaşların geridə qalanlarına zərbə vura bilərdi. Ancaq rəqiblərinə

yetişib son zərbə vurmaq üçün özündə mənəvi iqtidar görmürdü. Sanki Sultan Səlim Şah İsmayılın özü ilə üzbəüz durmuşdu və Şah İsmayıl ona: «Qardaş qardaşı mərdanə vurdum deyən, yalan söylər» – deyirdi. Ona elə gəlirdi ki, əgər Şah İsmayılla üz-üzə gəlsə, göz-gözə dayansa, elə onun bircə baxışı ilə Şah İsmayılın canındakı yaradan – qılınc zərbəsindən daha artıq söz yarası, nəzər zərbəsi alar.

Yəqin ki, bu hisslərin təsiri altında özünün hərbi karvanını üzü Təbrizə tərəf Qızılbaş qoşununun arxasınca çəkməkdə idi.

…Şah İsmayıl üzü Təbrizə tərəf Qızılbaş qoşunu ilə birgə hərəkət edirdi. Artıq çaparlar Təbrizə yetib məğlubiyyət xəbərini paytaxta çatdırmışdı. Və Şah İsmayılın özünün təklifini də şəhər əhlinə yetirmişdi. Şəhərin əsas idarə adamları – Şah İsmayıl tərəfdarları Təbrizdən çıxmaq üçün hazırlıq görməkdə idilər.

Təbrizə gedən yolda hərəkət dayanmırdı. Amma hökmdar yaxşı bilirdi ki, o, nə qədər Təbrizə tez yaxınlaşsa, Osmanlı qüvvələri də bir o qədər tez çatar və şəhərdə böyük qarət başlanardı. Ona görə də Şah İsmayıl əlavə tədbirlər görməli oldu və yolda xeyli ləngidi. Düşmənin qarşısını almaq üçün müdafiə tədbirləri gördü. Ancaq Sultan Səlim qarşıda Qızılbaşların müdafiə üçün dayandığını gördükdə özü də qoşunlarına dayanmaq əmri verdi. Beləliklə, daha bir gün vaxt qazanıldı. Sultan Səlim hücuma keçmirdi. O, gözləyirdi ki, Qızılbaşlar çəkilsin və onlar çəkildikcə irəliləsin.

Nəhayət, Qızılbaşlar Təbrizə daxil oldular. Əmrə uyğun olaraq Təbriz əhli şəhəri boşaltmışdı. Və hamı Təbrizdən çıxıb üzü İsfahana tərəf irəliləməkdə idi. Qızılbaş qoşunu Təbrizə yetişəndə şəhər demək olar ki, boş idi…

Qızılbaşların Təbrizdə yalnız bircə gün dayanmaq imkanı oldu. Şah məşhur rəssam Kəmaləddin Behzadı və öz şəxsi saray xəttatı Mahmud Nişapurini soruşdu. Ona məlumat verdilər ki, hər ikisi şahın əmrinə görə təhlükəsizlik üçün Çaldıran düzünü

əhatə edən dağların arasındakı mağarada gizlədilib. Şah Çaldıran düzündə gördüyü qardaşları yanına çağırtdırdı. Oruc ağa və Vəli ağa Çələbiyanlılar onun hüzurunda hazır oldular. Təzim edib: «Şahımızın yolunda qurbanıq, əmrinizi gözləyirik, – dedilər. Daha doğrusu, bunu böyük qardaş Oruc ağa dedi. Ancaq Vəli ağa da sanki qardaşının dediklərini əzbərləyibmiş kimi təkrar elədi.

Şah qardaşları diqqətlə süzdü. Onların gözlərindəki məhəbbət, şaha ehtiram yaralı hökmdarı kövrəltdi. Amma özünü ələ aldı. Barmağının işarəsilə qardaşları yaxına çağırdı. Əvvəlcə Oruc ağanın, sonra da Vəli ağanın alnından öpdü.

– Əmrinizə müntəzirik, şahım! – Bunu Oruc ağa dedi.

Elə o, sözünü bitirən kimi Vəli ağa dilləndi:

– Başımız yolunda sadağadır, şahım!

Şah qardaşları bir də süzdü. Görünür o, verəcəyi tapşırığa tərəddüd edirdi. Bəlkə də, qardaşları təzə bir təhlükə qarşısında qoymaq istəmirdi. Amma məramından da vaz keçmirdi.

– Qayıdırsınız Çaldırana. Üzü Təbrizə tərəf dağın sinəsindəki sıldırım qayalar arasında bir mağara var. Əgər yadınızdadırsa, həmin mağaranın aşağısında bizim ordugah yerləşirdi.

Şahın sözlərinə əvvəlcə qardaşlar bir qədər anlaşılmaz görkəmdə durdular. Görünür, həmin yeri tam təsəvvür etmirdilər. Ancaq şah Qızılbaş ordugahının yerləşdiyi yeri dəqiq nişan verəndə onlara hər şey aydın oldu.

– Bəli, şahım, bildik haranı deyirsiniz.

– Həmin yerə gedirsiniz. Kəmaləddin Behzad haqqında eşitmisinizmi?

– Təbriz sarayında çox məşhur rəssamdır.

– Kəmaləddin Behzad həmin mağaradadır başqa sənətkarlarla birgə.

– Bildik, şahım… – suallara Oruc ağa cavab verirdi.

– Bilmirəm, oraya necə gedəcəksiniz və oradan sənətkarları necə çıxaracaqsınız?

– Bu, bizim işimizdir, şahım – Bunu isə böyük qardaşını qabaqlayıb deyən Vəli ağa idi.

Qardaşlar şahın hüzurundan çıxan kimi atlarını minib Çaldırana tərəf üz tutdular. Çox vaxt keçməmişdi. Yəqin ki, Kəmaləddin Behzad və digər sənətkarlar şaha sevgiləri ilə qoşulduqları yürüşdə mağaraya qatılmaqlarından narazı qalsalar da hadisələrin sonrakı gedişindən hər şeyi biləcəkdilər.

Oruc ağa və Vəli ağa Çələbiyanlı qardaşları özlərini mağaraya yetirəndə səhər çağı idi.

...Çələbiyanlı qardaşları Kəmaləddin Behzad başda olmaqla sənətkarları İsfahana aparırdılar. Bu, birbaşa şahın göstərişi idi.

...Təbrizdə çox qalmasalar da Qızılbaşlar mümkün qədər əhalinin təhlükəsiz köçürülməsi üçün bütün tədbirləri gördülər. Ordu əhalinin köçürülməsində yaxından iştirak edirdi. Şah isə son dəfə köçürülmə haqqında məlumatı dinləyib divanbəyiyə baxdı. Elə bil nəsə demək istəyirdi. Divanbəyi şahın intizarını duyduğundan dilləndi:

– Canımız sənə fəda olsun, hökmdar, nə qulluq bizlərə?

– Saray əhlinin hamısını köçürün.

– Baş üstə, hökmdar. Əlbəttə, saray əhlinin hamısı köçəcək.

– Sazəndələr, şairlər necə? – Hökmdar soruşdu.

– Onlardan qalmaq istəyənlər də var.

– Kimlər qalmaq istəyir və niyə?

– Məliküş-şüəra Həbibi və sazəndələrin başçısı, aşıq Dirili Qurbani qalmaq istəyir.

– Onlar niyə qalmaq istəyir?

– Deyirlər ki, bizim Sultan Səlimə sözümüz var.

Şahın onsuz da qızdırmalı olan canından daha bir isti keçdi. İlıq bir təbəssüm sifətinə yayıldı. Sanki anladı ki, onlar Sultan Səlimə haqsız olduğunu demək üçün qalırlar. Ancaq hələlik bilmək olmazdı ki, Sultan Səlim onlara necə münasibət göstərəcək.

…Sultan Səlim Təbrizə daxil olanda şəhər bomboş idi. Həşt-behişt sarayının pillələrini qalxanda yay olmağına baxmayaraq sanki daşların soyuğu onu vurdu. Elə həmin andaca anladı ki, çox mənasız bir mərama görə şəxsi iddiasına qurban olaraq ayaq basıb.

İki-üç gün Təbrizin ehtiyat ərzaqlarından faydalanan ordu dördüncü, beşinci gün narazılığını açıq-aşkar bildirməyə başladı. Osmanlı sərkərdəsi artıq səkkizinci gün Təbrizdə qalmağın mənasızlığını başa düşmüşdü. Onun Şah İsmayılı təqib etmək iqtidarı da yox idi. Çünki Şah İsmayılın arxasınca getməli olsaydı, hələ döyüşlərə qatılmamış Qızılbaşlarla qarşılaşmalı olacaqdı. Səkkiz günün tamamında Sultan Səlim öz qoşunlarını çəkib peşman-peşman geriyə üz tutdu. Hələ tərəddüd edirdi; payızı Qarabağa getsin, qışda təzədən Şah İsmayılın üzərinə gəlsin, yoxsa, birbaşa İstanbula tərəf üz çevirsin. Hələ ki, Qarabağa tərəf yön tutdu. Çünki Qarabağda onun bildiyinə görə tükənməz ərzaq ehtiyatı vardı. İlxı-ilxı Qarabağ atları süvarilərə çox yarıyardı. Orada saysız-hesabsız qoyun sürüləri, tükənməz ərzaq ehtiyatı var idi.

Sultan Səlim üzü Qarabağa tərəf getmək üçün göstəriş verdi:

– Yazda qayıdarıq Şah İsmayıla sarı…

Onu dinləyən Övliya Sarıgörəz öz içində ancaq özünün eşidə biləcəyi bir səslə onun cavabını verdi: «Bunu hələ bilmək olmaz, Allahın bildiyi daha üstündür».

…Sultan Səlim Təbrizi tərk edəndə bir çox sənətkarları da, müxtəlif peşə sahiblərini də əsir edib aparmaq haqqında əmr verdi. Yüzlərlə bənna, memar, körpü-yol ustası, sənətkar Sultan Səlimin əsirinə çevrildi. Onların arasında Səfəvi sarayının məlüküş-şüarası Həbibi və Dirili Qurbani də vardı. Həbibi ilə Dirili Qurbaninin əsirlər siyahısına düşməsinin səbəbi onların Sultanla dikbaş danışmağı olmuşdu. Həm Həbibi, həm də Dirili Qurbani Sultan Səlimə açıq-aşkar demişdilər ki, Qızılbaşlarla Osmanlıların savaşı türkün taleyində ən qara gün olaraq heç

vaxt yaddan çıxmayacaq. Əlbəttə, Sultan Səlim bu sənətkarların sözlərindən çox qəzəblənmişdi. Çünki o, Qızılbaşlarla savaşda qələbəsini özünün şərəfi hesab edirdi. Bu sənətkarlar isə Sultan Səlimin qələbəsini türkü istəməyənlərin, uzaq Avropadan üzü bəri əsən küfrani-nemət küləklərinin qələbəsi hesab edirdilər və bunu açıq-aşkar Sultana deməkdən də çəkinməmişdilər. İndi şair Həbibi və Dirili Qurbani bu cəsarətlərinin əvəzi olaraq əsirlər siyahısına qatılmışdılar.

…Şah İsmayıl İsfahanda hadisələrin gedişi haqqında hər gün xəbər tuturdu.

…Amma hələ də hərarəti vardı. Təbiblər onun yanından geriyə çəkilmirdilər. Şah İsmayılın gözü gəzirdi Hüseyn bəy Lələ Şamlını, Məhəmməd xan Ustaclını, Durmuş xanı, Nurəli bəyi, Əbdi bəyi, qeyrilərini… ancaq onlar daha yox idilər. Çaldıran həm də onların adları ilə yaşayacaqdı.

Daha çox isə Taclı bəyimi görmək istəyirdi.

Taclı bəyim sanki qeybə çəkilmişdi. Kim bilir, bəlkə yollarda yarasının şiddətinə dözməyib tələf olmuşdu?.. Taclı bəyimdən soraq verən yox idi…

– Təbrizə qayıtmaq vaxtı çatmayıbmı? – Şah soruşdu.

Yanındakılar tərəddüd etdilər ona cavab verməyə. Çünki hələ də şahın qızdırması vardı. Onu hər gün təbiblər yoxlayır, yarasına məlhəm qoyur və ümidli sözlər deyirdilər. Yenə də təbiblər onun yanında idi. Baş təbib onun nəbzini yoxlayıb dilləndi:

– Qurban, nigaran qalma, yaran yaxşı sağalır.

– Mənim yaram sağalan deyil, təbib. – Şah dilləndi.

– Niyə qurban, bu yaradan sənə ölüm yoxdur.

– Yox, mənim daha dərin yaram var…

– Qəm yemə qurban, bu yara elə də dərin deyil, tez sağalar…

Şah təbibin gözlərinə baxdı. Onun inamlı baxışları şahı kövrəltdi, qəlbini xoş duyğular bürüdü. Ancaq bu xoş hisslərin də içindəki nisgili silib aparmağa gücü çatmadı. Yurd yarası, Tac-

lı dərdi sağalandımı? Bir sağına, bir də soluna baxdı. Gözlərini uzaqlara zillədi. Pıçıltıyla dediyini isə təbiblər anlamadı…

*Diyari-eşqə sultanəm, dila, mən də zəmanimdə,*
*Vəzirimdir qəmü qüssə, oturmuş iki yanimdə…*

Təbiblər daha heç nə demədilər. Ortada dərin bir sükut hökm sürürdü…

***Üçüncü kitabın sonu***

*25 May 2020,*
*Bakı şəhəri*

# *Epiloq*

## *Yuxu*

«Şah İsmayıl top arabasına minmişdi. Bu araba nəsə fərqli bir arabaydı. Avtomobil kimi öz-özünə hərəkət edirdi. Şah İsmayılın əlində yaşıl bir bayraq var idi. Bayrağın üzərində ancaq «i» və «s» hərfləri görünürdü…

– Bayraqdakı bu «i» və «s» nədir? Nəyə dəlalət edir?

– Bu hərflər islam sözünün ilk hərfləridir. Yəni islama dəlalət edir.

– Nə? Bəs bunun «lam»ı haradadır?

– «Lam»ı da Sultan Səlimin bayrağındadır.

– Bu nədən belə olub?

– Çünki bunlar islamı böldülər.

– Bunlardan əvvəl islam aləmində hökmdarlar yox idimi? Onlar islamı bölməmişdilərmi?!

– Onlar hökuməti bölmüşdülər. Yəni o zahiri bölünmə idi. İslamı mənən bölənlər bunlardır! Bunlar sünni – şiə ixtilafı yaratdılar…

– Görünür, sənin heç islamdan xəbərin yoxdur. Bunlardan əvvəl o qədər müxtəlif məzhəblər zühur etmişdi ki!.. Onların zühuru islamın mənən bölünməsi sayılmazmı?

– Əlbəttə sayılmaz! Çünki Sultan Səlim ilə Şah İsmayıla qədər nə səltənətlər məzhəb davasında və nə də məzhəblər belə əsaslı surətdə səltənət davasında olmamışdılar…

– Şah İsmayıl kimin övladıdır? Necə oldu ki, səltənətə nail oldu?

– Ərdəbildə zaviyənişin olmuş Şeyx Səfiəddin adlı seyidin nəvələrindəndir. Şeyx Səfiəddin imam Musayi-Kazimin nəslindəndir. Səfəviyyənin taxta sahiblənməsi sırf seyid olduqları üçün olmayıb, bunun bir neçə səbəbi vardır.

– Hansı səbəbləri?

– Əvvəla Şeyx Səfi fəzilət və kamalı, təqvası sayəsində əhlibeytə məhəbbətilə məşhur Teymurun fövqəladə hörmətini qazandı. Bu üzdən Səfəvinin qədr və etibarı getdikcə artdı…»

* * *

Orta əsrlərdə Osmanlı imperiyası Avropada at oynadırdı. Avropa qorxudan tir-tir əsirdi. Roma papalarının yuxusu ərşə çəkilmişdi. Səlib müharibələri uğursuzluğa düçar olurdu. Bəs, onda yuxuda gördüyü ikiyə bölünmüş bayraq nəyə işarə edirdi?

… Zaman öz hökmünü verdi, Osmanlı imperiyası çökdü…

Bəlkə, buna bais elə dili bir, dini bir iki qardaşdan birinin digərinə olan təkəbbürlü münasibəti olub…

Bəlkə də, elə bunun bir səbəbi Yavuz Sultan Səlimin Şeyx Səfi ocağına əl qaldırması idi?.. Axı Şeyx Səfi ocağı fəzilət ünvanı olub. Pirə, ocağa, birliyə əl qaldırmazdılar axı…

Elə bu da bir Tanrı cəzasıdır bəlkə…

Hüseynbala Mirələmov

İki Şah, İki Sultan

TRİLOGİYA

# ÇALDIRAN YOLU

*Üçüncü kitab*

Sultan Səlimin qəzəllərini dilimizə uyğunlaşdıran:
AZAD AĞAOĞLU

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Dizayn və tərtibat:
RAUF KƏRİMLİ

Yığılmağa verilmişdir: 20.02.2020. Çapa imzalanmışdır: 25.06.2020.
Ölçü: 60x90 1/32. Çap vərəqi: 21,5. Sifariş: 123/20. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az